

**“Biz bütün zirvələri qət edəcəyik. Elə zirvə yoxdur ki, onu biz qət edə bilməyək. Gəlin, bir yerdə deyək: “Azıx Azərbaycandır!”, “Qarabağ Azərbaycandır!”.”**

*İlham Əliyev*
*Azərbaycan Respublikasının Prezidenti*

# AZƏRBAYCAN PROKURORLUĞU

**Təsisçi:**
Azərbaycan Respublikasının
Baş Prokurorluğu

**REDAKSİYA HEYƏTİ**

**Baş redaktor:**
Heydər Məmmədov

**Baş redaktorun müavini:**
Mübariz Əhmədov

**Redaksiya heyətinin üzvləri:**
Elşən Abbasov
Natiq Hüseynov
Aynur Osmanova
Erkin Əlixanov
Elnur Musayev
Vüqar Əliyev
Anar Məmmədov
Şəfahət İmranov

**Məsul katib:**
Günay İsmayılova

**Redaksiyanın ünvanı:**

Bakı şəhəri, Binəqədi rayonu, Dərnəgül
yaşayış sahəsi, 21-ci Dağlıq küçəsi,
3105-ci məhəllə.

**Tel. / Faks:** 564 14 06
**www.genprosecutor.gov.az**

*Elmi-praktiki jurnalın 1-ci nömrəsi*

*Yanvar - Mart (2021-ci il)*

"Kütləvi informasiya vasitələri haqqında" Azərbaycan Respublikası Qanununa müvafiq qaydada təsis edilmişdir.

Jurnal 2003-cü ildən etibarən rübdə bir dəfə dövriliklə dərc edilir.

Azərbaycan Respublikası Baş prokurorunun 9 iyul 2020-ci il tarixli, 10/76 nömrəli əmri ilə "Azərbaycan Prokurorluğu" elmi-praktiki jurnalının redaksiya heyətinin yeni tərkibi təsdiq edilmişdir. "Azərbaycan Prokurorluğu" elmi-praktiki jurnalının fəaliyyəti üçün məsul qurum Baş Prokurorluğun Elm-Tədris Mərkəzidir.

Yazılardakı məlumatların doğruluğuna jurnalın redaksiya heyəti məsuliyyət daşımır.

Jurnalda dərc edilmiş məlumatlardan istifadə zamanı jurnala istinad etmək vacibdir.

Azərbaycan Respublikasının Baş prokuroru yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin mətbəəsində səhifələnmiş və çap edilmişdir.

Çapa imzalanmışdır: 19.04.2021
60x84 1/8 formatda 196 səhifə həcmdədir.
Tiraj: 770 nüsxə

© "Azərbaycan Prokurorluğu", 2021

# MÜNDƏRİCAT


**ÖLKƏDƏ**

**4** İlham Əliyev Füzuli rayonunda Füzuli-Şuşa yolunun və hava limanının təməlini qoyub, Şuşa şəhərində səfərdə olub
**17** İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Füzuli, Zəngilan, Laçın və Cəbrayıl rayonlarında olublar
**26** İlham Əliyev Bakının Ramana qəsəbəsindəki yaşayış kompleksində şəhid ailələri və müharibə əlillərinə mənzillərin təqdim olunması mərasimində iştirak edib
**34** İlham Əliyev yerli və xarici media nümayəndələri üçün mətbuat konfransı keçirib
**67** İlham Əliyev Füzuli və Xocavənd rayonlarında olub
**73** İlham Əliyev Şuşa şəhərində olub
**79** Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müraciəti

**BAŞ PROKURORLUQDA**

**82** Baş Prokurorluğun yeni inzibati bina kompleksinin istifadəyə verilməsi həmkarlarımız tərəfindən xidməti fəaliyyətlərinin daha çevik və səmərəli həyata keçirilməsinə, habelə vətəndaş məmnunluğunun daha dolğun təmin olunmasına xidmət edəcəkdir
**83** İlham Əliyev Baş Prokurorluğun yeni inzibati bina kompleksinin açılışında iştirak edib
**88** Azərbaycan və Rusiya prokurorluqları arasında əməkdaşlıq uğurla davam etdirilir
**90** Azərbaycan Respublikası Baş Prokurorluğunun rəhbərliyi və kollektivi 20 Yanvar faciəsinin 31-ci ildönümü ilə əlaqədar Şəhidlər xiyabanını ziyarət ediblər
**91** Azərbaycan Respublikasının Baş Prokurorluğunda 2020-ci ildə fəaliyyət istiqamətləri üzrə görülmüş işlərin vəziyyətinə həsr olunmuş Geniş Kollegiya iclası keçirilmişdir
**97** Baş prokuror tərəfindən hakim vəzifəsinə təyin edilmiş prokurorluq işçiləri ilə Baş Prokurorluqda görüş keçirilmişdir
**99** Baş Prokurorluğun yeni inzibati bina kompleksində mötəbər tədbir təşkil edilmişdir
**100** Baş prokuror Kamran Əliyevin rəhbərlik etdiyi nümayəndə heyəti Türkiyəyə rəsmi səfər etmişdir
**102** Azərbaycan Respublikasının Baş prokuroru Kamran Əliyevin rəhbərlik etdiyi nümayəndə heyətinin Türkiyə Respublikasına rəsmi səfəri çərçivəsində Türkiyə Ali Məhkəməsinin sədri Mehmet Akarca ilə görüş keçirilmişdir
**105** Türkiyə Respublikasının Prezidenti Azərbaycan Respublikası Baş prokurorunun rəhbərlik etdiyi nümayəndə heyətini qəbul etmişdir
**106** Kamran Əliyev: "Yeni mərhələdə Azərbaycan və Türkiyə prokurorluqları arasında münasibətlərin daha da intensivləşməsi üçün kifayət qədər əsaslar var"
**107** Azərbaycan Respublikasının Baş prokuroru yanında Elmi-Məsləhət Şurasının iclası keçirilmişdir
**112** Prokurorluq əməkdaşları üçün tikilmiş yaşayış binasının açılış mərasimi keçirilmişdir
**114** Azərbaycan Respublikası Baş Prokurorluğunun Kollegiya iclası keçirilmişdir
**116** Azərbaycan Respublikası Baş Prokurorluğunun Elm-Tədris Mərkəzi və Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin Tədris Mərkəzi arasında əməkdaşlığa dair memorandum imzanmışdır
**117** Azərbaycan Respublikası Baş Prokurorluğu və Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası arasında əməkdaşlığa dair memorandum imzalanmışdır
**119** Baş Prokurorluğun əməkdaşları seminarda iştirak etmişlər
**120** "Qabaqcıl beynəlxalq təcrübəyə və milli qanunvericiliyin tələblərinə uyğun olaraq ittiham nitqinin hazırlanması metodikası" adlı təqdimat keçirilmişdir
**120** Tabe rayon (şəhər) prokurorluqlarının müstəntiqləri üçün qısamüddətli kurslar təşkil edilmişdir
**121** Elm-Tədris Mərkəzində "Prokurorluğun Tədris Tədbirlərinin Elektron Bazası" informasiya sistemi yaradılmışdır
**122** Tam aşkarlıq şəraitində, şəffaf və obyektiv prosedurlar əsasında prokurorluğa işə qəbul müsabiqəsi uğurla davam etdirilir
**126** Azərbaycan Respublikasının Hərbi Prokurorluğunda kollegiya iclası keçirilmişdir
**131** Hərbi Prokurorluğun və aidiyyəti qurumların nümayəndələri Novruz bayramı ərəfəsində hərbi qulluqçularla görüşlər keçiriblər
**132** Naxçıvan Muxtar Respublikası Prokurorluğunda 2020-ci ildə görülən işlərin yekunları və qarşıda duran vəzifələrin müzakirəsinə həsr olunmuş kollegiya iclası keçirilmişdir
**134** Bakı şəhər prokurorluğunda əməliyyat müşavirəsi keçirilmişdir
**136** Mətbuat xidmətinin məlumatları

**BEYNƏLXALQ ƏLAQƏLƏR**

**140** Baş prokuror Kamran Əliyev Polşa Respublikasının ölkəmizdəki Fövqəladə və səlahiyyətli səfiri Rafal Poborski ilə görüşmüşdür
**141** Baş Prokurorluğun əməkdaşları Avropa İttifaqının TAİEX aləti çərçivəsində onlayn təlimdə iştirak etmişlər
**142** Baş Prokuroluğun əməkdaşları beynəlxalq onlayn təlimdə iştirak etmişlər
**142** Baş Prokurorluğun nümayəndələri beynəlxalq tədbirdə iştirak etmişlər

**PROKURORLUQ VƏ CƏMİYYƏT**

**143** Mürvət Həsənov – Cinayətlərin təkrarlığına dair bəzi məsələlər üzrə vahid istintaq və məhkəmə təcrübəsinin yaradılmasının zəruriliyi barədə
**149** Günay Əyyubova – Yaşamaq hüququnun elementi kimi tibbi səhlənkarlığa qarşı müdafiə hüququ: İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin standartları, milli qanunvericiliyin əsasları, təcrübə
**160** Rövşən Əliyev –Prokurorluq orqanlarında işin planlaşdırılması
**164** Firad Əliyev – Vətən sevgisinin təntənəsi
**168** Tural İbrahimov – Sübutların qiymətləndirilməsi və istintaq fərziyyələrinin qurulmasında daxili inamın rolu
**174** Günay Süleymanova – Milli və beynəlxalq müstəvidə gender bərabərliyinin təhlili: mövcüd çətinliklər və qarşıda duran vəzifələr
**181** Sergey Ulezko, Zahid Vəliyev – Ekoloji təhlükəsizlik Azərbaycan Respublikası və Rusiya Federasiyası Cinayət Məcəlləsinin 254-cü maddəsi nümunəsində cinayət-hüquqi müdafiə obyekti kimi

**İKİ HÜQUQŞÜNAS – İKİ FƏRQLİ HÜQUQİ MÖVQE**

**184** İbtidai araşdırma zamanı müdafiəçinin axtarış, şəxsi axtarış və götürmə istintaq hərəkətlərində iştirakının aktual problemləri

**PROKURORLUĞUN VETERANLARI**

**186** Prokurorluğun veteranı Mircavan Kazımovun "Azərbaycan Prokurorluğu" elmi-praktiki jurnalına müsahibəsi

**HÜQUQİ AKTLAR**

**191** Qanunvericiliyə dəyişikliklər

# İlham Əliyev Füzuli rayonunda Füzuli-Şuşa yolunun və hava limanının təməlini qoyub, Şuşa şəhərində səfərdə olub

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 14-də Əhmədbəyli-Füzuli-Şuşa avtomobil yolunun 27-ci kilometrində Füzuli-Şuşa yolunun, həmçinin Füzuli rayonunda hava limanının təməllərini qoyub.

Sonra Prezident İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyeva Azərbaycanın işğaldan azad edilən mədəniyyət paytaxtı Şuşa şəhərində olublar.





Füzuli-Şuşa yolunun yeni işlənmiş layihəsinə körpü və tunellərin inşası daxildir. Yəni, çətin relyefə malik olan ərazilərdə dolama yolların yerinə körpü və tunellərin tikintisi nəzərdə tutulur. Yeni yol Füzuli hava limanı ilə əlaqələndiriləcək və bu yoldan İsa bulağına yeni yol çəkiləcək.

Dövlətimizin başçısı və birinci xanım yolun təməlini qoydular.

**Prezident İlham Əliyev:** Füzuli-Şuşa yolunun təməlini qoyduq. İndi isə Füzuli hava limanının təməlini qoyacağıq və bu il hava limanının hər halda uçuş-enmə zolağı istifadəyə verilməlidir.

Sonra Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Füzuli rayonunda beynəlxalq hava limanının təməlini qoydular.

Uçuş-enmə zolağının uzunluğu 2800 metr olacaq hava limanı beynəlxalq standartlara uyğun infrastrukturla təchiz ediləcək. Burada təyyarələrin qəbulu və yola salınması, sərnişinlərin rahatlığı üçün hər cür şərait yaradılacaq.

**Prezident İlham Əliyev dedi:**

– Bu gün yanvarın 14-də Füzuli Beynəlxalq Hava Limanının təməli qoyuldu. Mən hava limanının tikintisi ilə bağlı Azərbaycan xalqına məlumat vermişdim. Bu, azad edilmiş bölgələrimizin inkişafı üçün çox önəmli bir layihədir. Füzuli Beynəlxalq Hava Limanı bu il istifadəyə verilməlidir. Hər halda uçuş-enmə zolağı bu il istifadəyə verilməlidir. Hava limanının binası isə ola bilər bu il, ola bilər gələn il istifadəyə veriləcək. Bu hava limanının əsas məqsədi xarici qonaqların Şuşaya gəlişini təmin etməkdir. Çünki buradan Şuşaya olan məsafə o qədər də böyük deyil. Nəzərə alsaq ki, bu gün Füzuli-Şuşa dördzolaqlı və bəzi yerlərdə altızolaqlı yeni avtomobil yolunun təməli qoyulub, xarici qonaqlar Füzuli

Şuşaya gedərkən avtomobili özü idarə edən **Prezident İlham Əliyev** dedi:

– Səhər tezdən yola çıxmışıq. İstiqamət Şuşa şəharidir.

Azad edilmiş torpaqlara keçirik. Şanlı Azərbaycan Ordusu bu istiqamətdən hücum edərək düşməni qova-qova torpaqlarımızdan çıxardı.

Füzuli rayonunun ermənilər tərəfindən dağıdılmış Qaraxanbəyli kəndi.

Beynəlxalq Hava Limanına gələrək, çox rahat və qısa müddət ərzində Şuşa şəhərinə gedə biləcəklər.

Şuşa şəhəri mənim tərəfimdən Azərbaycanın mədəniyyət paytaxtı elan edildi. Şuşa şəhərinin bərpası və tarixi simasının özünə qaytarılması istiqamətində işlərə start verildi. Bütövlükdə müharibədən cəmi iki ay vaxt keçib, ancaq böyük quruculuq işlərinə start verildi. Azad edilmiş torpaqlarımızda ikinci beynəlxalq hava limanı Kəlbəcər və ya Laçın rayonlarının ərazisində inşa ediləcək. İndi yer seçilir və beləliklə, iki beynəlxalq hava limanının tikintisi yaxın zamanlarda təmin edilməlidir.

Böyük qayıdış başlayır, bütün işlərə start verildi. Əminəm, necə ki, düşməni qısa müddət ərzində torpaqlarımızdan qovduq, - cəmi 44 gün ərzində, - bizim tarixi dədə-baba torpağımız olan Qarabağı da qısa müddətdə bərpa edəcəyik.

Qarabağ Azərbaycandır!

***

Daha sonra Prezident İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyeva Şuşa şəhərinə yola düşdülər.

**Prezident İlham Əliyev:** Füzuli Beynəlxalq Hava Limanının təməlini qoyduq. Bu il Füzuli Beynəlxalq Hava Limanı istifadəyə verilməlidir. Hər halda uçuş-enmə zolağı istifadəyə verilməlidir ki, bu ildən başlayaraq artıq vətəndaşlar, xarici vətəndaşlar və xaricdə yaşayan azərbaycanlılar Şuşaya təyyarə ilə rahat gələ bilsinlər. Bununla paralel olaraq, göstəriş verildi ki, Füzuli Beynəlxalq Hava Limanından beynəlxalq uçuşların təşkil edilməsi istiqamətində də işlərə başlanılsın. Eyni zamanda, Azərbaycanın digər şəhərlərindən - Lənkərandan, Naxçıvandan, Gəncədən buraya gəlib, Şuşaya rahat gedə bilərlər. İndi isə istiqamət Şuşa şəhəridir və yol boyunca əlavə məlumat veriləcəkdir.

Füzulidən Xocavənd rayonuna gedirik. Ondan sonra da Şuşa şəhərinə gedəcəyik. Qarşımızda gözəl mənzərə açılır, gözəl, vüqarlı dağlar, dağların başında qar, gözəl Azərbaycan diyarımızdayıq. Bu isə Şəkərcik kəndidir. Şəkərcik kəndi Füzuli şəhərinə bitişik olan kənddir. Füzuli şəhəri azad olunanda Şəkərcik uğrunda da şiddətli döyüşlər gedib. Baxın, düşmən işğal dövründə bütün bu əraziləri yerlə-yeksan edib. Biz artıq Füzuli şəhərində olmuşuq. O dəhşətli mənzərəni Azərbaycan xalqı görüb, bütün dünya görüb və görməlidir. Ona görə göstəriş verildi ki, xarici qonaqları Azərbaycana dəvət edib və bu bölgələrə gətirib, onlara erməni vəhşiliyi, əməlləri göstərilsin. Artıq bütün dünya görür ki, biz hansı vəhşi düşmənlə müharibə aparmışıq və hansı vəhşi düşməni məhv etmişik. Bu dağlar bizimdir.





Bura Xocavənd rayonunun Böyük Tağlar kəndinin ərazisidir. Baxın, bizim ölkəmiz necə də gözəldir. Bütün bu ərazini işğalçılardan qəhrəman Azərbaycan Ordusu azad edib.

Dövlətimizin başçısı, birinci xanım və qızları Leyla burada xatirə şəkli çəkdirdilər.

***

**Prezident İlham Əliyev:** Yolumuza davam edirik. Baxın, Günəş də çıxdı. Günəş də bizi salamlayır, yolumuzu işıqlandırır. Biz gedirik Şuşaya, azad edilmiş Şuşaya. Bu yolun tikintisi aparılır. Əminəm ki, ölkəmizin ən gözəl yollarından biri olacaq. Təbii ki, ən yüksək keyfiyyətlə tikiləcək. Eyni zamanda, mənzərəli yoldur, tarixi yoldur, Qələbəyə aparan yoldur.

Bu yol heç vaxt olmayıb. Qəhrəman hərbçilərimiz bu ərazilərdən keçib. Biz isə cəmi iki ay ərzində bu yolu açmışıq. Sonra, əlbəttə ki, yol genişləndiriləcək və asfalt döşənəcək. Azərbaycan vətəndaşları Şuşaya rahat gedəcəklər.





Sonra Prezident İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyeva Şuşa şəhərinə gəldilər.

Azərbaycan Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyev Şuşa şəhərində üçrəngli bayrağımızı ucaltdı.

Dövlətimizin başçısı hərbçilərlə görüşdü və çıxış etdi.

**Prezident İlham Əliyevin çıxışı**

– Əziz hərbçilər, noyabrın 8-i xalqımızın tarixində əbədi qalacaq. Noyabrın 8-də qədim Şuşa şəhərimizi düşməndən azad edərək Azərbaycan parlaq qələbə qazandı. Şuşanın işğaldan azad edilməsi böyük qəhrəmanlıq, peşəkarlıq, milli ruh tələb edirdi. Azərbaycan hərbçiləri bütün bu ülvi xüsusiyyətləri nümayiş etdirmişdir.

Mən Şuşaya Qələbə yolu ilə gəlmişəm. O yol indi açılıbdır, yol yox idi. Dağlardan, meşələrdən, dərələrdən keçərək, onlarla kilometr məsafəni qət edərək qəhrəman Azərbaycan hərbçiləri yol boyunca kəndləri, qəsəbələri düşməndən azad edib, Şuşa şəhərinə yaxınlaşıb, Daşaltı kəndini azad edib və ondan sonra Şuşanı işğalçılardan azad edib.

Əminəm ki, Şuşa əməliyyatı aparıcı beynəlxalq hərbi məktəblərin dərsliklərinə salınacaqdır. Artıq məndə məlumat var ki, inkişaf etmiş bir çox ölkələrin mütəxəssisləri 44 günlük Vətən müharibəsinin hər bir gününü təhlil edirlər. Çünki 44 günlük müharibənin hər bir günü qələbə, zəfər günüdür. Şuşanın işğaldan azad edilməsi düşmənə vurulan ən böyük zərbə idi. Çünki düşmən hesab edirdi ki, Şuşanı azad etmək mümkün deyil və yaqin ki, müəyyən dərəcədə haqlı idi. Çünki Pənahəli xan bu şəhəri elə salmışdır ki, hər tərəfdən sıldırım qayalar və təbii landşaft Şuşanı mühafizə edir. 1992-ci ilin mayında o vaxtkı Azərbaycan rəhbərliyinin və hakimiyyət uğrunda mübarizə aparan AXC-Müsavat cütlüyünün xəyanəti nəticəsində Şuşa işğal altına düşdü. O vaxt ermənilər öz dırnaqarası əməliyyatına bir ad vermişdilər – dağlarda toy. Halbuki heç əməliyyat da keçirilməmişdi. Şuşa şəhəri boşaldılmışdı. O vaxtkı müdafiə naziri demişdi ki, Şuşa əldən getsə, başıma güllə çaxacağam, qorxaqcasına Şuşadan qaçmışdı. Ondan sonra isə ermənilər guya bu əməliyyat haqqında əfsanələr uydurmuşdular – dağlarda toy. İndi biz onlara elə toy tutmuşuq ki, onlar bu dərsi əbədi yadda saxlayacaqlar. Qəhrəman Azərbaycan övladları mükəmməl hərbi əməliyyat keçirərək cəsarət, rəşadət, qəhrəmanlıq, güc, milli ruh nümayiş etdirərək Şuşanı işğalçılardan azad etmişlər və uzun fasilədən sonra noyabrın 8-də Şuşada Azərbaycan bayrağı qaldırılmışdır.

Bakıda möhtəşəm Dövlət Bayrağı Meydanı açılanda mən çıxış edərkən demişdim ki, gün gələcək və Azərbaycan bayrağı işğal edilmiş torpaqlarda, o cümlədən Şuşada qaldırılacaqdır. Bax, bu gün gəldi. Xatırlayıram, erməni separatçı rejiminin bəzi dırnaqarası nümayəndələri o vaxt demişdilər ki, ancaq bir halda Azərbaycan bayrağı Şuşada qaldırıla bilər, o da əgər Azərbaycan “Dağlıq Qarabağ respublikası”nı tanısa və Azərbaycan Dağlıq Qarabağda öz səfirliyini açsa. Görün, nə qədər iyrənc, nə qədər təkəbbürlü ifadələr işlədilib. İndi siçan kimi oturublar, dillərini qoyublar qarınlarına. Bir kəlmə də söz deyə bilmirlər. Biz buraya qalib kimi gəlmişik, bayrağı da qaldırmışıq, azad edilmiş bütün torpaqlarda Azərbaycan bayrağı dalğalanır. Döyüşə-döyüşə gəlmişik. Heç kim bu torpaqları bizə elə-belə verməyib. Heç bir danışıqlar heç bir əhəmiyyətə malik deyildi. Biz gördük ki, ancaq öz gücümüzlə öz torpaqlarımızı azad etməliyik və bunu etdik. Bütün dünyaya gücümüzü sübut etdik, göstərdik, düşmənin başını əzdik. Düşməni məcbur



etdik ki, qabağımızda diz çöksün, kapitulyasiya aktına imza atsın. Belə də oldu və alçaldıcı kapitulyasiya aktı tarixdə əbədi qalacaq. Bütün dünya bizim Qələbəmizdən danışır. Bütün dünyanın aparıcı media orqanları Azərbaycanın parlaq qələbəsi haqqında yazırlar, reportajlar hazırlayırlar. İndi analitik məqalələr dərc edilir, kitablar da yazılacaq.

Bizim şanlı Ordumuzun 44 günlük müharibəsi XXI əsrin müharibəsidir. Biz bu müharibəyə hazırlaşırdıq və bunu gizlətmirdik. Mən dəfələrlə demişdim ki, o cümlədən hərbçilərlə görüşlərimdə, çoxsaylı görüşlərimdə, əgər düşmən torpaqlarımızdan öz xoşu ilə çıxmasa, məcbur edəcəyik onları, qovacağıq torpaqlarımızdan, güc amili öz rolunu oynayacaqdır və belə də oldu, 44 günlük müharibənin hər bir günü zəfər günü idi. Hər gün biz qabağa gedirdik. Bir gün belə geri addım atmadıq. Bu, müharibələrdə çox nadir hallarda müşahidə edilən bir mənzərədir. Müharibələrdə hücumlar olur, geriyə çəkilmə olur, manevrlər olur, biz isə hər gün qabağa gedirdik. Hər həftə onlarla yaşayış məntəqəsini işğalçılardan azad edirdik. Nəticədə düşmənə sarsıdıcı zərbələr endirərək 300-dən çox yaşayış məntəqəsini və Şuşanı azad etdik. Onları məcbur etdik və cəmi 20 gün ərzində Ağdam, Laçın və Kəlbəcər rayonlarından qoşunlarını çıxardılar, rədd oldular bizim torpaqlarımızdan və biz qayıtmışıq. Müharibə başlayan gündən mən deyirdim ki, rədd olun bizim torpağımızdan, dərhal öhdəlik götürün. Özü də demişdim ki, bu öhdəliyi Ermənistan rəhbərliyi götürməlidir, deməlidir, tarix verməlidir ki, filan tarixdə mən torpaqlardan çıxıram, mən də müharibəni dayandırıram. Əks-təqdirdə, sona qədər gedəcəyik. Bütün təzyiqlərə, bütün telefon zənglərinə, bütün təhdidlərə baxmayaraq, dedim ki, sona qədər gedəcəyik, düşməni torpaqlarımızdan qovacağıq. Etdik də, getdik də, qovduq da və düşmən məcbur olub noyabrın 10-da kapitulyasiya aktını imzaladı və beləliklə müharibəyə son qoyuldu.

Bu müharibə bizim tariximizdə əbədi yaşayacaq. Bu müharibəni biz şəhidlərimizin canı, qanı bahasına, hərbçilərimizin şücaəti hesabına qazanmışıq. Allah bütün şəhidlərimizə rəhmət eləsin! Allah onların yaxınlarına səbir versin! Bütün şəhid ailələri dövlət tərəfindən qayğı ilə əhatə olunub. Bütün şəhid ailələrinə dövlət tərəfindən mənzillər, evlər veriləcəkdir. Artıq bu ildən başlayaraq göstəriş verildi. Şəhid ailələri üçün müavinət 300 manatdan 500 manata qaldırıldı və daim o ailələr diqqət mərkəzində olacaqlar. Birinci Qarabağ müharibəsində həlak olmuş 9 min şəhidin ailəsinə dövlət artıq mənzillər, evlər vermişdir. Yaralı hərbçilərimiz dövlət tərəfindən qayğı ilə əhatə olunub. Əlil olmuş hərbçilərin reabilitasiyası, onların müasir protezlərlə təmin edilməsi məsələsi öz həllini tapacaq. Müharibədə qəhrəmanlıq göstərmiş minlərlə hərbçi mənim tərəfimdən yüksək orden və medallarla təltif edilib. “Vətən Müharibəsi Ordeni” Azərbaycanın ən ali hərbi ordenidir. “Zəfər” ordeni, “Qarabağ” ordeni. Bütün bu ordenlərin adlarını mən özüm təklif etmişəm. Qəsəbələrimizin, şəhərlərimizin azad edilməsi işində fərqlənmiş hərbçilərə o rayonların adlarını daşıyan medallar verilib. Ordumuz Şuşaya qədər qələbə yolu ilə, uğurla gedərək Cəbrayıl, Füzuli, Xocavənd rayonlarını, Suqovuşan, Hadrut qəsəbələrini, Murovdağ silsiləsini, Laçın rayonunun cənub hissəsini, Qubadlı, Zəngilan rayonlarını azad edib və noyabrın 8-də Şuşa şəhərini azad edib. Noyabrın 9-da düşmən təslim olub, ağ bayraq qaldırıb, diz çöküb və öz məğlubiyyətini etiraf edib.

Biz qalib xalqıq. Mən Şuşaya son dəfə 39 il bundan əvvəl gəlmişəm. 39 il bundan əvvəl iki dəfə gəlmişəm və birinci dəfə yanvarın 14-də gəlmişəm. Bax, bu gün, yanvarın 14-də yenə də buradayıq. Bu dəfə müzəffər Azərbaycan Ordusunun, qalib Azərbaycan Ordusunun Ali Baş Komandanı kimi gəlmişəm. Düşmənin belini qıran Ordunun Ali Baş Komandanı kimi gəlmişəm və burada müqəddəs bayrağın altında, qəhrəman hərbçilərin önündə deyirəm ki, biz bu torpaqlarda əbədi yaşayacağıq! Biz Şuşanı və dağıdılmış bütün başqa şəhər və kəndlərimizi bərpa edəcəyik. Dağıdılmış bütün tarixi abidələrimizi bərpa edəcəyik. Ermənistan saxtakarlıq edərək bütün dünyaya Şuşa haqqında uydurmalar çatdırırdı ki, guya Şuşa onların qədim şəhəridir. Pənahəli xanın saldığı şəhər necə erməni şəhəri ola bilər?! Axı, bu, yaxın tarixin işidir, hadisələridir. Əgər onlar bu şəhəri öz şəhəri hesab edirdilərsə, nə üçün belə bərbad vəziyyətə qoydular, nə üçün bütün binaları dağıtdılar? Görün, nə gündədir bu şəhər?! Daş üstə daş qalmayıb 30 il ərzində, ancaq özləri üçün villalar tikdiriblər, özləri üçün şərait yaradıblar.

Biz bu şəhəri bərpa edəcəyik. Mənim göstərişimlə böyük bir qrup ezam edildi, bütün təhlil aparıldı. Dünən mənə ilk dəfə olaraq məruzə edildi, artıq müvafiq göstərişlər verilibdir. Yaxın zamanlarda biz Şuşanın bərpasını planlı şəkildə təmin edəcəyik. Əlbəttə ki, bundan sonra biz Şuşanı göz bəbəyi kimi qorumalıyıq. Bizim hərbçilərimiz, bizim qəhrəman övladlarımız Şuşanı qoruyacaqlar ki, düşmən heç bu tərəfə baxmağa özündə cəsarət tapmasın. Mən demişəm ki, əgər kimsə Ermənistanda revanş haqqında düşünürsə, o, bizim dəmir yumruğumuzu bir daha görəcək. Bu dəmir yumruq onların belini qırdı, onların başını əzdi. Əgər bizə qarşı hər hansı bir təxribat törədilərsə, cavabımız çox sərt olacaq, çox peşman olacaqlar və yenə də acı məğlubiyyətlə üzləşəcəklər. Heç kim bizim qabağımızda dura bilməz. Bundan sonra həmişə belə olacaq. Azərbaycan Ordusu, xüsusi təyinatlılar, bizim qəhrəman övladlarımız, hərbi birləşmələrin döyüşçüləri Şuşanı və azad edilmiş bütün torpaqları göz bəbəyi kimi qorumalıdırlar ki, düşmən bir daha belə cəhd etməsin. Cəhd edərsə, axırı lap pis olacaq.

Noyabrın 8-də Şəhidlər xiyabanında Azərbaycan xalqına Şuşanın azad edilməsi müjdəsini verərkən çıxışımın sonunda demişdim: Əziz Şuşa, sən azadsan! Əziz Şuşa, biz qayıtmışıq! Əziz Şuşa, biz səni dirçəldəcəyik! Bu gün eyni sözləri təkrarlayıram. Şuşa bizimdir! Qarabağ Azərbaycandır!

***





Hərbçilərlə xatirə şəkli çəkdirildi.

Prezident İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyeva Şuşa şəhərindəki Saatlı məscidini ziyarət etdilər.

Dövlətimizin başçısı məscidə "Qurani-Şərif" hədiyyə etdi.

Prezident İlham Əliyev dedi:

– Saatlı məscidini ziyarət etdik, dualarımızı etdik, Məkkədən gətirilmiş "Qurani-Şərif"i Saatlı məscidinə hədiyyə etdim. Sonra Aşağı Gövhərağa, Yuxarı Gövhərağa məscidlərində olacağıq. Oraya da müqəddəs Məkkədən gətirdiyim "Qurani-Şərif"i bağışlayacağam. Düşmən bizim azad edilmiş torpaqlardakı dini abidələrimizi işğal dövründə məhv edib, 67 məscidi dağıdıb, yaxud da ki, belə yararsız vəziyyətə salıb. Şuşa işğaldan azad olunandan sonra bizim vətəndaşlar əl gəzdirib, məscidi təmizləyib və müəyyən təmir işlərini görüblər. Ancaq, əlbəttə ki, məscidin əsaslı təmiri bundan sonra aparılacaq, bütün müvafiq göstərişlər verilib, Heydər Əliyev Fondu bu missiyanı öz üzərinə götürüb. Mehriban xanım bu barədə açıqlama verib və biz bütün tarixi-dini abidələrimizi bərpa edəcəyik.

Bildirməliyəm ki, ziyarət etdiyim Ağdam Cümə məscidinin əsaslı təmiri və bərpası işlərinə start verildi. Artıq mütəxəssislər oraya ezam edildi və yaxın zamanlarda təmirlə bağlı təkliflər veriləcək. Eyni zamanda, Şuşa şəhərinin məscidləri də bərpa ediləcək. Minarənin dağıdılması düşmənin islamofob xislətini göstərir. Ermənistan daim çalışır ki, müsəlman ölkələri ilə münasibətlər qursun, bəzi ölkələrlə münasibətləri inkişaf etdirsin, özünü sanki müsəlman xalqlarına müsbət münasibət bəsləyən bir ölkə kimi qələmə versin. Hamısı yalandır. Əgər buna kimsə bu günə qədər inanıbsa, gəlsin Şuşaya, Ağdama, Füzuliyə, Cəbrayıla, bizim azad edilmiş digər torpaqlara, görsün ki, Ermənistan rəhbərliyi nə günə salıb müsəlman məscidlərini. Hər bir müsəlman üçün müqəddəs olan məbədlərimizi nə günə salıb. Dağıdıb, təhqir edib, donuz saxlayıb, inək saxlayıb, məscidlərimizin üzərində təhqiramiz ifadələr yazdırıb. Belə bir ölkə müsəlman

ölkələri ilə dost ola bilərmi? Əlbəttə ki, yox. Mən bunu dəfələrlə bütün beynəlxalq kürsülərdən bəyan edirdim, müsəlman ölkələrinin liderlərinə müraciət edərək həm ikitərəfli formatda, həm çoxtərəfli görüşlər əsnasında, beynəlxalq tədbirlərdə deyirdim ki, Ermənistan müsəlman ölkələri üçün dost ola bilməz, məscidləri bu günə qoyan ölkə müsəlman ölkələri ilə dost ola bilməz. Bu, riyakarlıqdır və Ermənistanı dost ölkə kimi qəbul etmək də riyakarlıqdır, Allahsızlıqdır. Bunu dağıdanla müsəlman ölkələrinin liderləri necə dost ola bilərlər? Cavab versinlər buna. Mənə yox, öz xalqlarına cavab versinlər. Məscidləri dağıdan, oraya inək salan müsəlman ölkələri ilə dost ola bilər? Qoy, onların xalqları buna cavab versinlər.







Biz bütün dinlərin məbədlərini qoruyuruq və qoruyacağıq. Heç kimdə şübhə olmasın. Artıq bunu müstəqillik tarixi də göstərib, müstəqillikdən əvvəlki tarix də göstərib. Bütün dinlərin abidələri bizdə qorunur – kilsələr, sinaqoqlar, o cümlədən erməni kilsəsi Bakının mərkəzində dövlət tərəfindən qorunur, təmir edilib. Onlar nə ediblər? Mən Zəngilanda olarkən dağıdılmış, divarları qalmış məscidin önündəki çıxışımda Azərbaycan xalqına müraciət edərək dedim onlar nə ediblər, beynəlxalq təşkilatlara müraciət edərək dedim ki, gəlin baxın, hesabatı burada hazırlayın, öz kabinetlərinizdə yox. Ermənistan rəhbərliyinin və onun havadarlarının yalan məlumatlarına inanmayın, gəlin, öz gözlərinizlə baxın nə günə salıblar bizim məscidlərimizi. Sadəcə olaraq, onlar görüntü yaratmaq üçün Yuxarı Gövhərağa məscidini guya bir xarici şirkətlə birlikdə təmir etdiriblər. Bu təmir bizə lazım deyil. Bu təmir riyakarlıq rəmzidir, sadəcə olaraq, görüntü yaratmaqdır ki, guya Ermənistan rəhbərliyi məscidləri təmir etdirir. Əfsuslar olsun ki, bir ölkənin şirkəti bu çirkin əməllərdə onlarla şərik olub. Əlbəttə ki, Yuxarı Gövhərağa məscidinin təmiri qəbuledilməzdir. Çünki bizim icazəmiz olmadan, qanunsuz olaraq torpaqlarımıza gəlib, orada aylarla oturub, Ermənistanın kriminal xunta rejimi ilə əlbir olub bu məscidi guya təmir ediblər. Bizə belə təmir lazım deyil və heç kimi aldatmasın, heç kim bu yalana uymasın. Biz bütün məscidlərimizi yenidən təmir etdirəcəyik, yenidən bərpa edəcəyik və bütün dünya görməlidir ki, mənfur düşmən bizim müqəddəs məbədlərimizi nə günə salıb.

Şuşa işğaldan azad olunandan sonra şəhərin, bütün tarixi binaların bərpa edilməsi prosesinə start verilib. Şuşanı erməniləşdirmə cəhdlərinə son qoyulub. Otuz il onlar çalışırdılar ki, Şuşanı erməniləşdirsinlər, nail ola bilmədilər. Bu, onlar üçün yad şəhərdir, öz şəhəri saysaydılar, bu günə qoymazdılar. Şuşanın əsl sahibləri qayıdıb, biz qayıtmışıq. Şuşa bizimdir! Qarabağ Azərbaycandır!







***

Ermənistanın Azərbaycan torpaqlarını, o cümlədən Şuşanı işğal etməsi nəticəsində tarixi, mədəni abidələrimiz dağıdılıb, ev muzeyləri qarət edilib. Onların arasında Xurşidbanu Natəvanın, Üzeyir Hacıbəylinin, Bülbülün Şuşadakı büstləri də var. Güllələnmiş bu büstlər erməni vandalizminin şahidləridir. Prezident İlham Əliyev çıxışlarının birində demişdi ki, ərazi bütövlüyümüz bərpa ediləndən sonra Bülbülün, Natəvanın, Üzeyir Hacıbəylinin büstləri yenə də Şuşada qoyulacaq. Dövlətimizin başçısının bu sözləri artıq reallığa çevrilib. Həmin dahi şəxsiyyətlərin büstləri Şuşada yenidən əvvəlki yerlərinə qoyulub.

Bununla bağlı keçirilən tədbirdə çıxış edən Prezident İlham Əliyev dedi:

– Bu gün Şuşaya gələrkən 30 ilə yaxın Bakıda İncəsənət Muzeyinin həyətində saxlanılan dahi şəxsiyyətlərimizin – Xurşidbanu Natəvanın, Üzeyir Hacıbəylinin və Bülbülün büstlərini gətirmişəm. Bu yerdə Mədəniyyət Evi yerləşirdi və Üzeyir bəyin, Bülbülün büstləri məhz bu yerdə qoyulmuşdu. Mənfur düşmən Şuşa Mədəniyyət Evini dağıdıb və dahi şəxsiyyətlərimizin büstlərini güllələbaran edib.

Xurşidbanu Natəvanın büstünü Heydər Əliyev özü şəxsən açmışdır, 1982-ci ilin yay aylarında. Mən də o vaxt atamla birlikdə burada idim. Bax, buradan bir qədər aralı bir yerdə Xurşidbanu Natəvanın büstü qoyulmuşdu. Ermənilər dahi şəxsiyyətlərimizin büstlərini təhqir edəndən sonra onları əridib satmaq, pul əldə etmək üçün Ermənistana aparmışdılar. Görün nə qədər alçaq keyfiyyətli insan olmalısan ki, tarixi şəxsiyyətlərin xatirə büstlərini güllə ilə vurasan, təhqir edəsən, sonra aparıb bunu əritmək istəyəsən. O vaxt Polad Bülbüloğlu bundan xəbər tutmuş və ulu öndər Heydər Əliyevə müraciət etmişdi. Görülmüş tədbirlər nəticəsində bu büstlər ermənilərdən alındı. Onu da açıq deməliyəm, pulla alındı. Satdılar onlar. Necə ki, hər şeyi satıblar ömrü boyu. Büstləri də biz pulla almışıq. O vaxt gətizdirdik və onlar İncəsənət Muzeyinin həyətində yerləşdirildi.

Sonra müxtəlif vaxtlarda bəzi insanlar mənə müraciət etmişdilər ki, bəlkə bu büstləri Bakının hər hansı bir yerində qoyaq, orada olsun. Dedim ki, yox. Onları biz ancaq Şuşanı düşməndən azad edəndən sonra gətirib öz yerlərində qoyacağıq və öz yerlərində də qoyduq.

Dahi şəxsiyyətlərimizin büstləri bizim Qələbəmizin rəmzidir. Onların ruhu şaddır. Onlar doğma Vətənə qayıdıblar. Biz qaytarmışıq onları, düşməni qova-qova, düşməni məhv edərək, torpaqlarımızdan rədd edərək, Şuşanı geri alaraq, azad edərək qaytarmışıq.

Burada duracaq, Şuşaya gələn hər bir insan yaxından görəcək erməni vəhşiliyini.

Tarixi ədalət bərpa olunur. Biz tarixi ədaləti bərpa edirik - güc hesabına, əzm, iradə hesabına, cəsarət, mətanət hesabına, milli ruh hesabına! Natəvan, Üzeyir bəy, Bülbül milli ruhumuzun təcəssümüdür. Onların əziz xatirəsi bizim qəlbimizdə əbədi yaşayıb və əbədi yaşayacaqdır. Qarabağ Azərbaycandır!

***

Prezident İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyeva keçmiş Şuşa Rayon Partiya Komitəsinin binasında oldular.

**Prezident İlham Əliyev:** Mənfur düşmən burada özü üçün "meriya" adlı bir qurum yaratmışdı. Bu, Şuşa şəhərinin xunta başçısının qəbul otağı olub. Bu da keçmiş, batmış, gorbagor olmuş qondarma "Dağlıq Qarabağ respublikası"nın "Şuşi" şəhərinin "icra başçısı"nın otağı idi. "Şuşi" yox, Şuşa. Unutmasınlar, dəmir yumruq yerindədir. Bu otaqda isə quldurlar istirahət ediblər. Bu da onların kitablarıdır, baxın. Bunların yeri zibilxanadır. Hamısı muzey eksponatları olacaq. Kondisioneri söküb aparıblar. Şuşadan qaçanda o qaça-qaçda vaxt tapıb kondisioneri də aparıb oğrular. Buradan meydana mənzərə açılır. Sınmış şüşələr, eyni zamanda, büstlər də buradan görünür.





***

Ermənilər Şuşanı tərk edərkən inzibati binalarda da kütləvi oğurluq və talançılığa yol veriblər. Məsələn, bu binadakı bütün kondisionerlər və istilik sistemi avadanlıqlarını söküb aparıblar. Bu, şübhəsiz ki, acgözlüyün, amma həm də oğru xislətinin təzahürüdür. Bu, həm də 30 illik işğal dövründə Azərbaycan xalqının mədəniyyətini vandalizmə məruz qoyanların rəzil aqibətinin göstəricisidir.

***

Dövlətimizin başçısı, birinci xanım və qızları Leyla Natəvan bulağı ilə tanış oldular.

**Prezident İlham Əliyev:** 1982-ci ildə atamla birlikdə burada idik, Natəvan bulağının önündə. 39 ildən sonra müzəffər ordunun Ali Baş Komandanı kimi qayıtmışam. Şuşa yenə bizimdir! Şuşa yenə Azərbaycandır!

Dövlətimizin başçısı Şuşa şəhərinin su və elektrik enerjisi təchizatı ilə maraqlandı.

Bildirildi ki, indi şəhər su ilə də, işıqla da normal şəkildə təchiz olunur.

Prezident İlham Əliyev sovet dövründə uşaq sanatoriyası kimi fəaliyyət göstərən, işğaldan sonra ermənilər tərəfindən dağıdılan Natəvan sarayının xan qızının evi kimi bərpa ediləcəyini bildirdi.

Dövlətimizin başçısı və ailə üzləri Natəvan sarayının önündə xatirə şəkli çəkdirdilər.

***

Prezident İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyeva Bülbülün dağıdılmış ev-muzeyinə də baxdılar.

Bülbülün dağıdılmış büstünü göstərən Prezident İlham Əliyev dedi:

– Ermənilərin növbəti vandallığı, növbəti düşmənçiliyi. Görün, dahi Bülbülün büstünü, evini nə günə qoyublar. Cavabını artıqlaması ilə alıblar. Biz onların cavabını döyüş meydanında verdik, bütün şəhidlərimizin qisasını aldıq, onların qanları yerdə qalmadı. Xocalı soyqırımını, mədəni soyqırımı törədən mənfur düşmən döyüş meydanında məğlub oldu, məhv oldu. Əminəm ki, Polad gəlib atasının evini bərpa edəcəkdir.

Dövlətimizin başçısı, birinci xanım və qızları Leyla Aşağı Gövhərağa və Yuxarı Gövhərağa məscidlərini də ziyarət etdilər.

Prezident İlham Əliyev bu məscidlərə də "Qurani-Şərif" bağışladı.

***

Sonra Prezident İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyeva Şuşadakı Qazançı kilsəsində oldular.

***

Şuşa şəhərində erməni vandalizminə məruz qalan abidələrdən biri də XVIII əsrdə yaşamış Azərbaycan şairi və ictimai-siyasi xadim, Qarabağ xanının vəziri olmuş Molla Pənah Vaqifin muzey-məqbərə kompleksidir. Ümummilli lider Heydər Əliyevin iştirakı ilə 1982-ci ildə Molla Pənah Vaqifin muzey-məqbərə kompleksinin açılışı olub.



Şuşa şəhərinin məşhur yerində - Cıdır düzünə yaxın bir ərazidə böyük şairin məzarı üstündə inşa edilən məqbərə dördkünc quruluşa malikdir və mərmərlə bəzədilmişdi. Burada Vaqifin Şuşa həyatını əks etdirən dövrə aid səksənə yaxın eksponat da sərgilənirdi. 1992-ci ilin may ayında Ermənistan silahlı qüvvələri tərəfindən Şuşa şəhərinin işğal edilməsi nəticəsində kompleksin binası və burada sərgilənən eksponatlar məhv edilib.

Prezident İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyeva vaxtilə Molla Pənah Vaqifin büstünün olduğu yerə gəldilər.

Prezident İlham Əliyev: Bu da tarixi şəkildir. Heydər Əliyev Vaqifin büstünün önündə. Şəkildə məscidin minarələri də görünür. Vaqifin büstü ermənilər tərəfindən dağıdılıb. Onun yerində belə bir eybəcər dükan tikiblər. Bu, erməni vandalizminin növbəti təzahürüdür, növbəti cinayətdir.



Dövlətimizin başçısı və ailə üzvləri Vaqifin dağıdılmış məqbərəsinə baxdılar.

Məqbərənin qarşısında çıxış edən Prezident İlham Əliyev dedi:

– Ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə inşa edilmiş Molla Pənah Vaqifin məqbərəsinin düz 39 il bundan əvvəl - 1982-ci il yanvarın 14-də açılışı olmuşdur. Bu tarixi gün mənim yadımdadır. Çünki o vaxt atamla bərabər, bax, bu yerdə mən də durmuşdum. Bu, tarixi videokadrlar da var. Çox şaxtalı, qarlı bir hava idi. Möhkəm qar yağırdı. Amma buna baxmayaraq, bu tədbirə yığışmış insanlar, Azərbaycan ziyalıları heç o soyuğu hiss





etmirdilər. Çünki Qarabağ xanının vəziri olan Molla Pənah Vaqifin möhtəşəm məqbərəsi açılırdı. Bu təşəbbüsü ulu öndər Heydər Əliyev irəli sürmüşdü, onun rəhbərliyi ilə inşaat işləri aparılmışdı və gözəl, əzəmətli məqbərə ucaldılmışdı.



Xanın vəziri olan insanın şərəfinə o vaxt - sovet dövründə məqbərə ucaltmaq qeyri-adi bir hadisə idi. İndi buna hər kəs təbii hadisə kimi baxa bilər, amma o vaxt - sosializm dövründə xanın vəzirinin şərəfinə məqbərə ucaltmaq doğrudan da fövqəladə bir hadisə idi. Məhz Heydər Əliyevin təkidi və cəsarəti nəticəsində o vaxt Azərbaycan buna nail ola bildi və bu yer də təsadüfən seçilmədi. Molla Pənah Vaqifin qəbri buradadır. Bu məqbərənin yaradılması və açılışı bir tərəfdən Azərbaycan Respublikasının öz tarixinə, Azərbaycan xalqının öz dahi şəxsiyyətlərinə olan hörmətin əlaməti idi. Digər tərəfdən bu məqbərənin Şuşada açılması bir daha təsdiq edirdi ki, Şuşa Azərbaycan şəhəridir.

Dağlıq Qarabağ Muxtar Vilayəti yaradılanda Şuşanı bu vilayətin tərkibinə salmaqla güdülən məqsəd də aydın idi ki, yavaş-yavaş, tədricən burada Azərbaycan izi silinsin, bu ərazi erməniləşdirilsin və azərbaycanlılar öz respublikasının bu ərazisində azlıq təşkil etsinlər. Məqsəd bu idi. Ulu öndər Heydər Əliyevin dövründə - 1969-1982-ci illərdə onun səyləri nəticəsində, siyasəti nəticəsində, o cümlədən Yevlaxdan, Ağdamdan Xankəndiyə dəmir yolunun çəkilişi, Dağlıq Qarabağda müəssisələrin yaradılması və bu müəssisələrə Azərbaycanın müxtəlif yerlərindən mütəxəssislərin gəlməsi burada milli tərkibin Azərbaycan xalqının xeyrinə xeyli dəyişmişdi və 1982-ci ildə azərbaycanlılar Dağlıq Qarabağ Muxtar Vilayətində əhalinin 25 faizini təşkil edirdi. Əgər o vaxt Heydər Əliyev Azərbaycanda qalsaydı, növbəti 10 il ərzində Dağlıq Qarabağ Muxtar Vilayətində azərbaycanlılar əksəriyyət təşkil edəcəkdilər və beləliklə, heç vaxt burada hər hansı bir münaqişə, yaxud da ki, separatizm meydana çıxa bilməzdi, separatizm baş qaldıra bilməzdi.

Ulu Öndərin uzaqgörənliyi, doğma xalqına bağlılığı, doğma ədəbiyyatına, mədəniyyətinə olan sevgisi, bax, bu məqbərənin tikintisində özünü göstərib. Bir daha demək istəyirəm ki, sovet rəsmi ideologiyasında xanlıqlar antimilli qurum kimi qələmə verilirdi, xanlar ictimaiyyətə düşmən kimi təqdim edilirdi. Sovet dövlətinin rəsmi ideologiyası elə idi ki, sanki Azərbaycan ərazisində mövcud olan xanlıqlar insanları yalnız istismar edirdi. Azərbaycan xalqı sanki gözləyirdi ki, bu xanlıqlar ləğv edilsin və sovet hakimiyyəti yaradılsın. Təbii ki, bu, cəfəngiyatdır, Azərbaycan xalqı əsrlərboyu azadlıq, müstəqillik eşqi ilə yaşamışdır. Əfsuslar olsun ki, tariximizin böyük əksəriyyəti müstəmləkəçilik formatında keçib. Biz başqa dövlətlərin tərkibində yaşamışıq. Bizi buna məcbur ediblər, zorla, öz xoşumuzla yox.

Ulu Öndər sovet dövründə də milli ruhun yüksək səviyyədə olması üçün çox böyük işlər görürdü. Bu məqbərənin açılışı tarixi hadisə idi. Mən o günü çox yaxşı xatırlayıram. Mən təxminən orada, kənarda durmuşdum, burada atam və görkəmli mədəniyyət xadimləri. Yadımdadır, Azərbaycan və erməni şairləri şeirlər deyirdilər. Hətta erməni şairləri Azərbaycan dilində şeirlər deyirdilər. Bu, bir dostluq bayramı, dostluq tədbiri idi və heç kimin ağlına gələ bilməzdi ki, bir neçə ildən sonra burada separatizm baş qaldıracaq, Ermənistan Azərbaycana qarşı təcavüz edəcək, bizim tarixi şəhərimizi əlimizdən alacaqlar, tarixi abidələrimizi, məscidlərimizi, bu məqbərəni bu günə salacaqlar, Azərbaycan xalqının çoxəsrlik irsini Qarabağ diyarından silməyə çalışacaqlar. Heç kimin ağlına gələ bilməzdi. Mən dəfələrlə demişəm və bir daha deyirəm, əgər Heydər Əliyev 1982-ci ildə Bakıdan Moskvaya getməsəydi, əgər onu Moskvaya təyin etməsəydilər, heç vaxt imkan verməzdi ki, burada separatizm baş qaldırsın, heç vaxt. Ancaq Heydər Əliyev hakimiyyətə gələndə artıq Şuşa işğal altında idi, Kəlbəcər işğal altında idi, Laçın işğal altında idi, Daşaltı işğal altında idi, bütün ətraf bölgələr işğal altında idi və Dağlıq Qarabağla Ermənistan arasında coğrafi bağlantı yaradılmışdı.

Xalq Cəbhəsi-Müsavat hakimiyyəti bunun günahkarıdır. Onlar bu xəyanəti törətdilər, ondan sonra da qorxaqcasına qaçıb gizləndilər, fərarilik etdilər, Şuşanı satdılar. Şuşa kimi alınmaz qalanı düşmənə təslim etdilər ki, Azərbaycandakı o vaxtkı hakimiyyəti yıxsınlar və hakimiyyətə gəlsinlər. Belə də oldu. Şuşanın əldən

getməsi o vaxtkı hakimiyyətin süqutuna gətirib çıxardı. Xalq Cəbhəsi bundan istifadə edib Şuşa əldən gedəndən sonra və Laçın düşmənə təhvil veriləndən sonra hakimiyyətə gəldi. Hər kəs bu tarixi görə bilər, bu, yaxın tarixdir. Xalq Cəbhəsi-Müsavat ancaq hakimiyyətə gəlmək üçün xəyanət, satqınlıq, cinayət törədib. Sonra nə edib? Sonra da Azərbaycanda talançılığı dövlət siyasətinə çevirib, rüşvətxorluğu öz ideoloji prinsipi elan edib, satqınlığı, fərariliyi Azərbaycan xalqının tarixinə bir ləkə kimi yapışdırıb. Xalq Cəbhəsi-Müsavat satqınları xalqımızı dünyanın gözü qarşısında rəzil etmişlər, biabır etmişlər. Ermənistan kim idi ki, biz onlara məğlub olaq? Kim idi? Xalq Cəbhəsi-Müsavat, antimilli ünsürlər Şuşanı düşmənə verdilər, özləri də qaçıb gizləndilər.

Ondan sonra erməni vandalları bizim bütün şəhərlərimizi yerlə-yeksan etdilər. İndi azad edilmiş torpaqlarda olarkən bunu öz gözümlə görürəm və bütün dünya görməlidir. Məscidlərimizi, qəbirlərimizi, tarixi abidələrimizi, bütün binalarımızı yerlə bir ediblər. Bu məqbərəni də yadelli düşmənlər dağıdıblar. Məqbərənin bu hissəsində naxışlar var idi, indi tarixi şəkillər var, hamısı sökülüb talan edilib, məqbərə dağıdılıb.

Onların ürəyində nə qədər düşmənçilik hissi olmalı idi ki, bax, bu vəhşiliyi törətsinlər. Bunu törədən Sarkisyan-Koçaryan cütlüyüdür. Bizim şəhərlərimizi bu günə salan Sarkisyan-Koçaryan cütlüyüdür. Quldurları, Xocalı cəlladlarını, özündən yalançı qəhrəman düzəldənləri biz məhv etmişik. Onların ordusunu biz məhv etmişik. Şuşanı onların ordusunun əlindən biz geri almışıq, qəhrəmanlıq göstərərək, sıldırım qayalardan qalxaraq. Yüngül silahlarla, bıçaqlarla toplara, tanklara qarşı vuruşaraq məhv etdik onların ordusunu. Harada idilər onlar? Qaçıb gizlənmişdilər İrəvanda. Biri burnunu soxmuşdu buraya. Amma beş gündən sonra dovşan kimi buradan qaçdı. O birisi, ümumiyyətlə, heç səsini çıxarmırdı. Üçüncüsü də var, müharibə cinayətkarı - Ohanyan, özü də burada doğulub, bizim torpağımızda. Müharibə dövründə guya Şuşanı müdafiə etməyə gəlmişdi. İti qovan kimi qovduq onu. İndi yenə sülənir Ermənistanda. Ağzını açıb çirkin sözlər deyir. Bizə sataşanın aqibəti nə oldu, onu hər kəs gördü. Heç kim unutmasın bu dəmir yumruğu. Düşmənin belini qırdıq. Lazım olarsa, bir daha qırarıq. Koçaryan-Sarkisyan, Azərbaycan xalqının düşmənləri, siz buranı bu günə saldınız. Mən müzəffər Ordunun Baş Komandanı kimi gəlmişəm və burada durmuşam, öz torpağımda durmuşam. Sizin iziniz də, tozunuz da rədd olub buradan və bir daha olmayacaq, heç vaxt olmayacaq.

Bu gün Dağlıq Qarabağda özünü siyasətçi adlandıran bəzi ünsürlər yenə də baş qaldırmağa çalışırlar. Unutmasınlar, bizim səbrimizlə oynamasınlar, 44 günlük müharibə onların yadından çıxmasın. Yoxsa ordu qurub torpaqları geri alacaq? Gəlin, alın. Gəlin bura, siz buradasınız, yaxındasınız. Gəlin alın, görüm necə alırsınız? İti qovan kimi qovmuşuq sizi, rədd etmişik, cəhənnəmə göndərmişik.

Vaqif Poeziya Günləri bərpa ediləcək. Mən artıq göstəriş vermişəm, bu il keçiriləcək. "Xarı bülbül" festivalı bu il keçiriləcək. Biz artıq Şuşanın bərpasını başlayırıq. İndi baş plan hazırlanır. Bütün binaların təftişi aparılıbdır. Şuşa Azərbaycan dövlətinin mədəniyyət paytaxtı kimi dünyanın ən gözəl şəhərlərinin birinə çevriləcəkdir. Əslində, həmişə belə olub. Sadəcə olaraq, mənfur düşmən bütün tarixi abidələrimizi dağıdıb. Amma biz bərpa edəcəyik. Onların əsl simasını qaytaracağıq. Azərbaycan xalqı Şuşada bundan sonra əbədi yaşayacaq. Şuşa bizimdir! Qarabağ Azərbaycandır!

***

Şuşaya səfər çərçivəsində Prezident İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyeva Cıdır düzündə də olublar.

Cıdır düzü tarixən cıdır yarışlarının keçirildiyi və Qarabağ xanlığı dövründən yerli əhalinin Novruz bayramını keçirdiyi ərazidir. Bu ərazidə bir çox milli xalq oyunları keçirilirdi. Bu oyunların qalibinə bəzən qızıl pullar, bəzən isə taxıl, buğda, məişət əşyaları verilirdi. Bu düzdə güləş, qaçış, oxatma və sair oyunlar keçirilirdi. Sonralar həmin ərazidə at yarışları, çövkən oyunları keçirildiyinə görə bu ərazini Cıdır düzü adlandırıblar.

**Prezident İlham Əliyev:**

– Bura Cıdır düzüdür. Hər birimiz üçün əziz, doğma Cıdır düzü. Şuşanı Cıdır düzüsüz təsəvvür etmək mümkün deyil, Azərbaycanı isə Şuşasız təsəvvür etmək mümkün deyil. Biz Şuşaya qayıtmışıq, Cıdır düzünə qayıtmışıq və tarixi yerdə bundan sonra



muğam səsi eşidiləcək, Azərbaycan mahnıları ifa olunacaq, böyük tədbirlər keçiriləcək, toy-bayram olacaq.

Bir müddət bundan əvvəl işğalçı qüvvələr bizim üçün müqəddəs olan bu yerdə heysiyyətimizə toxunmaq, Azərbaycan xalqını təhqir etmək üçün eybəcər hərəkətlər etmişlər, - bütün dünya artıq bundan xəbərdardır, - "Yallı" getmişlər. İzi-tozu da qalmayıb burada, rədd etmişik. İndi Cıdır düzü də, Şuşa da, Qarabağ da azaddır. Bu torpağın sahibləri qayıdıblar, əllərində silah, əllərində bayraq, ürəklərində Vətən sevgisi. Vətən sevgisi bizi Qələbəyə gətirdi. Vətən sevgisi, vətənpərvərlik Qələbəmizin əsas amilinə çevrildi.





Mən çox şadam ki, son illər ərzində Azərbaycanda vətənpərvər, güclü, milli ruhda tərbiyə almış gənc nəsil yetişib. On yeddi ildir ki, mən Azərbaycanın rəhbəriyəm. Bu illər ərzində yetişən insanlar bu torpaqları azad etdilər. Bütün nəsillərdən olan vətəndaşlarımızın bu Qələbədə böyük zəhməti var, payı var. Ancaq onu da bildirməliyəm ki, əsas yükü, əsas vəzifəni gənc nəsil yerinə yetirdi. 2003-cü ildə 10 yaşı, 15 yaşı olanların bu gün 27-32 yaşı var. Onların məhz vətənpərvərlik ruhunda tərbiyə alması, düşmənə nifrət hissi bizi Qələbəyə apardı və Azərbaycan tarixi ədaləti bərpa etdi. Gənc nəsil, yaşlı nəsil, təcrübəli insanlar, bütün xalqımız, bütün etnik qrupların nümayəndələri, bütün dinlərin nümayəndələri bir yumruqtək birləşib. Qələbəmizin rəmzi təsadüfən yumruq seçilməyib. Mən demişəm, burada - Cıdır düzündə bir daha demək istəyirəm ki, bu yumruq, həm gücdür, həm birlikdir. Onsuz da bizdə birlik kifayət qədər yüksək səviyyədə idi, bundan sonra daha da güclü olacaq. Birliyi olan ölkələr qələbə qazanırlar. İradəli olan liderlər qələbə qazanırlar. Heç nəyə baxmayan, heç kimdən çəkinməyən, milli maraqları müdafiə edən liderlər qələbə qazanırlar. Azərbaycanın timsalında bunu hər kəs gördü.

Biz Qələbə qazanmışıq, Ermənistan məğlub olub. Biz, eyni zamanda, haqlıyıq. Bizim davamız haqq davasıdır. Ermənistanın davası işğalçılıq davasıdır. Haqq-ədalət zəfər çaldı, güc hesabına, iradə hesabına, siyasət hesabına, birlik hesabına! Eşq olsun Azərbaycan xalqına! Yaşasın Azərbaycan!

***

İşğal dövründə ermənilər qondarma "Dağlıq Qarabağ respublikası"nın "parlamentini" Şuşa şəhərinə köçürmək üçün burada bina tikməyə başlamışdılar. Ancaq şanlı Azərbaycan Ordusu düşmənin bu niyyətini puç etdi. Şuşa 2020-ci il noyabrın 8-də işğaldan azad olundu. Qondarma rejimin "parlamenti" binasının inşası yarımçıq qaldı.

**Prezident İlham Əliyev dedi:**

– Qondarma rejim bəyan etmişdi ki, "Dağlıq Qarabağ respublikası"nın "parlamentini" Şuşa şəhərinə köçürəcək. Beləliklə, Şuşa şəhərini erməniləşdirmək üçün növbəti cəhd edilməli idi. Bax, bu binanı onlar "Dağlıq Qarabağ respublikası"nın "parlament" binası kimi inşa etməyə başlamışdılar. Ancaq çatdıra bilmədilər. Biz gəldik, bu torpağın sahibləri gəldi, onları buradan qovdu və beləliklə, onların bu çirkin əməlləri həyata keçmədi. "Parlament" də gorbagor oldu, status da gorbagor oldu, cəhənnəmə getdi. Qarabağ Azərbaycandır!

***

Daha sonra Prezident İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyeva erməni vandalizminin qurbanı olmuş Şuşa Realnı Məktəbinin dağıdılmış binası ilə tanış oldular.



**Prezident İlham Əliyev:** Dünyada onlar kimi saxtakar millət yoxdur. Bu bina da bərpa olunacaq.

Qeyd edək ki, Şuşa Realnı Məktəbi dövrünün nümunəvi maarif ocağı sayılırdı. Məşhur Azərbaycan yazıçıları Əbdürrəhim bəy Haqverdiyev və Yusif Vəzir Çəmənzəminli bu məktəbin məzunu olmuşlar.

1992-ci ilin may ayında Şuşa şəhəri işğal edildikdən sonra erməni vandalları Realnı Məktəbini yandıraraq xarabazara çeviriblər.

***

Yanvarın 15-də Prezident İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyeva yenidən Cıdır düzünə gəldilər.

**Prezident İlham Əliyev dedi:**

– Bu gün yanvarın 15-də səhər tezdən yenə Cıdır düzünə gəldik. Artıq Şuşadan Bakıya yola düşürük. Getməmişdən əvvəl də istədik gələk bu müqəddəs, tarixi yerə, bir daha bu gözəlliyi seyr edək, Şuşaya “Çox sağ ol”, “Gələn görüşlərədək” deyək. Biz qayıtmışıq öz doğma torpağımıza, Şuşanı azad etmişik. Bundan sonra Azərbaycan xalqı Şuşada əbədi yaşayacaq.

Dünən Şuşada bütün tarixi abidələri ziyarət etdik, müqəddəs məscidlərimizi ziyarət etdik. Ürək ağrısı ilə deyə bilərəm ki, burada olan dağıntılar hər bir Azərbaycan vətəndaşının qəlbini incidir. Ancaq Şuşanı dağılmış, amma, eyni zamanda, əyilməmiş, əzəmətli görmək bizi hədsiz dərəcədə qürurlandırır. Şuşa ayaqdadır, Şuşa sınmayıb, Şuşa əyilməyib! Mənfur düşmən nə qədər çalışsa da, Şuşanın simasını dəyişdirə bilməyib. Biz Şuşanın bütün yaralarını sağaldacağıq. Şuşa dünyanın ən gözəl şəhərlərindən birinə çevriləcək.

Biz dünən gecə Şuşada qalmağa qərar verdik, halbuki Bakıya qayıtmalı idik. Ancaq mən hesab etdim ki, mütləq gecə Şuşada qalmalıyıq. Çünki Azərbaycan Prezidenti ilk dəfədir ki, Şuşaya gəlib. Bizim müstəqilliyimizin təxminən otuz yaşı var. Ancaq bu otuz il ərzində birinci dəfə Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan Şuşaya gəlib, Şuşada qalıb və sözün düzü, Şuşadan getmək istəmir.

Şəhərin nadir memarlığı, relyefi, təbiəti, havası, aurası təkrarolunmazdır. Mən dünən qeyd etdiyim kimi, Şuşada iki dəfə 1982-ci ildə olmuşam. O vaxt burada bir neçə kütləvi tədbir keçirilmişdir. Yəni, Şuşanı dünənki kimi, bugünkü kimi, bu formada görmək mənə nəsib olmamışdı. Bir daha gördüm ki, bu şəhərin nadir aurası, təbiəti, memarlığı bizim böyük sərvətimizdir.

Bu gecə cəmi beş saat yatmışam. Saat 5-də oyanmışam, bilmirəm nəyə görə. Bəlkə dünənki gün çox həyəcanlı idi. Çünki Şuşanı görmək, Şuşaya qayıtmaq təkrarolunmaz bir hissdir. Ola bilər, Şuşanın səfalı təbiəti, havası kifayət edir ki, insan heç çox yatmaq da istəmir. Bakıya dönməzdən əvvəl yenidən gəlmişəm buraya, Cıdır düzünə, Şuşanın tarixi yerinə ki, bir daha Azərbaycan xalqına öz sözümü deyim. Deyim ki, biz xoşbəxt xalqıq, biz öz ərazi bütövlüyümüzü bərpa etmişik. Xoşbəxt xalqıq ki, özümüzü müstəqil dövlət kimi təsdiq etmişik. Bir daha deyim ki, Şuşa bizimdir! Qarabağ Azərbaycandır!

***

Prezident İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyeva Cıdır düzündə çay süfrəsinə qonaq oldular.

**Prezident İlham Əliyev:** Cıdır düzündə armudu stəkanda çay, paxlava ilə. Dostlarımız sevinsin, düşmənlərin gözü kor olsun!



# İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Füzuli, Zəngilan, Laçın və Cəbrayıl rayonlarında olublar



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyeva fevralın 14-də Füzuli, Zəngilan, Laçın və Cəbrayıl rayonlarında olublar.

Prezident İlham Əliyev Horadiz-Ağbənd dəmir yolu xəttinin təməlini qoymaq üçün Füzuli rayonuna gəldi.

Məlumat verildi ki, ümumi uzunluğu 100 kilometr olan bu dəmir yolu xəttinin strateji əhəmiyyəti olduqca böyükdür. Çünki bu nəqliyyat infrastrukturu Azərbaycan vətəndaşlarının azad olunmuş torpaqlara gediş-gəlişinin təminatında əhəmiyyətli rol oynayacaq və ən mühüm məsələ Azərbaycanın əsas hissəsi ilə Naxçıvan Muxtar Respublikası arasında birbaşa dəmir yolu nəqliyyat əlaqəsinin yaranmasına böyük töhfə verəcək.

Dövlətimizin başçısı Horadiz-Ağbənd dəmir yolu xəttinin təməlini qoydu.

***

Sonra Prezident İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyeva Zəngilan rayonunun Üçüncü Ağalı kəndində olublar.

Zəngilana gedərkən avtomobili özü idarə edən Prezident İlham Əliyev dedi:

– Zəngilan rayonuna gəlmişik. Yolumuz Laçın rayonunadır. Yol boyunca Zəngilan rayonunda da tədbirlər var. Yenə də azad edilmiş torpaqlardayıq. Torpaqların bərpası prosesi artıq başlamışdır.

Bura Zəngilan şəhəridir. Biz burada artıq olmuşuq, yenə də gəlmişik. Zəngilan şəhəri də digər şəhərlər kimi düşmən tərəfindən demək olar tamamilə dağıdılmışdır. Bir neçə ev qalmışdır. Burada onların hərbi hissəsi, polis bölməsi yerləşirdi. Bir də ki, xaricdən gələn ermənilər, burada qanunsuz yaşayan ermənilər. Zəngilanı bax bu günə qoyub mənfur düşmən.

Bütün şəhərlərimizin baş planları hazırlanır. Təqdim olunacaq, müzakirə ediləcək. Ondan sonra bərpa işlərinə start veriləcək. Keçən dəfə Zəngilan şəhərinə gələndə bu bayrağı burada mən ucaltdım.

Zəngilan rayonunda birinci "ağıllı kənd" layihəsi icra ediləcək. Bu gün layihəyə start verilir. Artıq ilkin araşdırmalar aparılıb. Bu, dağılmış Ağalı kəndidir. Bərpa ediləcək birinci kənd məhz bu kənddir.

Dövlətimizin başçısına Zəngilan rayonunun Üçüncü Ağalı kəndində icra olunacaq "ağıllı kənd" layihəsi barədə məlumat verildi.

Bildirildi ki, kənddə layihənin icrası əsasən 5 komponent üzrə aparılacaq. Onlar yaşayış, istehsal, sosial xidmətlər, "ağıllı kənd təsərrüfatı", alternativ enerji sahələridir.

Qeyd edək ki, Prezident İlham Əliyev çıxışlarında azad olunmuş ərazilərin "yaşıl enerji" zonasına çevriləcəyini dəfələrlə bildirib. Erməni işğalından azad olunmuş ərazilərin dövlətimizin başçısının birbaşa təşəbbüsü və tapşırıqları ilə nəinki bərpa edilməsi və yenidən qurulması planlaşdırılır, hətta orada "ağıllı şəhər" və "ağıllı kənd" konsepsiyalarının reallaşdırılması nəzərdə tutulur. Hazırkı pandemiya şəraitində dünya iqtisadiyyatında böyük problemlərin yarandığı bir dövrdə Azərbaycan Prezidentinin bu təşəbbüsü bir daha dövlətimizin gücünü və qüdrətini nümayiş etdirir.

İnşa ediləcək 200 evdən ibarət kəndin enerjiyə olan tələbatı yalnız alternativ enerji mənbələrindən əldə olunacaq.

Dövlətimizin başçısı görüləcək işlərlə bağlı tapşırıq və göstərişlərini verdi.

Füzuli, Zəngilan, Laçın və CəbrayılDaha sonra dövlətimizin başçısı, birinci xanım və qızları Leyla Laçın rayonuna yola düşdülər.

Yol boyunca Qubadlı rayonunun işğaldan azad edilən kəndləri barədə danışan Prezident İlham Əliyev dedi:

– Bura Qubadlı rayonunun Xəndək kəndidir. Burada da şiddətli döyüşlər gedib. Ordumuz düşməni buradan qovaraq, məhv edərək bu əraziləri də azad etmişdir. Düşmən burada da qanunsuz olaraq məskunlaşmışdı. Çox ağır şəraitdə yaşayıblar. Baxın, görün, onların yaşadıqları evlər it damından artıq deyil. Mən deyəndə ki, o vaxt işğal edilmiş torpaqlarda ermənilər səfalət içində yaşayırlar, bax bunu nəzərdə tuturdum. Aclıq, səfalət, qanunsuzluq hökm sürürdü. Belə bərbad yollardan istifadə edirdilər. Bu işıq dirəklərini biz torpaqları azad edəndən sonra quraşdırdıq.

Qubadlı rayonunun Muradxanlı kəndi, ermənilər burada yaşayıblar, buranı da dağıdıblar. Artıq bərpa işləri gedir. Bu da Həkəri kəndidir. Baxın nə gündədir, ermənilər bu it damında yaşayıblar. Dağıdılmış bu evlər erməni faşizminin törətdiyi əməllərdir. Bütün dünya görsün bunları. Bu da onların traktorudur.

Bala Soltanlı kəndi. Burada evlərin böyük hissəsi dağıdılıb, amma bəzi evlərdə düşmən qanunsuz məskunlaşma aparmışdı. Bu da hərbi cinayət sayılır. Bütün bu cinayətlərə görə düşmən artıq öz payını alıb, cavabını verib, beynəlxalq müstəvidə də cavabını verəcəkdir. Bizim şanlı ordumuz bax bu yolla Laçın rayonuna keçmişdir və Laçın rayonunun bir neçə kəndini işğaldan azad etmişdir. O cümlədən Güləbird kəndi də ordumuz tərəfindən işğalçılardan azad edilmişdir. Bura Laçın rayonunun cənub hissəsidir. Ordumuz işğalçılardan azad etmişdir. Şimal hissəsi isə Ermənistanın kapitulyasiyasından sonra bizə qaytarıldı.

Bu da Padar kəndidir.

Qubadlı rayonunun Yusifbəyli kəndi. Bu kənd də düşmən tərəfindən tamamilə dağıdılıb. Biz indi Laçın rayonuna gedirik. Laçın rayonunun Güləbird kəndinə. Zəngilan rayonunun İkinci Ağalı kəndində olduq, kəndin inkişafı ilə bağlı təqdimat edildi. Bir neçə aydan sonra İkinci Ağalı kəndinin yenidən qurulması prosesinə start veriləcək. Bu, bərpa ediləcək birinci kənd olacaq. İkinci Ağalı kəndi “ağıllı kənd” konsepsiyası əsasında qurulacaq. Eyni zamanda, Birinci və Üçüncü Ağalı kəndlərinə qayıdacaq soydaşlarımız da eyni imkanlardan istifadə edəcəklər.

İndi isə Mərdanlı kəndinə daxil oluruq. Günəş də çıxır, yolumuzu işıqlandırır. Mən demişdim ki, azad edilmiş torpaqlarda bütün bərpa işləri ən yüksək səviyyədə təşkil olunacaq. Dağılmış bütün bu kəndləri biz bərpa edəcəyik. Baxın mənfur düşmən bizim bütün yaşayış məntəqələrimizi nə günə salıb. Vandallar, barbarlar işğal dövründə bütün binaları söküblər, talayıblar, daşları oğurlayıblar. Hamısını bərpa edəcəyik.

Bura artıq Laçın rayonunun ərazisidir. Bu, Həkəri çayıdır. Görün nə gözəl çaydır. Çayımızı da düşmən istismar etmişdir, təbiətimizi də istismar etmişdir. Biz buna son qoyduq, düşməni rədd etdik.

Artıq Güləbird kəndindəyik. Güləbird kəndini də düşmən dağıdıb, talan edib. Güləbird kəndinə gəlməyimizin səbəbi qısa müddət ərzində inşa edilmiş su elektrik stansiyasının açılışıdır və bu layihə azad edilmiş torpaqlarda birinci elektrik stansiyası olacaq, digər stansiyalar da tikiləcək. Azad edilmiş bütün torpaqlarda su, Günəş, külək enerjisindən istifadə edəcəyik.

Prezident, Silahlı Qüvvələrin Müzəffər Ali Baş komandanı İlham Əliyev Güləbird kəndində Azərbaycan bayrağını qaldırdı və çıxış etdi.



**Prezident İlham Əliyevin çıxışı**

– Bu gün mən azad edilmiş torpaqlara yenidən gəlmişəm. Bu gün bu torpaqlarda bir neçə tədbir keçirilir. Bu tədbirlərin məqsədi azad olunmuş torpaqları tezliklə bərpa etməkdir ki, insanlar buraya qayıtsınlar



və bu torpaqlara həyat gəlsin. Bərpa işləri arasında elektrik enerjisi təchizatı, əlbəttə ki, xüsusi yer tutur. Bu məqsədlə müharibədən dərhal sonra ilk günlərdən biz bu işlərlə məşğul olmağa başlamışıq. İlk növbədə, Şuşa şəhərini elektrik enerjisi ilə təchiz etmək üçün əməli addımlara start verilmişdir və birinci mərhələ başa çatıb. "Azərişıq" artıq Şuşa şəhərinə elektrik xətlərini çəkib. Şuşa şəhərini dayanıqlı elektrik enerjisi ilə təmin etmək və ondan sonra şəhərin inkişafını təmin etmək üçün "Azərenerji" Səhmdar Cəmiyyəti də Şuşa şəhərinə yüksəkgərginlikli xətləri çəkir və Şuşa şəhərində elektrik yarımstansiyası inşa edir.

Bu gün isə Laçın rayonunun cənub hissəsindəyik, Güləbird kəndinin ərazisində. Bu gün Güləbird kəndində Su Elektrik Stansiyasının açılışıdır. Laçın rayonu işğaldan azad olunandan heç iki ay keçməmiş – ay yarımdan sonra artıq burada Su Elektrik Stansiyası istismara verilir. Bu Su Elektrik Stansiyasının generasiya gücü 8 meqavatdır. Kiçik su elektrik stansiyaları arasında 8 meqavatlıq stansiya orta həcmli stansiya sayıla bilər. Əsas məsələ ondadır ki, bu stansiya işə düşəndən sonra artıq burada generasiya gücləri yaranır və beləliklə, biz təbiətimizdən - Həkəri çayından səmərəli şəkildə istifadə edəcəyik.



Kəlbəcər-Laçın zonasında su elektrik stansiyaları üçün təbii şərait çox əlverişlidir və vaxtilə burada bir çox stansiyalar olub. Mənfur düşmən də işğal dövründə bu stansiyalardan istifadə edib. Ancaq Ermənistan kapitulyasiyadan sonra 20 gün ərzində - dekabrın 1-nə qədər demək olar ki, bütün bu su elektrik stansiyalarını darmadağın edib, avadanlığı buradan çıxarıb, stansiyaların binalarını da dağıdıb. O cümlədən Güləbird Su Elektrik Stansiyası düşmən tərəfindən dağıdılmışdır. Əks-təqdirdə, bu stansiya elə dekabrın 1-dən bizə xidmət göstərəcəkdi. Ancaq verilən tapşırıqlarım qısa müddət ərzində yerinə yetirildi və bu gün biz 8 meqavat gücündə Güləbird Su Elektrik Stansiyasının açılışını qeyd edirik. Bu, azad edilmiş torpaqlarda istismara verilən birinci elektrik stansiyasıdır və bunun çox böyük əhəmiyyəti, böyük rəmzi mənası var. Biz qayıdırıq bu torpaqlara. Biz Kəlbəcər və Laçın rayonlarında ermənilər tərəfindən uzun illər ərzində qanunsuz istismar edilmiş, onlar tərəfindən dağıdılmış bütün su elektrik stansiyalarını bərpa edəcəyik. Düşmən təkcə Laçın rayonu ərazisində 5 su elektrik stansiyasını dağıdıb. Onların hamısı bərpa ediləcək. Kəlbəcər rayonunun ərazisində isə 12 su elektrik stansiyası yenidən qurulacaq. Beləliklə, yalnız Kəlbəcər və Laçın rayonlarında dağıdılmış və bərpa ediləcək stansiyaların generasiya gücü 120





meqavat olacaqdır. Bu, çox böyük generasiya gücüdür. Bu generasiya gücü ilə biz bu əraziləri bərpa edəcəyik, dayanıqlı enerji ilə təmin edəcəyik. Əgər biz nəzərdə tutduğumuz digər layihələrə də nəzər salsaq görərik ki, bərpaolunan enerji növlərinin bu bölgədə çox böyük potensialı var. Onların arasında ən böyük potensiala "Xudafərin" və "Qız qalası" su elektrik stansiyaları malik olacaqdır. Bu stansiyaların tikintisi ilə bağlı İran İslam Respublikası ilə razılığa gəlmişik. Yaxın gələcəkdə bu su elektrik stansiyaları tikiləcək və beləliklə, Azərbaycan tərəfinə bu stansiyaların fəaliyyətindən düşən generasiya gücü 120 meqavat olacaqdır. Yəni, biz bir neçə ildən sonra 120 meqavat "Xudafərin" və "Qız qalası" stansiyalarından, 120 meqavat isə Kəlbəcər və Laçın rayonlarındakı su elektrik stansiyalarından alacağıq. Bu, 240 meqavat generasiya gücü deməkdir və bunun üstünlüyü odur ki, bu, su elektrik stansiyalarıdır və enerjinin maya dəyəri çox aşağıdır. Bununla paralel olaraq, artıq göstəriş vermişəm ki, bizim azad edilmiş bütün digər torpaqlarda bərpaolunan enerji növlərinin və yerlərin müəyyənləşdirilməsi prosesinə start verilsin. Belə bir göstəriş verildi və bu gün Zəngilan rayonunda birinci pilot "ağıllı kənd" layihəsi də məhz bərpaolunan enerji ilə təchiz ediləcəkdir.

Mən bəyan etmişdim ki, azad edilmiş torpaqlar "yaşıl enerji" zonası olacaq. Mən artıq xarici və yerli investorları dəvət etmişəm. Onu da bildirməliyəm ki, bütün əsas işləri dövlət olaraq biz özümüz görürük və görəcəyik. Xarici və yerli investorlar investisiya qoymaqla həm öz biznes maraqlarını təmin edə bilərlər və həm də Azərbaycanı uzunmüddətli, dayanıqlı, ucuz və ekoloji cəhətdən təmiz enerji növləri ilə təmin etmək üçün öz sözlərini deyə bilərlər.

Bizim planlarımız bundan ibarətdir. Kəlbəcər və Laçın rayonlarında külək enerjisinin çox böyük potensialı var. Zəngilan, Cəbrayıl rayonlarında daha çox Günəş enerjisinin böyük potensialı var. Artıq ilkin tədqiqatlar aparılıb və beləliklə, biz enerji generasiya güclərimizi, ötürücü xətlərimizi yenidən quraraq Qarabağı "yaşıl enerji" zonasına çevirəcəyik.

Mən bu proqramı elan edəndə bunu nəzərdə tuturdum və bu gün birinci layihə - bax, orada gördüyünüz Güləbird Su Elektrik Stansiyası artıq istismara verilir.

Bizim böyük planlarımız var. Biz bərpa işlərinə start verdik. Çalışacağıq ki, minalardan təmizləmə işləri qısa müddət ərzində başa çatsın, dəymiş ziyanın qiymətləndirilməsi aparılsın və bununla paralel olaraq,

artıq infrastruktur layihələrinə start verildi. Bu gün Horadizdə Horadiz-Zəngilan-Ağbənd dəmir yolunun təməl daşı qoyuldu. Bu dəmir yolunun çox böyük strateji əhəmiyyəti var. İlk növbədə ona görə ki, bu dəmir yolu azad edilmiş torpaqlara həm vətəndaşların gəlməsi, həm də yüklərin daşınması üçün böyük əhəmiyyətə malik olacaq. Digər tərəfdən, bu dəmir yolu Naxçıvana gedəcək. Noyabrın 10-da imzalanmış Birgə Bəyanatda Naxçıvan dəhlizinin yaradılması ilə bağlı xüsusi müddəa var. Artıq bu işlərə start verildi. Bizim təşəbbüsümüzlə həyata keçirilən bu layihə, əminəm ki, icra ediləcək. Uzun fasilədən sonra Azərbaycan və onun ayrılmaz hissəsi olan Naxçıvan Muxtar Respublikası dəmir yolu ilə bir-birinə bağlanacaq və beləliklə, bizim həm strateji, həm iqtisadi, həm də siyasi məqsədlərimiz həyata keçiriləcək.





Vətən müharibəsinin çoxşaxəli əhəmiyyəti bundan ibarətdir - biz həm doğma torpaqlarımızı işğalçılardan azad etdik, düşməni torpaqlarımızdan qovduq, həm də ölkəmizin ərazi bütövlüyünü bərpa etdik. Bütün dünyaya xalqımızın, dövlətimizin qüdrətini göstərdik, xalqımızın əyilməz ruhunu göstərdik. Eyni zamanda, ölkəmizin gələcəyi ilə bağlı strateji hədəflərə çatmaq üçün əməli addımlar ataraq önəmli sənədləri imzaladıq. Noyabrın 10-da imzalanmış Birgə Bəyanat, əlbəttə ki, Laçın, Kəlbəcər və Ağdam rayonunun qaytarılmasını təmin etdi, bir güllə atmadan biz bu torpaqlara qayıtdıq. Eyni zamanda, Azərbaycanın onun ayrılmaz hissəsi olan Naxçıvanla birləşməsi də məhz o Bəyanatda təsbit olunur. Həmçinin bu dəmir yolu infrastrukturu Türkiyəyə qədər uzanacaq və beləliklə Azərbaycanı Türkiyə ilə birləşdirən ikinci dəmir yolu şəbəkəsi yaradılacaqdır. Biz üç il yarım bundan əvvəl Bakı-Tbilisi-Qars dəmir yolunu istismara verdik. Bu da tarixi nailiyyət idi. Tarixdə ilk dəfə biz Azərbaycanı və Türkiyəni dəmir yolu ilə birləşdirdik. İndi isə ikinci dəmir yolu çəkiləcək və eyni zamanda, bu yoldan bütün bölgə ölkələri istifadə edə bilərlər. Bölgə ölkələri bu yolun tikintisinə də böyük maraqla yanaşırlar. Demək olar ki, bizim bölgəmizdə yerləşən ölkələr bu layihəyə öz müsbət qiymətini vermişlər.

Biz təklif etmişdik ki, bölgəmizin uzunmüddətli inkişafı, sabitliyin təmin edilməsi və müharibə risklərinin sıfra endirilməsi üçün bölgədə nəqliyyat layihələrinin xüsusi rolu vardır və burada iştirak edən bütün ölkələr ancaq xeyir götürəcək, fayda götürəcək. Azərbaycan Naxçıvanla, Türkiyə ilə birləşir. Eyni zamanda, Rusiyadan Ermənistana dəmir yolu xətti açıla bilər. Bu xətt yalnız Azərbaycan ərazisindən keçə bilər. Həmçinin Rusiya ilə İran arasında Naxçıvan ərazisi ilə dəmir yolu bağlantısı olacaq. İran ilə Ermənistan arasında



aktına imza atsın və Laçın, Kəlbəcər, Ağdam rayonlarını məcbur olub bizə qaytarsın. Çünki danışıqlar zamanı heç vaxt Laçın və Kəlbəcər rayonlarını bizə qaytarmaq istəmirdi. Danışıqlarda razılığa gəlməməsinin əsas səbəbi də məhz bunda idi. Əfsuslar olsun ki, Ermənistanın və onun bəzi xarici havadarlarının mövqeyi ondan ibarət idi ki, beş rayon Azərbaycana qaytarılsın, Azərbaycan bununla kifayətlənsin və Dağlıq Qarabağa nə vaxtsa müstəqillik verilsin, Kəlbəcər və Laçın rayonları Ermənistanın

dəmir yolu bağlantısı olacaq. Türkiyə ilə Rusiya arasında dəmir yolu bağlantısı olacaq. Yəni, bütün bölgə ölkələri bundan ancaq xeyir görəcəklər.

Onu da bildirməliyəm ki, Bakı-Tbilisi-Qars dəmir yolunun istismara verilməsi nəticəsində artıq Rusiya ilə Türkiyə arasında bu dəmir yolundan istifadə edərək yüklər daşınmağa başlamışdır. Görün, biz nə qədər böyük uzaqgörənlik göstərmişdik, böyük iradə göstərmişdik. Eyni zamanda, maliyyə resurslarını səfərbər etmişdik və bu dəmir yolları bağlantılarını biz təmin edirik. Bu, ölkəmiz üçün lazımdır. Çünki bu, ölkəmizin geosiyasi əhəmiyyətini artırır, iqtisadi gücünü artırır. Çünki biz etibarlı tranzit ölkəsi kimi bundan böyük maliyyə gəliri əldə edəcəyik, eyni zamanda, bölgədə sabitliyin və sülhün təmin edilməsi üçün də bunun çox böyük əhəmiyyəti var.

Bu, eyni zamanda, ona görə önəmlidir ki, bu gün də Ermənistanda revanşist qüvvələr baş qaldırmağa çalışır. Azərbaycanı növbəti təxribatlarla, növbəti müharibə ilə hədələməyə çalışırlar. Onlar anlamalıdırlar ki, biz hər şeyə diqqət yetiririk, hər şeyə nəzarət edirik və heç vaxt imkan verə bilmərik ki, erməni faşizmi bir daha başını qaldırsın. Biz erməni faşizmini məhv etmişik. Düşməni öz doğma torpaqlarımızdan qovmuşuq. Onları torpaqlarımızdan rədd etmişik. Ermənistan ordusunu demək olar ki, məhv etmişik. Ermənistan ordusu yoxdur, dağılıb. Həm texnika dağılıb, həm canlı qüvvə dağılıb. Özləri etiraf edirlər ki, müharibə zamanı onların 10 min fərarisi olubdur. Azərbaycan Ordusunda bir dənə də fərari olmayıbdır. Bu, xalqımızın, Ordumuzun yüksək mənəvi ruhunun təzahürüdür. Aparılan siyasətin təzahürüdür. Biz döyüş meydanında Qələbə qazandıq. Biz bu torpaqları vuruşaraq işğalçılardan azad etmişik. Ermənistanı məğlub edib məcbur etdik ki, noyabrın 10-da kapitulyasiya

əbədi nəzarəti altında qalsın. Mən bu təklifi rədd etdim.

Həyat göstərdi ki, biz güclü iradə, cəsarət göstərərək istədiyimizə nail ola bildik. Laçın rayonunu qaytarmaq fikirləri belə yox idi onların. Biz gəldiyim yolla gələrək, yol boyunca yerləşən bütün rayonları, kəndləri, şəhərləri azad edərək bax, buralara gəldik. Laçın rayonunun cənub hissəsini işğalçılardan azad etdik, Güləbird kəndini azad etdik. Burada Səfiyan və Türklər kəndləri yerləşir, onları da azad etdik və Laçın dəhlizinə nəzarət etmək üçün hərbi plasdarm yaratdıq və artıq Laçın dəhlizi atəşimiz altında idi. Faktiki olaraq bu istiqamətdən hərəkət edərək biz strateji əməliyyatlarımızı aparmışdıq. Eyni zamanda, əks tərəfdən - Xocavənd rayonundan Şuşa şəhərinə gedərək, dağlardan, dərələrdən keçərək uğurlu əməliyyat apara bilmişik. Laçın rayonunun bax, bu cənub hissəsi hərbi əməliyyat nəticəsində azad edilmişdir. Biz döyüş meydanında düşməni məğlub etdik və tarixi ədaləti bərpa etdik.

Laçın rayonu Şuşadan sonra işğala məruz qalmış ikinci rayondur. Laçın rayonunun işğal altına düşməsi faktiki olaraq Ermənistanla Dağlıq Qarabağ arasında coğrafi bağlantı yaratmışdır. Halbuki sovet vaxtında bu bağlantı yox idi. 1992-ci il mayın 8-də Şuşanın işğalından 10 gün keçəndən sonra Laçın rayonu işğal altına düşdü. Bu, böyük faciə idi. Hər bir rayonun itirilməsi böyük faciə idi. İnsanlar həlak olub, insanların əmlakı dağıdılıb, insanlar öz dədə-baba torpaqlarından didərgin salınıb. Eyni zamanda, Laçın rayonunun işğal altına düşməsi strateji nöqteyi-nəzərdən çox böyük məğlubiyyətimiz idi. Laçın rayonunu satanlar, Şuşanı satanlar eyni adamlardır. Mən bunu demişəm. Bir daha demək istəyirəm ki, Azərbaycan xalqı bunu bilsin və heç vaxt unutmasın. AXC-Müsavat mənfur

cütlüyü hakimiyyətə gəlmək üçün bu torpaqları düşmənə satıb. O vaxt hakimiyyəti yıxmaq üçün Bakıda mitinqlər təşkil edirdilər, çaxnaşma təşkil edirdilər, hakimiyyətə gəlmək üçün istənilən satqınlığa hazır idilər və bu satqınlığı etdilər. Şuşanı boşaltdılar. Halbuki onların nəzarəti altında qüvvələr var idi. Şuşa ermənilər oraya girəndə, faktiki olaraq, boş idi. Şuşanı heç kim müdafiə etmirdi. Sonra Laçın rayonunu da satdılar və ondan sonra heç bir ay keçməmiş hakimiyyətə gəldilər. AXC-Müsavat cütlüyü bu satqınlığı, bu xəyanəti edib, bu cinayəti törədib. 1993-cü ilin aprelində Kəlbəcər də işğal altına düşəndən sonra qorxaqcasına qaçıb gizlənib, fərarilik edib. Azərbaycan xalqı bunu heç vaxt unutmamalıdır, bu satqınları, bu xainləri, bu düşmənləri unutmamalıdır! Onlar satıblar bizim torpaqlarımızı. Biz qaytarmışıq bu torpaqları, qayıtmışıq. Bax, durmuşam burada - Laçın rayonunda. Bu torpaqları düşməndən azad edən Müzəffər Ordunun Ali Baş Komandanı kimi Azərbaycan bayrağını qaldırmışam və bu bayrağın altında Azərbaycan xalqına doğma Laçın diyarından müraciət edirəm. Bizim Qələbəmiz tarixi Qələbədir. Biz tarixi ədaləti bərpa etdik. Biz öz haqlarımızı bərpa etdik, biz şəhidlərimizin qanını aldıq, biz düşməndən qisas aldıq və qayıtmışıq. İndi isə bərpa işləri gedir və gedəcək. Mən demişəm, biz bu bölgəni - Qarabağı cənnətə çevirəcəyik. Artıq bütün göstərişlər verilib. Bütün işlər görülür, planlı şəkildə görüləcək və biz bundan sonra bu torpaqlarda əbədi yaşayacağıq. Heç kim bizi bundan sonra bu torpaqlardan tərpədə bilməz. Qarabağ bizimdir! Qarabağ Azərbaycandır!

***

Sonra Prezident İlham Əliyev Həkəri çayı üzərində yerləşən 8 meqavat gücündə "Güləbird" Su Elektrik Stansiyasının açılışında iştirak etdi.

Erməni qəsbkarlar işğal dövründə xislətlərinə uyğun olaraq digər yerlərdəki kimi, bu stansiyanı da darmadağın ediblər. Dövlətimizin başçısının tapşırığı ilə qısa müddət ərzində istismara verilən bu stansiya işğaldan azad olunmuş ərazilərdə infrastrukturun yaradılması və nəzərdə tutulan digər işlərin həyata keçirilməsi baxımından böyük önəm daşıyır.

Prezident İlham Əliyev "Güləbird" Su Elektrik Stansiyasını işə saldı.

Qeyd edək ki, "Güləbird" Su Elektrik Stansiyasının istifadəyə verilməsi tarixi və əlamətdar hadisədir. Bu, işğaldan azad olunan rayonlarda Prezident İlham Əliyevin iştirakı ilə istifadəyə verilən ilk infrastruktur












layihəsidir. Bu stansiya təxminən 7000 nəfər əhalinin elektrik enerjisi ilə təminatında mühüm rol oynayacaq. Burada istehsal olunan elektrik enerjisi Qubadlı rayonunun Xanlıq kəndini, Laçın rayonunun cənub hissəsini və ərazidə yerləşən digər infrastruktur layihələrini elektrik enerjisi ilə təmin edəcək.

***

Sonra dövlətimizin başçısı, birinci xanım və qızları Leyla Zəngilan rayonundakı Bəsitçay Dövlət Təbiət Qoruğunun ərazisinə gəldilər.

Erməni qəsbkarlar işğal altında saxladıqları dövrdə digər ərazilərdə olduğu kimi, Bəsitçay qoruğunda da ekoloji terror törədiblər. Mənfur düşmən qoruğun meşəlik ərazisinin demək olar ki, yarısını məhv edib, ağacların kökünü, oduncağını yandırıb. Burada illərlə formalaşmış təbii ekosistemin tarazlığına erməni vandalizmi nəticəsində ciddi zərbə vurulub.

Prezident İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyeva Bəsitçay qoruğunda çinar ağacları əkdilər.

Sonra dövlətimizin başçısı, birinci xanım və qızları Bəsitçaya balıq buraxdılar.

**Prezident İlham Əliyev:** Bəsitçay Dövlət Təbiət Qoruğunda çinar ağacları əkdik. Bəsitçay qoruğu 1974-cü ildə ulu öndər Heydər Əliyevin tapşırığı ilə yaradılmışdır. Burada 100 hektardan çox sahədə nadir çinar ağacları dövlət tərəfindən qorunurdu. Bu, nadir çinar ağacları meşəsi idi. İşğaldan sonra mənfur düşmən çinarların böyük

hissəsini kəsib, doğrayıb, talayıb və yandırıb. Bu, erməni vandalizminin növbəti əlamətidir. Bu gün Bəsitçay təbiət qoruğunun bərpasına start verildi.

Biz bu qoruğu bərpa edəcəyik. Əlbəttə ki, burada kəsilmiş ağacların yaşı təqribən 200-300 ilə bərabər idi. Ancaq hər halda öz borcumuzu yerinə yetirdik.

Eyni zamanda, Bəsitçaya balıqlar da buraxdıq. Bəsitçay da çox gözəl çaydır. Ümumiyyətlə, bu bölgə çaylarla zəngindir. Tərtərçay, Xaçınçay, Bəsitçay, Bazarçay, Həkəri çayı və digər çaylar bundan sonra Azərbaycan xalqına xidmət edəcək. Mənfur düşmən işğal dövründə Tərtərçayın da suyunun qabağını kəsmişdir və bir neçə rayonumuzda yüz min hektardan çox torpaq susuz qalmışdır. Bizə qarşı ekoloji terror törədilmişdir.





***

Sonra dövlətimizin başçısı İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyeva Cəbrayıl rayonunun Soltanlı kəndinə yola düşdülər.

**Prezident İlham Əliyev:** Tapşırıq verilib tədbirlər görülsün ki, bu günə qədər suvarılmayan 100 min hektar torpaq sahələrinə su verilsin. Beləliklə, 6-7 rayonun kənd təsərrüfatı sahəsi daha sürətlə inkişaf edəcək, məhsuldarlıq artacaq, fermerlər, kəndlilər daha çox pul qazanacaqlar. Evləri də, təbiəti də bərpa edəcəyik. Eyni zamanda, göstəriş vermişdim ki, vaxt itirmədən payızlıq əkin də aparılsın. Biz qısa müddət ərzində bütün imkanlarımızı, texnikanı, işçi qüvvəsini səfərbər etmişik və 7 min hektarda əkin işləri aparılmışdır. O əkin sahələrinə də baxacağam. Builki mövsümdə təqribən 20-25 min hektarda əkin işləri aparılacaq. Yəni, biz vaxt itirmədən kənd təsərrüfatını dirçəldəcəyik. Əlbəttə ki, azad edilmiş torpaqların kənd təsərrüfatı potensialı çox böyükdür. İşğalçılar bizim torpağımızdan da istifadə edib qanunsuz gəlirlər əldə etmişdilər. İşğal dövründə ən azı 90 min hektarda taxıl əkilmişdi. Buna da son qoyuldu. Azad edilmiş torpaqlarda bitkiçilik, meyvəçilik, heyvandarlıq sürətlə inkişaf edəcək.

Cəbrayıl rayonunun Soltanlı kəndinin ərazisinə gələn Prezident İlham Əliyevə işğaldan azad olunmuş torpaqlarda əkinlərlə bağlı görülən işlər barədə məlumat verildi.

Bildirildi ki, hazırda əkin sahələrinin monitorinqi davam etdirilir. Əlavə əkin sahələri müəyyən olunduqca yenilənmiş təkliflər verilir.

# İlham Əliyev Bakının Ramana qəsəbəsindəki yaşayış kompleksində şəhid ailələri və müharibə əlillərinə mənzillərin təqdim olunması mərasimində iştirak edib





Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 25-də Bakının Ramana qəsəbəsindəki yaşayış kompleksində şəhid ailələri və müharibə əlillərinə mənzillərin təqdim olunması mərasimində iştirak edib.

Dövlətimizin başçısı kompleksdə yaradılan şəraitlə tanış oldu.

Məlumat verildi ki, bu kompleksdə doqquzmərtəbəli 30 bina tikilib. Ümumilikdə 1512 mənzildən ibarət kompleks bütün zəruri sosial in-






frastrukturla təchiz edilib. Ərazidə məktəb, uşaq bağçası, klub-icma mərkəzi inşa olunub. Dövlətimizin başçısının bu ilin yanvarında imzaladığı Sərəncamla təsdiq olunmuş proqramlara əsasən, 2021-2025-ci illərdə ev şəraitinin yaxşılaşdırılmasına ehtiyacı olan 11 mindən çox şəhid ailəsi və müharibə əlili mənzil, fərdi evlə təmin ediləcək.

Komplekslə tanışlıqdan sonra Prezident İlham Əliyev şəhid ailələrinin üzvləri və müharibə əlilləri ilə görüşdü.

Dövlətimizin başçısı görüşdə çıxış etdi.

## Prezident İlham Əliyevin çıxışı



– Bu gün Bakının Ramana qəsəbəsində şəhid ailələri və müharibə əlilləri üçün yeni yaşayış kompleksi istifadəyə verilir. Bu münasibətlə sizi təbrik edirəm. Burada otuz bina inşa edilibdir. Binaların hamısı müasir səviyyədə, yüksək keyfiyyətlə tikilib, mənzillər də çox genişdir, işıqlıdır. Uşaq bağçası, 1200 şagird yerlik məktəb inşa edilir. Yəni, yaşayış üçün bütün imkanlar var və bu münasibətlə sizi ürəkdən təbrik edirəm. Müharibədən cəmi üç ay yarım keçib, ancaq şəhid ailələri və müharibə əlilləri üçün artıq belə gözəl yaşayış kompleksi, şəhərcik inşa olunub, təqdim edilib.

Bu gün, eyni zamanda, Şağan qəsəbəsində reabilitasiya mərkəzinin əsaslı təmirdən sonra açılışı da olub. Orada da minlərlə qazi hər il müalicə alacaq, reabilitasiyadan keçəcək, öz sağlamlığını bərpa edəcək. Eyni zamanda, müharibə dövründə əlini, qolunu itirmiş qazilərimiz üçün də ən müasir protezlər sifariş edilibdir. Mənə bu gün verilən məlumata görə, 300-dən çox qazimiz bu protezlərlə təmin ediləcək. Bizim ayaqlarını itirmiş qazilərimizin artıq bir neçəsi bu protezlərlə təmin edilib və onlar normal həyata dönə biliblər. Bu protezlər dünyanın aparıcı şirkətlərinin məhsuludur, ən müasir protezlərdir. Bu protezlər imkan verəcək ki, bizim qazilərimiz normal həyata qayıda bilsinlər.

Dövlət şəhid ailələri, müharibə əlilləri üçün əlindən gələni edir. Mənim bu sahədəki siyasətim birmənalıdır. Son 17 il ərzində şəhid ailələri ilə müxtəlif tədbirlərdə dəfələrlə görüşmüşəm. Bu günə qədər 9200-ə yaxın şəhid ailəsi, müharibə əlili dövlət tərəfindən mənzillərlə təmin edilib. Təkcə keçən il 1572 mənzil verilibdir. Bu il isə 3 minə yaxın mənzil veriləcək. Beləliklə, həm Birinci, həm İkinci Qarabağ müharibəsində şəhid olmuş övladlarımızın Bakıda, Sumqayıtda, Abşeron rayonunda yaşayan ailələrinə bu ilin sonuna qədər mənzillər veriləcək. Yəni, bu proqramı biz Bakı, Sumqayıt və Abşeron rayonunda bu ilin sonuna qədər tam icra edəcəyik. Digər şəhər və rayonlarımızda yaşayan şəhid ailələri üçün binaların, fərdi evlərin tikintisi davam etdirilir. Əminəm ki, yaxın gələcəkdə bu proqram tam icra olunacaqdır. Onu da bildirməliyəm ki, müharibə əlillərinə 7200-ə yaxın minik avtomaşını verilib.

Mən bu rəqəmləri sadalamaqla dövlətin bu kateqoriyadan olan insanlara qayğısını bir daha dilə gətirmək istəyirəm. Bildirmək istəyirəm ki, Azərbaycan bu sahədə də dünya miqyasında ən qabaqcıl yerlərdədir. Dünyada müharibələr çox olub, itkilər çox olub. O qədər də uzaq olmayan tarixə nəzər salsaq, görərik ki, müxtəlif ölkələrdə müharibələrdə həlak olmuş insanların yaxınlarına heç vaxt bizdəki



qədər qayğı, diqqət göstərilməyib. Onu da bildirməliyəm ki, Ermənistan ordusunda da itkilər olub və İkinci Qarabağ müharibəsində müxtəlif rəqəmlər səslənir. Bizdə olan məlumata görə, təqribən 6-7 min işğalçı məhv edilibdir. Onların birinin də ailəsinə Ermənistan dövləti heç bir yardım etməyib. Ümumiyyətlə, Ermənistanda bizdə olan proqram mövcud deyil. Müharibədə həlak olmuş insanların yaxınlarına nəinki ev, bir daxma da verilmir. Hər şey müqayisədə ölçülür. Bizim bu sahədəki siyasətimiz birmənalıdır. Bu siyasət mənəvi normalara əsaslanır və Vətən uğrunda canından keçmiş insanların yaxınları dövlət tərəfindən bundan sonra da qayğı ilə, diqqətlə əhatə olunacaqlar. Son illər müavinətlərin, pensiyaların məbləğinin artırılması göz qabağındadır. Azərbaycan dövləti bu siyasəti bundan sonra da davam etdirəcək.

İkinci Qarabağ müharibəsində 3 minə yaxın şəhidimiz olub. Mən, o cümlədən bunların arasında mülki vətəndaşları da nəzərdə tuturam. Allah bütün şəhidlərimizə rəhmət eləsin. Allah sizə, onların yaxınlarına səbir versin. Şəhidlərimizin ruhu qarşısında baş əyirik. Bildirməliyəm ki, şəhidlərimizin qanı yerdə qalmayıb. Biz Birinci Qarabağ müharibəsinin şəhidlərinin, İkinci Qarabağ müharibəsinin şəhidlərinin qanını aldıq. Düşməndən intiqamımızı aldıq, ərazi bütövlüyümüzü bərpa etdik və şəhidlərimizin əziz xatirəsini qəlbimizdə əbədi yaşadacağıq.

Birinci Qarabağ müharibəsində 12 mindən çox şəhidimiz olmuşdur və 4 minə yaxın hərbçimiz itkin düşmüşdür, təqribən 16 min itkimiz olmuşdur və torpaqlarımız işğal altına düşmüşdür. İkinci Qarabağ müharibəsində şəhidlərimizin sayı müharibənin miqyasına görə həddindən artıq azdır. Əlbəttə, hər bir şəhidimizin xatirəsi bizim üçün əzizdir. Hər bir insanın həyatı qiymətsizdir. Ancaq nəzərə alsaq ki, genişmiqyaslı müharibə aparılıb və ilk günlərdən əks-hücum əməliyyatı, əslində, hücum əməliyyatına çevrilmişdir. Ermənilərin otuz il ərzində qurduqları istehkamları, 5-6 xətt müdafiə istehkamlarını və o bölgənin relyefini nəzərə alsaq, tam qətiyyətlə deyə bilərik ki, biz istədiyimizə az itkilərlə nail olduq. Hətta dünyanın aparıcı ölkələrinin hərbi ekspertləri təəccüb edirlər ki, biz torpaqlarımızı işğalçılardan belə az itkilərlə azad etdik. Nəyə görə? Çünki bütün əməliyyatlar planlaşdırılanda ən vacib amillərdən biri itkilərin az olması idi. Hər gün əməliyyat planını təsdiq edərkən o amil ön planda idi.

Müharibə itkisiz olmur. Bizim müharibəmiz azadlıq müharibəsi idi, ədalətli müharibə idi. Ermənistan işğalçılıq müharibəsi aparırdı. Haqq-ədalət bizim tərəfimizdədir. Ona görə bizim hərbçilərimiz şəhidlik zirvəsinə ucalaraq Vətən qarşısında öz vətəndaşlıq borcunu şərəflə yerinə yetirmişlər. Minlərlə hərbçimiz yüksək dövlət orden və medalları ilə təltif edilmişdir. Onların qəhrəmanlığı, şücaəti, fədakarlığı hər bir azərbaycanlı üçün örnək olmalıdır, gənc nəsil üçün örnək olmalıdır və olacaq.

Biz ədaləti bərpa etdik, otuz il ərzində işğal altında olan torpaqları qaytardıq və dövlətimizin, xalqımızın gücünü göstərdik. Müharibənin ilk günündən üstünlük bizim tərəfimizdə idi. Düşmən demək olar ki, panikaya, isterikaya qapılmışdı. Ermənistan ordusunda onların özlərinin etirafına görə 10 mindən çox fərari olmuşdur. İndi Ermənistan dövləti bilmir ki, bu fərariləri necə mühakimə etsin. Çünki bu da böyük problemlərə gətirib çıxara bilər. Azərbaycan Ordusunda bir nəfər də fərari olmamışdır. Halbuki Birinci Qarabağ müharibəsində fərarilər olub.

Birinci Qarabağ müharibəsində bizim qəhrəman övladlarımız şücaət göstərmişdilər. Ancaq o vaxt




Azərbaycanın başında olan insanlar lazımi tədbirlər görə bilməmişdilər. Xüsusilə AXC-Müsavat cütlüyünün dövründə Şuşanın, Laçının, Kəlbəcərin düşmənə verilməsi böyük xəyanət idi və faktiki olaraq müharibənin sonrakı gedişatını şərtləndirdi. Çünki Ermənistanla Dağlıq Qarabağ arasında coğrafi bağlantı yaradılmışdır və ondan sonra digər torpaqların işğalı üçün ermənilərin çox böyük üstünlüyü yaranmışdır.

O vaxt faktiki olaraq bizim bölgələrimizin müdafiəsi demək olar ki, özünümüdafiə qüvvələrinin öhdəsinə buraxılmışdı. Nizami ordu yox idi. Hətta insanları Kəlbəcərdən, Laçından çıxarmaq üçün lazımi tədbirlər görülməmişdi, ona görə də, əhali arasında böyük itkilər olmuşdu. Sabah Xocalı soyqırımının 29-cu ildönümüdür. Xocalı soyqırımı insanlığa qarşı törədilmiş cinayətdir. Bu cinayəti Ermənistan dövləti törədib. Xocalı qurbanlarının da qanı İkinci Qarabağ müharibəsində alındı.

Əlbəttə ki, biz bütün bu illər ərzində müharibəyə hazırlaşırdıq. Bunu heç gizlətmirdik. Çünki bizim torpaqlarımız işğal altında idi və biz görürdük ki, bu məsələnin sülh yolu ilə həlli mümkün deyil. Artıq son illər ərzində buna tam əmin idik. Ermənistan rəhbərliyinin davranışı, təxribat xarakterli çıxışları, addımları bizi və deyə bilərəm ki, beynəlxalq ictimaiyyəti əmin etmişdir ki, bu müharibənin sülh yolu ilə həlli mümkün deyil. Halbuki bu məsələ ilə məşğul olan Minsk qrupuna həmsədrlik edən ölkələrin yüksəkvəzifəli rəsmi nümayəndələri daim təkrarlayırdılar ki, münaqişənin hərbi həlli yoxdur. Amma biz görürdük ki, münaqişənin sülh yolu ilə həlli yoxdur. Çünki əks-təqdirdə 30 il ərzində bu məsələ həll olunardı. Deməli, buna maraq yoxdur,

yaxud da ki, belə nə hərb, nə sülh vəziyyəti kimisə qane edirdi. Kimisə qane edirdi ki, Azərbaycan xalqı 30 il ərzində belə vəziyyətdə yaşasın. Kimisə qane edirdi ki, bizim torpaqlarımız işğal altındadır və sanki Azərbaycana bu, müəyyən təzyiq mexanizmi kimi qəbul edilirdi. Bizi inandırmağa çalışırdılar ki, indi reallıq yaranıb, 30 il ərzində bu reallıq mövcuddur və Azərbaycan bu reallıqla barışmalıdır. Mən isə deyirdim ki, heç vaxt biz bu vəziyyətlə barışmayacağıq. Mən deyirdim, heç vaxt imkan verməyəcəyik ki, bizim torpağımızda ikinci qondarma erməni dövləti yaradılsın və imkan vermədik. Bütün gücümüzü səfərbər etdik, bir çox illər ərzində ardıcıl siyasət apardıq, həm beynəlxalq müstəvidə, həm iqtisadi sahədə, həm qonşu ölkələrlə münasibətlərdə, regional layihələrin icrasında və əlbəttə ki, ordu quruculuğunun təkmilləşdirilməsi üçün böyük işlər gördük. Eyni zamanda, gənc, vətənpərvər, Vətəni hər şeydən çox sevən nəsil yetişdi. Bax, bu nəsil torpaqlarımızı azad etdi. Şuşada Cıdır düzündə Azərbaycan xalqına müraciət edərkən demişdim ki, mən 2003-cü ildə hakimiyyətə gələndə bu gün 25-30 yaşında olan insanlar uşaq idi. Biz onları vətənpərvərlik ruhunda, dövlətə sədaqət ruhunda yetişdirdik və onlar bizim torpaqlarımızı işğalçılardan azad etdilər. O cümlədən işğal edilmiş torpaqlarda heç vaxt olmayan, amma əslən o torpaqlardan olan gənclər torpaqları uğrunda aslan kimi vuruşurdular. Bütün Azərbaycan xalqı, Azərbaycanda yaşayan bütün xalqların nümayəndələri bir yumruq kimi birləşərək düşməni məğlub edib və torpaqlarımızı işğaldan azad ediblər. Bu, tarixi hadisədir. Azərbaycan tarixində buna oxşar parlaq qələbə olmamışdır. Azərbaycan bütün dünyaya öz gücünü göstərdi, xalqımızın iradəsini göstərdi. Bir daha bütün dünya gördü ki, əgər iradə varsa, güc varsa, xalq-iqtidar birliyi, əzmkarlıq və cəsarət varsa, haqq-ədalət öz yerini tapır. Biz bunu nümayiş etdirdik.

İndi baxın, Ermənistan nə gündədir. Orada böhran yaşanır, gündə toqquşmalar, həbslər baş verir, demokratik əsaslar demək olar ki, tamamilə pozulub. Ermənistan heç vaxt bu cür acınacaqlı vəziyyətdə olmamışdır. Onları bu vəziyyətə salan onların rəhbərləridir. Həm 20 il Ermənistana başçılıq edən xunta rəhbərləri – Köçəryan-Sarkisyan xuntası, həm ondan sonra gələn hakimiyyət. Sonra gələn hakimiyyətin qarşısında seçim var idi – ya işğalçılıq siyasətini davam etdirəcək və özünü bədbəxt edəcək, ya da ki, öz xoşu ilə bizim torpağımızdan çıxacaq. Bu şansı biz verdik və mən hətta müharibə dövründə dəfələrlə demişdim ki, bizə tarix versinlər, onlar hansı tarixdə hansı bölgələrdən çıxırlar və biz müharibəni dayandırırıq. Belə də oldu, tarix verilən kimi müharibə dayandı. Ancaq onlar məcbur olub bu tarixi bizə verdilər, öz xoşuna yox. Biz artıq onların ordusunu, Ermənistan ordusunun canlı qüvvəsini məhv edəndən, onlar diz çökəndən sonra buna məcbur oldular və kapitulyasiya aktına imza atdılar və bizim qələbəmiz təsdiq olundu.

Onsuz da biz bütün torpaqları azad edəcəkdik. Ancaq itkilər çox ola bilərdi, xüsusilə Kəlbəcər, Laçın istiqamətində. Artıq qış gəlmişdi, qar yağmağa başlamışdı, orada bizim itkilərimiz çox ola bilərdi. Ona görə düşməni hərbi yolla məğlub etdik, torpağımızdan qovduq, Şuşa şəhərini və digər şəhərləri işğalçılardan azad etdik. Ondan sonra Laçın, Kəlbəcər rayonlarını və Ağdam rayonunun bir hissəsini siyasi yollarla qaytardıq və artıq bizim nəzarətimizdədir.

Müharibədən sonrakı dövrə gəldikdə indi hər kəs görür ki, Azərbaycanda inkişaf gedir, quruculuq işləri başlayıb, Ermənistanda isə böhran hökm sürür, bir-birilərini ittiham edirlər, bir-birilərini didirlər. Hər zaman xarici nümayəndələr bizə deyirdilər ki, Ermənistan cəmiyyəti birlik nümayiş etdirir və Ermənistan cəmiyyətində milli birlik var. İndi biz görürük haradadır bu milli birlik. Bu məğlubiyyətdə bir-birilərini ittiham edirlər, bir-birilərini günahlandırırlar, kütləvi həbslər baş verir. Amma nədənsə demokratiyadan dəm vuran bəzi qeyri-hökumət təşkilatları və bəzi hökumətlər buna göz yumurlar. Necə olur Ermənistanda müxalifət gündəlik formatda əzilir, dağıdılır, həbs edilir, öldürülür, amma buna heç kim reaksiya vermir. Bu, nəyi göstərir? Necə deyərlər, həmin 30 illik tarix bir daha əks etdirir ki, biz bu qələbəni təkcə Ermənistan üzərində qazanmamışıq. Bizə qarşı mütəşəkkil və güclü dairələr birləşib bizim torpağımızı əbədi işğal altında saxlamaq istəyirdilər. Ermənistan, sadəcə olaraq, bir alət idi, bir vasitə idi. Biz bunu dağıtdıq. Biz bu məkrli siyasəti alt-üst etdik və haqq-ədaləti bərpa etdik.

Ermənistan rəhbərliyi indi gileylənir ki, onlara verilən silahlar yararsız idi. Bilirsiniz, kimisə günahlandırmaq hər şeydən asandır. Ancaq onu da deməlidirlər ki, bu silahlar onlara pulsuz verilmişdir, müftə verilmişdir. Özü də bir il yox, iki il yox, 30 il ərzində onları bizə qarşı silahlandırırdılar. Biz indi bütün imkanlardan istifadə edib bölgədə gedən prosesləri diqqətlə izləyirik, bizim imkanlarımız var, informasiya mənbələrimiz kifayət qədər çoxdur. Biz bilirik müharibə dövründə Ermənistana nə qədər pulsuz silah verildi, müharibədən əvvəl nə qədər verildi. İyul toqquşmasından dərhal sonra, iyulun 17-dən başlayaraq müharibənin son gününə qədər Ermənistana gündə bir neçə təyyarə pulsuz silah gətirirdi. Həmin o "İskəndər" raketlərini Ermənistan pulla alıb? Pulsuz alıb. "Elbrus", "Toçka-U", "Skad"

raketlərini pulla alıb? Pulsuz alıb. "S-300", hansı ki, biz yeddisini məhv etmişik, onlar da pulsuz verilib, tanklar da, toplar da, digər hava hücumuna qarşı sistemlər də. Biz onların hamısını məhv etmişik. Ermənistan ordusu yoxdur, bitib, qurtarıb.

Amma bir neçə gün əvvəl eşitmişəm ki, indi onların müttəfiqləri Ermənistan ordusunu yenə də canlandırmaq istəyirlər, onları modernləşdirmək istəyirlər. Nəyə görə? Kimə qarşı? Müharibə başa çatıb. Əgər kimsə revanşist fikirlərlə yaşayırsa, bax, bu yumruğu görəcək, bu, yerindədir və bizim səbrimizi sınamasınlar. Ermənistan ordusu bitdi, yoxdur və olmamalıdır. Belə bir faşist dövlətdə ordu olmamalıdır. Biz heç vaxt imkan verməriк ki, bizim üçün hər hansı bir təhlükə yenidən yaransın, yaxud da ki, azad edilmiş torpaqlara qayıdacaq vətəndaşlarımız hər hansı bir risk hiss etsinlər.

Biz bütün işlərə nəzarət edirik. Biz ordumuzu bundan sonra da gücləndirəcəyik. Yeni kontraktlar imzalanıb, ən müasir silahlar alınır, artıq onlar gətirilir. Dünyada hansı müasir silah varsa, onlar da artıq kontraktlanıb və Azərbaycana gətiriləcək. Müharibə, eyni zamanda, ordunun gələcək təkmilləşdirilməsi məsələlərini də üzə çıxarıb. Aparılacaq islahatlar daha da çevik, daha da döyüşkən və döyüş qabiliyyəti yüksək olan ordunun yaranmasına gətirib çıxaracaqdır.

Müharibədən sonra bu gün dünyada yeni reallıq yaranıb. Bu reallığı biz yaratmışıq, Azərbaycan xalqı yaradıb. Biz iradə göstərmişik, güc göstərmişik. Bəli, biz gözləmişik. Həyat göstərdi ki, ən düzgün an seçilmişdir. İyul ayında bizə qarşı sərhəddə təxribat törədiləndə də biz əks-hücuma keçə bilərdik. Ancaq o vaxt mən əks-hücum əməliyyatını dayandırmışdım. Biz erməniləri öz torpağımızdan qovub, düz sərhədə gəlib, sərhədin o tərəfinə keçmədik. Bizi buna təhrik etmək istəyirdilər. Bizi təxribata çəkmək istəyirdilər. Əgər biz o vaxt - iyul ayında Ermənistan ərazisinə keçsəydik, əgər mən o vaxt ordumuzu dayandırmasaydım, vəziyyət başqa cür ola bilərdi. Bizi, əslində, buna təhrik edirdilər, təxribata təhrik edirdilər. Ermənistandan atılan raketlər Gəncənin, Bərdə, Tərtər, Goranboy, Naftalan, Ağdam, Füzuli rayonlarımızın dağılmasına gətirib çıxarmışdır. Onların atdığı raketlərin biri Xızıya gəlib çatmışdır. Görün, Xızını döyüş bölgəsindən neçə kilometr məsafə ayırır. Ona görə, bu təxribat planları var idi və düzgün an, düzgün məqam seçildi və düzgün addımlar atıldı. Ermənistan ordusunu 44 günə məhv etdik, onların əsrlərboyu yaratdıqları mifləri darmadağın etdik. Göstərdik ki, müzəffər xalq Azərbaycan xalqıdır. Göstərdik ki, döyüşkən xalq Azərbaycan xalqıdır. Onlar bizim qabağımızda diz çökdülər. Onlar heç vaxt belə rəzil vəziyyətdə olmamışdılar. Kimsə onları cəzalandırmalı idi, yoxsa yox? Bütün dünyaya meydan oxuyurlar. Bütün dünyaya əsassız tələblər irəli sürürlər. Sanki hər kəs bunlara kömək etməlidir, bunları müftə yedizdirməlidir, içizdirməlidir, silahla təmin etməlidir. Bir zəli kimi yapışıblar dünya ölkələrinin vücuduna. Bizim torpağımızı işğal edib, insanları evsiz-eşiksiz qoyub, tarixi abidələrimizi, məscidlərimizi dağıdıb. Ondan sonra da deyib ki, bu, erməni torpağıdır. Kimsə bunları cəzalandırmalı idi, yoxsa yox? Kimsə onları çökdürməli idi, yoxsa yox? Biz bunu etdik. Tarixi qələbədir, tarixi nailiyyətdir. Bir daha demək istəyirəm ki, bu qələbəni biz şəhidlərimizin qanı hesabına qazanmışıq. Şəhidlər bizim qəlbimizdə əbədi yaşayır, yaşayacaq. Allah sizə səbir versin. Siz analar, atalar xalqımız üçün, dövlətimiz üçün gözəl insanlar yetişdirmisiniz. O insanların ömrü uzun olmadı, amma onlar əbədiyyətə qovuşdu və onlar öz adlarını Azərbaycan xalqının şanlı tarixinə əbədi yazdırdı.

Mən sizə öz hörmətimi bildirmək istəyirəm. Bildirmək istəyirəm ki, Azərbaycan dövləti və mən Prezident kimi hər zaman sizin yanınızda olacağam.

***

Şəhid Milli Qəhrəman İlqar İsmayılovun anası **Fatma Qocayeva** dedi:

– Hörmətli cənab Prezidentimiz, mən Birinci Qarabağ müharibəsinin şəhid Milli Qəhrəmanı İlqar İsmayılovun 90 yaşlı anasıyam. Mən bütün şəhidləri öz övladım hesab edirəm. Ona görə də bütün şəhidlərin valideynləri adından, öz adımdan Sizə minnətdarlıq bildirmək istəyirəm ki, Siz Qarabağın azadlıq sevincini bizə yaşatdınız. Otuz il gözləsək də, o həsrətdən bizi qurtardınız. Bu, böyük fəxrdir. Şəhid ailələri də, şəhid valideynləri də bunun üçün Sizə minnətdardır. Şəhidlərin də ruhu şad oldu, torpaqda rahat uyudular. Onu da qeyd edim ki, Siz Şuşanın azad olunmasını elan edərkən, "Şuşa sən azadsan!" deyərkən elə bir azərbaycanlı tanımıram ki, onun gözündə sevinc yaşı olmasın. Bu, bizim fəxrimiz oldu.

Qeyd etmək istəyirəm ki, Qubadlının iki polisi - İlqar İsmayılov, Əli Məmmədov bir çox kəndləri azad edə-edə Laçın dağlarının ən yüksək zirvəsi olan Qızartı yüksəkliyinə çıxıb Laçın dəhlizini bağlamaq tapşırığı almışdılar. O yüksəkliyə çıxanda onlar məşhur idmançı polislər idi. Çox ağır döyüşlə rastlaşıblar. Ermənilər əvvəlcədən oranı zəbt ediblərmiş. Onlar mühasirəyə düşüblər. Erməni başbilənləri onlara güllə atmayıb. "Onlar bizə diri lazımdır" deyəndə komandir olan İlqar deyib ki, uşaqlar soyuqqanlı olun. Bir atəşlə hamımız onları yerə sərməliyik. Sağ qalanların dediyinə görə, qumbara atmaqla, tüfənglə, avtomatla, bir çox silah-sursatla 48 erməninin meyitləri yerə sərilib. Axırda



İlqar deyib ki, biz bunlara təslim olmamalıyıq. Bıçaqları çıxarın əlbəyaxa döyüşə keçək. Orada əlbəyaxa döyüş gedib, bu cəsur oğullar şəhid olublar. İndi Şuşa, Laçın azad olunandan sonra o dağlara baxıb deyirəm, orada bitən qırmızı lalələr, sizə qurban olum. Sizin rənginiz ona görə qırmızıdır ki, o igidlərin qanından su içmisiniz. İndi Prezidentimizin sayəsində, şəhidlərin qanı bahasına torpaqlarımız azaddır, Şuşa da, Laçın da bizimdir. Bizim şəhidlərin ruhu bir də ona görə şaddır ki, cənab Prezident, Siz şəhid ailələrinə böyük qayğı ilə yanaşırsınız, onların hər bir ehtiyacını çox həvəslə ödəyirsiniz. Bu gün bizi buraya dəvət edib ehtiyacı olan şəhid ailələrinə ev bağışlamaqla yenidən öz qayğınızı göstərirsiniz. Xalqımız bunu duyur, hiss edir ki, biz Prezidentimizin himayəsindəyik.

Mən həmişə demişəm, heç kəs qorxmasın ki, gedib şəhid olaram, ailəm baxımsız qalar. Bizim Prezidentimiz hər bir şəhid ailəsinin qayğısına qalır. Sizə bütün şəhid ailələri adından, öz adımdan təşəkkür və minnətdarlıq edirəm ki, Siz bizi bu cür qayğı ilə əhatə edirsiniz. Allah Sizi qorusun, dövlətimizi, xalqımızı qorusun. Bütün şəhidlərimizə rəhmət, qazilərimizə cansağlığı diləyirəm. Sizinlə fəxr edirik. Allah Sizi həmişə qorusun. Sağ olun.

***

İkinci qrup Qarabağ müharibəsi əlili **Rahim Babayev** dedi:

– Cənab Prezident, müzəffər xalqın Müzəffər Ali Baş Komandanı, Sizə Qarabağ qaziləri adından, şəhid ailələri adından böyük təşəkkürümüzü, minnətdarlığımızı bildiririk. Ona görə ki, Siz nəinki bizim Azərbaycan xalqına, bütün türk dünyasına bir hədiyyə etdiniz - Qarabağ hədiyyəsi!

Vaxt uzandıqca son zamanlar insanlarda ümidsizlik yaranmışdı. Amma Siz bütün bu ümidsizliyə son qoydunuz. Dünyanın bir çox ölkələrində müharibələr olur, amma 44 günlük müharibə olmur. 44 gün ərzində belə bir nəticə heç bir yerdə, heç bir ölkədə olmayıb, amma bunu Siz etdiniz. Təkcə Azərbaycan xalqı deyil, bütün türk dünyası Sizinlə fəxr edir. Siz bütün dünyaya türkün gücünü və Sizin dediyiniz o "dəmir yumruğu" göstərdiniz və sübut etdiniz. Biz qazi olaraq, əsgər olaraq yenə də Sizin bütün əmr və sərəncamlarınızı yerinə yetirməyə hazırıq.

Hörmətli Prezident, biz qazi olaraq həyatda hər zaman Sizin qayğınızı hiss edirik. Bizim təqaüdlərimiz, pensiyalarımız məhz Sizin sərəncamlarınız əsasında mütəmadi surətdə ilbəil, aybaay artırılır. Məhz bu ilin əvvəlində də sərəncamınızla Qarabağ müharibəsi əlillərinin, şəhid ailələrinin pensiya və təqaüdləri artırıldı.

Bir neçə il bundan əvvəl biz Qarabağ qazilərinə avtomobil hədiyyə etmisiniz. Mənə də o avtomobildən hədiyyə olunub. Hazırda o avtomobili idarə edirəm. Bu gün isə məni evlə təmin edirsiniz.

Cənab Prezident, Siz nəinki bu xalqa, bütün türk dünyasına lazım olan insansınız. Allah Sizi qorusun. Var olun, sağ olun. Vətən sağ olsun!

**Prezident İlham Əliyev:** Çox sağ olun.

***

Sonda xatirə şəkli çəkdirildi.

# İlham Əliyev yerli və xarici media nümayəndələri üçün mətbuat konfransı keçirib



Fevralın 26-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yerli və xarici media nümayəndələri üçün mətbuat konfransı keçirib.

Media nümayəndələrinə müraciət edən **Prezident İlham Əliyev** dedi:

– Bu gün Xocalı soyqırımının 29-cu ildönümüdür. Xocalı faciəsi Ermənistan tərəfindən Azərbaycan əhalisinə qarşı törədilmiş qanlı cinayətdir, soyqırımıdır. Bu soyqırımı nəticəsində 613 mülki şəxs xüsusi qəddarlıqla qətlə yetirilmişdir. Onlardan 106-sı qadın, 63-ü uşaq idi. Xocalı soyqırımını törədənlər hərbi cinayətkarlardır. Onların bir çoxu İkinci Qarabağ müharibəsində Azərbaycan Ordusu tərəfindən məhv edilmişdir.

Xocalı soyqırımı Ermənistan faşizminin təzahürü idi. Ermənistan faşizmi o vaxt baş qaldırırdı və 1992-ci ildən son hadisələrə qədər erməni faşizmi Azərbaycan xalqına böyük zərbə vurmuşdur. Hərbi təxribatlar, terror aktları, dinc əhaliyə qarşı qəddarlıq, şəhərlərimizin, kəndlərimizin atəşə tutulması, eyni zamanda, İkinci Qarabağ müharibəsi dövründə ballistik raketlərlə dinc şəhərlərin bombalanması – bütün bunlar erməni faşizminin təzahürləridir.

Xocalı soyqırımı dünya ictimaiyyəti tərəfindən tanınır, 10-dan çox ölkə bu hadisəni rəsmən soyqırımı kimi tanımış, təsdiq etmişdir və bu proses davam etdirilir. Azərbaycan dövləti, eyni zamanda, ölkəmizin ictimai təşkilatları bu sahədə böyük fəallıq göstərirlər və bu gün dünyada Xocalı soyqırımı haqqında kifayət qədər dolğun məlumat vardır. Ermənistan dövlətinin hərbi cinayətləri sənədləşdirilib, video, foto materiallar kifayət qədər geniş auditoriyaya təqdim edilibdir. İndi bütün dünya görür və bilir ki, Azərbaycan xalqı XX əsrin sonunda soyqırımına məruz qalmışdır.

Xocalı soyqırımının törədilməsi ilə Ermənistan, əslində, Azərbaycan xalqının iradəsini qırmaq istəyirdi. Təsadüfi deyil ki, Ermənistan rəhbərləri – hərbi cinayətkarlar xarici jurnalistlərə müsahibə verərkən, bu barədə sualı cavablandırarkən qürur hissi ilə qeyd edirdilər ki, bəli, Ermənistan bu hərbi cinayəti dinc əhaliyə qarşı törədib. Ona görə ki, Azərbaycan xalqı görsün, Ermənistan rəhbərliyi dinc əhaliyə də əl qaldıra bilər. Biz isə Xocalı qurbanlarının intiqamını döyüş meydanında aldıq. 44 gün davam edən İkinci Qarabağ müharibəsində Ermənistan ordusunu darmadağın edərək, öz tarixi torpaqlarımızı işğalçılardan azad edərək, o cümlədən Xocalı qurbanlarının da qanını aldıq. Azərbaycan güclü dövlət kimi heç vaxt imkan verməz ki, bir daha erməni faşizmi baş qaldırsın, halbuki belə meyillər görünməkdədir. Bu gün

Azərbaycan öz fəaliyyəti ilə bölgənin gələcək inkişafına töhfə verir, bölgədə sabitliyin tam bərqərar olması üçün əməli addımlar atır.



Bu günlərdə Azərbaycanda bir çox tədbirlər keçirilir və bu tədbirləri işıqlandırmaq üçün xaricdən böyük bir jurnalist qrupu gəlmişdir. Mən onlara təşəkkürümü bildirirəm ki, bu hadisələri, bu soyqırımını işıqlandırmaq üçün bu gün Azərbaycandadırlar. Eyni zamanda, bilirəm ki, onların bəziləri azad edilmiş torpaqlara getmişlər, o dağıntıları öz gözləri ilə görmüşlər və bundan sonra da gedəcəklər. Buna görə bir daha dərin təşəkkürümü bildirirəm.

Mənə məlumat verildi ki, xarici jurnalistlər mənimlə görüşmək, müsahibə almaq istəyirlər. Onların sayının çox olmasını nəzərə alaraq, belə qərara gəldim ki, biz bu formatda görüşək. Təbii ki, pandemiya bizim işimizə də təsir göstərir. Amma hesab edirəm, bu canlı bağlantı imkan verəcək ki, mən jurnalistləri maraqlandıran suallara cavab verim. Buyurun.

Azərbaycan Prezidentinin köməkçisi **Hikmət Hacıyev:** Möhtərəm cənab Prezident, icazənizlə yerli və xarici media nümayəndələrinin iştirakı ilə mətbuat konfransımıza başlayırıq. Söz verilir "Azərbaycan Televiziya və Radio Verilişləri" Qapalı Səhmdar Cəmiyyətinin nümayəndəsinə.

**Azərbaycan Televiziyası:** İlk növbədə, bu imkanı yaratdığınıza görə təşəkkür edirəm. Siz artıq qeyd etdiniz ki, Xocalı soyqırımının törədilməsindən ötən 29 il ərzində bir çox ölkələrin parlamentləri, eyni zamanda, beynəlxalq təşkilatlar tərəfindən bu qətliama soyqırımı kimi qiymət verilib. Bəs, hazırda beynəlxalq ictimaiyyət tərəfindən Xocalı soyqırımına münasibəti necə qiymətləndirirsiniz, onların mövqeyini necə qiymətləndirmək olar? Təşəkkür edirəm.

**Prezident İlham Əliyev:** Bilirsiniz, bir çox beynəlxalq təşkilatlar bu qanlı hadisəyə Azərbaycanın təşəbbüsü ilə öz münasibətini bildirmişlər və bu istiqamətdə işlər davam etdiriləcək. Əlbəttə, soyqırımı törədiləndə Azərbaycan demək olar ki, informasiya blokadasında idi. O vaxt müasir imkanlar da yox idi. Ona görə, bu məsələ bir çoxları üçün o qədər də aydın deyildi. Xüsusilə nəzərə alsaq ki, o illərdə Azərbaycanın beynəlxalq aləmdə o qədər də böyük imkanları yox idi və bunun müqabilində erməni lobbisi fəal çalışırdı, müharibə ilə, baş vermiş hadisələrlə bağlı yalan, təhrif edilmiş məlumatları ötürürdü. Beynəlxalq ictimaiyyətdə müəyyən yanlış fikirlər formalaşmışdı. Bu fikirləri aradan qaldırmaq, təkzib etmək üçün biz, əlbəttə ki, böyük səylər göstərməli idik və qeyd etdiyim kimi, dövlət olaraq, ictimai təşkilatlar olaraq son illər ərzində ardıcıl surətdə bu fəaliyyəti göstərmişik. İctimai təşkilatlar arasında, əlbəttə ki, xüsusilə Heydər Əliyev Fondunun fəaliyyətini qeyd etmək istəyirəm. "Xocalıya ədalət!" şüarı altında bir çox ölkələrdə müxtəlif tədbirlər keçirilib və bu gün Xocalı faciəsi haqqında dünya ölkələrində kifayət qədər dolğun məlumat var. Bizim əsas məqsədimiz ondan ibarətdir ki, bu qanlı cinayət heç vaxt unudulmasın, nə Azərbaycanda, nə də dünyada bu heç vaxt təkrarlanmasın və Azərbaycan heç vaxt 1990-cı illərin əvvəlində olan o aciz duruma düşməsin, Azərbaycan özünü, öz vətəndaşlarını hər zaman qoruya bilsin.

Hesab edirəm ki, bu gün dünyada Xocalı soyqırımı ilə bağlı artıq geniş məlumat var. Halbuki Ermənistan tərəfi müxtəlif yollarla yalan informasiyaları ortalığa atmaqla bu qanlı cinayəti də Azərbaycan dövlətinin üzərinə qoymaq istəyirdi. Guya ki, Azərbaycan özü Xocalı soyqırımını törətmişdir. Biz bu addımların təkrarını İkinci Qarabağ müharibəsində də gördük. Gəncəni, Tərtəri, Ağdamı, digər şəhərləri bombalayanda Ermənistan rəhbərliyi deyirdi ki, bunu Azərbaycan özü törədib. Halbuki atılan ballistik raketlər peyk tərəfindən izlənilir və böyük dövlətlər, ilk növbədə, Minsk qrupuna həmsədrlik edən dövlətlər bütün bu



mənzərəni izləyirdilər. Ballistik raketlər Gəncə, Tərtər, Bərdə və digər şəhərlərə Ermənistan ərazisindən buraxılmışdır. Yəni, növbəti erməni yalanı cəhdi göstərildi, amma keçmədi. Çünki artıq vəziyyət tam başqadır və bizim məlumatı ötürmək üçün imkanlarımız var.

Ona görə, mən tam əminəm ki, illər keçdikcə Xocalı soyqırımı haqqında həqiqətləri bütün dünya biləcək və bizim vəzifəmiz bundan ibarətdir. Biz bundan sonra da çalışacağıq ki, dünya ölkələri bu soyqırımı rəsmən soyqırımı kimi tanısınlar. Bu istiqamətdə işlər ardıcıl surətdə bundan sonra da aparılacaqdır.

**Türkiyənin "TRT Haber" telekanalı:** Cənab Prezident, əvvəlcə, Xocalıda şəhid olanları rəhmətlə anırıq. Sizi də Qarabağ Zəfəri münasibətilə bir daha təbrik edirik. Qarabağ Zəfərindən dərhal sonra Ermənistanda davamlı daxili siyasi qarışıqlıqlar müşahidə olunur. Siz bu məsələyə - Ermənistanda baş verənlərə necə baxırsınız? Orada baş verənlərin Sizin və Prezident Ərdoğanın bir əməkdaşlıq formatı təklifi vardır, ona bir mənfi təsiri ola bilərmi? Digər tərəfdən, orada hər hansı bir hakimiyyət dəyişikliyi ilə bağlı Azərbaycanın bölgədə hərbi tədbirləri artırması planlaşdırılırmı?

**Prezident İlham Əliyev:** Ermənistanda baş verən hadisələr Ermənistanın daxili işidir. Mən dünən şəhid ailələri ilə görüşdəki çıxışımda, o cümlədən Ermənistandakı vəziyyətə də toxundum. Ancaq onu bildirmək istəyirəm ki, o çıxış hadisələrdən əvvəl edilmişdir. Yəni, mənim şəhid ailələri ilə görüşüm təqribən saat 10:30-da olmuşdur və mən Ermənistandakı hadisələrdən ondan sonra xəbər tutdum. Ona görə istəyirəm, hər kəs bilsin ki, mənim şərhlərim bu hadisələrdən əvvəl edilmişdir.

Ancaq hadisələr onu göstərdi ki, mən tam haqlı idim. Çünki bu gün Ermənistan elə bir ağır durumdadır ki, orada gedən proseslər ölkənin dövlətçilik əsaslarını böyük dərəcədə sarsıdır. Bunun günahkarları Ermənistanın əvvəlki və indiki rəhbərləridir. Çünki iyirmi il ərzində Köçəryan-Sarkisyan xuntası Ermənistanı faktiki olaraq uçuruma aparırdı və böhranlı vəziyyətə gətirib çıxardı. Ölkə demək olar ki, bütövlükdə müstəqillik əlamətlərini itirmişdi, daha çox müstəmləkəyə bənzəyirdi. Bunun əsas səbəbi işğalçılıq siyasətidir. Çünki onlar torpaqlarımızı işğal altında nə qədər çox saxlamaq istəyirdilərsə, o qədər də asılı vəziyyətə düşürdülər.

Biz Ermənistanı ardıcıl olaraq bütün beynəlxalq, regional layihələrdən təcrid etmişdik. Ermənistanı iqtisadi cəhətdən sarsıtmaq, çökdürmək, təcrid etmək bizim siyasətimiz idi. Mən bunu heç vaxt gizlətmirdim və dəfələrlə açıq deyirdim, torpaqlarımız nə qədər ki, işğal altındadır, biz bu siyasəti aparacağıq. Deyirdim ki, Ermənistan öz silahlı qüvvələrini bizim torpaqlarımızdan çıxarsın, ondan sonra bölgədə işbirliyi də ola bilər, əməkdaşlıq da ola bilər və bizim siyasətimizdə dəyişiklik də ola bilər. Əfsuslar olsun ki, nə əvvəlki xunta rejimi, nə də ki, 2018-ci ildə hakimiyyətə gəlmiş hökumət bizim bu çağırışlara qulaq asmadı.

Əgər vaxtında qulaq assaydılar, bu gün belə rəzil duruma düşməzdilər.

Ermənistanda indi tamamilə böhranlı vəziyyət hökm sürür. Mən onların daxili vəziyyəti ilə bağlı hər hansı bir şərh vermək istəməzdim. Prinsip etibarilə biz heç vaxt başqa ölkələrin daxili işlərinə qarışmırıq, xüsusilə indiki həssas məqamda. Ancaq müharibənin nəticələri dəyişməz olaraq qalır və qalacaq. Noyabrın 10-da imzalanmış Bəyanat icra edilir və tam icra edilməlidir. O Bəyanatın müddəalarının böyük hissəsi artıq icra edilibdir. Ancaq elə məsələlər var ki, onlar indi müzakirə mövzusudur. Ümid edirəm ki, Ermənistanda yaranmış vəziyyətə baxmayaraq, noyabrın 10-da imzalanmış Bəyanat icra ediləcəkdir. Əks-təqdirdə, Ermənistan daha da ağır duruma düşəcək. Yəni, Ermənistan qarşısında seçim o qədər də böyük deyil. Onlar yeni reallıqlarla barışmalıdırlar, hesablaşmalıdırlar. Biz yeni reallıqlar yaratmışıq.

Otuz il ərzində bu məsələ ilə məşğul olan beynəlxalq qurumlar, eyni zamanda, ayrı-ayrı ölkələr bizə açıq, yaxud da qeyri-rəsmi mesajlar göndərirdilər ki, reallıq var, Azərbaycan müharibədə məğlub edilmiş tərəfdir, siz reallıqla barışın. Çalışın ki, bu reallıqdan özünüz üçün maksimum məqbul variant seçin, yəni, pis variantla daha pis variant arasında. Biz isə bildiyiniz kimi, belə çağırışları hər zaman rədd edirdik, öz mövqeyimizdən bir addım belə geri atmırdıq və mən bunu açıq bəyan edirdim. İndi isə, mən deyirəm ki, yeni reallıq yaranıb və bu reallığı biz yaratdıq. Bu reallıqla Ermənistan və eyni zamanda, bütün başqa ölkələr barışmalıdırlar, hesablaşmalıdırlar. İndi Ermənistan qarşısında bir neçə seçim var və onların arasında Ermənistan üçün ən məqbul seçim 10 noyabr Bəyanatının müddəalarını icra etməkdir. Əks-təqdirdə, onlar üçün daha da böyük problemlər yarana bilər.

**Rusiyanın TASS agentliyi:** Hər vaxtınız xeyir, cənab Prezident. İcazə versəniz, Sizə iki sualım var. Birinci sual logistikaya aiddir. Bu yaxınlarda Füzulidə aeroport tikintisinin başlanması barədə xəbər verilib. Siz belə işlərin aparılmasını, onlara heç nəyin mane olmamasını, obyektin hansı müddətdə istifadəyə veriləbiləcəyini və bu aeroportun beynəlxalq hava limanı olub-olmayacağını təsdiqləyə bilərsinizmi? İkinci sualım koronavirusa qarşı vaksinlərlə bağlıdır. Biz ümid edə bilərikmi ki, Rusiya vaksinləri Azərbaycanda qeydiyyata alınacaq? İcazə versəniz, şəxsi xarakterli bir sualım da var. Siz özünüz peyvəndlənəcəksinizmi və hansı preparata üstünlük verəcəksiniz? Sağ olun.

**Prezident İlham Əliyev:** Sağ olun. Füzulidə tikilən aeroport məsələsinə gəldikdə, bu işlər artıq başlanıb. Biz ərazinin minalardan təmizlənməsi ilə bağlı məsələlərin həllinə operativ surətdə başlamışıq. Ona görə ki, ilk növbədə, orada ərazini təmizləmək lazım idi. Bu proses başa çatmağa yaxındır və aeroport, hər halda onun uçuş-enmə zolaqları və aeroportun fəaliyyətini təmin edəcək naviqasiya sistemləri operativ müddətlərdə istifadəyə veriləcək. Aeroport beynəlxalq hava limanı olacaq. Uçuş-enmə zolaqları ən ağır təyyarələr və yük təyyarələri də daxil olmaqla bütün növ təyyarələri qəbul edə biləcək.

Əlbəttə, aeroportun tikintisinin nə vaxt başa çatacağını qabacadan demək çətindir, çünki ərazilərin minalardan təmizlənməsi, bu əraziyə gediş-gəlişin mümkünlüyü ilə bağlı məsələlər çətinlik doğurur. Lakin biz ümid edirik ki, aeroport bu il istifadəyə veriləcək. İstəyirik ki, bu, payızın əvvəlində olsun. Əgər bütün işlər plan üzrə getsə, aeroport payızın əvvəlində istifadəyə veriləcək. Bu, bizə həmin hava limanından həm xaricdən alacağımız yüklər nəzərə alınmaqla ərazilərin bərpası üçün, həm də qonşu dövlətlərin vətəndaşlarının Şuşa şəhərinə rahat gedib-gəlmələri üçün istifadə etməyimizə imkan verəcək. Ona görə ki, aeroport ilə eyni vaxtda Şuşa şəhərinə iki avtomobil yolu tikilir. Həmin yollardan birinə mən “Qələbə yolu” adı vermişəm. Azərbaycanın xüsusi təyinatlı qoşunları məhz həmin yolla meşələrdən və vadilərdən keçərək Şuşa şəhərinə gediblər. Nisbətən aran ərazidən keçən digər yol da aeroportdan birbaşa gediş-gəlişi təmin edəcək. Buna görə əminəm ki, xaricdə yaşayan azərbaycanlılar, həmçinin digər ölkələrin vətəndaşları belə bir imkana malik olacaqlar. Deməliyəm ki, bizim aeroportlar tikmək planlarımız təkcə Füzuli şəhəri ilə məhdudlaşmır. Biz ərazinin abadlaşdırılması proqramlarını, Zəngilanın çox mühüm logistika mərkəzinə çevriləcəyini nəzərə almaqla Laçında və Zəngilanda da aeroportlar tikməyi planlaşdırırıq. Bildiyiniz kimi, keçən il 10 noyabr tarixli Bəyanatın bir bəndi Ermənistan ərazisində Azərbaycanı onun Naxçıvan Muxtar Respublikası ilə birləşdirən, həmçinin Azərbaycanı Türkiyə ilə və eyni zamanda, Rusiyanı Türkiyə ilə birləşdirən dəhliz açılması barədə idi. Buna görə də bizim böyük planlarımız var və biz onları reallaşdıracağıq. Bu il ərazilərin bərpası üzrə kifayət qədər geniş xüsusi investisiya proqramı təsdiq edilib. Biz bağlanmış müqavilələr əsasında ilk ödənişləri həyata keçirməyə başlayırıq.

Vaksin məsələsinə gəldikdə, deməliyəm ki, pandemiyanın lap əvvəlindən biz vəziyyəti nəzarətdə saxlayırıq. Karantin rejiminin sərtləşdirilməsi və yumşaldılması üzrə görülmüş tədbirlər kifayət qədər səmərəli olub. Bizdə yoluxmanın səviyyəsi kifayət qədər aşağıdır. Koronavirusa yoluxmuş insanların sayı hazırda 200 mindən bir qədər çoxdur. Bugünkü vəziyyətə görə, aktiv xəstələrin sayı 2 mindən bir qədər artıqdır. Bizim xəstəxanalarda boş yerlər çoxdur. Ona görə ki, əvvələn pandemiyanın ilk aylarında biz 10-dan çox

modul tipli yeni xəstəxana yaratmışıq, həmçinin son iki ayda yoluxanların və sağalanların sayı arasında sağalanların xeyrinə müsbət dinamika müşahidə olunur. Biz həm də Cənubi Qafqazda peyvəndləməyə başlamış birinci ölkəyik. Biz peyvəndləməyə yanvarın 18-də başlamışıq, yəni Avropada peyvəndləmə başlanandan cəmi bir ay sonra.

Biz Çində istehsal edilmiş "CoronaVac" peyvəndi ilə vaksinasiya aparırıq. Deməliyəm ki, biz həm də lap əvvəldən "COVAX" layihəsinə qoşulmuşuq. Bu layihə üzrə biz "AstraZeneca", "Pfizer" və "Moderna" peyvəndlərini də almalıyıq. Bundan əlavə, biz Azərbaycana "AstraZeneca" vaksininin göndərilməsi barədə lap ilk günlərdən Rusiya tərəfi ilə müvafiq sənədlər imzalamışıq. Ona görə ki, Rusiya şirkətləri postsovet məkanında bu vaksinin, həmçinin "Sputnik" vaksininin distribüterləridir. Lakin hələlik bu vaksinlər bizə daxil olmayıb. Bizdə olan məlumata görə, "Sputnik" vaksini hələlik Rusiyanın daxili ehtiyaclarını təmin edir və xarici ölkələrə bu vaksin çox məhdud miqdarda göndərilib.

"CoronaVac" peyvəndinə gəldikdə isə bu vaksinin 4 milyon dozasının alınması barədə kontrakt bağlanıb. Mənə hər gün məruzə edirlər ki, bəzən gündə 15-20 min nəfər vaksinlənir. Yəni, bu istiqamətdə bütün imkanlardan istifadə edəcəyik. Bunun üçün müvafiq maliyyə vəsaitləri ayrılıb. Sadəcə, vaksinlərin istehsalçılardan gəlməsini gözləyəcəyik.

Bununla əlaqədar, onu da qeyd etmək istərdim ki, bizim beynəlxalq səviyyədə, o cümlədən Qoşulmama Hərəkatının sədri kimi təşəbbüsümüzlə BMT Baş Assambleyasının COVID-19-a həsr edilmiş xüsusi sessiyası keçirilib. 150-dən çox ölkə bu təşəbbüsü dəstəklədi. Sessiya ötən ilin dekabr ayında keçirildi. Mənim orada səsləndirdiyim tezislərdən biri vaksinlərin dünya ölkələri arasında ədalətli bölgüsü idi ki, bu məsələdə proteksionizm, millətçilik olmasın. Lakin təəssüf ki, tamam başqa mənzərə gördük. Görürük ki, hətta müttəfiqlər arasında da ciddi problemlər yaranır, kimin neçə vaksindən istifadə etməsini və kimin kimə nəyi yarımçıq verməsini hesablamağa başlayırlar. Ona görə bu vəziyyət bir daha göstərir ki, həmrəylik barədə, bu bəlaya qarşı birgə mübarizə barədə bütün bəyanatlara baxmayaraq, praktikada tamamilə əks vəziyyət görürük. Məsələn, bəzi ölkələr onlara lazım olandan 3-4 dəfə çox vaksin alıblar. Misal üçün Kanada. Mən bu barədə demişəm. Belə çıxır ki, kiməsə çatmayacaq. Amma bu, onlara maraqlı deyil. Onlar sözdə bərabərlik, insan haqları, demokratiya tərəfdarları kimi çıxış edir, praktikada isə milyonlarla insanın, yoxsul ölkələrdə yaşayan və buna imkanı olmayan insanların hüquqlarını tapdalayırlar. Hətta bu insanların imkanları olsa belə, sadəcə, onlar üçün əlçatan deyil. Sizə açıq deməliyəm, əgər biz bütün istehsalçılarla saziş bağlamasaydıq, - bunu etmişik, - bu gün biz də vaksinsiz qalardıq. Biz "AstraZeneca" vaksinini çoxdan almalı idik. Almamışıq. Artıq bir neçə aydır ki, almamışıq. "Sputnik" vaksinini də almamışıq. "COVAX" təşəbbüsü üzrə "Pfizer" və "Moderna" peyvəndlərini almalı idik, almamışıq. Özü də bizə onları nə vaxt alacağımızı demirlər. Yaxşı ki, bizim çinli tərəfdaşlarımız öz öhdəliklərini yerinə yetirirlər. Bizim bunu almaq üçün vəsaitimiz var. Bəs, vəsaiti olmayanlar nə etsinlər? Bu adamlar ölməlidirlər? Deməli, varlılar özlərini peyvəndləyəcək, bütün istehsalı özlərinə götürəcək, necə deyərlər, elementar insan davranışı qaydalarına tam etinasızlıq göstərəcək, yoxsul ölkələr isə əziyyət çəkməli olacaqlar. Biz hansı bərabərlikdən danışırıq? Mən BMT Baş Assambleyasının xüsusi sessiyasında bu məsələni qaldırmışam və bu gün Qoşulmama Hərəkatı çərçivəsində bu məsələ barədə fəal diskussiya aparırıq. Bir çox ölkələr mənim təşəbbüsümü dəstəkləyiblər. Hazırda əlavə məsləhətləşmələr aparılır və biz əməli işə keçməliyik. Şablon bəyanatlar səsləndirmək kifayətdir, onların arxasında heç bir iş dayanmır. Bunlar artıq hamını bezdirib. Bu məsələ hər bir insana aiddir. Biz bu məsələdə həm milli mənada, həm də bu gün üzvlərinin sayına görə dünyada BMT-dən sonra ikinci beynəlxalq qurumda sədrlik edən ölkə kimi prinsipiallıq göstəririk.

**"Ukraina-24" telekanalı:** Hər vaxtınız xeyir, cənab Prezident. Mən "Ukraina-24" telekanalının jurnalistiyəm. İcazənizlə, sual vermək istərdim. Ukrayna Azərbaycanda baş verən hadisələri həmişə izləyib və izləyir. Sizin təcrübəniz bizim üçün çox vacibdir. Ümidvaram ki, yaxın gələcəkdə biz də öz torpaqlarımızı qaytaracağıq. Sualım da, bir növ bu barədədir. Deyin, indi, işğaldan azad olunmuş ərazilərin reinteqrasiyası dövründə Azərbaycan hansı çətinliklərlə üzləşir? Bilirəm ki, döyüş əməliyyatları başa çatandan dərhal sonra pozucu təxribat-partizan fəaliyyəti cəhdləri olmuşdu. Bu məsələni necə həll etdiniz? Dinc vətəndaşların qayıtması məsələsini necə həll edirsiniz ki, onlar sülh şəraitində və təhlükəsiz yaşasınlar? Sağ olun.

**Prezident İlham Əliyev:** Siz haqlısınız. Bizdə olan məlumata görə, döyüş əməliyyatları başa çatandan sonra, təxminən noyabrın 20-də Ermənistanın Şirak vilayətindən, Gümrü şəhərindən və ətraf rayonlardan 60 nəfərdən çox bir dəstə göndərilmişdi. Bu dəstənin Laçın dəhlizindən necə keçməsi, Azərbaycan Ordusunun nəzarətində olan ərazilərə necə gəlməsi aydın deyil. Bildiyiniz kimi, hərbi əməliyyatlar başa çatandan sonra noyabrın 10-da Rusiya Federasiyasının sülhməramlı missiyası sülhməramlıların məsuliyyət daşıdığı ərazinin xəritələrini dərc edib. Bu xəritələr daim saytdadır. Hərbi əməliyyatlar başa çatandan sonra biz aşkar

etdik ki, arxa cəbhənin dərinliyində erməni silahlı dəstələri var. Əvvəlcə, aldığımız məlumata görə, bu adamlar azıb mühasirədən çıxa bilməyənlərdir. Azərbaycan hərbi qulluqçuları onların azdıqlarını zənn edərək bir müddət sülhməramlı missiya ilə birlikdə həmin adamlara kömək göstərməyə və onları geri qaytarmağa çalışdılar. Lakin məlum oldu ki, bu, belə deyilmiş. Məlum oldu ki, bu, həm bizim hərbi qulluqçulara, həm də dinc vətəndaşlara hücumlar edən təxribat qrupudur. Bu təxribatlar və terror aktları nəticəsində bizim hərbi qulluqçulardan dörd nəfəri və bir nəfər mülki şəxs – mobil operator şirkətinin nümayəndəsi həlak olub. Şuşa şəhərinə gedən həmin şəxs pusquya düşüb və bir neçə nəfər yaralanıb. Təbii ki, biz əks-terror əməliyyatı apardıq, nəticədə bir neçə terrorçu tamamilə zərərsizləşdirildi, 60-dan çox terrorçu tutuldu. Bu gün onları hərbi əsirlər adlandırmağa çalışırlar. Düşünürəm ki, məsələnin mahiyyətini qəsdən təhrif edirlər. Müharibə bitəndən 20 gün sonra hərbi əsir ola bilməz. Bizdə olan hərbi əsirlərin hamısını qaytarmışıq. Özü də biz onları bizim əsirlərin qaytarılmasından əvvəl qaytarmışıq. Bu adamlar həmin kateqoriyaya uyğun gəlmir. Bunlar terrorçu və təxribatçılardır. Ermənistan tərəfindən və ya başqa ölkələr tərəfindən hər hansı spekulyasiya yersizdir.

Başqa çətinliklərə gəldikdə isə, əlbəttə, biz başqa təxribat qruplarının keçməyəcəyinə qarantiya vermirik. Lakin biz işğaldan azad olunmuş ərazilərin təhlükəsizliyini bu gün kifayət qədər təmin edirik, müntəzəm reydlər keçiririk, pilotsuz uçuş aparatları vasitəsilə və vizual şəkildə monitorinq aparırıq. Buna görə vəziyyət tam nəzarət altındadır. Bundan əlavə, əlbəttə, ərazilərin minalanması əsas çətinlikdir. Ona görə ki, erməni tərəfi minalanmış sahələrin xəritələrini bizə təqdim etməyib. Yeri gəlmişkən, bu da cinayət hesab edilə bilər. Ona görə ki, hərbi əməliyyatlar başa çatandan sonra bizdə həm hərbi qulluqçular, həm də mülki şəxslər arasında bir neçə hadisə olub, bu insanlar yalnız ona görə həlak olub ki, minalanmış sahələrin xəritələri bizə təqdim edilməyib. Bu gün bizdə mövcud olan resurslarla ərazilərin minalardan tezliklə təmizlənməsi mümkün deyil. Yəni, əlbəttə, burada erməni tərəfin qeyri-səmimi davranmasını bir daha yəqin edirik. Onlar sözdə bir cür danışır, əməldə isə başqa cür hərəkət edirlər. Biz onların hərbi əsirlərini, həlak olanların cəsədlərini verdik. Müharibədən sonra işğaldan azad olunmuş ərazilərdə erməni tərəfin nümayəndələri, sülhməramlı missiya və bizim nümayəndələr birlikdə mindən çox həlak olmuş erməni hərbi qulluqçusunun cəsədlərini tapdılar və erməni tərəfə verdilər. Biz özümüzü əxlaq normalarına və ümumbəşəri davranış normalarına müvafiq şəkildə aparırıq. Lakin minalanmış sahələrin xəritələrini bizə verməmək dinc vətəndaşları və hərbi qulluqçuları bilərəkdən ölümə və şikəstliyə məhkum etmək deməkdir. Hansı əməkdaşlıqdan söhbət gedə bilər? Belə olan təqdirdə birtərəfli əməkdaşlıq ola bilməz.

Bu gün bizim müzakirə etdiyimiz daha bir məsələ, əlbəttə, keçmiş məcburi köçkünlərin qovulduğu ərazilərə qayıtmasının qrafiki məsələsidir. Lakin ərazilərin minalanması ilə bərabər, burada hər şey, bütün infrastruktur tamamilə dağıdılıb, şəhərlər yoxdur, qayıdası yer yoxdur. Praktiki olaraq bütün kəndlər dağıdılıb. Mən azad edilmiş ərazilərdə dəfələrlə olmuşam, maşınla yüzlərlə kilometr yol gedirsən və yalnız dağıdılmış kəndləri görürsən, heç yerdə bircə bina da yoxdur. Ağdamda bircə bina da yoxdur. Təkcə qismən dağıdılmış bir məscid qalıb, ondan da ermənilər atəşin təshih edilməsi üçün oriyentir və müşahidə məntəqəsi kimi istifadə ediblər, oradan baxırlarmış ki, Azərbaycan qoşunları orada hərəkət edir, yoxsa yox? Füzulidə bircə bina da yoxdur. Hətta bayraq sancmağa yer yox idi. Biz bayrağı bayraq dirəyindən asdıq. Cəbrayılda da eyni vəziyyətdir. Zəngilanda, Qubadlıda bir neçə ev qalıb, onlarda da qanunsuz məskunlaşdırma aparılmışdır.

Buna görə indi biz ərazilərin minalardan təmizlənməsi və bununla paralel olaraq bütün imkanlardan istifadə etməklə ziyanın qiymətləndirilməsi ilə məşğuluq. O cümlədən beynəlxalq qurumlar vasitəsilə işğalçılara əsaslandırılmış iddialar təqdim etmək üçün dronlarla çəkilişlər aparırıq. Bununla paralel olaraq şəhərlərin və kəndlərin inkişafının baş planlarının tərtib edilməsinə dair tapşırıqlar verilib. Bizim vətəndaşların qayıtması üçün əsas mərhələlər bunlardır. Biz həm də pilot layihələrə başlamışıq. Bir layihə - "ağıllı kənd" layihəsi artıq başlanıb. Biz 30 il ərzində öz torpaqlarından qovulmuş insanlar üçün işğaldan azad edilmiş ərazilərdə maksimum əlverişli imkanlar yaratmaq istəyirik. Onlar buna layiqdirlər. Onlar layiqli yaşamağa və müasir dünyanın bütün nemətlərindən istifadə etməyə layiqdirlər. Bu əraziləri bərpa etmək üçün bizim siyasi iradəmiz də, maliyyə resurslarımız da var və biz bunu edəcəyik.

**Böyük Britaniyanın "Teleqraf" qəzeti:** Bu qorxunc soyqırımını anım günündə bizimlə görüşdüyünüzə görə təşəkkür edirəm. Sizcə davamlı sülhü təmin etmək, gələcəkdə belə soyqırımlarının qarşısını almaq olarmı və Azərbaycanın belə bir səmimi niyyəti varmı ki, gələcəkdə davamlı sülhün tərəfdarı olacaq?

**Prezident İlham Əliyev:** Təşəkkür edirəm. Əlbəttə ki, biz davamlı sülhə nail olmaq istəyirik. Bu düşmənçilik səhifəsini çevirmək üçün yeganə yoldur. Bunu görmək üçün mən sizi 10 noyabr Bəyanatı ilə tanış olmağa dəvət edirəm. Mən, Rusiya Prezidenti və Ermənistanın baş naziri ona imza atmışıq. Erməni tərəfi bizə

qoşunların çıxarılması tarixini verən kimi biz müharibəni dayandırdıq. Müharibənin ilk günündən mən hər bir müsahibəmdə və bəyanatımda onu vurğulayırdım ki, Ermənistanın baş naziri şəxsən özü, onun hər hansı bir məmuru deyil, özü bizə Füzuli, Şuşa, Cəbrayıl və digər rayonlarımızdan qoşunların çıxarılması tarixini verən kimi biz müharibəni dayandıracağıq. Yəni, biz bunu sülh yolu ilə edə biləriksə, müharibə dayanacaq.

Biz münaqişənin başa çatdırılması üçün otuz il gözləmişik. Bizim niyyətimiz hər zaman aydın və səmimi olub. Ermənistan ən azı müəyyən bir əlamətlər nümayiş etdirirdi ki, münaqişə dinc yolla həll oluna bilər, biz bu danışıqlarda iştirak edirdik. Ancaq biz dərk edəndə ki, Ermənistan hökuməti bizə heç bir santimetr torpağı belə geri qaytarmaq niyyətində deyil və iyul, avqust aylarında bizə qarşı bir sıra hərbi təxribatlar törədildi, sonra da sentyabr ayındakı təxribat - biz təbii ki, adekvat cavab verməli olduq. Ona görə də bu sual veriləndə ki, davamlı sülh necə ola bilər, bu, yalnız imzalanmış 10 noyabr Bəyanatına sadiqlik nümayiş etdirməklə olar. Həmin sənəd Ermənistanın baş naziri tərəfindən imzalanıb: Ağdamın bir hissəsi, Kəlbəcər və Laçın boşaldılacaq. Biz müharibəni dərhal dayandırdıq. Mən öz sözümə əməl etdim. Ancaq bunu hər kəs çox gözəl anlayır ki, biz müharibəni davam etsəydik, Ermənistan üçün nəticələr daha ağır və acınacaqlı ola bilərdi. Ancaq biz istəmədik ki, daha artıq itkimiz və qurbanlar olsun və biz bunu nümayiş etdirdik. Bu gün biz onu müzakirə edirik ki, bölgədə davamlı, dayanıqlı sülh və təhlükəsizlik olsun. Bunun yeganə yolu isə əməkdaşlıqdır. Bizim məqsədimiz artıq üçtərəfli qaydada – Ermənistan və Rusiya ilə birlikdə kommunikasiyaların bərpası, Zəngəzur dəhlizinin yaradılması və nəqliyyat baxımından bütün maneələri aradan qaldırmaqdır. Bu baş tutsa, burada Ermənistan da mənfəət əldə edəcək, onlar sülhün xeyrini görəcəklər. Daha bir şərtimiz, sülh üçün şərt ondan ibarətdir ki, Ermənistan siyasi dairələri anlamalıdırlar, hər hansı bir revanş və ya qisas cəhdləri Azərbaycan tərəfindən ciddi şəkildə cəzalandırılacaqdır. Biz hər hansı bir təhlükə görsək, bunu özümüzə ciddi təhlükə hesab etsək, buna dərhal cavab verəcəyik. Ona görə də mən xəbərdarlıq edirəm ki, burada hər hansı bir revanşizm və qisas cəhdləri olmamalıdır. 10 noyabr Bəyanatı Ermənistan tərəfindən tam icra olunmalıdır və sülh tədricən addım-addım regiona gələcək.

Daha bir məsələni qeyd edə bilərəm. Hazırda bizim azad etdiyimiz şərqi Zəngəzur istiqamətində, Zəngilanla sərhəddə Azərbaycanın ordusu yoxdur. Orada Azərbaycanın Dövlət Sərhəd Xidməti var. Baxın, orada hər hansı erməni mülki əhali və Azərbaycan sərhədçiləri arasında heç bir gərginlik yoxdur. Dinc həyat mövcuddur. Biz sərhədə gəldik, sərhədə yerləşdik, sərhədi keçmədik. İndi bəzi kəndlər, bir hissəsi bizim əraziyə düşür, orada erməni silahlı qüvvələri yoxdur. Onların, Ermənistanın heç dövlət sərhəd xidməti yox idi, çünki sizə deyə bilərəm ki, Ermənistanın Türkiyə və İranla sərhədi rus qoşunları tərəfindən qorunur. Yəni, biz öz sərhədimizdə dayanmışıq. Biz erməni əhalisinə qarşı hər hansı bir zərərli addımlar atmırıq. Əksinə, 20 kilometr uzunluqda olan bir yol, hansı ki, erməni şəhərlərini birləşdirir, o yol Azərbaycan ərazisindən keçir. Biz bunun üçün imkan yaradırıq. Hətta böyük bir plakat da asmışıq orada ki, Azərbaycana xoş gəlmisiniz. Mən anlamıram, bu nəyə görə Ermənistanda hər hansı bir qıcıq doğurur. Sözün açığı, mən bunu anlamıram. Çünki orada hərəkət edən nəqliyyat vasitələri, o insanlar görməlidirlər ki, onlar Azərbaycana daxil olur və Azərbaycan ərazisindən rahat istifadə edir və heç bir problem yoxdur. Ona görə də biz dayanıqlı sülh üçün daha bundan da artıq hər hansı bir nailiyyətə imza atmalı deyilik. Biz özümüzə məxsus olanı qaytarmışıq və nümayiş etdirmişik ki, bizim sözümüz və əməlimiz eyni dəyərə malikdir.

**Türkiyənin CNN televiziya kanalı:** Bu gün mühüm bir tarixin ildönümüdür. Xocalı soyqırımı törədilərkən, Qarabağ müharibəsində dinc insanlar öldürülərkən bir çox ölkələr susdular. Burada faciə yaşanarkən dünyanın susması ilə bağlı fikirlərinizi bilmək istəyirəm. İkinci sualım isə belədir: Qarabağda hazırda hansı işlər görülür? Otuz il əvvəl torpaqlarını tərk etmək məcburiyyətində qalan insanlar gözləyirlər ki, öz yurdlarına qayıdacaqlar. Bununla bağlı tarix müəyyənləşibmi? Bir "yol xəritəsi", plan hazırlanıbmı? Təşəkkür edirəm.

**Prezident İlham Əliyev: Sağ olun.** Siz tam haqlısınız. Xocalı soyqırımı törədiləndə dünya susmuşdu. Bunun səbəblərindən biri yəqin o idi ki, o vaxt məlumat qıtlığı var idi. Müharibə ilə bağlı məlumat birtərəfli idi. Ermənistan öz təbliğatını işə salmışdı. Azərbaycan tərəfi isə tamamilə aciz bir vəziyyətdə idi. Çünki o vaxt bizim dövlətçilik əsaslarımız yox idi. O vaxt Azərbaycan idarəolunmaz vəziyyətdə idi. O vaxtkı Azərbaycan indiki Ermənistanı xatırladır - səriştəsiz idarəçilik, böhranlı vəziyyət, orduda nizam–intizamın olmaması. Ordu faktiki olaraq hakimiyyətin tabeliyindən çıxmışdı. Bütün eyni mənzərəni biz bu gün Ermənistanda görürük. Bizim o vaxt imkanlarımız çox məhdud idi. Bu, bir səbəb idi. Digər səbəb o idi ki, dünya bunu görmək istəmirdi, çünki bu, - biz bunu sonra anladıq, - müəyyən dərəcədə mövcud stereotiplərin əleyhinə olan bir mənzərə idi. Çünki birinci Qarabağ müharibəsi başlayanda demək olar əksər ölkələrdə belə bir təsəvvür var idi ki, Ermənistan haqlıdır, Azərbaycan haqsızdır. Ərazi bütövlüyü məsələləri kənara qoyul-

muşdu. Ancaq xalqların öz müqəddəratını təyinetmə məsələsi ön plana çıxmışdı. Halbuki heç kim sual vermirdi ki, axı erməni xalqı öz müqəddəratını müəyyən edib. Onların müstəqil Ermənistan dövləti var. Nə üçün tarixi Azərbaycan torpağında ikinci Ermənistan dövləti yaradılmalıdır. Heç kim buna cavab verə bilmədi. Ona görə bu stereotiplər uzun illər davam etdi. Uzun illər ərzində bizə qarşı ədalətsizlik tətbiq olunurdu. Baxın, Sovetlər Birliyi dağılandan sonra Amerika Konqresi azadlığa dəstək aktı qəbul etmişdi. Bu qanun bütün keçmiş müttəfiq respublikalara yardım məqsədilə qəbul edilmişdi. Azərbaycanı oradan çıxardılar. Kim çıxardı? Erməni lobbisinin nümayəndələri. Onların bir çoxu indi də yüksək vəzifələrdədir. Səbəb o idi ki, guya Azərbaycan Ermənistanı blokadaya alıb. Necə almışıq ki, bizim torpaqlarımız işğal altına düşüb?! Ancaq bizə qarşı sanksiyalar tətbiq olundu. Bu günə qədər o sanksiya hələ də qüvvədədir. Onun nömrəsi də var - 907-ci düzəliş. Azadlığa dəstək aktının 907-ci düzəlişi bizə sanksiyalar tətbiq edir. Bu qədər ədalətsizlik ola bilərmi? Sadəcə olaraq, o vaxt hakimiyyətdə olanlar buna qarşı heç bir addım ata bilmədilər. Uzun illər lazım oldu ki, biz dünyanın fikrini dəyişdirə bilək, həqiqətləri təqdim edə bilək. Açıq-aydın olan həqiqətləri təsdiq etmək üçün, onları sübut etmək üçün görün biz nə qədər səy göstərdik. Stereotip isə belə idi ki, Ermənistan daim haqlıdır. Nə etsə də yenə də onlara haqq qazandırırdılar. Baxın, son bir-iki il ərzində Ermənistanda nə qədər müxalifət lideri həbs edildi. Nə qədər insan öz hüquqlarından məhrum edildi. Hətta siyasi qətllər də baş verdi. Hansısa bir beynəlxalq təşkilat onları qınadımı? Yox. Onlara hər şey etmək mümkündür. Biz isə haqlı olduğumuzu döyüşərək sübut etməyə çalışırdıq və buna nail olduq. Sizin bu gün Azərbaycanda olmağınız, bizim sözümüzü dünyaya çatdırmağınız, əlbəttə ki, haqq-ədalətin bərqərar olmasına böyük töhfə verir.

O ki qaldı, ikinci sualınıza, bizim soydaşlarımız öz torpaqlara nə vaxt qayıda bilərlər? Bilirsiniz, mən də özüm-özümə bəlkə hər gün eyni sualı verirəm. Çünki mən də istəyirəm ki, nə qədər mümkünsə qısa müddət ərzində biz buna nail olaq. Amma bunun üçün əlbəttə ki, kompleks tədbirlər görülməlidir. Bu barədə mən artıq demişəm. Minalardan təmizləmə prosesi başa çatandan sonra və artıq bununla paralel olaraq biz bu işləri başlayırıq. Bu yaxınlarda "ağıllı kənd" layihəsi artıq gerçəkləşməyə başlamışdır. Zəngilan rayonunun üç kəndində - Birinci, İkinci, Üçüncü Ağalı kəndlərində bu layihə həyata keçiriləcək. Mən təlimat vermişdim ki, bu ilin sonuna qədər layihə tam başa çatsın. Yəni, orada təqribən 1000-ə yaxın insan yerləşəcək. Bütün lazımi infrastruktur qurulacaq, əkin sahələri bərpa ediləcək və insanlar oraya qayıdacaqlar. Belə pilot layihələr çox ola bilər. Biz indi onun üzərində işləyərik.

O ki qaldı, böyük şəhərlərə qayıdışa, əlbəttə ki, şəhərlərin baş planları tərtib edilməlidir. Misal üçün, Ağdam şəhəri. Müharibədən əvvəl orada təqribən 40 minə yaxın insan yaşayırdı. İndi əhalinin sayı artıb, olub 50 mindən çox. Biz 50 minlik, bəlkə də 70 minlik bir şəhər planlaşdırmalıyıq, infrastruktur yaratmalıyıq. Ondan sonra binalar inşa edilməlidir, o cümlədən məktəblər, xəstəxanalar. Yəni, bu, böyük bir zaman tələb edir. Yenə də deyirəm, bizim yarışacağımız əsas tərəf müqabili zamandır. Çünki vəsait də var. Bütün gücləri də səfərbər etmişik. Amma zaman, əlbəttə ki, öz haqqını diktə edir. Mən hansısa bir tarix vermək istəməzdim. Halbuki mənim fikrimdə tarixlər var, amma vaxtından əvvəl insanları sevindirmək, bəzilərini bəlkə də həyəcanlandırmaq istəmirəm. Amma inanın ki, maksimum qısa müddət ərzində mərhələli yollarla biz insanlarımızı o bölgələrə qaytaracağıq. Eyni zamanda, hazırda azad edilmiş bütün ərazilərdə, ilk növbədə, bərpa ediləcək kəndlərin də siyahısı tutulur. Biz bu məsələ üzərində də fəal çalışırıq.

**Türkiyənin Qlobal Jurnalistlər Şurasının rəhbəri:** Cənab Prezident, əvvəlcə, təşəkkürümüzü bildiririk. Burada bizi qəbul etdiniz. Türkiyənin Qlobal Jurnalistlər Şurasının 40 ölkədə nümayəndəliyi var. Azərbaycan da bunlardan biridir. Türkiyədə bütün şəhərlərdə nümayəndəsi olan, Ankarada Baş Qərargahı, İstanbulda ofisi olan bir təşkilatın rəhbəri olaraq buraya xarici mətbuat nümayəndələri, xarici jurnalistlərlə birlikdə gəldik. Sizə təşəkkür plaketimiz var. Onu Sizə təqdim edəcəklər. Sualıma gəldikdə, Siz dediyiniz kimi, beynəlxalq ictimaiyyətin ciddi əleyhinə olduğu 44 günlük Vətən müharibəsini Müzəffər Ali Baş Komandan kimi uğurla yekunlaşdırdınız. Bununla bağlı Sizi təbrik edirik. Təbii ki, bundan sonrakı proses mühüm əhəmiyyət kəsb edir. Müharibə başa çatıb. Amma beynəlxalq ictimaiyyətdə belə bir qənaət var - Dağlıq Qarabağın statusu tam olaraq müəyyənləşmədən bu müharibə heç vaxt bitməz. Sizə görə bu müharibə həqiqətən yekunlaşıbmı, başa çatıbmı? Bundan sonra iki ölkə, iki xalq sülh şəraitində qonşuluq münasibətləri ilə həyatlarına davam edəcəklərmi? Bundan sonra proseslər necə olacaq? Bu, sualımın bir hissəsi. İkincisi, bildiyimiz kimi, Rusiya-Türkiyə Birgə Monitorinq Mərkəzi yaradılıb. Bu mərkəz nə işlə məşğul olur, hansı işləri görür? Bu da maraqlıdır. Bu mərkəzə funksiya verildimi? Hansı vəzifələri öhdəsinə götürdü? Türkiyənin 44 günlük müharibədəki rolunu bilirik. Öhdəsinə götürdüyü vəzifələri bilirik. Amma sülhdən sonra Türkiyənin missiyası nə olacaq? Bununla bağlı məlumat verə




bilərsinizmi? Çox təşəkkür edirəm, hörmət və ehtiramımı bildirirəm.

**Prezident İlham Əliyev:** Təşəkkür edirəm. İlk növbədə, statusla bağlı sualınıza cavab vermək istərdim. Mən bu haqda artıq demişəm, bir daha demək istəyirəm ki, Dağlıq Qarabağ münaqişəsi başa çatıb. Azərbaycan bu münaqişənin bir tərəfi idi. Biz bu fikri açıq-aydın ifadə edirik ki, Dağlıq Qarabağ münaqişəsi artıq həll olunub. Azərbaycan bunu həll edib. Otuz il davam edən danışıqlar heç bir nəticə vermədi. Minsk qrupunun fəaliyyəti olsa da, nəticəsi sıfra bərabər oldu. Son iki il ərzində faktiki olaraq Minsk qrupunun həmsədrləri özləri də bilmirdilər ki, nə işlə məşğul olsunlar. Çünki Ermənistan baş nazirinin yersiz və çox təhlükəli bəyanatları onların fəaliyyətini də faktiki olaraq iflic etmişdi, mənasız etmişdi. Əgər Ermənistan baş naziri deyirsə ki, "Qarabağ Ermənistandır və nöqtə", ondan sonra hansı proses ola bilər, hansı danışıqlardan söhbət gedə bilər? Bu, əslində, Minsk qrupunun həmsədrlərini də çox çətin vəziyyətə saldı. Çünki onlar da buna hər hansı bir reaksiya verməli idilər. Faktiki olaraq son iki il ərzində danışıqlar aparılmırdı. Yəni, Azərbaycan bu məsələni təkbaşına həll etdi. Dağlıq Qarabağ münaqişəsi həll olundu. Noyabrın 10-da imzalanmış Bəyanat bunu təsdiqləyir.

O ki qaldı, statusa, mən öz çıxışlarımda statusun ünvanını göstərdim. Bir daha o məsələyə qayıtmaq istəmirəm. Status haradadır, onu hər kəs bilir. Hesab edirəm ki, Ermənistan və erməni xalqı üçün bu məsələ nə qədər az dilə gətirilərsə, o qədər də yaxşı olar. Çünki Ermənistana və erməni xalqına yanlış vədlər vermək lazım deyil. Onları bu günə salan səbəblərdən

biri də məhz o idi. Xülya idi, iddia idi, əsassız istəklər idi. Bu istəklərə rəvac verən bəzi xarici ölkələrin siyasətçiləri də erməni xalqının bu rəzil duruma salınmasında öz rolunu oynadılar. Ona görə status məsələsi, ümumiyyətlə, gündəlikdən çıxmalıdır. Dağlıq Qarabağ Azərbaycanın əzəli torpağıdır. Faktiki olaraq, biz bu gün, ümumiyyətlə, Dağlıq Qarabağ ifadəsini də işlətməməliyik. Qarabağ aranlı-dağlı Azərbaycanın ayrılmaz hissəsidir. Onun bir hissəsində erməni xalqı yaşayır. Biz buna etiraz etmirik. Baxmayaraq ki, erməni əhalisi ora XIX əsrin əvvəllərində köçürülmüşdür. Biz etiraz etmirik. Bizim başqa yerlərimizdə də erməni əhalisi yaşayır və heç bir problem yaşanmır. Ona görə statusla bağlı hesab edirəm ki, əgər kimsə bu gün bu məsələni qaldırırsa, sülhə yox, qarşıdurmaya daha çox xidmət göstərir. Bundan sonra Azərbaycan və erməni xalqlarının birgə yaşaması ilə bağlı da bizdə aydın təsəvvür var. Mən bunu müharibə dövründə də demişəm, dəfələrlə. Əfsuslar olsun ki, müharibə dövründə biz Ermənistan rəhbərliyindən buna oxşar bəyanatlar eşitməmişik. Əksinə, ədavətlə, nifrətlə dolu açıqlamalar verilirdi. Mən isə deyirdim ki, bizim erməni xalqı ilə işimiz yoxdur. Ermənilər bizim vətəndaşlarımızdır. Azərbaycanda minlərlə erməni yaşayır. Müharibə dövründə erməni əsirlərlə bizim davranmağımız bunu bir daha göstərir. Mən sizə bir misal gətirim. Azad edilmiş bir kənddə iki yaşlı insan yiyəsiz qalmışdı. Yəni oradan qaçan "qəhrəman" erməni əsgərləri onları qoyub qaçmışdılar. Bir qadın idi, bir də kişi. Onların yaşı çox idi. Onları biz gətirdik, xəstəxanaya yerləşdirdik. Ondan sonra da Ermənistan tərəfi ilə əlaqə saxladıq ki, biz dövlət sərhədində onları təhvil vermək istəyirik. Biz onları sərhədə gətirəndə onlar yaşlı qadını qəbul etdilər, yaşlı kişini qəbul etmədilər. Dedilər ki, bu, artıq xəstədir. Bizim də buna baxmağa imkanımız yoxdur. Bunun heç bir qohumu yoxdur. Əgər biz bunu qəbul etsək, buna kim baxacaq? Baxın, bu əxlaqsızlığın dərəcəsi varmı, yoxsa yox? Biz nə qədər səy göstərsək də, - Qırmızı Xaç da bunun şahididir, biz bunu Qırmızı Xaçın iştirakı ilə edirdik, - ondan imtina etdilər. O yaşlı kişi bizdə qaldı. Qırmızı Xaç onu bizim köməyimizlə xəstəxanaya yerləşdirdi. Bütün səylərə baxmayaraq, bir müddətdən sonra o rəhmətə getdi. Biz bunu da edirdik. Amma onların cavabı nə oldu. Ona görə, biz bu gün də bəyan edirik və mən Prezident kimi bunu deyirəm, bizim erməni xalqı ilə birgə yaşamağımızın böyük tarixi vardır. Həm Ermənistanda, həm Azərbaycanda, həm başqa ölkələrdə. Misal üçün Gürcüstanda elə kəndlər var ki, orada azərbaycanlılar və ermənilər bir kənddə yaşayırlar. Onların arasında heç bir ixtilaf yoxdur. Rusiyada, Ukraynada, Avropada. Bizim mövqeyimiz bundan ibarətdir. Amma bu, birtərəfli məsələ deyil. Erməni xalqı da buna hazır olmalıdır. Amma əfsuslar olsun ki, erməni xalqının beynini o qədər zəhərləyiblər ki, onların bu xəstəlikdən xilas olmaları üçün gərək daha böyük səylər göstərilsin.

Rusiya-Türkiyə Monitorinq Mərkəzinin fəaliyyətinə gəldikdə, deyə bilərəm ki, bu da müəyyən mənada noyabrın 10-da imzalanmış Bəyanatda öz əksini tapıb. Orada dəqiq göstərilmirdi ki, bu Rusiya-Türkiyə Monitorinq Mərkəzi olacaq. Amma biz bu Bəyanatı razılaşdıranda bunu müəyyən etmişdik. Azərbaycan öz vəsaiti hesabına bu monitorinq mərkəzini Ağdam rayonunun Mərzili kəndinin yaxınlığında yaratdı. Bütün şərait yaradıldı. Bildiyiniz kimi, monitorinq mərkəzi fəaliyyət göstərir və bunun əsas məqsədi post-müharibə dövründə nəzarət etmək, pilotsuz uçuş aparatlarından da istifadə edərək monitorinq aparmaqdır ki, bu münaqişə zonasında hər hansı bir qarşıdurma olmasın. Əgər olarsa, bunu kim törədib, təşəbbüskar kimdir, günahkar kimdir, bunu təsbit etməkdir. Bu günə qədər, - əgər dediyim o diversiya qrupunun Azərbaycana keçməsini istisna etsək, - hər hansı bir ciddi qarşıdurma olmamışdır. Hesab edirəm ki, bu monitorinq mərkəzi post-müharibə dövrü üçün çox önəmli bir alət olaraq fəaliyyət göstərəcək.

Növbəti sualınız Türkiyə tərəfinin fəaliyyəti ilə bağlıdır. Dediyiniz kimi, Türkiyənin missiyası nə olacaq? Türkiyə müharibənin ilk günlərindən çox müsbət davranış göstərib. Sülhə, sabitliyə hesablanmış davranış. Eyni zamanda, ilk günlərdən Azərbaycanın haqq işinə Türkiyə öz dəstəyini göstərmişdir. Əziz qardaşım hörmətli Prezident ilk günlərdən çox dəqiq açıqlamalar vermişdir. Digər vəzifəli şəxslər - müdafiə naziri, xarici işlər naziri, digər nazirlər, Türkiyə Böyük Millət Məclisinin sədri. Bütün bu açıqlamalar, bizə verilən siyasi və mənəvi dəstək həm bizi gücləndirdi, eyni zamanda, bir çoxları üçün çox ciddi mesaj oldu. Müharibədən sonra da Türkiyə çox müsbət münasibət göstərir. Hətta, dünən Türkiyənin rəsmi şəxsləri Ermənistanda olan vəziyyətlə bağlı açıqlamalar verdilər. Bu gün Azərbaycan, Ermənistan və Rusiya arasında baş nazirlərin müavinləri səviyyəsində aparılan görüşlər də Türkiyə tərəfinə bəllidir. Çünki bu görüşlər bütün bölgə üçün əhəmiyyət daşıyır. Həm Türkiyə, həm İran, həm gələcəkdə belə bir istək olarsa, Gürcüstan ümumi platformaya qoşula bilər. Türkiyə bu gün dünya miqyasında güc mərkəzi kimi, bütün bölgələrdə, o cümlədən bizim bölgəmizdə çox müsbət rol oynayır və bu, bölgənin sabitliyi üçün çox önəmlidir.

**Rusiyanın RİA-Novosti agentliyi:** Hər vaxtınız xeyir, cənab Prezident. Bu günlərdə biz Laçın rayonunda olduq. Şəxsən mən ilk dəfə idi ki, orada olurdum. İlk baxışda, əlbəttə, gözəl yerlərdir və başa düşürük ki,

oranın böyük potensialı var. Lakin, eyni zamanda, orada olarkən başa düşdük ki, bu yerlərin dirçəldilməsi üçün hələ çox iş görülməlidir. Əlbəttə, müharibədən sonra bu ərazilərin minalardan təmizlənməsi prosesi bununla birbaşa bağlıdır. Bəlkə də bu rəqəmlər artıq səsləndirilib, ola bilsin yeni məlumatlar var. Hələ nə qədər ərazini minalardan təmizləmək lazımdır? Siz hansı müddətləri müəyyən edirsiniz? Rusiya mətbuatının nümayəndəsi kimi bilmək istərdim, bu ərazilərdə infrastrukturun bərpası prosesində iştirak edə biləcək Rusiya şirkətləri ilə danışıqlar aparılırmı və əgər aparılırsa, hansı şirkətlərlə? Sağ olun.

**Prezident İlham Əliyev:** Sağ olun. Ərazilərin minalardan təmizlənməsi məsələsində biz hələ yolun başlanğıcındayıq. Biz hələ cəmi bir neçə min hektar ərazini təmizləmişik. Mən yeni hərbi bölmələrin, Azərbaycan Müdafiə Nazirliyinin yeni mühəndis-istehkamçı batalyonlarının formalaşması barədə göstərişlər vermişəm. Bu bölmələr artıq formalaşıb. Bu yaxınlarda biz Türkiyədən müasir texnika almışıq, o artıq gətirilib. Bu texnika bizim işimizi xeyli asanlaşdıracaq. Bununla paralel olaraq mən yaxın vaxtlarda Minatəmizləmə üzrə Dövlət Agentliyinin yaradılması barədə Sərəncam imzalamışam. Bundan əvvəl bizdə mövcud olan, ANAMA adlanan qurumun statusu çox qeyri-müəyyən idi. O, vaxtilə işğaldan azad edilmiş ərazilərin bərpası üzrə mövcud olmuş komissiyanın nəzdində yaradılmışdı. Bu işi gücləndirmək üçün biz dövlət qurumu yaratdıq, o, artıq formalaşıb. Agentliyin səmərəli işləməsi üçün biz bu ilin investisiya proqramında təqribən 100 milyon manat ayıracağıq. O cümlədən ən müasir avadanlıq, distant xarakterli robotlar və minatəmizləyən maşınlar alınacaq. Yəni, biz bu işlə maksimum məşğul olmağa çalışacağıq. Birinci istiqamət Müdafiə Nazirliyi, ikinci istiqamət Minatəmizləmə Agentliyidir. Bundan əlavə, müharibə başa çatandan dərhal sonra ərazilərin minalardan təmizlənməsində iştirak etmək və bizim istehkamçılara treninqlər keçirilməsi üçün Türkiyə Müdafiə Nazirliyindən 100-dən çox mütəxəssis ezam edilib. Ağdam rayonunun ərazisinin minalardan təmizlənməsində Rusiya Fövqəladə Hallar Nazirliyinin bir qrupu da iştirak edir. Rusiya Fövqəladə Hallar Nazirliyi qrupunun əsas fəaliyyəti rusiyalı sülhməramlıların məsuliyyət zonası ilə bağlıdır, lakin onlar burada da iştirak edirlər. Hazırda biz bu istiqamətdə təcrübəyə malik olan bir neçə şirkətlə danışıqlar aparırıq, ancaq bu danışıqlar hələ başa çatmayıb. Orada razılaşmalar gedir. Lakin biz bütün imkanlardan maksimum istifadə edəcəyik. Yeri gəlmişkən, agentliyin rəhbəri vəzifəsinə təyin edilən şəxsə də demişəm, biz istəyirik ki, bu işdə Azərbaycan şirkətləri də iştirak etsinlər, çünki bu iş, təəssüf ki, bir ilin işi deyil. Minalardan təmizlənməli olan ərazi kifayət qədər böyükdür. Buna görə yerli şirkətlər də bu işə qoşulmalıdır.

Metodologiyaya gəldikdə, burada metodologiya var. İlk növbədə, haranın və necə minalardan təmizlənməli olması barədə beynəlxalq təcrübə var. Buraya kommunikasiyalar, yaşayış məntəqələri və kənd təsərrüfatı fəaliyyəti üçün yerlər aiddir. Yeri gəlmişkən deməliyəm ki, biz işğaldan azad edilmiş ərazilərdə kənd təsərrüfatı fəaliyyətinə artıq başlamışıq, 7 min hektardan çox ərazidə payızlıq buğda əkilib. Bunun üçün əvvəlcə ərazi minalardan təmizlənib. Belə ki, biz geniş beynəlxalq əməkdaşlığa hazırıq. Mən bilirəm ki, hazırda müxtəlif şirkətlərdən çoxlu təkliflər daxil olur. Lakin bir sıra başqa məsələlərdə olduğu kimi, burada da iki əsas amil var – keyfiyyət və qiymət. Bax, bu iki amil birlikdə bizim bu və ya digər şirkətə üstünlük verməyimiz üçün əsas şərt olacaq.

Bərpa işində Rusiya şirkətlərinin iştirakı barədə digər sualınıza gəldikdə isə, bu barədə mən artıq bəyanat vermişəm. Biz dost ölkələrdən olan şirkətləri cəlb edəcəyik. Rusiya və Azərbaycan dost ölkələrdir. Buna görə təbii ki, Rusiya şirkətləri cəlb ediləcək. Fikrimcə, artıq onlar özləri maraq göstərə bilərlər. Ona görə ki, biz müəyyən iş növləri barədə müxtəlif ölkələrdən sifarişlər alırıq. Bu, şəhərlərin planlaşdırılmasına, obyektlərin, o cümlədən infrastruktur obyektlərinin, yolların, körpülərin, elektrik stansiyalarının tikintisi ilə bağlıdır. Yəni, işin həcmi çox böyükdür. 10 min kvadratkilometrdən çox ərazi azad edilib. Buna görə düşünürəm ki, Azərbaycanın bütün dostları üçün kifayət qədər iş var.

**İctimai Televiziya:** Cənab Prezident, sentyabrın 27-də Ermənistanın növbəti təcavüz cəhdinə cavab olaraq Azərbaycan Ordusunun əks-hücum əməliyyatı Ordumuzun parlaq qələbəsi ilə başa çatdı. Azərbaycan müharibədən sonra işğaldan azad olunan ərazilərinin sürətli təmir-bərpa işləri ilə məşğuldur və yeni çoxtərəfli regional əməkdaşlıq platformaları üzərində işləyir. Müharibədən sonra regionun inkişaf perspektivlərini necə qiymətləndirirsiniz və bu, ölkəmizə, region dövlətlərinə necə öz töhfəsini verəcək?

**Prezident İlham Əliyev:** Mən vəziyyəti çox müsbət qiymətləndirirəm. Hesab edirəm ki, regionun gələcək inkişafı üçün bu gün nadir imkanlar yaranıb. Çünki bir daha qeyd etmək istəyirəm, biz hesab edirik və bizim bir çox tərəfdaşlarımız hesab edirlər ki, müharibə başa çatıb və biz artıq kitabın o səhifəsini bağlamalıyıq, gələcəyə baxmalıyıq. Nikbinliyə səbəb olan digər amil odur ki, qonşularımız da bizim fikirlərimizi bölüşürlər. Regionun gələcək inkişafı, inteqrasiya layihələrinin icrası ilə bağlı bizim aramızda fikir ayrılığı yoxdur. Mən deyə bilərəm ki, Türkiyə, Rusiya, İran rəhbərlərilə bu məsələ ilə bağlı mənim bir çox söhbətlərim olub, xarici işlər nazirləri səviyyəsində, Baş nazirlərin müavinləri səviyyəsində

məsləhətləşmələr, təmaslar olub və biz faktiki olaraq tam yekdil fikir sərgiləyirik ki, bu imkandan maksimum səmərə ilə istifadə etməliyik. Çünki postmüharibə dövrü doğrudan da yeni imkanlar açır, əməkdaşlıq, qarşılıqlı ticarət, kommunikasiyaların açılması, yeni nəqliyyat dəhlizlərinin yaradılması üçün çox nadir imkanlar yaradır. Biz əgər təkcə Zəngəzur dəhlizinə fikir versək görərik ki, bu, yalnız Rusiya, Azərbaycan, Türkiyə, İran, Ermənistanın maraqlarına cavab vermir, bu, qonşu ölkələrin maraqlarına da cavab verir. Yəni, Avrasiyanın yeni bir nəqliyyat damarı açıla bilər. Əgər bu müsbət meyillər üstünlük təşkil edərsə, əlbəttə ki, icra edilən hər bir layihə özündən sonra digər layihəni də gətirib çıxaracaq. Mən burada bizim enerji sektorundakı fəaliyyətimizdən misal gətirə bilərəm. Biz birinci addımı atanda bəlkə də təsəvvür etmirdik ki, bu gün nə qədər böyük layihələr icra edəcəyik. Birinci neft kəməri – Azərbaycanı, Xəzər dənizini Qara dənizlə birləşdirən, 99-cu ildə istismara verilən Bakı-Supsa kəməri, görün, nəyə gətirib çıxardı. Ondan sonra neçə layihə icra edildi. Sərmayə qoyuluşu, yeni kəşfiyyatlar, eyni zamanda, Cənub Qaz Dəhlizi. Bu layihənin icrası ilə bağlı olan məsələlərdə artıq 7 ölkə birləşib və indi bu, özlüyündə yeni bir əməkdaşlıq formatı yaradır. Eyni mənzərəni biz burada da görə bilərik. Ancaq bir şərtlə ki, burada hər hansı gizli məqamlar, fikirlər olmasın, səmimiyyət, qarşılıqlı inam və maraqların bölgüsü olsun. Çünki bütün ölkələrin maraqları təmin edilməlidir. Məhz o təqdirdə bu vəziyyətdən biz maksimum səmərə ilə istifadə edə bilərik. Bir daha demək istəyirəm ki, Azərbaycan Türkiyə, Rusiya, İran – mənim ölkələrin dövlət başçıları ilə görüşlərim və fikir mübadiləsi deməyə əsas verir ki, biz bir mövqedəyik. Ermənistan sözdə hələ ki, bu mövqedədir. Çünki gedən məsləhətləşmələrdə bəzi fikirlər ortalığa atır ki, o fikirlər qəbul edilən fikirlər deyil. Ona görə Ermənistanda da əgər bu məsələ ilə bağlı eyni yanaşma olarsa, onda əlbəttə ki, Ermənistan da gedən proseslərin tərkib hissəsi ola bilər. Yox, olmasa, onsuz da biz planlaşdırdığımız məsələləri həll edəcəyik. Heç kim bizi dayandıra bilməz. Çünki yaxın tarix də göstərib, nəyi hədəfləmişiksə, ona da çatmışıq. Sadəcə olaraq, Ermənistan növbəti dəfə bu tarixi şansı itirə bilər, necə ki, 90-cı illərdə itirib, inanmayıb ki, biz bütün layihələri icra edəcəyik, onlar Ermənistandan yan keçəcək, Ermənistan bir quruş da mənfəət görməyəcək. İndi də əgər belə fikirdədirlərsə, yenə də eyni aqibətlə üzləşəcəklər. Biz əməkdaşlığa hazırıq və hesab edirik ki, bu əməkdaşlıq bölgədə uzunmüddətli sülhün əsas təminatçısı ola bilər.

**Yaponiyanın "JİJİ PRESS" İnformasiya Agentliyi:** Salam, hörmətli cənab Prezident. Əvvəla, Sizə çox təşəkkür edir və bir daha başsağlığı diləklərimizi bildiririk. Bizim sualımız Xocalı ilə bağlıdır. Otuz il əvvəl orada bir çox insan çox yaxınlarını itirdi. Hazırda azərbaycanlıların oraya geri qayıtması gündəmdədir. Ancaq orada həyatda qalmağı bacaranlarla danışdığımız zaman "Bəli, biz oraya geri qayıtmaq istəyirik, amma orada erməni görmək istəmirik" deyirlər. Orada Sizə görə, ermənilərin və azərbaycanlıların birlikdə yaşamaları mümkündürmü? Bu məsələ ilə bağlı hansı tədbirləri görürsünüz? Təşəkkürlər.

**Prezident İlham Əliyev:** Mən artıq müəyyən dərəcədə bu suala cavab verdim. Hesab edirəm ki, bu, mümkündür. Azərbaycanın, əslində, siyasəti də, mövqeyi də, xalqımızın düşüncələri də bu fikri təsdiqləyir. Biz əməkdaşlığa açıq olan ölkəyik və Azərbaycanda müxtəlif xalqların nümayəndələri əsrlərboyu bir ailə kimi yaşayırlar. Azərbaycanda heç vaxt dini, milli zəmində hər hansı qarşıdurma, anlaşılmazlıq olmamışdır. İkinci Qarabağ müharibəsi bunu bir daha göstərdi. Yəni, bütün xalqların nümayəndələri bir bayraq altında bir yumruq kimi birləşdi və bu Qələbədə Azərbaycanda yaşayan hər bir xalqın öz qiymətli və dəyərli payı var.

O ki qaldı, gələcəkdə ermənilərlə birgə yaşamağımıza, mən bir daha demək istəyirəm ki, müxtəlif ölkələrdə bu, baş verir, o cümlədən Azərbaycanda. Bu yaxınlarda mənə verilən məlumata görə, hətta bizim jurnalistlər Ermənistanın keçmiş müdafiə nazirinin Azərbaycanda yaşayan bacısını da tapıblar. Baxın, Ermənistanın 1990-cı illərdəki müdafiə naziri azərbaycanlılara qarşı soyqırımının törədilməsində iştirak edib. Onun doğmaca bacısı Azərbaycanda yaşayır. Ona bir söz deyən var? Yoxdur. Bax, Azərbaycan xalqının əxlaqı budur, mənəvi durumu budur. Biz bundan sonra da buna hazırıq.

Mən tam əminəm ki, Qarabağın bu gün sülhməramlı missiyasının nəzarətində olan torpaqlara da azərbaycanlılar qayıtmalıdırlar, qayıdacaqlar. Noyabrın 10-da imzalanmış Bəyanatda bu, göstərilir. Bəli, bu, bir qədər zaman və birgə səylər tələb edəcək. Amma bu, qaçılmazdır. O cümlədən biz Xocalıya da qayıdacağıq. Bunun başqa yolu yoxdur. Ermənistan tərəfi də bunu anlamalıdır ki, süni əngəllər yaratmaq istəsə ancaq özünə zərbə vurmuş olar.

Eyni zamanda, mən dediyiniz məsələni də yaxşı başa düşürəm. Müharibənin yaraları sağalmayıb. Xocalı yaraları heç vaxt sağalmayacaq. Biz heç vaxt Xocalı soyqırımını unutmayacağıq, həm qurbanların yaxınları, həm bütün Azərbaycan xalqı. Müharibənin yaralarının sağalması üçün vaxt lazımdır. Biz bunu başa düşürük və burada heç kimi tələsdirmək istəmirik, heç kimi məcbur etmək istəmirik.

Bizim üçün birinci mərhələdə azad edilmiş torpaqlara vətəndaşlarımızın qayıtmasıdır. Bununla paralel olaraq, – artıq bu suallara mən cavab verdim,

- uzunmüddətli sülhün təmin edilməsi və müharibə risklərinin sıfra endirilməsi məsələləri dayanır. İndi müharibədən heç dörd ay keçməmiş artıq rəsmi şəxslər – Ermənistan və Azərbaycan rəsmi şəxsləri arasında təmaslar qurulur, görüşlər keçirilir, bəzən açıq formatda, bəzən qeyri-rəsmi formatda. Amma bu proses gedir və bu proses müsbət istiqamətdə gedir. Ona görə burada bütün bu həssaslığı başa düşərək bir daha demək istəyirəm ki, biz istədiyimizə tam nail olmaq üçün müdrik olmalıyıq və bütün addımları vaxtında atmalıyıq. Necə ki, İkinci Qarabağ müharibəsində vaxtında atılmış addımlar səmərəsini vermişdir.

**Rusiyanın "Zvezda" və "Bolşaya Aziya" mediaholdinqləri:** Cənab Prezident, mən Rusiya Silahlı Qüvvələrinin "Zvezda" mediaholdinqini və "Bolşaya Aziya" mediaholdinqini təmsil edirəm. "Bolşaya Aziya" mediaholdinqinin sualından başlamaq istəyirəm, kifayət qədər sadə sualdır. Siz bütün dünyanın gözü qarşısında nadir presedent yaratdınız. Çünki Siz Qarabağ müharibəsi zamanı mütləq mənada sülhməramlı kimi çıxış etdiniz. Siz 23 dəfə sülh haqqında danışdınız, halbuki digər tərəf bir dəfə də olsun, bu cür bəyanat vermədi. Siz bundan sonra Ermənistan ilə dövlət səviyyəsində münasibətləri necə qurmaq niyyətindəsiniz? Erməni xalqı ilə yox, məhz bir dövlət olaraq Ermənistanla, Sizin həqiqətən dünyanı heyrətləndirən təşəbbüslərinizin davamı kimi.

Rusiya Silahlı Qüvvələrinin "Zvezda" mediaholdinqinin sualı isə ağır silahlardan, o cümlədən Rusiya istehsalı olan "İsgəndər" əməliyyat-taktiki raketlərdən istifadə olunması barədə Ermənistan rəsmi şəxslərinin heyrətamiz və ziddiyyətli bəyanatları ilə bağlıdır. Bu bəyanatlar Rusiya Müdafiə Nazirliyi tərəfindən təkzib edilib, lakin bununla yanaşı, mən deyərdim ki, Ermənistan ilə həmhüdud olan, öz təhlükəsizliyi və sülh üçün narahat olan bütün dövlətlərin hamısında müəyyən ajiotaj yaradıb. Siz necə hesab edirsiniz, Sizin fikrinizcə, məsuliyyətsiz şəxslərin əlinə keçə biləcək belə silahlara mümkün nəzarət üçün hansı mexanizmlər yaratmaq olardı? Bunun davamı kimi, Rusiya ilə silah sazişləri üzrə gələcək münasibətləri necə təsəvvür edirsiniz? Mümkünsə, bu barədə danışardınız. Diqqətinizə görə təşəkkür edirəm.

**Prezident İlham Əliyev:** Sentyabr-noyabr aylarında baş verən hadisələrə belə diqqət ayırdığınıza görə sağ olun. Mən sülh barədə neçə dəfə danışmağımı doğrusu saymamışam, lakin siz saymısınız. Bu, o deməkdir ki, siz sualın mahiyyətinə çox diqqətlə varmısınız. Buna görə də cavab vermək mənə asan olacaq. Əslində, mən sülh barədə çox danışmışam və dediklərimi bu gün bir daha təkrar etmək istəyirəm. Müharibənin ilk günündən mən deyirdim ki, işğal edilmiş bütün ərazilərdən çıxmaq müddətini bizə təqdim edəcəkləri anda biz dayanmağa hazırıq. Əgər erməni tərəfi mənim sözlərimə qulaq assaydı, o halda onların məğlubiyyəti bu dərəcədə alçaldıcı və ağrılı olmazdı, bu qədər itkilər da olmazdı. Bununla yanaşı, Ermənistan tərəfi baş nazirin şəxsində Prezident Putinin sözlərinə də qulaq asmadı. Mən bu barədə danışa bilərəm, çünki o, özü bu barədə şəxsən deyib ki, müharibə dövründə biz dəfələrlə əlaqə saxlamışıq. Mən deməliyəm, təbii ki, bizim Ermənistanın baş naziri ilə əlaqəmiz olmayıb və yoxdur. Lakin Prezident Putin vasitəsilə bir növ bir-birimizə müxtəlif mesajlar ötürürdük. Bildiyimə görə, Rusiya Prezidenti də bu barədə deyib ki, Ermənistan baş naziri onun sözlərinə qulaq asmayıb və bununla da vəziyyəti o dərəcədə ağırlaşdırıb ki, kapitulyasiya haqqında aktı haradasa, hansısa qaranlıq otaqda imzalamağa məcbur olub. Əgər yadınızdadırsa, o, hətta imzalanma mərasimində də yox idi. Buna görə də hər şey Ermənistan rəhbərliyinin və Ermənistan iqtidarının hansı siyasəti seçəcəyindən asılı olacaq. Bizim siyasətimiz həm müharibə dövründə, həm müharibədən sonra birmənalıdır. Mən bu siyasəti qısaca və dürüst ifadə edərək bu gün də deyirəm ki, bizim hədəfimiz sülhdür. Müharibə bizə lazım deyildi. Bu, məcburi tədbir idi. Bu tədbir bütün otuz illik səmərəsiz danışıqlardan daha effektli oldu. Beləliklə, hər şey Ermənistan rəhbərliyinin müasir reallıqlara düzgün qiymət verməsindən, düzgün nəticə çıxarmasından və revanşist cəhdlərin istisna edilməsindən asılı olacaq. Biz bütün olanları izləyirik, daha da diqqətlə izləyəcəyik. Biz təkcə işğal edilmiş ərazilərdə deyil, həm də Ermənistan ərazilərində vəziyyəti izləyirdik. Biz bütün yerdəyişdirmələri, o cümlədən uzaqmənzilli raketlərin də irəli çıxarılmasını görürdük, bu gün isə daha artıq dərəcədə görürük. Buna görə də mən erməni rəhbərliyinin hiyləgərlik etməsini, bizi aldatmağa çalışmasını məsləhət görmürəm. Bu, sadəcə, artıq mümkün deyil. Əgər Ermənistan tərəfindən bu cür yanaşma olarsa, o halda biz əlaqələrin bundan sonra möhkəmlənməsi planında münasibətləri quracağıq. Əlbəttə ki, əgər hər şey məhz bu cür, bizim fikirləşdiyimiz kimi gedərsə, hansısa mərhələdə sülh sazişinin də imzalanmasını istisna etmirik. Çünki 10 noyabr tarixli Bəyanat mahiyyətcə elə de-fakto sülh sazişidir. Tərəflərdən biri digərinə qalib gəlirsə, tərəflərdən biri kapitulyasiya haqqında akt imzalayırsa, sülh sazişlərində daha nə lazımdır? Lakin 10 noyabrda imzalanan sənəd de-fakto elə Ermənistanın tam kapitulyasiyası barədə aktdır. Buna görə də, əlbəttə, biz bu yolla getməyə hazırıq.

Ermənistanın baş nazirinin "İsgəndər" raket kompleksi ilə bağlı bəyanatlarına gəlincə, bu, bizdə də sual doğurdu. Mən bu mövzuda istehza ilə danışmaq istəmirəm, Rusiyanın rəsmi şəxsləri, Rusiya parla-

mentinin üzvləri, ekspertlər arasında da artıq kifayət qədər şərhlər olub ki, raketlərin 10 faizinin partlaması üçün əlbəttə, çox çalışmaq lazımdır. Biz "İsgəndər" raketlərinin buraxılmasını görməmişik. Buna görə də bu bəyanat dünən bir daha səsləndəndə, biz bir daha maraqlandıq. Amma yox. Biz bunu görməmişik. Mən deyərdim ki, bu, sadəcə, növbəti ağ yalandır. Belə yalanlar çox olub. Prinsipcə, Ermənistanda indi baş verənlər hansısa tragikomediyanı xatırladır. Orada baş verənləri mən belə xarakterizə edərdim.

Təsəvvür edin, onların təyyarəsi itir. Onlar bilmirlər ki, təyyarələri haradadır. Təyyarə bir istiqamətə uçub, digər istiqamətə uçub, pilotlar gizlənib, təyyarə itib, onlar oturub fikirləşirlər ki, təyyarəni kim qaçırıb və ya oğurlayıb. Sonra Əbu-Dabidə IDEX sərgisində Ermənistan stendi heç vaxt olmadığı dərəcədə tərtəmiz idi, orada bir dənə də eksponat yox idi. Bir tərəfdən onlar orada nə sərgiləyə bilərdilər, axı, onların hərbi sənayesi yoxdur. Lakin digər tərəfdən, onların orada stendi olması üçün, necə deyərlər, təlxəklik etmək və kiminsə dalınca qaçmaq nəyə lazım idi. Bütün dünya qarşısında biabır oldular. Deməli, hamı öz məhsulunu gətirib, Ermənistan stendində isə hansısa kitabçalar var. Axı, bu, biabırçılıqdır. Daha sonra bəyanat vermək ki, "İsgəndər" buraxılıb. Bəs o, haraya buraxılıb? 10 faiz partlayıb. Axı, bu, sadəcə olaraq, gülməlidir. Bu gün məhz bu tragikomediya orada baş verənləri xarakterizə edir. Onlar "Skad", "Toçka U" raketlərini yaşayış məntəqələrinə tuşlayırdılar, özü də məqsədyönlü şəkildə, gecə vaxtı yatmış Gəncə şəhərinə. Bütün bunlar izlənilib. Biz təbii ki, bu məlumatı dərhal Rusiya tərəfinə çatdırdıq. Mən Prezident Putinlə söhbət zamanı bu barədə dedim, Rusiya tərəfini erməniləri bundan çəkindirməyə çağırdım. Əks halda, bizim seçimimiz olmayacaq, biz onların şəhərlərini bombalayacağıq. Bizdə hər şey nişan altında idi. Bizim raketlərimiz təkcə Naxçıvan Muxtar Respublikasından deyil, digər regionlardan da rahatlıqla Yerevanadək çatar. Biz bunu hər an nümayiş etdirə bilərik. Buna görə də mənim bu çağırışım artıq bütün qırmızı xətləri keçmiş, azğınlaşmış Ermənistan hərbi-siyasi rəhbərliyini vəziyyətin sağlam düşüncəli təhlilinə çağırış idi. Yoxsa, biz onları sadəcə, tamamilə məhv edərik. Hesab edirəm ki, Rusiya tərəfinin təsiri özünü göstərdi. Çünki Gəncəyə son zərbələrdən sonra bir daha belə cəhdlər olmadı. Hərçənd buna qədər onlar müntəzəm hücuma keçirdilər. Yeri gəlmişkən, bundan sonra da həm artilleriya silahlarından, həm də minaatanlardan bizim şəhərlərimizə daim hücum edirdilər. Tərtərə məncə, 16, yaxud 18 min bomba düşüb, o cümlədən dəfn mərasiminə hücum ediblər. Yəni, dinc əhaliyə maksimum ziyan vurmaq istəyiblər. Görünür, bu, onların acizliyinin, zəifliyinin, döyüş meydanında məğlub olmalarının nəticəsi idi. Onlar düşünürdülər ki, bizi bu yolla dayandıracaqlar. Hərçənd, mən demişdim ki, öz yaxınlarını itirmiş və ya uçqunların altından çıxmış, tamamilə qan içində olan adamlar deyirdilər ki, yalnız irəli gedin, təki dayanmayın.

Nə etmək, hansı çəkindirmə mexanizmlərindən istifadə etmək lazım olması barədə sualınıza gəldikdə, Ermənistana "İsgəndər" raketləri veriləndə mən bunu Rusiya rəhbərliyinə demişdim. Mən demişdim ki, bu, düzgün addım deyil, bu addım sabitliyin möhkəmlənməsinə yönəlməyib, bu, bizi heç nədən çəkindirməyəcək. Yeri gəlmişkən, müharibə dövründə də demişəm və Rusiya tərəfinə "İsgəndər" raketlərinin geri almalarını təklif etmişəm. Bəli, demişəm, bu gün də fikrim belədir ki, regionlarda hadisələrin belə faciəli inkişafının qarşısını ala biləcək yeganə yol bu silahları geri almaq və ermənilərə bir daha pulsuz silah verməməkdir. Mən bunu həmişə deyirəm. Təəssüf ki, belə olub. Müharibədən sonra belə hallar yoxdur. Biz bunu müsbət addım kimi qiymətləndiririk.

Lakin Ermənistanın müdafiə naziri bu yaxınlarda bəyan edib və məncə, Rusiyanın Ermənistandakı səfiri də deyib ki, Ermənistan ordusunun modernləşdirilməsində Rusiya da iştirak edəcək. Nə üçün? Nə məqsədlə? Mənim sualım əsaslıdır. Mən sizin kanalınız vasitəsilə, bugünkü birbaşa translyasiya vasitəsilə soruşuram: nə üçün? Buna heç bir zərurət yoxdur. Əgər biz sülh, uzunmüddətli sülh istəyiriksə, məsuliyyətsiz adamların əlində bu cür məhvedici vasitələr olmamalıdır. Hərc-mərclik hökm sürən, ordunun rəhbərliyə tabe olmadığı, onların hərbi çevriliş etdiyi və ya etmədiyi ölkədə bu da tragikomediyanın bir hissəsidir. Axı, hərbi çevrilişi ya edirlər, ya da etmirlər. Əllərində meqafonlar tutmuş, küçələrdə gecə çadırları qurmuş, hansısa bomjların yürüşləri tragikomik təsir bağışlayır. Bu, sadəcə, biabırçılıqdır. Bütün dünya onlara gülür, həm iqtidara, həm də müxalifətə. Ona görə də, belə adamların əllərinə təhlükəli silah vermək olarmı? Buna görə də demək istərdim, elə etmək lazımdır ki, heç kəs üçün təhlükə yaranmasın.

Rusiya Federasiyası ilə gələcək hərbi-texniki əməkdaşlığa gəlincə, bu əməkdaşlığımız planlı xarakter daşıyır. Biz hərbi əməliyyatlar başa çatandan sonra bu mövzunu da Rusiya rəhbərliyi ilə müzakirə etmişik. Ona görə ki, bizim resurslarımız da, döyüş sursatımız da sərf edilib və təbii ki, bu arsenalı müharibədən əvvəlki həddə qədər tamamlamaq zəruridir. Bu istiqamətdə iş aparılır. Bizim əsas hərbi texnikamız Rusiya istehsalı olan texnikadır və Ermənistandan fərqli olaraq, biz heç vaxt şikayətlənməmişik. Ona görə ki, əvvələn, şikayətlənmək üçün səbəb olmayıb. Rusiyanın hərbi texnikası bəzi göstəricilər üzrə dünyada ən yaxşı texnika və bütövlükdə dünyada ən yaxşı texnikalardan biridir. Sadəcə, o, düzgün əllərdə

olmalıdır ki, sonradan bu cür əsassız, əslində, Ermənistanda hərbi-siyasi böhrana gətirib çıxarmış ittihamlar olmasın.

**Böyük Britaniyanın "Independent" qəzeti:** Xocalı soyqırımından 29 il ötür. Azərbaycan müharibədə qalib gəlib. 29 il sonra Azərbaycanın Qarabağla bağlı hədəfi nədir? Əcnəbi əsgərlərin hələ də regionda müşahidəçi olaraq qalacağını düşünürsünüzmü? Təşəkkürlər.

**Prezident İlham Əliyev:** Biz hədəfə çatdıq. Bizim hədəfimiz ərazi bütövlüyümüzün bərpa edilməsi idi, buna nail olduq, hərbi qələbə qazandıq. Torpaqları danışıqlar, müzakirə yolu ilə yox, hərbi yolla azad etdik. Döyüşərək, qan tökərək, şəhidlər verərək ədaləti bərpa etdik. Şəhidlərimizin qanını yerdə qoymadıq. Düşməndən intiqamımızı döyüş meydanına aldıq.

Əcnəbi əsgərlərə gəldikdə, onların Azərbaycan ərazisində fəaliyyət göstərməsi müvəqqəti xarakter daşıyır. Bu əsgərlər xüsusi missiya icra edirlər. Bu, hərbi baza anlamına gəlmir. Rusiyanın sülhməramlı qüvvələri burada sülhməramlı missiyanı icra edirlər, hesab edirəm ki, müvəffəqiyyətlə icra edirlər. Hərdən bir müəyyən problemlər üzə çıxır, bəzi problemlər yaşanır. Amma, ümumiyyətlə, Rusiya sülhməramlı qüvvələrinin fəaliyyəti qənaətbəxş hesab oluna bilər. Onların burada fəaliyyəti beş il müddətinə nəzərdə tutulur. Əgər beş ildən sonra Azərbaycan bu məsələ ilə bağlı fərqli fikir sərgiləsə, əlbəttə ki, onların da fəaliyyətinə son veriləcəkdir. Eyni zamanda, artıq bu barədə mən öz fikirlərimi bildirdim. Türkiyə-Rusiya Birgə Monitorinq Mərkəzinin fəaliyyətə başlaması da çox önəmli addımdır. Bu, bölgəmizin sabitliyini qorumaq üçün önəmli amildir. Onu da bildirməliyəm ki, bəzən dünyada, eyni zamanda, Azərbaycanda Rusiya sülhməramlı missiyasının fəaliyyəti ilə bağlı o qədər də dəqiq olmayan fərziyyələr irəli sürülür. Onların bu gün Azərbaycan ərazisində olması, eyni zamanda, azad edilmiş torpaqlara Azərbaycan əhalisinin qayıtması üçün də müsbət rol oynayacaq. Çünki Ermənistanın diversiya qrupunun azad edilmiş torpaqlara göndərilməsi bunu göstərir. Ona görə onların fəaliyyəti hesab edirəm ki, müsbətdir. Bu fəaliyyət əminəm ki, belə də davam edəcək. Amma yenə də Azərbaycan ərazisində hər hansı bir başqa xarici qüvvələrin yerləşməsi müzakirə mövzusu deyil.

**RBK telekanalı:** Salam, cənab Prezident. Mənim sualım insanlarla bağlıdır, amma, əlbəttə, Qarabağa aiddir. Üçtərəfli Bəyanat imzalanandan sonrakı xəritəyə baxsaq görərik ki, hazırda şərti olaraq erməni qüvvələrinin nəzarətində olan torpaqlar demək olar ki, indi həmin Bəyanata əsasən tamamilə Azərbaycana məxsus olan ərazilərlə əhatə olunub. Bir də ensiz bir yol – Laçın dəhlizi var. Şərti mənada desək, Qarabağ erməniləri həmin dəhlizlə Xankəndiyə və ya onların dediyi kimi Stepanakertə gedə bilərlər. Hər halda rusiyalı sülhməramlıların Qarabağ ərazisində olması haçansa başa çatacaq. Sizin fikrinizcə, bu dəhlizdən keçid necə həyata keçiriləcək – insanların harada qeydiyyatda olmasına və ya pasportlarına baxılacaq? Oradan keçib getmək istəyən həmin şərti Qarabağ erməniləri necə keçib gedəcəklər? Ümumiyyətlə, prinsip etibarilə, Siz o insanları öz ətrafınıza necə inteqrasiya etməyə, onlarla necə münasibət qurmağa hazırlaşırsınız? Məsələn, bu yaxınlarda Siz Şuşadakı kilsəyə getdiniz. Ola bilsin ki, Qarabağ ermənilərindən də kimsə həmin kilsədə dua etmək üçün gəlmək istəyəcək. Belə həyati məqamlar ola bilər. Lakin biz də Azərbaycanda küçələrdəki insanlarla ilk dəfə deyil ki, ünsiyyətdə oluruq. Onlar deyirlər ki, bəli, əlbəttə, bu dəfə münaqişədə qələbəyə görə razıdırlar. Lakin bildirirlər ki, tam razı deyillər. Hər halda, Xankəndi və başqa şəhərlər barədə suallar verirlər. Sizin hər hansı gələcək planlarınız varmı? Ümumiyyətlə, gələcəkdə qarşılıqlı münasibətlər necə olacaq? Hər halda, onları necəsə qurmaq lazımdır. Çox sağ olun.

**Prezident İlham Əliyev:** Sağ olun. Hazırda mövcud olan vəziyyəti siz çox düzgün təsvir etdiniz. Azərbaycan öz ərazilərinin xeyli hissəsini həm hərbi, həm də sülh yolu ilə qaytarıb. İndi bizim əsas vəzifəmiz həmin ərazilərin bərpa edilməsi, keçmiş köçkünlərin qaytarılması və bu insanların normal həyatının təmin edilməsidir. Bunu şəraitdən, strateji planlardan asılı olaraq mərhələli şəkildə etmək lazımdır. Biz ərazilərin azad edilməsinə də uzun illər boyu gəlmişik. Danışıqlar dövrünə, mənim aparmalı olduğum danışıqlar dövrünə gəldikdə isə, bu danışıqlar prosesinin müxtəlif dövrlərində ümidlər olub. Bizə elə gəlirdi ki, əsas prinsipləri razılaşdıracağıq.

Bu gün Ermənistanda həm iqtidarda, həm də müxalifətdə nə təklif edilməsi, necə təklif edilməsi barədə spekulyasiyalar çoxdur. Ermənistanın siyasi həyatında yanar odun üstünə yağ tökməmək üçün mən şərhlər etməyəcəyəm. Təkcə onu deyə bilərəm ki, bütün danışıqlar prosesi dövründə Azərbaycanın ərazi bütövlüyü məsələsi heç vaxt müzakirə mövzusu olmayıb. Bu, prinsipial məsələ idi. Həm Ermənistanın danışıqlar apardığım rəhbərlər ilə, həm də ATƏT-in Minsk qrupunda mən bu prinsipial məsələdən danışmışam. Azərbaycanlıların qaytarılması, ümumiyyətlə, ərazilərin qaytarılması mənim prinsipial mövqeyim olub. Danışıqlar nə üçün gedirdi? Ona görə ki, erməni tərəfi bununla razılaşırdı. Vəssalam. Onlar bununla razılaşırdı. Əvvəlki iki prezident də razılaşırdı. Ermənistanın indiki rəhbərinə gəldikdə isə, mən hələlik şərhlərdən çəkinirəm. Burada, necə deyərlər, hər şey yadınızdadır. Bəs, nə üçün belə olmurdu, ona görə ki, onlar yalan danışırdı, sözdə bir cür deyir, əməldə başqa cür hərəkət edirdilər. Hər

hansı işıq ucu görünəndə ümidlər dərhal təxribatla əvəz olunurdu. Dəfələrlə belə olub. 2000-ci illərin əvvəlində də, 2014-cü ildə də. Azacıq bir imkan yaranan kimi dərhal hərbi təxribat törədilirdi. Bir əyani nümunə - ermənilərin helikopteri bizim mövqelərimizə hücum etdi və buna görə vuruldu. Onlar belə bir iddia irəli sürdülər ki, guya Azərbaycan hücum edib. Halbuki bu, hərbi helikopter idi – nə təlim helikopteri, nə də nəqliyyat helikopteri. Bu, "Mi-24" idi. Bundan sonra danışıqlar dayandırıldı. Sonra yeni mərhələ. Sonra 2016-cı ilin aprel müharibəsi. Bu gün Ermənistanın sabiq prezidenti Sarkisyan deyir ki, onlar müharibədə qalib gəliblər. Orijinal qələbədir, onların səngərlərində biz idik. Biz onların bayrağını çıxarıb, onları Ağdərə, Cəbrayıl və Füzuli rayonlarından qovub və Böyük Mərcanlıya qayıdıb öz bayrağımızı qaldırdıq. Deməli, biz belə uduzmuşuq? Əladır! Bax, nümunəvi erməni istorioqrafiyası budur, mifoloji erməni elmi, o cümlədən və ilk növbədə, tarix elmi budur. Buna görə də 2016-cı ildə biz onlara dərs verdik. Belə deyərdim, bundan sonra bizə vədlər verildi. Bir halda ki, söhbət düşüb, onu da deyim. Bizə vəd verildi ki, onlar bütün ərazilərimizdən rədd olacaqlar. Şəxsən Sarkisyan Rusiyadakı görüşümüzdə belə vədlər vermişdi. O, aprel döyüşlərindən sonra bu ərazilərdən rədd olmaq üçün iki həftə vaxt xahiş etdi. Bəs, nəyə görə o vaxt o, Ohanyanı müdafiə naziri vəzifəsindən azad etdi. Son məqamda həmin Ohanyan Şuşadan qaçdı. Guya Şuşanı müdafiə etməyə gəlmişdi. Müdafiə edəydi! O, orada, bizim torpağımızda doğulub. Bəs, nə üçün müdafiə etmədi? Nə üçün qaçdı? İndi mitinqlərdə lovğalanır, nəyə görə lovğalanması aydın deyil. Sarkisyan onu 2016-cı ilin aprelində hərbi qələbəyə görə işdən çıxarmışdı? Sarkisyana möhlət də verildi. O, iki həftə vaxt istəmişdi. Bu hadisə mənim və Prezident Putinin yanında olub. İki həftə keçdi, sonra isə ya özü təşkil etdi, ya da orada nə isə baş verdi, polis məntəqəsi tutuldu. Buna görə dedi ki, indi bunu edə bilmərəm. İndi vəziyyət gərginləşib, orada terrorçular var, mən terrorçularla vəziyyəti aydınlaşdırmalıyam. Beləliklə, işi 2018-ci ilə qədər uzatdı. Buna görə də heç bir məsələ həll edilmədi.

İndi, necə deyərlər, bütün bunları biz özümüz həll etdik. Bir daha demək istəyirəm, bizim gələcək barədə mövqeyimiz aydındır. Bu gün biz gələcək barədə düşünməliyik. Bu gün inteqrasiya barədə danışanda biz indi rusiyalı sülhməramlıların yerləşdiyi sahədə inteqrasiyanın istənilən formasına hazırıq, orada çox adam yaşamır. Ümumiyyətlə, sizə deməliyəm, orada nə qədər insanın yaşaması barədə müxtəlif rəqəmlər olmaması üçün bilin ki, müharibədən əvvəl orada maksimum 60 min nəfər yaşayırdı. Biz bu məlumatları havadan götürməmişik. Biz, o cümlədən Azərbaycan peykləri vasitəsilə, obyektiv müşahidə vasitəsilə obyektiv nəzarət məlumatlarını götürmüşük. Axı, hər kəs başa düşür ki, bizim üçün Dağlıq Qarabağ məsələsi həmişə bir nömrəli məsələ olub və bu gün də belədir. Lakin Azərbaycan dövləti operativ kəşfiyyat tədbirləri görməyə, orada nələr baş verdiyini bilməyə bilərdimi? Biz hazırda orada nələr baş verdiyini bilirdik və indi də bilirik. Müharibə vaxtı da bilirdik, müharibədən əvvəl də bilirdik. Əlbəttə, bu, bizə o vaxt da kömək edirdi, indi də kömək edir. Buna görə də indi rusiyalı sülhməramlılar tərəfindən əcnəbilərin gizlicə Dağlıq Qarabağa buraxılması ilə bağlı anlaşılmaz hərəkətlər bizi heyrətləndirir. Biz Rusiya tərəfi ilə razılığa gəlmişik ki, əcnəbilər oraya yalnız bizim icazəmizlə daxil ola bilərlər. Lakin razılaşma pozulur. Hələlik bu barədə daha danışmayacağam. Ola bilsin, bu mövzunu bir daha şərh etmək lazım gələcək, lakin bu, faktdır. Yəni demək istəyirəm ki, biz praktiki olaraq kimin oraya gəlməsini və kimin oradan getməsini adbaad bilirik. Buna görə də belə imkanlara malik olduğumuz bugünkü şəraitdə biz, əlbəttə, hər şeyi izləyirik və izləyəcəyik.

İnteqrasiya məsələsinə gəldikdə isə, biz bundan sonra da müxtəlif variantlar təklif etməyə hazırıq. Məsələn, bu gün mən bilirəm ki, su ehtiyatlarının idarə edilməsi məsələsi müzakirə olunur. Bəs, bütün bu illər ərzində bu məsələ niyə həll edilmirdi? Nə üçün ərazilərimizi işğal edərək Sərsəng su anbarından bizə gələn suyu bağlamışdılar? Yaxud nə üçün qış vaxtı suyun qabağını açıb daşqınlar törədir, yayda isə bağlayırdılar ki, bizim kənd sakinləri öz torpaqlarını suvara bilməsinlər. Artıq biz Suqovuşan su anbarını özümüzə qaytarmışıq və bu gün tamam başqa vəziyyət yaranıb. Bəli, bu gün onlar bizdən xahiş edirlər. Buna görə də burada enerji təhlükəsizliyi ilə bağlı məsələlər çox olacaq.

Bütövlükdə, Xankəndinin və hazırda erməni əhalinin yaşadığı digər ərazilərin inteqrasiyası labüd prosesdir. Tarixi perspektivi də başa düşmək və qəbul etmək lazımdır. Yeri gəlmişkən, mən bu barədə müharibədən əvvəl demişəm. Yəni, əgər Ermənistan rəhbərliyi qüvvələrin – həm hərbi, həm siyasi, həm iqtisadi, həm demoqrafik qüvvələrin nisbətini ayıq başla qiymətləndirsəydi, düzgün qərar qəbul edərdi. Bizim qüvvəmiz isə yalnız artacaq. O cümlədən, əhalimiz də. Ermənistan isə əməkdaşlıq etməsə yalnız zəifləyəcək. Burada obyektiv olaraq başqa hal, sadəcə, mümkün deyil. Azərbaycan və Türkiyə ilə əməkdaşlıq olmasa, Ermənistanın bərpa üçün sadəcə, resursu yoxdur. Onlar hər tərəfdən sıxılmış vəziyyətdə necə yaşayırdılarsa, elə də yaşayacaqlar. Lakin indi həmin kisə, deyərdim ki, balaca bir torbaya çevrilib. Vəssalam. Onlar yaxşı başa düşməlidirlər ki, hansısa "arsax" adlı bir dövlətləri olduğunu deyə bilərlər, lakin belə

dövlət yoxdur, heç vaxt olmayıb və olmayacaq. Bu sərsəm ideyaları bir kənara atıb Azərbaycan vətəndaşları kimi normal yaşamaq lazımdır. Biz onları Azərbaycan vətəndaşları hesab edirik, onların beynini yeyiblər. Bu gün Yerevanda yenidən hakimiyyətə gəlməyə çalışanlar həmin hərbi canilərdir. Xalqın beynini yeyən onlardır. Onlar özləri orada yaşamır, müharibə vaxtı da orada yox idilər, qaçmışdılar, Sarkisyan da, Köçəryan da, Ohanyan da. Uşaq qatilləri, Xocalı qatilləri kimi döşlərinə taxdıqları qəhrəman medalları haradadır? Onlardan biri Şuşada, ikisi Xankəndidə doğulub. Bəs, nə üçün doğulduqları yerləri müdafiə etmədilər? Müdafiə edəydilər! Yaxud indi. Qoy getsinlər, burunlarını oraya soxsunlar. Baxarıq, onlar oradan salamat çıxacaqlarmı? Bilirsinizmi, bu insanları, azərbaycanafobiyanın, Azərbaycana qarşı bu təbliğatın qurbanlarına çevrilmiş günahsız insanları müalicə etmək lazımdır. Zənnimcə, zaman ən yaxşı təbibdir. Bu, mənim sözlərim deyil. Bunu çoxları deyib. Yaraların sağalması, anlaşma yaranması üçün vaxt lazımdır. Ermənistanda bunu anlamalarından ötrü vaxt lazımdır ki, Azərbaycanı iblis şəklində təqdim etməklə bağlı göstərdikləri bütün cəhdlər, ilk növbədə, onların özləri üçün səmərəsizdir.

Dini abidələrə gəldikdə isə biz bütün dini abidələri qoruyuruq, onları dövlət qoruyur, biz bərpa edirik. Biz müharibə dövründə Qəbələ rayonunun Nic qəsəbəsindəki xristian məbədini bərpa edəndən sonra onun açılışını etdik. İşğaldan azad edilmiş ərazilərdəki xristian dini və mədəni abidələrinə gəldikdə isə, heç kəsin şübhəsi olmamalıdır ki, onlar layiqincə qorunacaq. Yeri gəlmişkən, erməni zəvvarlar Kəlbəcər rayonundakı qədim Xudavəng alban məbədini sərbəst ziyarət edə bilərlər. Biz şərait yaratmışıq və həmin məbədin mənsub olduğu Azərbaycan udi icması və məbədi erməniləşdirməyə cəhd göstərən ermənilər də onu ziyarət edirlər. Beləliklə, gələcəkdə burada problem olmayacaq. Mən buna əminəm.

**İspaniyanın "La Vanguardia" qəzeti:** Sabahınız xeyir, cənab Prezident. İlk olaraq, Sizə təşəkkür edirəm ki, bu gün bizə şərait yaradıldı. Biz ötən ilin dekabr ayında Ağdamda olduq və burada xüsusilə Sizin dil qabiliyyətinizi qeyd etmək istərdim. Bizdə İspaniyada siyasətçilər bunu edə bilmir. Dil məsələsinə gəldikdə, özlərini Dağlıq Qarabağın rəhbərləri adlandıran insanlar rus dilini guya, rəsmi dil kimi qəbul etdiklərini iddia edirlər. Cənab Prezident, necə düşünürsünüz, orada gələcəkdə rəsmi dil və ya ümumiyyətlə, dillər məsələsi necə olacaq? Təşəkkür edirəm.

**Prezident İlham Əliyev:** Sağ olun sualınıza görə. Qarabağda rəsmi dil məsələsi barədə sualınıza dair qeyd edə bilərəm ki, bu, bir manipulyasiyadır. Hazırda Azərbaycanın o bölgəsində qeyri-qanuni olaraq özlərini rəhbər adlandıranların manipulyasiyasıdır. Onlar orada suahili dilini də Qarabağın rəsmi dili elan edə bilərlər. Bunun heç bir təsiri və nəticəsi ola bilməz. Dağlıq Qarabağ mövcud deyil və hər kəs oranı Azərbaycanın tərkib hissəsi olaraq tanıyır. Düşünürəm, bu, onların, həmin cinayətkar xunta rejiminin son nəfəsidir, son cəhdləridir ki, guya onlar dövlətdirlər. Azərbaycanda yeganə rəsmi dil Azərbaycan dilidir və Azərbaycan ərazisində digər heç bir dilin rəsmi statusu ola bilməz. Eyni zamanda, biz heç bir dilə hər hansı məhdudiyyət qoymuruq. Rus dili Azərbaycanda bildiyiniz kimi, çox geniş istifadə edilir. Bu gün bizdə sovet dövründən fərqli olaraq rus dilində daha çox qəzet və internet saytları fəaliyyət göstərir. 340-a yaxın rus bölməsi olan məktəbimiz var. Ermənistanda isə neçə belə məktəb var? Sıfır. Ermənistanda yalnız orada olan rus hərbi kontingentinin övladları üçün bir məktəb fəaliyyət göstərir. Onlarda hətta təqribən belə bir qanun da qəbul edilib ki, erməni uşaqları rus məktəblərinə gedə bilməz. Yəni bu, özlərinin qeyd etdiyi kimi, strateji tərəfdaşlarına olan diskriminasiya, ayrı-seçkilikdir. Onlar Rusiyadan hərbi resursları qəbul edirlər, bizim məhv etdiyimiz bütün silahları, hansı ki dəyəri 3-5 milyard dollar civarındadır, onlar bütün bunu Rusiyadan pulsuz almışdılar. Bu, hədiyyə və ya dırnaqarası kredit müqaviləsi əsasında olmuşdur. Həmin kredit ki, onlar heç zaman onu ödəməyəcəklər. Baxın, belə bir tərəfdaşa qarşı onlar ayrı-seçkilik edirlər. Rusiya televiziya kanallarına qarşı yeni qanunvericilik qəbul edilmişdir. Müharibədən sonra onlar bunu bir balaca, qismən aradan qaldırıblar. Onlar rus dilini qadağan edirlər, rusdilli məktəbləri qadağan edirlər. Ancaq baxın, indi Rusiya sülhməramlıları Qarabağa yerləşəndən sonra birdən bunlar rus dilini rəsmi dil kimi qəbul edirlər. Mən suahili dilini təklif edirəm. Belə olsa, onlar dil cəhətdən uzaq, ucqar ölkələrlə təmas qurmağa da nail ola bilərlər.

Gələcəyə gəldikdə, Azərbaycanda fərqli dildə danışan insanların hər cür hüquq və imtiyazları mövcuddur. Onların təhsilə çıxışları təmin edilir, bizim bütün dövlət universitetlərində rus bölmələri var. Nəzərə alaq ki, həmin ərazilərdə yaşayan erməni icması öz aralarında erməni dilində danışa bilərlər, sovet dövründə bizim o bölgədə erməni dilində qəzetlər dərc edilirdi, orada xüsusi proqramlar var idi. Digər bütün dillər kimi erməni dili də Azərbaycanda qorunacaqdır.

Mənim müxtəlif xarici dil biliklərimə dair komplimentinizə görə təşəkkür edirəm. Bəli, mən xarici dilləri öyrənmişəm və hər zaman bunu daha tez-tez istifadə etmək mənə xoşdur.

**Yunanıstanın "Real Group Media" şirkəti:** Cənab Prezident, öncə mətbuat konfransında iştirak etmək üçün yaradılmış imkana görə təşəkkür edirəm. Bu, çox gözəl təşkil olunub. Mən Yunanıstanı təmsil

edirəm. Dünən Ermənistanda baş verən böhranla bağlı, necə hesab edirsiniz, bunun atəşkəs və aparılan təmaslara - Türkiyə, İran, Rusiya arasında təmaslara hər hansı bir mənfi təsiri ola bilərmi? Digər sualım isə Ağdamla bağlıdır. Mən dünən orada oldum. Minlərlə kvadratkilometr ərazinin darmadağın edildiyinin şahidi oldum. Bəşər sivilizasiyasına, dini abidələrə qarşı olan hörmətsizliyin, təhqirin şahidi oldum. Mən Ağdamın bu dərəcədə dağıdıldığını təsəvvür edə bilməzdim. Mən dünən sıravi vətəndaşlarla danışırdım. Sizcə bu ərazilərin bərpası nə qədər vaxt aparacaq? Orada böyük mədəni itkilər, dini abidələrə qarşı hörmətsizlik baş vermişdir. Sizin planınızca, zənninizcə, bu ərazilərin bərpası nə qədər çəkəcək?

**Prezident İlham Əliyev:** İlk sualınıza gəldikdə, Ermənistandakı böhran və onun sülhə təsiri, yenə də bu böhranın hansı istiqamətdə cərəyan edəcəyindən asılı olacaqdır. Bu böhranın tezliklə bir sonu olmalıdır. Dediyim kimi, bu tragikomediyaya son qoyulmalıdır. Atəşkəs və üçtərəfli bəyanatın icrası ilə bağlı diqqətinizi Prezident Putinin cavabına yönəltmək istərdim. Ona sual verildi ki, Ermənistan bu bəyanatın icrasından boyun qaçırmaq istəsə nə olacaq? O da dedi ki, bu, Ermənistan üçün sui-qəsd olacaqdır. Mən də bu məsələdə Prezident Putinlə tamamilə razıyam.

Ermənistandakı böhranın regional əməkdaşlıq məsələsinə təsirinə gəldikdə, bəli, bizim müəyyən narahatlığımız var. Üç ölkənin - Rusiya, Azərbaycan və Ermənistanın baş nazir müavinləri arasında üçtərəfli görüşlər keçirilir. Artıq iki belə görüş olmuşdur. Üçüncü belə bir görüş Moskva şəhərində sabaha planlaşdırılmışdır. Ancaq mənə hələ də məruzə edilməyib ki, bu görüş Ermənistan tərəfindən təxirə salınıbmı. Yəni bu, təxirə salınsa da, anlaşılan olacaqdır. Ancaq yenə də bu, Ermənistanda gələcəkdə baş verəcək hadisələrdən, oradakı siyasi mübarizənin nəticələrindən asılı olacaqdır. Amma bu, bizim planlarımıza təsir edə bilməz. Qeyd etdiyim kimi, artıq bizim regionun gələcəyi ilə bağlı aydın fikrimiz var. Türkiyə, Rusiya, İran və Azərbaycan arasında körpülərin yaradılması ilə bağlı da aydın təsəvvürümüz var. Ona görə də Ermənistan burada hər hansı bir mənfi addım atmağa cəhd etməməlidir. Onların siyasi, hərbi və iqtisadi konfiqurasiyasının asılı vəziyyətdə olması bunu şərtləndirir. Azərbaycan bu regionun tərkib hissəsi olmuşdur, hər zaman uğurlu əməkdaşlığın nümunəsi olmuşdur. Azərbaycan-Türkiyə-Gürcüstan, Azərbaycan-Türkiyə-Türkmənistan, Azərbaycan-Türkiyə-İran əməkdaşlıq formatları mövcuddur. Bununla yanaşı, Türkiyə-İran-Rusiya arasında əməkdaşlıq formatı da var. Ermənistan yeganə ölkədir ki, onlarda belə bir əməkdaşlıq formatı mövcud deyil. Yəni biz, bu regionun məsuliyyətli ölkəsiyik. Müəyyən geriləmələr, müəyyən təxirə salınmış tədbirlər ola bilər. Ancaq ümumiyyətlə, mən hesab edirəm ki, Ermənistanda siyasi hakimiyyətdə kimin olmasından asılı olmayaraq, Ermənistan buna böyük mənada təsir edə bilməz və etməməlidir də.

Siz Ağdamı qeyd etdiniz və orada acınacaqlı mənzərənin şahidi oldunuz. Ora gedən hər kəs ilk səfərində bir növ şok və sarsıntı yaşayır. Mən Ağdama səfər edəndə oradakı səngərləri görəndə heç ifadə edə bilmirəm ki, necə qarışıq hisslər keçirdim: sarsıntı, əzab, təəssüf. Eyni zamanda, fərəh hissi var idi məndə ki, biz ora qayıtmışıq. Bu, bəlkə də hətta əlavə bir mətbuat konfransının mövzusu ola bilər. Qeyd etdiyim kimi, Ağdamın işğaldan əvvəl əhalisinin sayı 40 minə yaxın idi. Yəni işğaldan sonra təbii ki, əhalinin sayı artıb. Biz artıq təqribən 70 min nəfərlik şəhərin baş planını yenidən işləməliyik və sizə bir nümunə deyə bilərəm. Ötən il biz bir neçə min ailə üçün mənzil və evlər inşa etmişik. Mənim qərarımla onlar, əslində, məcburi köçkünlər üçün nəzərdə tutulmuşdu. Ancaq artıq işğal olunmuş ərazilər azad edildikdən sonra qərara gəldim ki, həmin mənzillər şəhid ailələrinə verilsin və dünən də mən belə bir şəhərciyin - 1572 ailəlik şəhərciyin açılışını etdim. Bu ilin sonuna qədər daha 3 min şəhid ailəsi ev və mənzillərlə təmin ediləcək. Biz buna bir növ öyrəncəliyik, bizdə bunun təcrübəsi var. Biz hər il 3-4 min mənzil və ev inşa edə bilirik. Yəni fiziki olaraq biz Ağdam şəhəri haqqında danışırıqsa, bu şəhər hesab edirəm ki, 2-3 il ərzində tam bərpa oluna bilər. Ancaq bundan öncə minadan təmizləmə, infrastruktur layihələri həyata keçirilməlidir. Elektrik infrastrukturuna gəldikdə, biz bütün şəhərlərimizin, bölgələrimizin bir-biri ilə bağlı enerji şəbəkəsini yaradacağıq. Artıq büdcə, proqram təsdiq edilib və bu ilin sonuna qədər elektrik enerjisi təminatı başa çatdırılacaqdır. Su təminatı, qaz təminatı, yollar... Biz təkcə evlər tikməli deyilik, orada xəstəxanalar, məktəblər, bağçalar tikilməlidir. Orada iş yerləri yaradılmalıdır. Çünki orada yaşayan insanlar işlə təmin edilməlidir. Yəni bütün bu işlər bizim Böyük Qayıdış adlandırdığımız proqramımızın tərkib hissəsidir, Prezident Administrasiyasının rəhbəri bu əlaqələndirmə ilə məşğuldur. Təkcə Ağdam deyil, digər bütün şəhər və qəsəbələrimizdə – Füzuli, Cəbrayıl, Qubadlıda vəziyyət təqribən eynidir. Zəngilanda bir neçə ev istisna olmaqla hər şey darmadağın olub. Bu, çox nəhəng bir işdir, bizim qarşımızda böyük işlər dayanır. Biz bunu yalnız öz daxili resurslarımız hesabına edəcəyik və artıq etməyə başlamışıq. Burada söhbət təkcə maliyyə resurslarından getmir. Söhbət texniki imkanlardan gedir, bizim peşəkarlarımız, intellektual resurslarımız var.

Xüsusilə vurğulamaq istəyirəm ki, biz orada vətəndaşlarımız üçün ən yaxşı şərait yaratmalıyıq. Çünki uzun illərdir bu insanlar əziyyət çəkirlər. Biz

anlayırıq ki, həmvətənlərimiz ən qısa zamanda oraya qayıtmaq istəyirlər. Yenə də istəməzdim daha dəqiq tarix verim, təkcə elə Ağdam kimi bir şəhərimizin yenidən bərpası ən azı 2 il çəkəcəkdir.

**İranın Mehr agentliyi:** Cənab Prezident, bu gün terrorçuluq dünya üçün təhdiddir. Qarabağ müharibəsi zamanı regionda terrorçu qrupların fəaliyyət göstərməsi barəsində xəbərlər yayılırdı. Bu isə region üçün böyük təhlükədir. Burada hansı kollektiv səylər göstərilməlidir? Bununla bağlı Azərbaycan Respublikası tərəfindən hansı addımlar atılacaqdır? Digər sualım isə Azərbaycan-İran əməkdaşlığının necə qiymətləndirilməsi ilə bağlıdır. İki xalqı bir-birinə tarixi və mədəni bağlar birləşdirir və bu əməkdaşlığın regional perspektivlərini necə görürsünüz?

**Prezident İlham Əliyev:** Bir məsələni aydınlaşdırmaq istəyirəm. Siz müharibə zamanı terrorçu qrupların fəaliyyət göstərməsi haqqında danışırsınız, hansı məlumatlara, kim tərəfindən verilən məlumatlara istinad edirsiniz?

**Jurnalist:** Region ölkələrindən olan xəbər agentlikləri belə məlumat yayırdılar. İcazənizlə onların adlarını çəkməyim.

**Prezident İlham Əliyev:** Bilirsiniz, sualınız bir növ ittiham formasındadır. İstənilən məlumat haqqında danışmaq olar, ancaq mənbə qeyd edilməlidir. Siz deyirsiniz ki, məlumatlar yayıldı, onların mənbəyini də qeyd edin. Terrorçu qruplar haqqında məlumatın mənbəyini qeyd edin.

**Jurnalist:** Sizcə, regionda terrorçu qrupların qarşısının alınması üçün hansı tədbirlər görülməlidir?

**Prezident İlham Əliyev:** Hansı regiondan və ya ölkədən söhbət gedir? Siz mənbə göstərə bilmirsiniz. Kimisə ittiham etmək asandır. Siz onu sual formasında verə bilərsiniz, ancaq, burada mahiyyət dəyişmir. Dediyinizin arxasında dayanmaq daha çətindir. Xəbər deyirsiniz, yəni, hansı mənbələrə istinad edirsiniz? Sualınızda mənbəni qeyd edə bilsəniz, daha geniş cavab verə bilərdim.

**Jurnalist:** O zaman ikinci sualıma cavab versəniz məmnun olardım.

**Prezident İlham Əliyev:** Hesab edirəm ki, siz birinci sualınıza özünüz cavab verdiniz. Sualınızda qeyd etdiyiniz məlumatlar mövcud deyil. Müharibə zamanı terrorçu qrupların iştirakı ilə bağlı hər hansı məlumat, dəlil və sübut yoxdur. Bu, məqsədyönlü şəkildə uydurulmuş bir hekayədir və mən təəssüf edirəm ki, dost ölkədən olan jurnalist belə bir sual verir. Adətən belə ittiham xarakterli suallar digər ölkələrdən olur. Torpaqların azad olunması uğrunda aparılan əməliyyatlarda heç bir terrorçu iştirak etməyib. Bu qələbəni Azərbaycan Ordusu qazanıb. Burada hər hansı yazılı və ya şifahi məlumat və ya sübutlardan söhbət gedə bilməz. Bu, Azərbaycanı ittiham etməkdən başqa bir şey deyil. Bu, Ermənistan tərəfindən ediləndə anlaşılandır. Bu, ermənilərin bir bəhanəsidir, çünki onlar üçün bu, psixoloji cəhətdən ağrılı bir məsələdir – Azərbaycan əsgəri onları məğlub edib. Onlar deyə bilərlər ki, bunu hansısa terrorçular edib. Ancaq kimsə bu terrorçuları görüb? Siz və ya həmkarlarınız, sadəcə, bir ad verə bilərsinizmi? Kifayət qədər vaxtınız var, bu məlumatları həmkarlarınızla bölüşün. Varmı belə bir məlumat? Xeyr. Ona görə sizə tövsiyəm odur ki, spekulyasiya ilə məşğul olmayın. Dediyim kimi, siz bir xanım olaraq dost ölkədən gəlmisiniz, ona görə də mən mövzunun dərinliyinə getmək istəməzdim. Ancaq xahiş edirəm, belə şayiələr yayarkən daha məsuliyyətli olun.

O ki qaldı, Azərbaycan-İran əməkdaşlığına, bu əməkdaşlıq çox yaxşı səviyyədədir. Müharibədən sonrakı dövr yeni imkanlar yaradır. Bilirəm ki, İran şirkətləri dağıdılmış ərazilərdə yenidənqurma işlərində iştirak etməkdə maraqlıdırlar. Azərbaycandan olan yüksəksəviyyəli nümayəndə heyəti İranda səfərdə olmuşdur. Burada əməkdaşlığımızla bağlı vacib məsələlər, o cümlədən Xudafərin su anbarının birgə istifadəsi də müzakirə edilib. Biz artıq elektrik stansiyalarının inşasına dair İran tərəfi ilə razılığa gəlmişik. Artıq Xudafərin və Qız qalası elektrik stansiyalarının tikintisi ilə bağlı büdcə ayrılıb. Ümumi istehsal gücü 280 meqavat olacaq və bu həcm iki ölkə arasında bölüşdürüləcək.

Yeni vəziyyətlə əlaqədar çoxlu imkanlar var. Biz İranla dövlət sərhədimizi bərpa etmişik, onun 132 kilometrlik hissəsi işğal səbəbindən bizim nəzarətimizdə deyildi. Bu gün isə artıq biznes üçün yeni imkanlar açılır. Buraya nəqliyyat və kənd təsərrüfatı da daxildir. Nəqliyyat sahəsi haqqında danışarkən, mən Zəngəzur dəhlizini qeyd etmək istəyirəm. Bu dəhliz İran tərəfi üçün də faydalı olacaqdır. İran həmin dəhlizdən istifadə edərək Ermənistanla dəmir yolu əlaqəsi yarada bilər. İki ölkənin hazırda belə bir əlaqəsi yoxdur və eşitdiyimə görə, belə bir dəmir yolu xəttinin tikintisi artıq gündəmdə deyil. Çünki olduqca mənasız və bahalı bir layihədir. Naxçıvandan, Culfa üzərindən İran yükləri Ermənistana və geriyə nəql edilə bilər. İmkanlar çoxdur, biz onların hamısını nəzərdən keçirəcəyik və əminəm ki, gələcəkdə sıx əməkdaşlığımız davam edəcək.

**Jurnalist:** Cənab Prezident, mən üzr istəyirəm, ancaq zənnimcə, mənim terrorçu qruplarla bağlı sualım yanlış anlaşıldı. Mən Azərbaycan tərəfindən terrorçu qrupların fəaliyyətini nəzərdə tutmurdum. Mən Qarabağ müharibəsi zamanı regionda İŞİD kimi qrupların fəaliyyətini nəzərdə tuturdum.

**Prezident İlham Əliyev:** Aydınlıq gətirdiyinizə görə sizə təşəkkür edirəm.

**İraq media şəbəkəsi:** Cənab Prezident, işğaldan azad olunmuş ərazilərdə təşkil edilmiş tədbirlərdə iştirak üçün bizi dəvət etdiyinizə görə Sizə dərin təşəkkürümü bildirirəm. Dünən işğaldan azad edilmiş Ağdam şəhərini ziyarət edərkən biz misli görünməmiş dağıntıların şahidi olduq. Məlum oldu ki, bütün evlər işğal dövründə daşlara qədər qarət edilib. O cümlədən dağıdılmış vəziyyətdə olan qədim məscidin işğal zamanı heyvanlar üçün tövlə kimi istifadə edildiyini öyrənmək bizə çox ağırdır. Bildiyimizə görə, Ermənistan tərəfindən işğal edilmiş digər ərazilərdə də məscidlər, türbələr, qəbiristanlıqlar, ümumiyyətlə Azərbaycan xalqına məxsus mədəniyyət abidələri tamamilə dağıdılmışdır. Bununla əlaqədar sizin hökumət Ermənistana qarşı beynəlxalq hüquqi müstəvidə hansı konkret iddialar qaldırmağı düşünür? Digər tərəfdən, bu, müasir tarixdə İslam irsinin və mədəniyyət abidələrinin ən genişmiqyaslı dağıdılmasıdır. Bunu İŞİD-in işğal etdiyi torpaqlarda mədəniyyətlərə qarşı cinayətləri ilə müqayisə etmək olar. Bildiyimə görə, bu fakt bu yaxınlarda ICESCO-nun nümayəndələri tərəfindən təsdiq edilib. Sizcə, azad edilmiş ərazilərdə mədəni abidələrin bərpasında beynəlxalq təşkilatlar və müsəlman ölkələri hansı konkret rol oynaya bilər? Eyni zamanda, həmin ərazilərin bərpasında dediyimiz kimi, beynəlxalq təşkilatlar və müsəlman ölkələri ümumi şəkildə hansı rol oynaya bilərlər? Çox sağ olun, cənab Prezident.

**Prezident İlham Əliyev:** Sağ olun. Doğrudan da, Ağdam şəhərinin görüntüləri hamımız üçün çox ağrılıdır və bütün dünya bunu görməlidir. Ağdam məscidində donuz, inək saxlanılması Ermənistan tərəfindən bütün müsəlman aləminə edilən təhqirdir. Biz bunu belə qəbul edirik. Bu təhqiri edənlər bu gün Ermənistan siyasi müstəvisində də özləri üçün yer tapmaq istəyirlər. Ermənistanın keçmiş prezidenti Köçəryanın dağılmış və üzərində təhqiramiz ifadələr olan həmin Ağdam məscidinin önündə fotoşəkilləri var. Onlar bu cinayəti törədiblər və mən dəfələrlə müxtəlif tədbirlərdə, xüsusilə İslam Əməkdaşlıq Təşkilatının Zirvə görüşlərində və digər beynəlxalq tədbirlərdə qeyd edirdim ki, bu cinayəti törədənlər, İslam müqəddəslərinin təhqirini özünə rəva bilənlər heç vaxt müsəlman ölkələri ilə dost ola bilməzlər. Mən müsəlman ölkələrinin liderlərinə üz tutub deyirdim ki, sizin əl sıxdığınız insanlar müsəlman məscidlərini dağıdan, sökən, orada inək, donuz saxlayanlardır. Zəngilan işğaldan azad olunandan sonra bu, lap yeni görüntülərdir. Müharibə dövründə o görüntülər də üzə çıxmışdır. Zəngilan rayonunun məscidlərinin birində donuz saxlayırdılar. Pənahəli xanın sarayını tövləyə çevirmişdilər. Yəni, bunu qəsdən edirlər. Məgər, heyvanları başqa yerdə saxlamaq olmaz? Qəsdən edirlər. Görün, müsəlmanlara qarşı bunların nifrəti nə qədər böyükdür və bunu edən cinayətkarlar, bunu edən əxlaqsızlar ondan sonra da gedib bəzi müsəlman ölkələrinin liderləri ilə görüşüb hansısa dostluqdan, əməkdaşlıqdan danışırlar. Ona görə mən xahiş edirəm, bu görüntüləri yayın bütün dünyaya. Bütün dünya görsün ki, Ermənistan rəhbərliyi islamofob xislətləri ilə fərqlənir və bu, təkcə bizə deyil, bütün müsəlman aləminə qarşı təhqirdir.

Azad edilmiş torpaqlarda məlumatlara görə, 67 məscid var idi, onlardan cəmi biri nisbətən salamat vəziyyətdədir. Qalanlar ya tam dağıdılıb, ya da ki, onların böyük hissəsi dağıdılıb. Biz bütün məscidləri bərpa edəcəyik. Əlbəttə ki, İslam ölkələrinin nümayəndələri bu məsələ ilə bağlı öz təkliflərini verirlər. Bu yaxınlarda sizin də qeyd etdiyiniz kimi, ICESCO-nun nümayəndə heyəti Azərbaycanda idi. Onlar Ağdam məscidini ziyarət etmişlər və ondan sonra ICESCO-nun Baş katibi ilə görüş əsnasında belə bir təklif irəli sürüldü ki, ICESCO bizim tarixi abidələrimizin bərpası işində öz rolunu oynaya bilər. Biz bunu alqışlayırıq. Digər müsəlman ölkələrinin nümayəndələrinin təşəbbüslərini də biz alqışlayırıq. Biz bu bərpa işlərini İslam həmrəylik bayramına çevirməliyik. Çünki Azərbaycan İslam həmrəyliyinin gücləndirilməsi ilə bağlı çox ardıcıl siyasət aparır. İslam Əməkdaşlıq Təşkilatının xətti ilə ölkəmizdə keçirilmiş müxtəlif tədbirlər, eyni zamanda, prinsipial məsələlərlə bağlı açıq mövqeyimiz, əlbəttə ki, İslam aləmində də bizə böyük nüfuz qazandırıb. Müsəlman ölkələri arasındakı birlik, həmrəylik bizim hamımız üçün lazımdır. Ona görə belə bir təklifə görə sizə təşəkkürümü bildirirəm və xahiş edirəm ki, öz ölkənizin ictimaiyyətini bu reallıqlarla tanış edəsiniz.

**Türkiyənin Anadolu Agentliyi:** Hörmətli cənab Prezidentim, 10 noyabrdan sonra bölgədə Bəyanatı imzalayan üç ölkənin etməli olduqları bəzi fəaliyyətlər var idi və üç ölkə də fəaliyyətlərinə başladı. Ancaq bu dönəmdə bölgədəki xarici ölkələrin sayı, bölgəyə dərhal sonra hər gün gələn karqo təyyarələrə nəzarət olunması, bölgəyə geri qaytarılan erməni vətəndaşların sayı ilə bağlı müxtəlif iddialar mətbuatda yer aldı. Bəzi məsələlər Sizin gündəliyinizdə də yer aldı. Siz bu məsələlərlə bağlı iradlarınızı daha əvvəl dilə gətirmişdiniz. Siz müharibədə qalib gələn ölkənin lideri olaraq 10 noyabrdan sonrakı dövrdən məmnunsunuzmu və bu dövr daha yaxşı ola bilərdimi?

**Prezident İlham Əliyev:** Prinsip etibarilə mən məmnunam. Çünki 10 noyabrda imzalanmış Bəyanatda göstərilən əsas məsələlərdən biri Ağdam, Kəlbəcər və Laçın rayonlarının bizə qaytarılması idi və buna biz nail olduq. Dekabrın 1-də bu bölgələr bizə qayıtdı.

Eyni zamanda, Bəyanatda göstərilən digər məsələlərlə bağlı, hesab edirəm ki, müsbət addımlar atılır. Bəzi məsələlər təbii olaraq hələ ki, icra edilmir.

Onlar üçün müəyyən zaman lazımdır. Amma hesab edirəm ki, məsələ prinsip etibarilə müsbət istiqamətdə gedir.

Türkiyə-Rusiya Birgə Monitorinq Mərkəzinin fəaliyyət göstərməsi də bu istiqamətdə atılmış çox önəmli addımdır. Mən əminəm ki, bu monitorinq mərkəzi vasitəsilə bölgədə sabitlik və atəşkəs rejiminin möhkəmləndirilməsi işinə böyük töhfə veriləcək. Azərbaycan Prezidenti olaraq bildirmək istəyirəm ki, Azərbaycan tərəfindən hər hansı bir aqressiv addım atılmayacaq. Biz bunu heç vaxt etməmişdik və bu gün buna ehtiyac yoxdur. Ona görə 10 noyabr Bəyanatı prinsip etibarilə icra edilir.

Bəzi məsələlər var ki, onlar 10 noyabr Bəyanatında öz əksini tapmayıb, amma ondan sonrakı dövrdə razılaşdırılıb. Bu məsələlərin bir qismi icra edilir, bir qismi isə hələ ki, icra edilmir. Yenə də deyirəm, bəzi məsələlər var ki, Rusiyanın sülhməramlı qüvvələri bizim ərazimizə xarici vətəndaşların buraxılmasında o qədər də ciddi addımlar atmırlar. Bu, bizi narahat edir və bu narahatlığı da biz Rusiya tərəfinə çatdırırıq. Əminəm ki, vaxt keçdikcə, bu məsələlər də tənzimlənəcək.

Biz bir məsələni də unutmamalıyıq ki, 10 noyabrdan sonra bizim bölgəmizdə və bütövlükdə dünyada tam yeni bir vəziyyət yaranıb. Biz bu vəziyyətə uyğunlaşmalıyıq, hər bir ölkə buna öyrəşməlidir. Bu, yeni bir vəziyyətdir, bizim üçün də, qonşu ölkələr üçün də. Burada həm logistik, həm texniki, həm nəqliyyat, eyni zamanda, psixoloji problemlər var. Bəzilərinin gözləntiləri həddindən artıq çoxdur. Amma hər şeyin öz vaxtı var, öz yeri var. Biz addım-addım öz hədəfimizə çata bilmişik və mümkün olmayanı 44 gün ərzində reallığa çevirmişik. Bunu bu gün təkcə biz yox, beynəlxalq ekspertlər də deyir. Bizim apardığımız hərbi əməliyyat bu gün dünyanın aparıcı ölkələrinin hərbi məktəblərində öyrənilir. Hesab edirəm ki, biz müharibə dövründə və müharibədən sonra mümkün olan maksimum nəticəni əldə etdik və həyat davam edir, həyat yerində durmur, yeni məsələlər ortalığa çıxır.

Bizim strateji baxışımız var: Biz nə istəyirik, bu günə qədər nə istəmişik, bundan sonra nə istəyirik. Bu arzulara, hədəflərə çatmaq üçün nə etməliyik? Bizdə çox aydın baxış və təsəvvür var. Biz bu ümumi plan çərçivəsində bundan sonra da öz addımlarımızı atacağıq və yeni nailiyyətlər, uğurlar da olacaqdır.

**Ukraynanın "1+1" telekanalı:** Hər vaxtınız xeyir, cənab Prezident. Sizə iki sualım var. Birinci sualım kifayət qədər qısadır. Xahiş edirəm Ukrayna ilə Azərbaycanın indiki mərhələdə hərbi və hərbi-texniki əməkdaşlığının xarakterini qısaca səciyyələndirin. Azərbaycanın ərazilərini işğaldan hərbi yolla azadetmə təcrübəsini Ukrayna ilə bölüşmək imkanı varmı? İkinci sual: Ukraynada və Azərbaycanda müharibələrin xarakterində bütün fərqlərə baxmayaraq, hər halda, Ukrayna Rusiyanın təcavüzünə qarşı mübarizə aparır, bizim ortaq cəhətlərimiz çoxdur. Məsələn, işğaldan azad ediləndən sonra, yumşaq desək, qanuni hakimiyyətə o qədər də dostcasına münasibət bəsləməyən yerli əhalinin reinteqrasiyası probleminin həlli zərurəti. Siz bu problemlə üzləşirsiniz. Biz onu həll etməliyik. Sual budur. Qısamüddətli və uzunmüddətli perspektivdə Qarabağın erməni əhalisinə münasibətdə Sizin planlarınız necədir və başqa sözlə desək, Siz Qarabağ ermənilərinə nə təklif edə bilərsiniz? Vətəndaşlıq, tam reinteqrasiya, mədəni muxtariyyət və sair. Çox sağ olun.

**Prezident İlham Əliyev:** Sağ olun. Ukrayna ilə Azərbaycan arasında hərbi-texniki əməkdaşlıq məsələsinə gəldikdə, prinsip etibarilə bu əməkdaşlığın böyük tarixi var. Müstəqilliyin ilk illərində Ukrayna hərbi-texniki əməkdaşlıq məsələsində bizim əsas tərəfdaşımız olub, lakin tədricən bu əməkdaşlıq yox dərəcəsinə enib. Açığını deyim ki, bu gün də həmin əməkdaşlığın həcmi o qədər də böyük deyil. Hərçənd, bizim hərbi sənayenin formalaşmasına gəldikdə, biz öz hərbi sənayemizi yaratmağa başlayanda Ukrayna müəssisələri bu işdə bizə çox kömək ediblər və bizim hərbi məhsullar istehsal edən müəssisələrin çoxu Ukrayna şirkətləri ilə birgə müəssisələr idi.

Mənə məlum olduğuna görə, bu gün Ukraynanın hərbi-texniki kompleksi inkişaf dövrünü yaşayır. Azərbaycanda da belədir. Ona görə hesab edirəm ki, bu istiqamətdə də əməkdaşlıq üçün imkanlar var. Lakin açıq deyim ki, hələlik istər Ukrayna, istərsə də Azərbaycan tərəfindən hər hansı konkret layihələr və təkliflər olmayıb. Yəqin ki, hələ bunun vaxtı yetişməyib.

Yerli əhalinin reinteqrasiyası məsələsinə gəldikdə, sözün düzü biz bu işə hələ başlamamışıq. Ona görə ki, müharibə təzəcə başa çatıb. Bu gün Qarabağ ərazisində yaşayan erməni əhalinin azərbaycanlı əhali ilə əlaqəsi yoxdur. Lakin bu, ona görədir ki, orada azərbaycanlı əhali, sadəcə, yoxdur, otuz il orada azərbaycanlılar olmayıb və azərbaycanlı əhali oraya qayıtmayıb. Erməni əhali isə Rusiya sülhməramlı missiyasının nəzarəti altında olan ərazidədir və bu ərazidən kənara çıxmır, ona görə ki, orada çıxası yer də yoxdur. Orada hər yer minalanıb. Buna görə də erməni və azərbaycanlı əhali arasında gündəlik əlaqələrin başlanması üçün şərait yetişməlidir. Bu, ilk növbədə, siyasi şəraitə aiddir. Bir daha deyirəm, Ermənistan dövləti Azərbaycanın suveren ərazisini onun əlindən almaq üçün hər hansı cəhdlərdən, "Arsax müstəqil dövlətdir" tipli hər cür frazalardan, bütün bu boş və cəfəng sözlərdən imtina etməlidirlər. Onlar, sadəcə, özlərini və bütün dünyanı aldatmaq və orada yaşayan insanları çaşdırmaq cəhdlərindən

imtina etməlidirlər. Onlar Azərbaycanın ərazi bütövlüyünü tanımalıdırlar. Hesab edirəm ki, bu, zəruridir. Mən əvvəllər Azərbaycan ilə Ermənistan arasında sülh müqaviləsinin mümkünlüyü barədə suallara cavab verərək deyəndə ki, bu gün lazım olduğundan bir qədər irəli getdiyimi başa düşürəm, lakin bu da o vaxt mümkün olacaq ki, Ermənistan Azərbaycanın ərazi bütövlüyünü tanısın, bunu bütün dünyaya etiraf etsin.

Düşünürəm ki, indi rəsmi şəxslər səviyyəsində əlaqələr, baş nazirlərin müavinlərinin iştirakı ilə işçi qrupu, Azərbaycanın və Ermənistanın sərhəd xidmətlərinin rəhbərlərinin sərhəddə görüşü, Rusiya, Azərbaycan və Ermənistanın xüsusi xidmət orqanları rəhbərlərinin Moskvada görüşü, rəsmi şəxslər arasında digər əlaqələr buna zəmin yaratmalıdır. Burada yenə zəruridir ki, Ermənistan tərəfi bizi aldatmağa çalışmağın lazım olmadığını başa düşsün. Ona görə, təəssüf ki, belə demək mümkündürsə, biz yenə bu cür hoqqaları görürük. Onlar sözdə bir cür danışır, əməldə başqa cür hərəkət edirlər. Belə etmək lazım deyil, indi o vaxt deyil. Onlar əsla elə vəziyyətdə deyillər ki, indi bunu özlərinə rəva görsünlər. Səmimi işləmək lazımdır, əgər nə barədəsə razılığa gəliriksə, onu yerinə yetirmək lazımdır, yox əgər bunu edə bilmirlərsə, demək lazımdır ki, edə bilmirlər. Bilirsiniz, bu cür əsassız ümidlər və vədlər olmamalıdır.

Bax, belə bir baza yaradılanda, azərbaycanlı əhali işğaldan azad edilən ərazilərə qayıdanda, əlbəttə, əlaqələr olacaq. Ona görə ki, hazırda Xankəndidə, digər yaşayış məntəqələrində yaşayan insanların normal həyat fəaliyyəti üçün əlaqələr, sadəcə, zəruridir. Azərbaycansız buna nail olmaq, sadəcə, qeyri-mümkündür. Fikir verin, bu gün Qarabağdakı rusiyalı sülhməramlı kontingent üçün yüklər necə çatdırılır. Necə? Əvvəlki kimi təyyarə ilə Yerevana qədər, sonra isə yük maşınları ilə Xankəndiyə qədər. İndi dəmir yolu ilə Bərdəyə qədər. Tezliklə, bir ildən sonra bizim yolumuz Ağdama qədər uzanacaq. Oradan Rusiyaya məxsus yük maşınları gəlir, yüklənir və gedir. Bu, xeyli ucuz və rahat olacaq. Bəs, hərbi qulluqçular üçün yük daşıyan Rusiya təyyarələri indi necə uçur? Onlar sonradan 10 saat, özü də qar basmış bu dəhlizlə getmək üçün Yerevana uçmurlar. Onlar Gəncəyə uçur, oradan isə Xankəndiyə getmək üçün bir saat, ola bilsin bir qədər çox vaxt lazımdır. Yəni, bunu həyat tələb edir. Rusiya tərəfi belə bir xahişlə müraciət edəndə biz onları dəstəklədik. Axı, nəyə görə biz sülhməramlılar üçün süni problemlər yaratmalıyıq. Bu sülhməramlılar, o cümlədən bizim sakinlərin də təhlükəsizliyini təmin edirlər. İkincisi, beləliklə biz hazırda orada yaşayanlara siqnal veririk ki, baxın, axı Qafqaz bürosu o vaxt Dağlıq Qarabağın Azərbaycanın tərkibində qalması barədə qərarı təsadüfən qəbul etməmişdi. Bir daha vurğulamaq və ermənilərin bir çox başqa yalanları kimi bu yalanını da ifşa etmək istəyirəm ki, həmin qərarda Dağlıq Qarabağın Azərbaycana verilməsindən yox, onun Azərbaycanın tərkibində qalmasından söhbət gedir. Onlar bu prinsipial bənd ilə həmişə manipulyasiya edirlər. O cümlədən ona görə ki, bu, Azərbaycanın tarixi vilayətidir və ikincisi, onlar oraya necə gedib çıxa bilərdilər? Axı, ötən əsrin 30-cu illərinə qədər Laçında və Kəlbəcərdə yol olmayıb. Əgər kimsə bunu bilmirsə qoy bilsin. Orada atla hərəkət edirdilər. Ermənistandan oraya necə getmək olardı – heç cür. Yalnız atla. Kəlbəcərdə, ümumiyyətlə, yol yox idi. Bu, təcrid olunmuş bir bölgə idi. Biz 1930-cu illərdə yol çəkməyə başladıq. Buna görə təbiidir ki, burada yaşayış məntəqələri, sivilizasiya, qədim şəhərlər var. Xankəndiyə gedən yol Ağdamdan keçirdi. Buna görə də hər şey öz təbii vəziyyətinə qayıtmalı, tamamilə siyasətsizləşdirilməlidir. Zənnimcə, orada yaşayan erməni millətindən olan adamlar da öz azərbaycanlı qonşuları və keçmiş dostları ilə ünsiyyət saxlayanda bunu başa düşəcəklər, tezliklə ortaq dil tapacaqlar.

**"TRT World":** Cənab Prezident, hazırda Ermənistandakı vəziyyət Sizi nə dərəcədə narahat edir? Ermənistanın baş naziri Nikol Paşinyan 10 noyabr tarixli sənədə imza atanlardan biridir. İndi orada bəzi siyasətçilər məsələyə yenidən baxılmasına dair çağırışlar edirlər, bu məsələ Sizi narahat edirmi? Daha bir sualım ondan ibarətdir ki, Sizin Nikol Paşinyanla rəsmi təmaslarınız olubmu və hazırda birbaşa təmasınız varmı?

**Prezident İlham Əliyev:** Mən istəməzdim Ermənistandakı vəziyyətlə bağlı dərinə gedim. Mənim deyə biləcəyim Ermənistanda müəyyən siyasi qruplar tərəfindən sui-istifadə edilə bilər. Məncə, məsələni özləri həll etsələr yaxşıdır. Ancaq qonşu ölkə olaraq və müharibənin başa çatmasını nəzərə alsaq, biz, əlbəttə ki, Ermənistandakı vəziyyətə biganə ola bilmərik. Biz məsələni diqqətlə izləyirik. Hesab edirəm ki, Ermənistanda hakimiyyətdə kimin olmasından asılı olmayaraq, 10 noyabr Bəyanatının icrasına mane olmaq cəhdləri bu ölkə üçün çox zərərverici olacaqdır. Mən artıq Prezident Putinin sitatını dilə gətirdim. Bu, onlar üçün sui-qəsd olacaqdır, vəziyyət bundan da qat-qat pis olacaqdır. Ona görə bu gün Ermənistanda anlamalıdırlar ki, bu vəziyyət Azərbaycana qarşı işğalçılıq siyasətinin bilavasitə nəticəsidir. Bu, son iki ildə baş verən və ya bir neçə ayın nəticəsində baş verən hadisə deyil, bunun birbaşa səbəbi işğaldır. Onlar hazırda bütün ideoloji dayaqlarını itiriblər. Çünki onların ideoloji dayaqları Azərbaycanofobiya üzərində qurulmuş miflərdən ibarət idi. Özlərini qalib ölkə kimi təqdim edirdilər, Azərbaycan isə məğlub tərəf idi. Ancaq üz-üzə gəldikdə biz sübut etdik ki, qalib

kimdir. Yəni, bu vəziyyəti mən nəzarətdə saxlayıram, ancaq mən narahat deyiləm ki, Ermənistanda olan hər hansı bir dəyişiklik Bəyanatın icrasına təsir edə bilər. İlk olaraq, ona görə ki, bu, artıq rəsmi imzalanmış sənəddir. İkincisi isə ona görə ki, burada Rusiya Prezidentinin də imzası var. Bu gün Ermənistanın Rusiyadan asılılığı müharibədən qabaqkı dövrdən 10 dəfə artıqdır. Müharibədən əvvəl də Ermənistan Rusiyadan asılı olan bir ölkə idi. Mən bununla Ermənistanı ittiham etmirəm, bu, reallıqdır, yəni o asılılıq müharibədən sonra 10 qat artmışdır. Yəni, Ermənistanın cəsarəti çatacaqmı ki, Rusiya Prezidentinin imzasına bu cür yanaşsın? Burada, sadəcə, o bəyanatdan söhbət getmir, bu söhbətin mahiyyəti ondan ibarətdir ki, orada Rusiya Prezidentinin imzası var və o, bu sənədin qarantı kimi çıxış edir. Yəni, mən tövsiyə edərdim onların hər hansı bir gözləntisi olmasın. Ermənistanda tarix sübut edib ki, orada siyasətçilər hər zaman hakimiyyətə gəlmək üçün populist çıxışlar ediblər, sonra real vəziyyətlə üzləşəndə onlar bunun əziyyətini çəkiblər. Ona görə mən istisna etmirəm ki, hər hansı revanşist bəyanatlar olsun. Amma onlar bundan çəkinməlidirlər. İstənilən halda Ermənistan hakimiyyətinin iradəsindən asılı olmayaraq 10 noyabr Bəyanatı icra ediləcəkdir.

Mənim Paşinyanla təmaslarım o vaxt sona çatdı ki, o təxribatçı bəyanatlar verdi, mən onları artıq səsləndirdim. Ondan əvvəl o, 2019-cu ildə Düşənbə şəhərində belə bir təmasın təşəbbüskarı oldu. Həmin siyasətçilər Ermənistanda bu gün onu "lift diplomatiyası" ilə məşğul olmaqda ittiham edirlər. Amma gülünc bir vəziyyətdir. Biz təsadüfən 1 dəqiqə ərzində liftdə olduq, yəni, görüşə gedərkən bir mərtəbədən digər mərtəbəyə qalxdıq. Liftdə bir dəqiqə ərzində bu adam hansı diplomatiya ilə məşğul ola bilərdi? Düşənbə şəhərində o, mənə təklif etdi ki və söz verdi ki, atəşkəsə riayət edəcək, münaqişənin başa çatdırılması üçün səylər göstərəcək. Mən dedim olsun. Sonra bizim nümayəndələr arasında birbaşa təmaslar yarandı və təmas xəttində hər hansı bir hadisə baş verəndə qarşılıqlı olaraq məlumat mübadiləsi baş tuturdu. Sonra Paşinyan özü qeyd edirdi ki, təmas xəttində bu qədər dinc vəziyyət mövcud deyildi. Nəyə görə? Çünki o, məndən xahiş etmişdi bunu və mən hesab etdim ki, bu, sülhə töhfə verəcək. Mən hesab edirdim ki, o, öz sələflərinin səhvlərini təkrar etməyəcək, siyasətini dəyişəcək. Ancaq o, mənim jestimi yanlış dəyərləndirdi. O, bunu zəiflik əlaməti kimi gördü, halbuki, bu, güc əlaməti idi, böyüklük əlaməti idi. Sonra da onun Şuşadakı məlum rəqsi və məlum bəyanatları bizim təmaslara son qoydu. Əlbəttə, müharibə zamanı də bizim heç bir təmasımız ola bilməzdi. Biz Moskvada Prezident Putinin dəvəti ilə yanvar ayında üçtərəfli görüş keçirdik. Bu, üçtərəfli görüş idi və bizim ikitərəfli hər hansı bir əlaqəmiz olmayıb və təmasımız da olmayıb.

**REAL Televiziyası:** Cənab Prezident, Ermənistan 30 il ərzində işğal altında saxladığı Azərbaycan ərazilərində xalqımızın tarixi, mədəni irsinə ağır zərbə vurub, məscidləri, tarixi abidələrimizi, infrastrukturu dağıdıb. Demək olar ki, ərazidə faktiki səhralıq hökm sürür, oranı səhralığa çeviriblər. Bu vandallıq 10 noyabr Bəyanatından sonra da davam etdi. Onlara günlər verilmişdi ki, ərazini tərk etsinlər. Həmin vaxtda da onlar vəhşiliklər törətdilər, Azərbaycana külli miqdarda ziyan vuruldu. Bu hala beynəlxalq səviyyədə hüquqi-siyasi qiymət verilməsi üçün hansı işlər görülür və Ermənistanın törətdiyi cinayətkarlığa görə hər hansı məsuliyyətə cəlb olunması perspektivini necə qiymətləndirirsiniz? Təşəkkür edirəm.

**Prezident İlham Əliyev:** Sağ olun. Siz tamamilə haqlısınız. 10 noyabrdan sonra onlar öz mənfur fəaliyyətindən əl çəkmədilər, əksinə, 20 gün ərzində çalışdılar ki, maksimum bizim təbiətimizə və əmlakımıza ziyan vursunlar. Evləri, ağacları yandırırdılar, kəsib-doğrayırdılar, talan edirdilər, evlərin pəncərələrini, sanitar qovşaqlarını aparırdılar və bütün dünyanın gözü qarşısında. Yaxşı ki, xarici media nümayəndələri də bu vəhşiliyin şahidləri oldular və bütün dünya gördü ki, biz kimlərlə üz-üzə idik və biz hansı bəlanı məğlub etdik. Mən, sözün düzü, belə vəhşilik gözləmirdim, özü də tamamilə əsassız vəhşilik. Baxın, başqasının torpağını zəbt edəsən, güc tətbiq edərək, heç bir vaxt vermədən o torpağın, o evin sahibini qovasan, - biz onlara 20 gün vaxt verdik, onlar bizə 20 saat da vaxt verməmişdilər, - ondan sonra onun evində yaşayasan, sonra deyəsən ki, bu, mənimdir və sən oradan çıxmağa məcbur olanda bu evi dağıdasan, sökəsən, yandırasan. Bu dərəcədə əxlaqsızlıq ola bilərmi? Bütün dünya bunu gördü. İkinci Qarabağ müharibəsinin əhəmiyyəti təkcə ərazilərimizin, ərazi bütövlüyümüzün bərpası ilə məhdudlaşmır. Bütün dünya erməni faşizminin əsl real sifətini gördü. Biz, əlbəttə ki, bütün dəymiş ziyanı hesablamalıyıq və hesablayırıq. Mənim göstərişimlə indi Azərbaycanın müvafiq qurumları video, foto çəkilişlər aparırlar, dron çəkilişləri aparılır. Dəymiş bütün ziyan hesablanacaq. Dağılmış bütün evlərin protokollaşdırılması işlərinə start verilib ki, vətəndaşlar fərqi qaydada dəymiş ziyanın ödənilməsi üçün beynəlxalq məhkəmələrə, ilk növbədə, Azərbaycan məhkəmələrinə və sonra beynəlxalq məhkəmələrə müraciət etsinlər.

İkinci mərhələdə, - artıq bu sahədə də işlər başlanıb, müvafiq sənədlər imzalanıb, - buna oxşar münaqişələrdə dəymiş ziyanın hesablanması üçün təcrübəsi olan beynəlxalq şirkətlərlə də sənədlər imzalanıb, onlar yaxın gələcəkdə Azərbaycana




gələcəklər. Əlbəttə ki, onlar özləri tədqiqatlar aparacaqlar, ancaq biz də onları lazım olan materiallarla təmin edəcəyik. Bu beynəlxalq şirkətlərin bu sahədə təcrübəsi var və dəymiş ziyanın ödənilməsi, təzminatın ödənilməsi üçün əlbəttə ki, beynəlxalq məhkəmələrdə iddialar qaldırılacaq.

Eyni zamanda, bizim təbii resurslarımızı icazəsiz istismar edən xarici şirkətlər də məsuliyyətə cəlb ediləcək. Bildiyiniz kimi, azad edilmiş torpaqlarda bizim qızıl mədənlərimiz vəhşicəsinə istismar edilirdi. Bu, beynəlxalq cinayətdir. Artıq bu cinayəti törətmiş bəzi qurumların məsuliyyətə cəlb edilməsi üçün ilkin hazırlıq işləri aparılıb. Mən bu məsələ ilə bağlı bir-iki dəfə öz sözümü demişəm, bir daha demək istəyirəm ki, ya bu şirkətlər bizə təzminat ödəyəcəklər, kompensasiya verəcəklər, ya da ki, məhkəməyə gedəcəklər. Məhkəməyə getdikləri təqdirdə, tam əminəm ki, məhkəmədə onlar uduzacaqlar, eyni zamanda, dünya miqyasında biabır olacaqlar. Çünki başqa ölkədə qanunsuz işlərlə məşğul olmaq, qanunsuz sahibkarlıqla məşğul olmaq, o ölkənin təbii sərvətlərini talamaq cinayət sayılır. Bu şirkətlərin beynəlxalq reputasiyasına da çox ciddi ziyan dəyəcək.

Bununla paralel olaraq, bizim meşə fondumuz da məhv edilib, 54 min hektar meşə ermənilər tərəfindən qırılıb, dağıdılıb. İşğala qədər bizim meşələrimizin ümumi həcmi təqribən 220-230 min hektar idi, 54 min hektar kəsilib dağıdılıb. Onlar ondan müxtəlif materiallar istehsal ediblər, bildiyimə görə, orada parket biznesi də çox geniş vüsət almışdı, xarici şirkətlər də burada iştirak ediblər. Yəni, dəymiş bütün ziyan hesablanacaq, o cümlədən bizim torpaqlarımızdan qanunsuz şəkildə istifadə edən şirkətlər də cərimələndiriləcək. Azad edilmiş torpaqlarda ancaq taxıl altında 100 min hektara yaxın torpaq var idi, onları qanunsuz istismar edirdilər və gəlirlər götürürdülər. Onu da hesablayacağıq. Bu, işin bir tərəfi. İndi beynəlxalq məhkəmələrdə buna nə dərəcədə reaksiya veriləcək? O, işin ikinci məsələsidir. Burada, əlbəttə ki, əsas məsələ obyektivlikdir. Əgər obyektiv yanaşma olsa, əlbəttə ki, onlar bu təzminatı ödəməli olacaqlar. Biz, eyni zamanda, beynəlxalq praktikaya da nəzər saldıq. Xarici İşlər Nazirliyinə tapşırıq verildi və artıq bu günlərdə mənə məlumat verildi, presedentlər necə olub, bu presedentlər var. O qədər də çox deyil, amma var. Burada, əlbəttə, hər bir presedent bizim tərəfimizdən təhlil edilməlidir ki, bunun təməlində nələr dayanır? Obyektivlik, yoxsa ki, siyasi sifariş? Çünki sirr deyil ki, beynəlxalq məhkəmə sistemi də siyasi təzyiqdən azad deyil və bəzi hallarda siyasi sifarişlər də yerinə yetirilir. Ona görə hər şey bundan asılı olacaq. Hər halda, biz öz üzərimizə düşən missiyanı yerinə yetiririk və yaxın zamanlarda dolğun hesabat hazırlanacaqdır.

**Böyük Britaniyanın "Reuters" İnformasiya Agentliyi:** Cənab Prezident, Siz indi investisiyalar, Qarabağın bərpasına investisiyaların qoyulması barədə danışdınız. Mən soruşmaq istərdim, Qarabağda möhkəm sülh üçün, onun bərpasına əcnəbi investorları və kreditorları cəlb etmək üçün kifayət qədər zəmanət varmı? Ümumiyyətlə, təqribən hansı həcmdən söhbət gedir? Bildiyim qədər bu il büdcədən 2,2 milyard manat ayrılıb. Bu, böyük məbləğ deyil, orada bərpa işləri çox böyükdürmü? Özəl investisiyalar cəlb ediləcəkmi? Rəsmi Bakı bütövlükdə bu prosesə necə baxır? Bir də onu soruşmaq istərdim. Sizin Fərmanınızla Azərbaycan Dövlət Neft Şirkəti Azərbaycan İnvestisiya Holdinqinə verilib və onun səhmləşdirilməsi prosesi gedir. Bu, o deməkdirmi ki, rəsmi Bakı artıq ölkənin bir sıra iri dövlət şirkətlərinin özəlləşdirilməsi üçün onları açıq elan etməyə hazırlaşır? Demək olarmı ki, bu, əcnəbi investorlara mesajdır? Siz giriş sözünüzdə

çox yaxşı qeyd etdiniz ki, işğaldan azad edilmiş bir sıra ərazilərə əcnəbi jurnalistlərin səfəri təşkil olunub, Sizin Administrasiyanız bu işi çox peşəkarlıqla, yüksək səviyyədə həyata keçirib. Lakin, yəqin ki, həmkarlarım da məni dəstəkləyər, biz hamımız Şuşa şəhərinə səfər etmək, onun indi nə vəziyyətdə olduğunu, onun nə dərəcədə dağıdıldığını, orada hansı işlərin aparıldığını, hazırda bu şəhərin əhvalını görmək istərdik. Mən risk edib bu səfərin təşkilinə kömək göstərməyinizi Sizdən xahiş edirəm. Çox sağ olun, cənab Prezident.

**Prezident İlham Əliyev:** Sağ olun. Əcnəbi investorlara gəlincə, düşünürəm ki, müharibənin başa çatmasını nəzərə alsaq, indi əcnəbi investorlar Azərbaycana daha fəal şəkildə sərmayə qoyacaqlar. Hamı başa düşür ki, hərbi əməliyyatların yenidən başlanması riski praktik olaraq, sıfra endirilib. Azərbaycana gəlincə, bizim tərəfimizdən heç bir təcavüzkar hərəkətlər olmayacaq. Ermənistana gəlincə, onların, sadəcə olaraq, buna imkanları yoxdur və fikirləşirəm ki, mənim barəsində danışdığım və sitat gətirdiyim özünəqəsd hətta onların vəziyyətində belə ən yaxşı çıxış yolu deyil. Ona görə də əminəm ki, investisiyalar olacaq. Mən sizə deməliyəm ki, biz hələ müharibədən əvvəl bərpaolunan enerjiyə investisiyalar cəlb etməyə nail olmuşuq. İki iri beynəlxalq şirkət ümumi həcmi 440 meqavata bərabər günəş və külək elektrik stansiyaları tikintisinə sərmayə yatırmaq arzusunda olduqlarını bildirib. Dünyanın aparıcı enerji şirkətləri arasında tender keçirilib və iki şirkət ən yaxşı təkliflər irəli sürüb. Lakin mən o vaxt dedim, bu, o demək deyil ki, uğur qazana bilməyən digər şirkətlər kənarda qalacaq. Buna görə də biz indi bu sahəyə sərmayə yatırmaq istəyən şirkətləri cəlb edirik. Məhz azad edilmiş ərazilərdə bunun üçün yaxşı imkanlar mövcuddur. Kəlbəcər-Laçın zonasında külək stansiyaları, çünki orada çox güclü küləklər olur, Zəngilan-Cəbrayıl zonasında isə günəş stansiyaları, çünki orada günəş şüalarının il ərzində miqdarı da çox böyükdür və əgər belə demək olarsa, günəş şüalarının keyfiyyəti də buna imkan verir. Beləliklə, bu gün Azərbaycanın müvafiq strukturlarına əcnəbi tərəfdaşlarla bu məsələlər üzərində işləmək tapşırığı verilib. Yəni, bu, çox böyük perspektivə malikdir. Üstəlik, dediyim kimi, biz artıq Qarabağı "yaşıl enerji" zonası elan etmişik və bunun üçün, ilk növbədə, investorları gözləyirik.

Dövlətin 2,2 milyard manat investisiyasına gəlincə, fikrimcə, bu, başlanğıc üçün məqbul məbləğdir. Onu da deyim ki, Qarabağın bərpası barədə mənə təklif edilmiş investisiya proqramından bu il həyata keçiriləcək layihələrdən təxminən bir milyard manatı praktik olaraq paylanıb. Yəni, bu, nə deməkdir? Bu, o deməkdir ki, hələ layihələr yoxdur. Çünki layihələr infrastruktur layihələridir, biz onlara vəsait ayırırıq. Bu, elektrik enerjisi, yollar, dəmir yolları, minalardan təmizləmə və sairə sahələrdir. Tikintinin özünə gəlincə, buna hələ heç nə ayırmırıq, çünki bu layihələr hələ mövcud deyil. Biz şəhərsalmada, hətta Bakı şəhərinin tikintisi zamanı buraxılan səhvlərə yenidən yol verməməkdən ötrü hər şeyi düzgün planlaşdırmaq istəyirik. Tikintinin xaotik, nəzarətsiz, əksər hallarda belə adi və aydın olmayan sxemlər üzrə getdiyi digər şəhərlərdə. Qarabağ zonasında belə olmamalıdır. Təkcə Qarabağ zonasında deyil, bu artıq təcrübə olacaq, həmin təcrübə paralel olaraq Azərbaycanın bütün başqa ərazilərində də tətbiq ediləcək. Buna görə də hər şey düzgün planlaşdırılmalıdır. Harada nə yerləşdirilməlidir, hansı infrastruktur layihələri həyata keçirilməlidir ki, hər şey plan üzrə getsin. Əlbəttə ki, dövlət bütün infrastruktur sahəsini, üstəlik mənzil fondunun böyük hissəsini də öz üzərinə götürəcək. Lakin şəhərsalmanın və ekologiyanın bütün normalarına riayət olunmaqla razılaşdırılmış layihələr üzrə xüsusi ayrılmış yerlərdə özəl şirkətlər də investisiya qoymaq imkanına malik olacaqlar. Bax, təxminən yanaşmanı belə görürük. Kəndlərə gəlincə, bu ərazilərdə yüzlərlə kənd azad edilib. Bəzi kəndlərdə əvvəllər 5 ev, 6 ev, 7 ev olub. Yəqin ki, onlar prioritet olmamalıdır.

Buna görə də biz indi, ilk növbədə, hansı kəndlərin bərpa olunacağını və bundan ötrü nə etmək lazım olduğunu müəyyən edirik. Həmçinin mənim tapşırığımla, artıq keçmiş köçkünlər arasında sorğuya başlanıb ki, biz kimin oraya getməyə hazırlaşdığını dəqiq bilək. Bilirsinizmi, mən də əminəm ki, Allahın izni ilə hamı getmək istəyir, amma ola bilsin, kimsə getmək istəməyəcək. Əgər o getməyəcəksə və ya oraya həftəsonu gedəcək, özü isə Bakıda və ya Sumqayıtda yaşayacaqsa, nə üçün xərc çəkməliyik. Məgər bu, vəziyyətdən çıxış yoludurmu? Xeyr. Biz o yerlərdə kim yaşayacaqsa onları yerləşdirməliyik. Bax, buna görə biz sorğu keçirməliyik, özü də elə-belə, soruşmaq və unutmaq üçün yox. Xeyr. İmza etsin ki, mən filankəs filan rayonun filan kəndinə köçüb getməyə və orada yaşamağa hazırlaşıram. Buna uyğun olaraq, biz maliyyə məsələlərini və bütün digər məsələləri həll edəcəyik. Əks halda, mən öncəgörənlik etmək istəmirəm, lakin bilirəm ki, işğaldan azad edilən ərazilər Bakıda yaşayanlar üçün bağ sahəsi deyil. Biz, ümumiyyətlə, kimin orada yaşayacağına ciddi nəzarət edəcəyik və məhz oraya getmək istəyənlər üçün hər cür şərait yaradacağıq.

İnvestisiya holdinqinə gəlincə, mən çox danışmayacağam, fikrimcə, onun nə üçün yaradıldığını hamı bilir və mənim Fərmanımda bu barədə dəqiq göstərilib. İlk növbədə, idarəçilik sistemini təkmilləşdirməkdən ötrü. Dövlət şirkətlərində idarəçilik sistemi axsayır. O, müasir tələblərə cavab vermir. Bu, ləngidici amildir və büdcədən vəsaitlərin sovrulması üsuludur. Bizdə

praktik olaraq, heç bir dövlət şirkəti, az istisnalar olmaqla, özünü dolandıra bilmir. Deməli, daim büdcədən dotasiyalar tələb edirlər. Bu, nəyə lazımdır? Buna görə də daha belə davam edə bilməz. Digər tərəfdən, bu mərhələdə strateji infrastruktur, özü də Qarabağın bərpası nəzərə alınmaqla, dövlətin əlində qalmalıdır. Bu, birmənalıdır, əks halda, biz, sadəcə olaraq, ərazini bərpa edə bilməyəcəyik. Əgər bu gün fərz etsək ki, bizim bütün dövlət şirkətlərimiz bir növ özəl Qərb şirkətlərinin korporativ idarəçilik üsulu ilə işləyir, o halda onlar, sadəcə, ərazilərin bərpası üçün lazım olan layihələrə sərmayə yatırmayacaqlar. Buna görə də bu mərhələdə məqsəd dövlət şirkətlərinin korporativ idarəçiliyini beynəlxalq normalara uyğun şəklə salmaq, lazımi nəzarəti təmin etməkdir. Bundan ötrü Müşahidə şuraları yaradılır. Müşahidə şuralarına Administrasiyanın, nazirliklərin, hökumətin nümayəndələri daxil ediləcək ki, nəzarətsizlik, israfçılıq olmasın. Ona görə ki, bu gün dövlət şirkətləri bir çox məsələlərdə dövlətin boynunda ağır yükdür. Hətta vergiödəyicisi olan Dövlət Neft Şirkəti də dövlətdən pul alır. Bu yaxınlaradək qazlaşdırma üçün büdcədən pul alırdı. Belə iş olarmı? Mən hələ başqalarını demirəm. Cüzi istisnalar olmaqla, bizim dövlət şirkətləri səmərəsizdir. Buna son qoyulacaq, həm rəhbərliyin möhkəmləndirilməsi, həm də idarəçiliyin təkmilləşdirilməsi planında. Kim yeni qaydada vicdanla, şəffaf işləməyi bacarmırsa və ya bunu istəmirsə, o, məsuliyyətə cəlb ediləcək, özü də təkcə inzibati məsuliyyətə yox.

Dövlət şirkətlərinin özəlləşdirilməsinə gəlincə, hər halda bu il bu, dəqiq baş verməyəcək. Lakin dövlət şirkətlərinin bəzi fəaliyyət sahələri, əlbəttə ki, o cümlədən dövlət kapitalı hesabına inkişaf etdirilməlidir. İlk növbədə, mən enerji sahəsini nəzərdə tuturam. Biz bu sahəni əcnəbi və Azərbaycan özəl kapitalı üçün artıq açmışıq. Bizim günəş, külək stansiyalarını tətbiq edəcəyimizi dedim. Bizdə Laçın-Kəlbəcər zonasında hidroenergetika üçün böyük potensial mövcuddur. Niyə də Azərbaycan şirkətləri layihələrdə iştirak etmək üçün təkliflər verməsinlər? Oraya o qədər də böyük vəsait tələb olunmur. Bu hidroelektrik stansiyaları kifayət qədər kiçik həcmdədir. Bu, yaxşı addım olacaq, biz bunun necə işləməsini, bizim ümumi enerji təminatı sisteminə necə inteqrasiya edəcəyini testdən keçirəcəyik ki, bu şirkətlər fəaliyyət göstərsin, hələlik bu mərhələdə dövlətin üzərinə az yük düşsün.

Şuşaya səfərə gəlincə, mən göstəriş verərəm ki, jurnalistlər oraya getsinlər. Oraya gedişlə bağlı çətinliklər vardı, çünki orada praktiki olaraq yol yox idi. Hətta mən getdiyim zaman, sadəcə, bəxtim gətirdi ki, hava günəşli və yol quru idi. Əks halda, mən də yarı yolda qalardım. Buna görə Hikmət Hacıyevə tapşırıq verirəm ki, yaxın vaxtlarda bu səfər həyata keçirilsin. Yeri gəlmişkən, bu barədə başqa müraciətlər də olub.

**CBC Azərbaycan telekanalı:** Cənab Prezident, uzun illərdir ki, Azərbaycan dünya ictimaiyyətinin diqqətini ərazisinin işğal olunmasına və maddi-mənəvi irsinin talan olunmasına yönəltmək istəyib. Amma rəsmi Bakı dəfələrlə beynəlxalq qurumlara çağırışlar edib ki, o qurumlar münaqişənin həlli üçün təsirli addımlar atsınlar. Amma biz hamımız şahid olduq, necə bir laqeydlik və ikili standartlar hökm sürür və sonunda Azərbaycan öz gücü hesabına ərazi bütövlüyünü bərpa etdi. Necə düşünürsünüz, Azərbaycanın ortaya qoyduğu nümunə dünyanın digər nöqtələrində dondurulmuş münaqişələrin həlli barədə formalaşan stereotipləri pozubmu?

**Prezident İlham Əliyev:** Hesab edirəm ki, böyük dərəcədə pozub və biz yeni reallıq yaratmışıq. Çünki dondurulmuş münaqişələr dünyanın bir çox yerlərində var, təkcə postsovet məkanında yox. Bu münaqişələrə əgər nəzər salsaq, onların mənşəyini və indiki vəziyyətini təhlil etsək, görərik ki, artıq o ölkələrin vətəndaşları da və beynəlxalq ictimaiyyət də elə bil ki, bu vəziyyətlə müəyyən dərəcədə barışıb, razılaşıb. Yaxud da, bunu alternativsiz bir variant kimi qəbul edir. Müəyyən dərəcədə burada məntiq var. Çünki uzun illər davam edən nə hərb, nə sülh vəziyyəti, dondurulmuş münaqişələr istər-istəməz belə fikirlərin yaranmasına gətirib çıxarır. Bu, birincisi, ikincisi burada stereotiplərin qırılması üçün bir neçə amil lazımdır. Əgər bu amillər, onların vəhdəti varsa, deməli, bu stereotiplər qırılacaq. Birincisi güclü siyasi iradə olmalıdır: liderlərin güclü siyasi iradəsi və istənilən təzyiqə davam gətirmə qabiliyyəti. Bu, hesab edirəm ki, birinci dərəcəli məsələdir. Çünki öz təcrübəmə istinad etsəm deyərəm ki, 17 il ərzində müxtəlif dövrlərdə mənə təzyiq cəhdləri gah artırdı, gah səngiyirdi. Amma hər zaman var idi, hər zaman. Bax, mən bu barədə də demişəm. Reallıq var və siz gərək reallıqla barışasınız, indi sizə nə təklif olunur, bununla da kifayətlənin, qalan torpaqlar qalsın, Ermənistan razı deyil, orada referendum keçirilməlidir, səsvermə keçirilməlidir və sair. İndi ictimaiyyət bunu bilir.

Bizim münaqişənin vasitəçiləri dünyanın aparıcı ölkələri idi, ya da ölkələridir. Kim necə istəyir, elə də qəbul etsin, Təhlükəsizlik Şurasının daimi üzvləri və bu ölkələrə yox demək, onların iradəsindən kənarda addımlar atmaq, əlbəttə ki, o qədər də asan məsələ deyildi. Ona görə də güclü siyasi iradə varsa, bu bir, ikincisi xalqın mövqeyindən çox şey asılıdır. Əgər xalq bu vəziyyətlə razılaşıbsa, barışıbsa, onda bu münaqişə dondurulmuş qalacaq. Azərbaycan xalqı heç vaxt bu vəziyyətlə barışmayıb və mən hər zaman Azərbaycan xalqına müraciət edərək deyirdim ki, biz heç vaxt bununla barışmayacağıq. Bəziləri fikirləşirdi

ki, nə üçün İlham Əliyev harada gəldi Qarabağ məsələsini qaldırır. Heç bu mövzuya aidiyyəti olmayan beynəlxalq tədbirlərdə də hər dəfə qaldırırdım. Bəlkə eyni sözləri min dəfə deyirdim ki, o adamların beyninə girsin. Bu, birincisi, ikincisi bu heç vaxt burada - daxildə unudulmasın. Heç vaxt. Həm məcburi köçkünlərdə belə bir ümidsizlik yaranmasın, eyni zamanda, cəmiyyətdə heç vaxt bu mövzu unudulmasın və bu mövzunu gündəlikdə saxlamaq hesab edirəm ki, vacib məsələdən biridir. Xüsusi ilə nəzərə alsaq ki, hər şeyi mən indi olduğu kimi deyirəm, real vəziyyət onu göstərirdi ki, bu məsələni hərbi yolla həll etmək çox baha başa gələr bizə. Hətta bütün imkanlarımız olsa belə, bunun, necə deyərlər, hesabı çox ağrılı ola bilər. Üçüncüsü, əlbəttə ki, güclü ordu olmalıdır. Bu olmasa heç bir münaqişə həll oluna bilməz və sən haqlı olmalısan. Bizdə bütün ilkin amillər var idi. Biz haqlı idik, tarix baxımından, bu, bizim torpağımızdır, beynəlxalq hüquq baxımından, beynəlxalq təşkilatların qətnamələri baxımından bütün bu məsələlər bizim mövqeyimizi gücləndirirdi. Amma nə üçün biz bu torpaqları vaxtı ilə, 1990-cı illərin əvvəllərində itirdik. Çünki idarəetmə yox idi, ordu yox idi və burada Bakıda 1992-ci ildə minlərlə adam mitinqlərə çıxırdı, amma orada mövqelər boş qalırdı. Vətəndaş müharibəsini o vaxt Xalq Cəbhəsi başlayıb, Azərbaycan əsgərlərini əsir götürüb, o vaxt da bizim torpaqlarımız işğal altına düşmüşdü. Hakimiyyət uğrunda mübarizə gedirdi. Yəni milli vəhdət, vahid ideya uğrunda o vaxt biz birləşə bilməmişik, indi isə birləşmişik. Bir də ki, nəsil yetişməli idi. Bax, mən bu barədə artıq bir neçə dəfə demişəm. Qarabağı azad edənlərin arasında ən böyük rol oynayan, bax, bizim son 17 il ərzində yetişmiş insanlarımızdır. Yaşlı nəslin, əlbəttə ki, böyük əməyi, təcrübəsi və bilikləri var. Amma döyüşə gedən, öz sinəsini atəş altına qoyan, bax, 17 il ərzində vətənpərvərlik ruhunda tərbiyə almış bizim övladlarımızdır. Hansılar ki, öz canından keçib vətən uğrunda. Bu amillər olan zaman istənilən münaqişə həll oluna bilər və təbii ki, digər amillər var, iqtisadi inkişaf və sair. Amma, əgər bu amillər yoxdursa, heç bir dondurulmuş münaqişənin həlli mümkün deyil.

Biz yeni reallıq yaratdıq və indi hər kəs bu reallıqla barışmalıdır, hesablaşmalıdır. Bizim üçün yeni dövr başlayır və postmüharibə dövrü bir çox ölkələr üçün də çətin dövr olub. Amma müharibədən sonra artıq bir neçə ay keçir və biz görürük ki, postmüharibə dövrü də bizdə çox rahat keçir. Bu da cəmiyyətimizin çox böyük üstünlüyüdür, xalqımızın böyüklüyüdür və bu gün məhz bu ideyalar uğrunda biz yenidən birləşirik. Yeni ideyalar uğrunda - Qarabağı necə bərpa edək, keçmiş köçkünləri torpaqlara necə qaytaraq. Bundan sonra elə bir qüdrətli dövlət yaradaq ki, heç kim heç vaxt bizə qarşı heç bir təxribat törədə bilməsin.

**Böyük Britaniyadan müstəqil jurnalist:** Cənab Prezident, bizi bura dəvət etdiyinizə görə Sizə təşəkkür edirik. Düşünürəm ki, mətbuat konfransının uzunluğuna görə Siz artıq dünya rekorduna imza atmısınız. Mən 25 ildir jurnalistika ilə məşğul oluram, ancaq hər hansı bir Prezidentin 4 dildə bu cür mətbuat konfransı aparmasının şahidi olmamışdım. Dünən biz Sizin bəzi nazirlərinizlə də görüşlər keçirdik. Onlar da bizə məsələlərlə bağlı dolğun məlumat verdilər. Təbii ki, biz də Xocalı soyqırımının qurbanlarını dərin hüznlə anırıq. Cənab Prezident, Siz artıq bir çox suallara cavab vermisiniz. Siz dünya mediasının Azərbaycana olan münasibətini necə qiymətləndirirsiniz? Burada bir çox jurnalistlər var, Sizin onlara mesajınız nədən ibarət olacaq və Siz gələcəyi necə görürsünüz? Azərbaycanın mövqeyinin dünyaya çatdırılması baxımından hansı planlarınız var?

**Prezident İlham Əliyev:** Təşəkkür edirəm, sizi təəccübləndirmək istəyirəm ki, mən sonuncu dəfə nə vaxt mətbuat konfransı təşkil etmişəm heç xatirimdə deyil. Mən bilirəm ki, hərdən yerli jurnalistlər də bir növ gileylənirdilər ki, niyə Prezident Əliyev mətbuat konfransları təşkil etmir, müsahibələr vermir. Mən hesab edirəm ki, hər bir işin öz vaxtı var. Sənin vermək istədiyin bir mesaj varmı və səni dinləyəcək bir auditoriya varmı? Müharibə vaxtı 44 gün ərzində mən 30-dan artıq müsahibə verdim, çünki buna ehtiyac var idi. Mən dünyaya mesajımızı çatdırmaq istəyirdim, mən həqiqəti və mövqeyimizi dünyaya çatdırmaq istəyirdim. Hər gün mən bəyanatlar verirdim, Azərbaycan xalqına müraciətlər edirdim. Çünki buna ehtiyac var idi, xalqımızın buna ehtiyacı var idi, ordumuzun buna ehtiyacı var idi. Bilirəm ki, mənim həmin o müraciətlərim və mesajlarımın ümumi qələbəmizdə böyük rolu olmuşdur. Bu gün sizinlə razılaşıram ki, bu da xüsusi bir gündür. Mənə məlumat veriləndə ki, xarici jurnalistlərdən ibarət qrup buradadır və Hikmət Hacıyev bunu mənə deyəndə mən düşündüm ki, bu, yaxşı bir imkandır. Ona görə sizin hər birinizə təşəkkürümü bildirirəm, siz gəlməsəydiniz yəqin ki, bu mətbuat konfransı da baş tutmayacaqdı.

Dünya mətbuatının Azərbaycana münasibətinə gəldikdə, deyə bilərəm ki, bu məsələ artıq dəyişir. Bu məsələyə yanaşma dəyişir, fikirlər dəyişir və reallıq artıq daha yaxşı dərk edilir. Bunun ən yaxşı yolu Azərbaycana gəlməkdir. Biz başqa xarici ölkədə sizinlə görüşsəydik, sizə eyni sözləri desəydim siz bunu fərqli şəkildə qəbul edə bilərdiniz. Ancaq bu gün siz buradasınız, siz hamınız peşəkarsınız, ağıllı insanlarsınız və bilirsiniz ki, doğru və yanlış nə deməkdir. Siz həmin dağıdılmış ərazilərə səfər edirsiniz və bu, hər bir sözdən artıqdır, bunu öz gözünüzlə görmək imkanınız olur. Ona görə hesab edirəm ki, müharibə vaxtı mən, səmimi desəm, bir balaca fərqli yanaşma




gözləyirdim, çünki uzun illərdir ki, Azərbaycana qarşı ədalətsizlik hökm sürürdü, bizə qarşı müxtəlif media qrupları tərəfindən hücumlar var idi. Bəzən bu, məlumat qıtlığından qaynaqlanırdı, ancaq bir çox hallarda erməni lobbi təşkilatlarının sayəsində baş verirdi. Onlar hər zaman Azərbaycana qarşı hücumlar edirdilər. Bəziləri hesab edirəm ki, o qədər də müstəqil olmayan media şirkətləri idi. Amma mən, sözün açığı, gözləyirdim ki, müharibə zamanı bizə qarşı ədalətsizlik olacaq. Ancaq ümumi deyə bilərəm ki, bu, məni təəccübləndirdi ki, Azərbaycana qarşı ədalətli mövqe var idi. Bunun da əlbəttə, səbəbi ondan ibarətdir ki, biz haqlı idik, biz öz ərazilərimizi işğaldan azad edirdik. Mənim beynəlxalq mediaya mesajım ondan ibarətdir ki, hər zaman həqiqətləri söyləyin, siyasi sifarişlərdən uzaq olun. Nəyə görə mən bunu deyirəm? Mən bilirəm ki, biz əlaqələndirilmiş, təşkilatlanmış informasiya hücumuna məruz qalırdıq. Bu əməllər bizim etdiyimizi gözdən salmaq, bizə ləkə yaxmaq və Azərbaycan haqqında, onun hökuməti haqqında yanlış təsəvvürlər yaratmaq məqsədi daşıyıb. Ona görə də sizə səslənirəm ki, həqiqəti söyləyin, mövqeyinizi açıq ifadə edin. Ola bilər ki, bu, jurnalistlərə verə biləcəyim o qədər də yaxşı tövsiyə olmaz. Amma rəhbərlərinizin dediklərinə hər zaman əməl etməsəniz, bəlkə daha yaxşı olardı.

**Türkiyənin "Haber Qlobal" televiziya kanalı:** Cənab Prezident, əvvəlcə, belə önəmli bir gündə bizi qəbul etdiyiniz üçün təşəkkür edirik. Şəhidlərimizin xatirəsini bir daha anırıq və Qarabağdakı Zəfər münasibətilə Sizi bir daha təbrik edirik. Bu, çox maraqlıdır, əslində, bir az bu məsələlərə toxunuldu.

Birincisi, Qarabağın yenidən bərpası prosesində Türkiyə bu mərhələdə nə qədər yer alacaq? İkinci sualım da budur ki, iki qardaş ölkə arasındakı əməkdaşlığın hazırda davam etdiyini bilirik. Bu əməkdaşlıq istər müdafiə sənayesi, istərsə də yenidənqurma-inşaat sahələrində hansı mərhələlərdə davam edəcək?

**Prezident İlham Əliyev:** Sağ olun. Mən deyə bilərəm ki, Türkiyədən olan şirkətlər artıq bizim layihələrimizdə yer alıblar. Bizim üçün strateji önəm daşıyan Füzuli-Şuşa avtomobil yolunun inşası ilə bağlı türk şirkətləri artıq fəaliyyətdədirlər. Eyni zamanda, Göygöl bölgəsindən Kəlbəcərə çəkilən yolda da türk şirkətləri fəaliyyət göstərirlər və o da çox mürəkkəb, çətin bir ərazidən keçir, orada tunellər qazılmalıdır. Artıq ilkin razılaşmalar əldə edilib.

Bununla paralel olaraq, bildiyiniz kimi, Türkiyə şirkətləri Azərbaycanda bundan əvvəl də fəal idi. Dövlət xətti ilə icra edilən layihələrdə ən çox yer alan Türkiyə şirkətləridir. Dəqiq rəqəmlər xatırlamıram, amma Türkiyə şirkətləri Azərbaycanda - Bakıda və bir çox başqa yerlərdə təqribən 10 milyard dollardan çox dəyəri olan layihələrdə, müxtəlif inşaat layihələrində iştirak ediblər.

Təbii olaraq ilk kontraktları imzalayan da Türkiyə şirkətləri olub. Görüləcək işlərin həcmi çox böyükdür. Ona görə mən artıq bu barədə əziz qardaşım, hörmətli Prezident Rəcəb Tayyib Ərdoğan ilə də dəfələrlə danışmışam. Biz bütün bu işləri birgə görəcəyik və Türkiyə şirkətlərinin buradakı fəaliyyəti üçün yeni imkanlar yaranacaq. Xüsusilə nəzərə alsaq ki, inşaatda, ondan sonra infrastruktur işlərində və digər sahələrdə, yenidənqurma sahəsində türk şirkətlərinin çox böyük təcrübəsi var.

Müdafiə sənayesinə gəldikdə, müharibə dövründə bütün dünya Türkiyə müdafiə sənayesinin keyfiyyətini gördü. Bu, artıq dünya üçün sirr deyil. Türkiyə istehsalı olan müdafiə sistemlərindən Azərbaycan məharətlə istifadə edib və müharibədə bu, bizə böyük üstünlük təmin etmişdir. Müharibədən sonra da bu təmaslar davam edir. Onu bildirməliyəm ki, yeni kontraktlar imzalanıb. Türkiyə tərəfi ilə Türkiyədə istehsal olunan ən müasir silah növlərinin Azərbaycana gətirilməsi üçün razılaşma əldə edilib. Yeni kontraktlar imzalanıb və bu, bizim hərbi gücümüzü böyük dərəcədə gücləndirəcək. Bildiyiniz kimi, Türkiyə-Azərbaycan birgə hərbi təlimləri də müntəzəm olaraq keçirilir. Keçən il pandemiyaya görə az keçirildi, amma 2019-cu ildə 10 dəfədən çox keçirilmişdir və bu il artıq Qars şəhərində keçirilmişdir. Bu sahədə də işlər aparılacaq.

Biz azad edilmiş torpaqlarda bir çox sahələrdə Türkiyə şirkətlərini görmək istəyirik. Əminəm ki, görəcəyik, inşaat, yenidənqurma, infrastruktur və tarixi abidələrimizin bərpası işlərində. Ona görə görüləcək işlər çox olacaq. Bundan sonra da, inşallah, bərabər gedəcəyik.

**Ukraynanın "İnter" telekanalı:** Hər vaxtınız xeyir, cənab Prezident. Bizi maraqlandıran məsələlər barəsində Sizin rəyinizi şəxsən öyrənmək imkanı yaratdığınıza görə sağ olun. Mən hərbi jurnalist kimi bütün planetdə onlarca müxtəlif hərbi münaqişələri işıqlandırmaq imkanına malik olmuşam. Demək istəyirəm ki, Azərbaycanın işğal olunmuş rayonlarının azad edilməsi üçün xüsusi əməliyyat mənim fikrimcə, həm hərbi texnologiyaların tətbiqi baxımından, ən başlıcası, dinc əhali və hərbçilər arasında tələfatın minimuma endirilməsi, həm də yeni hərbi texnologiyaların tətbiqi baxımından nümunəvi əməliyyat idi. Azərbaycan bütün dünyaya göstərdi ki, səngər müharibəsi artıq keçmişdə qalıb və mən əminəm ki, bu, bir çox hərbi məktəblərin dərsliklərinə daxil ediləcək. Ukrayna Silahlı Qüvvələrinin Baş qərargahı bu xüsusi əməliyyatı diqqətlə izləyirdi. Ukraynanın hərbi dairələri bu əməliyyatın nəticələrini fəal müzakirə edir, yüksək qiymətləndirirdi. Ola bilsin, belə bir yanlış təəssürat yaranıb, bəlkə də Siz həmin təəssürata düzəliş edəcəksiniz ki, bu əməliyyatın uğur qazanmasında aerokosmik texnologiyalar həm atəşin təshih edilməsi, həm nöqtəvi zərbələr endirilməsi, həm də kəşfiyyat məlumatının toplanması kontekstində böyük rol oynayıb. Bu, həqiqətə nə dərəcədə uyğundur, xüsusən ona görə ki, Ukrayna da hərbi-sənaye kompleksinə, aerokosmik sahəyə əsaslanaraq bu məsələdə potensiala malikdir. Üstəlik, indi Azərbaycanın sayəsində oriyentirimiz var, çünki görürük, bizdə münaqişə uzandıqca onun diplomatik yolla həllinə inam azalır. Biz müasir təcrübəni tətbiq etmədən öz ərazimizi öz nəzarətimiz altına başqa yolla qaytara bilməyəcəyik. Xahiş edirəm, bu məsələni şərh edəsiniz, cavabınıza görə əvvəlcədən təşəkkür edirəm.

**Prezident İlham Əliyev:** Sağ olun. Bizim fəaliyyətimiz barədə dediyiniz sözlərə görə çox sağ olun. Xüsusi qeyd etmək istərdim ki, siz dinc əhali arasında itkilərin minimuma endirilməsi barədə danışdınız. Biz azadlıq əməliyyatlarını həyata keçirərkən mənim Ali Baş Komandan kimi verdiyim göstərişlərdən biri bu barədə olub. Statistikaya baxsanız, bizdə olan məlumata görə qarşı tərəfin dinc əhalisi arasında itki minimum olub. Bu itkilər 40 nəfərdən azdır. Eyni zamanda, onların hərbi qulluqçuları arasında itkilər ən azı 6,5 – 7 min nəfərə çatıb. Bundan əlavə, bizim müşahidələrə görə düşmən tərəfin belə adlandırılan dinc əhalisinin çox hissəsi onlar əməliyyatlarla bağlı hərəkətlər edən vaxt həlak olublar, onlar artilleriya toplarının yaxınlığında olub, döyüş sursatları daşıyıblar və o vaxt biz bu topları məhv edərkən həmin adamlar

zərər çəkiblər. Buna görə də müharibədə dinc əhali zərər çəkməyib. Erməni tərəfi isə təəssüf ki, əksinə, bizim dinc əhaliyə maksimum zərər vurmağa çalışırdı, Gəncənin, Bərdənin, Tərtərin və digər şəhərlərin ballistik raketlərlə bombalanması buna sübutdur.

Azadlıq müharibəsi məsələsinə gəldikdə, əlbəttə, sizinlə razıyam və bilirəm ki, hazırda aparıcı xüsusi hərbi məktəblərdə həm xüsusi əməliyyatların aparılması, həm də bütün qoşun növlərinin səylərinin əlaqələndirilməsi öyrənilir. Yəni, bu əməliyyat barəsində hər şey məlum olanda o, ən uğurlu əməliyyat kimi tarixə düşəcək. Başa düşmək lazımdır ki, düşmən təqribən 30 il ərzində müdafiə səddini çox fəal şəkildə möhkəmləndirib. Hətta işğaldan azad edilmiş ərazilərə gedəndə, yəqin siz də görmüşünüz, xüsusən Füzuli istiqamətində bir neçə müdafiə xətti, üstəgəl uzunmüddətli atəş nöqtələri, hətta onların öz mövqeləri də atəşə tutulub ki, biz oraya daxil olanda bizi artilleriya atəşinə tutsunlar. Ona görə də dərin eşelonlaşdırılmış müdafiə xəttini yarmaq üçün çox böyük cəsarət, qorxmazlıq tələb olunurdu və bizim həmlə dəstələrimiz düşmənin müdafiə xəttini yararkən əsl qəhrəmanlıq göstərdilər. Təəssüf ki, onların arasında qurbanlar az olmadı. Ona görə ki, əsas məsələ müdafiə xəttini yarmaq idi. Özü də biz onların bizi haradan gözlədiklərini və nə edəcəklərini təxminən bilirdik. Buna görə də elə yerdən gedirdik ki, onların ağlına belə gəlməzdi. Onlar bizim Şuşaya necə gedib çıxmağımızı hələ də başa düşə bilmirlər. Başa düşə bilmirlər, bir-birindən soruşurlar. Bəzən bu məsələ mətbuata çıxır. Lakin haçansa başa düşəcəklər, bu da Azərbaycanın xüsusi təyinatlılarının və digər xüsusi hərbi birləşmələrinin misilsiz mərdliyi, qəhrəmanlığı, fədakarlığı ilə bağlı ayrıca bir əhvalatdır. Lakin bu gün artıq sirr deyil ki, döyüş əməliyyatlarında sərhəd xidmətinin xüsusi təyinatlı qüvvələri, daxili qoşunlar, təhlükəsizlik xidməti, kəşfiyyat xidməti, Naxçıvan ordusunun xüsusi qüvvələri iştirak edirdilər. Onlardan hər birinin vahid komandanlıq altında öz vəzifəsi var idi. 44 gün ərzində ərazilərimizi azad etməyimizdə xüsusi təyinatlıların böyük xidməti olub. Ordu korpusları da ərazilərin azad edilməsində və mövqelərin əldə saxlanmasında böyük rol oynayıblar. Cəbhə aviasiyası, həm də sizin dediyiniz pilotsuz ucuz aparatları da əlbəttə, itkilərin minimuma endirilməsində çox böyük rol oynayıb, ona görə ki, əgər onlar olmasaydı tələfat qat-qat çox olardı. Sizin tamamilə düzgün olaraq qeyd etdiyiniz kimi onlar təkcə zərbə və kəşfiyyat funksiyalarını deyil, həm də atəşin təshih edilməsi funksiyalarını yerinə yetirirdi. Hətta bəzən göstərilən kadrlarda da görünür ki, hədəf götürülüb, mərmi isə hədəfi vurur. Buna görə də bütün bu əməliyyatların kombinasiyası uğurla nəticələnib. Bir də, əlbəttə, planlaşdırmanın düzgün olması. Sizə deməliyəm ki, planlaşdırma düzgün olmasaydı bizim üçün çox çətin olardı. Ona görə ki, orada uzunmüddətli istehkamlardan əlavə təbii relyef də çətinlik törədir. Axı, dağa dırmaşmaq, aşağıdan yuxarıya qalxmaq lazımdır. Şuşanın alınması isə, ümumiyyətlə, ayrıca dastandır, bəli, bu, epos kimidir. Ona görə ki, döyüşçülər nə götürə bilərdilərsə götürməliydilər, amma özünlə nə götürə bilərsən? Maksimum qumbaraatan. Bu, inanılmaz fiziki qüvvə, hazırlıq tələb edir. Bu, sal qayalara aşağıdan dırmaşmaq lazımdır. Müdafiə xətləri çox möhkəmlənib, özü də orada ermənilərin tankları və topları vardı. Bizdə isə süngü-bıçaqlar və yüngül silah. Bəzən mən də ekspertlərin fikrini müşahidə edirəm, amma əlbəttə, hərənin öz fikri var. Bu da aydındır, çünki ekspert döyüş əməliyyatlarının bütün mənzərəsinə bələd ola bilməz. Buna görə də təbii ki, müharibə aparılmasının bir növünün xeyrinə müəyyən meyil olur. Amma deməliyəm k, bu elementlərin heç biri vahid komandanlıq, planlaşdırma olmadan bizim qələbəmizi təmin etməzdi. Məhz bunlarının hamısının düzgün kombinasiyası: kəşfiyyat, artilleriya, zərbə pilotsuz uçuş aparatları, pilotsuz kamikadzelər, xüsusi təyinatlılar, ordu korpusları – bütün bunlar birlikdə qələbəyə gətirib çıxarıb. Lakin zaman keçdikcə məxfilik qrifi götürüləcək və informasiya daha çox olacaq. Amma düşünürəm ki, hətta artıq olub keçənlər düzgün nəticə çıxarmaq üçün kifayət qədər əsas verir.

**Böyük Britaniyanın "Middle East Eye" media qurumu:** Salam cənab Prezident. Mənim iki sualım var. Birincisi, Qarabağda azad edilən ərazilərin yenidən inşası üçün nə qədər pul xərclənəcəyini düşünürsünüz? Yəni, hesablanıbmı cəmi neçə milyard dollar edəcək? İkincisi isə beynəlxalq mediada Sizin Türkiyə ilə İsrail arasında əlaqələrin normallaşdırılması üçün vasitəçi olmağınıza dair xəbərlər var. Bununla bağlı fikirləriniz varmı?

**Prezident İlham Əliyev:** Bizim bu ilin sərmayə planında 2,2 milyard manat vəsait nəzərdə tutulur. Mən qeyd etdiyim kimi, onun təqribən yarısı indi bölünüb, yarısı bölünməmiş qalır. Bunu hesablamaq çox çətindir. Çünki bu, görüləcək işlərin həcminə bağlıdır. Biz bu torpaqlara yeni gəlmişik. Hələ ki, tam təhlil aparılmayıb. Bu təhlil aparılandan sonra əlbəttə ki, daha dəqiq rəqəmlər məlum olacaq. Ancaq, şübhəsiz, bu, bir neçə milyard dollar vəsait tələb edəcək. İndi təsəvvür edin ki, biz üç hava limanı inşa edirik. Biz 100 kilometrlərlə dəmir yolu çəkməyə başlamışıq. Bəlkə minlərlə kilometr avtomobil yolu çəkiləcək, həm şəhərlərarası, həm kəndlərarası. Bütün kəndlərə asfalt yol çəkiləcək. Bütün bölgələrdə elektrik enerjisi ilə bağlı layihələr bu ilin sonuna qədər icra ediləcək. Ondan sonra içməli su və bununla bağlı işlər, kənd təsərrüfatı işləri, ondan sonra bir milyon

insanı ora qaytarmaq üçün nə qədər inşaat işləri aparılmalıdır. Məktəblər, xəstəxanalar, idman kompleksləri, mədəniyyət ocaqları. Hesablamaq çox çətindir. Ona görə biz hər il üçün müəyyən büdcə ayırdıq. 2,2 milyard manatlıq büdcə son rəqəm deyil. Əgər biz görsək ki, bu ilə bu çatmır, biz əlavə edərik. Çünki bu gün bizim Qarabağın bərpasından başqa önəmli bir işimiz yoxdur. Çünki əsas infrastruktur layihələri artıq gerçəkləşib. Ölkə qarşısında duran çox ciddi inşaat layihələri də yoxdur. Ona görə bütün gücümüzü biz oraya yönəldirik.

Təbii ki, görüləcək işlər arasında xüsusi sərmayələr də önəmli yer tutmalıdır. Əgər bərpa olunan, yenilənən enerji növlərini özəl qurumlar öz üzərlərinə götürərlərsə təbii ki, dövlətin üzərinə düşən yük daha az olacaq. Hər halda burada keyfiyyət, zaman və əlbəttə ki, xərclərdən səmərəli istifadə önəmlidir.

Vasitəçiliyə gəldikdə, Azərbaycan bölgədə işbirliyini təmin edən bir ölkə kimi tanınır. Bizim heç bir ölkə ilə heç bir problemimiz yoxdur. Məhz buna görə biz Qoşulmama Hərəkatına yekdil səslə - 120 ölkədən 119-nun səsi ilə seçildik. Halbuki Qoşulmama Hərəkatında elə ölkələr var ki, bir-biri ilə yola getmirlər, onların arasında ciddi ixtilaflar var. Amma onların hər biri Azərbaycanı dəstəklədi. Çünki bizim çox səmimi siyasətimiz var. Biz hər bir ölkə ilə səmərəli işbirliyi qurmaq fikrindəyik, bunu edirik. Ona görə istər-istəməz Azərbaycan dünyada bir görüşmə nöqtəsi kimi tanınır. Təsadüfi deyil ki, misal üçün, müharibədən, COVID-dən əvvəl NATO və Rusiya hərbi rəhbərlərinin görüşləri məhz Bakıda keçirilirdi. Rusiya baş qərargah rəhbəri və NATO-nun Silahlı Qüvvələrinin rəhbəri Bakıda görüşürdülər. Niyə Bakıda görüşürdülər, başqa yerdə görüşmürdülər? Çünki inam var. Artıq biz bu imici qazanmışıq. İnam var, etimad var və hörmət var. Bilirlər ki, bizim sözümüz imzamız qədər qüvvətlidir.

Digər önəmli hadisələr baş verir. Müharibədən sonra aralarında ixtilaflar olan bəzi ölkələri bir araya gətirmək üçün Azərbaycan səy göstərir. Nə üçün biz bunu edirik? Biz istəyirik ki, sabitlik olsun, sülh olsun, ədavət olmasın, risklər azalsın. Biz bu bölgədə yaşayırıq. Azərbaycanın daxilində hər hansı bir təhlükə, risk mənbəyi yoxdur. Müharibənin əvvəlində də yox idi, indi də yoxdur. Nə ola bilər, bizim üçün nə başağrısı yarada bilər? Bizim hüdudlarımızın kənarında müəyyən gərginlik bizə həm siyasi, həm iqtisadi problem gətirə bilər. Bunu aradan qaldırmaq üçün nə etmək lazımdır? Çalışıb ölkələri barışdırmaq. Bilirsiniz, xüsusilə bəzi hallarda emosiyalar üstünlük təşkil edir. Bəzi hallarda hansısa ifadə edilən bir söz düzgün qəbul edilmir, yaxud da ki, yanlış anlaşılır. Yəni, bütün bu emosional məsələlərdən masamızı təmizləməliyik və mahiyyətə baxmalıyıq. Mahiyyətdə nə var? Misal üçün, hər hansı iki ölkə arasında hansısa ciddi əsaslı ixtilaf var. Əgər varsa, gəlin bunu çözək. Yoxdursa, o zaman Azərbaycan kimi ölkənin, necə deyərlər, fəaliyyəti, əməyi yerində ola bilər. Mən bundan artıq deyə bilmərəm. Yəqin ki, siz də anlayırsınız nəyə görə. Ancaq mən hesab edirəm ki, dostlarımız arasında dostluq olarsa, o, həm dostlarımız üçün, həm bizim üçün daha yaxşı olacaq.

**Ukraynanın “5-ci Kanal” televiziyası:** Hər vaxtınız xeyir, cənab Prezident. Ölkəmiz üçün bugünkü anım günündə Sizə başsağlığı vermək istərdim. Mənim sualım GUAM təşkilatı və dörd ölkənin bu formatda əməkdaşlığı barədə olacaq. Bilirik ki, bu format 1990-cı illərin axırlarında yaradılıb və bu birliyin siyasi vektorunda deyilirdi ki, bu formatda iştirak edən dörd ölkə bir-birini qarşılıqlı surətdə dəstəkləyəcək, iştirakçı ölkələrin ərazisində münaqişələrin həllində bir-birinə kömək edəcəklər. Bu formatın yaradılmasından artıq 20 il keçib, çox şey dəyişib. Ukraynada 7 ildir ki, müharibə gedir. Azərbaycan öz ərazilərini işğaldan azad edə bilib. Siz bu formatın iştirakçısı olan ölkələrdən birinin Prezidenti kimi həmin ölkələrin gələcək əməkdaşlığını necə təsəvvür edirsiniz? Daha bir sözüm var, bu, sual deyil, həmkarımın arzusuna dəstəkdir: Şuşanı görməyi çox istəyirəm.

**Prezident İlham Əliyev:** Yaxşı, çox sağ olun. Mən demək istərdim ki, Azərbaycan öz xarici siyasət fəaliyyətində həmişə ardıcıl olub və mən çıxışlarımda vaxtaşırı olaraq bizim xarici siyasətin əsaslarına toxunuram. Bu, çox açıq və prinsipial siyasətdir. Bizim xarici siyasətimizdə heç bir gizli məqam yoxdur. Ona görə ki, bu siyasət bizim milli maraqlarımıza əsaslanır və yalnız əməkdaşlığın möhkəmlənməsi üçün nəzərdə tutulur.

GUAM təşkilatına gəldikdə isə Sizin qeyd etdiyiniz kimi, onun yaradılmasından 20 ildən çox keçib. Onun necə yaranmasını isə yəqin ki, xatırlayırsınız. Sonradan bu və ya digər siyasi konyunkturadan asılı olaraq iştirakçıların tərkibində müxtəlif dəyişikliklər olub. Lakin Azərbaycan həmişə bu təşkilatın əsas prinsiplərinə, məhz bütün ölkələrin suverenliyinin və ərazi bütövlüyünün dəstəklənməsi prinsipinə sadiq qalıb. Biz həmişə bunu həm bəyan etmişik, həm də müxtəlif beynəlxalq təşkilatlarda səsvermələr zamanı praktiki olaraq həyata keçirmişik. Deməliyəm ki, GUAM-ın üzvü olan ölkələrin ərazi bütövlüyü ilə bağlı məsələlərdə həmin ölkələrin həmrəy mövqeyi, mənim fikrimcə, elə mühüm təməldir ki, biz öz münasibətlərimizi prinsip etibarilə həmin təməl üzərində qururuq. BMT-də, digər beynəlxalq təşkilatlarda səsvermə çərçivəsində Azərbaycan Gürcüstanın, Moldovanın, Ukraynanın ərazi bütövlüyünü həmişə dəstəkləyib və yenə dəstəkləyir. Biz də həmin ölkələr tərəfindən bizim ərazi bütövlüyümüzün dəstəklənməsini

həmişə görmüşük. GUAM-ın daha fəal olduğu dövr də olub, onun nisbətən az fəal olduğu dövr də. Tam səmimi deyirəm, bu, daha çox Ukraynanın mövqeyindən asılı olub. Ona görə ki, GUAM üzvləri arasında Ukrayna ən iri, ən böyük potensiala malik ölkədir. Bu və ya digər dövrdə GUAM-ın fəallaşması, yaxud əksinə, fəallığının azalması Ukrayna rəhbərliyinin mövqeyindən asılı olub.

Artıq 18 ildən bəri Prezident vəzifəsində veteran kimi bütün bu hadisələr mənim gözlərimin qabağında baş verib. Bu təşkilatın fəaliyyətinin bütün məqamlarını, o cümlədən həm Bakıda, həm Ukraynada, Gürcüstanda, Moldovada keçirdiyimiz çoxsaylı sammitləri çox gözəl xatırlayıram. Ukraynada GUAM-a maraq azalan kimi bu təşkilat sanki sönür, orada maraq artan kimi təşkilat bir qədər pərvazlanırdı. Buna baxmayaraq, siyasi tərkib hissəsinə gəldikdə, zənnimcə, bizim ölkələrdə bütün hakimiyyətlərin dövründə biz bu əsası qoruyub saxlaya bilmişik. Düşünürəm ki, bu mövqe artıq zamanın sınağından çıxmış mövqedir. İstərdim ki, bu təşkilatın fəaliyyəti daha artıq dərəcədə proqnozlaşdırıla bilən və planlı olsun. Mən həmişə konkret məqsədlər nəzərə alınmaqla qısamüddətli, ortamüddətli və uzunmüddətli addımların planlaşdırılmasının tərəfdarıyam. Məndən hətta indi hansı məqsədlərimin olduğunu soruşsanız, çətin vəziyyətə düşərəm. Hərçənd, bu gün nəqliyyat sahəsində çoxtərəfli əməkdaşlıq üçün çox böyük imkanlar var. Lakin biz bu imkanlardan GUAM formatında istifadə edirikmi? Biz ondan ikitərəfli, ən yaxşı halda üçtərəfli formatda istifadə edirik. Sonra isə bir növ konstruksiya, pazllar kimi yığmağa çalışırıq. Amma bu məsələyə sistemli şəkildə yanaşsaq, xüsusən nəqliyyat dəhlizlərinin yeni imkanlarını və bir çox başqa amilləri nəzərə almaqla, Xəzər dənizi, Qara dəniz regionunda nəqliyyat-logistika əməkdaşlığının çox perspektivli istiqamətlərini müəyyən etmək olar. Buna görə düşünürəm ki, gələcəkdə hər şey bizim tərəfdaşlarımızın fəaliyyətindən asılı olacaq. Şərhlərin dərinliyinə varmaq istəməzdim, lakin bəzən hakimiyyətin tez-tez dəyişməsi ona gətirib çıxarır ki, yeni hakimiyyət bütün bunları təzədən dərk etməli, öz prioritetlərini, həmin prioritetlərdə GUAM-ın yerini müəyyən etməlidir. Bunlar müəyyən ediləndə görürsən ki, yeni hakimiyyət özünü yetirdi. Beləliklə biz həmişə bu təşkilatın sabit üzvü olmuşuq və bu gün də sabit üzv kimi qalmaqda davam edirik.

**Türkiyənin "Yeni Şəfəq" qəzeti:** Hörmətli cənab Prezident, səbriniz və hamımızın suallarını cavablandırdığınız üçün təşəkkür edirik. Əvvəlcə, Azərbaycan xalqının, Türkiyə adından deyirəm, qardaş xalqın üzüntüsünü bölüşürük, eyni zamanda, Zəfərin qürurunu da bölüşürük. Mənim bir sualım var. Türk Silahlı Qüvvələri ilə birlikdə həyata keçirdiyiniz fəaliyyətlərlə bağlı ilk gündən etibarən Qarabağda monitorinqin təmin edilməsində birgə fəaliyyətin həyata keçiriləcəyini açıqladınız. Birgə Mərkəz yaradıldı. Rus əsgəri ilə türk əsgəri orada fəaliyyət həyata keçirirlər. Minalanmış ərazilərin təmizlənməsi məsələsində də ortaq fəaliyyəti görürük. Bundan başqa, Azərbaycan Ordusu ilə Türkiyə Ordusunun digər ortaq fəaliyyətləri nədir? Qarşıdakı dövrdə hər hansı bir çatışmazlıq yaranacağı halda ortaq hərəkat, ya da təhdidin aradan qaldırılması ilə bağlı türk əsgərinin daha çox fəaliyyət göstərməsi mümkündürmü? Təşəkkür edirəm.

**Prezident İlham Əliyev:** Sağ olun. Türk Silahlı Qüvvələri ilə Azərbaycan Müdafiə Nazirliyi arasında əməkdaşlıq uzun tarixə malikdir. Bütün dövrlərdə Türkiyə və Azərbaycan Silahlı Qüvvələri bir yerdə olublar. Mən sualların birinə cavab verərkən dedim ki, təkcə 2019-cu ildə həm Bakıda, həm də Türkiyədə 10-dan çox birgə hərbi təlim keçirildi. Bu il də artıq birinci təlim keçirildi.

Ortaq Mərkəzin yaradılması Türk Silahlı Qüvvələrinin Qarabağ bölgəsinə, Azərbaycan torpağına gəlməsi deməkdir. Bu, hesab edirəm ki, tarixi hadisə sayıla bilər. Bu, bizi çox məmnun edir. Qeyd etməliyəm ki, Türkiyə-Rusiya Birgə Monitorinq Mərkəzinin yaradılması üç ölkənin müştərək qərarıdır. Ermənistan, sadəcə olaraq, bununla razılaşmalı oldu. Çünki 10 noyabr Bəyanatı imzalananda Ermənistan o durumda deyildi ki, buna etiraz etsin. Ermənistan, necə deyərlər, öz hayında idi. Ona görə əgər başqa bir siyasi və hərbi durum olsaydı, Ermənistan buna etiraz edərdi. Ancaq buna etiraz edə bilmədi və biz də söylədik ki, bu mərkəz Azərbaycan ərazisində yaradılır, Ermənistanın bu işlərlə nə əlaqəsi var?

Ona görə bu mərkəzin yaradılması hesab edirəm ki, tarixi hadisə sayıla bilər. Bundan başqa, siz də qeyd etdiyiniz kimi, mən də söyləmişdim ki, Türkiyədən böyük heyət gəlmişdir, 100 nəfərdən çox heyət, minaların təmizlənməsi işləri və təlim kursları aparılmışdır. Bu fəaliyyət davam etdirilir.

Bundan sonra müxtəlif sahələrdə, hərbi sahədə əməkdaşlığımız davam etdiriləcək. Mən müharibə dövründə demişdim və bu, hər kəsə bəllidir ki, Türkiyə Ordusu dünya miqyasında ən güclü ordular sırasındadır, NATO-da güc baxımından ikinci ordudur. Biz də Azərbaycanda Türk Ordusunun kiçik modelini yaratmaq əzmindəyik. Artıq bu sahədə əməli-praktiki işlərə start verilib.

Müharibə dövründə biz yeni təcrübə topladıq. Çünki bizim ordumuz demək olar ki, müharibələrdə iştirak etmirdi. Sadəcə olaraq, bu sahəyə, necə deyərlər, nəzəri baxımdan yanaşırdı. İndi müharibə çox böyük bir təcrübədir. Biz bu təcrübədən düzgün nəticə çıxarmalıyıq. Böyük uğurlarımız olub. Eyni zamanda, müharibə dövründə müəyyən çatışmazlıqlar da olub. Biz bunu da gizlətmirik. Müharibə dövründə Ali Baş Komandan kimi qəbul etdiyim qərarlar, o cümlədən hərbi heyətlə bağlı qəbul edilmiş qərarlar

məhz onu göstərir ki, müəyyən problemlər də üzə çıxmışdı, amma biz onları həll etdik.

Türkiyə ilə Azərbaycan arasında çox geniş qanunvericilik bazası var. Bir çox sənədlər, müqavilələr imzalanıb. Onların arasında elə sənədlər var ki, orada qarşılıqlı hərbi yardım məsələləri də təsbit edilib.

Müharibə dövründə ilk günlərdən əziz qardaşım, hörmətli Prezident açıqlamalar verdi ki, Azərbaycan yalnız deyil, Türkiyə Azərbaycanın yanındadır. Bu, bir çoxları üçün mesaj oldu ki, kənarda durun, müdaxilə etməyin, Azərbaycana mane olmayın. Türkiyənin müdafiə naziri hörmətli Hulusi Akar, xarici işlər naziri hörmətli Mövlud Çavuşoğlu, digər yüksək vəzifəli rəsmilər birmənalı olaraq Azərbaycana dəstək verdilər. Bu, bizə çox böyük siyasi və mənəvi dəstək oldu. Eyni zamanda, bütün dünyaya bir siqnal oldu ki, kənarda durun, müdaxilə etməyin.

Bu gün də bu, davam edir. Türkiyə və Azərbaycan iki qardaş ölkə, dünya miqyasında bir-birinə ən yaxın olan ölkələrdir. Bizim hərbi əməkdaşlığımız gündən-günə möhkəmlənir. Türkiyədən yeni silahların alınması istiqamətində işlər aparılır. Bu barədə mən artıq məlumat verdim, o silahlar yaxın zamanlarda gələcək. Bizim ordumuz daha güclü, daha müasir olmalıdır. Türk Silahlı Qüvvələrinin modeli bizim üçün ən məqbul modeldir. Bundan sonra bu istiqamətdə də bərabər çalışacağıq.

**Türkiyənin "Sözçü" qəzeti:** Mənə sonuncu sual verməyə şərait yaratdığı üçün cənab Prezident İlham Əliyevə təşəkkür edirəm. Cənab Prezident, əvvələ, türk xalqı olaraq qazandığınız qələbə ilə bağlı böyük qürur duyduq. Zəfər çıxışınızı da böyük məmnuniyyətlə izlədik. Mənim sualım belədir: Azərbaycan ilə Ermənistan arasındakı əlaqələr, münasibətlər normallaşdıqdan sonra Türkiyə Ermənistan sərhədini açarsa, reaksiyanız necə olar? Təşəkkür edirəm.

**Prezident İlham Əliyev:** Biz Türkiyə dövlətinə göstərdiyi bütün dəstəyə görə bir daha təşəkkürümüzü bildiririk. Eyni zamanda, sərhədlərin bağlı olması, əlbəttə ki, qardaşlıq rəmzi idi, qardaşlıq addımı idi. Türkiyə Ermənistanla sərhədlərini 1993-cü ildə bağlamışdır, Kəlbəcər işğal altına düşəndən sonra, məhz buna görə. O vaxta qədər Türkiyə ilə Ermənistan arasında sərhədlər açıq idi. Türkiyə Ermənistanı rəsmən tanıyan ilk ölkələrdən biri olmuşdur. Ermənistanın müstəqilliyinin ilk günlərindən Türkiyə Ermənistanla normal əlaqələr qurmaq fikrində idi. Əfsuslar olsun ki, Ermənistanda anti-Türkiyə təbliğatı həddindən artıq güclü idi və bu gün də bu, davam edir. Türkiyəfobiya orada rəsmi ideologiyaya çevrilib. Onlar Türkiyə və Azərbaycanı hər zaman düşmən sayıblar. Sərhədlərin bağlanması o vaxt Azərbaycana göstərilən həmrəylik aktı idi. İndi münaqişə başa çatdı. İndi Azərbaycan öz torpaq bütövlüyünü bərpa etdi və əlbəttə ki, bölgədə yeni vəziyyət yaranmışdır. Ancaq, eyni zamanda, Ermənistanın Türkiyəyə qarşı iddiaları hələ də qüvvədədir. Baxın, müharibədən əvvəl Ermənistan Prezidenti nə söyləyirdi? Söyləyirdi ki, Sevr müqaviləsinə yenidən baxılmalıdır. Yəni, Türkiyəyə ərazi iddiası var. Ermənistanın konstitusiyasında Türkiyəyə qarşı ərazi iddiası var. Onlar bundan əl çəkməlidirlər. Bütün dünyada Türkiyəyə qarşı çirkin kampaniya aparırlar. Qondarma dırnaqarası "soyqırımı"nı müxtəlif ölkələrin parlamentində qəbul etdirirlər. Belə düşmənçilik siyasəti nə qədər davam edə bilər? Onlar necə deyərlər, ağlını başına yığmalıdırlar. Türkiyə kimi böyük ölkəyə ərazi iddiaları irəli sürmək özünəqəsddir, axmaqlıqdır.

Biz, əlbəttə ki, yeni vəziyyəti nəzərə alaraq Türkiyə-Ermənistan əlaqələrinin normallaşmasına da müsbət baxırıq. Bu əlaqələrin normallaşması üçün bizim indi hər hansı bir xüsusi fikrimiz yoxdur. Türkiyə özü müəyyən edəcək ki, bu sərhədlər nə zaman açıla bilər, nə zaman əlaqələr normallaşa bilər. Hər halda, Azərbaycan tərəfindən buna necə deyərlər, hər hansı bir mənfi fikir olmayacaq. Çünki hesab edirəm ki, bölgənin sabitliyi, uzunmüddətli sülh üçün bütün ölkələr arasında münasibətlər normal olmalıdır. Baxın, biz indi nədən danışırıq. Ermənistan-Azərbaycan sərhədinin açılmasından bəhs edirik. Yəni, Ermənistan–Azərbaycan sərhədi açılırsa, Türkiyə-Ermənistan sərhədinin bağlı qalmasına da təbii ki, ehtiyac qalmır. Əgər biz bu koridorlardan söhbət ediriksə, Zəngəzur koridorunu gerçəkləşdirmək istəyiriksə, təbii ki, Türkiyə-Ermənistan sərhədi də açılacaq. Amma bu, təbii ki, Türkiyənin öz qərarıdır. Bir halda ki, siz məndən bunu soruşursunuz, Azərbaycan tərəfindən bu məsələ ilə bağlı hər hansı bir xüsusi mövqe yoxdur. Bir də ki, Türkiyənin xeyrinə nə olacaqsa, bu, bizim də xeyrimizədir.

**Hikmət Hacıyev:** Möhtərəm cənab Prezident, Sizə artıq dərəcədə təşəkkür edirik. Gərgin qrafikinizdə bizə dörd saatdan artıq vaxt ayırdınız, 35-dən çox dünya mediasının 50-yə yaxın sualını cavablandırdınız. Buna görə Sizə təşəkkür edirik.

**Prezident İlham Əliyev:** Sağ olun, Təşəkkür edirəm. Mən də sizə təşəkkürümü bildirirəm ki, siz mənim sözlərimə diqqətlə qulaq asdınız. Hesab edirəm ki, həm mənim üçün, həm sizin üçün də bu mətbuat konfransı çox faydalı oldu. Mən sizin vasitənizlə sizin ölkələrinizdə yaşayan insanların diqqətinə Azərbaycanın həqiqətlərinin bir hissəsini çatdıra bildim. Əminəm ki, belə səfərlər tez-tez həyata keçiriləcək. Çünki siz indi dağılmış yerlərə səfər etdiniz, baxdınız. Bir müddətdən sonra siz o yerləri bərpa edilən yerlər kimi görəcəksiniz. Bir daha sizə təşəkkür edirəm və uğurlar arzulayıram. Sağ olun.

# İlham Əliyev Füzuli və Xocavənd rayonlarında olub



Martın 15-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyeva Füzuli və Xocavənd rayonlarında olublar.



**Prezident İlham Əliyev** dedi:

– Yenə işğaldan azad edilmiş torpaqlardayam. Bu gün Füzuli-Hadrut avtomobil yolunun təməlini qoyacağam. Bu avtomobil yolunun inşası azad edilmiş ərazilərin bərpası üçün böyük əhəmiyyət daşıyır. Bu, birinci layihə deyil. Artıq bir neçə yol layihəsi icra edilməkdədir. Azad edilmiş torpaqların bərpası başlamışdır. Füzulidən Şuşaya yol çəkilir – Zəfər yolu çəkilir. Eyni zamanda, Bərdə-Ağdam yolunun çəkilişi yaxın gələcəkdə icra ediləcəkdir. Horadizdən Zəngilana qədər yol çəkiləcək. Bir sözlə, müharibədən dörd ay keçməsinə baxmayaraq, böyük quruculuq işləri başlamışdır.

Yenə də azad edilmiş torpaqlarda olarkən, bu





dağıntıları görərkən bir daha görürük ki, mənfur düşmən bizim bütün yaşayış məntəqələrimizi yerlə-yeksan etmişdir, bizim tarixi irsimizi silmək istəmişdir. Amma buna nail ola bilmədi. Biz bu torpaqlara qayıtmışıq. Qəhrəman xalq kimi, müzəffər dövlət kimi qayıtmışıq. Düşməni öz doğma torpaqlarımızdan qovmuşuq.

Bu gün azad edilmiş torpaqlara gələrkən Qaraxanbəyli kəndindən keçdik. Qaraxanbəyli kəndi müharibənin ilk günündə - sentyabrın 27-də azad edildi. Bax, biz məhz buradan, o istiqamətdən öz şərəfli missiyamızı icra etməyə başladıq və düşməni torpaqlarımızdan qovduq. İndi isə quruculuq işləri ilə məşğuluq. İndi isə həyatımızın yeni dövrü başlayır – quruculuq, inkişaf, torpaqlarımızın bərpası dövrü.

***

Prezident İlham Əliyev səfər çərçivəsində Füzuli-Hadrut avtomobil yolunun təməlini qoydu.

Bu yol başlanğıcını Zəfər yolundan götürür və yeni inşa ediləcək Hadrut-Cəbrayıl-Şükürbəyli avtomobil yoluna birləşir. Uzunluğu 13 kilometr olan bu yol 4 hərəkət zolaqlı olacaq. Yol boyunca avtomobil körpüləri inşa ediləcək.

***

Dövlətimizin başçısı İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyeva Xocavənd rayonuna yola düşdülər.

**Prezident İlham Əliyev:** Yenə azad edilmiş torpaqlardayıq. Füzulidən Xocavənd rayonuna gedirik. İşğaldan azad edilmiş Xocavənd rayonuna gedirik. Yol boyunca bütün yaşayış məntəqələrinin dağıdılmasının bir daha şahidi oluruq. Bütün kəndlər, şəhərlər tamamilə dağıdılıb. Özü də bu dağıntılar müharibədən sonra baş vermişdir. Müharibə dövründə - Birinci Qarabağ müharibəsi dövründə bu qədər dağıntılar olmamışdır, ola da bilməzdi. Məhz işğal dövründə mənfur düşmən bizim şəhərlərimizi bu hala salıb.

Bura Füzuli şəhəridir. Amma şəhərdən əsər-əlamət qalmayıb. Şəhər yoxdur, dağıdılıb. Ermənilər dağıdıblar. İşğal dövründə gəlib bizim binalarımızı söküb, binaların daşlarını, damlarını aparıblar, oğru kimi, talançı kimi. Bunlar, Füzuli şəhərinin qalıqlarıdır. Bu gün də Ermənistanı müdafiə edən xarici dairələr gözlərini açıb baxsınlar onların vəhşiliyinə. Onlar kimi müdafiə edirlər?!

Otuz il torpaqlarımızı işğal altında saxlayan mənfur düşmən bir daşı-daş üstündə qoymayıb. Görün, yollar nə gündədir. Otuz il ərzində bu yollar asfalt görməyib. Onların bütün təbliğatı yalandır, bütün tarixi saxtadır. Özlərini dövlət adlandırırdılar, dırnaqarası "Artsax dövləti" – cəhənnəmə getdi. "Dövlət" idisə, bəs, niyə daş-daş üstə qoyulmayıb? Çünki bilirdilər ki, bu torpaq onların deyil. Bu torpaq azərbaycanlıların torpağıdır.

Bura işğaldan azad edilmiş Xocavənd rayonudur.

Durduğumuz yer Xocavənd rayonunun Edilli kəndidir. Bura da Ağbulaq kəndidir. Qəhrəman Azərbaycan Ordusu qədim Azərbaycan torpağını işğalçılardan azad edib. Burada döyüşlər gedib. Vuruşaraq, döyüşərək düşməni öz doğma torpaqlarımızdan qovmuşuq.

Bura da işğaldan azad edilmiş keçmiş Hadrut rayonunun Düdükçü kəndidir. Görün, necə gözəl mənzərədir.

***



Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyev Hadrut qəsəbəsində dövlət bayrağımızı qaldırdı və çıxış etdi.

Hadrut qəsəbəsinin işğaldan azad edilməsi böyük əhəmiyyətə malik olan bir əməliyyat idi. Çünki Cəbrayıl rayonundan, Cəbrayıl şəhərindən sonra Hadrutun azad edilməsi hərbi əməliyyatlarımızın davam etdirilməsi üçün xüsusi əhəmiyyətə malik olan hadisə idi.

Onu da bildirməliyəm ki, Füzuli şəhəri Hadrutdan sonra azad edilmişdir – oktyabrın 17-də. Ermənistan ordusu bizi məhz digər istiqamətdə gözləyirdi. Ancaq müharibə qaydalarına əməl edərək, strateji planlaşdırmanı düzgün icra edərək biz Cəbrayıldan sonra Hadrutu, ondan sonra Füzulini işğaldan azad etdik.

Onu da deməliyəm ki, artıq Hadrut bizim əlimizdə olan zaman Ermənistan rəhbərliyi, rəsmi şəxslər və eyni zamanda, Ermənistanın dəyirmanına su tökən bəzi xarici jurnalistlər bəyan edirdilər ki, Hadrut ermənilərin əlindədir. Mən bu günə qədər başa düşə bilmirəm ki, Ermənistan rəhbərliyi nə üçün öz xalqını aldadırdı. Biz dəqiq bilirdik ki, Hadrut bizdədir. Biz bilirdik ki, artıq Ermənistan ordusu burada tamamilə məhv edilib və sağ qalan erməni hərbçilər buradan qorxaqcasına qaçıb dağlarda gizlənmişdilər. Hadrut tam bizdə idi. Ancaq bəzi xarici jurnalistlər bildirirdilər ki, guya Hadrut ermənilərin əlindədir.

Hadrutun azad edilməsindən sonra biz Şuşaya istiqamət götürdük. Şuşa əməliyyatının uğurlu keçirilməsi üçün məhz Hadrutu azad etmək önəmli idi.

**Prezident İlham Əliyevin çıxışı**

– Hadrut qəsəbəsi oktyabrın 9-da işğaldan azad edildi. Hadrut qəsəbəsinin azad edilməsi çox uğurlu hərbi əməliyyat nəticəsində mümkün olmuşdur. İlk növbədə, ətraf dağlar götürüldü. Hadrutun ətrafında yerləşən yüksəkliklər Azərbaycan Ordusu tərəfindən götürüləndən sonra faktiki olaraq nəzarət Azərbaycan Ordusuna keçdi və Hadrut qəsəbəsinin işğaldan azad edilməsi artıq qaçılmaz idi. Deyə bilərəm ki, bütövlükdə 44 günlük müharibə zamanı mülki erməni əhali arasında itkilər kifayət qədər az idi. Ona görə ki, Azərbaycan Ordusu heç vaxt mülki əhaliyə qarşı müharibə aparmamışdır. Ermənilərdən fərqli olaraq, biz müharibə dövründə ancaq hərbi birləşmələrə qarşı müharibə aparmışıq, onları məğlub etmişik, onları torpaqlarımızdan qovmuşuq. O ki qaldı, mülki əhaliyə, Ermənistanın statistikasına görə, müharibə dövründə təqribən 40-a yaxın mülki şəxs həlak olmuşdur. Onların da böyük əksəriyyəti məhz hərbi əməliyyatlarda iştirak edən mülki şəxslər idi.



Yenə də düşmənin bizi gözləmədiyi istiqamətdən Şuşaya yaxınlaşdıq. Dağlardan, dərələrdən, sıldırım qayalardan keçərək, o qayaları dırmaşaraq biz Şuşanı işğalçılardan azad etdik. Ona görə Hadrut əməliyyatı dünyanın hərb elmində xüsusi yer tutacaq.

Bütövlükdə 44 günlük şanlı müharibəmiz, bizim Zəfərimiz bu gün dünyanın aparıcı ali məktəblərində

öyrənilir və artıq hərbi ekspertlər, mütəxəssislər, hətta bir çox ölkələrin siyasətçiləri bizim müharibədən bəhs edərək bildirirlər ki, bu, XXI əsrin müharibəsidir. Azərbaycan müharibədə Zəfər çaldı, düşməni əzəli torpaqlarımızdan qovdu, tarixi ədaləti bərpa etdi. Hadrut qəsəbəsi keçmiş Dağlıq Qarabağ Muxtar Vilayətinin Hadrut rayonunun mərkəzi sayılırdı. Dağlıq Qarabağ Muxtar Vilayəti ləğv olunandan sonra keçmiş vilayətin Martuni və Hadrut rayonları birləşdirildi və Xocavənd rayonu yaradıldı. Bu əraziyə qədim tarixi adı – Xocavənd adı qaytarılmışdır. Müharibə dövründə keçmiş Dağlıq Qarabağ Muxtar Vilayətinin Martuni rayonunun 50 faizdən çox hissəsi və keçmiş Dağlıq Qarabağ Muxtar Vilayətinin Hadrut rayonunun 100 faiz ərazisi işğalçılardan azad edilmişdir. Bəziləri müharibənin yekunlarını şərh edərkən deyirlər ki, Azərbaycan yeddi rayonu azad edib, bu, belə deyil. Biz yeddi rayonu, Şuşa şəhərini, Suqovuşan qəsəbəsini, Talış qəsəbəsini, keçmiş Hadrut rayonunu, keçmiş Martuni rayonunun böyük hissəsini azad etmişik və tarixi ədaləti bərpa etmişik. Beləliklə, Azərbaycan öz ərazi bütövlüyünü bərpa edərkən tarixi nailiyyətlərə imza atmışdır.

Biz xalqımızın yeni tarixini yazdıq, şanlı qəhrəmanlıq tarixini yazdıq və azad edilmiş torpaqlarda bu gün böyük quruculuq işləri aparılır, böyük infrastruktur layihələri icra edilir. Bu gün Bakıdan gələrkən, yenə də dağıdılmış Füzuli şəhərindən keçərkən bir daha gördüm ki, erməni vəhşiliyi hansı fəlakət törədib. Bu gün onları müdafiə edən, bu gün onların arxasında dayanan bəzi xarici dairələr gözlərini açıb görsünlər erməni vəhşiliyi nə günə salıb bizim şəhərlərimizi. Bizim bütün şəhərlərimiz dağıdılıb, bütün kəndlərimiz dağıdılıb, tarixi abidələr dağıdılıb, məscidlər dağıdılıb, qəbirlər dağıdılıb, misli görünməmiş vandallıq, barbarlıq törədilib. Biz isə ancaq öz torpaqlarımızı azad etmişik. Bax, bu qəsəbədə qanunsuz olaraq Ermənistandan və xarici ölkələrdən ermənilər gətirilib zorla məskunlaşdırılıb. Amma bu qəsəbə salamatdır, bir bina da dağıdılmayıb, bir bina da yandırılmayıb. Budur, Azərbaycan Ordusunun yanaşması, budur, bizim mənəvi kodeksimiz. Ermənilər nə ediblər? Bütün binalarımızı dağıdıblar, məscidlərimizi dağıdıblar. Məscidlərdə heyvan saxlayıblar. Bizim müqəddəs abidələrimizi təhqir ediblər. Azərbaycanlıların tikdirdikləri, - ermənilər orada qanunsuz yaşayıblar, - o evləri noyabrın 10-dan dekabrın 1-nə qədər yandırıblar, dağıdıblar, meşələri qırıblar. Su elektrik stansiyalarını dağıdıblar. Bax, fərq bundadır. Azərbaycan əsgəri yüksək mənəvi keyfiyyətlərə malik olan əsgərdir və əsgərə, bütün hərbçilərə verilən təlimat yerinə yetirildi. Mən demişdim ki, biz mülki əhali ilə heç vaxt müharibə aparmamışıq və bunu indi hər kəs görür. Mən demişdim ki, Ermənistan rəhbərliyi bizə tarix versin, bizim torpaqlarımızdan nə vaxt çıxır və biz müharibəni dayandırmağa hazırıq, bunu da etdik. Bu gün buraya bu torpaqların sahibləri kimi qayıtmışıq, azad edilmiş bütün torpaqlarda Azərbaycan bayrağı dalğalanır. Bu gün mən Müzəffər Ordumuzun Ali Baş Komandanı kimi Hadrut qəsəbəsində milli bayrağımızı qaldırdım. Bu bayraq burada əbədi dalğalanacaq. Biz azərbaycanlılar bundan sonra öz dədə-baba torpaqlarımızda əbədi yaşayacağıq. Bütün dağılmış şəhərləri, kəndləri yenidən quracağıq, həyat qayıdacaq, insanlar qayıdacaq və biz bütün dünyaya bir daha xalqımızın böyüklüyünü göstərəcəyik. Xocavənd bizimdir, Qarabağ Azərbaycandır!

***

Sonra Prezident İlham Əliyev Hadrut-Cəbrayıl-Şükürbəyli avtomobil yolunun təməlini qoydu.

Bu yol başlanğıcını Hadrut yaşayış məntəqəsindən götürməklə və Cəbrayıl rayonundan keçməklə Şükürbəyli kəndində Hacıqabul-Mincivan-Zəngəzur dəhlizi avtomobil yoluna birləşir. Uzunluğu 43 kilometrdir. Dörd hərəkət zolaqlı bu yol boyunca avtomobil körpüləri tikiləcək.



***

Prezident İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyeva keçmiş Hadrut Rayon Partiya Komitəsinin binasında oldular.

Dövlətimizin başçısı dedi: Bu bina keçmiş Hadrut Rayon Partiya Komitəsinin binasıdır. Qanunsuz rejim burada özləri üçün administrasiya yaratmışdı. Bu bina Azərbaycan vəsaiti hesabına tikilmişdir və onu biz qaytarmışıq. Hadrut bizimdir!

Bu sözlər köhnə əlifba ilə yazılıb: "Kolxozların torpaqlardan əbədilik faydalanması üçün". Bu, 1939-cu ilə qədər yazılıb. 1939-cu ildə əlifbamızı dəyişdirdilər. Bu, tarixi sənəddir.

***

Daha sonra Prezident İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyeva Hünərli kəndindəki Alban məbədi ilə tanış olublar.

**Prezident İlham Əliyev** dedi:

– Bura qədim Alban məbədidir, Alban kilsəsidir, Hünərli kəndində yerləşir. Ermənilər bu kilsəni də erməniləşdirmək istəmişlər və burada erməni dilində yazılar yazmışlar, ancaq buna nail ola bilməmişlər. İndi əgər bu, erməni kilsəsi olsaydı, bunu belə vəziyyətdə qoyardılarmı? Tövləyə oxşayır, elə bil ki, tövlədir, zibilxanadır. Bu, bizim qədim tarixi abidəmizdir, udi qardaşlarımızın məbədidir. Onlar buraya da gələcəklər. Ermənilər necə ki, bizim məscidlərimizi təhqir ediblər, qədim Alban məbədini də təhqir etmişlər. Amma biz bərpa edəcəyik. Bütün bu yazılar saxta yazılardır, sonradan yazılmış yazılardır. Onlar bizim qədim torpaqlarımızda özləri üçün saxta tarix yaradıblar. Amma buna nail ola bilməyiblər, biz onları ifşa etmişik. Bu kilsənin – alban məbədinin bu vəziyyətdə olması bir daha erməni saxtakarlığını göstərir. Erməni kilsəsi olsaydı, bunu təmir etdirərdilər. Sonra da bəziləri bizə irad tuturlar ki, biz xristian abidələrinə yaxşı baxmırıq. Bunu ermənilər bu günə salıblar.



İndi gəlsinlər, baxsınlar Azərbaycanın müxtəlif yerlərində xristian abidələri necə qorunur. Bu qədim Alban kilsəsini görərlər bir müddətdən sonra biz necə təmir etdirəcəyik. Azərbaycan ərazisində bütün dinlərin məbədləri dövlət tərəfindən qorunur, dövlət tərəfindən tikilir və bütün dünya bunu bilir. Ermənilərin vəhşiliyini dünya bilməlidir, görməlidir bizim məscidlərimiz nə gündədir. Azad edilmiş torpaqlarda 67 məscid var idi, cəmi ikisi qalıb, yarıdağılmış. Özü də onlardan müxtəlif məqsədlər üçün istifadə ediblər. Alban kilsəsini də bu günə qoyublar. Bəlkə burada da heyvan saxlayıblar, burada da dəmir-dümür saxlayıblar, orada o dəmir-dümürlərin bir hissəsi qalıb. Ona görə hər kəs bunu görməlidir, bilməlidir. Əgər kimsə bundan sonra bizə qarşı hansısa əsassız ittiham irəli sürmək istəsə, o, cavabını alacaq, necə ki, bu günə qədər alıb.

Baxın, buraya baxın, erməni kilsəsi olsaydı, bunları yazardılar? Yazardılar bunları? "Kamo", "Artur", nə bilim, "Marta". Öz kilsələrini belə təhqir edərdilər? Bax, bu daşların hamısı saxtadır. Bu, erməni saxtakarlığıdır. İçəridə də, gəlin buraya, əgər bu, erməni kilsəsi olsaydı, bunu yazardı – "İqor", "Aşa"? Uçurublar, dağıdıblar, qapını da yandırıblar.

***

Sonra Prezident İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyeva Tuğ kəndində oldular.

**Prezident İlham Əliyev:** Tuğ kəndinə gəlmişik. Tuğ kəndi qədim Azərbaycan kəndidir.

**Birinci xanım Mehriban Əliyeva:** Budur məktəbin binası?

**Prezident İlham Əliyev:** Ermənilərin dağıtdıqları Tuğ kəndinin məktəbi. Görün, nə günə qoyublar. Sonra da deyirdilər ki, Tuğ kəndi erməni kəndidir. Erməni kəndi olsaydı, bunu dağıdardılar? Bura qədim Azərbaycan torpağıdır. Tuğ kəndi həmişə Azərbaycan kəndi olub, bundan sonra da olacaq.

Tuğ kəndində azərbaycanlıların ermənilər tərəfindən dağıdılmış evləri. Buradan bütün dağıntılar yaxşı görsənir.

Təbii ki, Tuğ kəndinin sakinləri öz evlərini tanıyırlar. Əminəm ki, yaxın gələcəkdə Tuğun sakinləri öz doğma kəndlərinə qayıdacaqlar.







Azıx mağarasına gedirik, hələ yolumuz uzaqdır.

Azıx mağarasının girişindəyik. Təxminən 800 pillə qalxmışıq. Yaxşı idman etmişik, fiziki formamızı göstərmişik. İndi girəcəyik Azıx mağarasının içinə. Bu mağaranı azərbaycanlı alim, arxeoloq Məmmədəli Hüseynov 1960-cı ildə aşkar etmişdir və ondan sonra burada tədqiqatlar aparılmışdır. Bu, dünyanın ən qədim insanının yaşayış yerlərindən biridir, Azərbaycan tarixinə məxsusdur, bizim tarixi sərvətimizdir. Ermənistan bu mağarada qanunsuz olaraq işlər aparmışdır, xaricdən qanunsuz olaraq alimlər gətizdirmişdir. Onlar bu mağaraya, bizim tarixi irsimizə böyük ziyan vurmuşlar. Onlar bu ziyanın hamısını ödəyəcəklər. Onları məcbur edəcəyik.

Azıx mağarasını azərbaycanlı alim aşkarlayıb. Azıx mağarası Azərbaycan ərazisində yerləşir. Bundan sonra azərbaycanlı alimlər və onların dəvəti ilə gələcək xarici alimlər burada qanuni yollarla tədqiqatlar aparacaqlar.

Buradan isə gözəl mənzərə açılır. Azıx kəndi, bax, oradadır. Bax, buradan daha yaxşı çəkmək olar. Biz bu zirvəni qət etmişik. Bütün zirvələri qət edəcəyik. Elə zirvə yoxdur ki, onu biz qət edə bilməyək. Gəlin, bir yerdə deyək: "Azıx Azərbaycandır!", "Qarabağ Azərbaycandır!".

Görün, Azərbaycan necə də gözəldir. Qarabağ necə də gözəldir. Dağıdılmış bütün kəndləri, şəhərləri bərpa edəcəyik.

Dövlətimizin başçısı və xanımı Tuğda Alban məbədində oldular.

**Prezident İlham Əliyev:** Bunlar növbəti erməni saxtakarlığıdır. Sonradan gətirilmiş daşlardır. Bu məbədə heç bir aidiyyəti yoxdur.

Bura qədim Alban məbədidir. Bu məbəd də udi qardaşlarımıza qaytarılacaqdır. Ermənilər bunu da erməniləşdirmək istəyiblər, amma alınmayıb və alınmayacaq. Bundan sonra Azərbaycan dövləti bu Alban məbədini qoruyacaq.

***

Daha sonra Prezident İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyeva Azıx kəndinə yola düşdülər.

**Dövlətimizin başçısı:** Tuğ kəndindən çıxdıq, indi gedirik Azıx kəndinə. Azıx da qədim Azərbaycan kəndidir, qədim yaşayış yeridir. Buraların təbiəti də çox gözəldir.

Azıx kəndinə yaxınlaşırıq. Qarabağın gözəl mənzərəsi. Bura Azıx kəndinin ərazisidir.

# İlham Əliyev Şuşa şəhərində olub

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyeva martın 16-da Şuşa şəhərində olublar.



**Prezident İlham Əliyev** dedi:

– Dünən Azıxdan çıxdıq Şuşaya gəldik. Yollar hələ ki, çox bərbad vəziyyətdədir, çünki yol yoxdur, Zəfər yolu ilə gəlmişdik. Hələlik ancaq torpaq yoludur, çünki havalar soyuq keçir, asfalt döşəmək mümkün deyil. Palçıq idi və güclü duman var idi. Ona görə Azıxdan Şuşaya 1 saat 45 dəqiqəyə gəldik. Gecə Şuşada qaldıq. Səhər saat 9-da çıxmışıq və gedirik, bir neçə tədbir var. Hava açıqdır, ancaq yenə də buludlar şəhərin üstündədir.




Keçən dəfə yanvar ayında gəlmişdik. Natəvanın, Üzeyir Hacıbəylinin və Bülbülün büstlərini Şuşaya qaytardıq. Bu gün bir daha Şuşaya gəlmək insana böyük zövq verir. Sol tərəfdə Şuşanın qarlı, dumanlı dağlarıdır.

Vaqifin məqbərəsində tezliklə bərpa işləri başlanacaq. Məqbərənin əvvəlki görkəmi bərpa ediləcək. Bu gün bərpa işlərinə start veriləcək.

Məscidlərin bərpası ilə bağlı artıq müvafiq göstərişlər verildi. İlkin araşdırmalar başlanıldı və yaxın gələcəkdə layihə təqdim ediləcək.

Şuşa bütün mövsümlərdə gözəldir.

Bulaqları da bərpa edəcəyik. Otuz il ərzində ermənilər bütün bulaqlarımızı qurudublar. Görün, şəhər nə gündədir, düşmən Şuşanı nə günə salıb.

Vaqifin məqbərəsinə yaxınlaşırıq. Artıq işlərə start verilib. Layihəyə baxmışam. Bax, burada, fotoşəkillər də var. Ulu öndər Heydər Əliyev burada olarkən həm açılışda, həm də Vaqif poeziya günündə iştirak edib. Tarixi bərpa edirik. Bu layihəni Heydər Əliyev Fondu öz vəsaiti hesabına icra edəcək, Heydər Əliyev Fonduna xas olan zövqlə, Mehriban xanımın rəhbərliyi ilə.

Prezident İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyeva Şuşada Molla Pənah Vaqifin muzey-məqbərə kompleksinə gəldilər.

Prezidentin köməkçisi Anar Ələkbərov dövlətimizin başçısına və birinci xanıma bu kompleksin bərpası layihəsi ilə bağlı məlumat verdi. Bu layihə Heydər Əliyev Fondu tərəfindən həyata keçiriləcək. Layihənin icrası zamanı məqbərənin əvvəlki vəziyyətinin bərpasına xüsusi diqqət yetiriləcək. 1992-ci ildə ermənilər Şuşanı işğal edərkən bu abidəni də vəhşicəsinə dağıdıblar.





Prezident İlham Əliyev: Mən bu şəkilləri arxivdən tapmışdım. Vaqif poeziya günləri keçirilir, 1982-ci ilin yay ayında. Məqbərənin önündə ulu öndər Heydər Əliyev. İnsanlar da bax, burada, bu tədbirdə iştirak edirdilər. Keçən dəfə burada olarkən bu yerə fikir verdim və dedim ki, arxivdən şəkillər tapılsın, burada nə olub və bu şəkil tapıldı. Görürsünüz, Vaqifin təsviri bax, bu divarda olmuşdur. Mənfur düşmən bunu da sökdü, bu mərməri də sökdü. Bu da qəbirin üstündə sinə daşı idi. Vandal erməni bunu da söküb. Bunu bərpa edəcəyik. Ulu Öndərin o vaxt Şuşaya səfəri ilə əlaqədar daha bir neçə şəkil tapmışam arxivdən, mən də buradayam. Bu da Cıdır düzündə. Bunu bir dəfə göstərmişdim, Natəvan bulağının önündə. Bir şəkil də var, onu da göstərməliyəm. Burada Vaqifin büstü də var idi. Keçən dəfə Şuşada olarkən mən göstərdim ki, ermənilər büstü söküb dükan tikiblər. Bax, budur. Vaqifin büstü, Ulu Öndər də baxır. Bu büstü də bərpa edəcəyik.

Sonra dövlətimizin başçısı, birinci xanım və Leyla Əliyeva Pənahəli xanın sarayının qalıqlarına baxdılar. Bu tikili Şuşa şəhərinin tarixi mərkəzində yerləşir və Qarabağ xanlığının banisi Pənahəli xanın iqamətgahı olmuş tarixi saray idi. Erməni vandalları işğal zamanı bu tarixi binanı da dağıdıblar.

**Prezident İlham Əliyev:** Bura Pənahəli xanın sarayı olub. Şuşanı quran, Şuşanı salan Pənahəli xan özü üçün burada saray tikdirib. İndi görün, ermənilər nə günə salıblar bu sarayı. Tarixi abidə idi. Mənfur düşmən gəlib bizim torpağımızı zəbt edib, insanları qovub, tarixi abidələrimizi dağıdıb, söküb, vandallıq edib, barbarlıq edib.

Bütün beynəlxalq təşkilatlar gəlsinlər, görsünlər bunu. Erməniləri müdafiə edən, onları dəstəkləyən, onlara həmişə arxa, dayaq olan dairələr gəlsinlər, görsünlər bu vəhşilər nə ediblər.

Azad edilmiş torpaqlar erməni vəhşiliyinin şahididir. Dünya tarixində buna oxşar vəhşilik bəlkə də olmamışdır. Gələsən, başqasının torpağında yaşayasan, sonra fürsətdən istifadə edib buradan yerli əhalini qovasan, öldürəsən, yandırasan, soyqırımı törədəsən. Sonra da o xalq ki, sənə qucaq açıb, səni qəbul edib, sənə burada yaşamağa imkan verib, onun tarixi abidəsini bax, bu günə qoyasan. Vəhşilik. Mən deyəndə ki, sanki vəhşi qəbilə keçib buradan, bax, bu mənzərəni nəzərdə tuturam.

Sonra Prezident İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyeva Molla Pənah Vaqifin büstünün qoyulacağı əraziyə gəldilər.

Molla Pənah Vaqifin büstünün bərpası layihəsi də Heydər Əliyev Fondu tərəfindən icra olunacaq.

**Prezident İlham Əliyev:** Bu, postamentin bünövrəsidir. Ermənilər dağıdıblar, biz bərpa edəcəyik.

Erməni vandalları işğal zamanı Şuşa şəhərinin mərkəzi meydanında yerləşən, XIX əsrə aid Karvansaray tarix-memarlıq kompleksini də dağıdıblar.

Prezident İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyeva Karvansaray tarix-memarlıq kompleksinə baxdılar.

Dövlətimizin başçısına burada görüləcək işlərlə bağlı məlumat verildi.

Şəhərdə erməni vəhşiliyi ilə üz-üzə qalan tikililərdən biri də Şuşa Dövlət Rəsm Qalereyasının binasıdır.

Qalereya 1982-ci ildə yaradılıb və işğal dövrünədək - 1992-ci ilədək fəaliyyət göstərib.

**Prezident İlham Əliyev:** Bura Şuşa şəhərinin rəsm qalereyası olub. Azərbaycan hökuməti burada qalereya təşkil etmişdi. İşğal zamanı düşmənlər buradan öz məqsədləri üçün istifadə etmişlər. İndi tamamilə yenidən bərpa ediləcək və yenə də rəsm qalereyası kimi fəaliyyət göstərəcək.

Sonra Prezident İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyeva "Qarabağ" mehmanxanasında aparılacaq təmir-bərpa işləri ilə tanış oldular. Mehmanxana ötən əsrin 80-ci illərinin əvvəllərində inşa edilib. Bina baxımsızlıqdan tamamilə yararsız vəziyyətə düşüb. Burada görüləcək işlər nəticəsində mehmanxana müasir səviyyəyə çatdırılacaq və Şuşa şəhərinə səfər edəcək qonaqların rahatlığı üçün bütün şərait yaradılacaq.

Dövlətimizin başçısına və birinci xanıma Şuşa şəhərində tarixi-dini abidələrin bərpası ilə bağlı görülən işlər haqqında məlumat verildi.

**Prezident İlham Əliyev:** Otelin otaqları belə olacaq. İşğal dövründə oteli də demək olar ki, dağıdıblar, burada cəmi bir mərtəbə işləyib. Pis vəziyyətdə idi, qısa müddət ərzində şourum kimi hazırlanıb. Otelin bütün otaqları bu stildə olacaq.

"Qarabağ" otelində gedən yenidənqurma işləri ilə tanış olduq. İşğal dövründə otel faktiki olaraq fəaliyyət gös-













tərmirdi, cəmi bir, ya iki mərtəbə fəaliyyət göstərirdi. Bu otel də sovet dövründə Azərbaycanın büdcəsi hesabına tikilmişdir və ona "Qarabağ" adı verilmişdir. Sonra mənfur düşmən otelin adını dəyişdirib "Şuşi palace" qoyub. "Şuşi" adlı bir şəhər yoxdur, olmayıb və heç vaxt olmayacaq.

Prezident İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyeva Şuşa Xalça Muzeyində də oldular. Qarabağ xalçaçılıq sənəti ənənələrinin öyrənilməsi, qorunması və yaşadılması məqsədilə yaradılan bu muzey də işğal zamanı ciddi ziyan görüb.

Dövlətimizin başçısı, birinci xanım və Leyla Əliyeva Şuşada Park otelin yerləşəcəyi binaya da baxdılar. Yenidənqurmadan sonra otel qonaqlarını müasir səviyyədə qarşılaya biləcək.

**Prezident İlham Əliyev:** Burada keçmiş sanatoriya korpusu olub. İşğal dövründə buradan kiçik otel kimi istifadə etmişlər, amma çox primitiv qaydada. Çox biabırçı bir şərait var idi. İndi yenidən bərpa edilir. Bu da şourumdur, otelin otaqları bax, belə olacaq və bu il otel artıq istifadəyə veriləcəkdir.

Prezidentin Şuşa rayonunda xüsusi nümayəndəsi Aydın Kərimov dövlətimizin başçısına icra olunacaq layihələrlə bağlı məruzə etdi.

Dövlətimizin başçısı Şuşada görüləcək işlərlə əlaqədar tapşırıq və göstərişlərini verdi.

**Prezident İlham Əliyev:** Şuşa sanatoriyasına da baxış keçirdik. Orada da korpusların bir çoxu ermənilər tərəfindən dağıdılıb.

Amma bəzi korpuslardan istifadə etmək mümkün olacaq. Burada da kiçik otellərin yaradılması nəzərdə tutulur. Nəzərə almalıyıq ki, Şuşaya çox böyük turist axını olacaq, ona görə burada “beş”, “dörd” və “üç” ulduzlu otellər olmalıdır.

Buradan da şəhərə, şəhərin ətrafında yerləşən dağlara gözəl mənzərə açılır. Amma bir daha görürük, ermənilər burada demək olar ki, bir dənə də bina tikməyiblər. Bəlkə bu binanı tikiblər, bu da eybəcər bir tikilidir. Ancaq sovet vaxtında Azərbaycan tərəfindən tikilmiş binalardan istifadə etmişlər, azərbaycanlıların evlərində yerləşmişlər. Bütün bu evlər sovet vaxtından qalan evlərdir, “xruşşovka”lardır. Bunlar da öz müddətini çoxdan bitiriblər. Bu binaların vəziyyətinə indi diqqət yetirilməlidir.

Şuşada işğal dövründə təxminən 2000 adam yaşayırdı, onların da böyük hissəsi hərbçilər və onların ailə üzvləri idi. Ona görə də bu binaların böyük hissəsi boş qalmışdır. Baxın, burada bir dənə normal vəziyyətdə bina var, yoxsa yox?

Ermənilər Şuşanı erməni şəhəri kimi qələmə vermək istəyirlər. Halbuki, Şuşanın təməlini qoyan Pənahəli xan olub və həmişə burada azərbaycanlılar yaşayıb. Yaxşı, erməni şəhəri idisə, niyə əl gəzdirməmisiniz?. Şuşa kimi mənzərəsi, təbiəti olan şəhəri belə günə salmaq vəhşilikdir. Azərbaycanlıların evlərini dağıdıblar və hesab edirdilər ki, bu işğal əbədi olacaq. Biz işğala son qoyduq.

Mən demişəm ki, Şuşa nəinki Azərbaycanın, dünya-











nın ən gözəl şəhərlərindən birinə çevriləcəkdir və buna nail olacağıq, 100 faiz. Bu da Realnı məktəbin dağılmış binasıdır, görün, ermənilər bu binanı nə günə salıblar. Sol tərəfdə də mənə verilən məlumata görə, internat məktəbi olub. Bunu da dağıdıblar, ancaq fasad hissəsi qalıb.

Biz artıq Şuşadan ayrılırıq, ancaq yenə də ayrılmaq istəmirik. Şuşa insanı özünə o qədər cəlb edir ki, buraya gələnlər qayıtmaq, getmək istəmirlər. Ancaq indi biz Bakıya qayıtmalıyıq. Yolüstü Daşaltı kəndində dayanacağıq. O, kəndə də baxacağıq. Ondan sonra istiqamət Bakı şəhəridir.

**Birinci xanım Mehriban Əliyeva:** Hava günəşli, açıq, mavi səma.

**Prezident İlham Əliyev:** Şuşaya "hələlik" deyirik. Şuşanın girişində Azərbaycan bayrağı dalğalanır və bundan sonra əbədi dalğalanacaqdır. Aşağıda da Laçın dəhlizidir. Hava da yenə bizimlə həmrəydir. Günəş yolumuzu işıqlandırır. Bura isə Şuşa yarımstansiyasının binasıdır. Bu bina qısa müddət ərzində inşa edildi və Şuşanı dayanıqlı enerji ilə təchiz edəcəkdir. Keçən dəfə də yanvar ayında Şuşaya gələndə, Şuşaya yaxınlaşanda hava açıldı, Günəş bizi salamladı.

Buradan da Şuşanın qayaları gözəl görünür. Çünki biz haqq yolundayıq, işimiz də haqq işidir. Təbiət də bizi salamlayır. Çünki bu Azərbaycan təbiətidir.

Bura isə Daşaltı kəndidir. Daşaltı kəndi ilə də tanış olacağıq.

Prezident İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyeva Şuşa rayonunun Daşaltı kəndinə gəldilər.

**Aydın Kərimov:** O, Böyük Kirs dağıdır. Şuşanın su mənbələrindən biri onun ətəyindən gəlir.

**Birinci xanım:** Bu, yeni Daşaltı hesab olunur?

**Aydın Kərimov:** Bəli.

**Birinci xanım:** O da köhnə Daşaltı.

**Prezident İlham Əliyev:** Bizim hərbçilər oradan gəliblər.

Həm sağ tərəfdə, həm də sol tərəfdə Daşaltı kəndinin gözəl mənzərəsidir. Daşaltı kəndi də işğalçılardan azad edilib. Məhz bizim müzəffər Ordumuz Daşaltıdan qalxaraq, sıldırım qayaları qət edərək Şuşaya daxil oldu. İrəlidə də Böyük Kirs dağıdır. Azərbaycanın gözəl təbiəti gözümüzün önündədir. Hansı tərəfə baxsan gözəllik, yaşıllıq. Bura Azərbaycan torpağıdır, Qarabağ torpağıdır. Bundan sonra Azərbaycan xalqı burada əbədi yaşayacaq.

***

Erməni qəsbkarlar tərəfindən 1992-ci ildə işğal olunan Daşaltı kəndi də hərtərəfli terrora məruz qalıb. Prezident İlham Əliyev kəndin bərpası ilə bağlı tapşırıqlarını verdi.

# Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müraciəti



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyeva Şuşada Cıdır düzündə bayram tonqalı alovlandırıblar.

Sonra dövlətimizin başçısı müraciət edib.

- Əziz bacılar və qardaşlar, mən sizin hamınızı Novruz bayramı münasibətilə ürəkdən təbrik edirəm! Bütün Azərbaycan xalqına cansağlığı, xoşbəxtlik arzulayıram!

Biz bu il Novruz bayramını Şuşada, Cıdır düzündə qeyd edirik. Bu, tarixi hadisədir. 2004-cü ildən başlayaraq, hər il mən Azərbaycan xalqını Novruz bayramı münasibətilə təbrik edərkən deyirdim ki, biz öz doğma torpaqlarımıza qayıdacağıq. Deyirdim ki, biz ölkəmizin ərazi bütövlüyünü bərpa edəcəyik. Deyirdim ki, biz Novruz bayramını torpaqlarımız işğaldan azad olunandan sonra Qarabağda qeyd edəcəyik və bu gün gəldi. Bu gün biz Novruz bayramını qədim şəhərimizdə, Azərbaycanın mədəniyyət paytaxtı Şuşada qeyd edirik. Bu, tarixi hadisədir. Bu, böyük xoşbəxtlikdir. Allah Azərbaycan xalqının dualarını eşitdi. Hər il Novruz bayramı ərəfəsində hamımız yəqin ki, fikirləşirdik, bir-birimizə deyirdik, inşallah, gələn il Novruz bayramını Qarabağda qeyd edək, gələn il Novruz bayramını Şuşada qeyd edək və bu gün gəldi. 28 ildən sonra biz Şuşaya qayıtdıq. Novruz bayramını Cıdır düzündə qeyd edirik, tarixi ədaləti bərpa etmişik.

Noyabrın 8-də Şuşanın azad olunması ilə bağlı müjdəni Azərbaycan xalqına verərkən demişdim ki, Şuşa, sən azadsan! Bu gün azad Şuşada biz öz milli bayramımızı – Novruz bayramını qeyd edirik. Şuşa 28 il əsarətdə idi. 28 il mənfur düşmən tərəfindən dağıdılırdı, məhv edilirdi. Şuşanın tarixi siması dağıntılara məruz qalırdı. Düşmən Şuşanı erməniləşdirmək istəyirdi. Şuşada Azərbaycan xalqının irsini silmək istəyirdi. Ancaq buna nail ola bilmədi. Bəli, Şuşa dağıntılara məruz qaldı, Şuşada tarixi abidələrimiz mənfur düşmən tərəfindən dağıdıldı. Ancaq Şuşa əyilmədi, sınmadı, öz ləyaqətini qorudu, Azərbaycanın milli ruhunu qorudu və bu gün Şuşada olarkən bir daha bunun canlı şahidi oluruq. Şuşa Azərbaycan xalqının ruhunu qoruya bildi və bizi gözləyirdi. Biz də gəlməli idik və gəlmişik. Ancaq gəlmək üçün güc toplamalı idik, gəlmək üçün hazırlıq işləri aparılmalı idi. Bütün istiqamətlər üzrə hazırlıq işləri aparılmalı idi və aparılırdı. Biz ölkəmizin inkişafını təmin etməli idik. Xal-



qımızın birliyini təmin etməli idik. Vətəndaş müharibəsindən çıxmış ölkə üçün, xalq üçün bu, o qədər də asan məsələ deyildi. Vətəndaş müharibəsindən sonra bu günə qədər ölkədə gedən proseslər xalqımızı vahid ideya uğrunda, vahid amal uğrunda, torpaqlarımızın azad edilməsi amalı uğrunda birləşdirdi. Biz bu milli birliyi, milli həmrəyliyi təmin edə bildik. Bu, olmasa idi, bu Qələbə də olmayacaqdı.

Biz Qarabağ münaqişəsi ilə bağlı həqiqətləri beynəlxalq müstəvidə dünya ictimaiyyətinə çatdırmalı idik və çatdıra bildik. Beynəlxalq təşkilatlarda fəal işləyirdik və bizə sərf edən, həqiqəti əks etdirən, beynəlxalq hüququ əks etdirən, ona əsaslanan vacib qərar-qətnamələri qəbul etdirə bildik. Bu, Qələbəmizin hüquqi əsası idi, haqq-ədalətin bərpasının hüquqi əsası idi. Biz iqtisadi güc toplamalı idik və topladıq. Son illər ərzində Azərbaycan qədər sürətlə inkişaf edən ölkə bəlkə də dünyada yoxdur. Biz hərbi güc toplamalı idik və bu istiqamət birinci dərəcəli vəzifə idi. Təsadüfi deyil ki, mənim prezidentlik dövrümdə hərbi xərclər hər zaman birinci yerdə idi və bunu mən deyirdim, bəyan edirdim ki, biz hərbi xərclərimizi bundan sonra da artırmalıyıq. Biz müharibəyə hazırlaşmalıyıq, hazırlaşırıq. Açıq deyirdim bütün dünyaya və deyirdim ki, əgər düşmən öz xoşu ilə torpaqlarımızdan çıxmasa, biz düşməni qovacağıq. Belə də oldu.

Biz güclü ordu yaratmışıq. Peşəkar ordu yaratmışıq. Qəhrəman ordu yaratmışıq. Hərbçilərimiz ən yüksək qiymətə layiqdirlər. Biz müharibə dövründə şəhidlər vermişik. Allah bütün şəhidlərimizə rəhmət eləsin. Allah onların yaxınlarına səbir versin. Biz Şuşanı qan tökərək azad etmişik, Şuşa uğrunda ciddi döyüşlər gedirdi. Laçın dəhlizi boyunca işğalçıların qalıqları səpələnmişdi, yüzlərlə, bəlkə də minə qədər işğalçı Şuşa döyüşlərində məhv edildi. Hərbçilərimiz sıldırım qayalardan qalxaraq, dərədən-təpədən, Xocavənd meşələrindən, cığırlardan keçərək yüngül silahlarla Şuşaya gəldilər. Yüngül silahlarla, tapançalarla, süngü-bıçaqla mübarizə apardıq. Amma bizə qarşı burada toplardan, tanklardan istifadə olundu. Amma düşmən bizim gücümüzü gördü, iradəmizi gördü, milli ruhumuzu gördü və məğlub oldu. Şuşanın azad edilməsi Vətən müharibəsində xüsusi yerə malik olan hadisədir. Şuşa bizim hədəfimiz idi və biz bu hədəfə doğru gedirdik. Şuşaya qədər azad edilmiş bütün torpaqlarda Azərbaycan Ordusunun yerləşməsi Şuşanın azad olunmasını da şərtləndirmişdi. Cəbrayıl rayonu, Suqovuşan, Hadrut, Xocavənd rayonunun böyük hissəsi, Zəngilan, Füzuli, Qubadlı rayonları, Laçın rayonunun cənub hissəsi, Kəlbəcər dağları, Murov dağı və ondan sonra Şuşa. Müharibə zamanı 300-dən çox kənd və şəhər azad edildi, düşmən məcbur oldu, diz çökdü, təslim oldu və noyabrın 10-da kapitulyasiya aktına imza atdı.

Müharibənin ilk günlərindən mən demişdim ki, düşmən bizə tarix versin, düşmənin rəhbəri tarix versin, nə vaxt bizim torpağımızdan rədd olur və biz müharibəni dayandırmağa hazırıq. Yenə də sözümdə

durdum, bizə tarix verilən kimi, kapitulyasiya aktı imzalanan kimi müharibə dayandı və biz bir güllə atmadan, bir itki vermədən Ağdam, Kəlbəcər və Laçın rayonlarına da qayıtmışıq. Beləliklə, ərazi bütövlüyümüzü bərpa etdik. Yenə də deyirəm, biz hazırlaşmalı idik, Şuşa bizi gözləyirdi. Amma biz elə gəlməli idik ki, bu məsələni birdəfəlik həll edək.

Son illər ərzində mən həm çıxışlarda, həm müsahibələrdə dəfələrlə demişəm ki, bizə məsələnin yarımçıq həlli lazım deyil. Bu, nə deməkdir, Azərbaycan xalqı yəqin ki, gözəl başa düşür. Mən demişdim ki, hər şeyi vaxtında etmək lazımdır. Nəyi, nə vaxt, necə etmək lazımdır, bilirəm. Mənim üçün torpaqların azad edilməsindən daha ümdə vəzifə heç vaxt olmamışdır. Bütün prezidentlik dövrümü mən buna həsr etmişəm. Hər bir qərarın arxasında bu məqsəd, bu hədəf dayanmışdı - bu addım bizi qələbəyə yaxınlaşdıracaqmı, yoxsa yox. Deyirdim ki, hər birimiz hər gün qələbəni yaxınlaşdırmalıyıq. Mənim çıxışlarım var, onlar tarixdə qalır. Hər gün hər birimiz qələbəni yaxınlaşdırmalıyıq. Yaxınlaşdırdıq, hazırlaşdıq, gəldik düşməni məğlub etdik, məhv etdik. Gəlmişik və burada dayanmışıq. Müzəffər Ordunun Ali Baş Komandanı kimi dayanmışam qədim Azərbaycan torpağında və heç kim bundan sonra bizi buradan çıxara bilməz.

Şuşa bizim qədim şəhərimizdir. Erməni təbliğatı, saxta alimlər, fırıldaqçı siyasətçilər, beynəlxalq dairələr nə qədər desələr də xeyri yoxdur, tarix var. Pənahəli xan Şuşanın təməlini qoydu, Şuşanı tikdi, qurdu. Biz isə Şuşanı əsarətdən çıxardıq və xalqımıza qaytardıq, dövlətimizə qaytardıq. Şuşa qədim Azərbaycan şəhəridir, həmişə belə olub. Son 28 il ərzində mənfur düşmən nə qədər çalışsa da, Şuşanın Azərbaycan ruhunu, Azərbaycan görkəmini dəyişdirə bilməyib. Bəli, evlər sökülüb, tarixi abidələr sökülüb, məscidlər sökülüb, bir neçə eybəcər bina tikilib. Faktiki olaraq burada heç bir tikinti aparılmamışdır. Ancaq sovet vaxtından qalan o "xruşşovkalarda" məskunlaşmış 2 minə yaxın erməni yaşayırdı, onların da böyük hissəsi hərbçilər idi, onların ailələri idi. Əgər bu, erməni şəhəri idisə, niyə ermənilər gəlib burada yaşamadılar? Çünki ermənilərin tarixi yoxdur burada. Əgər erməni şəhəridirsə, niyə belə bərbad günə qoyublar? Niyə talayıblar Şuşanı, niyə 28 il ərzində bərpa etməyiblər? Bəs, hanı bunların xeyriyyəçiləri? Deyirdilər ki, xeyriyyəçilər bunu etdilər, onu etdilər, ora pul verdilər, bura pul verdilər. Hər il marafonlar keçirirdilər, on milyonlarla dollar pul yığırdılar. İndi bilinir ki, o pullar keçmiş rəhbərliyin cibinə gedirdi. Mən azad edilmiş torpaqlara dəfələrlə gəlmişəm. Burada olan səfalət bəlkə də dünyanın heç bir yerində yoxdur. Bəs, nə ediblər onlar? Hamısı yalan idi, saxta idi, tarixi necə saxtalaşdırıblar, reallığı da elə saxtalaşdırıblar. Onların şəbəkələri dünyanın müxtəlif paytaxtlarında fəaliyyət göstərir, saxta məlumat ötürür və bu saxta məlumat ətrafında sonra müzakirələr gedir və olmayan şeyləri reallıq kimi qələmə verirdilər.

Biz Şuşanı bərpa edəcəyik, mütləq bərpa edəcəyik. Artıq bərpa işlərinə start verildi. Bu gün Şuşada olarkən artıq verdiyim tapşırıqların yerinə yetirilməsi ilə tanış oluram. Biz nəinki Şuşanı, azad edilmiş bütün torpaqları bərpa edəcəyik. Quruculuq işləri başlamışdır, infrastruktur layihələrinə start verilmişdir. Ziyanın hesablanması aparılır, şəhərlərin baş planları hazırlanır. Birinci növbədə, Ağdam şəhərinin və Ağdam rayonunun bütövlükdə baş planı hazırlanır, onun ilkin versiyası mənə təqdim edildi. Mənim tapşırıqlarımı nəzərə almaq şərtilə indi bunun üzərində iş gedir və yaxın gələcəkdə baş plan təsdiq olunacaq. Ondan sonra bərpa işləri azad edilmiş bütün torpaqlarda başlanacaq. Ermənilər 30 il bizim torpaqlarımızı dağıdıblar. Biz isə bu torpaqları bərpa edəcəyik, çünki bu torpaqların sahibləri bizik - Azərbaycan xalqıdır.

Şuşada olarkən insan Azərbaycan xalqının böyüklüyünü bir daha dərk edir. Biz Birinci Qarabağ müharibəsindəki məğlubiyyətlə barışmadıq. Biz hətta o satqınlığı, o xəyanəti edən AXC-Müsavat cütlüyünün mənfur liderlərinə layiq olduqları cəzanı verməmişdik. Halbuki onlar istənilən cəzaya layiqdirlər. Biz bu vəziyyətlə barışmadıq və mən dəfələrlə deyirdim ki, heç vaxt Azərbaycan xalqı bu vəziyyətlə barışmayacaq. Siyasi, iqtisadi, hərbi, mənəvi istiqamətlərdə, gənc nəslin tərbiyə edilməsi istiqamətində məqsədyönlü siyasət aparılırdı və elə gənc nəsil yetişdi ki, canını fəda etdi torpaq uğrunda. Elə gənc nəsil yetişdi ki, öz qanı-canı bahasına torpağımızı düşmənin əlindən aldı. Müharibədə bütün nəsillərin nümayəndələri iştirak ediblər, qəhrəmanlıq göstəriblər. Amma hər kəs bilməlidir ki, əsas missiyanı mənim prezidentlik dövrümdə yetişən gənclər yerinə yetiriblər, 2003-cü ildə uşaq olan gənclər yerinə yetiriblər. İlk növbədə, biz onlara borcluyuq, bütün Azərbaycan xalqına borcluyuq. Bütün xalqımız bu Qələbəni yaxınlaşdırırdı və bütün amillər birləşərək bu müharibənin nəticələrini şərtləndirdi.

Bizim müharibəmiz - İkinci Qarabağ müharibəsi bu gün dünyanın aparıcı ölkələrinin hərbi məktəblərində öyrənilir. Biz XXI əsrin müharibəsini aparmışıq, düşməni məhv etmişik. Erməni ordusu yoxdur, biz onu məhv etmişik. Bu gün Novruz bayramını Cıdır düzündə qeyd edərkən qürur hissi ilə deyirəm: "Şuşa sən azadsan!", "Şuşa Azərbaycandır!", "Qarabağ Azərbaycandır!"

## Baş Prokurorluğun yeni inzibati bina kompleksinin istifadəyə verilməsi həmkarlarımız tərəfindən xidməti fəaliyyətlərinin daha çevik və səmərəli həyata keçirilməsinə, habelə vətəndaş məmnunluğunun daha dolğun təmin olunmasına xidmət edəcəkdir




Müasir Azərbaycan Prokurorluğu daim dövlətçiliyimizin memarı, xalqımızın Ümummilli Lideri Heydər Əliyevin və onun layiqli davamçısı, ölkə başçısı cənab İlham Əliyevin hərtərəfli qayğısı və diqqəti ilə əhatə olunmuşdur.

Prokurorluğa olan dövlət qayğısının ən əlamətdar tədbirləri sırasında Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 27 sentyabr 2008-ci il tarixli sərəncami ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Prokurorluğunun fəaliyyətinin müasirləşdirilməsinə dair 2009-2011-ci illər üçün Dövlət Proqramı"nın qəbul edilməsi xüsusi qeyd edilməlidir. Həmin sərəncamın icrası milli prokurorluq orqanlarının müasirləşməsi, onun maddi-texniki bazasının daha da möhkəmləndirilməsi baxımından müstəsna əhəmiyyət kəsb etmişdir.

Bu tədbirlərin davamı olaraq, 30 sentyabr 2013-cü il tarixdə ölkə başçısı cənab İlham Əliyevin iştirakı ilə müasir tələblərə cavab verən Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin inzibati binası istifadəyə verilmişdir.

Bundan əlavə, Bakı şəhərinin Səbail, Yasamal, Sabunçu rayon, Gəncə və Sumqayıt şəhər, Cəlilabad, İsmayıllı, Göygöl, Qusar, Biləsuvar, Gədəbəy, Zərdab, Samux və digər rayon və ərazi hərbi prokurorluqları üçün yeni inzibati binalar tikilmiş, çoxsaylı rayon prokurorluqlarının binaları əsaslı şəkildə təmir olunmuşdur.

Prokurorluq orqanlarında davam etdirilən yeni dövrün çağırışlarından irəli gələn tam və hərtərəfli islahatlar bütün fəaliyyət istiqamətlərini əhatə etməklə yanaşı, prokurorluq orqanlarının maddi-texniki bazasının əhəmiyyətli dərəcədə möhkəmləndirilməsi, əməkdaşlarımızın sosial müdafiəsinin gücləndirilməsi, əmək və mənzil şəraitlərinin daha da yaxşılaşdırılması ilə nəticələnmişdir.

Həyata keçirilən tədbirlərin davamı kimi, cari ilin martın 16-da prokurorluq əməkdaşları və veteranlarının sosial müdafiəsinin gücləndirilməsi məqsədilə paytaxtın Xətai rayonu, İ.Zülfüqarov və Sadıqcan küçələrinin kəsişməsi, 2942 A məhəllə ünvanında inşa edilmiş 17 mərtəbəli, 3 bloklu 160 mənzilli yaşayış kompleksi istifadəyə verilmişdir.

Prokurorluq orqanlarının fəaliyyətinin müasir tələblər səviyyəsində təkmilləşdirilməsi və infrastrukturunun yaxşılaşdırılması istiqamətində həyata keçirilən tədbirlərə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən ən mühüm və əlamətdar töhfə kimi əlbəttə ki, cari ilin fevralın 8-də Baş Prokurorluğun yeni inzibati bina kompleksinin istifadəyə verilməsi xüsusi qeyd edilməlidir.

Yeni inzibati bina kompleksində yaradılmış ən yüksək tələblərə cavab verən əmək şəraiti həmkarlarımız tərəfindən xidməti fəaliyyətlərinin daha çevik və səmərəli həyata keçirilməsinə, habelə vətəndaş məmnunluğunun daha dolğun təmin olunmasına xidmət edəcəkdir.

# İlham Əliyev Baş Prokurorluğun yeni inzibati bina kompleksinin açılışında iştirak edib





Fevralın 8-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Azərbaycan Respublikası Baş Prokurorluğunun paytaxtın Binəqədi rayonu ərazisində yeni inzibati bina kompleksinin açılışında iştirak edib.

Baş prokuror Kamran Əliyev Prezident İlham Əliyevə raport verdi.

Qeyd edək ki, prokurorluq orqanlarının cəmiyyətdə formalaşan yeni çağırışlara adekvat uyğunlaşması və fəaliyyətində şəffaflığın təmin edilməsi məqsədilə





dövlətimizin başçısının 2020-ci il 10 iyun tarixli Sərəncamına əsasən Baş Prokurorluğun yeni strukturu təsdiq edilib, yeni idarə və şöbələr, o cümlədən islahatların tərkib hissəsi kimi, kriminalistika və informasiya texnologiyaları idarəsi yaradılıb.

Yeni inzibati bina ilə tanışlıq zamanı Prezident İlham Əliyevə məlumat verən Baş prokuror Kamran Əliyev bildirdi ki, dörd korpusdan ibarət kompleksdə Baş Prokurorluğun altı idarəsi və Elm-Tədris Mərkəzi fəaliyyət göstərəcək. Kompleksdəki bütün otaqlar müasir informasiya-kommunikasiya qurğuları ilə təchiz olunub. Yeni inzibati binada yaradılmış müasir şərait prokurorluq orqanları əməkdaşlarının daha səmərəli və məhsuldar fəaliyyətini təmin edəcək. Eyni zamanda, vətəndaş məmnunluğunun təmin olunması işi də yeni kompleksdə müvafiq standartlara və müasir formaya uyğunlaşdırılıb.

Diqqətə çatdırıldı ki, cinayət prosesi iştirakçılarının dindirilməsi üçün müasir tələblərə cavab verən 13 dindirmə otağında zəruri texniki vasitələr qoyulub.





Eyni zamanda, cinayət prosessual qanunvericiliyin tələblərinə müvafiq olaraq, tanıyan şəxsin təhlükəsizliyinin təmin edilməsi məqsədilə tanınmanı vizual müşahidəni istisna edən şəraitdə aparmağa imkan verən istintaq otağı yaradılıb. Kriminalistika otağı da ən müasir cihaz və avadanlıqla təmin olunub. İnzibati binada üç iclas zalı və 320 nəfərlik konfrans zalı müxtəlif beynəlxalq tədbirlərin, treninq, seminar, mətbuat konfransları və təqdimatların keçirilməsinə imkan verəcək.

Prezident İlham Əliyev kompleksin inzibati binasında yaradılan və 44 günlük Vətən müharibəsinə həsr edilmiş tarixi-memorial qalereya ilə tanış oldu. Qalereyada Vətən müharibəsi dövründə Ermənistan





ordusunun Gəncə, Tərtər, Bərdə şəhərlərində mülki əhaliyə və obyektlərə qarşı törətdiyi terror aktları ilə bağlı maddi sübutlar toplanıb.

Dövlətimizin başçısına səyyar kriminalistik laboratoriyaların quraşdırıldığı avtomobillər barədə də məlumat verildi. Bildirildi ki, avtomobillərdə quraşdırılmış batareyaların köməyi ilə mühərriklər işə salınmadan 1,5-2 saat ərzində avtonom rejimdə hadisə yerini, eləcə də istintaq hərəkəti aparılan ərazini işıqlandırmaq mümkündür. Müasir texnika və avadanlıqla təchiz edilən bu cür avtomobillər MDB məkanında yalnız Azərbaycandadır.





Kompleksin ərazisində abadlıq işləri görülüb, yaşıllıq zolaqları salınıb, müasir işıqlandırma sistemi quraşdırılıb.

Qeyd edək ki, Prezident İlham Əliyevin fəal hüquq siyasətinin əsas məqsədi qanunun aliliyinin təmin olunmasıdır. Prokurorluq orqanlarının fəaliyyətinin ən müasir tələblər səviyyəsində təkmilləşdirilməsi, infrastrukturunun yaxşılaşdırılması bu istiqamətdə həyata keçirilən islahatların ardıcıllığını nümayiş etdirir.

# Azərbaycan və Rusiya prokurorluqları arasında əməkdaşlıq uğurla davam etdirilir




Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin tapşırıq və tövsiyələrinə uyğun olaraq Baş Prokurorluq bir sıra ölkələrin prokurorluq və digər cinayət təqibi orqanları, eləcə də beynəlxalq təşkilatlarla işgüzar əlaqələr və dostluq münasibətlərinin qurulması sahəsində səmərəli fəaliyyətini davam etdirir.

Rusiya Federasiyasının Baş prokuroru İqor Krasnovun dəvəti ilə Azərbaycan Respublikasının Baş prokuroru Kamran Əliyevin rəhbərliyi ilə Baş Prokurorluğun nümayəndə heyəti 12 yanvar tarixində Rusiya Prokurorluğunun yaranmasının 299 illiyinə həsr olunmuş tədbirlərdə iştirak məqsədilə Moskva şəhərinə səfər etmişdir.

Səfər çərçivəsində Rusiyanın Baş prokuroru İqor Krasnovla keçirilmiş görüşdə ölkələrimiz arasında dostluq və əməkdaşlıq münasibətlərinin inkişafı, dövlət başçılarının birgə səyi və siyasi iradəsi sayəsində bu əlaqələrin strateji tərəfdaşlıq səviyyəsinə yüksəldiyi xüsusilə qeyd olunmuşdur.

Görüş zamanı Baş prokuror Kamran Əliyev bildirmişdir ki, ölkə rəhbərliyinin siyasi kursuna uyğun olaraq prokurorluq orqanlarında genişmiqyaslı islahatlar aparılmış, işin çevikliyinin və səmərəliliyinin artırılması, müasir dövrün tələblərinə cavab verən peşəkarların formalaşdırılması məqsədilə Baş Prokurorluğun strukturu mahiyyətcə tamamilə yenidən qurulmuş, yeni idarələr yaradılmaqla ümumilikdə idarə və şöbələrin sayı 18-ə çatdırılmışdır.

Baş prokuror otuz ilə yaxın dövr ərzində Ermənistan tərəfindən işğal altında saxlanılan Azərbaycanın beynəlxalq səviyyədə tanınmış ərazilərinin Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi altında müzəffər ordumuz tərəfindən azad edildiyini, ölkəmizin beynəlxalq hüququn norma və prinsipləri çərçivəsində, o cümlədən BMT-nin Təhlükəsizlik Şurasının qətnamələrinə uyğun olaraq ərazi bütövlüyünü bərpa etdiyini bildirmişdir.

Görüş zamanı Azərbaycan və Rusiya prokurorluqları arasında imzalanmış Əməkdaşlıq haqqında 24 iyun 2019-cu il tarixli Sazişin icrası ilə əlaqədar 2021-2023-cü illəri əhatə edən Əməkdaşlıq Proqramı imzalanmışdır.

Tərəflər ölkələrimizin prokurorluqları arasında olan sıx əməkdaşlıq və dostluq münasibətlərinin bütün istiqamətlərdə bundan sonra da uğurla inkişaf edəcəyinə, habelə Əməkdaşlıq proqramının əlaqələrin gələcək inkişaf istiqamətlərini müəyyənləşdirən mühüm sənəd olacağına və yeni perspektivlər üçün əlverişli zəmin yaradacağına əminlik ifadə etmişlər.

Bundan başqa, görüşdə mütəşəkkil cinayətkarlığın müxtəlif təzahürlərinə, o cümlədən terrorçuluq, korrupsiya cinayətləri, insan alveri və narkotik vasitələrin qanunsuz dövriyyəsi ilə mübarizə sahəsində əməkdaşlıq haqqında danışılıb, iki ölkə vətəndaşlarının hüquq və azadlıqlarının qorunması, cinayət işləri üzrə hüquqi yardım, ekstradisiya, təlim səfərləri, həm ikitərəfli, həm də beynəlxalq təşkilatlar çərçivəsində qarşılıqlı fəaliyyət və tərəfləri maraqlandıran digər məsələlər ətrafında fikir mübadiləsi aparılmışdır.

Görüşdə ölkəmizin Rusiya Federasiyasındakı fövqəladə və səlahiyyətli səfiri Polad Bülbüloğlu iştirak etmişdir.

Həmçinin, səfər çərçivəsində Rusiya tərəfinin təşəbbüsü ilə Azərbaycan, Rusiya və Ermənistan Baş prokurorlarının üçtərəfli görüşü keçirilmişdir.

Görüşdə dövlət başçılarının 10 noyabr 2020 və 11 yanvar 2021-ci il tarixli üçtərəfli bəyanatlarının müvafiq bəndlərinin icrası, həmçinin hüquqi əməkdaşlıq mexanizmləri müzakirə edilmişdir.





# Azərbaycan Respublikası Baş Prokurorluğunun rəhbərliyi və kollektivi 20 Yanvar faciəsinin 31-ci ildönümü ilə əlaqədar Şəhidlər xiyabanını ziyarət ediblər







# Azərbaycan Respublikasının Baş Prokurorluğunda 2020-ci ildə fəaliyyət istiqamətləri üzrə görülmüş işlərin vəziyyətinə həsr olunmuş Geniş Kollegiya iclası keçirilmişdir



Yanvarın 23-də Azərbaycan Respublikasının Baş Prokurorluğunda Mərkəzi aparatın, Respublika Hərbi, Naxçıvan Muxtar Respublikası, Naxçıvan Muxtar Respublikası Hərbi və Bakı şəhər prokurorluqlarının rəhbər heyətinin, rayon (şəhər) və ərazi hərbi prokurorlarının iştirakı ilə videokonfrans rejimində prokurorluq orqanları tərəfindən 2020-ci ildə görülmüş işlərin vəziyyəti və qarşıda duran vəzifələrin müzakirəsinə həsr olunmuş geniş kollegiya iclası keçirilmişdir.

Baş Prokurorluğun Kollegiya üzvləri əvvəlcə binanın birinci mərtəbəsində Ümummilli lider, müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu, ölkəmizdə məhkəmə-hüquq islahatlarının banisi Heydər Əliyevin büstü önünə əklil və gül dəstələri qoymuşlar.

İclas başlamamışdan öncə torpaqlarımızın ərazi bütövlüyü uğrunda canından keçmiş şəhidlərimizin ruhu bir dəqiqəlik sükutla yad edilmiş, qazilərimizə şəfa dilənmişdir.

Kollegiya iclasında giriş nitqi ilə çıxış edən Baş prokuror Kamran Əliyev diqqətə çatdırmışdır ki, xilaskarlıqdan qalibiyyətə yüksələn zəfər salnaməsinin memarı, Ümummilli Lider Heydər Əliyevin əsasını qoyduğu praqmatik siyasi kursun möhtərəm Prezidentimiz, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilməsi nəticəsində uzun illərdən sonra ölkəmiz ərazi bütövlüyünü bərpa edərək inkişafının keyfiyyətcə yeni mərhələsinə qədəm qoymuş, 44 günlük haqq savaşında qazanılan möhtəşəm qələbə Prezident İlham Əliyevin yenilməz qətiyyətini, ordumuzun qüdrətini və xalqımızın milli birliyini bir daha bütün dünyaya nümayiş etdirmişdir.

Qeyd edilmişdir ki, dövlət başçısının aparıcı ölkələrin televiziya kanallarına verdiyi müsahibələri Dağlıq Qarabağ münaqişəsinin dünya ictimaiyyətinə çatdırılması, Ermənistanın təcavüzkarlıq siyasətinin, hərbi təxribatlarının ifşası və beynəlxalq müstəvidə məsələyə münasibətin araşdırılması, tarixi, hüquqi-siyasi aspektlərinin təhlili baxımından xüsusi əhəmiyyət kəsb etməklə informasiya cəbhəsində də qələbəmizi şərtləndirmişdir.

Döyüş meydanında qazanılmış qələbənin diplomatik müstəvidə davam etdirilməsi ilə tariximizin şanlı səhifələrinə qızıl hərflərlə yazılan Zəfərin təntənəsi olaraq ölkə başçısı cənab İlham Əliyev və birinci xanım Mehriban Əliyevanın Şuşa şəhərinə və digər azad





olunmuş rayonlara səfərləri, orada üçrəngli Azərbaycan bayrağının ucaldılması, Füzuli-Şuşa yolunun, həmçinin Füzuli rayonunda beynəlxalq hava limanının təməlinin qoyulması, həmin bölgələrdə dayanıqlı məskunlaşma üçün müasir və layiqli həyatın təmin edilməsi, quruculuq-bərpa və abadlıq işlərinin aparılması məqsədilə "Qarabağ Dirçəliş Fondu"nun yaradılması doğma torpaqlarımıza "Böyük Qayıdış"ın rəmzi ifadəsi hesab edilmişdir.

Xüsusi vurğulanmışdır ki, Vətən müharibəsində şəhidlik zirvəsinə yüksələn əsgər və zabitlərimizin ailələri, müharibə əlilləri və onların ailə üzvləri ali dövlət qayğısı ilə əhatə olunmaqla maddi-sosial problemlərinin aradan qaldırılması istiqamətində yaralananların və şəhid ailələrinin təminatına dəstək məqsədilə "YAŞAT" fondunun yaradılması müstəsna əhəmiyyətə malik olmuşdur.

2020-ci ildə yeni növ koronavirus (COVID-19) pandemiyasının yaratdığı çətinliklərə və iqtisadi məhdudiyyətlərə baxmayaraq, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin həyata keçirdiyi hərtərəfli düşünülmüş müdrik dövlətçilik siyasəti və səriştəli idarəetmə qabiliyyəti nəticəsində ölkə həyatının bütün sahələrində inkişaf tempi qorunub saxlanılmış, iqtisadi təhlükəsizliyin və əhalinin maddi rifah halının yüksəldilməsi istiqamətində əməli addımlar atılmış, regionda sabitliyə və dünyanın enerji təhlükəsizliyinə töhfə verəcək "Cənub Qaz Dəhlizi" ilə Azərbaycan qazının Avropa ölkələrinə tədarükü ölkəmizin geostrateji mövqeyini daha da gücləndirmişdir.

Həyata keçirilən islahatların mötəbər beynəlxalq təşkilatların hesabatlarında müsbət qiymətləndirildiyi, o cümlədən Dünya Bankının "Doing Business" hesabatında Azərbaycanın reytinqinin artaraq 190 ölkə arasında 28-ci yerdə qərarlaşması və 10 ən islahatçı ölkə sırasına daxil edilməsinin əldə edilmiş uğurların bariz göstəricisi olması qeyd edilmişdir.

Bildirilmişdir ki, çoxsaylı dövlətlərin böhran təhlükəsi ilə qarşılaşdığı bir zamanda ölkə başçısı cənab İlham Əliyevin rəhbərliyi və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın qayğısı nəticəsində həyata keçirilmiş qabaqlayıcı tədbirlərlə pandemiyanın fəsadları minimuma endirilməklə sosial cəhətdən həssas əhaliyə davamlı dəstək və iqtisadi dayanıqlılığ təmin edilmiş, həmçinin mövcud şəraitdə idarəetmənin və kommunikasiyanın düzgün qurulması, virusun geniş yayılmasının qarşısının alınması üçün Nazirlər Kabineti yanında Operativ Qərargah tərəfindən zəruri tədbirlər görülmüşdür.

Ölkə Başçısının rəhbərliyi ilə görülən işlər, milli mənafeyimizin ən yüksək səviyyədə qorunmaqla dönməz sabitliyə və təhlükəsizliyə, davamlı inkişafa, etibarlı sosial rifaha, tərəqqiyə və firavan gələcəyə yönəlmiş fəaliyyəti xalqımız tərəfindən daim dəstəklənmişdir.

Uğurla yola saldığımız ilin mühüm əhəmiyyətə malik olan ictimai-siyasi tədbirinin-fevral ayında azad, ədalətli və şəffaf parlament seçkilərinin keçirilməsini diqqətə çatdıran Baş prokuror xalqımızın özünü təsdiq etmiş iqtisadi və sosial kursun davam etməsinə ümummilli etimad və dəstəyini ifadə etdiyini qeyd etmişdir.

Xüsusi vurğulanmışdır ki, ölkəmizin həm regional, həm də dünya miqyasında artan rolunun və bilavasitə, Prezident İlham Əliyevə göstərilən yüksək diqqətin və hörmətin bariz nümunəsi olaraq Qoşulmama Hərəkatının sədri statusunda təşəbbüsü ilə BMT Baş Assambleyasının COVID-19 pandemiyası ilə mübarizəyə həsr edilmiş dövlət və hökumət başçıları səviyyəsində Xüsusi Sessiyasının keçirilməsi, həmçinin Azərbaycanın "Böyük iyirmiliyin" (G-20) üzvü olan ölkələrin sammitinə dəvət olunması aparılan siyasi kursun alternativsizliyini bir daha nümayiş etdirmişdir.

Hesabat məruzəsində qeyd edilmişdir ki, 2020-ci il Azərbaycan Respublikası Prokurorluğu orqanları üçün də uğurlu hesabat dövrü olmuş, daxili işlər, dövlət təhlükəsizliyi və digər hüquq mühafizə orqanları ilə əlaqəli şəkildə ölkədə ictimai-siyasi sabitliyin qorunması, cinayətkarlığa qarşı mübarizənin gücləndirilməsi, insan hüquq və azadlıqlarının müdafiəsi sahəsində zəruri tədbirlərin həyata keçirilməsi təmin olunmuşdur.



Prokurorluq orqanlarının fəaliyyətinin dövlət səviyyəsində yüksək qiymətləndirildiyi xüsusi vurğulanmaqla cənab İlham Əliyevin Sərəncamı ilə xidməti vəzifələrinin yerinə yetirilməsində fərqləndiklərinə görə prokurorluq orqanlarının 38 əməkdaşının yüksək dövlət mükafatları ilə təltif edilməsinin kollektivin böyük sevincinə səbəb olduğu qeyd edilmişdir.

Kollegiya iclasında bildirilmişdir ki, Vətən müharibəsi gedişində cəmiyyətimizlə bərabər səfərbər olan prokurorluq orqanları səlahiyyətləri daxilində üzərlərinə düşən vəzifələri uğurla yerinə yetirməklə qanunsuz erməni birləşmələrinin törətdikləri hər bir cinayət faktı üzrə döyüş əməliyyatlarının aparıldığı şəraitdə zəruri istintaq hərəkətləri həyata keçirmiş, xain düşmənin beynəlxalq konvensiyalarda təsbit olunan müharibə qaydalarını kobud şəkildə pozaraq cəbhə zonasından kənarda yerləşən şəhərlərimizi və kəndlərimizi, infrastruktur obyektlərini raket zərbələri, o cümlədən qadağan olunan silahlarla atəşə məruz qoyması, namərd hücumlarla onlarla dinc sakinin qətlə yetirilməsi ilə bağlı Cinayət Məcəlləsinin müvafiq maddələri ilə cinayət işləri başlanmaqla intensiv istintaq-əməliyyat tədbirləri aparılmışdır.

Qeyd edilmişdir ki, 27 sentyabr 2020-ci il tarixdən etibarən erməni silahlı qüvvələri tərəfindən aparılan təcavüzkar müharibə, onun gedişində törədilən digər xarakterli cinayətlərlə bağlı Baş Prokurorluqda 62 cinayət işi başlanaraq, həmin işlər üzrə 17 muzdlu döyüşçü və Ermənistan Respublikasının 4 vətəndaşı barəsində, cəmi 21 şəxs barəsində təqsirləndirilən şəxs qismində cəlb etmə qərarları çıxarılaraq axtarış elan edilmişdir.

Eyni zamanda, erməni silahlı birləşmələrinin dinc əhalini atəşə tutması nəticəsində 93 nəfər, o cümlədən 12 azyaşlı və 27 qadın qətlə yetirilmiş, 407 nəfər, o cümlədən 50 azyaşlı və 101 qadın müxtəlif dərəcəli bədən xəsarətləri almışlar.

Vətən müharibəsi zamanı Azərbaycan Respublikasının rayon və şəhərlərinin ərazisinə ümumilikdə 30 minə yaxın mərmi və 227 raket atılmış, çoxsaylı əmlaka ziyan vurulmaqla, fərdi yaşayış evləri, yardımçı tikililər, çoxmənzilli yaşayış binaları, qeyri-yaşayış sahələri, ayrı-ayrı dövlət qurumlarına məxsus inzibati binalar, dini obyekt, məscid, kilsə və qəbiristanlıqlar dağıdılmışdır.

Erməni vəhşiliklərinin dünya dövlətlərinin hüquq mühafizə orqanlarına və aidiyyəti beynəlxalq təşkilatların diqqətinə çatdırılması məqsədilə BMT-nin İnsan Hüquqlarının Müdafiəsi üzrə Komissarına, Avropa Şurasının İnsan Hüquqlarının Müdafiəsi üzrə Komissarına, MDB ölkələrinin üzv dövlətlərinin Baş Prokurorlarının Əlaqələndirmə Şurası və digər beynəlxalq təşkilatlara, eləcə də 25 ölkənin Baş prokuror və Ədliyyə nazirlərinə Ermənistanın törətdiyi cinayətlər haqqında məktublar, 37 xarici dövlətin səlahiyyətli orqanına 46 hüquqi yardım göstərilməsinə dair vəsatətlər göndərilmişdir.

Qeyd edilmişdir ki, ölkə başçısının "Azərbaycan Respublikasının işğaldan azad olunmuş ərazilərində müvəqqəti xüsusi idarəetmənin təşkili haqqında" 29 oktyabr tarixli Fərmanından və bu istiqamətdə tapşırıqlarından irəli gələn vəzifələrin icrasının təmin olunması məqsədilə Baş Prokurorluğun İstintaq idarəsində başlanmış cinayət işləri üzrə erməni vandalizmi nəticəsində məqsədli şəkildə talan edilmiş, dağıdılmış

yaşayış məntəqələri, həmçinin tarixi, dini-mədəni abidələrə və digər əmlaklara dəymiş ziyanın, eləcə də atəşkəsin davam etdiyi dövrdə əldən çıxmış faydanın məbləğinin müəyyən edilməsi məqsədilə prokurorluq orqanları tərəfindən digər qurumlarla əlaqəli şəkildə müvafiq işlər davam etdirilir.

Eyni zamanda, işğal olunmuş ərazilərdə xarici ölkələrin konkret şirkətlərinin ekologiya və yerin təkinin istismarı qaydalarının kobud şəkildə pozulması ilə nəticələnən qanunsuz sahibkarlıq fəaliyyəti ilə məşğul olmaları faktları ilə bağlı cinayət işləri üzrə, həmçinin əzəli torpaqlarımızda qanunsuz məskunlaşmanı həyata keçirən bütün təqsirli şəxslərin beynəlxalq hüquq normaları çərçivəsində məsuliyyətə cəlb edilməsi istiqamətində zəruri istintaq-əməliyyat tədbirlərinin aparılması diqqətə çatdırılmışdır.

Bununla yanaşı, prokurorluq orqanları tərəfindən Azərbaycan Respublikası Prezidentinin sərəncamları ilə yaradılmış işğal nəticəsində vurulmuş ziyanın qiymətləndirilməsi və aradan qaldırılması üzrə Dövlət Komissiyasının və işğaldan azad edilmiş ərazilərdə məsələlərin mərkəzləşdirilmiş qaydada həlli ilə bağlı Əlaqələndirmə Qərargahının fəaliyyətində yaxından iştirakın təmin edildiyi qeyd edilmişdir.

2020-ci ilin prokurorluq orqanları üçün də əlamətdar olmasının diqqətə çatdıran Baş prokuror, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən 1 may 2020-ci il tarixdə Baş prokuror vəzifəsinə təyinatla əlaqədar qəbul edilərkən verilən göstəriş və tapşırıqların prokurorluq orqanlarında genişmiqyaslı islahatların aparılmasını labüd etdiyini, bununla əlaqədar qısa müddətdə prokurorluğun cəmiyyətdə formalaşan yeni çağırışlara adekvat uyğunlaşması, işin çevikliyinin və səmərəliliyinin artırılması istiqamətində struktur və kadr islahatlarının aparıldığını, prokurorluğun fəaliyyətini tənzimləyən normativ hüquqi bazanın yeniləndiyini bildirmişdir.

Kollegiya iclasında qeyd edilmişdir ki, hesabat dövründə digər hüquq mühafizə orqanları ilə birgə fəaliyyətin nəticəsi olaraq əməliyyat-axtarış və istintaq fəaliyyətini həyata keçirən bütün dövlət orqanları üzrə qeydə alınmış 26.004 cinayətin 84,3%-nin açılması təmin olunmuş, bu cinayətlərin 94,5%-i prokurorluq və daxili işlər orqanlarının səlahiyyətləri çərçivəsində istintaqı və təhqiqatı aparılan hüquqazidd əməllər təşkil etmişdir ki, onların da açılma faizi 85,5% təşkil etmişdir.

2019-cu illə müqayisədə daxili işlər və prokurorluq orqanları tərəfindən peşəkarlıqla həyata keçirilmiş istintaq-əməliyyat tədbirləri nəticəsində qəsdən sağlamlığa az ağır zərər vurma, oğurluq, soyğunçuluq, quldurluq, dələduzluq, mənimsəmə və israf etmə, eləcə də yol hərəkəti və nəqliyyat vasitələrinin istismarı qaydalarını pozma, o cümlədən ölümlə nəticələnən yol-nəqliyyat hadisələrinin, vəzifə cinayətlərinin sayı azalmış, otən illərdən bağlı qalmış 310 cinayətin açılması təmin edilərək, 254 cinayətkar qrup zərərsizləşdirilmişdir.

Hesabat dövründə prokurorluq orqanları tərəfindən 1045 şəxs barəsində 795 cinayət işinin ibtidai istintaqı yekunlaşdırılaraq məhkəmələrə göndərilmişdir. 2019-cu illə müqayisədə 34 hadisə artmaqla 193 qəsdən adam öldürmə cinayətləri qeydə alınmışdır ki, onların 94 faizinin açılması təmin edilmişdir.

Bu müddətdə prokurorluq və müvafiq icra hakimiyyəti orqanlarının istintaq qurumlarında qeydə alınmış cinayət işləri üzrə ümumilikdə 171.628.342 manat məbləğində maddi ziyanın ödənilməsinə nail olunmuşdur.

Bildirilmişdir ki, Prezident cənab İlham Əliyevin siyasi fəaliyyətinin prioritet istiqamətlərindən olan korrupsiyaya, rüşvətxorluğa qarşı barışmaz mübarizə ötən dövrlərdə olduğu kimi davam etdirilərək bu sahədə həyata keçirilmiş kompleks tədbirlər ölkəmizə "dünyada ən islahatçı" ölkə imicini qazandırmaqla yanaşı, davamlı və tarazlaşdırılmış iqtisadi inkişafı təmin etməyə imkan vermişdir.

Azərbaycanın dövlət idarəçiliyində şəffaflığın artırılması və korrupsiyaya qarşı mübarizə sahəsində həyata keçirdiyi islahatların aparıcı beynəlxalq təşkilatlar tərəfindən yüksək qiymətləndirildiyi, o cümlədən "Beynəlxalq Şəffaflıq" Təşkilatının (Transparency International) Korrupsiya Qavrama İndeksi üzrə sonuncu hesabatında ölkəmizin 30 balla 26 pillə irəliləməsi diqqətə çatdırılmış, korrupsiyaya qarşı mübarizədə ixtisaslaşmış aparıcı beynəlxalq təşkilatlar hesab edilən BMT-nin Narkotiklər və Cinayətkarlıq üzrə İdarəsi (UNODC), İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı (OECD), Avropa Şurasının Korrupsiyaya qarşı Dövlətlər Qrupu (GRECO), MONEYVAL Komitəsi və digər ixtisaslaşmış nüfuzlu qurumların da əldə edilən nailiyyətləri yüksək qiymətləndirdikləri bildirilmişdir.

Hesabat dövründə korrupsiyaya qarşı mübarizədə ixtisaslaşmış cinayət təqibi orqanı olan Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsi tərəfindən 281 vəzifəli şəxs barəsində 180 cinayət işinin ibtidai istintaqı tamamlanaraq baxılması üçün məhkəmələrə göndərilmiş, 62 milyon 436 min manat məbləğində ziyanın ödənilməsi təmin edilməklə 5 milyon 115 min manat dəyərində əmlak üzərinə həbs qoyulmuşdur.

2020-ci il ərzində 161 saylı "Qaynar xətt" əlaqə mərkəzi vasitəsi ilə korrupsiya hüquqpozmaları barədə Baş idarəyə daxil olmuş müraciətlərin 47-si üzrə Cinayət Məcəlləsinin müxtəlif maddələri ilə cinayət işləri başlanmış, digərləri üzrə prokuror təsir tədbiri aktlarından istifadə edilməklə aidiyyəti qurumlarla əlaqəli şəkildə qabaqlayıcı tədbirlərin görülməsi təmin edilmişdir.

Bu müddət ərzində Baş İdarənin əməliyyat qurumları öz vəzifələrini uğurla icra etmiş, keçirilən əməliyyat tədbirləri nəticəsində 39 şəxs cinayət başında yaxalanmış, əməliyyat üsul və vasitələrindən istifadə etməklə korrupsiya hüquqpozmaları barədə əldə edilmiş məlumatlar əsasında isə 76 cinayət işi başlanmışdır.

Bildirilmişdir ki, hesabat dövründə respublikanın paytaxtı və digər rayon, şəhələrində koronavirus infeksiyasının geniş yayılmasının qarşısının alınması tədbirlərinə zidd olaraq qanunsuz hərəkətlərə yol vermiş şəxslər barəsində, o cümlədən aztəminatlı ailələrə ayrılmış yardım paylarının mənimsənilməsi, təyinatından kənar və ya ədalətsiz bölüşdürülməsi, yerli icra hakimiyyəti orqanlarının vəzifəli şəxsləri tərəfindən xüsusi karantin rejimində sərbəst hərəkət hüququ verən 800-dən çox arayışın verilməsi faktları üzrə Azərbaycan Respublikası CM-in müvafiq maddələri ilə 415 cinayət işi başlanmışdır ki, bu işlərdən 334-ü karantin rejimimin sərtləşdirilməsi ilə əlaqədar prokuror nəzarətinin gücləndirilməsi tədbirlərindən sonra başlanmışdır.

Həmçinin, epidemiya əleyhinə rejimin, sanitariya-gigiyena və karantin rejimi qaydalarını pozan şəxslərə qarşı Baş Prokurorluğun yeni yaradılmış Cinayət təqibindən kənar icraatlar idarəsi və müvafiq rayon prokurorluqları tərəfindən inzibati xətalar haqqında işlər üzrə icraatlar başlanmaqla, qanunsuz olaraq toplantılar keçirmə, qoruyucu vasitələrdən istifadə etməmə, 8103 qısa SMS xidmətinə müraciət etmədən icazəsiz yaşayış yerlərini tərk etmə və digər pozuntulara yol verdiklərinə görə rayon (şəhər) məhkəmələrinin qərarları ilə 45 nəfər barəsində inzibati həbs və cərimə tənbehləri seçilmişdir.

Eyni zamanda, sosial şəbəkələrdə dövlət orqanlarının həyata keçirdiyi tədbirlərə kölgə salan 23 təxribat xarakterli informasiyanın yayılması faktları araşdırılmaqla, həqiqəti əks etdirməyən həmin məlumatları ictimailəşdirən şəxslər barəsində qanunamüvafiq tədbirlər görülərək, 2 şəxsə qanun pozuntusuna yol verməkdən çəkindirmək haqqında xəbərdarlıq edilmişdir.

Xüsusi vurğulanmışdır ki, hesabat dövründə Respublika Hərbi Prokurorluğu orqanları da fəaliyyətini müharibə dövrünün tələblərinə uyğun qurmaqla erməni birləşmələrinin hərbi qulluqçularımıza qarşı törətdikləri cinayət faktlarının araşdırılmasında öz üzərlərinə düşən vəzifələri layiqincə icra etmiş, eləcə də cinayətkarlığın və digər hüquqazidd əməllərin qarşısının alınması, ordu quruculuğuna mənfi təsir edə biləcək nöqsanların və qanun pozuntularının vaxtında aşkarlanaraq aradan qaldırılması təmin edilmiş, 2019-cu illə müqayisədə ötən il törədilmiş hərbi xidmət əleyhinə cinayətlər və qeyri-hərbi cinayətlər əhəmiyyətli dərəcədə azalmışdır.

Hesabat dövründə hərbi prokurorluq orqanları tərəfindən 1182 cinayət hadisəsi qeydə alınmışdır ki, onlardan 296-sı korrupsiya cinayətləri ilə bağlı olmuşdur. Qeyd edilən dövr ərzində hərbi prokurorluq orqanları tərəfindən korrupsiya cinayətləri üzrə 90 şəxs barəsində 61 cinayət işinin istintaqı yekunlaşdırılaraq baxılması üçün aidiyyəti üzrə hərbi məhkəmələrə göndərilmişdir.

Diqqətə çatdırılmışdır ki, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə əlaqədar 1 yanvar 2021-ci il tarixədək ümumilikdə 297 şəxsin Azərbaycan xalqına qarşı müharibə və digər cinayətləri törətmələri sübuta yetirildiyindən, onlar barəsində təqsirləndirilən şəxs qismində cəlb edilmələrinə dair qərarlar qəbul edilmiş, barələrində məhkəmə qərarlarına əsasən həbs qətimkan tədbiri seçilmiş və axtarışlarının təmin edilməsindən ötrü müvafiq sənədlər İnterpolun Azərbaycan Respublikasındakı Milli Mərkəzi Bürosuna və Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Baş Cinayət Axtarış İdarəsinə göndərilmişdir.

Qeyd edilmişdir ki, hazırda Azərbaycan Respublikası Hərbi Prokurorluğunda istintaq edilən cinayət işi üzrə müəyyən edilmiş 5 əsas istiqamət - Azərbaycan xalqına qarşı soyqırım-deportasiya, əsir düşmüş və girov götürülmüş şəxslərə qarşı işgəncə, terror, dövlətə və vətəndaşlara vurulmuş ziyan, müasir dövrdə düşmənlə təmas xəttində milli ədavət və düşmənçilik niyyətilə törədilmiş xüsusilə ağır cinayətlər kimi istiqamətlər üzrə istintaq və digər prosessual hərəkətlərin icrası, həmin cinayətləri törətmiş şəxslərin anket məlumatlarının müəyyən edilməsi üçün zəruri tədbirlərin görülməsi davam etdirilir, həmçinin barələrində axtarış elan olunmuş şəxslərin məsuliyyətə cəlb edilmələri üçün digər zəruri işlərin görülməsi təmin edilir.

2020-ci ildə Naxçıvan Muxtar Respublikası prokurorluğu tərəfindən cinayətkarlığa və hüquq pozuntularına qarşı mübarizə sahəsində müsbət göstəricilər əldə edilmiş, istintaq, təhqiqat və əməliyyat-axtarış fəaliyyətinə nəzarət artırılmış, vətəndaşların müraciətlərinə baxılması, onların problemlərinin həll olunması diqqət mərkəzində saxlanılmışdır.

Hesabat dövründə istintaq, təhqiqat və əməliyyat-axtarış fəaliyyətində qanunların icrasına nəzarətin səmərəliliyinin artırılması məqsədilə prosessual rəhbərlik və effektiv nəzarətin həyata keçirilməsini təmin edəcək mexanizmin təkmilləşdirilməsi üçün zəruri tədbirlər görülməklə cinayət işləri üzrə icraata xitam verilməsinə dair 853 qərar əsassız və qanunsuz hesab edilərək ləğv olunmuşdur.

Baş Prokurorluğun Dövlət ittihamının müdafiəsi üzrə idarəsinin prokurorlarının iştirakı ilə ötən il ərzində birinci instansiya məhkəmələrində 10849 şəxs barəsində 9455, apelyasiya instansiyası məhkəmələrində 3292 şəxs barəsində 2949, kassasiya instansiyası məhkəməsində 1314 şəxs barəsində 1097 (bütün instansiya məhkəmələri üzrə cəmi 15455 şəxs barəsində 13501 iş olmaqla) cinayət işi və məhkəməyədək sadələşdirilmiş icraat üzrə materiallara baxılaraq yekun qərarlar qəbul edilmişdir.

Bildirilmişdir ki, daxil olmuş ərizə və şikayətlərə vaxtında və düzgün baxılması, müxtəlif sahələr üzrə müraciət etmiş vətəndaşlara hüquqlarının hərtərəfli və tam izah edilməsi məqsədilə Baş Prokurorluqda yaradılmış 961 saylı "Çağrı Mərkəzi"ndə hesabat dövründə 17421 müraciət qeydə alınaraq, onlardan 653-ü cinayət xarakterli məlumatlar olduğu üçün qeydə alınıb araşdırılması

üçün aidiyyatı struktur qurumlara tapşırılmış, digərləri üzrə isə müvafiq hüquqi izahlar verilmişdir.

Hesabat dövründə koronavirus pandemiyasının yaratdığı çətinliklərə baxmayaraq prokurorluq orqanlarının beynəlxalq nüfuzunun artırılması istiqamətində xarici ölkələrin müvafiq orqanları və beynəlxalq təşkilatlarla əlaqələrin möhkəmləndiyi, səmərəli əməkdaşlıq nəticəsində ağır və xüsusilə ağır cinayətlər törətməkdə təqsirləndirilən və ədalət mühakiməsindən yayınmaqla xaricdə gizlənən 30 şəxsin tutularaq ölkəmizə ekstradisiyasının həyata keçirildiyi bildirilmişdir.

Qeyd edilmişdir ki, prokurorluq orqanlarının fəaliyyətinin elmi-nəzəri təminatının gücləndirilməsi, hüquq elminin inkişafı və Avropa hüquq təcrübəsinin tətbiqi ilə əlaqədar prokurorluq işçilərinin nəzəri biliklərinin, peşə hazırlığının artırılması, prokurorluq orqanlarına həvalə edilmiş vəzifələrin həyata keçirilməsinə elmi-metodiki köməklik göstərilməsi məqsədilə Baş prokuror yanında Elmi-Məsləhət Şurasının 32 nəfərdən ibarət yeni tərkibi təsdiqlənməklə ötən ilin sentyabr ayında ilk iclas keçirilmişdir.

Kollegiya iclasında Prezident cənab İlham Əliyevin dövlət gənclər siyasəti çərçivəsində ölkəmizdə həyata keçirilən mütərəqqi tədbirləri qeyd edən Baş prokuror, 2002-ci ildən başlayaraq keçirilən 21 müsabiqə əsasında işə qəbul edilən hüquqşünasların hazırda prokurorluq işçilərinin 70 faizini təşkil etdiyini, həmin işçilərin bir çoxunun ötən il ərzində Baş Prokurorluğun idarə rəisi, rayon və şəhər, ərazi hərbi prokuroru vəzifələrinə təyin olunmalarını diqqətə çatdırmışdır.

Kollegiya iclasında Baş Prokurorluqda yeni yaradılmış Xüsusi müsadirə məsələlərinin əlaqələndirilməsi idarəsi tərəfindən hesabat dövründə müsbət iş göstəricilərinə nail olunduğu, bu sahədə prokurorluğun fəaliyyət istiqamətlərinə uyğun olaraq işlərin səmərəliliyinin artırılmasının vacibliyi qeyd edilmişdir.

Bildirilmişdir ki, dövlətin həyata keçirdiyi sosial yönümlü siyasətin prioritetlərinə uyğun olaraq prokurorluq orqanlarında koronavirus pandemiyası ilə əlaqədar məhdudiyyətlərə baxmayaraq, 2020-ci ildə də vətəndaşların müraciətlərinə və qəbulu məsələlərinə xüsusi diqqətlə yanaşılmış, müraciətlərin obyektiv araşdırılmaqla şikayətləri doğuran səbəblərin aradan qaldırılmasına, qanunauyğun, ədalətli qərarların qəbul edilməsinə nəzarət və tələbkarlıq gücləndirilmişdir. Prokurorluq orqanlarına daxil olmuş müraciətlərin 9777-nin tam, 708-nin isə qismən təmin olunması vətəndaş məmnunluğunun təmin olunması üzrə həyata keçirilən tədbirlərin nəticəsi kimi qiymətləndirilməlidir.

Kollegiya iclasında qeyd edilmişdir ki, hesabat dövründə öz fəaliyyətini müasir tələblər səviyyəsində qura bilməyən, prokurorluq işçisinə yaraşmayan hərəkətlərə, xidməti intizamın kobud pozuntusuna yol verən və vəzifələrini layiqincə yerinə yetirə bilməyən 30 prokurorluq işçisi intizam məsuliyyətinə cəlb edilmiş, onlardan 2-i prokurorluq orqanlarından xaric edilmiş, 8 nəfər vəzifədən azad edilmiş, 15 nəfərə töhmət və ya şiddətli töhmət, 5 nəfərə isə digər intizam tənbehi tədbirləri tətbiq edilmişdir.

Ötən müddət ərzində Baş Prokurorluğun fəaliyyəti barədə ictimaiyyətin məlumatlandırılması və maarifləndirmə məsələlərinin xüsusi əhəmiyyəti nəzərə alınmaqla Mətbuat xidmətinin işi daha da təkmilləşdirilmiş, verilən informasiyanın daha çox oxucu kütləsinə çatdırılmasının təmin edilməsi məqsədi ilə qurumun sosial şəbəkələrdə rəsmi səhifələri açılmış, həmçinin Baş Prokurorluğun yeni veb-saytı ictimaiyyətin istifadəsinə verilmişdir.

Kollegiya iclasında fəaliyyətdə səmərəliliyin artırılması, işğaldan azad edilmiş rayonların prokurorluqlarının peşəkar kadrlarla komplektləşdirilməsi, Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda şəhid olmuş, itkin düşmüş və əlil olmuş şəxslərin ailə üzvlərinin, yaxın qohumlarının hər bir müraciətinə xüsusi diqqət və həssaslıqla yanaşılması, artım tendensiyası müşahidə edilən cinayətlərin qarşısının alınması, bağlı qalan bütün cinayətlər üzrə təqsirli şəxslərin müəyyən edilməsi, istintaq, təhqiqat və əməliyyat-axtarış fəaliyyətində qanunların icrasına nəzarət və prosessual rəhbərliyin keyfiyyətinin artırılması və digər istiqamətlərdə konkret tapşırıqlar verilmişdir.

Daha sonra Baş prokurorun birinci müavini Elçin Məmmədov, Baş prokurorun müavini-Azərbaycan Respublikasının Hərbi prokuroru Xanlar Vəliyev, Baş prokurorun müavinləri Elmar Camalov və Heydər Məmmədov, Baş prokurorun müavini - Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin rəisi Nazim Rəcəbov, Naxçıvan Muxtar Respublikasının prokuroru Səbuhi Şahverdiyev, Bakı şəhər prokuroru İlqar Abbasov, Naxçıvan Muxtar Respublikasının hərbi prokuroru Yaşar Həsənov, Baş Prokurorluğun Təşkilat və icraya nəzarət idarəsinin rəisi Elşən Abbasov, Gəncə şəhər prokuroru Azad Qarayev, Füzuli rayon prokuroru Elnur Rüstəmov və Qazax rayon prokuroru Rauf Gözəlov hesabat dövündə görülmüş işlərə və qarşıda duran vəzifələrə dair mövzuda çıxışlar etmiş, müzakirələrlə bağlı fikir mübadiləsi aparılmışdır.

Kollegiya iclasına yekun vuran Baş prokuror prokurorluq orqanlarının kollektivi adından Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevi əmin etmişdir ki, Azərbaycan Respublikası Prokurorluğunun kollektivi bundan sonra da digər əlaqədar dövlət təsisatları ilə əlaqəli şəkildə dövlətçiliyimizin maraqlarının, ölkəmizdə bərqərar olmuş dayanıqlı ictimai-siyasi sabitlik və əmin-amanlığın qorunması, cinayətkarlığın bütün təzahürlərinə və hər cür qanunsuzluqlara qarşı mübarizənin gücləndirilməsi, insan və vətəndaş hüquq və azadlıqlarının etibarlı müdafiəsi üçün zəruri tədbirlərin görülməsini təmin edəcəkdir.

# Baş prokuror tərəfindən hakim vəzifəsinə təyin edilmiş prokurorluq işçiləri ilə Baş Prokurorluqda görüş keçirilmişdir





Fevralın 8-də Azərbaycan Respublikasının Baş prokuroru cənab Kamran Əliyev tərəfindən hakim vəzifəsinə təyin edilmiş prokurorluq işçiləri ilə Baş Prokurorluqda görüş keçirilmişdir.

Tədbiri giriş sözü ilə açan Baş prokuror xalqımızın Ümummilli lideri Heydər Əliyev tərəfindən müəyyənləşdirilmiş inkişaf strategiyasını yeni mərhələdə uğurla davam etdirən Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin siyasi iradəsinə uyğun olaraq ötən illər ərzində həyata keçirilmiş ardıcıl və sistemli məhkəmə-hüquq islahatları nəticəsində Azərbaycan gəncliyinin hərtərəfli inkişafı istiqamətində mühüm addımlar atıldığını qeyd etmiş, gənclərin ictimai həyatın bütün sahələrində fəal iştirakına geniş imkanlar yaradıldığını, müasir təfəkkürlü gənc və yüksək ixtisaslı kadrların irəli çəkildiyini vurğulamışdır.

Həmçinin, Baş prokuror Dövlət başçısının «Məhkəmə-hüquq sistemində islahatların dərinləşdirilməsi





haqqında» 03 aprel 2019-cu il tarixli Fərmanı ilə ədalət mühakiməsinin səmərəliliyinin artırılması sahəsində işin müasir çağırışlara uyğun yeni mərhələdə aparılmasını, hüquqların məhkəmə müdafiəsinin daha da gücləndirilməsini, cəza siyasətinin humanistləşdirilməsini, yeni Kommersiya və digər regional məhkəmələrin təsis edilməsini, vahid məhkəmə təcrübəsinin formalaşdırılmasını və hakimlərin fəaliyyətinin prinsipial qiymətləndirilməsi üçün işlək mexanizmlərin yaradılmasını və digər əhəmiyyətli tədbirlərin görülməsini nəzərə çatdırmışdır.

Görüş zamanı Azərbaycan Respublikası Prezidentinin 03 fevral 2021-ci il tarixli Sərəncamı ilə Sumqayıt Ağır Cinayətlər Məhkəməsinin hakimi təyin edilmiş Azərbaycan Respublikası Baş Prokurorluğunun İstintaq idarəsinin xüsusilə mühüm işlər üzrə müstəntiqləri Hümbətov Fəhmin Zaur oğluna və Əliyev Hafiz Samir oğluna, Saatlı Rayon Məhkəməsinin hakimi təyin edilmiş Biləsuvar rayon prokurorunun böyük köməkçisi Sadıqov Mirlətif Süleyman oğluna və Lənkəran Ağır Cinayətlər Məhkəməsinin hakimi təyin edilmiş Azərbaycan Respublikasının Baş prokuroru yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin İstintaq idarəsinin mühüm işlər üzrə müstəntiqi Səfərli Cavid Şamil oğluna Azərbaycan Respublikası Prokurorluğunun Fəxri fərmanları təqdim edilmişdir.

Tədbirə yekun vuran Baş prokuror hakim vəzifəsinə təyin edilmiş şəxslərə gələcək fəaliyyətlərində müvəffəqiyyətlər arzu etmişdir.

Sonda tədbir iştirakçıları ilə birlikdə xatirə fotoşəkli çəkdirilmişdir.

# Baş Prokurorluğun yeni inzibati bina kompleksində mötəbər tədbir təşkil edilmişdir










Fevralın 11-də paytaxtın Binəqədi rayonu, Dərnəgül yaşayış sahəsində yerləşən Azərbaycan Respublikası Baş Prokurorluğunun yeni inzibati bina kompleksində prokurorluq əməkdaşları üçün yaradılmış iş şəraiti ilə yerində tanış olmaq, habelə bu barədə geniş ictimaiyyəti məlumatlandırmaq məqsədi ilə Baş Prokurorluq tərəfindən media-tur təşkil edilmişdir.

Daha sonra prokurorluq əməkdaşlarının iştirakı ilə keçirilmiş tədbir zamanı "Qarabağ Azərbaycandır" adlı kitabın təqdimatı həyata keçirilmişdir.

Tədbir zamanı Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Hüquq mühafizə orqanları ilə iş şöbəsinin müdiri Fuad Ələsgərov iştirak etmiş, eləcə də Fuad Ələsgərov yeni inzibati bina kompleksində yaradılmış şəraitlə tanış olmuşdur.

Mərasim zamanı, həmçinin, "Mobil Vətəndaş Müraciəti" adlı mobil tətbiqetmənin təqdimatı həyata keçirilmişir.

"Qanun keşikçiləri" adlı bədii sənədli filmin təqdimatı həyata keçirilmiş, daha sonra prokurorluq əməkdaşlarının, o cümlədən kütləvi informasiya vasitələrinin nümayəndələrinin iştirakı ilə film seyr edilmişdir.

# Baş prokuror Kamran Əliyevin rəhbərlik etdiyi nümayəndə heyəti Türkiyəyə rəsmi səfər etmişdir





Azərbaycan və Türkiyə prokurorluqları arasında işgüzar əlaqələrin daha da möhkəmləndirilməsi məqsədi ilə Azərbaycan Respublikasının Baş prokuroru Kamran Əliyevin rəhbərlik etdiyi nümayəndə heyəti Türkiyə Respublikası Ali Məhkəməsinin Baş prokuroru Bekir Şahinin dəvəti ilə Ankaraya rəsmi səfər etmişdir.

Fevralın 15-də nümayəndə heyəti Türkiyə Respublikasının banisi Mustafa Kamal Atatürkün dəfn olunduğu məqbərə - Anıtqəbiri ziyarət etdi. Böyük Atatürkün əziz xatirəsi ehtiramla yad edildi, məzarı önünə əklil qoyularaq Baş prokuror tərəfindən xatirə kitabına ürək sözləri yazıldı.

Daha sonra Türkiyə Ali Məhkəməsinin Baş Prokurorluğunda ikitərəfli görüş keçirildi. Ölkəmizin nümayəndə heyətini səmimi salamlayan Türkiyə Ali Məhkəməsinin Baş prokuroru Bekir Şahin bütün sahələrdə olduğu kimi ölkələrimizin prokurorluq, ədliyyə və məhkəmə orqanları arasında əməkdaşlığın yüksək səviyyədə olduğunu bildirdi.

Baş prokuror Kamran Əliyev yüksək qonaqpərvərliyə və səmimi qəbula görə həmkarına minnətdarlığını ifadə edərək İraqın Qara bölgəsində xain terror aktı nəticəsində 13 günahsız mülki şəxsin qəddarcasına qətlə yetirilməsi ilə bağlı başsağlığını ifadə etdi.

Tarixən xalqlarımızın milli köklərə söykənən münasibətlərinin siyasi, iqtisadi, mədəni və digər sahələrdə də müvəffəqiyyətlə inkişaf etdirildiyini bildirən Baş prokuror bu əlaqələrin Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin "bir millət, iki dövlət", Türkiyə dövlətinin qurucusu Mustafa Kamal Atatürkün "Azərbaycanın sevinci bizim sevincimiz, Azərbaycanın kədəri bizim kədərimizdir" kəlamları ilə dəqiq ifadə edildiyi, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın siyasi iradələri ilə reallaşan mühüm əhəmiyyətli strateji layihələrinin ölkələrimizi daha da yaxınlaşdıracağı, xalqlarımızın rifahına xidmət göstərəcəyini xüsusi olaraq vurğuladı.

Baş prokuror Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyevin siyasi iradəsi və müdrik rəhbərliyi ilə uzun illərdən sonra ölkəmizin ərazi bütövlüyünü bərpa edərək BMT Təhlükəsizlik Şurasının Dağlıq Qarabağla bağlı qətnamələri icra etdiyini vurğulayaraq 44 günlük Vətən müharibəsi dövründə qardaş Türkiyə tərəfindən göstərilən mənəvi dəstəyə görə təşəkkürünü ifadə etdi.

Görüşdə hüquqi sahədə əməkdaşlıq üzrə faydalı fikir mübadiləsi aparıldı, həm ikitərəfli, həm də çoxtərəfli səviyyələrdə, beynəlxalq təşkilatlar çərçivəsində qarşılıqlı fəaliyyətin səmərəliliyindən, hüquqi əməkdaşlıq sahəsində mövcud müqavilə bazasının təkmilləşdirilməsindən danışıldı, tərəfləri maraqlandıran məsələlər müzakirə edilərək, iki ölkənin prokurorluq orqanları arasında qarşılıqlı münasibətlərin bundan sonra da uğurla davam etdiriləcəyinə əminlik ifadə edildi.

Azərbaycanın Baş prokuroru tərəfindən Türkdilli Dövlətlərin Baş prokurorlarının Əməkdaşlıq Şurasının yaradılması və təsis iclasının da rəmzi olaraq ölkəmizdə keçirilməsi ilə bağlı təşəbbüs irəli sürüldü.

Elə həmin gün nümayəndə heyətinin Türkiyənin ədliyyə naziri Əbdülhəmid Gül ilə görüşü keçirildi. Ölkələrimizin ədliyyə orqanları arasında mövcud əlaqələrin yüksək səviyyədə olduğu vurğulanaraq, iki ölkə arasında ikitrəfli hüquqi əməkdaşlıq, ekstradisiya, hüquqi yardım, prokurorların təlimi və digər maraq kəsb edən mövzular ətraflı müzakirə edilməklə gələcək əməkdaşlıq perspektivləri ətrafında səmərəli və faydalı fikir mübadiləsi aparıldı.

Görüşlərdə ölkəmizin Türkiyədəki fövqəladə və səlahiyyətli səfiri Xəzər İbrahim iştirak edir.

Nümayəndə heyətinin səfəri davam edir.







# Azərbaycan Respublikasının Baş prokuroru Kamran Əliyevin rəhbərlik etdiyi nümayəndə heyətinin Türkiyə Respublikasına rəsmi səfəri çərçivəsində Türkiyə Ali Məhkəməsinin sədri Mehmet Akarca ilə görüş keçirilmişdir





Azərbaycan Respublikasının Baş prokuroru Kamran Əliyevin rəhbərlik etdiyi nümayəndə heyətinin Türkiyə Respublikasına rəsmi səfəri çərçivəsində Türkiyə Ali Məhkəməsinin sədri Mehmet Akarca ilə görüş keçirildi.

Görüş zamanı ölkələrimizin prokurorluq, məhkəmə və ədliyyə orqanları arasında əməkdaşlığın yüksək səviyyədə olduğu bildirilərək, ötən müddət ərzində hakimlərin və prokurorların ixtisaslarının artırılması məqsədilə qarşılıqlı səfərlərin təşkil edilməsi və səmərəli hüquqi əməkdaşlığın bundan sonra da davam etdiriləcəyinə əminlik ifadə olundu.

Baş prokuror qeyd etdi ki, 2020-ci ilin sentyabrın 27-dən



başlayan Vətən müharibəsinin ilk anlarından Türkiyə Respublikasının rəhbərliyi və xalqı ölkəmizə öz siyasi və mənəvi dəstəklərini nümayiş etdirməklə bir millət, iki dövlət olduğumuzu bir daha bütün dünyaya nümayiş etdirdi.

Mehmet Akarca bir daha ölkəmizi və xalqımızı Vətən müharibəsində qazanılmış qələbə münasibətilə təbrik edərək Türkiyənin daim qardaş Azərbaycan xalqının yanında olduğunu bildirmiş və gələcəkdə də Azərbaycanı hər zaman olduğu kimi dəstəkləyəcəyini qeyd etmişdir.

Daha sonra nümayəndə heyətinin Türkiyənin Ədliyyə Akademiyası ilə tanışlığı baş tutdu. Akademiyanın rektoru Muhittin Özdemirlə görüş zamanı Azərbaycan Respublikası Baş Prokurorluğunun Elm-Tədris Mərkəzinin Türkiyənin Ədliyyə Akademiyası ilə əməkdaşlığın perspektivləri, ölkəmizin prokuror və müstəntiqlərinin Türkiyənin Ədliyyə Akademiyasında keçirilən ixtisasartırma kurslarında iştirakı məsələləri müzakirə olundu.










Həmçinin nümayəndə heyəti Ankara bölgə apellyasiya məhkəməsini ziyarət edərək məhkəmənin Baş prokuroru Hüseyn Çinar və sədri Ramazan Aksanla görüşdü. Nümayəndə heyəti prokurorluğun və məhkəmənin fəaliyyəti haqqında məlumatlandırılaraq yaradılmış şəraitlə, məhkəmə iclas zalları və dindirmə otaqları ilə tanış oldu.

Görüşlərdə ölkəmizin Türkiyədəki fövqəladə və səlahiyyətli səfiri Xəzər İbrahim iştirak edib.

# Türkiyə Respublikasının Prezidenti Azərbaycan Respublikası Baş prokurorunun rəhbərlik etdiyi nümayəndə heyətini qəbul etmişdir





Fevralın 17-də Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan Azərbaycan Respublikasının Baş prokuroru Kamran Əliyevin rəhbərlik etdiyi nümayəndə heyətini qəbul etdi.

Baş prokuror yüksək qonaqpərvərliyə və səmimi qəbula, həmçinin 44 günlük Vətən müharibəsi dövründə Türkiyə tərəfindən göstərilən mənəvi dəstəyə görə təşəkkürünü ifadə edərək Prezident İlham Əliyevin salamlarını Türkiyənin dövlət başçısına çatdırdı.



Görüşdə Azərbaycan ilə Türkiyə arasında dostluq və qardaşlıq münasibətlərinin bütün istiqamətlərdə, o cümlədən hüquq mühafizə sahəsində də uğurla inkişaf etdiyi vurğulandı, əlaqələrimizin daha da möhkəmləndirilməsində müxtəlif səviyyəli qarşılıqlı səfərlərin önəmi qeyd olundu.

Türkiyə Respublikasının Prezidenti dövlətimizin başçısı İlham Əliyevə salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Azərbaycan Respublikasının Prezidentinə çatdırmağı xahiş etdi.

Səfər çərçivəsində nümayəndə heyəti tərəfindən Ankarada xalqımızın ümummilli lideri, Ulu Öndər Heydər Əliyevin adını daşıyan park ziyarət edildi, abidəsi önünə əklil qoyularaq xatirəsi ehtiramla yad olundu.

## Kamran Əliyev: "Yeni mərhələdə Azərbaycan və Türkiyə prokurorluqları arasında münasibətlərin daha da intensivləşməsi üçün kifayət qədər əsaslar var"

Hesab edirəm ki, səfərimiz kifayət qədər uğurlu oldu. Azərbaycanın hüquq-mühafizə orqanları ilə Türkiyənin, xüsusilə Türkiyə Ali Məhkəməsinin Baş Prokurorluğu ilə əməkdaşlığın dərinləşdirilməsinə dair müzakirələrimiz oldu, fikir və təkliflərimizi bir-birimizə bildirdik. Bildiyiniz kimi, səfər çərçivəsində Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan tərəfindən qəbul edildik.

Bu sözləri Türkiyə Respublikasına rəsmi səfərdə olan Azərbaycan Respublikasının Baş prokuroru Kamran Əliyev AZƏRTAC-ın xüsusi müxbirinə müsahibəsində deyib.

Görüşlərdə mühüm məsələlərin müzakirə olunduğunu və əhəmiyyətli qərarların qəbul edildiyini vurğulayan Baş prokuror bildirib: "Müzakirə etdiyimiz təklifləri Türkiyə Prezidenti ilə görüşümüzdə də səsləndirdik. Bunlar nədən ibarətdir? Hesab edirik ki, yeni mərhələdə Azərbaycan və Türkiyə prokurorluqları arasında münasibətlərin daha da intensivləşməsi, daha faydalı olması üçün kifayət qədər əsaslar var. Təbii ki, bu, ilk növbədə ikinci Qarabağ müharibəsinin nəticələri və sonrakı fəaliyyətlərimizlə bağlıdır. Qərara aldıq ki, gələcəkdə münasibətlərimizi həm ikitərəfli formatda, həmçinin beynəlxalq qurumlar çərçivəsində inkişaf etdirək. Ən mühüm məsələlərdən biri odur ki, həmkarım, Türkiyənin Baş prokuroru Bəkir Şahinlə qarşıdakı illərdə türkdilli ölkələrin Baş Prokurorları Şurasının yaradılması üzərində işləmək və türkdilli ölkələrin baş prokurorlarının illik ümumi konfransının keçirilməsini təşkil etmək barədə razılığa gəldik. Hesab edirik ki, bu, çox mühüm əhəmiyyət kəsb edən məsələdir. Təbii ki, digər məsələlər də müzakirə olundu. Konkret cinayət işləri üzrə əməkdaşlıq, ekstradisiya məsələləri müzakirə edildi. Hesab edirəm ki, bizim faydalı əməkdaşlığımız həm dövlətlərimizin, həm xalqlarımızın və həm də hər iki dövlətin prokurorluqlarının mənafeyinə xidmət edir".

# Azərbaycan Respublikasının Baş prokuroru yanında Elmi-Məsləhət Şurasının iclası keçirilmişdir






Baş Prokurorluqla ölkəmizin aparıcı elm və təhsil, eləcə də bu sahədə qabaqcıl təcrübəsi olan ölkələrin müvafiq tədris müəssisələri, hüquq mühafizə orqanları akademiyaları ilə işgüzar əlaqələrin qurulması və daha da inkişaf etdirilməsi üçün tədbirlər davam etdirilir.

Bu istiqamətdə həyata keçirilən tədbirlərə, eyni zamanda ibtidai araşdırmanın aparılması və dövlət ittihamının müdafiəsi üzrə vahid təcrübənin formalaşdırılmasının, qanunların icra və tətbiq olunmasına prokuror nəzarətinin, hüquqyaradıcı və hüquqtətbiqedici fəaliyyətin elmi-nəzəri əsaslarını müəyyən edilməsinə töhfə verən Azərbaycan Respublikasının Baş prokuroru yanında məşvərətçi orqan kimi Elmi-Məsləhət Şurasının fəaliyyətinin mühüm əhəmiyyəti xüsusi qeyd olunmalıdır.

15 mart 2021-ci il tarixdə Baş Prokurorluqda Azərbaycan Respublikasının Baş prokuroru Kamran Əliyevin sədrliyi ilə Elmi-Məsləhət Şurasının növbəti iclası keçirilmişdir.

Şuranın iclasında Azərbaycan Respublikası Prezidenti Administrasiyası, Milli Məclis, Konstitusiya Məhkəməsi, Ali Məhkəmə, Bakı Dövlət Universiteti, Dövlət İdarəçilik, “ADA”, Milli aviasiya akademiyaları, eləcə də digər dövlət orqanları, ali təhsil müəssisələri, Ədliyyə, Polis, Dövlət Təhlükəsizliyi Xidməti, Gömrük akademiyaları, eləcə də İqtisadiyyat nazirliyi yanında Dövlət Vergi Xidmətinin Tədris Mərkəzinin nümayəndələri iştirak etmişlər.

Elmi-Məsləhət Şurasının iclasını açan Baş prokuror Kamran Əliyev Silahlı Qüvvələrimizin Ali Baş Komandanı








cənab İlham Əliyevin rəhbərliyi ilə Vətən müharibəsində qazandığımız şanlı qələbə, işğaldan azad edilən ərazilərimizdə həyata keçirilən geniş quruculuq-bərpa işləri və layihələr, şəhid ailələri və qazilərimizə göstərilən dövlət qayğısı, post-müharibə dövrünün ölkəmiz və ümumilikdə bütün region üçün verdiyi fayda, Ermənistan hərbi-siyasi rəhbərliyinin göstərişi ilə törədilən sülh və insanlıq əleyhinə cinayətlərin ifşa olunması, təqsirkar şəxslərin məsuliyyətə cəlb edilməsi, Qarabağ həqiqətlərinin dünyaya çatrılması istiqamətində görülən tədbirlər, eləcə də prokurorluq orqanlarının keçən dövr ərzində fəaliyyəti barədə Şura üzvlərini məlumatlandırmışdır.

Daha sonra Şura üzvü – Baş Prokurorluğun Elm-Tədris Mərkəzinin rəisi Mübariz Əhmədov Şuranın keçən dövr ərzində fəaliyyəti barədə hesabat vermişdir.

Bildirilmişdir ki, Şuraya daxil olan qurumlar, eləcə də tərəfdaş ölkələrin tədris qurumları, akademiyaları arasında ikitərəfli və çoxtərəfli əməkdaşlıq əlaqələrinin inkişaf etdirilməsi istiqamətində ciddi işlər görülmüşdür. Belə ki, Baş Prokurorluqla Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası və Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin Tədris Mərkəzi arasında memorandumlar imzalanmaqla, birgə elmi konfransların, dəyirmi masaların və görüşlərin keçirilməsi, elmi məqalələrin, tədris-metodiki vəsaitlərin hazırlanması, hüquq tətbiqi fəaliyyətdə daha çox rast gəlinən problemlərin həlli məqsədilə birgə elmi-praktiki araşdırmaların aparılması nəzərdə tutulmuşdur.

Beynəlxalq əməkdaşlıq əlaqələrinin inkişaf etdirilməsi ilə əlaqədar Türkiyə Cümhuriyyəti, Rusiya Federasiyası və Qazaxıstanın nüfuzlu hüquq mühafizə akademiyaları ilə işgüzar münasibətlər qurulmuşdur.

Keçən müddət ərzində hüquq ədəbiyyatı, metodiki vəsaitlərin və dövri mətbu nəşrlərin hazırlanması ilə bağlı müasir çağırışlara cavab verən təşəbbüslər davam etdirilmişdir.

Həmin tədbirlər çərçivəsində Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Ali Baş Komandanı, dövlət başçısı cənab İlham Əliyevin rəhbərliyi ilə mübariz Xalqımız və müzəffər Azərbaycan Ordusunun rəşadətinin təzahürü olan şanlı Vətən müharibəsinə və parlaq qələbəmizə, Azərbaycan Respublikasının Birinci Vitse prezidenti Mehriban xanım Əliyevanın xalqımıza göstərdiyi xeyirxah və nəcib qayğıya, Qarabağ həqiqətlərinin dünyaya çatdırılması ilə bağlı görülən tədbirlərə həsr olunan “Qarabağ Azərbaycandır” kitabı hazırlanaraq ictimaiyyətə təqdim edilmişdir.

Bundan əlavə, “İstintaq təcrübəsi” və “Dövlət ittihamının müdafiəsi təcrübəsi” adlı yeni dövri elmi-praktiki mətbu nəşrlər də təsis edilərək hüquq icti-


KAMRAN ƏLİYEV


VÜSAL İSAYEV


ELÇİN MƏMMƏDOV


məsələləri








AZƏRBAYCAN RESPUBLİKASININ
BAŞ PROKURORLUĞU


Azərbaycan Prokurorluğunun inkişaf etməsinə
dövlət qayğısı, bu gün də, gələcəkdə də olacaqdır.
Buna əmin ola bilərsiniz.
Heydər Əliyev
AZƏRBAYCAN RESPUBLİKASININ
BAŞ PROKURORLUĞU


AZƏRBAYCAN RESPUBLİKASININ
BAŞ PROKURORLUĞU





maiyyətinə təqdim edilmişdir. Azərbaycan Prokurorluğu Elmi-Praktiki Jurnalının və Baş prokuror yanında Korrupsiyaya qarşı mübarizə idarəsinin bülleteninin növbəti rüblük nömrələri oxuculara təqdim edilmişdir.

İclas çərçivəsində Ermənistan tərəfindən mülki əhalimizə qarşı törədilən sülh və insanlıq əleyhinə cinayətlər və bununla bağlı təzminat məsələləri, işğal altında olan müddətdə torpaqlarımızda urbisid aktlarının törədilməsi, hərbi münaqişələr zamanı mülki əhalinin qorunması və insan hüquqlarının müdafiəsi mövzusunda məruzə ilə çıxışlar edilmiş, eyni zamanda "Özəl sektorda antikorrupsiya standartları" və "Normayaratma fəaliyyəti" adlı vəsaitlərin təqdimatı keçirilmişdir.

Daha sonra gündəlikdə duran məsələlər, o cümlədən vahid istintaq və məhkəmə təcrübəsinin formalaşması ilə bağlı müxtəlif hüquqi məsələləri özündə əks etdirən mövzular üzrə Elmi-Məsləhət Şurasının üzvləri, eləcə də Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Hüquq mühafizə orqanları ilə iş şöbəsinin Hüquqi xidmətlərin göstərilməsi məsələləri sektorunun müdiri Vüsal İsayev, Azərbaycan Respublikası Ali Məhkəməsinin Cinayət kollegiyasının hakimi Tahir Kazımov, Azərbaycan Respublikası Milli Məclisinin deputatı, hüquq üzrə fəlsəfə doktoru Nizami Səfərov, Milli Aviasiya Akademiyasının İqtisadiyyat və hüquq fakültəsinin Hüquq kafedrasının müdiri, hüquq üzrə elmlər doktoru Ayxan Rüstəmzadə, Bakı Dövlət Universitetinin Hüquq fakültəsinin dekanı, hüquq üzrə elmlər doktoru, professor Əmir Əliyev, Azərbaycan Respublikası Ədliyyə Nazirliyi Ədliyyə Akademiyasının rektoru vəzifəsini icra edən, prorektor, hüquq üzrə fəlsəfə doktoru Elçin Xələfov, "Konstitusiya" Araşdırmalar Fondunun prezidenti Əliməmməd Nuriyev, Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi Akademiyasının İxtisas fənləri kafedrasının baş müəllimi Şahin Hüseynov və digər iştirakçılar tərəfindən çıxışlar edilmiş, geniş müzakirələr aparılmış, həmçinin Elmi-Məsləhət Şurasının qarşısında duran vəzifələr müəyyən edilmişdir.












# Prokurorluq əməkdaşları üçün tikilmiş yaşayış binasının açılış mərasimi keçirilmişdir



Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən göstərilən yüksək dövlət qayğısı nəticəsində prokurorluq orqanlarının fəaliyyətinin ən müasir tələblər səviyyəsində təkmilləşdirilməsi, infrastrukturunun yaxşılaşdırılması, sosial müdafiəsinin gücləndirilməsi istiqamətində kompleks və ardıcıl tədbirlər həyata keçirilir.

Həyata keçirilən bu tədbirlərin davamı kimi, martın 16-da prokurorluq əməkdaşları və veteranlarının sosial müdafiəsinin gücləndirilməsi məqsədilə paytaxtın Xətai rayonu, İ.Zülfüqarov və Sadıqcan küçələrinin kəsişməsi, 2942 A məhəllə ünvanında inşa edilmiş 17 mərtəbəli, 3 bloklu 160 mənzilli yaşayış kompleksinin açılış mərasimi baş tutmuşdur.

Mərasim başlamamışdan öncə torpaqlarımızın ərazi bütövlüyü uğrunda canından keçmiş şəhidlərimizin ruhu bir dəqiqəlik sükutla yad edilmiş, qazilərimizə şəfa dilənmişdir.

Açılış mərasimində bina sakinləri olan prokurorluq əməkdaşları və veteranları qarşısında çıxış edən Azərbaycan Respublikasının Baş Prokuroru Kamran Əliyev tədbir iştirakçılarını təbrik etmişdir.

Bildirilmişdir ki, yaşayış binası Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 27 sentyabr 2008-ci il tarixli Sərəncamı ilə təsdiq edilmiş Dövlət Proqramının icrası ilə əlaqədar inşa edilmişdir.

Nəzərə çatdırılmışdır ki, qeyd olunan yaşayış binasının tikilməsi məqsədilə şəffaf prosedurlar əsasında prokurorluq əməkdaşları və veteranlarından ibarət "Qayğı" Mənzil








Tikinti Kooperativi yaradılmış, kooperativ üzvləri güzəştli şərtlərlə aylıq ödənişlər həyata keçirməklə mənzillərlə təmin edilmişlər.

Qeyd olunmuşdur ki, bina kompleksi sürətli liftlər, ehtiyat işıq generatoru, müasir havalandırma, isitmə-soyutma sistemləri, təhkükəsizlik kameraları, yanğın əleyhinə avtomatik reaksiya göstərən yanğınsöndürmə sistemləri ilə təchiz olunmuş, eləcə də bina kompleksinin həyətyanı sahəsində abadlıq işləri aparılaraq, yaşıllıq zolağı salınmış, asfaltlanma işləri görülmüş, müasir işıqlanma sistemləri, eləcə də uşaq əyləncə meydançası, sakinlərin istirahəti üçün yüngül örtüklü konstruksiyalar quraşdırılmışdır.

Vurğulanmışdır ki, yaradılmış yeni şərait prokurorluq orqanları əməkdaşlarının sosial müdafiəsinin gücləndirilməklə onların məhsuldar fəaliyyəti üçün zəmin yaradacaqdır.

Mərasim iştirakçıları olan prokurorluğun veteranları, gənc prokurorluq əməkdaşları və digər iştirakçılar yaradılan şəraitdən məmnun qaldıqlarını və göstərilən qayğıya görə dövlət başçısı cənab İlham Əliyevə minnətdarlıqlarını bildirmişlər.

Azərbaycan Respublikası Prokurorluğunun kollektivi bundan sonra da dövlətçiliyimizin maraqlarının, ölkəmizdə bərqərar olmuş dayanıqlı ictimai-siyasi sabitlik və əmin-amanlığın qorunması, cinayətkarlığın bütün təzahürlərinə və hər cür qanunsuzluqlara qarşı mübarizənin gücləndirilməsi, insan və vətəndaş hüquq və azadlıqlarının etibarlı müdafiəsi üçün zəruri tədbirlərin görülməsini təmin edəcəkdir.

# Azərbaycan Respublikası Baş Prokurorluğunun Kollegiya iclası keçirilmişdir






Martın 31-də Baş prokuror Kamran Əliyevin rəhbərliyi ilə prokurorluğun fəaliyyət istiqamətləri üzrə qarşıda duran vəzifələr və işin təşkilinə dair məsələlərə həsr olunmuş Kollegiya iclası keçirilmişdir.

İclasdan öncə 1918-ci ilin mart - aprel aylarında Bakıda və Azərbaycanın müxtəlif bölgələrində erməni daşnakları tərəfindən törədilmiş soyqırımı aktı zamanı 50 mindən çox azərbaycanlının amansızcasına qətlə yetirilməsi, minlərlə insanın öz doğma torpaqlarından didərgin salınması, onlarla şəhər və kəndlərin yandırılması, milli-mədəni abidələrin dağıdılaraq məhv edilməsi qeyd edilməklə miqyası və qəddarlığına görə bəşəriyyətə, insanlığa qarşı törədilmiş dəhşətli faciənin qurbanları ehtiramla anılmış və onların əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilmişdir.

Diqqətə çatdırılmışdır ki, məhz Ümummilli Lider Heydər Əliyevin 1998-ci il martın 26-da imzaladığı "Azərbaycanlıların soyqırımı haqqında" Fərmanla 80 il sonra erməni millətçilərinin hərəkətlərinə ilk dolğun və hərtərəfli hüquqi-siyasi qiymət verilməklə 31 mart "Azərbaycanlıların Soyqırımı Günü" elan edilmişdir.

Kollegiya iclasında həmçinin Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi ilə rəşadətli ordumuzun ötən ilin sentyabr ayından başlayaraq işğal edilmiş torpaqlarımızın azad edilməsi uğrunda apardığı haqq mübarizəsində əldə etdiyi möhtəşəm qələbənin uzun illər ərzində davam edən münaqişəyə son qoyaraq ölkəmizin regional liderliyini birmənalı təsbit etməklə yeni geosiyasi reallıqlar yaratdığı vurğulanmışdır.

Qeyd edilmişdir ki, Vətən müharibəsinin Azərbaycanın tarixi qələbəsilə başa çatmasından qısa müddət keçməsinə baxmayaraq, işğaldan azad edilmiş ərazilərdə başlanmış möhtəşəm quruculuq işləri, həmin bölgələrin yenidən həyata qaytarılması ölkəmizin sosial-iqtisadi inkişafının əsaslarının daha da möhkəmləndirilməsinə xidmət etməklə regionda sabitliyin və təhlükəsizliyin inkişafına şərait yaradacaqdır.

Torpaqlarımızın erməni işğalçılarından azad edilməsi uğrunda gedən döyüşlərdə şəhidlik zirvəsinə ucalan qəhrəman Vətən oğullarının ailələri, döyüşlər zamanı yaralanan qazilər, eləcə də müharibə



iştirakçılarının Ali Baş Komandan İlham Əliyev və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın daim diqqət və qayğısı ilə əhatə olunduqları bildirilmişdir.

İclasda həmçinin, vətəndaşlarımızın sağlamlığının qorunması məqsədilə yeni növ koronavirus (COVID-19) infeksiyasının Azərbaycan Respublikası ərazisində yaratdığı təhlükələrin qarşısının alınması ilə bağlı prokurorluq orqanları tərəfindən həyata keçirilən cinayət təqibi və digər tədbirlər müzakirə edilməklə müvafiq göstərişlər verilmişdir.

Kollegiya iclasında prokurorluq orqanlarına işə qəbulla bağlı keçirilmiş müsabiqənin ilkin nəticələri və bununla əlaqədar qarşıda duran vəzifələrə, müvafiq qanunvericilik aktlarının, həmçinin "İşin Təşkili Qaydaları"nın təkmilləşdirilməsinə dair Kadrlar idarəsinin rəisi Natiq Hüseynov, Hüquqi təminat və insan hüquqları məsələləri idarəsinin rəisi Aynur Osmanova, Təşkilat və icraya nəzarət idarəsinin rəisi Elşən Abbasov məruzələrlə çıxış etmişlər.

Aparılmış ilkin müzakirələr ətrafında Azərbaycan Respublikası Baş prokurorunun müavini - Azərbaycan Respublikasının Hərbi prokuroru Xanlar Vəliyev, Prokurorluqda istintaqa nəzarət idarəsinin rəisi Fazil Həsənəliyev və digər Kollegiya üzvləri çıxış edərək təkliflərini bildirmişlər.

Kollegiya iclasında qeyd edilənlərlə yanaşı gündəlikdə duran digər məsələlər üzrə də faydalı müzakirələr aparılmaqla müvafiq qərarlar qəbul edilmişdir.

İclasa yekun vuran Baş prokuror Kamran Əliyev Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi altında həyata keçirilən çoxşaxəli islahatların reallaşdırılmasında, digər hüquq mühafizə orqanları ilə əlaqəli şəkildə cinayətkarlığa qarşı mübarizənin gücləndirilməsində, dövlətçiliyimizin maraqlarının və insan hüquq və azadlıqlarının qorunmasında, o cümlədən qanunsuz erməni birləşmələri tərəfindən törədilmiş terrorçuluq, sülh və insanlıq əleyhinə cinayətlər, müharibə, həmçinin iqtisadi və ekoloji cinayətlər üzrə bütün təqsirli şəxslərin beynəlxalq müstəvidə məsuliyyətə cəlb edilməsi üçün prokurorluq orqanlarının üzərinə düşən vəzifələri layiqincə yerinə yetirəcəyinə əminliyini ifadə etmişdir.

# Azərbaycan Respublikası Baş Prokurorluğunun Elm-Tədris Mərkəzi və Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin Tədris Mərkəzi arasında əməkdaşlığa dair memorandum imzanmışdır







Azərbaycan Respublikası Prokurorluğu orqanlarında aparılan genişmiqyaslı islahatların tərkib hissəsi kimi prokurorluq orqanlarında nəzəri bilik və peşə hazırlığı səviyyəsinin yüksəldilməsi məqsədilə tədrisin təşkili işinin daha da təkmilləşdirilməsi və müasir dövrün tələbləri baxımından qurulması üçün ardıcıl tədbirlər həyata keçirilməkdədir.

Prokurorluq orqanlarında tədrisin təşkili fəaliyyətinin beynəlxalq təcrübə əsasında müasirləşdirilməsini təmin etmək məqsədilə müxtəlif dövlət orqanlarının təlim-tədris mərkəzləri, ölkəmizin aparıcı elmi və təhsil, eləcə də bu sahədə qabaqcıl təcrübəsi olan ölkələrin müvafiq elmi qurumları, hüquq mühafizə orqanları akademiyaları ilə birgə tədqiqatların aparılması, dinləyici və təlimçilərin mübadiləsi, mütəxəssis hazırlığı və digər sahələrdə işgüzar əlaqələrin qurulması və daha da inkişaf etdirilməsi üçün əməli addımlar atılır.

Həmin tədbirlərin davamı olaraq, 23 fevral 2021-ci il tarixdə Baş Prokurorluğun Elm-Tədris Mərkəzinin inzibati binasında Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin Tədris Mərkəzi əməkdaşları ilə işgüzar görüş keçirilmişdir.

Görüş çərçivəsində həmkarlarımız Baş Prokurorluğun yeni istifadəyə verilmiş inzibati bina kompleksi, o cümlədən Elm-Tədris Mərkəzi, mühazirə, praktiki məşğələlər və iclas zalları, kitabxana, bundan əlavə kompleksin digər binasında yerləşən ən müasir kriminalistik avadanlıqlarla təchiz edilmiş kriminalistika, dindirmə otaqları, cinayət prosesual qanunvericiliyin tələblərinə müvafiq olaraq vizual müşahidəni istisna edən şəraitdə aparmağa imkan verən istintaq otağı ilə tanış olmuşlar.

44 günlük Vətən müharibəsinə həsr olunmuş tarixi-memorial qalereya və orada olan Ermənistan hərbi birləşmələri tərəfindən törədilmiş sülh və insanlıq əleyhinə cinayətləri təsdiq edən maddi sübut və eksponatlar qonaqlarda xüsusi maraq oyatmışdır.

Tədbir çərçivəsində Baş Prokurorluğun Elm-Tədris Mərkəzinin rəisi Mübariz Əhmədov və İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin Tədris Mərkəzinin rəisi Mirəli Kazımovun iştirakı ilə tədris mərkəzləri arasında əməkdaşlığa dair memorandum imzalanmışdır.

Memorandum tədris, təlim və elmi-tədqiqat sahələrində fəal əlaqələr yaratmağa və inkişaf etdirməyə, habelə iki qurumun arasında qarşılıqlı faydalı və ikitərəfli əməkdaşlığının genişləndirilməsi istiqamətində səylərin birləşdirilməsinə geniş imkanlar yaradacaqdır.

# Azərbaycan Respublikası Baş Prokurorluğu və Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası arasında əməkdaşlığa dair memorandum imzalanmışdır





Azərbaycan Respublikası Prokurorluğunun prioritet fəaliyyət istiqamətlərindən olan prokurorluq orqanlarında peşə hazırlığının və tədrisin təşkili işinin daha da təkmilləşdirilməsi, ölkənin aparıcı ali təhsil müəssisələri ilə əməkdaşlıq əlaqələrinin genişləndirilməsi məqsədilə ardıcıl tədbirlər davam etdirilir.

Bu tədbirlərin davamı olaraq, 3 mart 2021-ci il tarixdə Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının rektoru, akademik Urxan Ələkbərovun rəhbərlik etdiyi nümayəndə heyəti Baş Prokurorluğun Elm-Tədris Mərkəzində olmuşdur.

Tədbir çərçivəsində akademik Urxan Ələkbərovla Baş prokurorun müavini Elmar Camalovun arasında görüş keçirilmiş, görüşdə Baş Prokurorluğun Elm-Tədris Mərkəzinin rəisi Mübariz Əhmədov və Mətbuat xidmətinin rəhbəri Günay Səlimzadə iştirak etmişlər.

Daha sonra qonaqlar Baş Prokurorluğun yeni istifadəyə verilmiş inzibati binalar kompleksi, o cümlədən Vətən müharibəsinə həsr olunmuş tarixi-memorial qalereya, mühazirə, praktiki məşğələlər və iclas zalları, kitabxana, kriminalistika və istintaq otaqları ilə tanış olmuşlar.





Bundan əlavə, Elmar Camalov və akademik Urxan Ələkbərov Elm-Tədris Mərkəzinin kollektivi qarşısında çıxış etmişlər.

Elmar Camalov çıxışında Silahlı Qüvvələrimizin Ali Baş Komandanı, dahi Sərkərdə cənab İlham Əliyevin rəhbərliyi ilə mübariz Xalqımızın Vətən müharibəsində qazandığı Zəfər, şəhid ailələri və qazilərimizə göstərilən dövlət qayğısı, işğaldan azad edilən ərazilərimizdə həyata keçiriləcək geniş quruculuq-bərpa işləri və layihələr, post-müharibə dövrünün regionumuz üçün açdığı yeni imkanlar, prokurorluq orqanlarında həyata keçirilən müasir məzmunlu islahatlar, tədris və peşə hazırlığının təkmilləşdirilməsi sahəsində görülən işlər, həmçinin hər iki qurum arasında əməkdaşlıq əlaqələrinin verəcəyi töhfələr barədə məlumat vermişdir.

Akademik Urxan Ələkbərov Elm-Tədris Mərkəzinin kollektivinə hazırki dövrdə aktuallığı ilə seçilən “Qlobal çağırışların idarə edilməsində yeni texnologiyalar: Azərbaycan Respublikasının uğurlu təcrübəsi” mövzusunda təqdimat etmişdir.

Görüşün nəticələrinə uyğun olaraq, Azərbaycan Respublikası Baş Prokurorluğu və Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası arasında əməkdaşlığa dair memorandum imzalanmışdır.

Memorandum birgə elmi konfransların, dəyirmi masaların və görüşlərin keçirilməsi, elmi məqalələrin, tədris-metodiki vəsaitlərin və mətbu nəşrlərin hazırlanması, hüquq tətbiqi fəaliyyətdə daha çox rast gələnən problemlərin həlli məqsədilə birgə elmi-praktiki araşdırmaların aparılması və sair məsələlər üzrə geniş və səmərəli əməkdaşlığı əhatə edir.

# Baş Prokurorluğun əməkdaşları seminarda iştirak etmişlər












Prokurorluq əməkdaşlarının peşə hazırlığının yüksəldilməsi, onların beynəlxalq təcrübəni öyrənmələri və əldə etdikləri biliyi təcrübədə tətbiq etmələri istiqamətində işlər davam etdirilir.

Bu məqsədlə prokurorluq əməkdaşlarının təlim kurslarında, treninqlərdə, o cümlədən beynəlxalq təlimlərdə iştirakı təmin olunur.

Həyata keçirilən bu tədbirlərin davamı kimi, cari ilin 27 yanvar tarixində Baş Prokurorluğun Mətbuat xidmətinin rəhbəri Günay Səlimzadə və Mətbuat xidmətinin böyük prokuroru Kənan Zeynalov Medianın İnkişafı Agentliyi və "ADA" Universitetinin İxtisasartırma Proqramlarının birgə təşkilatçılığı ilə təşkil edilmiş "Media və kommunikasiya siyasəti medianın gözü ilə" seminarında iştirak etmişlər.

Seminarda "Media əlaqələri və kommunikasiya strategiyaları", "Böhran vəziyyətlərində kommunikasiyanın qurulması", "Media gündəminin formalaşdırılması", "Gündəmə uyğun proaktiv və reaktiv fəaliyyətin planlaşdırılması", "Ənənəvi və sosial media ilə iş" mövzularında mühazirələr tədbir iştirakçılarına tədris edilmiş, bundan əlavə onları maraqlandıran suallar cavablandırılmışdır.

Seminarın sonunda iştirakçıların ADA Universitetinin tədris mərkəzinə turu təşkil edilmişdir.

Sonda xatirə fotoşəkli çəkdirilmişdir.

## "Qabaqcıl beynəlxalq təcrübəyə və milli qanunvericiliyin tələblərinə uyğun olaraq ittiham nitqinin hazırlanması metodikası" adlı təqdimat keçirilmişdir



17.03.2021-ci il tarixdə internet üzərindən Zoom proqramı vasitəsilə Baş Prokurorluğun Elm-Tədris Mərkəzi tərəfindən dövlət ittihamçıları üçün video-konfrans formatında "Qabaqcıl beynəlxalq təcrübəyə və milli qanunvericiliyin tələblərinə uyğun olaraq ittiham nitqinin hazırlanması metodikası" adlı təqdimat keçirilmişdir.

Tədbirin icrası ilə əlaqədar müvafiq təhlil materiallarından istifadə edilməklə, PowerPoint proqramlı təqdimatla müşayiət olunan çıxışlar hazırlanmış, Baş Prokurorluğun Dövlət ittihamının müdafiəsi üzrə idarə ilə birlikdə təqdimatın keçirilmə formatı, tarixi və vaxtı, eləcə də təqdimatda iştirak edəcək dövlət ittihamçılarının dairəsi müəyyən edilmiş, tədbirin keçirilməsi üçün texniki hazırlıq işləri görülmüşdür.

Təqdimatda dinləyici qismində Baş Prokurorluğun Dövlət ittihamının müdafiəsi üzrə idarənin müxtəlif şöbələrinin 11 nəfər işçisi cəlb olunmuşdur. Təqdimatla çıxış edən Elm-Tədris Mərkəzinin Prokurorluq işçilərinin fəaliyyətinin qiymətləndirilməsi və peşə hazırlığının təşkili şöbəsinin işçiləri tərəfindən xarici ölkələrin hüquq elminin tanınmış simalarının tədqiqatlarına istinad edilmiş, Avropanın qabaqcıl dövlətlərinin təcrübəsi diqqətə çatdırılmış, bu bilik və məlumatların dövlət ittihamçıları tərəfindən təcrübədə daha səmərəli istifadə edilməsi üçün ittiham nitqinin hazırlanma metodikası milli qanunvericiliyin tələbləri ilə bir kontekstdə açıqlanmışdır.

## Tabe rayon (şəhər) prokurorluqlarının müstəntiqləri üçün qısamüddətli kurslar təşkil edilmişdir



Azərbaycan Respublikası Baş Prokurorluğunun 2021-ci ilin birinci yarımilinə dair Fəaliyyət Planının 13-cü bəndinə, eləcə də Elm-Tədris Mərkəzinin 2021-ci ilin birinci yarımilinə dair İş planının 3-cü bəndinə əsasən Azərbaycan Respublikası Baş prokurorunun "Qısamüddətli kursların təşkili haqqında" 02.02.2021-ci il tarixli 4 №-li sərəncamına uyğun olaraq, kurslar Bakı şəhərinin Binəqədi rayon, Mingəçevir və Şirvan şəhər, Ağcabədi, Ağdaş və Hacıqabul rayon prokurorluqlarının işçiləri üçün 08.02.2021-ci ildən 12.02.2021-ci ilədək; Bakı şəhərinin Qaradağ rayon, Abşeron, İmişli, Masallı, Saatlı və Zaqatala rayon prokurorluqlarının işçiləri üçün 22.02.2021-ci ildən 26.02.2021-ci ilədək; Bakı şəhərinin Sabunçu rayon, Cəlilabad, Goranboy, Kürdəmir və Tovuz rayon prokurorluqlarının işçiləri üçün isə 09.03.2021-ci ildən 15.03.2021-ci ilədək distant formada canlı vaxt rejimində keçirilmişdir.

Kurslarda ümumən 32 nəfər müstəntiq dinləyici qismində, Elm-Tədris Mərkəzinin müvafiq sahələr üzrə

təhlillər aparmış 10 nəfər işçisi isə təlimçi qismində iştirak etmiş, kurslar çərçivəsində dinləyicilər Zoom proqramı vasitəsi ilə video-konfransın təşkili qaydalarını öyrənmiş, təlimlərdə müvafiq təhlil materiallarından və müasir informasiya-kommunikasiya texnologiyalardan geniş istifadə olunmuş, tədris edilmiş məşğələlərin elektron mətni dinləyicilərə təqdim edilmişdir. Kurslar zamanı dinləyicilərə "Cinayət prosesində tutulmanın əsasları, onun tətbiqində yol verilən nöqsan və pozuntular", "Həbs qətimkan tədbirinin tətbiqi standartları və onların pozulması halları", "Həbsdə saxlanılma müddətinin uzadılması standartları və onların pozulması halları", "Həbs edilmiş şəxsin istintaq təcridxanasından müvəqqəti saxlama yerinə keçirilməsi qaydası və onun pozulması halları", "Təqsirləndirilən şəxsin müdafiə hüququnun pozulması formaları", "İttiham aktlarının CPM-in tələblərinə uyğun tərtib olunmaması formaları", "Cinayət işləri üzrə məhkəməyədək icraat materialları ilə tanış etmə vəzifəsinə dair CPM-in tələblərinin pozulması formaları" və sair mövzular üzrə PowerPoint proqramı vasitəsilə hazırlanmış təqdimatların müşayiəti ilə məşğələlər keçirilmişdir.

"Prokurorluq orqanlarında qulluq keçmə haqqında" Azərbaycan Respublikası Qanununun 13.2-ci maddəsinə əsasən işçinin tutduğu vəzifəyə uyğun olub-olmaması, mükafatlandırılması və vəzifədə irəli çəkilməsi məsələlərinin həlli zamanı onun təhsilə münasibəti, nəzəri və peşə hazırlığı nəzərə alındığı üçün, kurslarda dinləyici qismində iştirak etmiş prokurorluq işçiləri barədə məlumatları onların şəxsi işlərinə əlavə edilməsi məqsədilə Baş Prokurorluğun "İşin Təşkili Qaydaları"nın 248.4-cü bəndinə uyğun olaraq Baş Prokurorluğun Kadrlar idarəsinə göndərilmişdir.

## Elm-Tədris Mərkəzində "Prokurorluğun Tədris Tədbirlərinin Elektron Bazası" informasiya sistemi yaradılıb




Azərbaycan Respublikası Baş Prokurorluğunun 2021-ci ilin birinci yarımilinə dair Fəaliyyət Planının 4-cü bəndinə əsasən Baş Prokurorluğun Elm-Tədris Mərkəzində "Prokurorluğun Tədris Tədbirlərinin Elektron Bazası" informasiya sistemi yaradılıb.

Hazırlıq prosesində bu informasiya sistemi bir neçə dəfə sınaqdan keçirilmiş, sistemin proqram təminatı yüksək istehlak göstəricilərinə malikdir və tədrisin səmərəli təşkili üçün xüsusi əhəmiyyət kəsb edir. Belə ki, bu sistem:

– tədris tədbirləri, təlimçilər və dinləyicilər barədə məlumatları, eləcə də məşğələ materiallarını müvafiq məlumat bazasına operativ qaydada daxil edilməsini,
– bazada olan məlumatların müxtəlif parametrlər üzrə səmərəli və asanlıqla sistemləşdirilməsini,
– internet vasitəsilə məsafədən bu məlumatlardan istifadə edilməsini və idarə olunmasını,
– təlimçilərin və mövzuların düzgün seçiminin həyata keçirilməsini,
– dinləyicilərin dairəsinin düzgün müəyyən edilməsini,
– bazada olan məlumatların axtarışının və ixracının asanlıqla həyata keçirilməsini,
– bu sahədə təhlillərin daha səmərəli aparılmasını təmin edir.

İnformasiya sistemindən istifadə yalnız idarədaxili məqsədlər üçün nəzərdə tutulduğundan, onun məlumat bazasına buraxılış əldə etmək üçün Mərkəzin İnformasiya texnologiyaları və tədrisin texniki vasitələri sektorunda müvafiq qeydiyyatdan keçmək lazımdır. Təyinatı nəzərə alınaraq informasiya sisteminə moderatorluq Mərkəzin Prokurorluq işçilərinin fəaliyyətinin qiymətləndirilməsi və peşə hazırlığının təşkili şöbəsinə tapşırılıb. Artıq onun məlumat bazasına 2020-ci ilin ikinci yarımili və cari il ərzində Mərkəz tərəfindən təşkilində iştirak edilmiş tədris tədbirləri daxil edilib. Şöbə və sektorun birgə səyləri nəticəsində sistemin interfeysinin dizaynı müəyyən olunaraq, sistemdən istifadəyə dair Təlimat tərtib edilmişdir.

**Baş Prokurorluğun Elm-Tədris Mərkəzi**

# Tam aşkarlıq şəraitində, şəffaf və obyektiv prosedurlar əsasında prokurorluğa işə qəbul müsabiqəsi uğurla davam etdirilir

"İnsan kapitalı" prinsipinin bütün dünyada geniş tətbiq olunduğu bir dövrdə bütün sahələrdə, xüsusilə də dövlət idarəçiliyində güclü milli kadr ehtiyatlarının mövcudluğunun zəruriliyi və bu sahədə peşəkar insan ehtiyatının hər bir ölkənin sərvəti hesab edilməsi faktdır. Bu baxımdan düzgün aparılan kadr siyasəti həm də ölkənin strateji ehtiyatlarının idarə edilməsi deməkdir. Uğurlu kadr siyasətinin əsasını dövlət idarəçiliyi sferasının spesifikliyi nəzərə alınaraq, yaradıcı təkamül, novatorluq, çeviklik prinsipləri təşkil edir.

İdarəetmədə zəngin biliyi və təcrübəsi olan Ümummilli lider Heydər Əliyevin dövlət quruculuğu sahəsindəki islahatlarının mühüm istiqamətlərindən birini də müstəqil dövlətin qarşıya qoyduğu vəzifələri həyata keçirə biləcək kadrların hazırlanması təşkil etmişdir.

Dövlət idarəçiliyində beynəlxalq təcrübə ilə yanaşı, yerli xüsusiyyətlərin də nəzərə alınmasını tövsiyə edən ulu öndər Heydər Əliyev ideyalarını uğurla həyata keçirən, zəngin siyasi təcrübəyə və intellektə malik dövlət başçısı cənab İlham Əliyev Azərbaycanın siyasi həyatında yeni təfəkkürün və fəaliyyət tərzinin formalaşmasına nail olmuşdur. Ölkə başçısı Azərbaycan gənclərinə yönələn proqram xarakterli çıxışında gənclərin sabaha olan inamını daha da artırmışdır: "Gənclər irəliyə daha inamla getməlidirlər, müvafiq dövlət, hökumət orqanlarında gənclərə böyük yer ayrılmalıdır, onlara inam olmalıdır. Çünki bugünkü gənc sabah ölkəmizi idarə edəcəkdir".

Danılmaz faktdır ki, güclü dövlətin güclü kadrları olmalıdır. Onlar sürətlə dəyişən gerçəkliklərlə ayaqlaşmalı, keçmişin təcrübəsini unutmamalı, daim irəliyə baxmalı, baş verəcək hadisələri proqnozlaşdıra bilməlidirlər.

Ölkəmizdə ictimai həyatın bütün sahələrində olduğu kimi dövlət idarəçiliyində də ədalətli və aşkarlıqla həyata keçirilən kadr siyasəti cəmiyyət tərəfindən rəğbətlə qarşılanır. Layiqli mütəxəssislərin bilik və təcrübəsindən nəinki dövlətin inzibati idarəetmə aparatı, o cümlədən cəmiyyət bəhrələnir və ölkənin rifahı və inkişafı üçün yaradılmış dövlət qurumlarının qarşısında qoyulmuş vəzifələrə uğurla nail olunmasında açar rolunu oynayır. Yüksək peşəkarlığa malik kadrların irəli çəkilməsi milli təhlükəsizliyimizin və sosial-iqtisadi inkişafımızın əsas istiqamətlərindən biridir.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev 2020-ci il may ayının 1-də yeni təyin olunmuş Azərbaycan Respublikasının Baş prokuroru cənab Kamran Əliyevi qəbul edərkən prokurorluq orqanlarında islahatların dərinləşdirilməsinə və fəaliyyətin təkmilləşdirilməsinə yönəlmiş bir sıra mühüm tapşırıqlar müəyyən edərək qeyd etmişdir ki, kadrların peşəkarlığı da daim diqqət mərkəzində olmalıdır. Həm bu gün fəaliyyətdə olan kadrların peşəkarlığının təkmilləşdirilməsi üçün əlavə tədbirlər görülməlidir, prokurorluq orqanlarına yeni qəbul olunacaq işçilər yüksək peşəkarlığa malik olmalıdırlar, eyni zamanda, bu vacib amillə bərabər, dövlətçiliyə sədaqət prinsipləri də həmişə üstün olmalıdır.

Dövlət başçısının müəyyən etdiyi tapşırıqların icrası ilə əlaqədar prokurorluq orqanlarında bir sıra struktur dəyişiklikləri və kadr islahatlarının həyata keçirilməsi təmin edilmiş, "Prokurorluq haqqında" Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulmuş əsas fəaliyyət istiqamətləri üzrə görülən tədbirlərin kəsərliliyinin artırılması, prokurorluğun üzərinə qoyulan vəzifələrin icrası istiqamətində əsaslı dönüşün yaradılması, iş yükünün əsassız olaraq artırılmasına, həyata keçirilən islahatların son nəticədə prokurorluq orqanlarının fəaliyyətinin keyfiyyətcə yeni mərhələyə qalxmasına və qanunla icrası prokurorluğun üzərinə qoyulmuş vəzifələrin daha çevik yerinə yetirilməsinə xidmət edəcək əsas tələblər kimi müəyyənləşdirilmişdir.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin prokurorluq orqanları qarşısında müəyyən etdiyi vəzifələrin qısa zamanda və yüksək keyfiyyətlə icrasına təmin etmək məqsədilə Baş prokuror cənab Kamran Əliyevin birbaşa rəhbərliyi ilə təxirəsalınmaz tədbirlər həyata keçirilmişdir.

Belə ki, ilk olaraq prokurorluq orqanlarında həyata keçirilən islahatların çevikliyinin təmin edilməsi məqsədilə Baş Prokurorluğun rəhbərliyində kadr islahatları aparılaraq Azərbaycan Respublikasının Prezidenti tərəfindən Baş prokurorun birinci müavini və müavinləri yeni çağırışlara cavab verən kadrlar hesabına yenilənmiş, idarəetmədə nəzarət mexanizminin optimallaşdırılması məqsədilə Baş prokurorun əlavə müavini vəzifəsi təsis edilərək müvafiq təyinat aparılmışdır. İslahatlardan əvvəl Baş prokurorun müavinlərinin orta yaş həddi 63 olmuşdursa, hazırda yeni təyinatlardan sonra orta yaş həddi 51-dir.

Prokurorluq orqanlarının cəmiyyətdə formalaşan yeni çağırışlara adekvat uyğunlaşması və fəaliyyətində şəffaflığın təmin edilməsi, işin çevikliyinin və səmərəliliyinin artırılması, müasir dövrün tələblərinə cavab verən peşəkar kadrların formalaşdırılması məqsədilə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 10 iyun 2020-ci il tarixli Sərəncamı ilə Azərbaycan Respublikası Baş Prokurorluğunun yeni strukturu təsdiq edilmişdir.

Sərəncamla Baş Prokurorluğun strukturu mahiyyətcə tamamilə yenidən formalaşdırılaraq daha çevik, mobil və dinamik idarəetməyə malik idarələr yaradılmış, idarə və şöbələrin sayı 15-dən 18-ə çatdırılmış, mərkəzi aparatın 2 yeni Cinayət təqibindən kənar icraatlar və Xüsusi müsadirə məsələlərinin əlaqələndirilməsi idarələri yaradılmışdır.

Eyni zamanda, Azərbaycan Respublikasının Baş prokuroru yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin strukturunda dəyişiklik edilmiş, Azərbaycan Respublikası Hərbi Prokurorluğunun, Bakı şəhər prokurorluğunun və Baş Prokurorluğun Dövlət ittihamının müdafiəsi üzrə idarəsinin yeni strukturları təsdiq olunmuşdur.

Aparılan kadr islahatları nəticəsində rəhbər vəzifələrə təyin olunmuş 169 prokurorluq işçisindən 8 qadın prokurorluq işçisi rəhbər vəzifələrə, o cümlədən:

– 2-i rayon prokuroru vəzifəsinə,
– 1-i Baş Prokurorluqda idarə rəisi,
– 1-i Baş Prokurorluqda şöbə rəisi (Mətbuat xidmətinin rəhbəri),
– 2-i Baş Prokurorluqda idarə rəisinin müavini,
– 1-i Bakı şəhər prokurorunun böyük köməkçisi,
– 1-i isə Bakı şəhər Nizami rayon prokurorunun müavini vəzifələrinə təyin olunmuşlar.

Hazırda prokurorluq orqanlarında işləyən qadın prokuror işçiləri ümumi prokurorluq işçilərinin 7 faizini təşkil edir.

2020-ci il may ayının 1-dən bugünədək aparılan islahatların nəticəsi olaraq 55 prokurorluq işçisi rayon (şəhər) və ərazi hərbi prokuroru vəzifəsinə təyin olunmuşdur. Bu təyinatlardan

| ***Qurumlar üzrə*** | ***Sayı*** |
|---|---|
| Bakı şəhərinin rayon prokurorluqları üzrə (Xətai, Nəsimi, Nərimanov, Sabunçu, Suraxanı, Yasamal, Pirallahı) | **7** |
| Sumqayıt şəhər prokurorluğu üzrə | **1** |
| Mingəçevir şəhər prokurorluğu üzrə | **1** |
| Şirvan şəhər prokurorluğu üzrə | **1** |
| Rayon prokurorluqları üzrə | **38** |
| Naxçıvan Muxtar Respublikası prokurorluğu üzrə | **2** |
| Ərazi hərbi prokurorluqları üzrə | **5** |

Yeni təyin olunanlardan 32 nəfər ilk dəfə, 20 nəfər təkrar, 2 nəfər isə ikinci səlahiyyət müddətinə prokuror vəzifəsinə təyin olunmuş, 1 nəfərə isə vəzifənin icrası həvalə edilmişdir. İlk dəfə təyin olunanlardan ikisi qadın əməkdaşlardır.

Belə ki, ilk dəfə təyin edilənlərdən 8-i Baş Prokurorluğun, 10-u Azərbaycan Respublikasının Baş prokuroru yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin, 6-sı Hərbi, 2-si Naxçıvan Muxtar Respublikası prokurorluğu orqanlarının, 6-sı isə rayon (şəhər) prokurorluğunun əməkdaşlarıdır.

Aparılan struktur və kadr islahatları nəticəsində Baş Prokurorluğun 18 idarə və şöbəsindən 15-nin rəisləri dəyişilmiş, onlardan 7 prokurorluq işçisi ilk dəfə olaraq idarə və şöbə rəisi vəzifəsinə təyin olunmuşdur. Bununla yanaşı, Baş Prokurorluğun idarə və şöbələrinin rəis müavinlərində dəyişiklik aparılaraq 22 prokurorluq işçisi idarə və şöbə rəisinin müavini vəzifəsinə təyin olunmuşdur.

Qeyd olunan dövrdə hərbi prokurorluq orqanlarından 9 nəfər mülki prokurorluq orqanlarına keçməklə müvafiq vəzifələrə təyin olunmuşlar.

Yeni nəsil prokurorluq əməkdaşlarının formalaşdırılması prokurorluğun fəaliyyətində, onun işinin səmərəli qurulmasında ən vacib şərt, ən mühüm məsələdir. Kadrların düzgün seçimindən, onların savadlı, peşəkar, təcrübəli və dünya görüşlü olmasından çox şey asılıdır. Prokurorluq orqanlarının uğurları və nailiyyətləri də müvafiq sahədə çalışan kadrların keyfiyyət göstəricilərdən, o cümlədən işə münasibətindən, nizam intizamlı olmasından, dövlətçiliyə sadiqliyindən, qanunun tələblərini ali dəyər kimi qəbul etməsindən, sağlam mənəviyyatlı və vicdanlı olmasından bilavasitə asılıdır.

Yeni nəsil prokurorluq əməkdaşlarının formalaşdırılması Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən həyata keçirilən dövlət gənclər siyasəti çərçivəsində həyata keçirilir, prokurorluq orqanlarına qulluğa qəbul müsabiqə yolu ilə aparılır, kadr korpusu şəffaf prosedurlar əsasında formalaşdırılır. Prokurorluğa qulluğa qəbulun müsabiqə yolu ilə aparılması işə qəbulun ən sivil və demokratik yolu olmaqla prokurorluğun kadr tərkibinin hərtərəfli savadlı və yüksək mənəvi keyfiyyətlərə malik, vətənpərvərliyi və dövlətçilik ideyalarına sədaqəti ilə seçilən gənc mütəxəssislər hesabına komplektləşdirilməsi üçün geniş imkanlar yaratmışdır.

Ölkəmizdə uğurla reallaşdırılan dövlət gənclər siyasətinə uyğun olaraq prokurorluğun kadr tərkibinin şəffaf prosedurlar əsasında komplektləşdirilməsinin ən sivil və demokratik vasitəsi kimi müsabiqə yolu ilə işə qəbulun həyata keçirilməsi prokurorluqda kadrlarla iş sahəsində aparılan islahatların mühüm nəticələrindən biridir.

Ulu öndər Heydər Əliyevin dövlət başçısı kimi 19 iyun 2001-ci il tarixli Fərmanı ilə "Prokurorluğa işə qəbul olunmaq üçün namizədlərlə müsabiqə keçirilməsi qaydaları haqqında Əsasnamə"nin təsdiq edilməsi bu istiqamətdə atılmış addımların başlanğıcı və hü-

quqi təməlini təşkil etmişdir. Əsasnamənin icrası ilə əlaqədar keçirilmiş işə qəbulla bağlı müsabiqələr prokurorluğun kadr korpusunun hərtərəfli biliyə və yüksək mənəvi keyfiyyətlərə malik, dövlətçilik ideyalarına sədaqəti ilə seçilən gənc mütəxəssislər hesabına formalaşdırılması üçün geniş imkanlar yaratmış, ölkə həyatının bütün sahələrində gənclərin əməyindən hərtərəfli istifadə olunması barədə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin verdiyi tapşırıqların icrası yolunda səmərəli vasitə olmuşdur.

Əsasnaməyə uyğun olaraq işə qəbul olmaq istəyən hər bir namizədin bilik səviyyəsi, ümumi dünyagörüşü və digər şəxsi keyfiyyətlərinə görə prokurorluqda işləmək üçün layiqli olmasını müəyyən etmək məqsədi ilə işə qəbul ixtisas imtahanları (test imtahanı və yazılı imtahan) və müsahibə aparılmaqla, aşkarlıq şəraitində şəffaf üsullarla beynəlxalq tələblərə uyğun müsabiqə əsasında həyata keçirilir.

Müsabiqələri Azərbaycan Respublikası Dövlət Qulluğunu İdarətetmə Şurasının, Azərbaycan Respublikası Məhkəmə-Hüquq Şurasının, Birləşmiş Millətlər Təşkilatının, Avropa Şurasının, Amerika Hüquqşünaslar Assosiasiyasının, Almaniya Beynəlxalq Əməkdaşlıq Cəmiyyətinin, Milli Qeyri-Hökumət Təşkilatları Forumunun, Amerika Birləşmiş Ştatlarının, Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının, Almaniya Federativ Respublikası və İtaliya Respublikasının Azərbaycandakı səfirliklərinin, habelə digər dövlət, beynəlxalq və qeyri-hökumət təşkilatlarının, kütləvi informasiya vasitələrinin nümayəndələri müşahidə etmişlər.

2002-ci ildən başlayaraq Dövlət İmtahan Mərkəzi (Tələbə Qəbulu üzrə Dövlət Komissiyası) ilə əlaqəli şəkildə, tam aşkarlıq şəraitində və şəffaf prosedurlar əsasında, dövlət qurumları, vətəndaş cəmiyyəti təsisatları və beynəlxalq təşkilatlar, eləcə də kütləvi informasiya vasitələri nümayəndələrinin iştirakı ilə Azərbaycan Respublikasının Baş Prokurorluğu üzrə 12 (2002, 2004, 2006, 2007, 2009, 2011, 2012, 2013, 2014, 2016, 2017 və 2019-cu illər) və Naxçıvan Muxtar Respublikasının Prokurorluğu üzrə 9 (2003, 2005, 2007, 2009, 2012, 2014, 2015, 2017, 2019-cu illər) müsabiqə (cəmi 21) keçirilmişdir. Həmin müsabiqələrdə prokurorluq orqanlarına işə qəbulla əlaqədar müraciət etmiş ümumilikdə 5630 nəfər namizəddən uğur qazanmış 911 namizəd prokurorluq orqanlarına qulluğa qəbul edilmiş və bununla da müsabiqə yolu ilə işə qəbul edilmiş gənc prokurorluq işçilərinin sayı əhəmiyyətli dərəcədə artaraq, hazırda 70 % təşkil edir.

Qeyd edilən Əsasnaməyə müvafiq olaraq, 15 aprel 2020-ci il tarixdə prokurorluq orqanlarına işə qəbul olunmaq arzusunda olan şəxslər üçün Baş Prokurorluq tərəfindən 80 vakant ştat vahidi üzrə növbəti – 22-ci müsabiqə elan edilmişdir.

Ölkədə koronavirus epidemiyasının yayılmasının qarşısının alınması, əhalinin sağlamlığının qorunması, müvafiq qurumların fəaliyyətinin tənzimlənməsi məqsədilə Nazirlər Kabineti yanında Operativ Qərargah tərəfindən xüsusi rejimdə iş normalarına dair verilmiş təlimata uyğun olaraq, prokurorluq orqanlarına qulluğa qəbul olunmaq arzusunda olan şəxslərin sənədlərinin qəbulunun elektron qaydada həyata keçirilməsi tətbiq olunmuş və bu məqsədlə sənədlərin qəbulu prosedurları tam sadələşdirilməklə, 01 fevral 2021-ci il tarixdə saat 18:00-da başa çatdırılmışdır.

Müsabiqədə iştirak etmək üçün müraciət etmiş 412 namizəd qeydiyyata alınmış, onlardan 329-u oğlan, 83-ü qız olmaqla, 246 namizəd (191 oğlan, 55 qız) ilkin, 166 namizəd (138 oğlan, 28 qız) təkrar müraciət etmiş, təkrar müraciət etmiş namizədlərdən 93-ü (74 oğlan, 19 qız) əvvəllər test imtahanı mərhələsində, 69-u (60 oğlan, 9 qız) yazılı imtahan mərhələsində mərhələsində müvəffəqiyyət əldə etməmiş, 4 namizəd (4 oğlan) isə test imtahanı mərhələsində iştirak etməmişdir.

Namizədlərdən 238 nəfəri Bakı Dövlət Universitetinin, 55 nəfəri Naxçıvan Dövlət Universitetinin, 17 nəfəri Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının, 26 nəfəri Milli Aviasiya Akademiyasının, 1 nəfəri Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin Akademiyasının, 6 nəfəri Azərbaycan Respublikası Daxili Nazirliyinin Polis Akademiyasının, 69 nəfəri isə xarici ölkələrin ali təhsil müəssisələrinin məzunu olmuşdur. Hazırki müsabiqə zamanı ilk dəfə olaraq DİN-nin Polis Akademiyasının məzunu olmuş şəxslərin müraciətləri qeydə alınmış və onların müddətli həqiqi hərbi xidmət keçməsi ilə bağlı məsələnin aydınlaşdırılması üçün Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinə rəsmi məktubla müraciət edilərək, müsbət cavab alınmışdır.

Müsabiqənin elan olunması və bununla əlaqədar görülməli olan hazırlıq işləri ilə əlaqədar məsələlərin müzakirəsi məqsədilə 15 aprel 2020-ci il tarixdə Baş Prokurorluğunun Müsabiqə Komissiyasının iclası keçirilmiş, həmçinin Azərbaycan Respublikasının Təhsil Nazirliyinə rəsmi qaydada müraciət edilərək, respublikanın ərazisində qanuni fəaliyyət göstərməklə (eləcə də fəaliyyət göstərmiş) "hüquqşünaslıq" və "beynəlxalq hüquq" ixtisasları üzrə ali təhsilli kadr hazırlayan və həmin ixtisaslar üzrə verilmiş diplomları hazırda qəbul edilən dövlət və özəl ali təhsil müəssisələrinin siyahısı əldə olunmuşdur.

06 avqust 2020-ci il tarixdə sənəd qəbulunun davam etdirilməsi, 02 sentyabr 2020-ci il tarixdə sənəd qəbulunun 01 oktyabr 2020-ci il tarixdə başa çatdırılacağı barədə əlavə elanlar verilmişdir.

Bundan başqa, Azərbaycan Respublikası Baş Prokurorluğunun "İşin Təşkili Qaydaları"nın tələblərinə əsasən, Azərbaycan Respublikası Baş prokurorunun 05 avqust 2020-ci il tarixli 11/854-k nömrəli əmri ilə Baş Prokurorluğun Müsabiqə Komissiyasının yeni tərkibi təsdiq edilmişdir.

11 sentyabr 2020-ci il tarixdə Müsabiqə Komissiyasının yeni tərkibdə ilk iclası keçirilməklə, müsabiqə üzrə test tapşırıqlarının hazırlanmasında istifadə ediləcək Azərbaycan Respublikası qanunları və digər hüquqi aktların siyahısının müəyyən edilməsi, test tapşırıqlarının hazırlanması və ekspertizadan keçirilməsi məqsədilə İşçi qrupu və Ekspert komissiyasının yaradılması, test tapşırıqlarının hüquqi ekspertizadan keçirilməklə Müsabiqə Komissiyasına təqdim edilməsi məsələlərinə baxılmış və göstərilənlərlə əlaqədar müvafiq sərəncam verilməsi üçün Azərbaycan Respublikasının Baş prokuroruna müraciət edilməsi qərara alınmışdır.

Azərbaycan Respublikası Baş prokurorunun 11 sentyabr 2020-ci il tarixli 10 nömrəli sərəncamı ilə 28 sentyabr 2020-ci il tarixədək test tapşırıqlarının hazırlanması məqsədilə 11 nəfər prokurorluq işçisindən ibarət İşçi qrupu və 05 oktyabr 2020-ci il tarixədək test tapşırıqlarının hüquqi ekspertizadan keçirilməklə Müsabiqə Komissiyasına məruzə olunması üçün 3 nəfər prokurorluq işçisindən ibarət Ekspert komissiyası yaradılmışdır.

Həmin sərəncama uyğun olaraq yaradılmış İşçi qrupu ilə Ekspert komissiyası tərəfindən müvafiq test tapşırıqlarının hazırlanaraq hüquqi ekspertizadan keçirilməklə Müsabiqə Komissiyasına məruzə olunması təmin edilmişdir.

12 sentyabr 2020-ci il tarixdə müsabiqə üzrə test tapşırıqlarının hazırlanmasında istifadə ediləcək normativ hüquqi aktların siyahısı, 29 sentyabr 2020-ci il tarixdə isə sənədlərin elektron qaydada qəbulu prosesinin 01 oktyabr 2020-ci il tarixdən sonra da davam etdiriləcəyi, həmçinin sənəd qəbulunun 01.02.2021-ci il tarixdə başa çatdırılacağı ilə bağlı 18.01.2021-ci il tarixdə Baş Prokurorluğun rəsmi internet səhifələrində ictimaiyyətə ətraflı məlumatlar verilmişdir.

Baş Prokurorluq tərəfindən Dövlət İmtahan Mərkəzi ilə birgə koronavirus epidemiyasının qarşısının alınması məqsədilə Nazirlər Kabineti tərəfindən elan edilmiş xüsusi karantin rejimi qaydalarına uyğun şəkildə 05 fevral 2021-ci il tarixdə saat 10:00-dan və 15:00-dan başlayaraq 3 saat ərzində kompüterlər vasitəsilə elektron qaydada Dövlət İmtahan Mərkəzinin Bakı şəhəri Nəsimi rayonu Abdulvahab Salamzadə küçəsi 28 ünvanında yerləşən inzibati binasında müsabiqənin ilkin mərhələsi olan test imtahanı keçirilmiş və imtahanı qeyri-hökumət təşkilatlarının nümayəndələri müşahidə etmişlər.

Müraciəti qeydə alınmış 412 namizəddən 370 nəfəri test imtahanında iştirak etmiş, onlardan 70 və daha artıq bal toplamış 163 namizəd müsabiqənin növbəti mərhələsi olan yazılı imtahanda iştirak etmək hüququ qazanmış və nəticələr Dövlət İmtahan Mərkəzi və Baş Prokurorluğun rəsmi internet səhifələrində yerləşdirilmişdir.

Həmin 163 namizəddən 137 nəfəri oğlan, 26 nəfəri qız olmaqla, 84 namizəd (70 oğlan, 14 qız) ilk dəfə, 79 namizəd (67 oğlan, 12 qız) təkrar müraciət etmiş, təkrar müraciət etmiş namizədlərdən 26-ı (22 oğlan, 4 qız) əvvəllər test imtahanı mərhələsində, 52-i (44 oğlan, 8 qız) yazılı imtahan mərhələsində müvəffəqiyyət əldə etməmiş, 1-i (1 oğlan) test imtahanında iştirak etməmişdir.

Namizədlərdən 114 nəfəri Bakı Dövlət Universitetinin, 19 nəfəri Naxçıvan Dövlət Universitetinin, 6 nəfəri Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının, 16 nəfəri Milli Aviasiya Akademiyasının, 1 nəfəri Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin Akademiyasının, 1 nəfəri Azərbaycan Respublikası Daxili Nazirliyinin Polis Akademiyasının, 6 nəfəri isə xarici ölkələrin ali təhsil müəssisələrinin məzunu olmuşdur.

17 mart 2021-ci il tarixdə Baş Prokurorluğun Müsabiqə Komissiyası tərəfindən tam aşkarlıq şəraitində, şəffaf və obyektiv prosedurlar əsasında, koronaviris pandemiyasının yayılmasının qarşısının alınması məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti yanında Operativ Qərargahın müəyyən etdiyi xüsusi karantin rejiminə dair qaydaların tələblərinə uyğun olaraq müsabiqənin yazılı imtahan mərhələsi keçirilmiş və imtahanı müvafiq qurumların, o cümlədən qeyri-hökumət təşkilatlarının nümayəndələri müşahidə etmişdirlər.

Yazılı imtahanda 160 namizəd iştirak etmiş, onlardan 134 nəfəri oğlan, 26 nəfəri qız olmaqla, 84 namizəd (70 oğlan, 14 qız) ilk dəfə, 76 namizəd (64 oğlan, 12 qız) təkrar müraciət etmiş, təkrar müraciət etmiş namizədlərdən 25-i (21 oğlan, 4 qız) əvvəllər test imtahanında, 50-i (42 oğlan, 8 qız) yazılı imtahanda müvəffəqiyyət qazanmamış, 1-i (1 oğlan) test imtahanında iştirak etməmişdir.

Namizədlərdən 111 nəfəri Bakı Dövlət Universitetinin, 19 nəfəri Naxçıvan Dövlət Universitetinin, 6 nəfəri Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının, 16 nəfəri Milli Aviasiya Akademiyasının, 1 nəfəri Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin Akademiyasının, 1 nəfəri Azərbaycan Respublikası Daxili Nazirliyinin Polis Akademiyasının, 6 nəfəri isə xarici ölkələrin ali təhsil müəssisələrinin məzunu olmuşdur.

Azərbaycan Respublikası Baş Prokurorluğunun "İşin Təşkili Qaydaları"na müvafiq olaraq yazılı imtahan işləri "ikiqat yoxlama" üsulu ilə Baş Prokurorluğun Müsabiqə Komissiyası və dəvət olunmuş mütəxəssis tərəfindən yoxlanıldıqdan sonra yekun nəticələr kütləvi informasiya vasitələri ilə ictimailəşdiriləcək, eyni zamanda bu barədə Baş Prokurorluğun rəsmi internet səhifəsində məlumat yerləşdiriləcəkdir.

Müsabiqənin tezliklə başa çatdırılması istiqamətində zəruri tədbirlərin həyata keçirilməsi davam etdirilir.

**Baş Prokurorluğun Kadrlar idarəsi**

# Azərbaycan Respublikasının Hərbi Prokurorluğunda kollegiya iclası keçirilmişdir




21 yanvar 2021-ci il tarixdə Azərbaycan Respublikasının Hərbi Prokurorluğunda 2020-ci ildə cinayətkarlığa qarşı mübarizə, qanunçuluq və hüquq qaydasının möhkəmləndirilməsi, insan və vətəndaş hüquq və azadlıqlarının qorunması sahəsində görülmüş işlərin vəziyyəti, bununla əlaqədar Respublika Hərbi Prokurorluğunun struktur qurumlarında və ərazi hərbi prokurorluqlarında keçirilmiş əməliyyat müşavirələrinin nəticələri və qarşıda duran vəzifələrin müzakirəsinə həsr olunmuş kollegiya iclası keçirilmişdir.

Əvvəlcə kollegiya iştirakçıları ölkəmizin ərazi bütövlüyü uğrunda canlarını fəda etmiş şəhidlərimizin əziz və unudulmaz xatirəsini bir dəqiqəlik sükutla yad edib, qazilərə şəfa diləyiblər.

Kollegiya iclasında hesabat məruzəsi ilə çıxış edən Azərbaycan Respublikası Baş prokurorunun müavini–Azərbaycan Respublikasının Hərbi prokuroru, ədliyyə general-leytenantı Xanlar Vəliyev bildirdi ki, müasir Azərbaycanın xilaskarı və qurucusu ulu öndər Heydər Əliyevin mükəmməl və zamanı qabaqlayan siyasətini dövrün tələbləri ilə uzlaşdıraraq uğurla davam etdirən möhtərəm Prezident cənab İlham Əliyevin müdrik düşüncəsi, sarsılmaz qətiyyəti və yorulmaz fəaliyyəti ilə xalqın əzmkarlığının vəhdəti sayəsində bütün dünyada baş verən neqativ proseslərə, o cümlədən yer kürəsini cənginə alan koronavirus (COVID-19) pandemiyasına baxmayaraq 2020-ci ildə də dövlətimizin hərtərəfli qüdrətlənməsi və əhalinin rifahının daha da yaxşılaşdırılması prosesinin davamlılığı təmin edilmiş, eyni zamanda müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə Silahlı Qüvvələrimizin misilsiz rəşadəti nəticəsində 30 ilə yaxın müddətdə işğal altında qalan torpaqlarımız azad edilərək ölkəmizin ərazi bütövlüyü bərpa olunmuş, bununla da ötən il Azərbaycan tarixinə qızıl hərflərlə yazılmışdır. 2020-ci ildə qeyri-neft sənayesi 11 faizdən çox, kənd təsərrüfatı 2 faiz artmış, eləcə də orta əməkhaqqı və orta pensiya təqribən 13-14 faiz artmışdır. Valyuta ehtiyatlarımızın qorunub saxlanılması və manatın məzənnəsinin sabitliyi də təmin edilmişdir. Şəhid ailələrinin müavinəti 300 manatdan 500 manata qaldırılmışdır. Təsadüfi deyil ki, planetimizin ən nüfuzlu aparıcı beynəlxalq qurumlarından biri olan Dünya Bankının "Doing Business" proqramında 190 ölkə arasında Azərbaycan 28-ci yeri tutmuşdur. Bundan əlavə, Respublikamız 10 ən islahatçı dövlət sırasına daxil edilmişdir. Eyni zamanda Davos Ümumdünya İqtisadi Forumunun hesabatına əsasən dövlətimiz dünya miqyasında inklüziv inkişaf indeksi üzrə üçüncü yerdə, hökumətin dəyişməyə cavabdehliyi, yəni,



islahatçı obrazı əmsalına görə beşinci yerdə, uzunmüddətli strategiyasına görə isə 10-cu yerdə qərarlaşmaqla bir çox ölkələri geridə qoymuşdur. Sadalananlar qəti əminliklə onu deməyə əsas verir ki, Azərbaycanın intibah dövrüdür.

Dövlətimizin hərtərəfli inkişaf edərək daha da qüdrətlənməsində və qazanılan ardıcıl uğurlarda, eləcə də ölkəmizin beynəlxalq əlaqələrinin genişləndirilməsində yüksək erudisiyası, iti zəkası, mükəmməl idarəçilik qabiliyyəti, xalqına sədaqəti, milli-mənəvi dəyərlərə sadiqliyi və digər məziyyətləri, eləcə də saysız-hesabsız xeyirxah əməlləri ilə bütün dünya qadınlarına örnək olan Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın hərtərəfli fəaliyyətinin mühüm əhəmiyyət kəsb etdiyini vurğulayan ədliyyə general-leytenantı Xanlar Vəliyev, bu nəcib insanın Respublikamızda təhsilin, elmin, səhiyyənin, mədəniyyətin, idmanın və digər sahələrin inkişafındakı xidmətlərindən, eləcə də UNESKO-nun və İSESKO-nun xoşməramlı səfiri kimi Azərbaycanla adları çəkilən beynəlxalq təşkilatlar arasında qarşılıqlı faydalı əlaqələrin yaranması, milli-mənəvi dəyərlərimizin və mədəniyyətimizin dünyada tanıdılması istiqamətində gördüyü böyük işlərdən danışdı.

Dövlət başçısının rəhbərliyi ilə son illər ölkəmizdə bütün sahələrdə əldə olunmuş böyük uğurlardan bəhs edən Xanlar Vəliyev, bütün dünyanı bürüyən Koronavirus (COVİD-19) pandemiyasına qarşı ölkəmizdə aparılan effektiv mübarizəni xüsusi qeyd edərək, dünyanın bir sıra qüdrətli dövlətlərinin xeyli itkilər verdiyi və ciddi zərərə məruz qaldığı halda, Azərbaycanın pandemiyadan az zərər və minimal itki ilə çıxmasının müdrik rəhbərin mükəmməl siyasətinin, onun rəhbərliyi ilə görülən qabaqlayıcı tədbirlərin, o cümlədən çoxsaylı yeni tibb müəssisələrinin tikilib istifadəyə verilməsinin, tibb işçilərinin sayının və onların təminatının artırılmasının, eləcə də tibb xidməti səviyyəsinin yüksəldilməsinin və xalq-hakimiyyət vəhdətinin nəticəsi olduğunu bildirdi. Vurğulandı ki, ümumbəşəri bəla ilə mübarizədə prokurorluq, o cümlədən hərbi prokurorluq əməkdaşları da istər vətəndaş, istərsə də prokurorluq əməkdaşı kimi üzərinə düşən vəzifələri məsuliyyətlə yerinə yetirmişlər.

Ölkədə gedən demokratik proseslərin prokurorluq orqanlarında da müvafiq islahatların həyata keçirilməsinə zəmin yaratdığını qeyd edən Hərbi prokuror bildirdi ki, möhtərəm Prezidentin mayın 1-də Azərbaycan Respublikasına yeni Baş prokuror təyin etməsi və cənab Kamran Əliyevin elə həmin gün videoformatda qəbulu zamanı dövlət başçısının verdiyi dəyərli tapşırıq və tövsiyələrin prokurorluq, o cümlədən hərbi prokurorluq orqanlarında həyata keçirilməsi ilə prokurorluğun yeni, mütərəqqi islahatlar və səmərəli dəyişikliklər dövrü başlamışdır. Qısa müddət ərzində prokurorluqda, eləcə də hərbi prokurorluqda struktur və kadr islahatları həyata keçirilərək, prokurorluq or-



qanlarının müasir dövlət təsisatı kimi yenidən formalaşdırılması, o cümlədən dövrün tələblərinə adekvat uyğunlaşdırılması, fəaliyyətində şəffaflığın artırılması, işin çevikliyinin və səmərəliliyinin təmin edilməsi istiqamətində mühüm işlər görülmüşdür.

Dövlətimizin sürətli inkişafının Silahlı Qüvvələrin qüdrətlənməsinə də rəvac verdiyini deyən ədliyyə general-leytenantı Xanlar Vəliyev bildirdi ki, son illər Ali Baş Komandan cənab İlham Əliyevin yüksək diqqət və qayğısı sayəsində Silahlı Qüvvələrimizin maddi-texniki bazası əhəmiyyətli dərəcədə möhkəmləndirilmiş, arsenalı ən müasir silah-sursat, hərbi texnika və digər avadanlıqlarla daha da zənginləşdirilmiş, həmçinin hərbçilərin sosial vəziyyəti davamlı yaxşılaşdırılmış, mənəvi-psixoloji hazırlıq səviyyəsi və döyüş əhval-ruhiyyəsi artırılmış, bir sözlə müasir tələblərə tam cavab verən, istənilən döyüş tapşırığını ən yüksək səviyyədə yerinə yetirməyə qadir olan Azərbaycan Silahlı Qüvvələri formalaşmışdır. Təsadüfi deyildir ki, ötən illərdə olduğu kimi, "GlobalFirepower" hərbi-analitika təşkilatının dünya ölkələri ordularının gücü ilə bağlı hazırladığı 2020-ci il hesabatında da Azərbaycan Ordusu Cənubi Qafqaz regionunun ən güclü ordusu reytinqini qoruyub saxlamışdır. Qeyd olunanlar hərbi uğurlarımızı şərtləndirmiş və nəticədə düşmənin 27 sentyabrdan başlayan növbəti təxribatlarının qarşısının alınması zamanı gedən döyüşlərdə Azərbaycan Silahlı Qüvvələri öz gücünü və qüdrətini əyani şəkildə sübut edərək zəfərlərimizi və Vətən savaşındakı tarixi qələbəmizi təmin etmişdir.

Millətinə xidməti həyat amalına çevirmiş dövlət başçısının xalq qarşısında verdiyi vədləri əməlləri ilə doğrultduğunu xüsusi vurğulayan Hərbi prokuror Xanlar Vəliyev bildirdi ki, Azərbaycanın son bir neçə əsrlik tarixinə ən uğurlu il kimi düşən ötən il müdrik rəhbər, peşəkar siyasətçi, mahir diplomat və yenilməz sərkərdə cənab İlham Əliyev hərbi və diplomatik-siyasi yolla Azərbaycanın tarixi ərazilərini düşmən tapdağından azad etməklə, bu vədini də yerinə yetirdi. Əldə etdiyimiz möhtəşəm qələbə ölkə başçının yürütdüyü siyasətin alternativsiz olduğunun növbəti təzahürüdür.

Hərbi prokuror Xanlar Vəliyev həmçinin bildirdi ki, Vətən müharibəsi ərəfəsində ön xətdə yerləşən hərbi hissə və bölmələrdə xidmət aparan hərbi qulluqçularla görüşmək məqsədilə Baş prokuror cənab Kamran Əliyevlə birlikdə cəbhə bölgəsinə səfər etmişlər. Qeyd olunmuşdur ki, ötən il Hərbi prokuror həm də əvvəlki illərdə olduğu kimi, Dövlət Sərhəd Xidmətinin rəisi cənab Elçin Quliyevlə birlikdə Sərhəd Qoşunlarının "Qazax" əlahiddə sərhəd diviziyasının düşmənlə üz-üzə dayanan hərbi hissə və bölmələrinə, Müdafiə nazirinin müavini cənab Kərim Vəliyevlə birlikdə isə Müdafiə Nazirliyinin tabeliyində olan cəbhə xəttində

yerləşən müvafiq hərbi hissələrə getməklə, orada şəxsi heyətlə, o cümlədən döyüş şəraitində xidmət aparan hərbi qulluqçularla görüşlər keçirmişdir. Vurğulanmışdır ki, hər il olduğu kimi, ötən ildə də, o cümlədən məlum döyüşlər zamanı Hərbi Prokurorluğun rəhbər işçiləri, o cümlədən Respublika Hərbi prokurorunun müavinləri, böyük köməkçiləri, idarə, şöbə rəisləri, ərazi hərbi prokurorları da aidiyyəti dövlət qurumlarının müvafiq yüksək vəzifəli şəxsləri ilə birlikdə ön xətdə xidmət aparan hərbçilərlə görüşmək məqsədilə cəbhəyanı zonada yerləşən hərbi hissələrə səfərlər etmişlər. Bütün görüşlər zamanı hərbi qulluqçuların milli və döyüş ruhunun daha da yüksəldilməsi, onlarda vətənpərvərlik hislərinin dərindən aşılanması, hüquqi biliklərin artırılması istiqamətində söhbətlər aparılmış, verilən suallar ətraflı cavablandırılmış, şəxsi heyətin hərtərəfli maarifləndirilməsi ilə əlaqədar zəruri tədbirlərin görülməsi təmin edilmiş, eyni zamanda xidməti vəzifələrini nümunəvi icra edənlər müxtəlif hədiyyələrlə mükafatlandırılmışdır. Səfərlər əsnasında, həmçinin hərbi qulluqçuların qayğı və problemləri, eləcə də yaşayış, məişət və xidmət şəraiti ilə maraqlanılmışdır.

2020-ci ilin prokurorluq, o cümlədən hərbi prokurorluq orqanları üçün də uğurlu il olduğunu vurğulayan Hərbi prokuror Xanlar Vəliyev bildirdi ki, əvvəlki illərdə olduğu kimi, Hərbi Prokurorluq orqanlarının fəaliyyəti səmərəli olmaqla, Silahlı Qüvvələrdə nizam-intizamın davamlılığının təmin edilməsi, cinayətkarlığın və digər hüquqazidd əməllərin qarşısının alınması, qanunçuluq və hüquq qaydasının möhkəmləndirilməsi, insan və vətəndaş hüquq və azadlıqlarının qorunması məqsədilə qarşıya qoyulan vəzifələr əməkdaşlar tərəfindən uğurla icra olunmuşdur. Hərbi prokuror qeyd etdi ki, cinayət işlərinin başlanmasının qanuniliyinə və əsaslılığına xüsusi diqqət yetirilməsi, icraatda olan işlər üzrə bütün halların hərtərəfli, tam və obyektiv araşdırılması istiqamətində həyata keçirilmiş fəaliyyət, düzgün qurulmuş istintaq metodikası və taktikası, səriştəli aparılan istintaq hərəkətləri, tələb edilən səviyyədə prosessual rəhbərlik, eləcə də işçilərin peşəkarlığı və əzmi sayəsində qeydə alınmış cinayətlərin 99,5 faizi açılmışdır.

Qürur dolu 44 gün ərzində də hərbi prokurorluq orqanları əməkdaşlarının istər xidmət yerində, istərsə də ezam olunduqları müvafiq ərazilərdə xidməti vəzifələrinin icrası ilə bağlı üzərlərinə düşənləri layiqincə yerinə yetirdiklərini vurğulayan Hərbi prokuror bildirdi ki, Vətən müharibəsi başladığı tarixdən işin səmərəliliyini daha da artırmaq və qarşıya çıxan məsələləri operativ həll etmək məqsədilə Respublika Hərbi Prokurorluğunda Operativ qərargah yaradılmış, ayrı-ayrı vaxtlarda Hərbi prokuror və onun müavinləri də daxil olmaqla Mərkəzi Aparatın rəhbər və digər işçilərindən ibarət qruplar, həmçinin müvafiq ərazi hərbi prokurorluqlarının əməkdaşları döyüş əməliyyatları aparılan bölgələrə ezam olunaraq gündəlik ortaya çıxan məsələlərin, bəzi hallarda Hərbi Prokurorluğun funksiyalarına aid olmayan problemlərin yerindəcə həll olunması istiqamətində müvafiq zəruri tədbirlərin həyata keçirilməsini təmin etmişlər. Belə ki, əməkdaşlar döyüş bölgələrində xidməti vəzifələrinin icrası ilə bərabər, müşahidələr aparmaqla, hərbi qulluqçuların qayğıları ilə maraqlanaraq, hər hansı nöqsan, çatışmazlıq və çətinlik aşkar edildiyi təqdirdə onların aradan qaldırılması məqsədilə səlahiyyətləri çərçivəsində tədbirlər görmüş, o cümlədən zəruri hallarda aidiyyəti üzrə müvafiq orqanlara müraciət olunmasını təmin etmişlər.

Eyni zamanda hərbi hissələrdə həm səfərbərlik üzrə hərbi xidmətə çağırılmış, həm də müddətli həqiqi hərbi xidmətdə olan şəxslərlə, habelə komandir heyəti ilə fasiləsiz görüşlər keçirilərək, hərbi qulluqçuların əhval-ruhiyyəsi öyrənilmiş, onlarda vətənpərvərlik hislərinin və döyüş ruhunun yüksəldilməsi istiqamətində zəruri tədbirlərin görülməsi təmin olunmuşdur. Qeyd olunanlarla bərabər, müvafiq tibb müəssisələrində müalicə alan hərbi qulluqçularla, o cümlədən onların səhhəti və müalicələrinin gedişi ilə mütəmadi olaraq maraqlanılmış, diqqət və qayğı göstərilmişdir.

Sadalananlarla yanaşı, Dövlət Təhlükəsizliyi Xidmətinin və Daxili İşlər Nazirliyinin müvafiq qurumlarının köməyindən istifadə edilməklə döyüş əməliyyatlarında həlak olmuş şəxslərin qısa müddət ərzində şəxsiyyətlərinin müəyyən olunaraq aidiyyəti üzrə təhvil verilməsi üçün zəruri tədbirlərin görülməsi də təmin edilmişdir. Hərbi prokurorluq orqanlarının əməkdaşları tərəfindən təxirəsalınmaz istintaq hərəkətləri, çoxsaylı ekspertizalar, zərurət olduqda məhkəmə-genetik ekspertizası keçirilməklə, hazıradək, həlak olmuş 2858 şəxsin şəxsiyyətinin tam müəyyən edilərək ailələrinə təhvil verilməsi təmin olunmuşdur.

Ötən il xidməti vəzifələrini nümunəvi icra edən əməkdaşlar Baş Prokurorluq və Hərbi Prokurorluq üzrə verilmiş əmrlərlə müvafiq qaydada həvəsləndirilmişlər. Prokurorluq orqanlarının fəaliyyətinin dövlət səviyyəsində də yüksək qiymətləndirildiyini və xidməti vəzifələrini yerinə yetirərkən fərqlənmiş 38 əməkdaşın, o cümlədən Hərbi Prokurorluğun 9 işçisinin Möhtərəm Prezidentin 30 dekabr 2020-ci il tarixli Sərəncamı ilə müvafiq olaraq orden və medallarla təltif edilməsinin hər bir prokurorluq əməkdaşının böyük sevincinə səbəb olduğunu xüsusi vurğulayan ədliyyə general-

leytenantı Xanlar Vəliyev hərbi prokurorluğun əməkdaşları adından dövlət başçısına dərin minnətdarlığını ifadə edərək, bunun həm də kollektivin üzərinə böyük məsuliyyət qoyduğunu və bundan sonra fəaliyyətin səmərəliliyinin daha da artırılacağını bildirdi.

Fəaliyyət istiqamətləri üzrə görülən işlərlə bərabər, insan hüquq və azadlıqlarının daha etibarlı müdafiəsinin və bununla əlaqədar həyata keçirilən tədbirlərin səmərəliliyini artırmaq məqsədilə bir sıra digər işlər də görülmüşdür. Bu istiqamətdə əldə olunan müsbət nəticələrdə Hərbi Prokurorluq orqanları ilə Müdafiə Nazirliyi, Dövlət Sərhəd Xidməti, Daxili Qoşunlar və digər hərbi qurumlar, həmçinin qeyri-hökumət təşkilatları arasında yaranmış qarşılıqlı sağlam və işgüzar əlaqələrin də çox böyük əhəmiyyəti olmuşdur. Bütün bunların nəticəsində də hesabat dövründə qeydə alınmış cinayətlər əvvəlki illə müqayisədə ümumilikdə 36,1%, hərbi xidmət əleyhinə olan cinayətlər 47,6%, qeyri hərbi cinayətlər isə 18,6% azalmışdır.

Eyni zamanda 2019-cu illə müqayisədə 2020-ci ildə qeydə alınmış qəsdən adam öldürmə cinayətləri 30%; hakimiyyətdən sui-istifadə etmə cinayətləri 71,7 %; odlu silahı, döyüş sursatını, partlayıcı maddələri və qurğuları talama və ya hədə qorxu ilə tələb etmə cinayətləri 53,8%; tabelik münasibətlərində olmayan hərbi qulluqçular arasında qarşılıqlı münasibətlərin nizamnamə qaydalarını pozma cinayətləri 69,5 %; xuliqanlıq cinayətləri 83,3 %; mülkiyyət əleyhinə olan cinayətlər isə 57,5 % azalmışdır.

Bildirilmişdir ki, ötən illərdə olduğu kimi, 2020-ci ildə də ölkəmizdə korrupsiyaya və rüşvətxorluğa qarşı kəsərli mübarizə uğurla davam etdirilmiş, dövlət başçısının bu sahədə qarşıya qoyduğu vəzifələrin icrası ilə əlaqədar Hərbi Prokurorluq orqanları mütəşəkkil cinayətkarlığın ən təhlükəli təzahürlərindən biri olan korrupsiyaya qarşı mübarizə sahəsində fəaliyyətini daha da gücləndirmişdir. Bu qəbildən olan cinayətlərin aşkarlanması və qarşısının alınması istiqamətində struktur qurumları tərəfindən bir sıra işlər görülsə də, bu sahədə tədbirlərin səmərəliliyi və intensivliyi daha da artırılmalıdır.

Qeyd edilmişdir ki, hesabat dövründə prokurorluqda vətəndaşların müraciətlərinə baxılması işinin səmərəliliyinin artırılması üzrə ardıcıl və sistemli tədbirlərin görülməsi də təmin edilmişdir. Vətəndaş-məmur münasibətlərinin sağlam zəmində qurulması, vətəndaşların müraciətlərinə baxılması və qəbulu işinin daha da təkmilləşdirilməsi barədə dövlət başçısı cənab İlham Əliyevin dəyərli tövsiyələri bir daha müşavirə iştirakçılarının diqqətinə çatdırılaraq, hər bir əməkdaşdan gündəlik fəaliyyətində onlara ciddi əməl edilməsi tələb olunmuşdur.

Kollegiya iclasında, hesabat dövrü ərzində görülmüş müsbət işlərlə yanaşı, "Prokurorluq haqqında" Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulmuş fəaliyyət istiqamətləri üzrə işin səmərəliliyinə mənfi təsir göstərən hallar da ətraflı təhlil olunmaqla, ibtidai araşdırma və prosessual rəhbərliyin həyata keçirilməsi, dövlət ittihamının müdafiəsi, hüquqi və fiziki şəxslərə vurulmuş zərərin ödənilməsi, vətəndaş müraciətlərinə baxılması və onların qəbulu ilə əlaqədar işin effektivliyinin daim artırılması tələb olunmuşdur.

Hərbi prokurorluq orqanlarında xidməti, icra və əmək intizamının daha da möhkəmləndirilməsi də diqqət mərkəzində saxlanılmış, bu sahədə aşkar olunan hər hansı nöqsan və pozuntuya qarşı prinsipiallıq mövqeyindən yanaşılmaqla müvafiq tədbirlərin görülməsi təmin edilmişdir. Belə ki, hesabat dövründə xidməti fəaliyyətində yol verdikləri nöqsanlara və pozuntulara görə 19 hərbi prokurorluq işçisi intizam məsuliyyətinə cəlb olunmuş, onlardan 1-i prokurorluq orqanlarından xaric edilmiş, 1-i aşağı vəzifəyə keçirilmiş, 2-si vəzifədən azad olunmuş, 4-nə "şiddətli töhmət", 11-nə isə "töhmət" elan edilmişdir.

Sonra məruzə ətrafında çıxışlar olmuşdur. Azərbaycan Respublikası Hərbi prokurorunun müavinləri və digər işçilər çıxış edərək hesabat dövründə görülmüş işlərdən danışıb, qarşıda duran vəzifələrin yerinə yetirilməsi üçün həyata keçiriləcək tədbirlər barədə ətraflı məlumat vermişlər.

Xalqın öz liderinə olan misilsiz məhəbbətindən bəhs etməklə kollegiyanı yekunlaşdıran ədliyyə general-leytenantı Xanlar Vəliyev bildirdi ki, Hərbi Prokurorluğun kollektivi ulu öndər Heydər Əliyevin millətimizin və dövlətimizin maraqlarına xidmət edən müdrik siyasətinin möhtərəm Prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilməsində, onun rəhbərliyi ilə görülən böyük işlərdə və həyata keçirilən mütərəqqi islahatlarda yaxından iştirak edərək, dövlət müstəqilliyinin, ictimai-siyasi sabitliyin, əmin-amanlığın qorunması, qanunun aliliyinin təmin edilməsi, insan hüquq və azadlıqlarının etibarlı müdafiəsi, Silahlı Qüvvələrdə nizam-intizamın, qanunçuluğun və hüquq qaydasının daha da möhkəmləndirilməsi istiqamətindəki fəaliyyətinin səmərəliliyini daim artıracaq, cinayətkarlığa və digər qanun pozuntularına, eləcə də dövlətimizin qüdrətlənməsinə xələl gətirə biləcək hallara qarşı mübarizədə barışmaz mövqe tutaraq üzərinə düşən bütün vəzifələri ləyaqətlə yerinə yetirəcəkdir.

# Hərbi Prokurorluğun və aidiyyəti qurumların nümayəndələri Novruz bayramı ərəfəsində hərbi qulluqçularla görüşlər keçiriblər





Novruz bayramı ərəfəsində Azərbaycan Respublikası Hərbi Prokurorluğunun Mərkəzi Aparatının və tabe hərbi prokurorluqların rəhbər vəzifəli şəxsləri Müdafiə Nazirliyi, Dövlət Sərhəd Xidməti, Daxili İşlər Nazirliyinin Daxili Qoşunları və digər hərbi qurumların yüksək rütbəli zabitləri, hərbi hissələrin dislokasiya olunduğu müvafiq rayonların icra hakimiyyəti orqanlarının rəhbərləri ilə birgə Vətənimizin müxtəlif bölgələrində, o cümlədən 30 ilə yaxın işğal altında olmuş tarixi torpaqlarımızda yerləşən hərbi hissə və bölmələrdə hərbi qulluqçularla görüşüblər.

Hərbi Prokurorluğun mətbuat xidmətindən bildiriblər ki, görüşlərin iştirakçıları ölkəmizin ərazi bütövlüyü uğrunda canlarını fəda etmiş şəhidlərimizin əziz və unudulmaz xatirəsini bir dəqiqəlik sükutla yad edib, qazilərə şəfa diləyiblər.

Həmçinin ulu öndər Heydər Əliyevin uzaqgörən siyasətini dövrün tələblərinə uyğun uğurla davam etdirən Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Vətən müharibəsində qazanılan möhtəşəm Qələbədən bəhs olunmaqla, qürur dolu 44 günün unudulmaz təəssüratları xatırlanıb.

Daha sonra şəxsi heyətlə görüşlərdə Azərbaycan Respublikası Baş prokurorunun müavini





- Hərbi prokuror, ədliyyə general-leytenantı Xanlar Vəliyevin təbrik məktubu oxunub, hüquqi maarifləndirici mövzularda çıxışlar edilib, hərbi qulluqçuları maraqlandıran suallar cavablandırılıb. Habelə onların qayğı və problemləri ilə maraqlanılıb, hərbi hissələrə müxtəlif məişət-elektrik avadanlığı, bayram sovqatları, üzərinə düşən vəzifələri nümunəvi icra etməklə xidmətdə fərqlənənlərə isə qiymətli hədiyyələr təqdim olunub.

Sonda Novruz tonqalları alovlandırılıb.

## Naxçıvan Muxtar Respublikası Prokurorluğunda 2020-ci ildə görülən işlərin yekunları və qarşıda duran vəzifələrin müzakirəsinə həsr olunmuş kollegiya iclası keçirilmişdir



Yanvar ayının 12-də Naxçıvan Muxtar Respublikası Prokurorluğu orqanları tərəfindən 2020-ci ildə görülən işlərin yekunları və qarşıda duran vəzifələrin müzakirəsinə həsr olunan kollegiya iclası keçirilib.

Kollegiya iclasını Naxçıvan Muxtar Respublikasının prokuroru Səbuhi Şahverdiyev açaraq qeyd etdi ki, ulu öndər Heydər Əliyevin yaratdığı müstəqil Azərbaycan Respublikasının hərtərəfli inkişafı barədə strateji konsepsiyaya sadiqlik nümayiş etdirən, doğma xalqına xidməti həyat amalı kimi qəbul edən Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin məqsədyönlü dövlətçilik siyasətinin nəticəsidir ki, ölkə həyatının bütün sahələrində mühüm nailiyyətlər əldə edilmiş, möhkəm ictimai-siyasi sabitlik və əmin-amanlıq bərqərar olmuşdur. 2020-ci il Azərbaycan tarixində əlamətdar illərdən biri olmuşdur. Belə ki, Azərbaycan Respublikasının Prezidenti, Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Ali Baş Komandanı cənab İlham Əliyevin rəhbərliyi ilə rəşadətli milli ordumuz sentyabr ayının 27-də erməni təxribatının qarşısını almaq məqsədilə Vətən müharibəsinə başlamış və Azərbaycanın uzun illər işğal altında olan torpaqlarını azad edərək noyabr ayının 10-da böyük qələbə qazanmışdır. Naxçıvan Muxtar Respublikasından olan hərbi qulluqçularımız da döyüşlərdə qəhrəmancasına mübarizə aparmışlar. Azərbaycan Respublikasının Prezidenti canab İlham Əliyev demişdir: "Naxçıvanlılar da İkinci Qarabağ müharibəsində digər bölgələrdən olan vətəndaşlar kimi fəal iştirak ediblər... Bütün bölgələrdən olan hərbiçilər kimi naxçıvanlılar da böyük qəhrəmanlıq göstəriblər və torpaqlarımızın azad edilməsi işində fədakarlıq göstəriblər, şəhidlər veriblər."

Qeyd olundu ki, 30 dekabr 2020-ci il tarixdə keçirilmiş altıncı çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin dördüncü sessiyasında Naxçıvan Muxtar Resublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun 2020-ci ildə Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafının yekunlarına dair məruzəsində "Əhali arasında hüquq maarifi və profilaktik tədbirlərin gücləndirilməsinin nəticəsidir ki, cinayətkarlıq üzrə göstəricilərin aşağı səviyyədə olması qorunub saxlanılmışdır" qeyd etməsi prokurorluq işçilərini arxayınlaşdırmamalı və bundan sonra da cinayətkarlığa qarşı mübarizə, qanunçuluğun möhkəmləndirilməsi, insan və vətəndaş hüquq və azadlıqlarının daha etibarlı müdafiəsi üçün işlərini digər hüquq-mühafizə orqanları ilə əlaqəli şəkildə qarşıya qoyulan yüksək tələblər səviyyəsində qurmalıdırlar.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Ali və orta ixtisas təhsili müəssisələrində ixtisasların müvafiq təşkilatlara hamiliyə verilməsinə dair əlavə tədbirlər və innovasiyaların dəstəklənməsi haqqında" 3 aprel 2019-cu il tarixli Sərəncamının icrasını təmin etmək məqsədilə Naxçıvan Dövlət Universitetinin Hüquqşünaslıq ixtisasının tələbələri hesabat dövründə Naxçıvan Muxtar Respublikası Prokurorluğunda olmuşlar.

Qeyd olundu ki, Azərbaycan Respublikası Baş prokurorunun 6 avqust 2020-ci il tarixli əmri ilə Naxçıvan Muxtar Respublikası Prokurorluğunun mərkəzi aparatının yeni strukturu təsdiq edilmişdir. Naxçıvan Muxtar Respublikası Prokurorluğu digər hüquq-mühafizə orqanları ilə əlaqəli şəkildə ictimai-siyasi sabitliyin və əmin-amanlığın qorunması, dövlət müstəqilliyimizin, cinayətkarlığa və hüquq pozuntularına qarşı mübarizə, qanunçuluq və hüquq qaydasının möhkəmləndirilməsi, vətəndaşların hüquq və azadlıqlarının müdafiəsi istiqamətində zəruri tədbirlərin görülməsinin təmin edilməsində fəallıq göstərib.

Naxçıvan Muxtar Respublikası ərazisində hesabat dövründə 21 cinayət hadisəsinin qeydə alınması müvafiq rayon (şəhər) prokurorlarını ciddi düşündürməli, cinayətlərin baş verməmədən qarşısının alınması üçün digər hüquq-mühafizə orqanları ilə birlikdə qabaqlayıcı profilaktiki tədbirləri daha da gücləndirməli, bundan sonra cinayət hadisələrinin baş verməməsi üçün müvafiq tədbirlər görülməlidir.

Peşə fəaliyyəti ilə əlaqədar jurnalistlərin təqib edilməsi və onlara təzyiqlər göstərilməsi ilə bağlı cinayət hadisəsi qeydə alınmayıb. Keçmiş illərdə baş verib qapalı qalmış 6 cinayət işinin açılması təmin edilib. Narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsi ilə əlaqədar 3 fakt qeydə alınıb. Muxtar Respublikanın prokurorluq orqanlarında 10 cinayət işi istintaq olunub ki, onlardan 4-ü ittiham aktı ilə baxılması üçün məhkəməyə göndəriib, 1 istintaq aidiyyatı üzrə göndərilib, 2 işin icraatına xitam verilmiş, 3 iş üzrə istintaq davam etdirildiyindən qalıq qalib. Törədilmiş və ya hazırlanan cinayətlər barədə prokurorluq orqanlarında 23 məlumat araşdırılıb.

Qeyd olundu ki, Dövlət ittihamının müdafiəsi üzrə şöbənin əməkdaşlarının iştirakı ilə məhkəmələr tərəfindən 23 şəxs barəsində 18 hazırlıq iclası keçirilərək məhkəmə baxışı təyin edilib, birinci instansiya məhkəmələrində baxılıb nəticə verilən 27 şəxs barəsində 20 iş üzrə ittiham hökmləri çıxarılıb, hazırlıq iclası keçirilən 2 şəxs barəsində 1 iş isə hesabat dövrünün sonuna qalıq qalıb. Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin cinayət və hərbi kollegiyaları tərəfindən 27 şəxs barəsində 22 cinayət işinin ilkin baxışı keçirilərək məhkəmə baxışı təyin edilib. Apellyasiya instansiyası məhkəməsində 27 şəxs barəsində 21 cinayət işinə nəticə verilib.

Muxtar Respublika Prokurorluğu əməkdaşlarının iştirakı ilə məhkəmələrdə hökm və ya məhkəmənin digər yekun qərarlarının icrası qaydasında icraat üzrə 29 şəxs barəsində 29 işə baxılaraq nəticə verilib ki, onlardan 27 şəxs barəsində 27 iş üzrə müraciətlər təmin edilib, 2 şəxs barəsində 2 iş üzrə müraciət təmin edilməyib.

Naxçıvan Muxtar Respublikası Prokurorluğu tərəfindən cinayət işləri üzrə ibtidai araşdırmaya prosessual rəhbərlik və qanunlara riayət edilməsi təmin edilib. Cinayət işlərinin ibtidai istintaqı və məlumatların həlli zamanı cinayət-prosessual qanunvericiliyin tələblərinə əməl edilib. Muxtar Respublikanın Daxili işlər orqanlarında 20, Ədliyyə Nazirliyində 5, Dövlət Gömrük Komitəsində isə 1 cinayət işi istintaq olunub.

Muxtar Respublika Prokurorluğu orqanlarının iş planlarının icrası zamanı inzibati qanunvericiliyin tələblərinin pozulması halları aşkar edildiyindən yol verilmiş qanun pozuntularının aradan qaldırılması üçün 4 halda təqdimat verilib.

Qeyd olundu ki, Prokurorluq orqanlarına vətəndaşlardan daxil olan 55 müraciət daixl olub, 306 nəfər qəbul edilib. Qanunvericiliyin izahı, əhalinin hüquqi maarifləndirilməsi və hüquqi biliklərin təbliği ilə əlaqədar 691 halda təbliğat işi aparılmış, kütləvi informasiya vasitələrində 490 dəfə, o cümlədən televiziyada 24, radioda 19, mətbuatda 207, internet səhifələrində isə 240 dəfə müxtəlif hüquqi mövzularda çıxışlar edilib. Naxçıvan Muxtar Respublikası Prokurorluğunun 12 bölmədən və 36 altbölmədən ibarət yeni veb-saytı fəaliyyət göstərir. Prokurorluğunun veb-saytında rəsmi tədbirlər mütəmadi olaraq öz əksini tapır, həmçinin veb-saytda və "Nuhçıxan" İnformasiya Agentlyində təşkil olunan "Hüquq guşəsi"ndə vətəndaşlar tərəfindən daxil olan suallar onlayn qaydada hüquqi cəhətdən cavablandırılır.

Kadr işinin əsas istiqamətləri kimi kadrların seçilib yerləşdirilməsi sahəsində zəruri tədbirlərin görülməsi təmin olunmuşdur. Azərbaycan Respublikası Prezidentinin 30 dekabr 2020-ci il tarixli Sərəncamı ilə 1 nəfər prokurorluq işçisi "Dövlət qulluğunda fərqlənməyə görə" medalı ilə təltif edilib.

Gənc hüquqşünasların müsabiqə yolu ilə prokurorluq orqanlarına qulluğa qəbulu Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla həyata keçirilən gənclər siyasətinin real bəhrəsidir. Azərbaycan Respublikası Prezidentinin 19 iyun 2001-ci il tarixli Fərmanı ilə təsdiq olunmuş və 23 noyabr 2007-ci il tarixli Fərmanı ilə dəyişikliklər edilmiş "Prokurorluğa işə qəbul olunmaq üçün namizədlərlə müsabiqə keçirilməsi qaydaları haqqında" Əsasnaməyə və "Prokurorluğa işə qəbul olunmaq üçün namizədlərlə müsabiqə keçirilməsi Qaydaları"na müvafiq olaraq 02 dekabr 2019-cu il tarixdə işə qəbulla əlaqədar müsabiqə elan edilmişdir. Müsabiqələrin nəticəsi olaraq hesabat dövründə 7 nəfər Muxtar Respublika Prokurorluğu orqanlarına, 2 nəfər isə Naxçıvan Muxtar Respublikası Hərbi Prokurorluğuna işə qəbul olunmuşlar.

Sonda əminliklə ifadə olundu ki, Naxçıvan Muxtar Respublikası Prokurorluğunun kollektivi ümummilli lider Heydər Əliyevin ideyalarına sadiq qalaraq onun layiqli davamçısı Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin tövsiyyə və tapşırıqlarına müvafiq olaraq bundan sonra da digər hüquq-mühafizə orqanları ilə əlaqəli şəkildə dövlətçiliyimizin maraqlarını, ölkəmizdə bərqərar olmuş dayanıqlı ictimai-siyasi sabitliyin qorunması, cinayətkarlığa qarşı mübarizənin gücləndirilməsi, insan və vətəndaş huquq və azadlıqlarının etibarlı müdafiəsi üçün səlahiyyət hədləri daxilində bütün zəruri tədbirləri görəcək, Azərbaycan Respublikasının daha da qüdrətlənməsi naminə sədaqətlə xidmət edəcəkdir.

Sonra məruzə ətrafında çıxışlar oldu.

**Naxçıvan Muxtar Respublikası Prokurorluğu**

# Bakı şəhər prokurorluğunda əməliyyat müşavirəsi keçirilmişdir



Yanvarın 21-də Bakı şəhər prokurorluğu orqanları tərəfindən 2020-ci il ərzində cinayətkarlığa və hüquq pozuntularına qarşı mübarizə, qanunçuluğun möhkəmləndirilməsi, vətəndaşların hüquq və azadlıqlarının müdafiəsi sahəsində görülmüş işlərin vəziyyəti və qarşıda duran vəzifələrin müzakirəsinə həsr olunmuş videokonfrans formatında əməliyyat müşavirəsi keçirilmişdir.

Müşavirə başlamazdan öncə Vətən müharibəsində qəhrəmancasına şəhid olmuş Azərbaycanın mərd oğullarına Allahdan rəhmət, qazilərimizə şəfa dilənmişdir.

Müşavirəni giriş sözü ilə açan Bakı şəhər prokuroru, III dərəcəli dövlət ədliyyə müşaviri İlqar Abbasov bildirmişdir ki, 2020-ci il ölkəmiz üçün çox əlamətdar hadisələrlə yadda qalmışdır. Ötən ili digər dünya dövlətlərindən fərqli olaraq ölkəmiz üçün əlamətdar edən əsas hadisə, işğal altında olan əzəli torpaqlarımızın Azərbaycan Respublikası Prezidenti, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı cənab İlham Əliyevin siyasi iradəsi və rəhbərliyi ilə, rəşadətli, mübariz ordumuzun əzmi, xalqımızın birliyi nəticəsində düşmən işğalından azad edilməsi olmuşdur.

Daha sonra İlqar Abbasov hesabat məruzəsi ilə çıxış edərək bildirmişdir ki, Bakı şəhərində 2019-cu ildə prokurorluq və daxili işlər orqanları üzrə cəmi 11176 törədilmiş cinayət hadisəsi qeydə alındığı halda, 2020-ci ildə 667 hadisə azalaraq 10509 hadisə qeydə alınmış, ağır və xüsusilə ağır cinayətlərin sayı 171 vahid artaraq 1449 olmuş, qeyd olunan cinayət hadisələrinin açılma faizi 86,1%-ə yüksəlmişdir.

Hesabat dövründə ötən illə müqayisədə qəsdən adam öldürmə cinayətlərinin sayı 19 fakt azalaraq 47 cinayət hadisəsi qeydə alınmışdır ki, onlardan 45-nin açılması təmin edilmişdir. Bağlı qalan qətl hadisələrindən birinin istintaqı hazırda Baş Prokurorluğun İstintaq idarəsində, digəri isə Suraxanı rayon prokurorluğunda davam etdirilir.

Bakı şəhər prokurorluğunun diqqət mərkəzində olan məsələlərdən biri də quldurluq və ölümlə nəticələnən yol-nəqliyyat hadisələrinin qarşısının alınması olmuş, 2019-cu illə müqayisədə hesabat dövründə 51 quldurluq hadisəsi qeydə alınmışdır ki, bu ötən illə müqayisədə 22 hadisə az olmuş, həmin hadisələrdən 2-si bağlı qalmışdır. Ölümlə nəticələnən yol-nəqliyyat hadisələrinin sayı 2019-cu illə müqayisədə 46 hadisə azalaraq 160 hadisə olmuş, onlardan 4-ü bağlı qalmışdır.

Bakı şəhərinin prokurorluq və daxili işlər orqanları tərəfindən digər illərdə olduğu kimi 2020-ci ildə də narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı kəsərli mübarizə tədbirləri davam etdirilmiş, hesabat dövründə bu qəbildən olan cinayətlərlə bağlı 463 fakt (1707), satışla bağlı isə 2020-ci il ərzində 238 (692) fakt artım qeydə alınmışdır.

Şəhərin prokurorluq və daxili işlər orqanları tərəfindən istintaq edilmiş işlərin təhlili göstərir ki, prokurorluğun icraatında olan 873 işdən 460-ı, daxili işlər orqanlarının istintaq qurumlarının icraatında olan 11943 cinayət işindən 4393-nün istintaqı tamamlanmışdır. Onlardan polis orqanları tərəfindən 3358, prokurorluq orqanları tərəfindən 137 iş baxılması üçün müvafiq məhkəmələrə göndərilmişdir.

Hesabat dövründə prokurorluq və daxili işlər orqanları tərəfindən prokurorluq orqanlarında istintaq edilmiş cinayət işləri üzrə fiziki və hüquqi şəxslərə vurulmuş ümumilikdə 20.672.432 manat məbləğində maddi ziyanın 18.724.325 manatı və ya 90,6%-nin istintaq zamanı ödənilməsi təmin edilmişdir.

Əməliyyat müşavirəsində prokurorluq orqanlarında ziyanın ödənilməsi vəziyyəti qənaətbəxş hesab olunsa da, ibtidai araşdırma zamanı dəymiş ziyanın ödənilməsi göstəricisinin artırılması üçün zəruri tədbirlərin vaxtında görülməsi, cinayət yolu ilə əldə edilmiş əmlakın axtarılıb tapılması üçün intensiv istintaq-əməliyyat tədbirlərinin həyata keçirilməsi tapşırılmışdır.

Müşavirədə həmçinin qeyd olunmuşdur ki, vətəndaşların müraciətlərinə xüsusi diqqət və həssaslıqla yanaşılmasının hər bir dövlət orqanının və məmurunun mühüm vəzifələrindən olması barədə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin tapşırıqları rəhbər tutularaq müraciətlərin obyektiv araşdırılması, şikayətləri yaradan səbəblərin aradan qaldırılmasına, qanunauyğun və ədalətli qərarların qəbul edilməsinə nəzarət və tələbkarlıq gücləndirilmişdir.

2020-ci il ərzində Bakı şəhər prokurorluq orqanlarına 14566 müraciət daxil olmuş, müraciətlərdən 4678-i öz həllini tapmış, onlardan 1632-si tam və ya qismən təmin edilmiş, 378 şikayət isə hesabat dövrünün sonuna qalıq qalmışdır.

Müşavirədə hesabat dövründə əldə edilmiş müsbət nəticələrlə yanaşı nöqsanlar da diqqətə çatdırılmışdır. Bununla yanaşı, qəsdən adam öldürmə, quldurluq və yol nəqliyyat hadisələrindən bağlı qalan cinayət faktlarının, eləcə də bağlı oğurluq hadisələrinin tezliklə açılması və təqsirkar şəxslərin müəyyən edilərək məsuliyyətə cəlb edilməsi, habelə axtarışda olan, xəbərsiz itkin düşmüş şəxslərin tapılması istiqamətində intensiv istintaq və əməliyyat-axtarış tədbirlərinin aparılmasının, istintaq işi və ibtidai araşdırmaya prosessual rəhbərliyin həyata keçirilməsi zamanı yol verilmiş nöqsanların aradan qaldırılmasının zəruriliyi vurğulanmışdır. Eyni zamanda, istintaq və təhqiqat fəaliyyətində aşkar edilmiş nöqsanlar, qanun pozuntuları, süründürməçilik halları ətraflı təhlil edilməklə gələcəkdə təkrarlanmaması ilə bağlı konkret tapşırıqlar verilmişdir.

Əməliyyat müşavirəsində qeyd olunmuşdur ki, hesabat dövründə xidməti, icra və əmək intizamının daha da möhkəmləndirilməsi, fəaliyyətlərində qanunsuzluq hallarına və prokurorluq işçisinə yaraşmayan hərəkətlərə yol verən işçilərə münasibətdə tələbkarlıq artırılmışdır.

2020-ci il ərzində Baş Prokurorluq üzrə müvafiq əmrlərlə şəhər prokurorluq orqanlarının əməkdaşlarından əmək və icra intizamını pozan 8 nəfər intizam məsuliyyətinə cəlb edilmiş, onlardan 1 nəfər tutduğu vəzifədən azad olunmuş, 5 nəfərə töhmət elan edilmiş, 1 nəfərə irad tutulmuş, 1 nəfər rütbədən məhrum edilməklə prokurorluq orqanlarından xaric olunmuşdur.

Əməliyyat müşavirəsində Bakı şəhərinin tabe rayon prokurorları çıxış edərək mövzu ətrafında çıxışlar etmiş, nöqsanların aradan qaldırılması üçün zəruri tədbirlərin görüləcəyi bildirilmişdir.

Əməliyyat müşavirəsinə yekun vuran İlqar Abbasov şəhər prokurorluğunun kollektivinin bundan sonra da digər hüquq mühafizə orqanları ilə əlaqəli şəkildə dövlətçiliyimizin maraqlarının, ölkəmizdə bərqərar olmuş dayanıqlı ictimai-siyasi sabitlik və əmin-amanlığın qorunmasını, cinayətkarlığın bütün təzahürlərinə və hər cür qanunsuzluqlara qarşı mübarizənin gücləndirilməsini, insan və vətəndaş hüquq və azadlıqlarının etibarlı müdafiəsi üçün səlahiyyət hədləri daxilində zəruri tədbirlərin görülməsini təmin edəcəklərinə əminliyini ifadə etmişdir.

# Mətbuat xidmətinin MƏLUMATLARI

Yanvarın 17-də saat 07 radələrində Sumqayıt şəhər ərazisində yerləşən otellərin birində 1997-ci il təvəllüdlü Həsənova Aişən Məhərrəm qızının meyitinin aşkar edilməsi barədə şəhər prokurorluğuna məlumat daxil olmuşdur.

Cinayət prosessual qanunvericiliyinin tələblərinə əsasən, prokurorluq əməkdaşları tərəfindən məhkəmə-tibb ekspertinin iştirakı ilə hadisə yerinə və meyitə baxış keçirilmiş, digər prosessual hərəkətlər yerinə yetirilmişdir.

Aparılmış araşdırmalarla zərərçəkmişin əri 1991-ci il təvəllüdlü Həsənov Orxan Qorxmaz oğlunun qısqanclıq zəminində aralarında yaranmış münaqişə zamanı yastıqla Aişən Həsənovanı boğaraq sonuncunu qəsdən öldürməsinə əsaslı şübhələr müəyyən edilmişdir.

Faktla bağlı Sumqayıt şəhər prokurorluğunda Cinayət Məcəlləsinin 120.1-ci (qəsdən adam öldürmə) maddəsi ilə cinayət işi başlanmış, müvafiq ekspertizalar təyin edilmişdir.

Orxan Həsənov şübhəli şəxs qismində tutularaq istintaqa cəlb olunmuşdur.

Hazırda iş üzrə zəruri istintaq tədbirləri davam etdirilir.

***

Yanvarın 20-də saat 14 radələrində Ağsu rayonu, Qaraqoyunlu kənd sakini Hacıyev Mürvət Zabit oğluna odlu silahdan açılan atəşlə çoxsaylı bədən xəsarətlərinin yetirilməsi barədə rayon prokurorluğuna məlumat daxil olmuşdur.

Cinayət prosessual qanunvericiliyinin tələblərinə əsasən, prokurorluq əməkdaşları tərəfindən hadisə yerinə baxış keçirilmiş və digər zəruri prosessual hərəkətlər yerinə yetirilmişdir.

Aparılmış araşdırmalarla zərərçəkmişin həmkəndlisi 1968-ci il təvəllüdlü Hacıyev Qaya Seyidəhməd oğlunun şəxsi münasibətlər zəminində aralarında yaranmış mübahisə zamanı ov tüfəngindən atəş açaraq Mürvət Hacıyevi qəsdən öldürməyə cəhd etməsinə əsaslı şübhələr müəyyən edilmişdir.

Faktla bağlı Ağsu rayon prokurorluğunda Cinayət Məcəlləsinin 29, 120.1-ci (qəsdən adam öldürməyə cəhd) maddəsi ilə cinayət işi başlanmış, müvafiq ekspertizalar təyin edilmişdir.

Qaya Hacıyev şübhəli şəxs qismində tutularaq istintaqa cəlb edilmişdir.

Hazırda cinayət işi üzrə zəruri istintaq tədbirləri davam etdirilir.

***

Yanvarın 21-də saat 20 radələrində Şəmkir rayonu, Qədimqala kənd sakini, 1985-ci il təvəllüdlü Alıyev Bəxtiyar Adil oğlunun odlu silahdan açılan atəşlə öldürülməsi barədə rayon prokurorluğuna məlumat daxil olmuşdur.

Cinayət prosessual qanunvericiliyinin tələblərinə əsasən, prokurorluq əməkdaşları tərəfindən məhkəmə-tibb ekspertinin iştirakı ilə hadisə yerinə və meyitə baxış keçirilmiş, digər prosessual hərəkətlər yerinə yetirilmişdir.

Aparılmış araşdırmalarla zərərçəkmişin dayısı oğlu 1980-ci il təvəllüdlü Aslanov Vasif Elman oğlunun şəxsi münasibətlər zəminində aralarında yaranmış mübahisə zamanı ov tüfəngindən atəş açaraq Bəxtiyar Alıyevi qəsdən öldürməsinə əsaslı şübhələr müəyyən edilmişdir.

Faktla bağlı Şəmkir rayon prokurorluğunda Cinayət Məcəlləsinin 120.1-ci (qəsdən adam öldürmə) maddəsi ilə cinayət işi başlanmış, müvafiq ekspertizalar təyin edilmişdir.

Vasif Aslanov şübhəli şəxs qismində tutularaq istintaqa cəlb olunmuşdur.

Hazırda iş üzrə zəruri istintaq tədbirləri davam etdirilir.

***

Fevralın 1-də saat 18 radələrində 1992-ci il təvəllüdlü Qasımova Fəridə Şükür qızının öldürülməsi barədə rayon prokurorluğuna məlumat daxil olmuşdur.

Cinayət prosessual qanunvericiliyinin tələblərinə əsasən, prokurorluq əməkdaşları tərəfindən məhkəmə-tibb ekspertinin iştirakı ilə hadisə yerinə və meyitə baxış keçirilmiş, o cümlədən digər təxirəsalınmaz hərəkətlər yerinə yetirilmişdir.

Aparılmış araşdırmalarla zərərçəkmişin əri 1988-ci il təvəllüdlü Ehtibar Qasımovun qısqanclıq zəminində aralarında yaranmış mübahisə zamanı Fəridə Qasımovaya bıçaqla xəsarətlər yetirərək onu qəsdən öldürməsinə əsaslı şübhələr müəyyən edilmişdir.

Faktla bağlı Suraxanı rayon prokurorluğunda Cinayət Məcəlləsinin 120.1-ci (qəsdən adam öldürmə) maddəsi ilə cinayət işi başlanmış, müvafiq ekspertizalar təyin edilmişdir.

Ehtibar Qasımov şübhəli şəxs qismində tutularaq istintaqa cəlb olunmuşdur.
Hazırda iş üzrə zəruri istintaq tədbirləri davam etdirilir.

***

Fevralın 1-də saat 23 radələrində 1950-ci il təvəllüdlü Qurban Səfərova çoxsaylı bədən xəsarətlərinin yetirilməsi barədə şəhər prokurorluğuna məlumat daxil olmuşdur.

Cinayət prosessual qanunvericiliyinin tələblərinə əsasən, prokurorluq əməkdaşları tərəfindən hadisə yerinə baxış keçirilmiş və digər zəruri prosessual hərəkətlər yerinə yetirilmişdir.

Aparılmış araşdırmalarla zərərçəkmişin qonşusu 1959-cu il təvəllüdlü Əli Səlimovun şəxsi münasibətlər zəminində aralarında yaranmış mübahisə zamanı baltanın küt hissəsi ilə baş nahiyyəsinə zərbələr endirməklə Qurban Səfərovu qəsdən öldürməyə cəhd etməsinə əsaslı şübhələr müəyyən edilmişdir.

Faktla bağlı Sumqayıt şəhər prokurorluğunda Cinayət Məcəlləsinin 29,120.1-ci (qəsdən adam öldürməyə cəhd) maddəsi ilə cinayət işi başlanmış, müvafiq ekspertizalar təyin edilmişdir. Əli Səlimov şübhəli şəxs qismində tutularaq istintaqa cəlb edilmişdir.

Hazırda cinayət işi üzrə zəruri istintaq tədbirləri davam etdirilir.

Fevralın 5-də səhər saatlarında Şirvan şəhəri ərazisində 1969-cu il təvəllüdlü Dadaşova Durna Həsən qızının əllərinin, ayaqlarının və ağız nahiyəsinin skoçla bağlı vəziyyətdə meyitinin yaşadığı evdə aşkar edilməsi faktı ilə bağlı Şirvan şəhər prokurorluğunda Cinayət Məcəlləsinin 120.1-ci (qəsdən adam öldürmə) maddəsi ilə cinayət işi başlanmışdır.

Hadisənin təfərrüatlarının və cinayəti törətmiş şəxslərin müəyyən edilərək tutulub istintaqa cəlb edilməsi məqsədilə prokurorluq və polis əməkdaşları tərəfindən peşəkarlıqla həyata keçirilmiş intensiv istintaq-əməliyyat tədbirləri nəticəsində qeyri-aşkar şəraitdə törədilmiş ağır cinayətin "isti izlər"lə açılması təmin edilərək Durna Dadaşovanı qəsdən öldürməkdə şübhəli bilinən şəxslər tutularaq istintaqa cəlb olunmuşlar.

İstintaqla 1993-cü il təvəllüdlü Surxay Seyfullayevin tanışı 1988-ci il təvəllüdlü Elçin Əhədovla qabaqcadan əlbir olan bir qrup şəxs halında fevralın 4-dən 5-ə keçən gecə saatlarında tamah məqsədi ilə E.Əhədovun qonşusu Durna Dadaşovanı boğaraq öldürmələrinə əsaslı şübhələr müəyyən edilmişdir.

Surxay Seyfullayev və Elçin Əhədov şübhəli şəxs kimi tutularaq istintaqa cəlb olunmuşlar.

Prokurorluq və polis əməkdaşları tərəfindən Elçin Əhədovun yaşadığı evə baxış keçirilmiş, onun evindən D.Dadaşovanın mənzilində olmuş müşahidə kamerasının yaddaş aparatı və digər maddi sübutlar aşkar edilərək cinayət-prosessual qanunvericiliyinin tələblərinə uyğun olaraq müvafiq qaydada qablaşdırılaraq götürülmüşdür.

Hazırda iş üzrə intensiv istintaq tədbirləri davam etdirilir.

***

Fevralın 11-də saat 16 radələrində Gürcüstan Respublikasının vətəndaşı, Xəzər rayonu Südçülük sovxozu ərazisində yaşayan 1966-cı il təvəllüdlü Məmmədov Canpolad Alı oğlunun öldürülməsi barədə Xəzər rayon prokurorluğuna məlumat daxil olmuşdur.

Cinayət prosessual qanunvericiliyinin tələblərinə əsasən, prokurorluq əməkdaşları tərəfindən məhkəmə-tibb ekspertinin iştirakı ilə hadisə yerinə və meyitə baxış keçirilmiş, o cümlədən digər təxirəsalınmaz hərəkətlər yerinə yetirilmişdir.

Aparılmış araşdırmalarla zərərçəkmişin tanışı 1978-ci il təvəllüdlü İbrahimov Heydər Məhəmməd oğlunun aralarında yaranmış mübahisə zamanı soyuq silahdan istifadə etməklə Canpolad Məmmədovu qəsdən öldürməsinə əsaslı şübhələr müəyyən edilmişdir.

Faktla bağlı Xəzər rayon prokurorluğunda Cinayət Məcəlləsinin 120.1-ci (qəsdən adam öldürmə) maddəsi ilə cinayət işi başlanmış, müvafiq ekspertizalar təyin edilmişdir.

Heydər İbrahimov şübhəli şəxs qismində tutularaq istintaqa cəlb olunmuşdur.

Hazırda iş üzrə zəruri istintaq tədbirləri davam etdirilir.

Fevralın 13-də saat 21 radələrində Sabunçu rayon ərazisində 1971-ci il təvəllüdlü Şükürov Cavanşir Şakir oğluna məxsus üzərində xəsarət izləri olan meyitinin yaşadığı evdə aşkar edilməsi barədə rayon prokurorluğuna məlumat daxil olmuşdur.

Cinayət prosessual qanunvericiliyinin tələblərinə əsasən, prokurorluq və polis əməkdaşları tərəfindən məhkəmə-tibb ekspertinin iştirakı ilə hadisə yerinə və meyitə baxış keçirilmiş, digər prosessual hərəkətlər yerinə yetirilmişdir.

Aparılmış ilkin araşdırmalarla zərərçəkmişin oğlu 2002-ci il təvəllüdlü Cahangir Şükürlünün şəxsi münasibətlər zəminində aralarında yaranmış mübahisə zamanı bıçaqla xəsarətlər yetirərək Cavanşir Şükürovu qəsdən öldürməsinə əsaslı şübhələr müəyyən edilmişdir.

Faktla bağlı Sabunçu rayon prokurorluğunda Cinayət Məcəlləsinin 120.1-ci (qəsdən adam öldürmə) maddəsi ilə cinayət işi başlanmış, müvafiq ekspertizalar təyin edilmişdir.

Cahangir Şükürlü şübhəli şəxs qismində tutularaq istintaqa cəlb edilmişdir. Hazırda cinayət işi üzrə zəruri istintaq tədbirləri davam etdirilir.

***

Fevralın 18-də saat 12 radələrində bıçaq xəsarəti ilə ağır vəziyyətdə olan naməlum şəxsin rayon mərkəzi xəstəxanasında ölməsi barədə rayon prokurorluğuna məlumat daxil olub.

Cinayət prosessual qanunvericiliyin tələblərinə əsasən prokurorluq əməkdaşları tərəfindən məhkəmə-tibb ekspertinin iştirakı ilə hadisə yerinə və meyitə baxış keçirilib, o cümlədən digər təxirəsalınmaz istintaq hərəkətləri həyata keçirilib.

Aparılmış ilkin araşdırmalarla müəyyən edilib ki, Göyçay şəhər sakini 1989-cu il təvəllüdlü Salehov Polad Rəhman oğluna həmin gün saat 11 radələrində şəhərdə yerləşən "Əsgəroğlu" marketin qarşısında naməlum şəxs və ya şəxslər tərəfindən kəsilmiş-deşilmiş xəsarət yetirilib, zərərçəkmiş şəxs xəstəxanaya çatdırılaraq lazımi tibbi yardımın göstərilməsinə baxmayaraq, aldığı xəsarətdən vəfat edib.

Faktla bağlı Göyçay rayon prokurorluğunda Cinayət Məcəlləsinin 120.1-ci (qəsdən adam öldürmə) maddəsi ilə cinayət işi başlanıb, iş üzrə müvafiq ekspertizalar təyin olunub.

Hazırda cinayət törətmiş şəxs və ya şəxslərin müəyyən edilərək istintaqa cəlb olunması istiqamətində rayonun hüquq-mühafizə orqanları tərəfindən intensiv istintaq-əməliyyat tədbirləri davam etdirilir.

İctimaiyyətə əlavə məlumatın verilməsi təmin ediləcəkdir.

Fevralın 22-də saat 14 radələrində Saatlı rayonu Varxankənd kənd ərazisində fəhlənin təmir-tikinti işləri apararkən aldığı xəsarətlər nəticəsində ölməsi barədə rayon prokurorluğuna məlumat daxil olmuşdur.

Aparılmış ilkin araşdırmalarla müəyyən edilmişdir ki, fəhlə işləyən 1986-cı il təvəllüdlü Rəmzi Məmiyev rayonun Varxankənd kənd ərazisində yerləşən quşçuluq müəssisəsinin binasının dam örtüyünü yeniliyərkən həmin binanın dam hissəsindən yerə aşması nəticəsində aldığı xəsarətlərdən hadisə yerində ölmüşdür.

Faktla bağlı Saatlı rayon prokurorluğunda Cinayət Məcəlləsinin 162.2-ci (əmək mühafizəsi qaydalarını pozma ehtiyatsızlıqdan insan ölümünə səbəb olduqda) maddəsi ilə cinayət işi başlanmışdır. Prokurorluq əməkdaşları tərəfindən məhkəmə-tibb ekspertinin iştirakı ilə hadisə yerinə və meyitə baxış keçirilmiş, məhkəmə-tibb və məhkəmə-texniki təhlükəsizlik ekspertizaları təyin olunmuş və digər zəruri prosessual hərəkətlər yerinə yetirilmişdir. Hazırda iş üzrə istintaq tədbirləri davam etdirilir.

***

Martın 1-də saat 13 radələrində paytaxtın Xətai rayonu, N.Tusi küçəsi 18 ünvanında yerləşən binanın qarşısında 1999-cu il təvəllüdlü Nəsibov Bəxtiyar Əli oğlunun üzərində xəsarət izləri olan meyitinin aşkar edilməsi barədə rayon prokurorluğuna məlumat daxil olmuşdur.

Cinayət prosessual qanunvericiliyinin tələblərinə əsasən, prokurorluq əməkdaşları tərəfindən məhkəmə-tibb ekspertinin iştirakı ilə hadisə yerinə və meyitə baxış keçirilmiş, digər prosessual hərəkətlər yerinə yetirilmişdir.

Aparılmış ilkin araşdırmalarla Bakı şəhər sakini 2002-ci il təvəllüdlü Abbasov Əli Allahverdi oğlunun şəxsi münasibətlər zəminində aralarında yaranmış mübahisə zamanı Bəxtiyar Nəsibovun döş qəfəsinin sol nahiyəsinə kəsici-deşici alətlə xəsarət yetirərək sonuncunu qəsdən öldürməsinə əsaslı şübhələr müəyyən edilmişdir.

Faktla bağlı Xətai rayon prokurorluğunda Cinayət Məcəlləsinin 120.1-ci (qəsdən adam öldürmə) maddəsi ilə cinayət işi başlanmış, müvafiq ekspertizalar təyin edilmişdir.

Hazırda Əli Abbasovun yerinin müəyyən edilərək şübhəli şəxs qismində tutulması istiqamətində intensiv əməliyyat-axtarış tədbirləri və istintaq hərəkətləri davam etdirilir.

***

Martın 10-da saat 09 radələrində Bakı şəhəri, Xətai rayonu, Sabit Orucov küçəsi 28 ünvanında yerləşən çayxanada xadimə işləyən Baxşiyeva Mahirə Hüseyn qızının üzərində çoxsaylı kəsilmiş-deşilmiş xəsarətlərlə zorakılıq əlamətləri olan meyitinin aşkar edilməsi barədə rayon prokurorluğuna məlumat daxil olmuşdur.

Cinayət prosessual qanunvericiliyinin tələblərinə əsasən, prokurorluq əməkdaşları tərəfindən məhkəmə-tibb ekspertinin iştirakı ilə hadisə yerinə və meyitə baxış keçirilmiş, digər prosessual hərəkətlər yerinə yetirilmişdir.

Aparılmış ilkin araşdırmalarla zərərçəkmişin oğlu 1990-cı il təvəllüdlü Baxşiyev Zamin Afərin oğlunun şəxsi münasibətlər zəminində aralarında yaranmış mübahisə zamanı bıçaqla çoxsaylı xəsarətlər yetirərək Mahirə Baxşiyevanı qəsdən öldürməsinə əsaslı şübhələr müəyyən edilmişdir.

Faktla bağlı Xətai rayon prokurorluğunda Cinayət Məcəlləsinin 120.1-ci (qəsdən adam öldürmə) maddəsi ilə cinayət işi başlanmışdır.

Zamin Baxşiyev şübhəli şəxs qismində tutularaq istintaqa cəlb edilmiş, cinayətin predmeti olan bıçaq, həmçinin iş üçün əhəmiyyət kəsb edən digər maddi sübutlar müvafiq qaydada qablaşdırılaraq götürülmüşdür.

Hazırda cinayət işi üzrə istintaq hərəkətləri davam etdirilir.

Martın 10-da saat 19 radələrində Astara rayonu, Şəmətük kəndində kənd sakini 1991-ci il təvəllüdlü Ağayev Musa Arzu oğlunun bıçaqlanaraq öldürülməsi barədə rayon prokurorluğuna məlumat daxil olmuşdur.

Cinayət prosessual qanunvericiliyinin tələblərinə əsasən, prokurorluq əməkdaşları tərəfindən məhkəmə-tibb ekspertinin iştirakı ilə hadisə yerinə və meyitə baxış keçirilmiş, digər prosessual hərəkətlər yerinə yetirilmişdir.

Aparılmış ilkin araşdırmalarla zərərçəkmişin əmisi oğlu Ağayev Famil Qəyim oğlunun şəxsi münasibətlər zəminində aralarında yaranmış mübahisə zamanı bıçaqla xəsarətlər yetirərək Musa Ağayevi qəsdən öldürməsinə əsaslı şübhələr müəyyən edilmişdir.

Faktla bağlı Astara rayon prokurorluğunda Cinayət Məcəlləsinin 120.1-ci (qəsdən adam öldürmə) maddəsi ilə cinayət işi başlanmışdır.

Famil Ağayev şübhəli şəxs qismində tutularaq istintaqa cəlb edilmişdir.

Hazırda cinayət işi üzrə istintaq hərəkətləri davam etdirilir.

## Baş Prokurorluğun instagram sosial platformasi üzərindən həyata keçirdiyi sual-cavab sessiyaları ilə bağlı vətəndaşlara xidmət davam etdirilir

Baş Prokurorluğun Mətbuat xidmətinin 12.02.2021-ci il tarixdə instagram sosial platformasi üzərindən həyata keçridiyi "sual-cavab" sessiyası zamanı 107 müraciət daxil olmuş, həmin müraciətlər müvafiq qaydada cavablandırılmış, növbəti, yəni 19.03.2021-ci il tarixdə keçirilmiş sessiyası zamanı isə ümumilikdə 50 müraciət daxil olmuş, onlardan 45-i üzrə müvafiq izah verilmiş, 5 müraciət aidiyyəti üzrə göndərilmişdir.


















# Baş prokuror Kamran Əliyev Polşa Respublikasının ölkəmizdəki Fövqəladə və səlahiyyətli səfiri Rafal Poborski ilə görüşmüşdür







Yanvarın 18-də Azərbaycan Respublikasının Baş prokuroru Kamran Əliyev Polşa Respublikasının ölkəmizdəki Fövqəladə və səlahiyyətli səfiri Rafal Poborski ilə görüşüb

Qonaqları səmimi salamlayan Baş prokuror Azərbaycanla Polşa arasında ənənəvi dostluq və tərəfdaşlıq əlaqələrinə, bütün sahələrdə işgüzar münasibətlərin mövcudluğuna toxunaraq, dövlətlərimizin hüquq mühafizə orqanları arasında əməkdaşlığı haqqında danışıb.

Baş prokuror otuz ilə yaxın dövrdə Azərbaycanın Ermənistan tərəfindən işğal altında saxlanılan beynəlxalq səviyyədə tanınmış ərazilərinin Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında azad edildiyini, ölkəmizin beynəlxalq hüququn norma və prinsipləri çərçivəsində, o cümlədən BMT-nin Təhlükəsizlik Şurasının qətnamələrinə uyğun olaraq ərazi bütövlüyünü bərpa etdiyini vurğulayıb.

Kamran Əliyev Ermənistanın silahlı qüvvələri tərəfindən ölkəmizin mülki əhalisinə qarşı törədilmiş cinayətlərlə bağlı Baş Prokurorluğun təşkil etdiyi brifinqlərdə Polşa Səfirliyinin iştirakına görə təşəkkürünü bildirib.

Səmimi qəbula görə təşəkkürünü bildirən səfir Rafal Poborski ikitərəfli münasibətlərə toxunaraq

Polşanın Azərbaycanla əlaqələrə böyük önəm verdiyini və iki ölkə arasında münasibətlərin ən yüksək səviyyədə və müvəffəqiyyətlə inkişaf etdiyini vurğulayıb. Xüsusilə qeyd olunub ki, Polşa Azərbaycan Respublikasının ərazi bütövlüyünü tanıyır, dəstəkləyir və ümid edir ki, regionda bundan sonrakı dövrdə sülh və əmin-amanlıq bərqərar olacaqdır.

Rafal Poborski hər iki ölkənin rəhbərləri arasındakı dostluq münasibətlərinin nazirliklər, müxtəlif qurumlar, hüquq-mühafizə orqanları, həmçinin prokurorluqlar arasında qarşılıqlı əməkdaşlıq əlaqələrinin daha da möhkəmlənməsinə xidmət etdiyini diqqətə çatdıraraq, bu əməkdaşlığın beynəlxalq qurumlar və ikitərəfli münasibətlər çərçivəsində davam etdirilməsinin əhəmiyyətini nəzərə çatdırmışdır.

Baş Prokuror Kamran Əliyev səfir Rafal Poborskinin təklifinin vacibliyini qeyd edərək hər iki ölkənin prokurorluq orqanları arasında korrupsiyaya qarşı mübarizə, pul vəsaitlərinin leqallaşdırılması, terrorçuluq və s. beynəlxalq cinayətlərə qarşı mübarizədə müxtəlif beynəlxalq proqramlar çərçivəsində əməkdaşlığın davam etdirilməsinin mümkünlüyünü diqqətə çatdırmışdır.

Görüşdə qarşılıqlı maraq kəsb edən digər məsələlər də müzakirə olunmuş, faydalı fikir mübadiləsi aparılmışdır.



## Baş Prokurorluğun əməkdaşları Avropa İttifaqının TAİEX aləti çərçivəsində onlayn təlimdə iştirak ediblər

5 fevral tarixində Avropa Komissiyası tərəfindən TAIEX texniki yardım aləti çərçivəsində Azərbaycan Respublikası Baş Prokurorluğunun sorğusu əsasında "COVİD-19 pandemiyası dövründə qarşılıqlı hüquqi yardımın göstərilməsi və istintaq hərəkətlərinin onlayn qaydada keçirilməsi" movzusunda videkonfrans formatında ekspert missiyası təşkil edilmişdir.

Təlimdə Baş Prokurorluğun əməkdaşları iştirak etmişlər, həmçinin Xorvatiya Respublikası Ədliyyə və İdarəetmə Nazirliyinin Antikorrupsiya Sektorunun müdiri Tamara Miserda və İtaliya Respublikası Daxili İşlər Nazirliyinin Baş Polis İnspektoru Maurisio Varaneze ekspert qismində çıxış ediblər.

Qeyd olunmalıdır ki, TAİEX Avropa Komissiyasının Genişlənmə üzrə Baş Direktorluğunun Texniki Yardım və İnformasiya Mübadiləsi mexanizmidir. Seminarlar, ekspert missiyaları və araşdırma səfərlərini təşkil etmək kimi dəstəkləyici tədbirlər vasitəsilə TAİEX Azərbaycan qanunvericiliyinin Avropa İttifaqı qanunvericiliyinə uyğunlaşdırılması, tətbiqi və həyata keçirilməsində Azərbaycanın dövlət qurumları ilə əməkdaşlıq imkanını yaradır. Sözügedən tədbirin əsas məqsədi də Baş Prokurorluğun struktur qurumlarının əməkdaşlarının pandemiya dövründə qarşılıqlı hüquqi yardım və istintaq hərəkətlərinin keçirilməsi sahələrindəki biliklərinin artırılması və Avropa təcrübəsinin öyrənilməsi olmuşdur.

Ekspertlər Tamara Miserda və Maurisio Varaneze təlimin mövzusu ətrafında çıxış edərək pandemiya dövründə qarşılıqlı hüquqi yardım və istintaq hərəkətlərinin onlayn qaydada keçirilməsi sahəsində həmin ölkələrin təcrübəsi və bu sahədə qanunvericiliyin tətbiqi xüsusiyyətləri, şəxslərin videokonfrans formatında dindirilməsinin hüquqi və praktiki tərəfləri barədə ətraflı məlumat verilməklə təqdimatlar etmiş, istintaq edilmiş cinayət işlərindən nümunələr göstərmişlər.

Tədbir zamanı iştirakçıları maraqlandıran suallar ekspertlər tərəfindən ətraflı cavablandırılmışdır.

## Baş Prokuroluğun əməkdaşları beynəlxalq onlayn təlimdə iştirak etmişlər

Cari ilin 22-24 fevral tarixlərində Avropa Şurasının Kibercinayətkarlıq üzrə proqram ofisinin təşkilatçılığı ilə "Kibercinayətlər və elektron dəlillər sahəsində əməkdaşlıq" mövzusunda onlayn təlim keçirilmişdir. Tədbirdə prokurorluq, polis, ədliyyə orqanları və digər qurumların nümayəndələri iştirak etmişlər.

Təlimdə kibercinayətkarlıq sahəsində beynəlxalq əməkdaşlıq, Budapeşt Konvensiyasında nəzərdə tutulan müddəalar, hüquqi yardım haqqında sorğular, onların nümunələri, formal, qeyri-formal əməkdaşlıq üsulları və digər mövzular ətrafında müzakirələr aparılmış, bu sahədə milli qanunvericilik barədə ətraflı məlumat verilmişdir. Bunlarla yanaşı təlim iştirakçıları kazus üzərində işləmiş, müvafiq məruzələr hazırlamışlar.

İştirak beynəlxalq ekspertlər tərəfindən yüksək qiymətləndirilmiş, yekunda iştirakçılar arasında təlim zamanı qazanılmış biliklərin yoxlanılması məqsədilə yazılı sorğu keçirilmiş, sorğunu uğurla tamamlayanlar sertifikatlarla təltif edilmişlər.

## Baş Prokurorluğun nümayəndələri beynəlxalq tədbirdə iştirak etmişlər

Ölkəmiz sülh və təhlükəsizliyə dair tematik məsələlərin təşviq edilməsi üçün Birləşmiş Millətlər Təşkilatının aidiyyəti qurumları, o cümlədən terrorçuluğa, mütəşəkkil cinayətkarlığa, narkotik vasitələrin yayılmasına qarşı mübarizə və digər müvafiq sahələrdə BMT-nin Narkotiklər və Cinayətkarlığa qarşı Mübarizə Ofisi (UNODC) ilə səmərəli əməkdaşlıq edir.

25-26 fevral tarixlərində videokonfrans formatında BMT-nin Narkotiklər və Cinayətkarlıq Ofisinin Mərkəzi Asiya və Şimali Qafqaz Şəbəkəsinin (CASC) növbəti plenar görüşü baş tutmuşdur. CASC şəbəkəsinin plenar iclasları ona üzv olan dövlətlərin səlahiyyətli orqanları arasında qarşılıqlı əlaqə kanallarının yaradılması üçün mühüm vasitə olmaqla Mərkəzi Asiya və Cənubi Qafqazda regional mütəşəkkil cinayətkarlıqla mübarizə çərçivəsində qarşılıqlı hüquqi yardım və ekstradisiya məsələlərinin həllinə yönəlmişdir.

Azərbaycan Respublikası Baş Prokurorluğunu sözügedən görüşdə Beynəlxalq hüquqi əməkdaşlıq idarəsinin rəis müavini Əmir Ocaqverdiyev və Xüsusi müsadirə məsələlərinin əlaqələndirilməsi idarəsinin rəis müavini İsmayıl Qayıbov təmsil etmişlər.

Plenar görüşün əsas məqsədi cinayətkarlığın bütün təzahürlərinə qarşı mübarizə sahəsində beynəlxalq əlaqələrin genişlənməsi olmuşdur. Görüşdə mütəşəkkil cinayətkarlıq, o cümlədən insan alveri, narkotik vasitələrin qanunsuz dövriyyəsi və əmlakın bərpası məsələlərində təcrübə mübadiləsi aparılmış, həmçinin Mərkəzi Asiya və Şimali Qafqaz Şəbəkəsinin 2021-ci il üçün iş planı müzakirə olunmuşdur.

# Cinayətlərin təkrarlığına dair bəzi məsələlər üzrə vahid istintaq və məhkəmə təcrübəsinin yaradılmasının zəruriliyi barədə

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin "Məhkəmə-hüquq sistemində islahatların dərinləşdirilməsi haqqında" 3 aprel 2019-cu il tarixli Fərmanında qeyd olunduğu kimi vahid məhkəmə təcrübəsi formalaşdırılması hüquqi məsələlərin həllinə yanaşmanın sabitliyini və normativ hüquqi aktların tətbiqi ilə bağlı hüquqi mövqenin proqnozlaşdırılan olmasını təmin edir.

Azərbaycan Respublikası Cinayət Məcəlləsinin (bundan sonra Cinayət Məcəlləsi) normalarının tətbiqi üzrə vahid istintaq və məhkəmə təcrübəsi mühüm əhəmiyyət kəsb edir.

Cinayət Məcəlləsinin ən çox tətbiq olunan normalarından biri də cinayətlərin təkrar törədilməsidir.

Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Plenumunun "Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 18.5, 61.1.1 və 65-ci maddələrinin şərh edilməsinə dair 18 mart 2013-cü il tarixli qərarına əsasən" təkrarlıq institutu cinayətlərin çoxluğunun ən mürəkkəb formasıdır.

Cinayətlərin təkrar törədilməsinin anlayışı Cinayət Məcəlləsinin 16-cı maddəsində verilmiş, hüquq nəzəriyyəsində bu institut tədqiq olunmuş, Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Plenumunun və Azərbaycan Respublikası Ali Məhkəməsinin Plenumunun bir neçə qərarları ilə cinayətlərin təkrar törədilməsinə dair bəzi məsələlər rəsmi şərh edilmişdir.

Cinayətlərin təkrar törədilməsi Cinayət Məcəlləsinin 61.1.1-ci maddəsinə əsasən cəzanı ağırlaşdıran hal, Cinayət Məcəlləsinin Xüsusi hissəsində 70-dən artıq maddə üzrə cinayət tərkibinin əlaməti kimi müəyyən edilmişdir.

Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Plenumunun "Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 177-ci maddəsinin "Qeyd" hissəsinin 3-cü bəndinin şərh edilməsinə dair" 2013-cü il 4 mart tarixli Qərarına əsasən, cinayət qanunvericiliyində cinayətlərin təkrar törədilməsi institutu məsuliyyətin gücləndirilməsi və ya məsuliyyətin ağırlaşdırılması halı kimi qiymətləndirilir. Şəxs tərəfindən cinayətin təkrar törədilməsi, bir qayda olaraq, onun sabit kriminal meylliliyinə dəlalət edir, bu isə nəticə etibarilə onun yüksək ictimai təhlükəliliyinə işarə edir. Bu baxımdan, qanunvericilikdə təkrar cinayətə görə daha ağır cəza təyin edilməsi nəzərdə tutulmuşdur.

Cinayət Məcəlləsinin 16-cı maddəsinə əsasən, bu Məcəllənin eyni bir maddəsi ilə nəzərdə tutulmuş cinayətin iki dəfə və ya iki dəfədən çox törədilməsi, cinayətin təkrar törədilməsi hesab edilir. Bu Məcəllənin müxtəlif maddələri ilə nəzərdə tutulmuş iki və ya daha çox cinayətin törədilməsi, yalnız həmin Məcəllənin Xüsusi hissəsində birbaşa göstərilən hallarda cinayətin təkrar törədilməsi hesab edilir. Əvvəllər törətdiyi cinayətə görə məhkum olunmuş, məhkumluğu götürülmüş və ya ödənilmiş, yaxud cinayət məsuliyyətindən azad olunmuş şəxs tərəfindən bu Məcəllənin eyni bir maddəsi ilə nəzərdə tutulmuş və ya həmin Məcəllənin Xüsusi hissəsində birbaşa göstərilən hallarda müxtəlif maddələri ilə nəzərdə tutulmuş cinayətin yenidən törədilməsi, cinayətin təkrar törədilməsi hesab edilmir.

Cinayət Məcəlləsinin 16-cı maddəsində nəzərdə tutulan təkrarlıq:

- cinayətləri təkrar törətmiş şəxs onlardan heç birinə görə məhkum olunmadığı halda;
- şəxsin iki və ya daha artıq cinayət törətməsi zamanı;
- eyni və həmcins cinayətlərin törədilməsi zamanı yaranır.

Həmin maddədə təkrarlığın iki müstəqil növü müəyyən olunmuşdur:

- Məcəllənin eyni maddəsi ilə nəzərdə tutulmuş cinayətin iki və ya iki dəfədən çox törədilməsi (Cinayət Məcəlləsinin 16.1-ci maddəsi);
- Məcəllənin Xüsusi hissəsində birbaşa göstərilən hallarda, Məcəllənin müxtəlif maddələri ilə nəzərdə tutulmuş iki və ya daha çox cinayətin törədilməsi (Cinayət Məcəlləsinin 16.2-ci maddəsi).

Maddənin mahiyyətindən göründüyü kimi, təkrar cinayətlər eyni və həmcins cinayətlərə bölünür.

Cinayət Məcəlləsinin eyni tərkib əlamətlərinə malik olan cinayətlərin təkrar törədilməsi eyni cinayətlər hesab olunur (məsələn, şəxs iki oğurluq cinayəti törədir).

Həmcins cinayətlər isə oxşar tərkib əlamətlərinə malik olan cinayətlərin təkrar törədilməsi kimi qəbul edilir (məsələn, Cinayət Məcəlləsinin 177-183-cü maddələri).

Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Plenumunun "Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 177-ci maddəsinin "Qeyd" hissəsinin 1 və 3-cü bəndlərinin şərh edilməsinə dair" 23 aprel 2018-ci il tarixli qərarında qeyd edilmişdir ki, cinayətin təkrar törədilmiş hesab edilməsi üçün təqsirkarın ən azı iki ictimai-təhlükəli əməli törətməsi faktı müəyyən edilməlidir. Bu fakt həmişə təkrarlığın təqsirkar şəxsdə mənfi xüsusiyyətlərin mövcudluğu ilə xarakterizə olunduğunu göstərir. Təkrarlıq ona daxil olan cinayətlərin müxtəlif vaxtlarda törədilməsini ehtiva edir. Təqsirkar şəxsin müxtəlif həyat şəraitində qanuna uyğun davranış qaydasını seçmək imkanının olmasına baxmayaraq, şüurlu olaraq cinayət qanunu ilə qadağan olunmuş davranış qaydasını seçməsi onun yüksək ictimai təhlükəliliyini sübut edir.

Cinayət Məcəlləsinin 16-cı maddəsində inzibati xətaların təkrar törədilməsinin cinayət hesab edilməsinin mümkünlüyü qeyd edilməsə də, Cinayət Məcəlləsinin Xüsusi Hissəsində nəzərdə tutulduqda inzibati xətaların təkrar törədilməsi cinayət hesab edilir.

Xətanın çərçivəsini qanunverici müəyyən edir və qanunverici hansı növ xətanın təkrar törədilməsinin dövlət mənafelərinə hansı dərəcədə zərər vurması ehtimalının reallığından çıxış edərək onun cinayət hesab olunmasını israr edir.

Cinayət Məcəlləsindən fərqli olaraq Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinə əsasən inzibati xətaya görə tənbeh almamış şəxsin yenidən eyni inzibati xətanı törətməsi, yəni təkrar törədilmə inzibati xəta tərkibinin əlaməti (tövsifedici əlamət) və məsuliyyəti ağırlaşdıran hal olaraq müəyyən edilməmişdir. İnzibati tənbeh almış şəxsin eyni xətanı inzibati tənbeh vermə haqqında qərar qüvvəyə mindiyi gündən bir il ərzində təkrar törətməsi məsuliyyəti ağırlaşdıran hal və inzibati xəta tərkibinin əlaməti kimi nəzərdə tutulmuşdur.

Bəzi dövlətlərin cinayət qanunvericiliyində cinayətlərin təkrar törədilməsi anlayışından ya ümumiyyətlə istifadə olunmur, ya da təkrarən cinayət törətmə cəza təyini zamanı cinayət törətmiş şəxsə daha ağır cəza təyin olunmasına səbəb olur (yəni "cinayətlərin təkrarlığı" institutu "cinayətlərin residivi" institutunu əvəzləyir). Belə olan hallarda hansı növ cinayət törətməsindən asılı olmayaraq (istər eyni və həmcins cinayətlərin törədilməsi, istərsə də cinayət məcəlləsinin müxtəlif maddələri ilə nəzərdə tutulmuş cinayətlərin törədilməsi) şəxsin əməli cinayətlərin məcmusu qaydasında tövsif olunur və ona eyni qaydalara görə cəza təyin olunur. (məsələn Almaniya, Rusiya, Yaponiya və sair )

Cinayətlərin təkrar törədilməsi ilə əlaqədar əksər məsələlər üzrə Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Plenumunun, Azərbaycan Respublikası Ali Məhkəməsinin Plenumunun qərarları və konkret işlər üzrə məhkəmə qərarları əsasında vahid istintaq və məhkəmə təcrübəsi formalaşsa da, bəzi hallar üzrə fikir ayrılıqları mövcuddur.

Konkret misallarda əks olunan suallar ilə həmin kazuslar aşağıdakılardır:

Cinayətin təkrarlığını yaradan cinayətlərın (əməllərin) hər birinə görə ayrılıqda cinayət məsuliyyətinə cəlb etmə müddəti keçdiyi halda şəxs cinayət məsuliyyətinə cəlb oluna bilərmi?

Məsələn, şəxs təkrar mənimsəmə cinayəti törətmiş və Cinayət Məcəlləsinin 179.2.2-ci maddəsi ilə məhkəmə məsuliyyətinə verilmişdir. Hökm çıxarılanadək və ya qanuni qüvvəyə minənədək sonuncu epizoddan iki ildən artıq müddət keçmişdir. Həmin şəxs cinayət məsuliyyətinə cəlb olunub cəzalana bilərmi?

İlk növbədə qeyd olunmalıdır ki, cinayət məsuliyyətinə cəlb etmə müddəti keçdiyi halda şəxsin təkrar eyni və ya həmcins cinayəti törətməsi cinayətlərin təkrarlığını yarada bilməz. Bu mövqe Cinayət Məcəlləsinin 16-cı maddəsində əks olunmasa da, Azərbaycan Respublikası Ali Məhkəməsinin Plenumunun bir sıra qərarlarında əks olunmuş və istintaq təcrübəsi formalaşmışdır.

"Oğurluq, soyğunçuluq və quldurluğa dair işlər üzrə məhkəmə təcrübəsi haqqında" Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunun 3 mart 2005-ci il tarixli qərarının 18-ci bəndinə əsasən şəxs, tövsifedici əlamətlər olmadan, özgə əmlakının eyni formada iki və ya daha çox müstəqil talanmasına görə (məsələn, müxtəlif mülkiyyətçilərdən bir neçə dəfə oğurluq edilməsi) məhkum edilməmişsə, yaxud cinayət məsuliyyətinə cəlb etmə müddətləri keçməmişsə, bu zaman həmin hərəkətlər, Cinayət Məcəlləsinin 16.2-ci maddəsinə müvafiq olaraq, Cinayət Məcəlləsinin 177.2.2, 180.2.2 və ya 181.2.2-ci maddələrində nəzərdə tutulmuş təkrar törədilmiş cinayət kimi tövsif edilməlidir.

Bundan başqa, "Narkotik vasitələrin, psixotrop maddələrin və ya onların prekursorlarının qanunsuz dövriyyəsinə dair cinayət işləri üzrə məhkəmə təcrübəsi haqqında" Azərbaycan Respublikası Ali Məhkəməsinin Plenumunun 4 mart 2011-ci il tarixli qərarının 13-cü bəndinə əsasən, Cinayət Məcəlləsinin 234.2 və 234.3-cü maddələrində nəzərdə tutulan əməllərin təkrar törədilməsi dedikdə onların hər hansı birinin iki dəfə və ya daha çox törədilməsi başa düşülməlidir. Əvvəlki cinayətə görə məhkumluq götürüldükdə, ödənildikdə və yaxud cinayət məsuliyyətinə cəlb etmə müddəti keçdikdə təkrarlıq əlaməti yaranmır.

Məlum olduğu kimi, Cinayət Məcəlləsinin 179.1-ci maddəsi ilə nəzərdə tutulan əməl böyük ictimai təhlükə törətməyən, Cinayət Məcəlləsinin 179.2.2-ci maddəsi ilə nəzərdə tutulan əməllər az ağır cinayətdir.

Cinayət Məcəlləsinin 75.1-ci maddəsinə əsasən böyük ictimai təhlükə törətməyən cinayətin törədildiyi gündən iki il, az ağır cinayətin törədildiyi gündən yeddi il keçdikdə şəxs cinayət məsuliyyətinə cəlb edilə bilməz. Cinayət Məcəlləsinin 75.2-ci maddəsinə əsasən müddətlər, cinayətin törədildiyi gündən ittiham hökmünün qanuni qüvvəyə mindiyi anadək hesablanır. Şəxs yeni cinayət törətdikdə, hər bir cinayətə görə müddət müstəqil hesablanır.

İstintaq və məhkəmə təcrübəsində bəzi hüquqşünaslar hesab edirlər ki, Cinayət Məcəlləsinin 179.2.2-ci maddəsinin tərkibini yaradan cinayətlər ayrı-ayrılıqda böyük ictimai təhlükə törətməyən cinayət olduğundan, iki ildən artıq müddət keçdiyinə görə və Cinayət Məcəlləsinin 75.2-ci maddəsinə əsasən şəxs yeni cinayət törətdikdə hər bir cinayətə görə müddət müstəqil hesablandığından hökm çıxarılanadək və ya qanuni qüvvəyə minənədək iki ildən artıq müddət keçmiş epizodlara görə müddətin keçməsi ilə bağlı şəxs cinayət məsuliyyətindən azad edilməlidir. Sonuncu epizoddan iki ildən artıq müddət keçdiyi halda isə müddətin keçməsi ilə bağlı şəxs cinayət məsuliyyətindən tam azad edilməlidir.

"Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 16 və 18-ci maddələrinin bəzi müddəalarının şərh edilməsinə dair" Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Plenumunun 25 yanvar 2021-ci il tarixli qərarına əsasən Cinayət Məcəlləsinin 16-cı maddəsində nəzərdə tutulan cinayətlərin təkrarlığı zamanı ona daxil olan cinayətlər vahid niyyət və ümumi məqsədlə birləşmir və hər bir ayrı əməl digərləri ilə faktiki əlaqədə olmur. Bu rəsmi şərh də qeyd olunan mövqe tərəfdarlarının əsaslandırmasını gücləndirir.

Həmin mövqe ilə razı olmayan hüquqşünaslar isə hesab edirlər ki, Cinayət Məcəlləsinin 179.2.2-ci maddəsi ilə nəzərdə tutulan əməllər az ağır cinayətlərə aid olduğuna görə sonuncu əməldən yeddi ildən artıq müddət keçdikdən sonra şəxs cinayət məsuliyyətindən azad edilə bilər.

Qeyd olunan hüquqi məsələ ilə əlaqədar vahid istintaq və məhkəmə təcrübəsi yoxdur.

Bundan başqa, inzibati xətaların təkrar törədilməsi cinayət hesab edildiyi halda əməlin təkrarlıq yaratma-




sını müəyyən edərkən cinayət məsuliyyətinə, yoxsa inzibati məsuliyyətə cəlb etmə müddətləri nəzərə alınmalı olmasına dair də vahid təcrübə yaradılmalıdır.

Məsələn, şəxs 500 manatdan az, lakin 100 manatdan artıq ziyan vurmaqla törətdiyi əməldən hansı müddət keçməmiş (cinayət məsuliyyətinə, yoxsa inzibati məsuliyyətə cəlb etmə müddətləri) yenidən oğurluq cinayəti törədərsə həmin əməl Cinayət Məcəlləsinin 177.2.2-ci maddəsi ilə cinayət məsuliyyətinə səbəb ola bilər?

Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin 38.1-ci maddəsinə əsasən xırda talamaya görə inzibati tənbeh, inzibati xətanın törədildiyi gündən bir il keçənədək verilə bilər. İnzibati Xətalar Məcəlləsinin 38.3-cü maddəsinə əsasən cinayət işinin başlanması rədd edildikdə və ya cinayət işinə xitam verildikdə, lakin şəxsin əməllərində inzibati xəta tərkibinin bütün əlamətləri olduqda, inzibati tənbeh cinayət işinin başlanmasının rədd edilməsi və ya ona xitam verilməsi haqqında qərar qəbul edildiyi gündən ən geci üç ay keçənədək verilə bilər.

Məlum olduğu kimi, yalnız cinayət qanunvericiliyində nəzərdə tutulmuş hallarda inzibati xətaların təkrar törədilməsi cinayət hesab edilir. Lakin qanunvericilikdə inzibati xətaların təkrar törədilməsi cinayət hesab edilməsi halında təkrarlıq yaradan əməllər üzrə cinayət, yoxsa inzibati məsuliyyətə cəlb etmə müddətlərinin nəzərə alınması müəyyən edilməmişdir.

Hesab edirəm ki, inzibati xətaların təkrar törədilməsi cinayət hesab edildiyi halda təkrarlıq yaradan əməl üzrə inzibati məsuliyyətə cəlb etmə müddətləri əsas götürülməli Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin 38.1-ci maddəsi ilə müəyyən edilən inzibati məsuliyyətə cəlb etmə müddəti keçməmişsə cinayətin və ya xətanın törədilməsi təkrar törədilmiş cinayət kimi tövsif edilməlidir.

Göstərilənlərə əsasən, qeyd olunan hüquqi məsələlər ilə əlaqədar vahid istintaq və məhkəmə təcrübəsi yaradılmalıdır.

Təkrar törədilməsi cinayət hesab edilən inzibati xətaya görə şəxsin barəsində cinayət işinin başlanması rədd edilmiş, lakin inzibati məsuliyyətə cəlb olunmamışsa yenidən inzibati xəta və ya cinayət törədərsə əməl cinayətlərin təkrarlığını yaradırmı?

Məsələn, 500 manatdan az, lakin 100 manatdan artıq miqdarda ziyan vurmaqla törətdiyi oğurluğa görə şəxsin barəsində cinayət işinin başlanması rədd edilmiş, lakin inzibati məsuliyyətə cəlb olunma məsələsi həll olunmamışsa onun təkrarən oğurluq törətdiyi müəyyən edilərsə həmin əməl Cinayət Məcəlləsinin 177.2.2-ci maddəsi ilə cinayət məsuliyyətinə səbəb ola bilərmi?

İlk növbədə qeyd olunmalıdır ki, şəxs təkrar törədilməsi cinayət hesab edilən inzibati xətaya görə inzibati məsuliyyətə cəlb edilmişsə və ya ziyanın ödənilməsi və ya zərərçəkmişlə barışmağa görə məsuliyyətdən azad olunmuşsa yenidən inzibati xəta və ya cinayət törədərsə əməl cinayətlərin təkrarlığını yarada bilməz. Belə ki, Cinayət Məcəlləsinin 16-cı maddəsinə əsasən əvvəllər törətdiyi cinayətə görə məhkum olunmuş, yaxud cinayət məsuliyyətindən azad olunmuş şəxs tərəfindən bu Məcəllənin eyni bir maddəsi ilə nəzərdə tutulmuş və ya həmin Məcəllənin Xüsusi hissəsində birbaşa göstərilən hallarda müxtəlif maddələri ilə nəzərdə tutulmuş cinayətin yenidən törədilməsi, cinayətin təkrar törədilməsi hesab edilmədiyinə görə inzibati məsuliyyətə cəlb olunmuş, yaxud inzibati məsuliyyətindən azad olunmuş şəxs tərəfindən yenidən inzibati xəta və ya cinayət törədilərsə cinayətlərin təkrarlığını yarada bilməz.

Təkrar törədilməsi cinayət hesab edilən inzibati xətaya görə şəxsin barəsində cinayət işinin başlanması rədd edilmiş, lakin o, inzibati məsuliyyətə cəlb olunmamışsa həmin şəxs tərəfindən yenidən inzibati xəta və ya cinayət əməli törədilməsi zamanı cinayətlərin təkrarlığının yaranıb-yaranmaması barədə isə fikir ayrılığı vardır. Təcrübədə əksər hüquqşünaslar hesab edirlər ki, şəxsin törətdiyi əməl inzibati xəta yaratdığına görə barəsində cinayət işinin başlanması rədd edilmişsə inzibati məsuliyyətə cəlb olunub-olunmamasından asılı olmayaraq onun tərəfindən yenidən inzibati məsuliyyətə səbəb olan oğurluğun törədilməsi Cinayət Məcəlləsinin 177.2.2-ci maddəsinin tərkibini yarada bilməz. Onların mövqeyinə görə cinayət işinin başlanması rədd edilmiş əməllər cinayətin təkrarlığını istisna edir.

Əks mövqedə olanlar isə bu halda cinayət işinin başlanması rədd edilməsi barədə qərarın mövcudluğunun cinayətin təkrarlığını istisna etmədiyini qeyd edərək mövqelərini Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Plenumunun "Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 333.1 və 333.3-cü maddələrinin şərh edilməsinə dair" 2 iyun 2017-ci il tarixli qərarı ilə əsaslandırırlar.

Həmin qərara əsasən Cinayət Məcəlləsinin 333.1 və 333.3-cü maddələrində nəzərdə tutulmuş əməllər ilk dəfə müvafiq olaraq üç və on gündən az müddətə törədildiyindən cinayət tərkibinin olmamasına görə cinayət işinin başlanmasının rədd edilməsi haqqında qərarın mövcudluğu həmin əməlin təkrar törədilməsinə görə cinayət işinin başlanmasına və şəxsin cinayət məsuliyyətinə cəlb edilməsinə mane olmur.

Konstitusiya Məhkəməsinin Plenumu gəldiyi nəticəni onunla əsaslandırmışdır ki, Cinayət Məcəlləsinin 333.1 və 333.3-cü maddəsində nəzərdə tutulan ilk dəfə və təkrar törədilən cinayətlər isə müxtəlif vaxtlarda törədilən konkret hüquqpozmanı nəzərdə tutur, cinayətin obyektiv cəhətinə görə həmin əməllər bir-birindən fərqlənir. Əgər şəxs tərəfindən törədilən əməldə cinayət tərkibi olmadığına görə cinayət işinin başlanması rədd edilmişdirsə, yenidən həmin əməlin törədilməsinə görə cinayət işinin başlanması üçün əvvəlki iş üzrə cinayət işinin başlanmasının rədd edilməsi haqqında qərarın ləğv edilməsi zərurəti yoxdur. Belə ki, Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin 65.1-ci maddəsi də müəyyən edir ki, cinayət prosesini həyata keçirən orqanın ləğv edilməmiş qərarı həmin məsələ üzrə yeni qərar çıxarılmasına yol vermir. Artıq qeyd olunduğu kimi, əməlin ilk dəfə törədilməsi ilə həmin əməlin təkrar törədilməsi eyni məsələ hesab edilə bilməz.

Odur ki, bu hal üzrə də vahid təcrübə yaradılması məqsədəmüvafiqdir.

Cinayət Məcəlləsinin eyni maddəsi ilə nəzərdə tutulmuş başa çatmış və başa çatmayan əməllər təkrar törədildikdə əməl necə tövsif edilməli və bu halda cinayətlərin məcmusu yarana bilərmi?

İlk növbədə qeyd olunmalıdır ki, Cinayət Məcəlləsinin 16 və 17-ci maddələrinin mahiyyətindən göründüyü kimi, Cinayət Məcəlləsinin eyni maddəsi ilə nəzərdə tutulmuş cinayətin iki və ya iki dəfədən çox törədilməsi cinayətin məcmusunu yaratmır, yalnız cinayətin təkrarlığını yaradır.

Oxşar tərkib əlamətlərinə malik olan cinayətlərin (həmcins cinayətlər) təkrar törədilməsi isə (məsələn, Cinayət Məcəlləsinin 177-183-cü maddələri) həm cinayətlərin təkrarlığını, həm də cinayətlərin məcmusunu yaradır.

Məsələn, şəxs oğurluq (Cinayət Məcəlləsinin 177.1-ci maddəsi), sonra isə soyğunçuluq (Cinayət Məcəlləsinin 180.1-ci maddəsi) cinayətini törətdikdə, onun əməli Cinayət Məcəlləsinin 177.1 və 180.2.2-ci (təkrar törədildikdə) maddələri ilə tövsif olunmalı və cinayətlərin məcmusu üzrə cəza təyin edilməlidir. Bəzi hüquqşünaslar bu tövsiflə razılaşmayaraq hesab edirlər ki, şəxs iki soyğunçuluq cinayəti törətdikdə əməli yalnız Cinayət Məcəlləsinin 180.2.2-ci maddəsi ilə tövsif edilib vahid cəza təyin edildiyi halda, ondan az təhlükəli bir oğurluq və bir soyğunçuluq cinayəti törətdikdə isə Cinayət Məcəlləsinin 177.1 və 180.2.2-ci maddələri ilə təqsirli bilinib, cinayətlərin məcmusu üzrə daha sərt cəzaya məruz qalma ehtimalı cinayət qanununun prinsiplərinə uyğun deyil. Belə ki, bu halda şəxs iki cinayət törətdiyi halda üç dəfə məsuliyyətə alınır. Ona görə də həmin mövqe tərəfdarları oxşar tərkib əlamətlərinə malik olan cinayətlərin (həmcins cinayətlər) törədilməsinin cinayətlərin təkrarlığını yaratmasına dair müddəaların Cinayət Məcəlləsindən çıxarılmasını təklif edirlər.

Oxşar tərkib əlamətlərinə malik olan cinayətlərin təkrar törədilməsi zamanı əməlin yalnız təkrar törədilən cinayətin təkrarlıq tövsifedici əlaməti ilə tövsif edilməsi ilə razılaşmaq olmaz. Belə ki, şəxs əvvəl ağır cinayət olan quldurluq (Cinayət Məcəlləsinin 181.1-ci maddəsi), sonra böyük ictimai təhlükə törətməyən oğurluq cinayəti (Cinayət Məcəlləsinin 177.1-ci maddəsi) törədərsə əməlinin yalnız az ağır cinayət olan Cinayət Məcəlləsinin 177.2.2-ci maddəsi ilə (təkrar törədildikdə) tövsif edilməsi qanuni hesab edilə bilməz.

"Oğurluq, soyğunçuluq və quldurluğa dair işlər üzrə məhkəmə təcrübəsi haqqında" Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunun 3 mart 2005-ci il tarixli qərarının 18-ci bəndinə əsasən şəxsin özgə əmlakını müxtəlif formada bir neçə dəfə talaması (məsələn oğurluq və soyğunçuluq), yaxud Cinayət Məcəlləsinin 177.1, 177.2, 177.3, 180.1, 180.2, 180.3, 181.1, 181.2, 181.3-cü maddələri ilə tövsif edilməli olan bir neçə cinayət törətməsi hallarında, şəxs həmin əməllərə görə məhkum edilməmişsə, göstərilən cinayətlərin məcmusu yaranır. Bu zaman vaxt etibarilə sonrakı epizodlar cinayətlərin təkrarlığı əlaməti ilə tövsif edilməlidir.

Göründüyü kimi, oxşar tərkib əlamətlərinə malik olan cinayətlərin təkrar törədilməsinin həm cinayətlərin təkrarlığını, həm də cinayətlərin məcmusunu yaratması barədə istintaq və məhkəmə təcrübəsi formalaşmışdır.

Cinayət Məcəlləsinin eyni maddəsi ilə nəzərdə tutulmuş başa çatmış və başa çatmayan cinayətlərin təkrar törədilməsi zamanı əməlin tövsifinə dair mövqe həmçinin Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunun "Qəsdən adam öldürmə işləri üzrə məhkəmə təcrübəsi haqqında" 12 dekabr 2002-ci il tarixli, "Oğurluq, soyğunçuluq və quldurluğa dair işlər üzrə məhkəmə təcrübəsi haqqında" 3 mart 2005-ci il tarixli və "Dələduzluq cinayətlərinə dair işlər üzrə məhkəmə təcrübəsi haqqında" 11 iyun 2015-ci il tarixli qərarlarında da əks olunmuşdur.

Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunun "Qəsdən adam öldürmə işləri üzrə məhkəmə təcrübəsi haqqında" 12 dekabr 2002-ci il tarixli qərarının 14-cü bəndinə əsasən təqsirkar şəxs əvvəllər törətdiyi qəsdən adam öldürmə, yaxud bu cinayətə sui-qəsd etməyə görə məhkum olunmamışsa onun birinci əməli müstəqil tövsif olunmalı, sonuncu əməl isə onun başa çatıb-çatmamasından asılı olaraq Cinayət Məcəlləsinin 120.2.10 və ya 29, 120.2.10-cu maddəsi ilə tövsif edilməlidir.

Həmin Qərarın 11-ci bəndinə əsasən təqsirkar iki və ya daha çox şəxsi öldürməyə görə Cinayət Məcəlləsinin 120.2.7-ci maddəsi ilə o vaxt məsuliyyət daşıya bilər ki, onun hərəkətləri vahid qəsdlə əhatə olunsun və bir qayda olaraq eyni vaxtda törədilmiş olsun. Belə cinayət hərəkəti ayrı-ayrı vaxtlarda da törədilə bilər, bu şərtlə ki, təqsirkarın iki və ya daha çox şəxsi öldürməkdən ibarət niyyəti əvvəlcədən yaranmış olsun. Bir nəfərin öldürülməsi və digər şəxsin həyatına sui qəsd edilməsi iki nəfərin öldürülməsindən ibarət başa-çatmış cinayət kimi tövsif edilə bilməz. İkinci şəxsin öldürülməsi təqsirkarın iradəsindən asılı olmayan səbəbdən həyata keçmədiyinə görə belə hallarda onun əməli Cinayət Məcəlləsinin 120.1, yaxud 120.2-ci və 29, 120.2.7-ci maddəsi ilə tövsif edilməlidir.

Göründüyü kimi, Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunun bu Qərarına əsasən qəsdən adam öldürmə, yaxud bu cinayətə cəhdə görə şəxsin birinci əməli müstəqil tövsif olunmalı, sonuncu əməl isə başa çatıb-çatmamasından asılı olaraq Cinayət Məcəlləsinin 120.2.10 və ya 29, 120.2.10-cu maddəsi ilə tövsif edilməlidir.

Qeyd olunan Qərarda yalnız əməlin tövsifi ilə əlaqədar mövqe əks olunmuş, Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunun "Oğurluq, soyğunçuluq və quldurluğa dair işlər üzrə məhkəmə təcrübəsi haqqında" 3 mart 2005-ci il tarixli və "Dələduzluq cinayətlərinə dair işlər üzrə məhkəmə təcrübəsi haqqında" 11 iyun 2015-ci il tarixli qərarlarında isə cinayətlərin məcmusu və cəza təyini ilə əlaqədar da müddəalar vardır.

Belə ki, "Oğurluq, soyğunçuluq və quldurluğa dair işlər üzrə məhkəmə təcrübəsi haqqında" Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunun 3 mart 2005-ci il tarixli qərarının 18-ci bəndinə əsasən şəxs, tövsifedici əlamətlər olmadan, özgə əmlakının eyni formada iki və ya daha çox müstəqil talanmasına görə (məsələn, müxtəlif mülkiyyətçilərdən bir neçə dəfə oğurluq edilməsi) məhkum edilməmişsə, yaxud cinayət məsuliyyətinə cəlb etmə müddətləri keçməmişsə, bu zaman həmin hərəkətlər, Cinayət Məcəlləsinin 16.2-ci maddəsinə müvafiq olaraq, Cinayət Məcəlləsinin 177.2.2, 180.2.2 və ya 181.2.2-ci maddələrində nəzərdə tutulmuş təkrar törədilmiş cinayət kimi tövsif edilməlidir. Belə halda cinayətkar hərəkətlər cinayətlərin məcmusunu təşkil etmir. Təqsirkarın iradəsindən asılı olmayaraq cinayət başa çatmadıqda da məsələyə bu mövqedən yanaşılmalıdır.

"Dələduzluq cinayətlərinə dair işlər üzrə məhkəmə təcrübəsi haqqında" Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunun 11 iyun 2015-ci il tarixli Qərarının 32-ci bəndinə görə Cinayət Məcəlləsinin 17.1-ci maddəsinə əsasən, Cinayət Məcəlləsinin müxtəlif maddələri ilə nəzərdə tutulmuş iki və ya daha çox cinayətin törədilməsi, həmin cinayətləri törətmiş şəxs onlardan heç birinə görə məhkum olunmamışdırsa və ya qanunla müəyyən edilmiş əsaslar üzrə cinayət məsuliyyətindən azad edilməmişdirsə, habelə bu cinayətlərdən heç birinə görə cinayət məsuliyyətinə cəlbetmə müddəti keçməmişdirsə, cinayətlərin məcmusunu yaradır. Qanunun bu tələbi baxımından, şəxs Cinayət Məcəlləsinin eyni maddəsi ilə nəzərdə tutulmuş həm başa çatmış, həm də başa çatmamış dələduzluq cinayətləri törətdikdə o, həmin əməllərə görə Cinayət Məcəlləsinin müvafiq maddələri ilə təqsirli bilinir və ona cinayətlərin məcmusu üzrə deyil, başa çatmış cinayətə görə vahid cəza təyin edilir.

Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunun qeyd olunan qərarları ilə bu hal üzrə vahid təcrübənin yaranması üçün mövqe müəyyən edilsə də təcrübədə başa çatmış və başa çatmayan əməllərin təkrar törədilməsi ilə əlaqədar bəzi hallar üzrə fərqli yanaşmalar mövcuddur. Həmin fərqli fikirlər aşağıdakılardır:

Məsələn, şəxs əvvəl başa çatmış oğurluq (Cinayət Məcəlləsinin 177.1-ci maddəsi), sonra isə oğurluğa cəhd (Cinayət Məcəlləsinin 29, 177.1-ci maddəsi) cinayətini törədir. Bu halda, əməlin yalnız Cinayət Məcəlləsinin 29,177.2.2-ci maddəsi ilə tövsif edilməli olduğunu hesab edən hüquqşünaslar olsa da, Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunun qeyd olunan qərarlarında əks olunmuş mövqeyə əsasən əməl Cinayət Məcəlləsinin 177.1 və 29,177.2.2-ci maddələri ilə tövsif olunmalıdır.

Ardıcıllıq dəyişdikdə, yəni şəxs əvvəl oğurluğa cəhd (Cinayət Məcəlləsinin 29, 177.1-ci maddəsi), sonra başa çatmış oğurluq (Cinayət Məcəlləsinin 177.1-ci maddəsi) cinayətini törədərsə Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunun qeyd olunan qərarlarında əks olunmuş mövqelər də nəzərə alınmaqla əməlin tövsifi və cəza təyininə dair aşağıdakı fikirlər var:

– Cinayət Məcəlləsinin 177.2.2-ci maddəsi ilə;
– Cinayət Məcəlləsinin 29, 177.2.2-ci maddəsi ilə;
– Cinayət Məcəlləsinin 29, 177.1 və 29,177.2.2-ci maddələri ilə (cəza təyini zamanı cinayətlərin məcmusu üzrə cəza təyin olunmaqla və ya olunmamaqla);
– Cinayət Məcəlləsinin 29, 177.1 və 177.2.2-ci maddələri ilə (cəza təyini zamanı cinayətlərin məcmusu üzrə cəza təyin olunmaqla və ya olunmamaqla).

Bu halda əməlin Cinayət Məcəlləsinin 177.2.2-ci maddəsi ilə tövsif edilməli olması nəticəsinə gələnlər mövqelərini ikinci əməlin bitmiş olması ilə əsaslandırırlar. Əks mövqe tərəfdarları isə hesab edirlər ki, faktiki eyni ictimai təhlükəli əməlləri törətmiş şəxslərin əməlinin fərqli tövsif olunması (başa çatmış və başa çatmayan cinayətlərin törədilmə ardıcıllığından asılı olaraq) və fərqli cəzaya məruz qalma ehtimalı ədalətli və əsaslı deyildir.

Bu sual üzrə vahid təcrübənin yaradılması bir sıra ağır cinayətlərin tövsifi baxımından daha əhəmiyyət kəsb edir.

Məsələn, şəxs Cinayət Məcəlləsinin 149.1-ci maddəsi ilə nəzərdə tutulmuş cinayəti, sonra isə Cinayət Məcəlləsinin 29, 149.1-ci maddəsi ilə nəzərdə tutulmuş cinayəti törətmişdir. Bu zaman şəxsin əməlinin yalnız, Cinayət Məcəlləsinin 29, 149.2.5-ci maddəsi (təkrar törətməyə cəhd) ilə tövsif edilməsi, yoxsa Cinayət Məcəlləsinin 149.1 və 29, 149.2.5-ci maddələri ilə tövsif edilməsi və cinayətlərin məcmusu üzrə cəza təyin edilməsi barədə fikir ayrılıqları vardır.

Əməlin yalnız Cinayət Məcəlləsinin 29, 149.2.5-ci maddəsi ilə tövsifinin müvafiq maddələrin sanksiyalarına diqqət yetirsək doğru olmadığı müəyyən edilir. Belə ki, Cinayət Məcəlləsinin 149.1-ci maddəsinin sanksiyasında cəzanın yuxarı həddi 8 il müddətə azadlıqdan məhrum etmə cəzası, Cinayət Məcəlləsinin 149.2.5-ci maddəsinin sanksiyasında 10 il müddətə azadlıqdan məhrum etmə cəzası nəzərdə tutulmuşdur. Cinayət Məcəlləsinin 63.3-cü maddəsinə əsasən cinayət etməyə görə cəzanın müddəti və ya həcmi bu məcəllənin Xüsusi hissəsinin müvafiq maddəsində başa çatmış cinayətə görə müəyyən edilmiş daha ciddi cəza növünün yuxarı həddinin dörddə üçündən çox ola bilməz. Göründüyü kimi, şəxsin əməli yalnız Cinayət Məcəlləsinin 29, 149.2.5-ci maddəsi ilə tövsif edildiyi halda ona yeddi il altı aydan çox cəza təyin edilə bilməz. Hansı ki, Cinayət Məcəlləsinin 149.1-ci maddəsinin sanksiyasında cəzanın yuxarı həddi 8 ildir. Şəxsin əməlinin daha təhlükəli olmasına baxmayaraq, bu tövsiflə şəxsə təyin edilə biləcək cəzanın yuxarı həddi azalmış olur.

“Dələduzluq cinayətlərinə dair işlər üzrə məhkəmə təcrübəsi haqqında” Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunun 11 iyun 2015-ci il tarixli qərarının 32-ci bəndində əks olunduğu kimi şəxs Cinayət Məcəlləsinin eyni maddəsi ilə nəzərdə tutulmuş həm başa çatmış, həm də başa çatmamış cinayətlər törətdikdə o, həmin əməllərə görə Cinayət Məcəlləsinin müvafiq maddələri ilə təqsirli bilinməli və şəxsə cinayətlərin məcmusu üzrə deyil, başa çatmış cinayətə görə vahid cəza təyin edilməlidir. Lakin şəxs Cinayət Məcəlləsinin 149.1 və 29, 149.2.5-ci və ya 29, 149.1 və 29, 149.2.5-ci maddələri ilə təqsirli bilindiyi halda cinayətlərin məcmusu üzrə cəza təyin olunub olunmamasına dair vahid mövqe yoxdur. Bəzi hüquqşünaslar hesab edirlər ki, eyni cinayətə görə təkrarlıq şəxsin əməlinin tövsifedici hal olaraq ağırlaşmasına səbəb olduğundan ona təkrarlığa daxil olan əmələ görə cinayətlərin məcmusu üzrə cəza təyin edilməsi cinayət qanunvericiliyinin ədalət prinsipinin tərkib hissəsi olan şəxsin iki dəfə məhkum edilməmək və ya cəzalandırılmamaq hüququna və Cinayət Məcəlləsinin 17-ci maddəsinə ziddir.

Cinayət qanunvericiliyində təkrar törədilən cinayətlərə görə təyin ediləcək cəzanın daha ağır olması nəzərdə tutulsa da, cinayət qanununun ədalət prinsipinə müvafiq olaraq cinayət törətmiş şəxs haqqında tətbiq edilən cəza və ya digər cinayət-hüquqi xarakterli tədbirlər ədalətli olmalıdır, yəni cinayətin xarakterinə və ictimai təhlükəlilik dərəcəsinə, onun törədilməsi hallarına və cinayət törətməkdə təqsirli bilinən şəxsin şəxsiyyətinə uyğun olmalıdır. Cəza təyin edilərkən qanunçuluq, qanun qarşısında bərabərlik, təqsirə görə məsuliyyət, ədalət və humanizm prinsipləri mütləq nəzərə alınmalıdır.

Odur ki, Cinayət Məcəlləsinin eyni maddəsi ilə nəzərdə tutulmuş başa çatmış və başa çatmayan əməllər təkrar törədildikdə əməlin tövsifi, tövsifdən asılı olaraq əməlin cinayətlərin məcmusunu yaradıb-yaratması və cəza təyini məsələləri üzrə vahid istintaq və məhkəmə təcrübəsinin müəyyən edilməsi məqsədəmüvafiqdir.

Vahid istintaq və məhkəmə təcrübəsinin olmaması hüquq normalarının tətbiqi sahəsində ziddiyyətlərə səbəb olur. Cinayətlərin təkrarlığına dair qeyd olunan hallar üzrə vahid istintaq və məhkəmə təcrübəsinin formalaşdırılması üçün qanunvericilikdə nəzərdə tutulmuş tədbirlərin görülməsi bu sahədə hüquqi məsələlərin həllinə yanaşmanın sabitliyini təmin etmiş olar.

**Mürvət Həsənov,**
**Bakı şəhər prokurorunun müavini,**
**baş ədliyyə müşaviri.**

# Yaşamaq hüququnun elementi kimi tibbi səhlənkarlığa qarşı müdafiə hüququ: İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin standartları, milli qanunvericiliyin əsasları, təcrübə

***Sağlamlığın qorunması və Yaşamaq hüququ: dövlətin pozitiv öhdəliyi***

Azərbaycan Respublikasının Konstitusiyası hər kəsin "sağlamlığın qorunması hüququ"nu təsbit etmişdir. Konstitusiyanın 41-ci maddəsində (Maddə 41. Sağlamlığın qorunması hüququ) göstərilmişdir ki, "Hər kəsin sağlamlığını qorumaq və tibbi yardım almaq hüququ vardır". Bu hüququn təmin edilməsi üçün heç bir şərt, o cümlədən xidmətin əvəzinin ödənilməsi şərti qoyulmamışdır.

Sağlamlığın qorunması hüququ, həmçinin dövlətin beynəlxalq öhdəliyi kimi də müəyyənləşdirilmişdir. Belə ki, "İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında" Avropa Konvensiyasının (bundan sonra – Avropa Konvensiyası) 2-ci maddəsində (Yaşamaq hüququ) təsbit edilmişdir ki, "Hər kəsin yaşamaq hüququ qanunla qorunur". Avropa Konvensiyası kataloqda nəzərdə tutulmuş bəzi hüquq və azadlıqların müdafiəsi üzrə Konvensiyaya iştirakçı olan dövlətlərin üzərinə pozitiv addımlar atmaq öhdəlikləri qoymuşdur. Bu pozitiv öhdəliklər səhiyyə (həm dövlət, həm də xüsusi) sahəsini də əhatə edir. Öhdəlik pasiyentlərin həyatını mühafizə məqsədi ilə səmərəli məhkəmə sistemi ilə möhkəmləndirilmiş effektiv tənzimləmə mexanizminin tətbiqini ehtiva edir. Bu məhkəmə sistemi səhiyyə müəssisələrinin himayəsində olan pasiyentlərin ölümünün səbəblərini təhlil və məsul şəxslərin məsuliyyətini təmin etməlidir (Calvelli and Ciglio v Italy, App. № 32967/96, 17.01.2002).

Rantsev Kiprə və Rusiyaya qarşı iş (şikayət № 25965/04) üzrə 7 yanvar 2010-cu il tarixli qərarda qeyd edilmişdir: "218. Aydındır ki, Konvensiyanın 2-ci maddəsi Dövlətin üzərinə yalnız həyatdan qəsdən və qanunsuz məhrum etmədən çəkinmək deyil, həmçinin öz yurisdiksiyasında olan hər kəsin həyatına təminat vermək üçün lazımi tədbirlər görmək vəzifəsini qoyur (baxın, L.C.B. Birləşmiş Krallığa qarşı, 09 iyun 1998-ci il, § 36, Hesabatlar, 1998-III; və yuxarıda qeyd olunmuş Pol və Odri Edvards, § 54). İlk növbədə, bu öhdəlik Dövlətdən tələb edir ki, səmərəli cinayət hüquqi müddəaları qəbul etməklə, belə müddəaların pozuntularının qarşısının alınması, onların dəf edilməsi və törədildiyi halda cəzalandırılması üçün hüquq-mühafizə mexanizminə arxalanan şəxsə qarşı cinayətlərin törədilməsinin yayındırılması məqsədilə onun yaşamaq hüququnu təmin etsin. Lakin bu öhdəlik, həmçinin müvafiq hallarda dövlət orqanları üzərində pozitiv öhdəliyi nəzərdə tutur ki, başqa fərdi şəxslərin cinayət hərəkətlərindən həyatları təhlükədə olan fərdi şəxsləri qorumaq üçün operativ qabaqlayıcı tədbirlər görsünlər (bax: Osman işi, § 115; Medova Rusiyaya qarşı, № 25385/04, § 95, 15 yanvar 2009-cu il; Opuz Türkiyəyə qarşı, № 33401/02, § 128, 09 iyun 2009-cu il)."

Kalvelli və Çiqlio İtaliyaya qarşı iş (№ 32967/96) üzrə qərarın 49-cu paraqrafında göstərilmişdir: "Bu prinsiplər səhiyyə sahəsində də tətbiq olunandırlar. Beləliklə, yuxarıda qeyd edilən pozitiv öhdəliklər dövlətdən elə normalar yaradılmasını tələb edir ki, onlar xəstəxanaları (dövlət xəstəxanalarını və ya xüsusi xəstəxanaları) pasiyentlərin həyatının qorunması üzrə zəruri tədbirlər görməyə məcbur etsin. Onlar həm də elə bir effektiv məhkəmə sisteminin təsis olunmasını tələb edir ki, tibb işçilərinin nəzarətində olan pasiyentlərin ölümünün səbəblərini müəyyən etmək, cavabdeh şəxslərin isə cəzalandırılması mümkün olsun. (başqa işlərlə bax: Erikson İtaliyaya qarşı (Eriksson v. Italy) iş üzrə 26.10.1999-cu il tarixli qərar, 37900/97 nömrəli ərizə; Pauell Birləşmiş Krallığa qarşı (Powell v. United King¬dom) iş üzrə 04.05.2000-ci il tarixli qərar, 45305/99 nömrəli ərizə, eləcə də Avropa Komissiyasının 20948 nömrəli ərizə üzrə 22.05.1995-ci il tarixli qərarı). Avropa Məhkəməsi bu işdə həmçinin vurğulamışdır ki, hər iki növ öhdəlik həm dövlət, həm də özəl səhiyyə sektoruna şamil olunur.

Kipr Türkiyəyə qarşı iş üzrə qərarda (p.219) yazılmışdır: "Dövlət bütövlükdə əhali üçün səhiyyə xidmətləri göstərilməsinin təşkili ilə məşğul olduğu halda Razılığa gəlmiş Tərəflərin hakimiyyətləri konkret şəxsə tibbi yardım göstərməkdən imtina etməklə onun həyatını risk altına qoyurlar. Bununla əlaqədar Avropa Məhkəməsi qeyd edir ki, Konvensiyanın 2-ci maddəsinin 1-ci bəndi bu Tərəfdən tələb edir ki, nəinki qəsdən və qanunsuz həyatdan məhrum etmədən çəkinsin, həm də onun üzərinə yurisdiksiyası altından olan hər kəsin həyatının qorunması üçün lazımi tədbirlər görmək vəzifəsi qoyur.

Erikson İtaliyaya qarşı işdə (Torquil Dick Erıkson against Italy, Application no. 37900/97, decision 26 October 1999) Avropa Məhkəməsi bildirmişdir ki, ".. Konvensiyanın 2-ci maddəsi üzrə dövlətin pozitiv öhdəlikləri, yəni yaşamaq hüququnu qorumaq vəzifəsi belə bir tələbi də özündə ehtiva edir ki, xəstəxanaların pasiyentlərinin həyatını qorumaq üçün hüquqi aktlar qəbul edilməli, habelə xəstəxanalarda baş verən ölüm hallarının səbəbini və müvafiq tibb işçilərinin hər hansı məsuliyyətini müəyyən etmək üçün səmərəli məhkəmə sistemi təşkil edilməlidir".

Bu öhdəliklərin milli səviyyədə təmin edilməsi həm də cinayət və cinayət-prosessual qanunvericiliyi, bu qanunvericilik normalarının tətbiqinə məsul olan dövlət orqanlarının prosessual fəaliyyəti ilə həyata keçirilir.

Azərbaycan Respublikasının Cinayət Məcəlləsi (bundan sonra – CM) insan həyatına və sağlamlığına qəsd edən əməllərə görə cinayət məsuliyyəti müəyyən etmişdir. Bu məsuliyyətin dairəsinə tibb işçilərinin peşə fəaliyyəti ilə bağlı törədilmiş əməllər də daxildir. Ehtiyatsızlıqdan adam öldürmə (CM-nin 124-cü maddəsi), xəstəyə kömək göstərməmə (CM-nin 142-ci maddəsi), səhlənkarlıq

(CM-nin 314-cü maddəsi) və digər əməllərə görə cinayət işləri başlanır.

Bu əməllərə görə cinayət təqibi ictimai-xüsusi və ictimai ittiham qaydasında həyata keçirilir (CPM-nin 37.3 və 37.6-cı maddələri). Tibb işçilərinin peşə fəaliyyəti ilə bağlı törədilmiş və hazırlanan cinayətlər barədə fiziki və hüquqi şəxslərin, kütləvi informasiya vasitələrinin məlumatları cinayət-prosessual qanunvericiliyi ilə müəyyən edilmiş qaydada rəsmi qeydiyyata alınır, araşdırılır və həll edilir (CPM-nin 204-213-cü maddələri).

***Əhalinin sağlamlığının qorunması və yaşamaq hüququnun digər qanunvericilik əsasları***

Əhalinin sağlamlığının qorunması və yaşamaq hüququnun təmin edilməsi üzrə geniş qanunvericilik bazası mövcuddur. Bu baza Azərbaycan Respublikasının Konstitusiyasından, "Əhalinin sağlamlığının qorunması haqqında", "Əhalinin radiasiya təhlükəsizliyi haqqında", "Sanitariya-epidemioloji salamatlıq haqqında", "Dərman vasitələri haqqında", "Qanın, qan komponentlərinin donorluğu və qan xidməti haqqında", "Psixiatriya yardımı haqqında", "Onkoloji yardım haqqında", "İnsanın immunçatışmazlığı virusunun törətdiyi xəstəliklə mübarizə haqqında", "İnsanın immunçatışmazlığı virusunun törətdiyi xəstəliyin (AIDS) yayılmasının qarşısının alınması haqqında", "Narkoloji xidmət və nəzarət haqqında", "Əlilliyi olan şəxslərin hüquqları haqqında", "Uşaqların icbari dispanserizasiyası haqqında", "Şəkərli diabet xəstəliyinə tutulmuş şəxslərə dövlət qayğısı haqqında" və digər qanunlardan, normativ hüquqi, normativ xarakterli aktlardan ibarətdir.

***Cinayət haqqında məlumatların qeydiyyata alınması***

Cinayət haqqında məlumatların araşdırılmasını tənzimləyən Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin (bundan sonra – CPM) 207.1-ci maddəsində göstərilmişdir: "təhqiqatçı, müstəntiq və ya ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokuror aşağıdakı hərəkətləri yerinə yetirməlidir: 207.1.1. törədilmiş və ya hazırlanan cinayət haqqında fiziki və ya hüquqi şəxs tərəfindən daxil olmuş, habelə onun səlahiyyətlərinə aid olan və kütləvi informasiya vasitələrində əks etdirilmiş və təsdiq edən sənədlərlə birgə təqdim edilmiş məlumatı dərhal qeydə almaq və ona baxmaq".

"Vətəndaşların müraciətləri haqqında" Azərbaycan Respublikası Qanununun özündə cinayət haqqında məlumatların bu normativ-hüquqi akta əsasən, qeydə alınıb araşdırılmasını qadağan edən ayrıca norma mövcuddur. Qanunun 5.2-ci maddəsində (Maddə 4. Bu Qanunun tətbiq dairəsi) aydın göstərilmişdir ki, "Bu Qanunun müddəaları vətəndaşların məhkəmə icraatı və ya inzibati icraat çərçivəsində etdikləri müraciətlərə şamil edilmir.". "Məhkəmə icraatı" çərçivəsində müraciətlərin araşdırılması cinayət-prosessual qanunvericiliyi ilə tənzimlənir.

Cinayət haqqında məlumatın araşdırılması üçün cəmi 3 gün, müstəsna hallarda 10 və 30 gün müddət müəyyən edilmişdirsə (CPM-nin 207.1.2-ci maddəsi), cinayət olmayan müraciətlərin araşdırılması üçün 30 iş günü müəyyən edilmiş, bu müddətin əlavə olaraq 30 iş günü də uzadılması imkanı nəzərdə tutulmuşdur ("Vətəndaşların müraciətləri haqqında" Qanunun 10.2-ci maddəsi).

CPM-nin 48.1-ci maddəsinə (Maddə 48. Cinayət təqibi üzrə icraatın tezliyinin təmin olunması) əsasən, "48.1. Cinayət təqibi üzrə icraat təhqiqatçı, müstəntiq, prokuror və ya məhkəmə tərəfindən bu Məcəllədə nəzərdə tutulmuş müddətlərdə elə başlanmalı və qurtarmalıdır ki: 48.1.1. sübutların vaxtında əldə olunması və tədqiq edilməsi təmin olunsun; 48.1.2. şəxslər onlara ittiham elan olunmasını, işlərinə baxılmasını və pozulmuş hüquqlarının bərpasını həddən artıq uzun müddət gözləməsinlər".

Avropa Konvensiyasının 6.1-ci maddəsində (Maddə 6. Ədalətli məhkəmə araşdırması hüququ) qeyd edilmişdir ki, "Hər kəs, onun mülki hüquq və vəzifələri müəyyən edilərkən və ya ona qarşı hər hansı cinayət ittihamı irəli sürülərkən, (...) ağlabatan müddətdə işinin (...) araşdırılması hüququna malikdir.".

Avropa Konvensiyasının 6.1-cı maddəsi hər kəsə işinin ağlabatan müddətdə araşdırılması hüququnu təmin edir. Bu təminatın məqsədi "ədalət mühakiməsini onun səmərəliliyinə və ona olan inama xələl gətirə bilən gecikdirmələrə yol vermədən həyata keçirməyin vacibliyidir". "Ağlabatan müddət" tələbinin mənası ondan ibarətdir ki, bu və ya digər şəxsin mülki hüquqi vəziyyəti ilə və ya ona qarşı irəli sürülən ittihamla bağlı qeyri müəyyənliyə son qoyulması üçün qərar ağlabatan müddətdə qəbul edilməlidir: bu istər şəxsin özü üçün, istərsə də hüquqi müəyyənlik baxımından önəmlidir.

Beləliklə, tibb işçilərinin peşə fəaliyyəti ilə bağlı cinayətlər haqqında məlumatların qanunla müəyyən edilmiş qaydada qeydiyyata alınması cinayət prosesinin fundamental prinsiplərinə, ədalətli məhkəmə araşdırması hüququnun təminat şərtlərinə uyğun olmalıdır.

Cinayət prosesini həyata keçirən şəxslərin, o cümlədən prokurorun və müstəntiqin prosessual vəzifələrini və hüquqlarını qanunla müəyyən edilmiş qaydada həyata keçirmələri cinayət-prosessual qanunvericiliyin tələbidir (CPM-nin 84.2, 85.2, 85.4-ci maddələri).

***Sənədlərin götürülməsi istintaq hərəkəti***

Cinayət-prosessual qanunvericik "götürmə"ni istintaq hərəkəti kimi müəyyən etmiş və bununla həmin hərəkətin cinayət işi başlanması barədə prosessual qərar qəbul olunmasından sonra aparılması qaydasını təsbit etmişdir.

CPM-nin 207.4-cü maddəsində göstərilmişdir ki, "təhqiqatçı, müstəntiq və ya ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokuror ərizəçilərdən əlavə sənədləri, onlardan və digər şəxslərdən izahatları tələb edə, hadisə yerinə baxış keçirə və ekspertiza təyin edə bilər".

Sənədlərin götürülməsi istintaq hərəkətinin əsasları: CPM-nin 242.3-cü maddəsində göstərilmişdir: "toplanmış sübutlarla və ya əməliyyat-axtarış fəaliyyətinin materialları ilə sübut əhəmiyyətinə malik ola biləcək əşyaların və sənədlərin kimdə və harada olması müəyyən




edildikdə müstəntiq həmin əşya və sənədləri götürə bilər".

Götürmə, bir qayda olaraq, məhkəmənin qərarı əsasında aparılır, məhkəmə götürmənin aparılması haqqında qərarı müstəntiqin əsaslandırılmış vəsatəti və prokurorun təqdimatı olduqda çıxara bilər (CPM-nin 243.1-ci maddəsi). Təxirə salına bilməyən hallarda müstəntiq götürməni məhkəmənin qərarı olmadan yalnız qanunda müəyyən edilmiş hallarda apara bilər (CPM-nin 243.3-cü maddəsi). Bu hallarda müstəntiq götürmənin aparılması barədə əsaslandırılmış qərar çıxarır. Bu qərarda götürmə aparılmasının zəruriliyi və təxirə salına bilməməsi əsasları göstərilir (CPM-nin 243.4-cü maddəsi).

***Məhkəmə-tibbi ekspertizaların təyin edilməsi***

"Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsində dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 18 aprel 2014-cü il tarixli 941-IVQD nömrəli Qanunu ilə CPM-nin 207.4-cü maddəsinin birinci cümləsində "habelə hadisə yerinə baxış keçirə" sözləri "hadisə yerinə baxış keçirə və ekspertiza təyin edə" sözləri ilə əvəz edilmişdir və ikinci cümlədə "baxış" sözündən sonra "və ekspertizanın təyin edilməsi" sözləri, "habelə" sözündən sonra "tutulma istisna olmaqla digər" sözləri əlavə edilmişdir. Dəyişiklik "Respublika" qəzetinin 1 may 2014-cü il tarixli 89-cu nömrəsində dərc olunaraq qüvvəyə minmişdir. Bu dəyişiklikdən sonra cinayətlər haqqında məlumatların araşdırılması zamanı təhqiqatçı, müstəntiq və prokuror ekspertiza təyin etmək səlahiyyəti əldə etmişlər. CPM-nin 140.0.1-ci maddəsində (Maddə 140. Bəzi sübutlar əsasında müəyyən edilən hallar) dəqiqləşdirilmişdir ki, cinayət prosesi gedişində "ölümün səbəbi, bədən xəsarətinin ağırlıq dərəcəsi və xarakteri" yalnız "tibb sahəsində ekspertin rəyi" ilə müəyyən edilə bilər. CPM-nin 264.2-ci maddəsində müəyyən edilmişdir ki, "bu Məcəllənin 140.0.1—140.0.4-cü maddələrində nəzərdə tutulmuş halların müəyyən edilməsi üçün müvafiq ekspertizanın təyin edilməsi məcburidir". Qeyd edilən 140.0.1-ci maddəsi məhz "ölümün səbəbi, bədən xəsarətinin ağırlıq dərəcəsi və xarakteri"ni nəzərdə tutmuşdur.

***Araşdırma müddətləri***

CPM-nin 207.1.2 və 207.1.3-cü maddələrində göstərilmişdir ki, təhqiqatçı, müstəntiq və ya ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokuror "zəruri hallarda törədilmiş və ya hazırlanan cinayət haqqında məlumat (aşkar cinayətlər haqqında məlumatlar istisna olmaqla) alındıqdan sonra 3 (üç) gün müddətində, bu mümkün olmadıqda 10 (on) gündən, ekspertin rəyinin alınması ilə əlaqədar və ya bu Məcəllənin 207.3-cü maddəsində nəzərdə tutulmuş hallarda isə 30 (otuz) gündən artıq olmayan müddətdə cinayət işinin başlanması üçün əsasların kifayət qədər olmasına dair ilkin yoxlama" aparmalı, aparılmış yoxlamanın nəticələri üzrə cinayət işinin başlanması və ya cinayət işinin başlanmasının rədd edilməsi haqqında qərar qəbul etməlidir. Qanun normasının mənasına və tibb işçilərinin peşəkar fəaliyyəti ilə bağlı cinayətlər haqqında məlumatların xarakterinə görə, qeyd edilən yoxlamaların aparılması və qərarların qəbul edilməsi üçün 3 gün müddət müəyyən edilmişdir. Bu müddətin uzadılması əsasları və qaydası qanunda nəzərdə tutulmamışdır. Qanunvericiliyin mənasına görə, 3 gün müddətində cinayətlər haqqında məlumatların araşdırılmasını başa çatdırmaq və qanunda göstərilən qərarlardan birini qəbul etmək mümkün olmamışdırsa, təqibin davamı başqa formatda - cinayət işi başlanmaqla davam etdirilməlidir.

***Cinayət işi başlanmasının rədd olunması haqqında qərarlar***

Prosessual müstəqillik: CPM-nin 212.1-ci maddəsində müəyyən edilmişdir ki, "cinayət işinin başlanması üçün səbəblərin qanunsuz olduğu və ya əsasın olmadığı halda təhqiqatçı, müstəntiq və ya ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokuror cinayət işinin başlanmasının rədd edilməsi haqqında qərar çıxarır".

Cinayət prosesi ibtidai araşdırma və ibtidai araşdırmaya prosessual rəhbərliyin həyata keçirilməsi funksiyalarını bir-birindən ayırır. "Törədilmiş və ya hazırlanan cinayətlərə dair daxil olmuş ərizə və məlumatlara baxmaq" CPM-nin 84.2.1-ci maddəsində, "cinayət işi üzrə ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirmək" isə bu Məcəllənin 84.2.2-ci maddəsində nəzərdə tutulmuşdur.

Qanunda nəzərdə tutulmuş prosessual qərarları müstəntiq və prokuror səlahiyyətləri çərçivəsində müstəqil qəbul edirlər. Bu subyektlərin prosessual müstəqilliyi prinsipi CPM-nin 84.1 və 85.1-ci maddələrində nəzərdə tutulmuşdur. Bu maddələrdə göstərilmişdir ki, onlar cinayət təqibini həyata keçirərkən qanunun tələblərini rəhbər tutaraq və öz daxili inamına (müstəntiq əlavə olaraq prokurorun göstərişlərinə əsaslanaraq) əsaslanaraq, zəruri prosessual qərarlar qəbul edir, istintaq və ya digər prosessual hərəkətləri həyata keçirirlər.

Cinayət tərkibinin olmaması: CPM-nin 39.1-ci maddəsinə əsasən, "cinayət hadisəsi olmadıqda" və ya "əməldə cinayət tərkibi olmadıqda" cinayət təqibi başlanıla bilməz. Birinci halda araşdırma müəyyən etməlidir ki, ya barəsində məlumat verilmiş "hadisə" ümumiyyətlə baş verməmişdir və ya o, cinayət hadisəsi əlamətlərinə malik deyildir. Hər iki halda mərkəzi anlayış – "konkret hadisə"dir. Əgər "hadisə" cinayət qanunu ilə nəzərdə tutulmuş konkret cinayətə xas əlamətlərə malik deyildirsə, o, həm konkret, həm də ümumi baxımdan cinayət sayılmır. Cinayət işi başlanmasının rədd edilməsi haqqında qərar çıxararkən müstəntiq və prokurorun həyata keçirdikləri "tövsif" prosesi "hadisə"nin əlamətlərinin - "obyektiv cəhət"in, daha sonra "obyekt"in müəyyən edilməsi ilə başlamalıdır. "Cinayət tərkibinin olmaması" onun cəhətlərinin (obyekt, obyektiv cəhət, subyekt və subyektiv cəhət) hamısının və ya birinin olmaması deməkdir. "Cinayət hadisəsi"nin mövcudluğu (və ya mövcudsuzluğu) obyektiv reallığın CM-nin Xüsusi hissəsinin maddələrinin "obyekt" və "obyektiv cəhət"inə aid əlamətlərlə tutuşdurulursa, "cinayət tərkibi"nin mövcudluğu (və ya mövcudsuzluğu) eyni reallığın "subyekt" və "subyektiv cəhət"inin əlamətləri ilə tutuşdurulmasını ehtiva edir. Bu halda da tövsif prosesi konkret əməli törətmiş konkret şəxslər, onların bu əmələ və onun nəticələrinə münasibəti üzrə aparılır.

Qeyd edilənlərə əsasən, "cinayət hadisəsinin olmaması" - "obyekt"in və "obyektiv cəhət"in, "cinayət tərkibinin olmaması" – həm də "subyekt" və "subyektiv cəhət"in olmamasının təsbit olunması ilə müəyyən edilir. Bu səbəbdən həmin əsaslara görə cinayət işinin başlanmasının rədd edilməsi haqqında qərarlar müvafiq olaraq konkret əməl və konkret şəxslər üzrə qəbul olunmalıdırlar.

Subyektin olması: Cinayət-prosessual qanunvericiliyinin müvafiq normalarının (CPM-nin 39, 212 və s. maddələri) mənasına görə, qeyd edilən qərarlar konkret şəxslərin barələrində çıxarılmalıdır. Əməl mücərrəd ola bilməz, mütləq onun konkret subyekti olmalıdır.

Şəxsin təqsirinin sübuta yetirilməməsi: CPM-nin 39.2-ci maddəsində göstərilmişdir ki, "hər hansı şəxs barəsində başlanılmış cinayət təqibinə həmçinin onun (...) təqsirliliyi sübuta yetirilmədikdə xitam verilir". Yəni, təqsirliliyin sübuta yetirilməməsi əsası ilə yalnız artıq başlanılmış cinayət təqibinə xitam verilir. Bu əsas cinayət işinin hələ başlanmadığı hallar üçün yararsızdır.

***Cinayət işinin icraatına xitam verilməsi haqqında qərarlar***

Tibb işçilərinin peşə fəaliyyəti ilə bağlı cinayətlər haqqında məlumatların araşdırılması cinayət işinin başlanması haqqında qərarlar qəbul edildiyi hallarında da yekun qərarların hüquqi əsasları düzgün seçilməlidir.

Avropa Məhkəməsinin presedent mövqeyinə görə, bunlar şəxsə qarşı "cinayət ittihamı" irəli sürülməsi mənasını verir. Məsələn, Noymayster Avstriyaya qarşı (Neumeıster v. Austrıa 27/06/1968) işdə qarşıda duran cinayət təqibi haqqında şəxsin rəsmi xəbərdar edilməsi, Rinqeysen Avstriyaya qarşı (Rıngeısen v. Austrıa 16/07/1971) işdə ibtidai istintaqın başlanması və s. İnsan Hüquqları üzrə Avropa Məhkəməsinə əsas ver-

mişdir ki, bu əməlləri ərizəçilərə qarşı milli cinayət təqibi orqanları tərəfindən cinayət ittihamı irəli sürülməsi kimi dəyərləndirsin.

Ona görə, cinayət təqibi orqanı konkret tibb işçilərinə qarşı ittiham sübutlarının toplanması istiqamətində həyata keçirilən tədbirləri adekvat şəkildə – şəxslərə qarşı ittihamın sübuta yetirilməsi cəhdi kimi, onun uğurla nəticələnməməsini isə onların təqsirinin sübuta yetirilməməsi kimi qiymətləndirməlidir. Avropa Məhkəməsinin presedent mövqeyinə uyğun olan milli qanunvericiliyin və təcrübənin tələblərini rəhbər tutaraq müstəntiq, prokuror köməkçisi cinayət haqqında məlumatların səmərəli araşdırılması üzrə dövlətin maraqlarına, eləcə də barələrində araşdırılma aparılmış şəxslərin ədalətli məhkəmə araşdırması hüquqlarına hörmət prinsipinə uyğun davranmalıdırlar.

### *Təqdimatların verilməsi*

"Prokurorluq haqqında" Qanunun 23-cü maddəsində (Maddə 23. Təqdimat) göstərilmişdir: "Prokuror bu Qanunda nəzərdə tutulmuş səlahiyyətləri həyata keçirərkən qanun pozuntularının, onları doğuran səbəb və şəraitin aradan qaldırılmasına dair müvafiq təşkilatlara, yaxud vəzifəli şəxslərə təqdimat verir". Bir çox hallarda araşdırmanın yekunu üzrə təqdimat "qanun pozuntuları"nın əvəzinə müxtəlif təlimatların pozulması, onları doğuran səbəb və şəraitin aradan qaldırılması halları üzrə verilmişdir, baxmayaraq ki, qanun norması bu prokuror təsir tədbirinin məhz "qanun pozuntusu"na görə verməyi xüsusi vurğulamışdır.

Əmr, Protokol, Təlimat, xüsusən də onun "nümunəvi" növü qanun sayılmır və onun normalarının pozulması özlüyündə "qanun pozuntusu" hesab edilmir. Prokuror o pozuntu barədə təqdimat verməlidir ki, pozulan məsələ qanun norması ilə tənzimlənmiş olsun. Pozulan qaydalar qanun norması ilə yanaşı digər normativ-hüquqi aktlarla tənzimlənirsə, prosessual sənəddə onları da əlavə arqument kimi qeyd etmək olar. Lakin məsələ qanun norması ilə tənzimlənmirsə, onunla əlaqədar təqdimat verilməsi düzgün sayıla bilməz.

Həkim tərəfindən tibbi xidmətin göstərilməsi, lakin sənədlərin tərtib olunmaması "Əhalinin sağlamlığının qorunması haqqında" Qanunun 23 və 24-cü maddələrinin bir sıra tələblərinin pozulması deməkdir. Qanunun 24-cü maddəsində (Maddə 24. Pasiyentin hüquqları) göstərilmişdir ki, pasiyentin "sağlamlığının vəziyyəti barədə məlumat almaq" hüququ vardır. Bu Qanunun 25-ci maddəsində (Maddə 25. Sağlamlığının vəziyyəti barədə vətəndaşların məlumat almaq hüququ) dəqiqləşdirilmişdir ki, "Hər bir vətəndaş müayinənin nəticəsi, xəstəliyin diaqnoz və proqnozu, müalicə üsulları və bununla bağlı risk dərəcələri, aparılmış müalicənin nəticəsi haqqında məlumatlar da daxil olmaqla sağlamlığının vəziyyəti barədə özü üçün səmərəli formada məlumat almaq hüququna malikdir. Vətəndaşın sağlamlığının vəziyyəti barədə məlumat onun özünə, qanunvericilikdə müəyyən edilmiş qaydada fəaliyyət qabiliyyəti olmayan hesab edilən şəxslərin və ya yetkinlik yaşına çatmayanların sağlamlıqlarının vəziyyəti barədə məlumat isə onların valideynlərinə və ya qanuni nümayəndələrinə müayinə və müalicədə bilavasitə iştirak edən mütəxəssislər tərəfindən verilir. Xəstəliyin inkişaf proqnozu mənfi olduqda bu barədə məlumat xəstənin yaxın qohumlarına və ya qanuni nümayəndələrinə, xəstə tələb etdikdə isə bu məlumat ehtiyatlı formada onun özünə çatdırıla bilər. Vətəndaş onun sağlamlığının vəziyyətini əks etdirən tibbi sənədlərlə bilavasitə tanış olmaq və onlarla bağlı başqa mütəxəssislərdən məsləhət almaq hüququna malikdir. Vətəndaşın tələbi ilə ona sağlamlığının vəziyyətini əks etdirən tibbi sənədlərin surətləri təqdim olunur.".

### *Tibb işçilərinin peşə fəaliyyəti ilə əlaqəli olan digər cinayət əməllərinin araşdırılması*

Tibb işçilərinin peşə fəaliyyəti dairəsinə daxil olmayan hüquqazidd əməllər barədə məlumatlar üzrə də araşdırma aparılmalıdır.

Qanunun mənasına görə, törədilmiş və ya hazırlanan hər bir cinayət haqqında məlumat araşdırılmalıdır. Cinayət prosesinə cinayət haqqında məlumatın "qismən" və ya "hissəvi" araşdırılması anlayışı məlum deyil. Bir "məlumat"da bir "cinayət" haqqında informasiyanın olması mümkündür, lakin bu, "səbəb"in[1] göstəricisi, şərti kimi nəzərdə tutulmamışdır. Adətən, cinayət haqqında məlumatlarda bir neçə cinayətin əlamətləri barədə informasiyalar olur. "Cinayət təqibi ilə bağlı bütün halları hərtərəfli, tam və obyektiv araşdırmaq" cinayət mühakimə icraatının vəzifələrindən biridir (CPM-nin 8.0.3-cü maddəsi).

### *Hüquqi məsuliyyət*

Tibb işçisinin hüquqi məsuliyyəti geniş anlayışdır. Bura cinayət, inzibati, mülki və intizam məsuliyyəti daxildir. Tibb işçisinin cinayət məsuliyyəti CM-də göstərilən əməlləri törətməyə görə yaranır. Cinayət Məcəlləsi cinayətin anlayışını belə təyin etmişdir: "14.1. Bu Məcəllə ilə cəza təhdidi altında qadağan olunmuş ictimai təhlükəli əməlin (hərəkət və ya hərəkətsizliyin) təqsirli olaraq törədilməsi cinayət sayılır. 14.2. Cinayət qanununda nəzərdə tutulmuş hər hansı əməlin (hərəkət və ya hərəkətsizliyin) əlamətləri formal cəhətdən mövcud olsa da, lakin az əhəmiyyətli olduğuna görə ictimai təhlükəli sayılmayan, yəni şəxsiyyətə, cəmiyyətə və yaxud dövlətə zərər yetirməyən və ya zərər yetirmək təhlükəsi yaratmayan əməl (hərəkət və ya hərəkətsizlik) cinayət hesab edilmir.".

Tibbi yardım göstərilməsi zamanı şəxsin ölməsi tibb işçisinin birbaşa qəsdi ilə törədilə bilməz (təbii ki,

[1] Bax, CPM: "46.2. Cinayət işinin başlanması üçün səbəb kimi törədilmiş və ya hazırlanan cinayət haqqında fiziki şəxs tərəfindən verilən ərizə, hüquqi şəxsin (vəzifəli şəxsin) və ya kütləvi informasiya vasitəsinin məlumatları, yaxud bu məlumatların təhqiqatçı, müstəntiq və ya prokuror tərəfindən bilavasitə aşkar edilməsi ola bilər."

hipotetik hallar istisna olunmaq şərti ilə). Tibb işçisi peşə fəaliyyətini həyata keçirərkən öz əməlinin ictimai təhlükəli olduğunu dərk edirsə, onun ictimai təhlükəli nəticələrini (məsələn, pasiyentin ölə biləcəyini) qabaqcadan görürsə, lakin bunları arzu etmir və belə nəticələrin baş verməsinə şüurlu surətdə yol verirsə, bu halda o, dolayı qəsdlə cinayət törətmiş hesab olunur.

Tibb işçilərinin peşə fəaliyyəti ilə bağlı olan cinayətlər barədə məlumatlar araşdırılarkən onların əməllərinin cinayət-hüquqi təhlili aparılmalı, bu əməllərdə müvafiq cinayətlərin əlamətlərinin, cinayət tərkiblərinin olub-olmaması haqqında nəticələr hüquqi arqumentlərlə əsaslandırılmalıdır.

### *Pulsuz tibbi yardım göstərilməsinin təmin edilmədiyi hallara qiymət verilməsi*

"Əhalinin sağlamlığının qorunması haqqında" Qanunun 10-cu maddəsində (Maddə 10. Vətəndaşların, əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin sağlamlığının qorunması hüququ) müəyyən edilmişdir ki, "Dövlət tibb müəssisələrində tibbi xidmət pulsuzdur, yalnız bu Qanunda nəzərdə tutulan hallar istisna olmaqla pullu ixtisaslaşdırılmış tibbi yardımın növləri müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir".

Müstəntiqlər tibbi xidmətin "ilkin tibbi-sanitariya yardımı", "təcili və təxirəsalınmaz tibbi yardım", "ixtisaslaşdırılmış tibbi yardım" kimi növlərini fərqləndirməyi bacarmalıdırlar. Onların təsnifatı ilə bağlı məlumatlar "Əhalinin sağlamlığının qorunması haqqında" Qanunda geniş əks etdirilmişdir.

İlkin tibbi-sanitariya yardımı hər vətəndaş üçün pulsuz göstərilən tibbi xidmət növüdür. Bu xidmətə geniş yayılmış xəstəliklərin, eləcə də travmaların, zəhərlənmələrin və digər təxirəsalınmaz yardım tələb edən xəstəliklərin müalicəsi, ilkin tibbi yardım göstərən tibb müəssisələrində müalicəsinə icazə verilən psixi pozuntuların müalicəsi, sanitariya-gigiyenik və əksepidemik tədbirlərin keçirilməsi, ictimai təhlükəli xəstəliklərin tibbi profilaktikası, ailənin, valideynlərin, uşaqların mühafizəsi və yaşayış yerində tibbi-sanitariya yardımının göstərilməsinə dair digər tədbirlər daxildir. Bu yardımı dövlət səhiyyə sisteminin müəssisələri, eləcə də sanitariya-epidemioloji xidmət müəssisələri tərəfindən təmin olunur. Özəl tibb fəaliyyətinin subyektləri tibbi sığorta təşkilatları ilə, eləcə də xəstələrlə bağlanmış müqavilələr əsasında ilkin tibb-sanitariya yardımı göstərirlər (Maddə 32. İlkin tibbi-sanitariya yardımı).

"Təcili və təxirəsalınmaz tibbi yardım" təcili tibbi müdaxilə tələb edən hallarda (bədbəxt hadisələr, travmalar, zəhərlənmələr və digər xəstəliklər) mülkiyyət formasından asılı olmayaq təcili yardım tibb müəssisələri, eləcə də qanunvericilikdə müəyyən edilmiş qaydada ilkin tibbi yardım etməyə borclu olan şəxslər tərəfindən göstərilir. Dövlət tibb müəssisələrində təcili və təxirəsalınmaz tibbi yardım pulsuzdur. Özəl tibb fəaliyyəti subyektlərinin icbari tibb sığorta proqramlarında iştirakından asılı olmayaraq, icbari tibbi sığorta qaydalarına əsasən əhaliyə təcili tibbi yardım göstərən özəl tibb fəaliyyətinin subyektlərinə ödəniş bu şəxslərin sığortalandığı tibbi sığorta təşkilatları tərəfindən həyata keçirilir. Özəl tibbi praktika ilə məşğul olan şəxslər təxirəsalınmaz tibbi yardıma ehtiyacı olan şəxslərə pulsuz tibbi yardım göstərirlər (Maddə 33. Təcili və təxirəsalınmaz tibbi yardım).

Bunlar göstərir ki, maddi səbəblərə görə tibb müəssisələrində tibbi yardım göstərməkdən açıq və ya pərdələnmiş üsullarla imtina edilməsi (ağır nəticələrə səbəb olduqda) müvafiq vəzifəli şəxslərin əməllərini cinayət hüququ normaları baxımından qiymətləndirməyə əsasdır.

"Əhalinin sağlamlığının qorunması haqqında" Qanunun 17-ci maddəsində (Maddə 17. Əhalinin sağlamlığının qorunması sahəsində hamilə qadınların və anaların hüquqları) göstərilmişdir ki, "hər bir qadın hamiləlik dövründə, doğuş və doğuşdan sonrakı dövrdə dövlət səhiyyə sisteminin müəssisələrində ixtisaslaşdırılmış tibbi yardımla pulsuz təmin olunur". Bu Qanunun 51-ci maddəsində vurğulanmışdır ki, "müalicə həkimi pasiyentin vaxtında ixtisaslı müayinə və müalicəsini təşkil edir.".

### *Hamiləlik dövründə hamilə qadınlara antenatal xidmət göstərilməməsi hallarına qiymət verilməsi*

Hamilə qadınların doğuşla əlaqədar ölümlərinin səbəbi onlara antenatal xidmət göstərilməsi üzrə tibb müəssisələrinin vəzifəli şəxslərinin və işçilərinin öz peşə öhdəliklərini layiqincə yerinə yetirilməmələri ilə bağlı da ola bilər. Bu öhdəliklər normativ xarakterli sənədlərlə müəyyənləşdirilmiş və hər bir tibb işçisinə məlumdur.

"Fizioloji hamiləliyi olan qadınlara antenatal[2] qulluq üzrə klinik protokol"a görə, bütün hamiləlik boyu qadının bir tibb işçisinin nəzarəti altında olması məqsədəuyğundur. Bu nəzarət hamilə qadının tibb müəssisəsinə vaxtaşırı gəlişi formasında həyata keçirilir. Qeyd edilən protokolda göstərilmişdir ki, hamiləliyin fizioloji gedişi zamanı hamilə qadının tibb müəssisəsinə 7 gəlişi (hamiləliyin 12-ci həftəsinə qədər, 18-20-ci, 26-28-ci, 30-32-ci, 34-36-cı, 38-ci, 40-cı həftəsində) tövsiyə olunur. Hər gəlişdə tibb müəssisəsində hamilə qadınla protokolda nəzərdə tutulmuş proseduralar həyata keçirilir.

Azərbaycan Respublikası Səhiyyə Nazirinin 19 sentyabr 2012-ci il tarixli 70 nömrəli əmri ilə təsdiq edilmiş "Tibb müəssisələrində çalışan tibb, əczaçılıq və digər ixtisaslar üzrə işçilərin nümunəvi vəzifə təlimatları"nın "Həkim mama-ginekoloqun nümunəvi vəzifə təlimatı" bölməsində göstərilmişdir ki, ambulator-poliklinika xidməti üzrə mama-ginekoloq "Hamilələrə antenatal xidməti göstərir, onların vaxtlı-vaxtında patronaj olunmasına nəzarət edir. Zərurət yarandığı hallarda patronajı özü həyata keçirir (b.27); "Ginekoloji xəstəliklərin, hamiləlik və doğuşların, doğuşdansonrakı dövrün

[2] Antenatal qulluğun (doğuşa qədər nəzarət) məqsədi hamilə qadının və onun hələ doğulmamış korpəsinin sağlamlığının qorunması, ailəyə valideynliyə hazırlanmaqda kömək etməkdir.




fəsadlarının qarşısının alınması və azaldılması üzrə profilaktik tədbirlərin keçirilməsində iştirak edir (b29); “Hamilələri aşkar edir (hamiləliyin 12 həftəsinədək) və onların dispanser müşahidəsini təşkil edir (b.30); “Ginekoloji xəstələrin vaxtında dispanser qeydiyyatına götürülməsini və dinamik müşahidəsini, onların sanator-kurort müalicəsi, eləcə də başqa müasir müayinə və müalicə vasitə və metodlarından istifadə etməklə, müalicə-sağlamlaşdırıcı tədbirlər kompleksinin və dispanserləşdirilməsinin səmərəliliyinin təhlilinin aparılmasını həyata keçirir (b34); “Stasionar müalicəyə ehtiyacı olan ginekoloji xəstələri aşkar edir (b.35)”.

***Reanimasiya tədbirlərinin dayandırılmasının tibbi əlamətlərə görə deyil, belə əlamətlər olmadan, xəstənin qohumlarının israrı ilə edilməsi hallarına qiymət verilməsi***

Nəzərə alınmalıdır ki, pasiyentin nə qədər yaşayacağını dəqiq müəyyən etmək çətindir. Tibb işçilərinin səhvlərinin də istisna edilməməsi nəzərə alınsa, reanimasiya tədbirlərinin dayandırılmasına yalnız obyektiv xarakterli əlamətlərə görə yol verilməsinin rasional əsasları vardır. Digər tərəfdən, qalan ömrün müddətindən asılı olmayaraq hər kəsin, o cümlədən hər bir pasiyentin bu həyatda ləyaqətlə, ağrılarsız yaşamaq hüququna hörmət edilməlidir. Bunu isə yalnız reanimasiya tədbirlərinin sona kimi davam etdirilməsi, xəstənin həyatının minimal keyfiyyətinin təmin olunması vasitəsi ilə etmək mümkündür.

Pretti Birləşmiş Krallığa qarşı məhkəmə işində Avropa Məhkəməsi ilkin olaraq bu nəticəyə gəldi ki, şəxsin hansı yolla öləcəyi barədə qərar vermək hüququ Avropa Konvensiyasının 8-ci maddəsində (Şəxsi həyata və ailə həyatına hörmət hüququ) nəzərdə tutulmuş şəxsi həyatın tərkib elementidir (67-ci bənd). Sonrakı presedent hüququnda isə aydınlıq gətirildi ki, şəxsin öz həyatına hansı yolla və hansı anda son qoyacağı barədə qərar vermək hüququ Avropa Konvensiyasının 8-ci maddəsində

nəzərdə tutulmuş şəxsi həyata hörmət hüququnun aspektlərindən biridir, bu şərtlə ki, həmin şəxs sərbəst surətdə mühakimə yürütmək və həmin mühakiməsinə uyğun qaydada hərəkət etmək iqtidarında olmalıdır (Haas İsveçrəyə qarşı, 51-ci bənd).

Avropa Məhkəməsi müəyyən edib ki, könüllü intihara yardım etmə məsələlərində üzv dövlətlər geniş qiymətləndirmə sərbəstliyinə malikdirlər. Həyat funksiyaları aparatla təmin edilən şəxsin müalicəsinin dayandırılmasına icazə vermək məsələsində Avropa Şurasına üzv olan dövlətlər arasında hazırda konsensus yoxdur (Lamber və başqaları Fransaya qarşı [BP], 148-ci bənd). Buna icazə verən qanunlarda belə bir tələb yer alır ki, həyata son qoyan dərmanlar yalnız həkimin göstərişi ilə verilməlidir (Haas İsveçrəyə qarşı, 52-ci bənd). Avropa Məhkəməsi Haas İsveçrəyə qarşı məhkəmə işini Pretti Birləşmiş Krallığa qarşı məhkəmə işindən fərqləndirib. Prettinin işindən fərqli olaraq, Haas İsveçrəyə qarşı məhkəmə işində Avropa Məhkəməsi qeyd etdi ki, ərizəçi təkcə həyatının çətin və ağrılı olduğunu iddia etməyib, həm də qeyd edib ki, sözügedən maddəni almayacağı təqdirdə intiharın özü ləyaqətli ölüm keyfiyyətindən məhrum olacaq. Bundan əlavə, Prettinin işindən fərqli olaraq bu işdə ərizəçi faktiki olaraq taqətdən düşmüş hesab edilə bilməzdi, belə ki, o, öz həyatına özünün son qoymasına mane ola biləcək sağalmaz degenerativ xəstəliyin son mərhələsində deyildi.

Müstəntiqlər tərəfindən belə hallara diqqət yetirilməli, reanimasiya tədbirlərinin konkret olaraq nə vaxt, kimin göstərişi ilə, hansı əsaslara görə dayandırılmasına, bu məsələ ilə bağlı pasiyentin və onun yaxın qohumlarının iradələrinə təsir edilib-edilməməsi, edilibsə, kim tərəfindən və hansı səbəbə görə edildiyi araşdırılmalıdır.

Tibb işçilərinin xəstəni tibb müəssisəsindən çıxarmaq istiqamətində göstərilən fəaliyyətin motivi müxtəlif amillər də ola bilər, məsələn, pasiyentin ölümünün tibb müəssisəsində baş verməsi bu müəssisənin iş göstəricilərinə mənfi təsir göstərəcəyi, müayinə, diaqnoz və müalicə zamanı yol verilmiş kobud səhvlərin gizlədilməsi və s. Ona görə, hər bir halda belə faktlar, onların səbəbləri dəqiq müəyyənləşdirilməli və dəyərləndirilməlidir.

"Əhalinin sağlamlığının qorunması haqqında" Qanunun 39-cu maddəsində (Maddə 39. İnsanın ölüm anının müəyyən edilməsi) vurğulanmışdır ki, "reanimasiya tədbirlərinin dayandırılması meyarları və qaydası müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir". Bunlara əsasən, reanimasiya tədbirləri iki halda dayandırılır, birincisi, bu tədbirlərin mütləq perspektivsizliyi əlamətləri olduqda, ikincisi, bioloji ölüm qeydə alındıqda. Bunlardan başqa, "reanimasiya tədbirlərinin həyata keçirilməməsi" də mümkündür. Buna da iki halda yol verilir: a) bioloji ölüm əlamətləri olduqda, b) dəqiq müəyyən edilmiş müalicəolunmaz xəstəliklərin və ya həyatla bir araya sığmayan müalicəolunmaz kəskin travmaların inkişafı fonunda klinik ölüm vəziyyəti baş verdikdə.

Bundan başqa, "Əhalinin sağlamlığının qorunması haqqında" Qanunun 26-cı maddəsində (Maddə 26. Təxirəsalınmaz hallarda tibbi müdaxilə şərtləri) göstərilmişdir: "Tibbi müdaxilə həyati göstərişlər əsasında təxirəsalınmaz hesab edildikdə və ya xəstə vəziyyəti ilə əlaqədar öz qərarını bildirmək iqtidarında olmadıqda məsələ konsilium tərəfindən həll olunur. Konsilium mümkün olmayan hallarda tibbi müdaxilə haqqında qərar müalicə-profilaktika müəssisəsinin rəhbərlərinə məlumat verməklə və ya bilavasitə müalicə (növbətçi) həkimi tərəfindən qəbul edilir.".

Qanun normalarının mənasına görə, reanimasiya tədbirlərinin tətbiqinə ehtiyacı olan xəstələrin qohumlarının iradəsi xəstəyə adekvat tibbi yardım göstərilməsinə mane olmamalıdır.

***Müayinə, diaqnostika və müalicəyə bilavasitə məsul olmayan tibb işçilərinin (tibb bacıları, laborantlar və s.) əməllərinin araşdırılması və qiymətləndirilməsi***

Adətən, pasiyentlərə səhiyyə xidməti bir deyil, bir neçə tibb işçisinin birgə ümumi səyi ilə göstərilir. Xidmətin nəticəsinə görə onların hamısı məsuliyyət daşıyır. Ümumi məsuliyyətlə yanaşı onların hər birinin ayrıca vəzifələri, bu vəzifələrə uyğun funksiyaları vardır və onlar konkret olaraq bunlara görə də fərdi məsuliyyət, o cümlədən cinayət məsuliyyəti daşıyırlar. Səhiyyə müəssisələrinin tibb bacısı, laborantı və s. vəzifələrdə çalışan işçilərinin qanunazidd əməlləri barədə informasiyalar olduqda, onlarla bağlı araşdırma aparılmalı, həmin şəxslərin əməllərinə hüquqi qiymət verilməlidir.

**Metodiki tələblər**

***Əməlin mahiyyətinin müəyyən edilməsi üçün zəruri prosessual tədbirlərin görülməsi***

"Əhalinin sağlamlığının qorunması haqqında" Qanunun 41-ci maddəsində (Maddə 41. Patoloji-anatomik yarma) göstərilmişdir ki, patoloji-anatomik yarma ölümün səbəbləri və xəstəliyin diaqnozu haqqında məlumat əldə etmək məqsədilə həkim tərəfindən aparılır. Qanun belə yarmanın məcburi olduğu halları da müəyyən etmişdir. Bunlar hamiləlik və doğuşla əlaqədar baş vermiş ana ölümləri, infeksion xəstəliklər və onlar barəsində şübhə halları, tibbi müayinə və müdaxilə zamanı baş verən və səbəbləri araşdırıla bilməyən ölüm halları, zorakı ölüm barəsində şübhə və qanunvericilikdə nəzərdə tutulmuş digər hallardır. Qeyd edilən maddədə vurğulanmışdır ki, "patoloji-anatomik yarmanın aparılmasının məcburi hesab edildiyi hallar (hamiləlik və doğuşla əlaqədar baş vermiş ana ölümləri, infeksion xəstəliklər və onlar barəsində şübhə hallarında, tibbi müayinə və müdaxilə zamanı baş verən və səbəbləri araşdırıla bilməyən ölüm hallarında), zorakı ölüm barəsində şübhə və qanunvericilikdə nəzərdə tutulmuş digər hallar olmadıqda ölənin ailə üzvlərinin, qohumlarının və ya qanuni nümayəndələrinin rəsmi xahişi ilə patoloji-anatomik müayinə aparılmaya bilər". Göründüyü kimi, patoloji-anatomik yarma ölənin ailə üzvlərinin, qohumlarının və ya qanuni nümayəndələrinin rəsmi xahişi ilə o zaman edilmir ki, qeyd edilən "məcburi

hallar" olmasın. Belə hallar mövcud olduqda göstərilən şəxslərin iradəsi nəzərə alınmamalıdır. Yəni, hamiləlik və doğuşla əlaqədar baş vermiş ana ölümləri, infeksion xəstəliklər və onlar barəsində şübhə hallarında, tibbi müayinə və müdaxilə zamanı baş verən və səbəbləri araşdırıla bilməyən ölüm halları, eləcə də zorakı ölüm barəsində şübhə və qanunvericilikdə nəzərdə tutulmuş digər hallarda meyitin patoloji-anatomik yarılması məcburidir.

Azərbaycan Respublikası Səhiyyə nazirinin 19 sentyabr 2012-ci il tarixli 70 nömrəli əmri ilə təsdiq edilmiş "Tibb müəssisələrində çalışan tibb, əczaçılıq və digər ixtisaslar üzrə işçilərin nümunəvi vəzifə təlimatları"nın tərkib hissəsi olan "Həkim-patoloqoanatomun nümunəvi vəzifə təlimatı"nın 9-cu bəndində təsbit edilmişdir ki, həkim patoloqoanatom "Ölüm haqqında həkim şəhadətnaməsini doldurur, ölənin qohumlarına xəstəliyin xarakteri və ölümün səbəbi barədə şifahi arayış verir". Bunu etmək üçün isə o, əvvəlcə "tədqiqatın müasir metodlarından istifadə etməklə ixtisaslaşdırılmış patoloqoanatomik diaqnostikanı aparır" (Təlimatın 6-cı bəndi); "histoloji preparatların mikroskopik tədqiqatını aparır, əlavə tədqiqatların nəticələrini təhlil edir və yarılma protokolunda müvafiq qeydlər edir"(Təlimatın 7-ci bəndi). Həkim-patoloqoanatomun qeyd edilən Təlimata əsasən, "müstəqil surətdə patoloqoanatomik diaqnoz qoymaq, zərurət olduqda başqa ixtisaslı həkimləri müəyyən edilmiş qaydada məsləhət üçün cəlb etmək" (Təlimatın 18.1-ci bəndi) hüququ vardır.

Tibbi xidmət zamanı baş vermiş insan ölümü səbəblərinin müəyyən edilməsi üçün patoloji-anatomik müayinələr aparılmalı və məhkəmə-tibbi ekspertizaları təyin olunmalıdır.

### *Korrupsiya cinayətləri barədə məlumatların araşdırılması metodikasına əməl olunması*

Tibb işçilərinin peşə fəaliyyəti ilə bağlı törətdikləri əməllərin bir qismi korrupsiya yönümlü məlumatların – tibb işçilərinin müalicə üçün qanunsuz pul tələb etmələri, almaları və s. ilə bağlı da olur.

CM-nin 311-ci maddəsi (Maddə 311. Rüşvət alma (passiv rüşvətxorluq)) "rüşvət alma" əməlinə görə məsuliyyət müəyyən etmişdir. Cinayətin obyektiv cəhəti – "vəzifəli şəxsin xidməti vəzifəsinin (səlahiyyətlərinin) icrası ilə əlaqədar hər hansı hərəkətə (hərəkətsizliyə) görə, eləcə də xidmət üzrə ümumi himayədarlıq və ya laqeydlik müqabilində özü və yaxud üçüncü şəxslər üçün birbaşa və ya dolayı yolla, şəxsən və ya vasitəçidən istifadə etməklə maddi və sair neməti, imtiyazı və ya güzəşti istəməsi və ya alması, yaxud bu barədə təklif və ya vədi qəbul etməsi"dir. Obyekt – qulluq mənafeyi ilə bağlı ictimai münasibətlər, subyekt – vəzifəli şəxsdir. "Vəzifəli şəxs" anlayışının məzmunu CM-nin 308-ci maddəsinin qeyd hissəsində açıqlanmışdır. Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Plenumunun "Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 308-ci maddəsinin "Qeyd" hissəsində nəzərdə tutulmuş "vəzifəli şəxs" anlayışının şərh olunmasına dair" 19 iyul 2013-cü il tarixli qərarında göstərilmişdir: Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 308-ci maddəsinin "Qeyd" hissəsinin mənasına görə: qanunvericiliklə müəyyən edilmiş qaydada tabeçiliyində olan və ya olmayan şəxslər barəsində sərəncam vermək səlahiyyətlərinə və ya hüquqi və fiziki şəxslər üçün icrası məcburi olan qərarlar qəbul etmək hüququna malik olan dövlət qulluqçuları, bələdiyyə üzvləri və bələdiyyə qulluqçuları, zabit, gizir və ya miçman olan hərbi qulluqçular hakimiyyət nümayəndəsi kimi vəzifəli şəxs hesab olunurlar; dövlət və bələdiyyə müəssisə, idarə və təşkilatlarının, habelə digər kommersiya və qeyri-kommersiya təşkilatlarının işçiləri, hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyəti ilə məşğul olan şəxslər yalnız hüquqi əhəmiyyət kəsb edən, yəni başqa şəxslər üçün hüquq münasibətlərinin əmələ gəlməsi, dəyişməsi və ya xitam olunması ilə nəticələnən və ya nəticələnə bilən hərəkətlər etdikdə vəzifəli şəxs hesab olunurlar.".

Cinayət birbaşa qəsdlə törədilir. Vəzifəli şəxs tərəfindən qanunsuz hərəkətlərə (hərəkətsizliyə) görə rüşvət almaya görə CM-nin 311.2-ci, bu əməllərin qabaqcadan əlbir olan bir qrup şəxs və ya mütəşəkkil dəstə tərəfindən törədilməsinə, təkrar törədilməsinə, külli miqdarda törədilməsinə, hədə-qorxu tətbiq olunmaqla törədilməsinə görə CM-nin 311.3-cü maddəsində cinayət məsuliyyəti nəzərdə tutulmuşdur.

Araşdırmanın məqsədi maddənin dispozisiyasında göstərilənləri və nəzərdə tutulanları sübuta yetirməkdir. Rüşvət alma işləri üzrə sübut edilməli hallar aşağıdakılardır: 1) cinayət hadisəsi (rüşvətin alınıb-verilməsi faktı, subyekt tərəfindən törədilmiş hərəkətin və ya hərəkətsizliyin icra edildiyi yer və vaxt; 2) cinayətin törədilməsinin yeri, vaxtı və üsulu (açıq və ya gizli rüşvət); 3) rüşvətin predmeti və onun əlamətləri; 4) rüşvət verilməsi üçün nəzərdə tutulmuş vəsaitlərin mənbəyi; 5) rüşvət alanın rüşvət verənin maraqlarında yerinə yetirdiyi və ya yetirmədiyi xidməti hərəkətlər; 6) cinayətin iştirakçılarının dairəsi; 7) rüşvət verənin məqsədi və motivləri; 8) rüşvət alanların məsuliyyətini yüngülləşdirən və ağırlaşdıran və ya onları səciyyələndirən hallar; 9) vurulmuş zərərin və təqsirli şəxslərin qanunsuz varlanmasının xarakteri və ölçüsü; 10) cinayətin törədilməsinin səbəbi və şəraiti.

### *Komisyon məhkəmə-tibbi ekspertizaları*

CPM-nin 264.1-ci maddəsində müəyyən olunmuşdur ki, xüsusi biliklər tələb edildikdə cinayət təqibi üçün əhəmiyyətli olan halların müəyyən edilməsi məqsədi ilə aparılır. "Ekspertizanın təyin edilməsi haqqında qərarda (...) ekspertiza işin materialları üzrə aparıldıqda isə ekspertin gəldiyi nəticənin əsaslana biləcəyi məlumatlar" (CPM-nin 264.4-cü maddəsi); ekspertin rəyində isə, həmçinin "(...) ekspertin cinayət işinin hansı materiallarından istifadə etməsi" göstərilməlidir. Qanun normalarının mənasına görə, ekspert icraat materiallarından, o cümlədən izahatlardan (ifadələrdən) istifadə edə bilər və bu məlumatların dairəsi müstəntiq (prokuror) tərəfindən müəyyən edilir.

Tibb işçilərinin peşə fəaliyyəti ilə bağlı təyin edilən komisyon məhkəmə-tibbi ekspertizalarının əsaslılığı, dolğunluğu üçün hadisənin iştirakçılarının məlumatları əhəmiyyət kəsb edə bilər. Lakin komisyon MTE rəyləri yalnız maraqlı subyektlər tərəfindən tərtib edilmiş tibbi sənədlərlə əsaslandırılır; ekspertlər öz mülahizələrini deyil, onlara təqdim edilmiş, fəaliyyətləri yoxlanılan şəxslərin tərtib etdikləri tibbi sənədlərin məzmununu təqdim edirlər.

Komisyon məhkəmə-tibbi ekspertizasının rəyinin nəticəvi hissəsində hər bir cavab, bir qayda olaraq, "...verilmiş tibbi sənədlərdən göründüyü kimi" ifadəsi ilə başlayır. Ekspertizanın obyektiv və qərəzsiz olması üçün onlar özlərinin mövqelərini bildirməli, onu potensial məlumat mənbələrindən əldə etdikləri məlumatlarla (xəstənin adına tərtib edilmiş kartalar, təşrih protokolları, müxtəlif komissiyaların iclaslarının protokolları, tibb statistikası və müalicə metodikasına dair təlimatlar, tibb işçilərinin intizam məsuliyyətinə cəlb olunmaları barədə sənədlər, müstəntiqin təqdim etdiyi izahatlar, ifadələr, digər sənədlər və s.) əsaslandırmalıdırlar.

***Məhkəmə-tibbi ekspertləri qarşısında zərərçəkmiş şəxsin sağlamlığına vurulmuş zərərin ağırlığı ilə bağlı və digər zəruri sualların qoyulması***

Tibb işçilərinin peşə fəaliyyəti ilə bağlı cinayətlərin təxmini dairəsi barədə fikir yürütmək mümkündür. Bu əməllər CM-nin 126-cı maddəsi ilə nəzərdə tutulmuş "Qəsdən sağlamlığa ağır zərər vurma, yəni insan həyatı üçün təhlükəli olan və ya görmə, eşitmə, nitq qabiliyyətinin və ya hər hansı bir orqanın, yaxud bu orqanın funksiyasının itirilməsinə, psixi pozuntuya və ya sağlamlığın başqa cür pozulmasına, əmək qabiliyyətinin üçdə bir hissəsindən az olmamaqla uzun müddətə itirilməsi ilə və ya təqsirkar üçün aşkar surətdə zərərçəkmiş şəxsin peşəkar əmək qabiliyyətinin tam itirilməsi ilə əlaqədar olan və ya hamiləliyin pozulmasına, şəxsin narkomanlıqla və ya toksikomanlıqla xəstələnməsinə səbəb olan, yaxud sifətin silinməz dərəcədə eybəcərləşdirilməsində ifadə olunan zərər vurma", 127.1-ci maddəsi ilə nəzərdə tutulmuş "zərərçəkmiş şəxsin həyatı üçün təhlükəli olmayan və bu Məcəllənin 126-cı maddəsində nəzərdə tutulan nəticələrə səbəb olmayan, lakin sağlamlığın uzun müddət pozulmasına səbəb olmuş və ya ümumi əmək qabiliyyətinin üçdə bir hissəsindən az olmaqla əhəmiyyətli dərəcədə itirilməsi ilə nəticələnən qəsdən sağlamlığa az ağır zərər vurma", 128-ci maddəsi ilə nəzərdə tutulmuş "sağlamlığın qısa müddətə pozulmasına və ya ümumi əmək qabiliyyətinin cüzi itirilməsinə səbəb olmuş qəsdən sağlamlığa yüngül zərər vurma", 131.2-ci maddəsi ilə nəzərdə tutulmuş "ehtiyatsızlıqdan sağlamlığa ağır zərər vurma, 138.2-ci maddəsində nəzərdə tutulmuş "tətbiqi müəyyən olunmuş qaydada qadağan edilmiş diaqnostika və müalicə üsullarını, dərman vasitələrini tətbiq etmə ehtiyatsızlıqdan şəxsin sağlamlığına ağır və ya az ağır zərər vurulmasına səbəb olduqda", 142.1 və 141.2-ci maddələrində nəzərdə tutulmuş "qanunvericiliyə və ya xüsusi qaydalara müvafiq olaraq xəstəyə kömək etməyə borclu olan tibb işçisi tərəfindən üzrlü səbəblər olmadan xəstəyə tibbi yardım göstərilməməsi nəticəsində onun sağlamlığına az ağır və ya ağır zərər vurma" və s. maddələrdə nəzərdə tutulmuş məsuliyyətə səbəb olur.

Göründüyü kimi, bu tərkiblərdə sağlamlığa vurulmuş zərərin dərəcəsi əsas elementlərdən biridir. CPM-nin 140.0.1-ci maddəsinə əsasən, bunu yalnız tibb sahəsində ekspert rəyi ilə müəyyən etmək olar. Tibb işçilərinin zərərçəkmiş şəxslərin sağlamlığına zərər vurulması ilə nəticələnən əməlləri barədə məlumatlar araşdırılarkən təyin edilmiş məhkəmə-tibbi ekspertizası qarşısında pasiyentin sağlamlığına vurulmuş zərərin ağırlığı barədə suallar qoyulmalıdır. Uşaq doğumu ilə bağlı hadisələrin araşdırılması zamanı ananın sağlamlıq durumuna mütəxəssis qiyməti verilməli, fəsadların obyektiv və ya subyektiv amillərlə bağlı olmasına aydınlıq gətirilməlidir. Ölüm hallarında meyit müayinə edilməli, ölümün səbəbinə və digər məsələlərə aydınlıq gətirilməsi məqsədi ilə tibb sahəsində ekspertlər qarşısında suallar qoyulmalıdır. Bunlarsız araşdırmanın istiqamətini düzgün müəyyən etmək, tibb işçilərinin əməllərində məhz hansı konkret cinayətin tərkib əlamətlərinin olub-olmamasını dəqiqləşdirmək mümkün deyildir.

Bundan əlavə, tibb işçilərinin peşə fəaliyyəti ilə bağlı əməllərə müxtəlif qaydada qiymət verilməsi səbəbindən cinayət qanunvericiliyinin müxtəlif maddələri ilə cinayət işlərinin başlanması təcrübəsinin aradan qaldırılması məqsədilə, tibbi səhlənkarlığa qarşı vahid cinayət məsuliyyətinin müəyyən edilməsi məqsədəmüvafiq hesab edilir.

**Prosessual hərəkətlər zamanı taktiki tələblərə əməl olunması**

***İzahatların taktiki tələblərə uyğun alınması***

Cinayət haqqında məlumatların araşdırılması zamanı ən çox potensial informasiya mənbəyi kimi "izahat" çıxış edir. CPM-nin 7.0.42-ci maddəsinə əsasən, "izahat - cinayət prosesi iştirakçılarının və ya ərizəçilərin özlərinin, yaxud təmsil etdikləri şəxsin tələblərini əsaslandırmaq üçün göstərdikləri şifahi və ya yazılı dəlillərdir.".

Bu Məcəllənin 207.4-cü maddəsində bildirilir ki, "(...) cinayət haqqında məlumatlara baxarkən təhqiqatçı, müstəntiq və ya ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokuror ərizəçilərdən (...) və digər şəxslərdən izahatları tələb edə (...) bilər.".

Kriminalistik metodikaya görə, tibb işçilərindən izahat almağa hazırlıq çərçivəsində müvafiq təlimatlar, müalicə protokolları əldə edilməli, nəzərdən keçirilməli, hadisənin faktiki hallarının araşdırılmasının istiqaməti müəyyən olunmalıdır.

İzahat almağa əvvəlcədən hazırlıq görülməli, dindirilənin hansı məlumatın potensial daşıyıcısı olması dəqiqləşdirilməli, veriləcək sualların dairəsi və ardıcıllığı əvvəlcədən planlaşdırılmalıdır.

Qanun norması da tələb edir ki, müvafiq sual "iş üzrə hər hansı əhəmiyyət kəsb edən hallardan xəbərdar olan şəxs" qarşısında qoyulmalıdır. "Xəbərdar" olan şəxsi, eləcə də "xəbərdarlığın" hüdudlarını müəyyənləşdirmək üçün müstəntiq hazırlıq çərçivəsində müxtəlif mənbələrdən məlumatlar toplamalı, onları təhlil etməli, digər uyğun məlumatlarla tutuşdurmalı və yalnız bundan sonra bu şəxsin sorğulanması barədə qərar qəbul etməlidir.

İzahat almaqla tibbi sənədlərin məzmununa aydınlıq gətirmək, məlumatlar arasındakı ziddiyyətləri aradan qaldırmaq mümkündür. Tibbi sənədlərin məzmunu ilə müvafiq şəxslərin izahatlarında verdikləri məlumatlar eyni olmasalar da, bir-birinə uyğun olmalıdırlar. Adətən, tibbi sənədlərin əldə edilməsi xeyli sonra baş verir və bu səbəbdən izahatlar daha tez alınır. Bu amil onların kriminalistik əhəmiyyətinin daha yüksək olmasını şərtləndirir. Ona görə də, sənədlərdəki məlumatlarla izahatlardakı məlumatların arasındakı uyğunsuzluqlar aradan qaldırılmalıdır.

***İfadələrin taktiki tələblərə uyğun alınması***

İş üçün əhəmiyyət kəsb edən məlumatların başqa bir mənbəyi ifadədir. CPM-nin 126-cı maddəsində (Maddə 126. Şübhəli, təqsirləndirilən, zərər çəkmiş şəxsin və şahidlərin ifadələri) müəyyən edilmişdir ki, cinayət prosesini həyata keçirən orqan tərəfindən şübhəli, təqsirləndirilən, zərər çəkmiş şəxsdən və şahidlərdən alınmış şifahi və yazılı məlumatlar ifadələr hesab olunur. Yalnız o ifadələr sübut hesab oluna bilər ki, onlar hadisəni, onun səbəblərini, xarakterini, mexanizmini və ya inkişafını bilavasitə qavrayan şəxsin məlumatlarına və ya nəticələrinə əsaslanmış olsun. "İzahat"dan fərqli olaraq "ifadə" sübut hesab edilir. Şahidin və ya zərərçəkmiş şəxsin ifadə verməkdən imtina etməsi (Maddə 298. Şahidin və ya zərərçəkmiş şəxsin ifadə verməkdən imtina etməsi), onların tərəfindən bilə-bilə yalan ifadə verməsi (Maddə 297. Bilə-bilə yalan ifadə vermə, yalan rəy vermə və ya yanlış tərcümə etmə) cinayət məsuliyyəti yaradır.

Tibb işçilərinin şəxsin ölümü və ya xəsarət alması ilə nəticələnmiş əməllərinin araşdırılması zamanı nəinki bu işçilərin, onlarla birlikdə çalışanların, eləcə də qeyd edilən əməlləri araşdıran idarədaxili qurumların (məsələn, komissiyaların) üzvlərinin də ifadələri alınmalıdır, çünki onlar adətən nisbətən bitərəf olmaqla yanaşı müvafiq sahə üzrə dərin xüsusi biliklərə və təcrübəyə malik şəxslər olurlar və onların verdikləri məlumatlar çox böyük əhəmiyyət daşıyırlar.

***Sənədlərin taktiki tələblərə uyğun götürülməsi***

Əhəmiyyətli məlumatların digər mənbəyi – sənədlərdir, xüsusən də tibbi sənədlər. CPM-nin 124.2.5-ci maddəsinə əsasən, "digər sənədlər" cinayət prosesində sübut kimi qəbul olunur. Bu Məcəllənin 135.1-ci maddəsi təsbit etmişdir ki, "cinayət təqibi üzrə əhəmiyyət kəsb edə bilən məlumatları hərf, rəqəm, qrafika və digər işarə formasında özündə əks etdirən kağız, elektron və ya digər daşıyıcılar sənəd hesab olunur". Qanunverici "sənəd" ilə "rəsmi sənəd" arasında fərq qoymuşdur. Rəsmi sənəd – "şəxsin vəzifəsinə və yerinə yetirdiyi işə görə ona məlum olan halları imzası ilə təsdiq etdiyi və qanunvericiliyin müəyyən etdiyi formada tərtib edilmiş sənəd" hesab olunur. İttiham üzrə sübut kimi sənədlərin əsli və ya əslinə bərabər surəti istifadə edilməlidir (CPM-nin 135.3-cü maddəsi). Digər sübut növləri kimi, sübut kimi qəbul edilmələri üçün sənədlərin də "həqiqiliyinə, yaranma mənbəyinə və əldə edilməsi hallarına şübhələr olma"malıdır. Ona görə də, sənədlərin götürülmə əsasları və qaydasına dair qanunvericiliyin müəyyən etdiyi formal proseduralara ciddi əməl etmək vacibdir.

Sənədlərlə iş bu kateqoriyadan olan məlumatların araşdırılması metodikasının vacib tərkib hissəsidir. Sənədlərin həcmi və tədqiqinin istiqamətləri araşdırmanın məqsədləri (hadisənin hallarının aydınlaşdırılması, təqsirli şəxslərin dairəsinin müəyyən olunması, sübutların möhkəmləndirilməsi) ilə müəyyən edilir. Qeyd edilən sahənin müstəntiq üçün çətin sayılan sahələrdən olması, əsasən tibbi fəaliyyətin özəllikləri ilə bağlıdır.

Sənədləşmə xəstəni poliklinikada həkim tərəfindən qəbul edilən, təcili tibbi yardım həkimi çağırılan, stasionar müalicə-profilaktika müəssisəsinə qəbul olunan andan evə yazılana, xəstəlik vərəqəsinin bağlanmasına və ya əlilliyin rəsmiləşdirilməsinə qədər müşayiət edir. Ölüm hallarında patoloji anatomik təşrih haqqında akt, aparılmış müalicənin keyfiyyətinə dair idarədaxili ekspert komissiyasının rəyi tərtib edilir, müalicə-nəzarət komissiyasının qərarı çıxarılır.

Tibb işçisinin ehtiyatsız hərəkətlərinin, pasiyentin həyatına və sağlamlığına qəsdin mexanizminin və onun nəticələrinin aşkara çıxarılması, nəhayət hadisənin tam, hərtərəfli və obyektiv öyrənilməsi üçün sənədlərin tədqiqi müstəsna əhəmiyyət daşıyır. Ona görə də onların vaxtında götürülməsi və öyrənilməsi təmin olunmalıdır.

Ərizəçilərin özlərində olan sənədlər də tələb edilməlidir. CPM-nin 207.4-cü maddəsi cinayət haqqında məlumatlara baxarkən təhqiqatçı, müstəntiq və ya ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurora ərizəçilərdən əlavə sənədləri tələb etmək səlahiyyəti vermişdir.

Komisyon məhkəmə-tibbi ekspertizaları tərəfindən rəy verilməsi üçün zəruri olan sənədlər götürülüb ekspertlərə təqdim olunmaması onların qarşısında qoyulmuş sualların cavabsız qalmasına səbəb ola bilər. Ekspert rəyinin alınması üçün qanunla təsbit edilmiş təminatlardan istifadə olunmalıdır.

**Günay Əyyubova,**
**Hüquqi təminat və insan hüquqları məsələləri idarəsinin rəis müavini baş ədliyyə müşaviri.**

# Prokurorluq orqanlarında işin planlaşdırılması

Cinayətkarlığın cəmiyyətdə mövcud obyektiv ziddiyətlərdən və neqativ meyllərdən törəndiyini nəzərə alsaq, onun birmənalı ləğvi, səbəblərinin və şərtlərinin tamamilə aradan qaldırılması real görünə bilməz. Cəmiyyət və dövlət cinayətkarlığın qaçılmaz bəla kimi mövcudluğu ilə razılaşmağa məcburdur. Bununla yanaşı, cinayətkarlığa qarşı mübarizə aparılması, onu yaradan səbəb və şərtlərin aradan qaldırılması, sosial ədalətin bərpası, habelə insan hüquq və azadlıqlarının təmini cəmiyyət və dövlət qarşısında duran başlıca vəzifələrdəndir.

Hələ e.ə.IV əsrdə qədim yunan filosofu Platon cinayətin qarşısının alınmasının dövlətin cəza siyasətində prioritet məsələ olduğu barədə fikirlər söyləməsinə baxmayaraq, bunun praktikada tətbiqi Yeni dövrdə həyata keçirilməyə başlamışdır. Bu fikir 18-ci əsrdə klassik cinayət hüququ məktəbinin hüquqşünaslarının əsərlərində hüquqi əsaslandırmaya söykənərək cinayətkarlıqla mübarizədə yeni yanaşmanın əsasını qoymuşdur. Fikrin əsas mahiyyəti aşağıdakı formuladan ibarətdir: “Müdrik qanunverici cinayətə görə cəza tətbiq etməkdənsə, cinayətlərin vaxtında qarşısının alınmasını üstün tutar.”

Cinayətkarlıqla mübarizə bütün dövrlərdə dövlət və cəmiyyət qarşısında mürəkkəb, çox zaman həlli mümkün olmayan problem kimi durmuşdur. Eyni zamanda cinayətkarlığın qismən azaldılması böyük maliyyə, texniki, təşkilati və digər xarakterli məsrəflər tələb edir. Lakin çəkilən xərclərin cinayətkarlıq tərəfindən vurulan zərərdən, o cümlədən əvəz olunması mümkün olmayan insan həyatından qat-qat az əhəmiyyətli olduğunu da qeyd etmək vacibdir.

Burada tibbi praktikadan nümunə gətirmək yerinə düşərdi. Bəşəriyyət nə qədər çalışsa da bütün xəstəliklərin kökünü kəsmək iqtidarında deyildir. Lakin tibb elmi təkcə vəziyyətə «nəzarət» etmir, həm də bu xəstəliklərlə aktiv mübarizə aparır. Artıq bu sahədə müəyyən uğur və nailiyyətlər də əldə olunmuşdur. Belə ki, bir çox epidemiyalar minimuma endirilmiş, bəzi xəstəliklərin kökü kəsilmiş, vəba, taun, vərəm və digər əvvəllər müalicəsi mümkün olmayan xəstəlikləri indi müalicə etmək mümkün olmuşdur. Məsələn bu gün Koronavirus (COVID-19) xəstəliyi ilə bütün dövlətlər mübarizə aparırlar. Bir neçə ölkələr tərəfindən artıq vaksinlər hazırlanaraq uğurla tətbiqinə başlanılmışdır. Bizim ölkəmizdə də Möhtərəm cənab Prezident İlham Əliyevin həyata keçirdiyi düşünülmüş və məqsədyönlü uğurlu siyasəti nəticəsində xalqımızın bu ağır bəladan ən az itkilərlə çıxmasına şərait yaranmışdır. Azərbaycanda koronavirus infeksiyasının geniş yayılmasının qarşısının alınması üçün çevik və zəruri qabaqlayıcı addımlar atılmış, vaksinlər gətirilmiş və bu istiqamətdə ölkəmiz qlobal həmrəylik nümayiş etdirərək dünyada öz fəal rolunu oynamışdır.

Eyni zamanda hüquq praktikası da, cinayətkarlıqla mübarizə də müsbət nəticələrə istiqamətlənməlidir.

Bildiyimiz kimi, hüquq-mühafizə orqanlarının əsas vəzifələrindən biri də cinayətkarlıqla mübarizəni gücləndirmək üçün zəruri qabaqlayıcı tədbirlər görməkdir. Cinayətkarlığın qarşısının alınması, mövcud risklərin müəyyən edilməsi, habelə preventiv tədbirlərin görülməsində prokurorluq orqanlarının işin planlaşdırılması prosesi mühüm rol oynayır.

Elm-texnikanın inkişaf etdiyi müasir dövrdə, cinayətlərin növləri, metodları, törədilmə üsulları da sürətlə inkişaf edir. Bu mürəkkəb şəraitdə hüquq mühafizə orqanlarının cinayətkarlıqla uğurlu mübarizə aparması üçün bütün dövlət orqanlarının qarşılıqlı əlaqəsi vacib amildir.

“Prokurorluq haqqında” Azərbaycan Respublikası Qanunun 3-cü fəsli Prokurorluq orqanlarının əsas fəaliyyət istiqamətlərini göstərməklə, prokurorların cinayət təqibinin həyata keçirilməsini təmin etmək məqsədilə cinayət işi üzrə ibtidai araşdırmaya prosessual rəhbərlik etmələrini, habelə qanunların icrasına və tətbiqinə nəzarət etmələrini, bu sahədə qanunvericilik aktlarının icra vəziyyətini öyrənməklə yanaşı ümumiləşdirmələrini qeyd etmişdir. Qanunda da göstərildiyi kimi prokurorların fəaliyyətində cinayətkarlıqla mübarizə ilə yanaşı ümumiləşdirmələrin mühüm əhəmiyyət kəsb etdiyi xüsusi vurğulanmışdır.

Azərbaycan Respublikası Baş Prokurorluğunun Kollegiyasının 30 iyul 2020-ci il tarixli 02 nömrəli qərarı ilə təsdiq edilmiş və Baş prokurorun 30 iyul 2020-ci il tarixli 10/82 nömrəli əmri ilə icraya yönəldilmiş Azərbaycan Respublikası Baş Prokurorluğunun İşin Təşkili Qaydalarına uyğun olaraq Baş Prokurorluğun işi nəzarət sahələri üzrə Fəaliyyət planlarının tərtib edilməsi yolu ilə yarımillik müddətə planlaşdırılır. Baş Prokurorluğun Fəaliyyət planına dair təkliflər struktur qurumlarının rəhbərləri tərəfindən əsaslandırılmalı, tədbirin planlaşdırılmasını zəruri edən səbəblər şərh olunmalı, tədbirin icra müddətləri və üsulları, icraya məsul olan vəzifəli şəxslər konkret göstərilməlidir. Digər hüquq mühafizə orqanlarının iştirakı nəzərdə tutulan tədbirlər müvafiq qurumlarla qabaqcadan razılaşdırıldıqdan sonra təklif kimi verilə bilər.

Baş Prokurorun 14.09.2020-ci il tarixli 15/2 nömrəli əmri ilə təsdiq edilmiş Bakı şəhər Prokurorluğunun İşin Təşkili Qaydalarına uyğun olaraq Bakı şəhər prokurorluğunun işi nəzarət sahələri üzrə iş planlarının tərtib edilməsi yolu ilə hər rüb üzrə planlaşdırılır. Eyni zamanda Bakı şəhər prokurorluğun İş planına

dair təkliflər idarə və şöbələrin rəhbərləri tərəfindən əsaslandırılmalı, tədbirin planlaşdırılmasını zəruri edən səbəblər şərh olunmalı, tədbirin icra müddətləri və üsulları, icraya məsul olan vəzifəli şəxslər konkret göstərilməlidir. Digər hüquq mühafizə orqanlarının iştirakı nəzərdə tutulan tədbirlər müvafiq qurumlarla qabaqcadan razılaşdırıldıqdan sonra təklif kimi verilə bilər.

Azərbaycan Respublikası Baş Prokurorluğunun İşin Təşkili Qaydalarının 109-cu bəndinin tələblərinə uyğun olaraq, tabe prokurorluqların işi rüblük planlaşdırılmaqla, tərtib edilərkən prokurorluğun fəaliyyət istiqamətləri tam əhatə olunmalı, xidmət ərazisi üzrə kriminogen durumun, cinayətkarlığın dinamikası və strukturunun, qanunçuluğa riayət olunması işinin real vəziyyəti, istintaq və məhkəmə təcrübəsi, Baş Prokurorluğun və yuxarı prokurorluqların təşkilati xarakterli sənədlərində (icmal və irad məktubları, kompleks və sahəvi yoxlama arayışları və s.) əks olunmuş tövsiyələr nəzərə alınmalı, ümumiləşdirilməsi və ya araşdırılması nəzərdə tutulan fəaliyyət istiqamətləri, qanunvericilik aktları, Baş prokurorun normativ sənədləri konkret və dəqiq göstərilməli, plan tədbirlərinin vaxtında icrası, prokuror aktlarının düzgün tətbiqi təmin olunmalıdır.

Eyni zamanda, iş planlarına prokurorluğun "Prokurorluq haqqında" Qanunda, İşin Təşkili Qaydalarında və digər normativ sənədlərdə müəyyən edilmiş vəzifə və səlahiyyət hədlərindən kənara çıxan tədbirlərin, Baş Prokurorluq üzrə normativ sənədlərlə ümumiləşdirilməsi nəzərdə tutulan, prokurorluğun cari vəzifələrinə aid olan məsələlərin daxil edilməsinə yol verilmir.

Habelə, Baş Prokurorluğun struktur qurumları və prokurorluqların iş planlarında cinayətkarlığa qarşı mübarizənin aktual problemləri, Dövlət Proqramlarının icrası ilə əlaqədar digər dövlət orqanları ilə birgə tədbirlər planlaşdırıla bilər.

Cinayətlərin statistik dinamikasının mütamadi izlənilməsi mövcud kriminoloji duruma nəzarətin, habelə cinayətlərin qarşısının alınmasında vacib rol oynayır.

Prokurorlar tərəfindən iş planlarının hazırlanması və icrası zamanı, habelə analitik təhlilin aparılmasında cinayətlərin dinamikasının izlənilməsi xüsusi əhəmiyyətə malikdir. Baş prokurorun 11.12.2020-ci il tarixli əmri ilə "Prokuror işi haqqında" 1-P nömrəli (yarımillik, illik) rəsmi statistik hesabat forması və onun doldurulmasına dair, habelə 16.12.2020-ci il tarixdə birgə əmrlə "İstintaq işinə dair əsas göstəricilər barədə" 1-EM nömrəli (aylıq), "İstintaq işi haqqında" 1E nömrəli (yarımillik, illik) "Törədilmiş və ya hazırlanan cinayətlər haqqında məlumatların baxılmasına dair" 2-E nömrəli (yarımillik, illik) rəsmi statistik hesabat formaları və doldurulması barədə göstərişlər tətbiq olunmuşdur. Statistik hesabat blankları tabe rayon prokurorluqları tərəfindən göstərişlərdə qeyd olunan tələblərə uyğun və müddətlərdə tərtib olunaraq yuxarı prokurorluğa təqdim olunur. Eyni zamanda prokurorlar həmin hesabat formalarında rayon ərazisində cinayətkarlığın mövcud dinamikasını izləyə bilirlər. Bu səbəbdən prokurorlar statistik hesabatları cinayətkarlıqla mübarizədə əlverişli vasitə kimi istifadə etmə imkanlarına malikdirlər.

2020-ci ildə Azərbaycan Respublikasında Prokurorluq və DİN orqanları üzrə qeydə alınmış 24566 cinayət hadisəsindən 10509-u və ya 42.8 %-nin Bakı şəhərində baş verdiyini nəzərə alsaq, paytaxtda törədilən cinayətlərin dinamikasının izlənilməsi, mütəmadi təhlilin aparılması, cinayətlərin qarşısının alınması baxımından nə dərəcədə mühüm əhəmiyyət kəsb etdiyini görə bilərik.




2020-ci ildə Bakı şəhərində ümumi istintaq subyektləri üzrə qeydə alınmış 10921 cinayət hadisəsindən 10509-u Prokurorluq və DİN orqanları üzrə qeydə alınmışdır.




İşi planlaşdırarkən prokurorlar statistik və digər zəruri məlumatları tələb etmək hüququndan geniş istifadə etməlidir, çünki düzgün təşkil olunmuş informasiya-analitikası prokurorun fəaliyyətində üstünlük təşkil edən istiqamətlərdən biridir. İnformasiya-analitikası işi prokurorun gündəlik işində məlumatların mütəmadi toplanması, onların intellektual təhlili (ümumiləşdirilməsi, qiymətləndirilməsi) və təhlil əsasında nəticələrə gəlmək və təkliflərin irəli sürülməsindən ibarət (sistemli) prosesdir.

Bu prosesi şərti olaraq aşağıdakı mərhələlərə bölmək olar:

1. Statistik məlumatların toplanması
2. Digər informasiyaların əldə olunması
3. Analitika – təhlillər
4. Nəticə və təkliflər

Təhlillər zamanı statistik məlumatlar, materiallar, cinayət işləri, inzibati xətalar haqqında icraatlar, vətəndaşların müraciətləri, şikayət və ərizələr, kütləvi informasiya məlumatları, həmçinin ərazidə qanunlara əməl olunması vəziyyətini xarakterizə edən digər materiallardan istifadə oluna bilər.

Prokurorluğa daxil olan məlumatlar mahiyyətinə və məzmununa görə şərti olaraq statistik, məlumat xarakterli və əməliyyat məlumatlarına bölünə bilər. Statistik məlumatlar dövlət statistika orqanlarından, daxili işlər və ədliyyə orqanlarından və digər qurumlardan əvvəlcədən müəyyən olunmuş müddətdə və formada təqdim olunur. Həmçinin təhlillər üçün prokurorluqda toplanılan məlumatlardan geniş istifadə olunur.

Əməliyyat məlumatları (hadisələr barədə gündəlik xülasə və s.) prokurora mütəmadi olaraq müxtəlif formalarda (kağız üzərində, elektron formada, telefonaqram) təqdim oluna bilər. Məlumat toplamaq və toplama prosesi üçün əsas tələblərdən biri onun optimallığını təmin etməkdir, çünki yalnız bu şəkildə düzgün və praktik əhəmiyyətli nəticə çıxarmaq mümkündür. Məlumatların həddindən artıq çoxluğu bəzən iş prosesinə mənfi təsiri edə bilər, çünki məlumat toplamaq və təhlil etmək üçün xeyli vaxt və əmək sərf olunur. Təhlilin nəticələrinə əsasən gələcək fəaliyyətin planlaşdırılmasının əsasını təşkil edən yekun sənəd (ümumiləşdirmə, icmal, məlumat və s.) hazırlanır. Eyni zamanda sənəd qısa, lokanik olmaqla yanaşı aşağıdakı məqamları əhatə etməlidir: təhlilin məqsədlərini, vəzifələrini və mahiyyətinin dəqiq müəyyənləşdirilməli; ümumiləşdirmənin əhatə etdiyi müddətin göstərilməsi, hansı növ məlumatlar və metodlarla tədqiq olunması, ümumiləşdirmənin nəticələri və təkliflər.

Təbii ki, biz anlayırıq ki, statistik təhlillərin aparılmasıyla cinayətlərin bütünlüklə qarşısını almaq mümkün deyildir, lakin unutmamalıyıq ki, bu növ təhlillərlə cinayətlərin baş verməsinin səbəblərini müəyyən edərkən, onların gələcəkdə törədilməsinin qarşısının alınmasında əhəmiyyətli ola bilər.

Qeyd etmək vacibdir ki, əsası ümummilli liderimiz, dahi öndər Heydər Əliyev tərəfindən qoyulmuş və dövlət başçısı cənab İlham Əliyevin rəhbərliyi ilə uğurla davam etdirilən mütərəqqi məhkəmə-hüquq islahatları, eyni zamanda hüquq mühafizə orqanlarının cinayətkarlıqla mübarizədə preventiv tədbirlərin tətbiqi nəticəsində 2020-ci ildə Azərbaycan Respublikasında (əhali sayının 10 milyon insanı keçməklə) hər 100 min nəfərə düşən cinayətlərin azlığına (257) görə MDB və Şərqi Avropa məkanında öncül mövqedə olmuşdur. Əbəs yerə deyil ki, Bakı şəhəri dünyanın ən təhlükəsiz şəhərləri siyahısına daxil edilib. Bu haqda məlumat "The Economist Intelligence Unit" və "The Economist" nəşrləri tərəfindən tərtib edilən illik hesabatda qeyd olunub.

2020-ci ildə əməliyyat-axtarış və istintaq fəaliyyətinin subyektləri üzrə ölkə ərazisində 26004 (2019-cu il ilə müqayisədə -668 fakt və ya -2,5%) cinayət qeydə alınmışdır ki, onların 24566 və ya 94,5%-i daxili işlər və prokurorluq orqanları tərəfindən ibtidai araşdırılması aparılan hüquqazidd əməllər olmuşdur.

Bununla yanaşı qeyd olunmalıdır ki, Baki şəhərində prokurorluq və DİN qurumları üzrə 2019-cu illə müqayisədə 2020-ci ildə ümumi cinayətlərin sayında 6,0%, qəsdən adam öldürmələrdə 28,8%, qəsdən sağlamlığa ağır zərər vurmalar üzrə 28,4%, dövlət hakimiyyəti əleyhinə olan cinayətlərdə 23,8%, mülkiyyətlə bağlı cinayətlərdə 15,4%, adam öldürməyə cəhdlər üzrə 11,5%, xuliqanlıqlarda 2,3 dəfə azalma dinamikası müşahidə edilmişdir. Eyni zamanda 2020-ci ildə hüquqpozmaların azalmasına təsir edən amillərdən biri də, ölkə ərazisində Koronavirus (COVID-19) pandemiyası dövründə xüsusi karantin rejiminin tətbiq olunması olmuşdur.

Lakin açılmayıb bağlı qalan cinayət hadisələri də, vardır ki, bu hallar da hüququ mühafizə orqanlarlarını narahat etməyə bilməz. Paytaxt Bakının 12 inzibati rayonu üzrə törədilmiş cinayət hadisələrinin açılma faizinə nəzər salaq:

**Bakı şəhərinin rayonları üzrə baş vermiş cinayət hadisələrinin açılma faizi**

*(2019-cu il ilə müqayisəli şəkildə)*

| Rayonlar | 2020 | 2019 |
|---|---|---|
| Binəqədi | 74,1% | 63,3% |
| Xəzər | 87,5% | 85,6% |
| Xətai | 93 % | 87,5% |
| Qaradağ | 92,8% | 90,5% |
| Nərimanov | 83,3% | 83,1% |
| Nəsimi | 90,2% | 87,6% |
| Nizami | 60,9% | 67,7% |
| Sabunçu | 82,4% | 80,8% |
| Səbail | 84,6% | 83,1% |
| Suraxanı | 64% | 75,8% |
| Yasamal | 82,2% | 86,2% |
| Pirallahı | 94% | 98,5% |

Təşkilat və icraya nəzarət şöbəsinə təqdim olunmuş statistik hesabatlardan göründüyü kimi, cinayətlərin

açılma faizi nisbətən az olan Bakının rayonlarında bağlı qalmış cinayət hadisələri əsasən oğurluq və soyğunçuluq faktlarıdır. Bu səbəbdən prokurorlar tərəfindən iş planları hazırlanarkən mütləq olaraq bağlı qalmış cinayət hadisələri ilə əlaqədar plan tədbirləri əlavə olunmalı, ətraflı ümumiləşmələr aparılmaqla yanaşı, bu kateqoriyadan cinayətlərin baş vermə səbəbləri dərindən təhlil olunmaqla, bağlı qalmasına dəlalət edən hallar və gələcəkdə bu hadisələrin qarşısının alınması üçün zəruri profilaktiki tədbirlərin görülməsi yolları müəyyən edilməlidir.

Bakı şəhər prokurorluğunun Təşkilat və icraya nəzarət şöbəsi tərəfindən mütəmadi olaraq tabe rayon prokurorluqlarında tərtib edilmiş rüblük iş planlarının mövzuları, icranın vəziyyətinin keyfiyyəti və digər mühüm amillər təhlil olunur. Bakı şəhərinin rayon prokurorluqlarının 2020-ci ilin 3-cü rübünə dair iş planlarının icra vəziyyətləri şöbədə təhlil edilərək, heç də bütün hallarda qənaətbəxş olmamış, ümumiləşmə mövzuları və nəticələr tələblərə cavab verməmiş, yekunda aşkar edilmiş nöqsanlar barədə icmal məktub tabe rayon prokurorluqlarına göndərilmişdir.

Belə ki, aparılmış təhlillə tabe rayon prokurorluqları tərəfindən işin planlaşdırılması zamanı əksər hallarda prokurorluğun fəaliyyət istiqamətləri tam əhatə olunmadığı, xidmət ərazisi üzrə kriminogen durumun, cinayətkarlığın dinamikası və strukturunun, qanunçuluğa riayət olunması işininin real vəziyyətinin, istintaq və məhkəmə təcrübəsinin nəzərə alınmadan plan tədbirlərinin tərtib olunması müəyyən olunmuşdur.

Habelə, bir çox hallarda keçirilmiş ümumiləşmələr səthi, formal aparılmaqla, ətraflı, müqayisəli təhlillər aparılmamış, cinayət hadisələrinin qısa fabulaları sadalanaraq kifayətlənilmiş, cinayət hadisələrinin yaranma səbəbləri aydınlaşdırılmamış, heç bir hüquqi nəticəyə gəlinməmiş, cinayətlərin gələcəkdə baş verməsinin qarşısının alınması məqsədilə prokuror təsir tədbiri aktlarından istifadə olunmamış, cavabdeh qurumlar qarşısında ölçü görülməsi üçün məsələlər qaldırılmamışdır.

Prokurorluq orqanları tərəfindən ümumiləşdirmələrin keçirilməsində əsas məqsəd cinayət (və ya inzibati) xarakterli hadisələrin baş vermə səbəblərini təhlil etmək və gələcəkdə baş verməsi ehtimal olunan eyni xarakterli hadisələri (ərazidə kriminogen durum nəzərə alınmaqla) öncədən müəyyən edərək vaxtında preventiv tədbirlərin görülməsini, zərurət yarandıqda müvafiq icra hakimiyyəti və digər aidiyyəti qurumlar qarşısında məsələ qaldırmaqla təsir tədbirlərinin həyata keçirilməsidir.

Eyni zamanda, prokurorlar tərəfindən müvafiq icra hakimiyyətlərinə, habelə digər aidiyyəti qurumlara göndərilən cinayətin törədilməsinə şərait yaradan halların aradan qaldırılması üçün tədbirlər görülməsi haqqında təqdimatların müzakirəsində prokurorluq nümayəndəsinin iştirakı da vacib amildir.

İş planlarının icrası zamanı, preventiv tədbirlərin həyata keçirilməsi məqsədilə prokurorlar hüquqa zidd əməlləri törətmiş şəxslərin şəxsiyyətini dərindən təhlil etməli, cinayətə sövq edən amillər, hallar ətraflı araşdırılmalıdır. Prokurorlar problemin kökündə nələrin durduğunu müəyyən etdikdən yalnız sonra, effektiv mübarizə metodları təklif edə bilərlər.

İnzibati ərazi üzrə cinayətkarlığın qarşısının alınması zamanı və plan tədbirinin icrasında prokurorlar aşağıdakı hallara xüsusi diqqət etməli və konkret təkliflərlə çıxış etməlidirlər: kriminogen təsirə malik səbəb və şəraitlərin (alkoqolizm, narkomanlıq və s.) aradan qaldırılmasıyla əlaqədar; münaqişəli ailələr qeydiyyata alınmaqla nəzarətdə saxlanılması; alkoqolizm və narkomaniyadan əziyyət çəkən, cəmiyyət üçün real təhlükə yaradan şəxslərin məcburi müalicə üzrə tibbi-psixoloji reabilitasiya və müalicə müəssisələrinə yerləşdirilməsi ilə əlaqədar tədbirlərin görülməsi; gənclərin asudə vaxt keçirmə problemlərinin ərazi üzrə gənclər və yeniyetmələr üçün maraq dairələri üzrə dərnəklər, idman şöbələrinin yaradılması yolu ilə həll edilməsinə dair təkliflər; mürəkkəb həyat şəraitinə düşmüş və ya zorakılığa məruz qalmış yeniyetmələrə tibbi, hüquqi, psixoloji yardımının göstərilməsi; yeniyetmə və gənclərin, işsizlərin, əvvəllər məhkum olunmuş və daimi gəlir mənbəyi olmayanların sosial məşğulluğunun təmini üzrə təkliflərin hazırlanması; əhalinin hüquqi mədəniyyətinin yüksəldilməsi və qanunariayət həyat tərzinin təbliği istiqamətində kütləvi informasiya vasitələrinin aktivliyinin daha da artırılmasının təmini; kütləvi informasiya vasitələrində hüquq-mühafizə orqanlarının cinayətkarlıqla mübarizə sahəsində müsbət təcrübəsinin işıqlandırılması və digər.

**Rövşən Əliyev,**
**Bakı şəhər prokurorluğunun**
**Təşkilat və icraya nəzarət şöbəsinin rəisi**
**baş ədliyyə müşaviri.**

***İstifadə olunmuş ədəbiyyat:***

1. "Prokurorluq haqqında" Azərbaycan Respublikası Qanunun
2. Azərbaycan Respublikası Baş Prokurorluğunun "İşin Təşkili Qaydaları"
3. Bakı şəhər prokurorluğunun "İşin Təşkili Qaydaları"
4. Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin saytı - https://www.mia.gov.az/index.php?/az/content/3*0013/*

# Vətən sevgisinin təntənəsi

*"Bizim xalqımız o günü heç vaxt unutmayacaqdır. Çünki o, ayrı-ayrı insanlara edilən qəsd, təcavüz deyildi, bu bütün Azərbaycan xalqına, Azərbaycan millətinə, Azərbaycan ölkəsinə edilən təcavüz idi. Bu təcavüz nəticəsində həlak olanlar xalq qəhrəmanlarıdır, onlar millətimizin qəhrəmanlarıdır".*

**Heydər Əliyev**
**Azərbaycan Xalqının Ümummilli Lideri**

*"20 Yanvarda sovet rejiminin hərbi, siyasi və mənəvi təcavüzünə məruz qalmış Azərbaycan xalqı öz tarixi qəhrəmanlıq ənənələrinə sadiq olduğunu bütün dünyaya nümayiş etdirdi. Azərbaycanda haqq-ədalətin müdafiəsi yolunda canlarından keçmiş Vətən övladları Qanlı Yanvarda xalqımızın qəhrəmanlıq salnaməsinə parlaq səhifə yazdılar".*

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**

Bütün xalqların tarixində elə insanlar olur ki, bu dünyadan köçdükləri vaxtdan qərinələr, əsrlər keçməsinə baxmayaraq onları heç kəs unutmur və əziz xatirələri həmişə böyük ehtiramla yad edilir. Belə insanlar milləti və dövləti qarşısındakı misilsiz xidmətləri ilə seçilən şəxslər və vətən uğrunda, xalq yolunda canlarını fəda edən şəhidlərdir. Bu gün Qanlı Yanvar hadisələrindən 31 il keçir. "20 yanvar" tarixi ümumxalq hüzn günü olmaqla bərabər, ümummilli qürur günüdür. 1990-cı il yanvarın 20-si Azərbaycanın müasir tarixinə ən faciəli günlərdən biri, eyni zamanda, xalqımızın qəhrəmanlıq səhifəsi kimi daxil oldu və həmin gün azadlıq, istiqlal və istiqbal uğrunda mübarizənin və qəhrəmanlığın rəmzinə çevrildi. O gün ölkəmizə qarşı əsassız ərazi iddiaları irəli sürən Ermənistanın təcavüzkar hərəkətlərinə və keçmiş SSRİ rəhbərliyinin Azərbaycana qarşı qərəzli mövqe tutaraq onlara havadarlıq etməklə təcavüzkar siyasəti açıq-aşkar dəstəklənməsinə, eləcə də respublikanın o zamankı rəhbərliyinin xəyanətkar mövqeyinə hiddətlənərək, buna etiraz əlaməti olaraq Bakının küçə və meydanlarına çıxan geniş xalq kütlələrinə qarşı qanunları və beynəlxalq hüquq normalarını kobud şəkildə pozmaqla sovet ordusunun hərbi hissələri yeridilərək dinc əhaliyə divan tutuldu, insanlar qətlə yetirildi, yaralandı və itkin düşdü. Azərbaycanda, xüsusilə də Bakıda misli görünməmiş faciə baş verdi və qeyd olunan gün Azərbaycan xalqının tarixinə Qanlı Yanvar günü kimi həkk olundu. Xalqımıza qarşı həyata keçirilmiş hərbi təcavüz nəticəsində Azərbaycan xalqının haqq-ədalətin bərqərar edilməsi uğrunda səsini ucaldaraq imperiya buxovlarından birdəfəlik qurtulmağa can atmasından təşvişə düşən SSRİ rəhbərliyi, əslində sovet totalitar rejiminin süqutunu daha da sürətləndirən ağır cinayətə əl atdı. Azərbaycanda suveren, demokratik bir dövlət yaratmaq amalı ilə ayağa qalxmış xalqın inam və iradəsini qırmaq, milli mənliyini aşağılamaq, azadlıq hərəkatını boğmaq məqsədi ilə törədilən bu çirkin əməllər silahlanmış hərbçilərin cəza tədbirlərinə məruz qalan əliyalın xalqımızı azadlıq uğrunda mübarizədən döndərə və vətənpərvər insanların əzmini sarsıda, məğrur övladların qürurunu qıra bilmədi. Xalq həmin gün üstünə şığıyan qorxunc sovet ordusuna qarşı sinəsini sipər etməklə özünün mənliyini və mətnliyini əyani şəkildə sübut etdi. Müqəddəs Vətəninin suverenliyini, xalqının və dövlətinin azadlığını, şərəf və ləyaqətini hər şeydən uca tutan mərd Vətən övladları ali amallar uğrunda canlarından keçərək şəhidlik zirvəsinə ucaldılar və bununla da haqq səsini bütün dünyaya daha ucadan bəyan etmiş oldular. Ümummilli mənafelərin müdafiəsi naminə canlarından keçərək şəhidlik zirvəsinə ucalmış Vətən övladları misilsiz fədakarlıqları ilə xalqımızın qəhrəmanlıq salnaməsinə yeni parlaq səhifə yazdılar. Məhz həmin hadisələr sübut etdi ki, xalqımız pozulan hüquqlarının, ölkənin ərazi bütövlüyünün, suverenliyinin və müstəqilliyinin bərpa olunması uğrunda savaşmaq əzminə malikdir. Xalqımız öz azadlığı və müstəqilliyi uğrunda çox sayda şəhid versə də, onun iradəsi qırılmadı, qüruru sınmadı, milli ruhumuz sarsılmadı və baş verənlərə baxmayaraq imperiya qanlı əməlləri ilə Azərbaycan xalqının azadlıq eşqini söndürə, müstəqillik hərəkatını boğa bilmədi. Bu böyük faciə Azərbaycan xalqını daha da sıx birləşdirdi, müstəqilliyə gedən yolu yaxınlaşdırdı. Xalqımız qanı və canı bahasına da olsa istəyinə - azadlıq və müstəqilliyinə qovuşdu.

Baş verənlərə baxmayaraq, Azərbaycanın o vaxtkı səriştəsiz, kölə psixologiyalı rəhbərlərinin xalqla bir olmağa yenə də cəsarətləri çatmadı və onlar sovet rəhbərliyinə sədaqətlə xidmət etməyə davam etdilər. Onlardan fərqli olaraq, həmin vaxt Moskvada yaşayan xalqımızın ümummilli lideri Heydər Əliyev özünün və ailə üzvlərinin həyatını təhlükəyə atmaqla, qətliamdan bir gün sonra, yanvarın 21-də Azərbaycanın Moskvadakı Daimi Nümayəndəliyinə gedərək Bakıda kütləvi qırğın törətmiş SSRİ hakimiyyətini və Azərbaycanın yarıtmaz rəhbərliyini kəskin ittiham edən bəyanat verdi. Dahi şəxsiyyətin bu bəyanatından sonra Azərbaycan xalqının

məruz qaldığı dəhşətli və amansız terroru dünyanın mütərəqqi qüvvələri də qətiyyətlə pislədi. Hər kəsə məlumdur ki, o vaxta qədər Ulu Öndər Heydər Əliyevin fəal siyasətlə məşğul olmaq niyyəti olmamışdır. Bununla belə, vətənini və xalqını canından çox sevən böyük insan bu hadisəyə biganə qala bilməzdi və qalmadı da. Onun sözügedən bəyanatla çıxış etməklə, xalqının yanında olduğunu bildirməsi, yeni tarixi epoxanın başlanğıcında Heydər Əliyevin müstəqillik uğrundakı mübarizəsinin eyhamı kimi Azərbaycanın xoşbəxt gələcəyində müstəsna rol oynadı.

Zamanında dərindən araşdırılmayan və adekvat qiymət verilməyən faciəyə yalnız bir neçə ildən, məhz xalqımızın ümummilli lideri Heydər Əliyevin Azərbaycan rəhbərliyinə qayıdışından sonra rəsmi münasibət bildirildi. Belə ki, Ölkəmizin ərazi bütövlüyü, xalqımızın azadlığı və dövlətimizin müstəqilliyi yolunda canlarını fəda etmiş həmvətənlərimizin - günahsız Qanlı Yanvar qurbanlarının əziz xatirəsini uca tutan Ulu Öndərin təşəbbüsü ilə sözügedən faciəyə dövlət səviyyəsində siyasi-hüquqi qiymət verildi. “20 Yanvar faciəsinin 4-cü ildönümünün keçirilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 5 yanvar 1994-cü il tarixli Fərmanında, həmçinin, Milli Məclisə 20 Yanvar hadisələrinə tam siyasi-hüquqi qiymətin verilməsi, bu məqsədlə parlamentin xüsusi sessiyasının keçirilməsi məsələsinə baxılması da tövsiyə edildi. Adı çəkilən Fərmanda deyilirdi: “...Xalqımızın tarixinə Qanlı Yanvar faciəsi kimi daxil olmuş 1990-cı ilin yanvarın 20-də Azərbaycan öz azadlığı və müstəqilliyi uğrunda ilk şəhidlərini vermişdir. Tarixin yaddaşına qanla yazılmış həmin gündən bizi 4 illik zaman məsafəsi ayırır. Təəssüf ki, 4 il ərzində 20 Yanvar hadisələrinə dövlət səviyyəsində lazımi siyasi-hüquqi qiymət verilməmişdir...”. Milli Məclisin 1994-cü il martın 29-da qəbul etdiyi Qərarda 20 Yanvar faciəsinin günahkarları konkret qeyd olundu və bu qanlı aksiya Azərbaycanda milli azadlıq hərəkatını boğmaq, xalqın inamını, iradəsini qırmaq üçün totalitar kommunist rejimi tərəfindən törədilmiş hərbi təcavüz və cinayət kimi qiymətləndirildi. Beləliklə, Milli Məclisdə müzakirələrin yekunu olaraq 1994-cü il martın 29-da qəbul edilən qərarda 1990-cı ilin qanlı 20 Yanvar faciəsinə dövlət səviyyəsində tam siyasi-hüquqi qiymət verildi. Eyni zamanda 20 Yanvar - Ümumxalq Hüzn Günü elan edildi.

Bir müddət sonra Ulu Öndər Heydər Əliyevin 31 mart 1998-ci il tarixli Fərmanı ilə 20 Yanvar faciəsi zamanı şəhid olanlara “20 Yanvar şəhidi” fəxri adı verildi, həmçinin şəhid ailələrinin, 20 Yanvar hadisələrində əlil olan şəxslərin sosial müdafiəsi və pensiya təminatı da gücləndirildi. Qeyd olunmalıdır ki, Bakı şəhərinin ən hündür və mənzərəli yerində yerləşən Şəhidlər Xiyabanında Azərbaycanın azadlığı uğrunda mübarizədə şəhid olanların xatirəsinə ucaldılmış möhtəşəm “Əbədi məşəl” abidə-kompleksi də ümummilli lider Heydər Əliyevin sərəncamına əsasən layihələndirilmiş və tikilmişdir.

Vurğulanmalıdır ki, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev də 20 Yanvar şəhidlərinin xatirəsinin əbədiləşdirilməsi, adlarının uca tutulması, o cümlədən onların ailələrinin sosial müdafiəsinin gücləndirilməsini daim diqqət mərkəzində saxlayaraq, bu istiqamətdə mühüm tədbirlər həyata keçirmişdir. Dövlət başçısının təşəbbüsü ilə Bakı şəhərinin Yasamal rayonundakı “20 Yanvar” dairəsində 20 Yanvar şəhidlərinin əziz xatirəsinə abidə-kompleksi inşa edilmişdir. 2009-cu ilin oktyabr ayında tikintisinə başlanan abidə-kompleksin 20 yanvar 2010-cu il tarixdə açılışı olmuşdur. Abidə kompleksinin üzərində 20 Yanvar faciəsi zamanı həlak olmuş və yaralanmış insanların adları və soyadları, eləcə də ümummilli lider Heydər Əliyevin Qanlı Yanvar hadisələri ilə bağlı dediyi “1990-cı il yanvarın 20-si Azərbaycanın tarixinə ən faciəli günlərdən biri, eyni zamanda xalqımızın qəhrəmanlıq səhifəsi kimi daxil olmuşdur”- sözləri həkk olunmuşdur. Bundan başqa, 2007-ci ildə cənab Prezident İlham Əliyevin müvafiq Sərəncamına əsasən Şəhidlər Xiyabanı rekonstruksiya olunarkən “Əbədi məşəl” abidəsinin sütunları daha da hündürləşdirilmiş, abidədəki səkkizguşəli ulduz və məsamələri müasir üslubda işlənmişdir.

20 Yanvar şəhidlərinin anım günü olduğundan bu hissəyə qədər yalnız o haqda bəhs etsəm də, təbii ki, hər bir şəhidimizin unudulmaz xatirəsi mənim və xalqımız üçün eyni dərəcədə əziz olduğundan bütün şəhidlərimiz barədə söz açmaq zəruridir. Çünki 20 Yanvar şəhidlərindən danışılarkən digər şəhidlərimizi də yad etmək hər birimizin borcumuzdur. Tarix boyu Azərbaycan xalqı və dövləti yolunda şəhid olan vətən övladları olmuşdur ki, onların da heç birini millətimiz unutmayacaqdır. Müasir Azərbaycan tarixində ən çox şəhidlər birinci və ikinci Qarabağ müharibəsində verilmişdir ki, sonuncu müharibədə şəhid olan vətənpərvər insanların vurduğu yaralar hələ də qaysaq bağlamamışdır. Təbii ki, bütün şəhidlərimizin nisgili son nəfəsimizədək qəlbimizdə qalacaq, ancaq 44 günlük Vətən müharibəsi şəhidlərinin ağrı-acısı hələ də canımızı ağrıdır, ruhumuza rahatlıq vermir. Fəqət bütün şəhidlərimizin, o cümlədən II Qarabağ müharibəsi şəhidlərinin canlarını müqəddəs amallar uğrunda fəda etdiklərini, ən uca məqama yüksəldiklərini, məkanlarının cənnət olduğunu, adlarının Azərbaycan tarixinə qızıl hərflərlə yazıldığını, əbədi olaraq zamanın yaddaşında və xalqın qəlbində qalacaqlarını xatırladıqca cismimiz dincəlir, ruhumuz rahatlıq tapır.

Vətən müharibəsindən söz düşmüşkən, Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi ilə hərbçilərimizin şanlı tarix yazaraq düşmən üzərində möhtəşəm qələbəmizi təmin etməsini, nəticədə 30 ilə yaxın işğal altında olan dədə-baba torpaqlarımızın hərbi və siyasi yolla azad edilərək, ərazi bütövlüyümüzün bərpa olunmasını, bununla da Azərbaycan tarixinə növbəti parlaq səhifələr yazıldığını xüsusi vurğulamaq lazımdır.

Sirr deyil ki, 27 sentyabr 2020-ci il tarixdə səhər




saatlarında Ermənistan Silahlı Qüvvələrinin genişmiqyaslı təxribat törədərək cəbhəboyu zonada yerləşən Azərbaycan ordusunun mövqelərini və yaşayış məntəqələrini iriçaplı silahlar, minaatanlar və müxtəlif çaplı artilleriya qurğularından intensiv atəşə tutması ordumuzu mənfur düşmənin layiqli cavabını verməyə vadar etdiyindən Azərbaycan Silahlı Qüvvələri əks-hücum əməliyyatları həyata keçirdi və bununla da ikinci Qarabağ müharibəsi başladı. Ermənistanın növbəti təxribatlarının qarşısını almaq və düşməni sülhə sövq etmək məqsədi ilə gedən 44 günlük müharibədə müdrik və qətiyyətli Ali Baş Komandanın rəhbərliyi ilə qüdrətli Azərbaycan Silahlı Qüvvələrinin hərbçiləri xarüqələr yaratdı. Elə ilk günlərdən düşmənə sarsıdıcı zərbələr vuran qəhrəman övladların qısa zamanda ardıcıl zəfərlər qazanmaqla kəndlərimizi, qəsəbələrimizi, yaşayış məntəqələrimizi, eləcə də şəhərlərimizi, o cümlədən 4 oktyabrda Cəbrayıl, 17 oktyabrda Füzuli, 20 oktyabrda Zəngilan, 25 oktyabrda Qubadlı və nəhayət 8 noyabrda Şuşa şəhərini işğaldan azad etməsi Ermənistanı sülhə sövq etdi və bu biçarə düşmənin kapitulyasiya aktını imzalaması ilə nəticələndi. Ardınca 20 noyabrda Ağdam, 25 noyabrda Kəlbəcər və 1 dekabrda Laçın işğaldan azad olundu. Bununla da, haqq mübarizəsi hərbi-siyasi qələbəmizlə başa çatdı və Azərbaycanın ərazi bütövlüyü ilə bərabər, ədalət də bərpa olundu. Təbii ki, bütün bunlar müzəffər Ali Baş Komandanın mükəmməl siyasətinin və sarsılmaz iradəsinin, dövlətimizin qüdrətinin, Silahlı Qüvvələrimizin gücünün, hərbi qulluqçularımızın qəhrəmanlığının və xalqımızın mübarizliyinin sıx vəhdətinin nəticəsində mümkün olmuşdur. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin müvafiq fərman və sərəncamları ilə Anım və Zəfər günlərinin, müxtəlif orden, medal və fəxri adların təsis edilməsi, II Qarabağ müharibəsi iştirakçılarının, o cümlədən şəhidlərimizin müxtəlif orden, medal və fəxri adlarla təltif edilməsi, Vətən müharibəsi memorial kompleksi və Zəfər muzeyinin yaradılmasına başlanılması, eləcə də şəhidlərin əziz xatirəsinin uca tutulması, onların adlarının əbədiləşdirilməsi, şücaətlərinin yüksək qiymətləndirilməsi və qəhrəmanlıqlarının təbliğ edilməsi ilə bağlı müvafiq tədbirlərin görülməsi, Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi, Ermənistan Respublikası tərəfindən işğal olunmuş tarixi ərazilərimizin azad edilməsi uğrunda aparılan döyüşlərdə əsl qəhrəmanlıq nümunəsi, misilsiz şücaət və rəşadət göstərmiş vətən oğullarına, o cümlədən işğalçı düşmənə qarşı həyata keçirilən əməliyyatlar zamanı şəhid olmuş, sağlamlığını itirmiş xalqın bir sıra igid övladlarına dövlət səviyyəsində verilən yüksək dəyərin təcəssümüdür.

Qürurverici və sevindiricidir ki, Azərbaycan Respublikasında şəhid ailələrinin və müharibə əlillərinin sosial müdafiəsi və onların rifahının yaxşılaşdırılması daim dövlət siyasətinin əsas tərkib hissəsi olmuş, bu istiqamətdə geniş dövlət dəstəyi mexanizmləri formalaşdırılmışdır. Ölkəmizdə şəhid ailələrinə və müharibə əlillərinə hər zaman dövlət səviyyəsində böyük diqqət və qayğı göstərilmiş, onlar müxtəlif növ dövlət təminatı ilə təmin edilmişlər. Bu diqqət və qayğının təməli xalqımızın ümummilli lideri Heydər Əliyev tərəfindən qoyulmuşdur.

Son illərdə ölkəmizdə əhalinin, xüsusilə Qarabağ müharibəsi əlillərinin və şəhid ailələrinin sosial müdafiəsinin daha da gücləndirilməsi, o cümlədən bu qəbildən olan insanların sağlamlıq, reabilitasiya və yaşayış şəraitinin yaxşılaşdırılması üçün mühüm tədbirlər həyata

keçirilmiş və bu istiqamətdə işlər uğurla davam etdirilmişdir. Azərbaycan Respublikasının ərazi bütövlüyünün, müstəqilliyinin və konstitusiya quruluşunun müdafiəsi ilə əlaqədar əlil olmuş şəxslərin və şəhid ailələrinin sosial-məişət şəraitinin yaxşılaşdırılması, eləcə də, şəhid ailələri üçün verilən prezident təqaüdünün artırılması məqsədi ilə qısa zaman ərzində cənab Prezidentin ard-arda bir neçə fərman və sərəncam imzalaması bu zümrədən olan insanlara göstərilən diqqət və qayğının bənzəri olmayan ən yüksək göstəricisi olmuşdur.

Hər kəsə məlumdur ki, şəhid ailələrinə diqqət və qayğı dövlət başçısının bu gün həyata keçirdiyi siyasi kursun mühüm istiqamətlərindən biridir. Cənab Prezident İlham Əliyev şəhid ailələri ilə görüşdə demişdir: "Şəhid ailələrinə diqqət mənim fəaliyyətimdə daim prioritet təşkil edir. Son illər ərzində şəhid ailələri ilə çoxsaylı görüşlərim bunu bir daha sübut edir. Biz sizinlə birlikdə bir çox evlərin açılışlarında iştirak etmişik. Mən şəhid ailələrinə mənzillərin, avtomobillərin açarlarını şəxsən təqdim etmişəm və bunu özüm üçün borc bilirəm. Bu, mənim borcumdur, xalqa xidmət etmək mənim ən böyük vəzifəmdir. Mənim üçün bu, böyük şərəfdir ki, sizə bu istiqamətdə xidmətimi göstərim.". Təsadüfi deyil ki, dövlət başçısının 2018-ci il prezident seçkilərindən sonra imzaladığı ilk Fərman da şəhid ailələrinin sosial müdafiəsi ilə bağlı olmuşdur.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin və Birinci vitse prezident Mehriban xanım Əliyevanın mütəmadi olaraq, o cümlədən 28 yanvar 2019-cu il tarixdə, 21 iyul 2020-ci il tarixdə şəhid ailələri və müharibə əlilləri ilə görüşmələri, onların qayğı və problemləri ilə maraqlanmaları, onlara hərtərəfli dəstək göstərmələri, mənzil və avtomobillər təqdim etmələri bu qəbildən olan insanlara dövlət səviyyəsində verilən yüksək dəyərin və göstərilən böyük qayğının təzahürüdür.

Fərəhləndirici və qürurvericidir ki, şəhid ailələrinin və Vətənin müdafiəsində iştirak edən şəxslərin maddi-sosial vəziyyətinin yaxşılaşdırılması daim vətəndaş cəmiyyətinin də diqqət mərkəzindədir. Azərbaycan xalqı xeyirxahlıq, fədakarlıq və humanizm prinsiplərini rəhbər tutaraq, həmvətənlərinə təmənnasız kömək ənənələrini davam etdirərək, vətəndaşlarımız, xarici ölkələrdə yaşayan soydaşlarımız, sahibkarlar, humanitar və digər təşkilatlar şəhid ailələrinin, müharibə əlillərinin və hərbi əməliyyat iştirakçılarının müvafiq ehtiyaclarının təmin edilməsinə, maddi, tibbi və digər sosial xərclərinin ödənilməsinə yardım sahəsində həmrəylik nümayiş etdirirlər.

Dövlət başçısının 08 dekabr 2020-ci il tarixli müvafiq fərmanı ilə Azərbaycan Respublikasının ərazi bütövlüyünün müdafiəsi ilə əlaqədar yaralananların və şəhid ailələrinin təminatına dəstək fondunun ("YAŞAT" Fondu) yaradılması bu istiqamətdə görülən işlərə böyük töhfə oldu.

Dərin minnətdarlıq hisləri ilə xüsusi vurğulanmalıdır ki, 31.12.2020-ci il tarixdə şəhid ailələri və 20 Yanvar şəhidlərinin ailələri, Əfqanıstanda sovet qoşunlarının tərkibində beynəlmiləl borcunu yerinə yetirərkən həlak olan, itkin düşmüş və məhkəmə qaydasında ölmüş elan edilən hərbi qulluqçuların ailələri üçün Prezidentin təqaüdünün məbləğinin artırılması haqqında imzalanan ölkə rəhbərinin müvafiq fərmanlarına əsasən, həmin ailələr üçün Prezidentin aylıq təqaüdünün məbləği artırılaraq 300 manatdan 500 manata çatdırılmışdır. Dövlət başçısının eyni gündə imzaladığı daha bir Fərmanı isə müharibə və 1990-cı ilin 20 Yanvar hadisələri ilə əlaqədar əlilliyi olan şəxslərin rifah halının yaxşılaşdırılmasına xidmət etmişdir. Fərmanla bu kateqoriyadan olan şəxslər, həmçinin müharibə ilə əlaqədar əlilliyi olan şəxslərə bərabər tutulanlar (hərbi xidmət vəzifələrini yerinə yetirməklə və Çernobıl AES-də hərbi xidmətlə əlaqədar əlilliyi olan şəxslər) üçün Prezidentin təqaüdünün məbləği orta hesabla 50%-dən çox artırılmışdır.

İkinci Qarabağ müharibəsində möhtəşəm Zəfərimizin qazanılmasına mühüm töhfələr vermiş Vətən müharibəsi qəhrəmanlarının sosial müdafiəsi də Prezidentin diqqətindən kənarda qalmamışdır. Dövlət başçısının həmin gün imzaladığı yeni Fərmanla sosial təminat sistemində yeni təqaüd növü kimi, Vətən Müharibəsi Qəhrəmanı üçün Prezidentin aylıq təqaüdü də təsis olunmuşdur.

Azərbaycan dövlətinin ərazi bütövlüyünün, müstəqilliyinin və Konstitusiya quruluşunun müdafiəsi üçün mübarizəyə qalxmaqla mərdlik göstərərək əlil olmuş şəxslərə və canlarını qurban verməklə şəhidlik zirvəsinə ucalmış vətən övladlarının ailələrinə mənəvi və maddi dəstək göstərilməsi üçün tədbirlər müntəzəm olaraq uğurla davam etdirilir. Bu müqəddəs missiyanın həyata keçirilməsində prokurorluq, o cümlədən hərbi prokurorluq orqanlarının əməkdaşları da iştirak edir.

Göründüyü kimi, bu gün bütün şəhidlərimizin, o cümlədən Vətən müharibəsində tarixi qələbənin əldə edilməsində misilsiz fədakarlıq göstərməklə ölkəmizin ərazi bütövlüyü yolunda canlarından keçərək hər birimizə sonsuz sevinc və qürur hissləri yaşadan qəhrəman övladlarımızın əziz xatirəsi qədirbilən millətimiz tərəfindən dərin ehtiramla yad edilir, onların ailə üzvləri və müharibə əlilləri dövlətin, eləcə də xalqın diqqət və qayğısı ilə əhatə olunur. Bu onun göstəricisidir ki, istər dövlətimiz, istərsə də xalqımız üçün bütün şəhidlərimizin xatirələri son dərəcə əziz, onların ailələri və müharibə əlilləri isə doğmadır. Əminəm ki, bu münasibət əbədi olaraq dəyişməz qalacaqdır. Uca ALLAHdan şəhidlərimizə rəhmət, qazilərimizə şəfa diləyirəm.

Vətən var olsun!

**Firad Əliyev,**
**Azərbaycan Respublikası Hərbi prokurorunun böyük köməkçisi-Azərbaycan Respublikası Hərbi Prokurorluğunun Mətbuat xidmətinin rəhbəri, ədliyyə müşaviri.**

# Sübutların qiymətləndirilməsi və istintaq fərziyyələrinin qurulmasında daxili inamın rolu



İstintaq və məhkəmə orqanlarının cinayət işi üzrə həqiqətin müəyyən edilməsinə dair fəaliyyəti keçmişdə baş verən hadisələrə, faktlara və hallara yönəlmiş olur. Təhqiqatçı, müstəntiq, prokuror və məhkəmə hadisələrin bilavasitə müşahidəçisi olmurlar. Buna görə də cinayət işi üzrə istintaq aparan şəxsin fəaliyyəti bilavasitə özünün müşahidə etmədiyi halların tədqiqinə yönəlir. Bu halların müəyyən edilməsi cinayətin maddi izləri və cinayət hadisəsi ilə əlaqədar halları müşahidə etmiş şəxslərin məlumatları – yəni ümumilikdə sübutetmə prosesində əldə edilmiş məlumatlarla mümkündür.

Sübutetə cinayət prosessual fəaliyyətin ən əsas məqsədlərindən biridir. Maddi sübutetmənin əsasında cinayət-prosessual normalarla tənzimlənən sübutetmənin qaydaları durur. Sübutetmənin anlayışı Azərbaycan Respublikası CPM-nin 138.1-ci maddəsində belə göstərilmişdir: "Sübutetmə ittihamın qanuni, əsaslı və ədalətli həlli üçün əhəmiyyət kəsb edən halların müəyyən edilməsi məqsədilə sübutların əldə edilməsindən, yoxlanılmasından və qiymətləndirilməsindən ibarətdir".

Buradan görünür ki qanunvericilik sübutetmə prosesinin tərkib hissələrini sübutların toplanılması, yoxlanılması və qiymətləndirilməsi kimi müəyyənləşdirir. Sübutetmə prosesinin məqsədi obyektiv həqiqətin ortaya çıxması üçün sübut edilməli olan halların müəyyən edilməsindən ibarətdir.

Cinayət prosesində sübutların aşağıdakı xüsusiyyətləri vardır:

a) baş vermiş cinayət hadisəsində mövcud gedişatı başa düşmək üçün lazım olan faktiki məlumatlardır;
b) işin düzgün həlli üçün əhəmiyyət kəsb edən ictimai təhlükəli əməlin, təqsirləndirilən şəxsin, əməlin onun tərəfinən törədilib törədilməməsinin, hadisənin mövcudluğu və ya mövcud olmadığı haqqında nəticəyə gəlinməsinə imkan verən faktiki məlumatlardır;
c) yalnız şahidin, zərərçəkmiş şəxsin, təqsirləndirilən şəxsin ifadələrində, eksperin rəyində, maddi sübutlarda, istintaq və məhkəmə hərəkətlərinin protokollarında və başqa sənədlərdə əks olunan faktiki məlumatlardır;
d) qanunvericilik əsasında toplanır. CPM sübutların toplanmasının və müvafiq olaraq müxtəlif istintaq hərəkətlərinin aparılması qaydalarını tənzimləyir;
e) daxili inam əsasında yoxlanılan və qiymətləndirilən faktiki məlumatlardır;[1]

Sübutlar - sübutetmənini vasitələri, obyektiv gerçəklikdə olan faktların müəyyən edilməsi, onun məqsədidir. Bu məqsədi həyata keçirməklə, işə görə obyektiv həqiqətin müəyyən olunması – cinayət mühakimə icraatının qanunauyğun nəticəsidir.[2]

Sübutetmə prosesinin ən son mərhələsi daxili inam əsasında sübutların qiymətləndirilməsidir. Sübutetmə prosesi sübutların qiymətləndirilməsi ilə başa çatır. Bu baxımdan sübutların qiymətləndirilməsi sübutetmə prosesinin bir növ yekun mərhələsini təşkil edir.

Sübutların qiymətləndirilməsi istintaq və məhkəmə araşdırmasının müəyyən məqsədə yönləndirilməsinin, qanuni və əsaslı prosessual qərarlar qəbul edilməsinin, cinayət qanununu düzgün yerinə yetirilməsinin zəruri şərtlərinə xidmət edir.[3]

---

[1] Уголовно-процессуальное право РФ/ Учебник под ред. П.А. Лупинской, изд. 3-е, перер. и доп.– М.: Юристъ, 1998.- с. 163.
[2] Резник Г.М. – Оценка доказательств по внутреннему убеждению в советском уголовном процессе. М., 1977, стр. 24
[3] Белкин Р.С., Винберг А.И. и др. «Теории доказательств советском уголовном процессе.» М., 1973 стр. 427

Sübutları qiymətləndirməklə cinayət prosesinin hər bir mərhələsində toplanmış faktiki məlumatlara yekun vurulur və yalnız alınan nəticələr əsasında müvafiq qərar qəbul edilir.

Beləliklə, sübutların qiymətləndirilməsi idrak fəaliyyətidir və o məntiqi təfəkkürün qanunlarından əmələ gəlir. Qiymətləndirilmənin özü məntiqi, sübutların qiymətləndirilməsinin mahiyyətinə xidmət edən mühakimə formasında çıxış edir. Sübutları qiymətləndirərkən biz adətən bir neçə mühakimədən əmələ gələn vasitəli nəticəni nəzərdə tuturuq. Bu nəticə özündə fakt haqqında məlumatların konsentrasiyası təsəvvürünü yaradır.

Sübutların qiymətləndirilməsi təhqiqatçı, müstəntiq, prokuror və məhkəmənin  məntiqi formada həyata keçirdiyi, təfəkkürün elmi metodlarına əsaslanaraq həqiqətin müəyyən olunmasına yönələn idrak fəaliyyətini ifadə edir.[4]

Ifadə edilmiş fikir bizə növbəti nəticəni çıxarmağa imkan verir. Sübutların qiymətləndirilməsi müstəntiqin, prokurorun, hakimin əqli fəaliyyətidir. Bu fəaliyyət zamanı onlar qanunu və hüquq düşüncəsini rəhbər tutaraq, daxili inam əsasında hər bir sübutu ayrılıqda və bütün sübuları birlikdə qiymətləndirərək onların iş üzrə yekun nəticəyə üçün aidiyyatını, mümkünlüyünü, mötəbərliliyini və kifayət etməsini müəyyən edirlər.

Sübutların qiymətləndirilməsi cinayət prosesinin bütün mərhələləri ərzində həyata keçirilir: yəni, təhqiqat və ibtidai istintaq prosesində, həmçinin cinayət işinə məhkəmə baxışı zamanı. Sübutların qiymətləndirilməsi ilə əlaqədar Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsində həmçinin qeyd edilir ki, hər bir sübut mənsubiyyəti, mümkünlüyü, mötəbərliliyi üzrə qiymətləndirilməlidir. Cinayət təqibi üzrə toplanmış bütün sübutların məcmuyuna isə ittihamın həlli üçün onların kifayət etməsinə əsasən qiymət verilməlidir.

Sübutların qiymətləndirilməsi anlayışı artıq qeyd edildiyi kimi özündə sübutların mümkünlüyünün müəyyən edilməsini ehtiva edir. Sübutların mümkünlüyü onların qanuni yolla əldə edilməsi, mötəbərliliyi, həqiqətin müəyyən edilməsi üçün istifadəsi mənasını verir. O hər şeydən əvvəl sübutların alındığı mənbələrin mümkünlüyü ilə müəyyən olunur. Qanunvericilik sübut mənbələrinin mükəmməl siyahısını təsbit edir və buna görə də qanunvericilikdə təsbit olunmamış mənbələrdən hər hansı bir şəkildə əldə edilmiş faktlar sübut kimi istifadə edilə bilməz. Bundan əlavə sübutların mümkünlüyü cinayət prosessual qanunvericiliyin bütün  tələblərinə riayət etməklə əldə edilməsinə görə müəyyən edilir.

Sübutların mümkünlüyü və aidiyyatı bir-birləri ilə sıx əlaqəli məfhumlardır. Mümkünlük haqqında suala cavab axtarakən mütləq aid olan sübutlara baxılmalıdır, aid olan sübutlar isə mütləq mümkün olan sübutlar içərisindən seçilməlidir.

Təhqiqatçı, müstəntiq, prokuror və məhkəmə qarşısında, cinayət işi üzrə icraatın həyata keçirilməsi zamanı, bütün zəruri faktiki məlumatların toplanmasının təmin edilməsi məsələsi, həmçinin bu informasiyanın cinayət – prosessual qanunvericiliyin tələblərinə uyğun olaraq əldə edilib-edilməməsinin, onun sübutetmə predmeti ilə əlaqəsinin, prosessual qərarların (təqsirləndirilən şəxs qismində cəlb etmə, tutma, axtarış, götürmə və s.) qəbulu üçün sübutların toplanılmasına xidmət edə bilməsinin, iş haqqında mötəbər nəticə çıxarmaq üçün sübutetmə predmetini təşkil edən sübutların kifayət edib-etməməsinin, son nəticədə onların bütünlükdə və ayrı-ayrılıqda istintaq olunan iş haqqında etibarlı və tam informasiya təsəvvürünü yarada bilib-bilməsinin  aydınlaşdırıması tapşırığı durur.

Daxili inam əsasında sübutların qiymətləndirilməsi prosessual fəaliyyətin icra edilməsində istintaq orqanlarının müstəqilliyini ehtiva edir. Sübutların qiymətləndirilməsində müstəntiqin müstəqilliyi Azərbaycan Respublikasının Cinayət Prosessual Məcəlləsində öz əksini tapmışdır. Belə ki, Cinayət Prosessual Məcəlləsinin 85.1 maddəsində göstərilir : "Cinayət təqibini həyata keçirərkən müstəntiq qanunun tələbini rəhbər tutaraq, ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurorun göstərişlərinə və öz daxili inamına əsaslanaraq, zəruri prosessual qərarlar qəbul edir, istintaq və digər prosessual hərəkətlər həyata keçirir."

Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin 145.2-ci maddəsində göstərilir: "Təhqiqatçı, müstəntiq, prokuror, hakim qanunu və ya vicdanını rəhbər tutaraq sübutların məcmusunun hərtərəfli, tam və obyektiv baxılmasına əsaslanmaqla öz daxili inamına görə sübutları qiymətləndirirlər." Daxili inam iş üzrə topanmış materiallar əsasında nəticələrin düzgünlüyü haqqında inamdır. Belə inam özbaşına, subyektiv, qeyri obyektiv olmamalı, şəksiz müəyyən edilmiş faktlara əsaslanmalıdır.

Daxili inam metoduna sübutların qiymətləndirilməsinin əsas üsulu və prinsipi kimi, bu qiymətləndirmənin kriteriyası kimi və qiymətləndirmənin nəticəsi baxılır. Daxili inam əsasında sübutların qiymətləndirilməsi – prosessual  fəaliyyətin necə uğurla başa çatdırılmalı olması sualının həlli üçün ən mühüm cavabdır. Sübutetmənin müxtəlif tərəflərini araşdırarkən

[4] Белкин Р.С., Винберг А.И. и др. «Теории доказательств советском уголовном процессе.» М., 1973 стр. 427

daxili inamın, sübutların qiymətləndirilməsi ilə əlaqəsinin digər tərəflərin əlaqəsindən daha sıx olduğunu görürük. Bu predmetə nəzər salarkən ziddiyyətin "Daxili inam" kimi çoxcəhətli anlayışa müxtəlif cür yanaşmalara üstünlük verildiyi üçün yarandığını görmək olar. Daxili inam əsasında sübutların qiymətləndirilməsi haqqında mühakimənin göstərişi necədir?

İnamı a) müəyyən baxışa, hərəkətə kiminsə (o cümlədən öz-özünə) istiqamətlənməsi prosesi kimi, b) bu prosesin nəticəsi, yəni konkret fikir və ya nəticə kimi, c) insanın öz bililikləri, qərarları və hərəkətləri ilə əlaqəsi, o cümlədən inamın və əminliyin vəziyyəti kimi adlandırırlar.[5]

Sübutların daxili inam əsasında qiymətləndirilməsi hər hansı qərar çıxararkən kənar təsirə yol verilməməsini də nəzərdə tutur. Bu da onu tələb edir ki, istintaq orqanı və məhkəmənin gəldiyi nəticələr yalnız iş üzrə mövcud olan məlumatların xarakteri və bunların sübuti əhəmiyyəti ilə müəyyən edilməlidir. Heç bir vəzifəli şəxs, eləcə də məhkəmə toplanmış sübutlar barəsində məcburi göstərişlər verməyə, habelə işi qabaqcadan həll etməyə haqlı deyildir. Bunula bərabər heç bir sübut, hətta tam inandırıcı olsa da, əgər obyektiv məlumatlara ziddirsə, şəksiz müəyyən edilmiş faktlara uyğun gəlmirsə çıxarılan qərarın əsasını təşkil edə bilməz.[6]

Sübutların qiymətləndirilməsinin səlahiyyətli şəxslərə həvalə edilməsi, işin icra edilməsi o deməkdir ki, sübutların qiymətləndirilməsi zamanı həmin şəxslərin müstəqilliyi, azadlığı və hər bir kənar təsirdən uzaq olması təmin edilməlidir.

Daxili inam hər cür xarici məcburiyyəti istisna edir və inamın bu xüsusiyyəti "daxili" sözünü özündə ehtiva edir və aşağıdakıları tələb edir:

a) sübutların qiymətləndirilməsinin hər bir vəzifəli şəxs üçün qeyri məcburiliyi, digər şəxs işi öz icraatına qəbul edərkən həmin iş üzrə sübutların yenidən qiymətləndirilməli olması;
b) sübutların qiymətləndirilməsinin bir birinin ardınca gələn yuxarı prosessual instansiyalar üçün qeyri məcburiliyi, və prosesin növbəti pillələrində əvvəlki qiymətləndirilmənin düzgünlüyünün yoxlanılmasının vacibliyi (müstəntiqin gəldiyi nəticələrin prokuror tərəfindən və s. yoxlanılması);
c) yuxarı prosessual instansiyalar tərəfindən sübutların qiymətləndirilməsi zamanı gəlinən nəticələrin iş icraatında olan aşağı instansiyalar üçün qeyri məcburiliyi, və ayrı-ayrı sübutların və ya bütün sübutların cəminin qiymətləndirilməsi haqqında gəstərişlər verilməsinin yolverilməzliyi;
d) prosesin müxtəlif iştirakçıları tərəfindən izahatlarda, qərarlarda, rəylərdə verilən sübutların qiymətləndirilməsinin iş icratında olan şəxs üçün qeyri – məcburiliyi (bu əlbəttə o demək deyildir ki, müdafiəçinin, zərərçəkmiş şəxsin, təqsirləndirilən şəxsin təqdim etdiyi sübutlar müstəntiq, prokuror, hakim üçün əhəmiyyətsizdir. Bu sadəcə olaraq o deməkdir ki, heç bir sübutun əvvəlcədən müəyyən edilmiş qüvvəsi yoxdur. Diqqət yetirmək lazımdır ki, onların əvvəlcə mühakiməsi və qiymətləndirilməsi daha düzgün nəticəyə gəlməyə, hərtərəfli, tam, obyektiv istintaq aparılmasına imkan verir.Söhbət ondan gedir ki prosesin hər bir iştirakçısının fikrini öyrənib qeydə almaq lazımdır, lakin onların ardınca başqalarına fikir vermədən getmək və onları ayrıca qiymətləndirmək lazım deyil);
e) cinayət prosesindən kənar orqanlar və şəxslər tərəfindən verilmiş qiymətləndirilmənin qeyri – məcburiliyi (məsələn, müxtəlif təşkilatların vəzifəli şəxslərin, ictimaiyyətin aparıcı üzvləri) və başqa şəxslər tərəfindən iş icraatında olan şəxsə qarşı təzyiqlərin yolverilməzliyi;[7]

Sübutların qiymətləndirilməsindəki müstəqillik, müstəntiqə, qarşıya qoyulmuş sualların həll olunmasında müstəntiqin fikri ilə istintaq orqanının rəhbəri və ya prokurorun göstərişləri arasındakı ziddiyyətlərin həllində qanunla müəyyən edilmiş qaydada imkanlar verir. Belə ki, Azərbaycan Respublikasının CPM – nin 85.5 – ci maddəsinə görə "İbtidai istintaq apararkən müstəntiq təqsirləndirilən şəxs qismində cəlb edilməsi, qətimkan tədbirinin seçilməsi, dəyişdirilməsi və ya ləğv edilməsi, cinayətin tövsifi, ittihamın həcmi, işin icraatına xitam verilməsi və ya məhkəməyə göndərilməsinə dair prokurorun göstərişi, yaxud qərarı ilə razılaşmadıqda öz əsaslandırılmış etirazını yuxarı prokurora göndərməyə haqlıdır. Bu halda yuxarı prokuror onun dəlilləri ilə razılaşır və aşağı prokurorun yazılı göstətişlərini ləğv edir və ya onun dəlilləri ilə razılaşmayaraq ibtidai istintaq aparılmasını digər müstəntiqə tapşırır."

Sübutların qiymətləndirilməsindəki müstəqillik başqa bir tərəfdən ona görə əhəmiyyətlidir ki, bu və ya digər sübutun mənası və qüvvəsi haqqında əvvəlcədən müəyyən edilmiş qayda yoxdur. Bu müddəaya,

[5] Белкин Р.С., Винберг А.И. и др. «Теории доказательств советском уголовном процессе.» М., 1973 стр. 474
[6] Azərbaycan Respublikasının Cinayət Prosesi, Mirağa Cəfərquliyev, Qanun – 2002 səh.311
[7] Белкин Р.С., Винберг А.И. и др. «Теории доказательств советском уголовном процессе.» М., 1973 стр. 477

bir sübutun digərlərinə nisbətən üstünlüyü, mövcud vəziyyətdə sübutların müəyyən növünün keyfiyyəti haqqında göstərişin olmadığı bütün sübutetmə sistemində ardıcıllıqla riayət olunur.

Qanunvericilikdə sübut növləri "vacib" və "ikinci dərəcəli" növlərə bölünmür. Sübutların hər hansı bir şəkildə belə bölgüyə ayrılmasına cəhdlər edilməsi (məsələn, təqsirləndirilən şəxsin ifadəsini ikinci dərəcəli sübut hesab edib, eksperin rəyini əsas sübut kimi qəbul etmək) heç bir sübutun qabaqcadan müəyyən olunmuş qüvvəsinin olmaması barədə nəzəriyyəyə və bu barədə qanunun göstərişinə ziddir. "Sübutetməyə qeyri tənqidi münasibətin yolverilməzliyi" haqqında müddəaya istintaq və məhkəmə təcrübəsində ardıcıllıqla riayət olunur.

Yuxarıda şərh olunanlardan belə bir nəticə çıxarmaq olar ki, daxili inam bütün növ xarici məcburiyyətlərdən azaddır və həqiqətin müəyyən edilməsinin formal göstərişlərlə heç bir əlaqəsi yoxdur. Bu, sübutların qiymətləndirilməsinin vacib şərtidir və sübutların qiymətləndirilməsinə yanaşmanı xarakterizə edir.

Fərdi biliklərin zənginliyi təfəkkür prosesi üçün zəruri olan, sübutların qiymətləndirilməsinin təminatını təşkil edən materiallar verir. Eyni zamanda bu biliklər alınmış nəticələrin yoxlanılması üçün alət rolunu oynayır, hər hansı qiymətləndirmənin düzgünlüyünü yoxlamağa kömək edir, dəqiqləşdirilmiş mühakimələrin vacibliyi və çıxarılmış nəticələrin səhvliyi arasındakı ziddiyyətlərin həll olunmasına imkan verir.

Daxili inam əsasında sübutların qiymətləndirilməsinə biz proses kimi baxdıq. Lakin, daxili inamın çoxmənalı anlayışı sübutların qiymətləndirilməsini və onun nəticələrini xarakterizə edir. Daxili inamın sübutların qiymətləndirilməsi prosesi kimi və daxili inamın bu qiymətləndirmənin nəticəsi kimi anlayışları arasında sıx əlaqə vardır. Daxili inam əsasında sübutların qiymətləndirilməsinin yekunu son nəticədə ona xidmət edir ki, bu qiymətləndirmə əsasında yaranan nəticə axtarılan həqiqətin özü olsun.

## İstintaq fərziyyələrinin qurulması və yoxlanılmasında daxili inamın rolu

İstintaq fərziyyələrinin qurulması cinayət prosessual fəaliyyətin uğurla başa çatdırılması üçün çox mühüm mərhələdir. İstintaqın planlaşdırılmasında mühüm rol oynayan və istintaq zamanı qurulan fərziyyələr mühüm əhəmiyyətə malikdir. Fərziyyələrin yoxlanılması və qurulması istintaqın planlaşdırılmasının əsasını təşkil edir. Fərziyyələr vasitəsilə istintaqın istiqaməti, habelə iş üzrə aydınlaşdırılmalı olan halların dairəsi müəyyən edilir. Istintaq fərziyyələri müstəntiqin fəaliyyət dairəsini istiqamətini və xarakterini müəyyənləşdirir. Fərziyyələrin əhəmiyyətindən bəhs edərkən onların bütün cinayət işləri üzrə istintaq zamanı irəli sürülməsinin zəruri olub olmaması məsələsi də diqqəti cəlb edir.

Hüquq ədəbiyyatında bu sahədə dəqiq fikir yoxdur, bəzi müəliflər hesab edirlər ki, istintaq fərziyyələri bütün cinayət işləri üzrə irəli sürülür, çünki nə qədər ki, ibtidai istintaq başa çatmamışdır, müstəntiqin tədqiq olunan hadisəyə dair mülahizəsi ehtimal xarakteri daşıyır və onun sübuta yetirilməsi tələb olunur. Başqa müəlliflər isə göstərirlər ki, fərziyyələrin bütün cinayət işləri üzrə istintaq zamanı irəli sürülməsinin zəruri olub olmaması barədə sualın qoyuluşunda məntiqsizlik vardır. Çünki iş üzrə bu və ya digər hal tamamilə aydındırsa, onda həmin hallara dair fərziyyələlrin qurulması mənasızdır. Fərziyyələrin bütün cinayət işləri üzrə qurulmasını zəruri hesab etmək daha düzgündür. Belə ki, ibtidai istintaqı aparan müstəntiq, habelə cinayət işinə baxan məhkəmə iş üzrə heç bir faktın bilavasitə müşahidəçisi olmur. Buna görə də onlar iş üçün əhəmiyyətli olan hər hansı bir faktı yalnız digər faktların köməyilə sübut etdikdən sonra müəyyən nəticəyə gələ bilərlər. Hətta istintaq zamanı hər hansı bir faktın tam aydın olması belə həmin işlər üzrə fərziyyələrin qurulması ehtiyacını aradan qaldırmır. Bu fikrə gəlməyə qanunverciliyin mövqeyi də əsas verir. Belə ki təqsirsizlik prezumpsiyası prinsipinə görə də hətta şəxsin təqsirli olduğuna əsaslı şübhələr varsa da onun təqsirli bilinməsinə yol verilmir. Belə ki, qanunvericilik bizi dolayısı ilə iş üzrə bütün fərziyyələri yoxlamağa və hər bir fərziyyə üzrə dəqiq araşdırma aparmağa məcbur edir.

Sübutların qiymətləndirilməsinin əsasında istintaq fərziyyələri durur və onların birinin bütün digərlərini inkar etməsinin təsdiq edilməsinə sübutların kifayət edib – etməməsi aydınlaşdırılır.

Sübutların qiymətləndirilməsi zamanı yaranan fərziyyələrə aid olan spesifik xüsusiyyətlər vardır:

– bu fərziyyələr aid olduqları hər hansı bir elmin ümumi müddəaları və qanunlarına uyğun gəlməli, onlarla ziddiyyət təşkil etməməlidir;
– fərziyyələr arasında məntiqi ziddiyyət olmamalıdır;
– cinayət hadisəsinin ayrı-ayrı halları barədə irəli sürülən fərziyyələr bütünlükdə həmin hadisəyə aid olan ümumi fərziyyəyə uyğun gəlməlidir;
– fərziyyələr elə qurulmalıdır ki, onların məhz istintaq hərəkətləri vasitəsi ilə yoxlanılması mümkün olsun;
– fərziyyələrin yoxlanılmasının mümkünlüyü real olmalıdır;
– fərziyyələr yalnız faktiki məlumatlara əsaslanmalıdır;
– fərziyyələrin qurulması üçün kifayət qədər əsas olmalıdır;

– fərziyyələrin irəli sürülməsi konkret faktın müəyyən edilməsindən ötrü zəruri olmalıdır;
– fərziyyə dəqiq formulə edilməli, alternativ xarakter daşımamalı və konkret olmalıdır;

Fərziyyələrin qurulmasında əməli idrak prosesinin digər sahələrində qurulan hipotezlərdə olduğu kimi təfəkkürün məntiqi üsulları tətbiq olunur. Bu məntiqi üsullara analiz, sintez, induksiya, deduksiya və analogiyanı misal göstərmək olar.

Fərziyyələrin qurulmasında intuisiyadan istifadə edilməsi isə düzgün deyil. Çünki fərziyyələrin qurulması üçün konkret əsas olmalıdır. Bununla əlaqədar olaraq istintaq fərziyyələrinin əsaslarını aşağıdakı üç qrupa bölmük olar: 1)prosessual üsulla əldə edilən faktiki məlumatlar(sübutlar) 2)əməliyyat-axtarış fəaliyyəti nəticəsində əldə edilən məlumatlar 3)təsadüfi mənbələrdın əldə edilən məlumatlar.

Göründüyü kimi fərziyyələrin əsası həm prosessual, həm də qeyri prosessual yollarla əldə edilən məlumatlar təşkil edə bilər. Bu baxımdan əməliyyat-axtarış hərəkətləri, habelə təsadüfi mənbələrdən alınan məlumatlar əsasında istintaq fərziyyələrinin qurulması heç də qanunçuluğun pozulması kimi qiymətləndirilə bilməz. Çünki fərziyyə irəli sürmək hələ iş üzrə hallara dair hüquqi nəticəyə gəlmək demək deyildir. Odur ki, istintaq fərziyyəsi qeyri-prosessual yolla əldə edilən əsaslar üzərində də qurula bilər. Belə əsaslarla fərziyyələrin qurulmasına yol verilməsi müstəntiqin cınayətlərin üstünü aşmaq imkanını genişləndirir və istintaq prosesində onun təşəbbüskarlığına imkan yaradır.

Fərziyyələrin qurulmasında fərziyyələr çoxluğu prinsipinə əməl etmək lazımdır. Fərziyyələr çoxluğu zərurəti hər şeydən əvvəl fərziyyə anlayışının məntiqi təbiəti və mahiyyəti ilə bağlıdır. Fərziyyə o vaxt irəli sürülür ki, konkret faktı müəyyən etmək üçün əldə edilən məlumatlar kifayət etmir. əgər həmin məlumatlar faktın yəqinliyi üçün kifayət etmirsə, deməli onların vasitəsi ilə həmin faktın bir neçə variantda izahı mümkündür. Bu isə onu göstərir ki, vahid fərziyyə ola bilməz. Digər tərəfdən "fərziyyənin vahid olması" anlayışı məntiqi cəhətdən ziddiyyətlidir. əgər əldə olunan materiallardan yalnız bir nəticə çıxarmaq mümkündürsə, onda həmin nəticə fərziyyə deyil, əsil həqiqətin özüdür.

Beləliklə fərziyyələr obyektiv həqiqətin müəyyən edilməsi baxımından bütün işlər və iş üzrə mühüm əhəmiyyəti olan bütün hallar üzrə, həm də fərziyyələr çoxluğu prinsipinə əsasən qurulmalı və yoxlanılmalıdır.

Fərziyyələr iş üzrə ehtimal olunan faktların və halların əsl gerçəkliyi ifadə edib-etməməsini müəyyənləşdirmək üçün yoxlanılır. Fərziyyələrin yoxlanılması dedikdə onlardan irəli gələn nəticələri faktiki hallarla deduksiya üsulu ilə müqayisəsi başa düşülür.

Əsl gerçəkliyin üzə çıxarılması üçün : 1) iş üzrə hallara dair mümkün olan bütün fərziyyələr qurulmalıdır; 2) bütün fərziyyələr dəqiq və hərtərəfli yoxlanılmalıdlr; 3) fərziyyələrin birindən savayı, qalan bütün fərziyyələr toplanmış sübutlarla inkar olunmalıdır; 4) fərziyyələrdən yalnız biri toplanmış sübutlar vasitəsilə tam təsdiq olunmalıdır; 5) həmin fərziyyə iş üzrə bütün hallardan şıxarıla bilən yeganə nəticə olmalı, bu hallara tam uyğun gəlməli və onları tam izah etməlidir. Yuxarıda sadalanan bu şərtlərə kompleks riayət olunmalıdır. Iş üzrə mümkün olan olan bütün fərziyyələrin qurulması zəruriliyi şübhəsiz olub, heç bir mübahisə doğurmur. Çünki əgər cinayət işinə dair halların izahı üzrə hər hansı bir ehtimal yoxlanmazsa, həmin hallar tam və ya hərtərəfli müəyyən edilə bilməz.

Fərziyyələrin yoxlanılma üsul və vasitələri onların hansı növə aid olması ilə müəyyən edilir. Məhkəmə və istintaq fərziyyələri istintaq hərəkətlərinin vasitəsi ilə yoxlanılır. Bu zaman əməliyyat-axtarış vasitələrindən istifadə edisə də onlar köməkçi xarakter daşıyırlar. əməliyyat – axtarış fərziyyələrinin yoxlanılması zamanı isə başlıca olaraq əməliyyat-axtarış üsullarından və vasitələrindən istifadə edilir. Bu fərziyyələrin yoxlanılmasında prosessual vasitələrdən istifadə edilsə də onlar mühüm xarakter daşıyırlar.

Məhkəmə və istintaq fərziyyələrinin yoxlanılması zamanı xüsusi biliklərdən ekspertizanın həyata keçirilməsi və ya mütəxəssisin istintaq hərəkətlərinin həyata keçirilməsinə cəlb olunması vasitəsilə istifadə edilir. Əməliyyat-axtarış fərziyyələrinin yoxlanılması zamanı isə xüsusi biliklərdən qeyri-prosessual formada istifadə edilir.

Fərziyyələrin yoxlanılması prinsiplərindən biri ondan ibarətdir ki, öz təsdiqini tapan vahid fərziyyə qalanlarını inkar etməlidir. Bundan başqa aşağıdakı hallarda fərziyyə özlüyündə inkar olunmuş hesab edilə bilər: 1) onu istisna edən faktiki məlumatlar ortaya çıxdıqda; 2) çıxarılan nəticələr həqiqətə uyğun gəlmədikdə və ya faktın müəyyənləşdirilməsi üçün kifayət etmədikdə; 3) fərziyyələrin yoxlanılmasına ehtiyac qalmadıqda.

Bir qayda olaraq istintaq fərziyyələri növbə ilə deyil, paralel surətdə yoxlanılmalıdır. Məhz belə olduqda ortaya çıxan hər hansı bir yeni məlumatın ayrı-ayrı fərziyyələrlə qarşılıqlı əlaqəsi düzgün qiymətləndirilə bilər. əksinə müstəntiq ayrıca bir fərziyyənin üzərində yoxlama apardıqda başqa fərziyyələr nəzərdən qaşırıla bilər. Digər tərəfdən fərziyyələr paralel yoxlanmadıqda müstəntiqin yoxladığı konkret fərziyyəyə əsassız üstünlük verilməsi halları da mümkündür.

Belə düşünmək düzgün deyildir ki, fərziyyələrin paralel yoxlanılması müstəntiq üçün praktiki cəhətdən çətindir və buna görə də o, fərziyyələri növbə ilə ayrılıqda yoxlamalıdır. Əksinə, fərziyyələrin paralel yoxlanması müstəntiqin istintaq müddətinə riayət etməsini təmin edir, digər tərəfdən və ən başlıcası, paralel yoxlamanın səmərəlilyi fərziyyələrin mahiyyətindən irəli gəlir. Çünki fərziyyələrin qarşılıqlı əlaqəsini yalnız paralel yoxlama üsulu ilə müəyyən etmək olar.

Bununla belə paralel yoxlama heç də fərziyyələrin yoxlanılmasının yeganə üsulu deyildir. Konkret vəziyyətdən asılı olaraq fərziyyələrin ayrıca yoxlanılması da səmərəli nəticə verə bilər. Məsələn təxirəsalınmaz istintaq hərəkətlərinin aparılması ilə bağlı olan fərziyyələrin əvvəlcə yoxlanılması daha əlverişlidir. Çünki belə fərziyyələrin yoxlanılmasının gecikdirilməsi bəzən yoxlama üzrə aparılan istintaq hərəkətlərinin (axtarış, götürmə, hadisə yerinin müayinəsi və s.) heç bir nəticə verməməsinə gətirib çıxara bilər.[8]

Yoxlama  nəticəsində təsdiq olunan fərziyyələrin həqiqiliyinə əmin olmaq üçün cinayət hadisəsinin yoxlanılan halı ilə bağlı bütün mümkün fərziyyələr irəli sürülməlidir. Təsdiq olunmuş fərziyyə yeganə həqiqi fərziyyə olmalı və həmin halla bağlı qurulmuş bütün fərziyyələri inkar etməlidir. Təsdiq olunmuş fərziyyədən məntiqi qaydada çıxarıla bilən nəticələr hərtərəfli yoxlanılıb sübuta yetirilmiş olmalıdır və fərziyyə iş üzrə mövcud olan digər hallar ilə ziddiyyət təşkil etməmlidir. Yalnız bu şərtlərə əməl etdikdə yoxlanılmış və təsdiq olunmuş fərziyyələrin obyektiv reallığı özündə əks etdirdiyini qəbul etmək olar.

Beləliklə sübutların qiymətləndirilməsi prosesini axtarılan faktın sübut edilməsində daxili inamın formalaşması prosesi kimi müəyyən etmək olar. Cinayət-mühakimə icraatının əsəs mərhələlərindən biri olan sübutların qitmətləndirilməsi, sübutetmə prosesinin əvvəlki mərhələlərinə - sübutların toplanılması və yoxlanılmasına yekun vurmaqla cinayət işinin sonrakı taleyinə həlledici təsir göstərir. Yəni məsələn, ibtibai araşdırmada sübutların qitmətləndirilməsi prosesində şəxsin təqsirliliyi barədə nəticəyə gəlinərsə, iş ittiham aktı ilə baxılması üçün məhkəməyə göndərilir, əgər daxili inam əsasında sübutların qiymətləndirilməsi nəticəsində şəxsin təqsirsizliyi barədə nəticəyə gəlinərsə onun barəsində icraata xitam verilir.

Daxili inam əsasında sübutların qiymətləndirilməsinin son nəticəsinin keyfiyyətli alınması məntiqi, fəlsəfi və psixoloji aspektlərdən asılıdır. Fəlsəfi baxımdan daxili inamın mahiyyəti istintaq predmetindən – istintaqın ümumi mənzərəsinin asılı olduğu gerçəkliyin konkret faktlarından asılıdır. Daxili  inamın fəlsəfi aspeki ilə onun məntiqi aspekti sıx əlaqədədir. Onu açmaq – sübutların qiymətləndirilməsindən nəticələrin formalaşdırılmasının formal-məntiqi strukturunu göstərmək mənasını verir. Daxili inam həmçinin mürəkkəb psixoloji kateqoriyadır. Burada obyektiv və subyektiv amilləri mütləq nəzərə almaq lazımdır.

Daxili inam sübut məlumatlarının dərk edilməsi prosesində formalaşır. Işdə olan faktiki məlumatlar nə qədər tam və dəqiq dərk edilərsə, daxili inam bir o qədər inandırıcı və əsaslı olacaqdır. Məhz iş üzrə toplanan məlumatların mükəmməl və hərtərəfli dərk edilməsi inamın obyektiv cəhətini təşkil edir. Ancaq bunu da nəzərə almaq lazımdır ki, heç də bütün öyrənilən və dərk olunan hallar həmişə inama çevrilmir. Dərk olunan məlumatların məzmununa, faktların seçilməsinə münasibət və onları şərh etmək inamın zəruri elementləridir. Bu isə həmişə subyektiv xarakter daşıyır. Daxili inam subyektin mövqeyindən, zehni səviyyəsindən, əxlaqi prinsiplərindən və baxışlarından asılıdır. Daxili inam öz xarakterinə görə çıxarılan nəticələrin tam düzgünlüyünə inam vəziyyətidir. Belə vəziyyət cinayət işinin hallarının dərk edilməsi və sübut məlumatlarının araşdırılması prosesində əmələ gəlir. İş üzrə məlumatlar toplandıqca və dərk edildikcə, inamsızlıq və şübhələr inam hissi ilə əvəz edilir, tam olmayan inam inam möhkəm inama çevrilir.

Sübutların toplanması, araşdırılması və qiymətləndirilməsini bir-birindən şərti olaraq ayırmaq olar. Əslində isə sübutetmənin bütün mərhələləri qarşılıqlı əlaqədədirlər. Buna görə də sübutların qiymətləndirilməsi təkcə sübutetmənin tamamlayıcı mərhələsinə xas olmayıb, bütün sübutetmə prosesi boyu özünü göstərir. Hər bir cinayət işi üzrə sübutlar ayrılıqda, sonra isə məcmu halında qiymətləndirilməlidir. Istintaq orqanı və məhkəmə iş üzrə məlumatları təhlil etdikdən sonra həmin sübutların qarşılıqlı əlaqəsini aydınlaşdıraraq hüquqi əhəmiyyət kəsb  edən  faktların mövcud olub – olmaması haqqında nəticə çıxarırlar.

Unutmaq lazım deyildir ki, Azərbaycan Respublikasının Cinayət Prosessual Məcəlləsinin tələblərinə görə həll olunmayan şübhələr təqsirləndirilən şəxsin xeyrinə həll edilir. Buna görə də sübutları qiymətləndirərkən təhqiqatçı, müstəntiq, prokuror və məhkəmə tamamilə obyektiv olmalı, təqsirsizlik prezumpsiyası prinsipinə dönmədən əməl etməli və heç vaxt cinayəti törətməkdə təqsirləndirilən şəxs barəsində əvvəlcədən ittihamedici mövqedə dayanmamalıdırlar.

**Tural İbrahimov,**
**Ağdaş rayon prokuroru**
**ədliyyə müşaviri.**

[8] "Kriminalistika", Dərslik,"Qanun" nəşriyyatı, Bakı – 2010 səh 251

# Milli və beynəlxalq müstəvidə gender bərabərliyinin təhlili: mövcüd çətinliklər və qarşıda duran vəzifələr



"Gender bərabərliyi" anlayışı cəmiyyətdə kişilərlə qadınlar arasında "de-yure" və "de-fakto" bərabərliyin təmin edilməsini, hər iki cinsə bərabər imkanların yaradılmasını ehtiva edir. Cəmiyyət üzvləri-qadınlar və kişilər - özlərinin bioloji xüsusiyyətlərinə, anatomik strukturlarına görə cins fərqliliyinə malik olsalar da, sosio-mədəni mühitdə bərabər imkanlara sahibdirlər . Bu baxımdan "Cins" termini bioloji fərqliliyi, "Gender" (və ya sosial cins) kişi və qadınların ictimai münasibətlər çərçivəsində formalaşan rol və vəzifələrini əhatə edir.

XX əsrin ortalarından həm elmi, həm hüquqi, həm də siyasi anlamda gündəmə gələn "Gender bərabərliyi" anlayışı ciddi inkişaf mərhələləri keçmiş, bərabərliyin təmin edilməsi üçün əhəmiyyətli addımlar atmışdır.

Gender stereotipləri "ümumiləşdirilmiş baxışlar və ya əvvəlcədən qavranılmış ideyalardır ki, buna əsasən fərdi şəxslər "qadınlar" və "kişilər" kimi müəyyən olunan xüsusi gender qruplarına bölünürlər.

Qadınların mövqeyi uzun tarixi bir dövr keçərək cəmiyyətin ictimai həyatında formalaşmış və inkişaf etmişdir. Lakin bu inkişaf asan əldə olunmamış, qadınlar özlərini təsdiq etmək üçün bir sıra çətinlikləri aradan qaldırmaq uğrunda mübarizə aparmışlar. Cəmiyyətdə stereotiplər bu günə gədər qadınların hüquq və azadlıqlarına təsir göstərir.

Qadınların cəmiyyətdəki rolu, zərif cinsin nümayəndələrinin azad şəkildə fəaliyyət göstərməsi, heç kimdən asılı olmadan öz hüquqlarından irəli gələn vəzifələri yerinə yetirməsi, iqtisadi, siyasi və s. hüquqlara görə kişilərlə bərabərləşdirilməsi məsələsi həmişə cəmiyyətin marağında olmuşdur.

Tarix sübut edir ki, zamanın hər bir dövründə qadın öz qabiliyyət və bacarığını göstərir. Qadınlar ta qədimdən bu günə kimi dövlət siyasətində, qanunvericilikdə, dövlətin idarə olunmasında, ailə təməlinin qurulmasında daim öz fəaliyyətləri ilə diqqət mərkəzində olmuşlar. Adları tarixə düşən qüdrətli, öz sözünü demiş qadınları saymaqla bitməz. Bunlara misal olaraq Qədim Misir hökmdarı Kleopatranı, ilk müsəlman qadın hökmdarı Dehli sultanı Raziyə Begümü, şəhzadə DianaNı, Böyük Britaniya siyasətçisi baş nazir Marqaret Tetçeri, Azərbaycan mədəniyyətində, ictimai və sosial həyatında mühüm rol oynamış hökmdar qadın Xurşidbanu Natəvanı, Şərqdə ilk ərəbşünas alim Aida İmanquliyevanı, Şərqdə ilk opera yazmış qadın Şəfiqə Axundovanı, Şərqdə ilk diplomat qadın Sara xatun və başqalarını göstərmək olar.

Müasir dövrə gəldikdə isə, müstəqil dövlətimizin ali qanunları dövlət qadın siyasətinin həyata keçirilməsi üçün hüquqi müstəvidə geniş imkanlar açır. Qadınların hüquqlarının qorunması qloballaşma prosesinin inkişafının mühüm mərhələsi kimi Azərbaycanda da hiss olnur. Dövlətimiz tərəfindən bərabərliyin bərqərar olunması üçün ciddi maneə olan gender bərabərsizliyi probleminin həlli istiqamətində ardıcıl tədbirlər həyata keçirilir. Belə ki, dövlətimiz 1995-ci ildə qadınlara qarşı bütün növ ayrı-seçkiliyin ləğv olunması barədə Konvensiyanı, eləcə də insan haqları üzrə əsas beynəlxalq sənədləri qəbul etmiş və onlara qoşulmuş, eləcə də 1995-ci il Konstitusiyası qadınlara qarşı siyasi, hüquqi, sosial, iqtisadi və ya psixoloji ayrı-seçkiliyin bütün formalarını aradan qaldırmışdır.

Ümummilli lider Heydər Əliyev tərəfindən Azərbaycanda qadınların rolunun artırılmasına və qadınlara münasibətdə dövlət siyasətinin gücləndirilməsinə dair xüsusi fərmanlar qəbul olunmuşdur. Ölkə Prezidenti cənab İlham Əliyev müvafiq siyasəti davam etdirərək, əlavə tədbirlərin həyata keçirilməsinin təşəbbüskarı kimi çıxış etmişdir. Belə ki, dövlət başçısının 2006-cı ilin sonunda təsdiq etdiyi "İnsan hüquqlarının müdafiəsi üzrə Milli Fəaliyyət Planı" məişət zorakılığı ilə mübarizənin gücləndirilməsi, qurbanların hüquqi müdafiə vasitələri, kompensasiya, tibbi və psixoloji yardımla təmin edilməsinə dair ayrıca fəaliyyətləri nəzərdə tutur.

Bununla yanaşı, dövlət müstəqilliyinin bərpasından sonra demək olar ki, Azərbaycan qadın hüquqlarının qorunması üzrə bütün mühüm beynəlxalq sənədlərə qoşulmuş və mükəmməl milli qanunvericilik bazası yaradılmışdır. Hüquqi nöqteyi-nəzərdən demək olar ki, Azərbaycanda kişi və qadınlar arasında qeyri-bərabərlik iqtisadi, sosial, eləcə də siyasi həyatın bütün sahələrində praktik olaraq aradan qaldırılmışdır. Lakin təəssüf ki, dünyanın bir çox yerində hələ də milyonlarla qadın fiziki, psixoloji, iqtisadi və cinsi zorakılıqdan əziyyət çəkir.

Məlum olduğu kimi, BMT-nin insan hüquqlarının qorunmasına dair ilk təməl sənədlərindən biri olan Ümumdünya İnsan Hüquqları Bəyannaməsi ayrı-seçkiliyin yolverilməzliyini və qadınların da kişilərlə bərabər

hüquqlara malik olduğunu bəyan edir. Bu sənəd bir çox mühüm konfranslarda, eləcə də bir sıra ölkələrin konstitusiyalarında öz əksini tapdıqdan sonra icrası mütləq statusu qazanmışdır. Bu sənədə əsasən qadına qarşı törədilən zorakılıqla mübarizə BMT-nin qarşıya qoyduğu prioritet məsələlərdəndir.

İnsan hüquqlarının təmin olunması ilə bağlı məsələlər içərisində - gender problemləri sırasında məişət zorakılığının qarşısının alınması problemi getdikcə daha da aktuallaşır. Statistikaya əsasən dünyada hər üçüncü qadın həyatda bir dəfə olsa belə zorakılığın, kobud davranışın, 5 min qadın isə hər il öz ailə üzvləri tərəfindən törədilən qətllərin qurbanıdır.

Təəssüf ki, bu məsələ uzun müddət ərzində öyrənilməmiş, gizlədilmiş və məxfi saxlanılmışdır. Hətta Sokrat və Homer kimi antik müəlliflərin əsərlərində qadınlara qarşı neqativ münasibətdən söhbət açılmış, qadının kişilərə tabeçiliyinə dair müddəalar bəzi digər qədim mənbələrdə də yer almışdır.

Gender bərabərliyin təmin edilməsi sahəsində BMT-nin "Qadınlara qarşı ayrı-seçkiliyin bütün formalarının ləğv edilməsi haqqında" Konvensiyasının (CEDAW), həmçinin, Avropa Şurasının "Qadınlara qarşı zorakılıq və məişət zorakılığının qarşısının alınması və ona qarşı mübarizə haqqında" Konvensiyasının (CETS No. 210) rolu böyükdür. 2007-ci ildə Hökumət demokratik cəmiyyətdə gündəlik zorakılıqla mübarizə üzrə Kompleks Proqramı təsdiq etmiş və "Qadınlara qarşı ayrı-seçkiliyin bütün formalarının aradan qaldırılması haqqında" BMT Konvensiyasının (CEDAW) milli qanunvericiliyə implementasiyası üzrə intensiv işlər görülmüşdür.

Gender bərabərliyi dedikdə - əks cinsin nümayəndələri tərəfindən qadınlara qarşı zor tətbiq edilməməsi, onların iş yerlərində seksual qısnamalara və ya alçaldıcı rəftara məruz qalmaması, qadınların yüksək vəzifələrə öz gücləri ilə nail olduqları halda onlara mane olaraq həmin pillədən salmağa çalışmamaq və onların öz güclərinə nail olduqları digər nailiyyətlərə qarşı qısqanc reaksiyaların verilməməsi və s. kimi daha sadalamadığım bir çox hallar nəzərdə tutulur. Bunların əks cinsin nümayəndələri tərəfindən etik davranış normaları ilə səhv salınmaması vacib məqamlardan biridir.

Belə ki, bir çox hallarda əks cinsin nümayəndələri gender bərabərsizliyinin yalnız qadın cinsinə məxsus şəxslərə aid edilməsinə narazılıqlarını bildirirlər və iddia edirlər ki, gender bərabərsizliyindən şikayətlənən yalnız qadın cinsinə məxsus şəxslərdir.

Bu məqama nəzər yetirərək bildirmək istəyirəm ki, dünya üzrə aparılan təhlillər zamanı müəyyən edilmişdir ki, kişi cinsinə məxsus 10 şəxsdən 1-i gender bərbaərsizliyinə məruz qaldığı halda, bu qadın cinsinə məxsus 5 şəxsdən 1-ni təşkil edir. Buradan da qadınlara qarşı baş vermiş ayrı-seçkiliyin kişilərə nisbətdə 2 dəfə artıq olduğu müəyyən edilmişdir.

Eyni zamanda nəzərə almaq lazımdır ki, heç bir kişi cinsinə məxsus şəxs deyə bilməz ki, "valideynlərim tərəfindən təhsil almağıma imkan verilmir, erkən yaşdan nikaha girməyə, hətta özümdən daha yaşlı insanla ailə qurmağa məcbur edilirəm, iş yerində seksual təzyiqlərə məruz qalıram, arvadım tərəfindən işgəncələr görürəm, ac-susuz buraxılıram, arvadımdan boşandığım halda evə qayıtmağa ailəm icazə vermir, təhsil almadığım halda heç bir yerdə iş tapa bilmirəm və ya fəhlə kimi məşqul olmağa fiziki gücüm yetmir" və s.

Gender bərabərliyi haqqında qanun – bu qanun, inter alia, gender əsaslı ayrı-seçkiliyin və seksual qısnamanın anlayışını müəyyən edir və onu qadağa edir. Bu qanun həmçinin dövlətin üzərinə gender bərabərliyini təmin etmək öhdəliyini qoyur.

Qadınların güc strukturlarında kişilərlə bərabər təmsil olunması, həmin strukturların fəaliyyətində qadınların çoxsahəli iştirakı, eləcə də münaqişələrin qarşısının alınması və həll edilməsi prosesinə yönəlmiş bütün mümkün səylərin icrasına qadınların tam cəlb edilməsi sülh və təhlükəsizliyin dəstəklənməsi və təmin edilməsi üçün çox vacibdir. Sülhün təmin edilməsi və dəstəklənməsində qadınların kişilərlə bərabər rol oynamalarına şərait yaratmaq üçün onlara siyasi və iqtisadi hüquqların verilməsi və onların qərar qəbuletmə prosesinin bütün səviyyələrində iştirakının təmin edilməsi zəruridir.

"Azərbaycan Respublikasında Gender bərabərliyi üzrə 2020-2024-cü illər üçün" Milli Fəaliyyət Planının və BMT Təhlükəsizlik Şurasının "Qadınlar, Sülh və Təhlükəsizlik üzrə 1325 saylı Qətnaməsinin Azərbaycan Respublikasında Tətbiqinə dair 2020-2023-cü illər üçün" Milli Fəaliyyət Planının Nazirlər Kabinetinə imzaya təqdim olunması Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi tərəfindən təmin edilmişdir.

Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi Azərbaycanda qadın və kişilərin bərabər hüquq və imkan azadlıqları siyasətinin məqsəd və vəzifələri olaraq insan haqları baxımından hər iki cinsdən olanların haqlarının qorunmasını və möhkəmləndirilməsini, qadın və kişilərin bu haqlardan istifadə etməsi üçün müvafiq tədbirlərin görülməsini, idarəçilikdə və qərar qəbul etmək səviyyəsində qadın və kişilərin bərabər iştirakı üçün şəraitin yaradılmasını, demokratik təmsilçiliyin yaxşılaşdırılmasını və inkişafını, qadın və kişilərin əmək bazarında, biznesdə və maliyyə sferasında bərabər iştirakına şərait yaradılmasını, hər bir vətəndaşın iqtisadi müstəqilliyinin inkişafı üçün şəraitin yaradılmasını göstərmişdir.

Sevindirici haldır ki, dünya dövlətləri üzrə son onilliklərdə irəliləyiş olmuşdur. Belə ki, hazırda daha çox qız məktəbə gedir, daha az qız erkən nikaha məcbur edilir, daha çox qadın parlamentdə və rəhbər vəzifələrində işləyir, gender bərabərliyini inkişaf etdirmək üçün qanunlar islah olunur və s. Lakin bu qazanclara baxmayaraq, bir çox problem də qalmaqdadır. Məsələn, ayrı-seçkilik halları baş verir, qadınlar bütün siyasi liderlik səviyyələrində az təmsil olunmağa davam edirlər və 15 ilə 49 yaş arasındakı hər 5 qadın və qızdan biri fiziki və ya cinsi zorakılıq yaşadığını bildirir.

Birləşmiş Millətlərin İnkişaf Proqramı (UNDP) tərəfindən tərtib edilmiş cinsi bərabərlik üçün 5 məqsəddə qeyd edilmişdir ki, qadınlara və qızlara qarşı bütün



eyni səviyyədə təhsil almadıqda, bu onların gələcəyinə və əldə edəcəkləri fürsətlərə böyük təsir göstərir.

2. Məşğulluq bərabərliyinin olmaması - dünyada yalnız 6 ölkə qadınlara kişilərlə eyni qanuni iş hüquqlarını verir. Tədqiqatlar göstərir ki, əgər məşğulluq bərabər bir oyun sahəsinə çevrilmişsə, bu, gender bərabərsizliyinə meylli olan digər sahələrdə müsbət domino təsiri göstərir.

3. İş bölgüsündə bərabərsizlik - məşğulluqda gender bərabərsizliyinin səbəblərindən biri də iş bölgüsüdür. Əksər cəmiyyətlərdə kişilərin müəyyən işlərlə məşğul olmaq üçün daha yaxşı təchiz edildiklərinə inanan bir inanc var. Çox vaxt ən yaxşı maaş verən iş yerləri bunlardır. Bu ayrı-seçkilik qadınlar üçün daha aşağı gəlirlə nəticələnir. Qadınlar da ödənişsiz əmək üçün əsas məsuliyyəti öz üzərlərinə götürürlər, belə ki, ödənişli işçi qüvvəsində iştirak etdikləri halda, heç vaxt maddi cəhətdən tanınmayan əlavə işlərə sahib olurlar.

ayrı-seçkiliklərə son qoymaq yalnız əsas insan hüquqları deyil, davamlı gələcək üçün çox vacib məsələdir. Eləcə də qadınlara və qızlara güc verilməsinin iqtisadi böyüməyə və inkişafa kömək etdiyi sübut edilmişdir. Beləliklə, Birləşmiş Millətlər İnkişaf Proqramı (UNDP) gender bərabərliyini işinin mərkəzinə çevirməklə son 20 ildə diqqətəlayiq irəliləyişlər əldə etmişdir. Buna misal olaraq, hazırda məktəblərdə 15 il əvvəllə müqayisədə daha çox qız var və əksər bölgələr ibtidai təhsildə gender bərabərliyinə nail olmuşdur. Lakin əmək bazarında hər zamankindən daha çox qadın olmasına baxmayaraq, bəzi bölgələrdə hələ də böyük gender bərabərsizlikləri mövcuddur, belə ki, qadınlar sistematik olaraq kişilərlə eyni iş hüquqlarından məhrum edilmişdir. Cinsi zorakılıq və istismar, ödənişsiz qulluq və ev işlərinin qeyri-bərabər bölgüsü, eləcə də dövlət vəzifəsindəki ayrı-seçkilik bütün bunlar böyük maneələr olaraq qalır. İqlim dəyişikliyi və fəlakətlər, münaqişə və köç kimi gözlənilməz hallar qadınlar və uşaqlar üzərində nisbətsiz bir təsir göstərməyə davam edir. Bugün dövlət işində əvvəlkindən daha çox qadın var, lakin daha çox qadın liderin təşviqi daha böyük gender bərabərliyinə nail olmağa kömək edə bilər.

Ailə münasibətlərində qadınların məsuliyyəti kişilərə nisbətdə daha ağırdır, belə ki, evin qayğısını daha çox qadınlar çəkirlər, bununla belə onlar həyatlarını yalnız evlə bağlamaq istəmirlər, hər bir uşağın savadlı, dünyagörüşlü və dövlət üçün daha faydalı işçi qüvvəsi olmağında onun valideynlərinin rolu böyükdür.

Bəs cinslər arasındakı uçuruma səbəb olan nədir? Belə ki, dünya üzrə aparılan təhlillər zamanı gender bərabərsizliyinin 8 səbəbi kimi aşağıdakılar müəyyən edilmişdir:

1. Təhsil almaq hüququnun məhdudlaşdırılması - dünyada qadınlar hələ də kişilərə nisbətən daha az təhsil əldə edirlər. Belə ki, 15-24 yaş arası gənc qadınlar ibtidai təhsili bitirə bilmir, qeyd edilən qrup isə təhsili bitirməyən insanların 58% -ni təşkil edir. Dünyadakı bütün savadsız insanlardan ⅔ qadındır. Qızlar oğlanlarla

4. Qanuni müdafiənin olmaması - Dünya Bankının araşdırmasına görə, bir milyarddan çox qadının ailə cinsi zorakılığa və ya iqtisadi zorakılığa qarşı qanuni müdafiəsi yoxdur. Hər ikisi də qadınların inkişaf etmək və sərbəst yaşamaq qabiliyyətinə əhəmiyyətli dərəcədə təsir göstərir. Bir çox ölkədə iş yerində, məktəbdə və ictimai yerlərdə təcavüzə qarşı qanuni müdafiənin olmaması da mövcuddur. Bu yerlər təhlükəli hala gəlir və qorunma olmadan qadınlar tez-tez güzəştə gedən və hədəflərini məhdudlaşdıran qərarlar qəbul etmək məcburiyyətində qalırlar.

5. Zəif tibbi yardım - qadınlar ümumiyyətlə kişilərə nisbətən daha aşağı keyfiyyətli tibbi yardım alırlar. Bu, daha çox qadının yoxsulluq içində olması ilə nəticələnən təhsil və iş imkanlarının çatışmazlığı kimi digər gender bərabərsizliyi səbəbləri ilə əlaqələndirilir. Belə ki, onların yaxşı bir səhiyyə xidməti ala biləcəkləri ehtimalı daha azdır.

6. Siyasi təmsilçiliyin olmaması - dünya üzrə 2019-cu ilin əvvəlindəki bütün milli parlamentlərdən yerlərin yalnız 24,3% -ni qadınlar tutdu. 2019-cu ilin iyun ayından etibarən 11 Dövlət Başçısı qadın idi. İllərdir bu sahədə irəliləməyə baxmayaraq, qadınlar hələ də hökumətdə və siyasi proseslərdə çox az təmsil olunurlar. Bu o deməkdir ki, qadın siyasətçilərin gündəmə gətirdiyi bəzi məsələlərə - valideyn məzuniyyəti və uşaq baxımı, təqaüdlər, gender bərabərliyi qanunları və gender əsaslı zorakılıq - ümumiyyətlə laqeyd qalır.

7. İrqçilik - irqçilikdən danışmadan gender bərabərsizliyindən danışmaq mümkün olmazdı. Professor Sally Kitchin dediyinə görə, Virginiadakı Avropalı köçkünləri işi icra edən qadının irqinə əsasən hansı işin vergiyə cəlb olunacağına qərar verirdilər.

8 . İctimai düşüncə - bu siyahıda göstərilən digər səbəblərdən daha az hiss olunur, lakin cəmiyyətin ümumi düşüncəsi gender bərabərsizliyinə əhəmiyyətli dərəcədə təsir göstərir. Cəmiyyətin kişilərlə qadınların arasındakı fərqləri və dəyərləri necə təyin etməsi istər məşğulluq, istər hüquq sistemi və ya səhiyyə olsun, hər sahədə əsas rol oynayır. Cinsiyyətə olan inanclar dərinləşir, qanunlar və struktur dəyişiklikləri sayəsində irəliləyiş əldə olunsa da, böyük dəyişikliklər sonrasında əksər hallarda geri çəkilmə olur.

Beləliklə, dünya üzrə aparılan təhlillər zamanı gender bərabərliyi üzrə aparılmalı olan əsas istiqamətlər kimi təhsil sistemində qadın və kişilərin bərabər iştirakına şərait yaradılması, qız və oğlanların təhsil alması üçün sosial stereotiplərin möhkəmləndirilməsi və bərabər təhsil almaq imkanlarının saxlanması tədbirlərinin görülməsi, cəmiyyətdə cinsi bərabərlik ideyalarının yayılması üçün bir mexanizm kimi təhsil sisteminin inkişafı, həm qadınlar, həm də kişilər üçün peşə fəaliyyəti ilə ailə həyatının harmonik və səmərəli şəkildə uzlaşdırılmasına kömək etdilməsi göstərilmişdir.

Xüsusilə yeniyetmə qızlar üçün UNICEF, sahibkarlar, novatorlar və liderlər olaraq iqtisadi imkanlarını artırmaq üçün bacarıqların artırılmasına investisiya qoymuş, qızların fərdi şərtlərinə uyğun bir zamanda və hər yerdə öyrənmə mühitləri təmin etməyə diqqət ayırmış, əlil qızlar üçün köməkçi texnologiyalar, rəqəmsal platformaların, peşə təhsili və şagirdlik sahələrinin genişləndirilməsi üzərində də işləmiş, qızların təhsildən işə düzələn yolunu dəstəkləmək, öyrənmək imkanlarından daha çox şey tələb etmiş və qızların məktəbdə və xaricində hər cür şiddətdən qorunmasını tələb etmişdir.

Dünya üzrə gender bərabərsizliyinə səbəb olan faktorlar arasında korrupsiya faktları da vardır. Belə ki, Nelson Mandela Universitetinin kansleri və Birləşmiş Millətlər İnkişaf Proqramının (UNDP) Demokratik idarəetmə qrupunun keçmiş direktoru Geraldine Fraser – Molekete bildirmişdir ki "Korrupsiya aşağı səviyyəli qadınların gücləndirilməsinə və hər hansı məsələlərdə sərbəst iştirakına mənfi təsir göstərir. Ailələrin əsas qayğısını çəkən qadınlar uşaqlarını məktəbə yazdıran zaman, eləcə də ailə üzvlərinə qarşı fiziki istismarı pisləyəndə, dövlət tərəfindən verilən proqramlarda iştirak etmək istədikdə korrupsiya ilə qarşılaşırlar".

Belə ki, korrupsiya dövlət qurumlarına olan inamı azaldır, qanunun aliliyinə xələl gətirir, nəzarət və tarazlıq sistemini pozur. Korrupsiya, insan hüquqları pozuntuları, zorakı ekstremizm, cəzasızlıq, insan alveri və qanunsuz maliyyə axınları arasındakı əlaqələr dəfələrlə BMT Təhlükəsizlik Şurası və Baş Assambleyası tərəfindən davamlı inkişafa, sülhə və təhlükəsizliyə nail olmaq üçün ciddi problemlər kimi qəbul edilmişdir. Həmçinin korrupsiya ədalət mühakimə sistemini zəifledir, məhz bu səbəbdən insanlar (daha çox qadınlar) qoruna və müdafiə ala bilmirlər. Eləcə də korrupsiya bərabərsizliyi daha da artırır və həssas qrupların bütün səviyyələrində qərar qəbuletmə proseslərində iştirakını və təmsil olunmasını məhdudlaşdırır.

Qeyd olunan müddəalarla yanaşı, gender bərabərliyində baş vermiş insan hüquq pozuntularını daha aydın Avropa İnsan Hüquqları Məhkəməsinin müvafiq qərarlarında görmək olar. Belə ki, "Opuz Türkiyəyə qarşı" işdə ərizəçi və onun anası ərizəçinin əri və qayınatası tərəfindən məişət zorakılığına məruz qalmaları barədə (pulun tələb edilməsi, döyülmə və öldürülməklə hədələmə) müvafiq hüquq mühafizə orqanlarına müraciət edirlər. İlk dəfə ərizəçi zorakılıqla bağlı 10 aprel 1995-ci il tarixdə yerli hüquq mühafizə orqanlarına müraciət edərkən, ona qarşı törədilmiş zorakılığı sübut edən tibbi rəyləri də ərizəyə əlavə edib. Ərizə əsasında araşdırmaya başlanılsa da, ərizəçi və onun anası şikayətlərini geri götürdüklərinə görə məhkəmə tərəfindən işə xitam verilib. Ölümlə hədələmə ittihamı ilə bağlı aparılan iş üzrə isə təqsirləndirilən şəxslər yetərli sübut olmadığı səbəbi əsasında bəraət almağa müvəffəq olublar. Ərizəçi ikinci dəfə döyüldükdən sonra (tibbi rəyə görə xəsarətlər həyat üçün təhlükə yaradırdı) iş üzrə cinayət işi açılıb və ərizəçinin əri barəsində həbs qətimkan tədbiri seçilib. Lakin ərizəçinin sağaldığını və hüquq pozuntusunun xarakterini nəzərə almaqla məhkəmə tərəfindən həbs qətimkan tədbiri ləğv edilib və ərizəçinin əri azadlığa buraxılıb. Müəyyən müddət sonra ərizəçi şikayətini geri götürdüyünə görə iş üzrə icraata məhkəmə tərəfindən xitam verilib. Üçüncü dəfə ərizəçi və onun anası daha ağır məişət zorakılığına məruz qalıblar. Nəticədə ərizəçi, onun anası və ərizəçinin əri bir birinə bıçaqla xəsarət yetiriblər. Lakin prokuror bu qənaətə gəlib ki, cinayət təqibinə başlamaq üçün kifayət qədər sübut yoxdur. Bundan sonra ərizəçinin əri avtomobili ərizəçinin və onun anasının üstünə sürüb. Tibb müəssisəsi tərəfindən müəyyən edilib ki, ərizəçinin anası həyatı üçün təhlükə yaradan xəsarət alıb. Ərizəçinin əri barəsində həbs qətimkan tədbiri seçilsə də, o, bu dəfə də müəyyən müddət sonra azad edilib. Nəticədə ərizəçinin əri üç ay müddətinə həbs və cərimə cəzalarına məhkum edilib, həbs cəzası sonradan cərimə ilə əvəz olunub. Bir müddət sonra ərizəçinin əri ona yeddi bıçaq zərbəsi vuraraq onu yaralayıb. Lakin ərizəçinin əri nəticədə sadəcə cərimə cəzasına məhkum edilib. Bundan sonra da ərizəçinin əri ərizəçini və onun anasını təhdid edib, sonunda isə ərizəçinin əri atəş açaraq ərizəçinin anasını öldürüb. Hətta ərizəçinin əri törətdiyi cinayətə görə yerli məhkəmə tərəfindən 15 il 10 ay müddətinə azadlıqdan məhrumetmə cəzasına məhkum edilsə də, hökmün qüvvəyə minməsinə qədər sonuncunun azadlıqda qalması barədə qərar qəbul edilib. Belə olan hala ərizəçi artıq keçmiş əri tərəfindən yenidən təhdidlərə məruz qaldığından yetərli müdafiənin təmin edilməsi üçün müvafiq orqana müraciət etmək məcburiyyətində qalıb.

Bəs burada ərizəçinin hansı hüquqları pozulub sualına cavab olaraq Avropa İnsan hüquqları məhkəməsinin qərarını qeyd edək. Belə ki, ərizəçi Məhkəməyə onun və anasının Avropa İnsan Hüquqları Konvensiyasının 2, 3, 6, 13, 2 və 3-cü maddələri ilə birgə götürməklə 14-cü maddənin pozuntusu ilə bağlı ərizə ilə Avropa İnsan hüquqları məhkəməsinə müraciət

edib. Məhkəmə qərara alıb ki, ərizəçinin anasının qətlə yetirilməsi ilə bağlı Konvensiyanın 2-ci maddəsinin (Yaşama hüququ) və aidiyyati dövlət orqanları tərəfindən iddiaçının həyat və sağlamlığının qorunması üçün zəruri tədbirlərin görülməməsi ilə bağlı Konvensiyanın 3-cü maddəsinin (qeyri-insani və ya alçaldıcı rəftarın qadağan edilməsi) pozulması baş vermişdir. Həmçinin, Türkiyə hökuməti məişət zorakılığı ilə bağlı əməllərin törədilməsinə görə cəzalandırma və qurbanların qorunması üçün hüquqi mexanizmin yaradılması və tətbiq edilməsini təmin etmədiyi müəyyən edilmişdir. Dövlət orqanları hətta mövcud müdafiə tədbirlərindən belə istifadə etməyib və şikayətlər üzrə işlərin icraatına "ailədaxili məsələsi" hesab edərək və şikayətlərin hansı səbəblərdən geri götürülməsini araşdırmadan xitam verilməsinə qərar veriblər. Ərizələrin şikayətçilər tərəfindən geri götürülüb-götürülməməsindən asılı olmayaraq, cinayət işlərinin (cinayət icraatı) qaldırılmasına imkan verən hüquqi mexanizm mövcud olmalıdır. Məhkəmə həmçinin məişət zorakılığı ilə bağlı işdə ilk dəfə olaraq - Konvensiyanın 14-cü maddəsinin (ayrı-seçkiliyin qadağan edilməsi) 2-ci və 3-cü maddələri ilə birlikdə pozulduğu qənaətinə gəlib: həmçinin qeyd edilir ki, məişət zorakılığı hallarına əsasən qadınların məruz qaldığı və Türkiyənin ədalət mühakiməsi sistemində ayrı-seçkilik yaradan passivlik məişət zorakılığı ilə bağlı halların daha çox artmasına zəmin yaradır. Ərizəçinin və anasının məruz qaldıqları zorakılıq buna görə də gender əsaslı və qadınlara qarşı ayrı-seçkiliyə səbəb olan hüquq pozuntusu hesab edilə bilər. Türkiyə hökumətinin son illərdə həyata keçirdiyi islahatlara baxmayaraq, ərizəçinin işində olduğu kimi, ədalət mühakiməsi (məhkəmə) sisteminin ümumi passivliyi və təcavüzkarların cəzasızlıq mühitindən yararlanması, hakimiyyət orqanları tərəfindən məişət zorakılığına qarşı mübarizə tədbirlərinin görülməsini təmin etmək üçün yetərsiz olduğunu göstərir.

Eyni zamanda "Kontrova Slovakiyaya qarşı" (31 may 2007-ci il) işinə də nəzər salsaq görmək olar ki, burada da dövlət orqanlarının vəzifəli şəxslərinin ayrı-seçkilik prinsipini əsas götürmələri nəticəsində qadınların və uşaqların hüquqları pozulmuşdur.

Həmin məhkəmə işi üzrə 2 noyabr 2002-ci il tarixində ərizəçi (iddiaçı) əri tərəfindən zorakılığa məruz qaldığına və elektrik kabeli ilə döyüldüyünə görə cinayət işinin qaldırılması üçün şikayət etdi. Daha sonra ərinin müşayiəti ilə cinayət işi ilə bağlı şikayət ərizəsini geri götürməyə çalışdı. Nəticə etibarı ilə o, öz şikayət ərizəsini dəyişdirərək ərinin ona qarşı iddia edilən hərəkətləri heç bir tədbir görülməsini tələb etməyən xırda qanun pozuntusu kimi dəyərləndirdi. 31 dekabr 2002-ci ildə onun əri 1997-ci il və 2001-ci il təvəllüdlü qızını və oğlunu odlu silahla qətlə yetirdi. Avropa İnsan Hüquqları Məhkəməsi qarşısında ərizəçi ərinin təhqiredici və təhdidedici davranışından məlumatlı olan polisin onun uşaqlarının həyatının qorunmasının təmin edilməsi üçün lazımi tədbirlərin görmədiyini iddia etdi və daha sonra təzminat alınmasının mümkün olmadığı barədə şikayət etdi. Avropa İnsan Hüquqları Məhkəməsi hakimiyyət orqanlarının ərizəçinin uşaqlarının həyatlarının qorunması üçün zəruri addımların atılmaması ilə bağlı Avropa İnsan Hüquqları Konvensiyasının 2-ci maddəsinin (yaşamaq hüququ) pozulması faktını müəyyən etmişdir. Ərizəçinin 2002-ci ilin noyabr tarixli cinayət barədə şikayət ərizəsi və 2002-ci ilin dekabr tarixində polisə telefon zənglərini nəzərə alaraq, məhkəmə qeyd etmişdir ki, onun ailəsindəki vəziyyət barədə yerli polis məlumatlı olub. Buna cavab olaraq, qüvvədə olan qanuna əsasən, polis aşağıdakı zəruri tədbirləri görməyə borclu idi: şikayətçinin cinayət barədə müraciətini qeydə almaq, şikayətçinin əri barədə təxirəsalınmaz zəruri istintaq və cinayət-prosessual tədbirləri həyata keçirmək, fövqəladə çağırışların müvafiq qaydada qeydə alınması və növbətçi hissədə növbəni təvhil alan polis həmkarlarını vəziyyət barədə məlumatlandırmaq və şikayətçinin ərinin odlu silaha sahib olması və bu silahdan istifadə etməklə hədələmə iddiası ilə bağlı zəruri tədbirlər görmək. Buna baxmayaraq, bu işdə iştirak edən polis əməkdaşlarından biri törədilmiş cinayət hərəkətinin cinayət tərkibi olmayan və heç bir tədbir görülməsini tələb etməyən xırda qanun pozuntusu kimi xarakterizə olunması üçün hətta şikayətçiyə və onun ərinə 2002-ci ilin noyabrında baş vermiş cinayət barədə iddia ərizəsinin dəyişdirilməsində köməklik göstərmişdir. Nəticədə, polisin vəzifə borclarının lazımınca yerinə yetirməməsi ucbatından bilavasitə ərizəçinin uşaqlarının həyatlarının itirilməsi faktı yerli məhkəmələr tərəfindən müəyyən edilmiş və Slovakiya hökuməti tərəfindən etiraf edilmişdir. Əlavə olaraq, məhkəmə Konvensiyanın 13-cü maddəsinin pozulduğunu müəyyən etmişdir (effektiv hüquqi müdafiənin təmin edilməsi) belə ki, dəymiş mənəvi zərərə görə təzminatın alınması üçün ərizəçi məhkəməyə müraciət etmə imkanına malik olmalı idi, lakin bu cür hüquqi müdafiə vasitəsi şikayətçi üçün təmin edilmədi.

Bundan başqa dövlət orqanlarının vəzifəli şəxslərinin vəzifələrindən sui-isifadə etməklə gender bərabərliyində ayrı-seçkiliyə yol vermələrinin və ədalət mühakimələrində yol verilən qeyri-obyektiv araşdırmaların nəticəsi olaraq yuxarıda göstərilən misallara əlavə kimi "Branko Tomaşiç və Digərləri Xorvatiyaya qarşı" (15 yanvar 2009), "Durmaz Türkiyəyə qarşı" (13 noyabr 2014-ci il), "Civek Türkiyəyə qarşı" (23 fevral 2016-cı il), "Talpis İtaliya hökümətinə qarşı" (2 mart 2017-ci il), "E.M. Rumıniyaya qarşı" ((43994/05 saylı) 30 oktyabr 2012-ci il) və "Bevacqua və S. Bolqarıstana qarşı" (12 iyun 2008-ci il) məhkəmə işlərini göstərmək olar.

Yuxarıda qeyd edilən məhkəmə işlərindən göründüyü kimi bir çox dövlət orqanlarına edilən şikayətlərin gizlədilməsi və onlara biganə yanaşılması nəticəsində əksər hallarda hadisələrin ölümlə nəticələnməsi müəyyən edilmişdir. Xüsusən də "Talpis İtaliya hökümətinə qarşı" işində İtaliyanın hakimiyyət orqanları ərizəçinin şikayətinə müvafiq qaydada baxılmaması və təxirəsalınmaz zəruri qoruma tədbirlərinin görülməməsi ərizəçinin oğlunun ölümünə və anasının ölümünə cəhdlə nəticələnən zorakılıq əməlinin baş verməsinə səbəb olmuş və bununla da cəzasızlıq mühiti yaratmışlar.

Buna görə də hakimiyyət orqanları iş üzrə sözügedən şəxslərin həyatlarının qorunması ilə bağlı dövlətin rəsmi öhdəliyinin yerinə yetirilməsini təmin edə bilməmişlər. Burada Avropa İnsan Hüquqları Məhkəməsi həmçinin müəyyən etmişdir ki, hakimiyyət orqanları tərəfindən ərizəçinin məişət zorakılığı aktlarından qorunmasını təmin etməklə bağlı dövlətin rəsmi öhdəliyinin yerinə yetirilməməsi nəticəsində Avropa İnsan Hüquqları Konvensiyasının 2-ci və 3-cü maddələri ilə birlikdə 14-cü maddəsinin (ayrı-seçkiliyin qadağan edilməsi) pozulduğunu müəyyən edilmişdir.

Yuxarıda göstərilən misallardan da göründüyü kimi bir çox ölkədə qadın hüquqları qorunmur və qadınlara qanun qarşısında ədalətsiz davranılır. Bu xüsusilə evlilik və boşanma, təcavüz və zina iddiaları, insan alveri, mülkiyyət hüquqları, maliyyə müstəqilliyi və digər məsələlərdə narahatlıq doğurur. Korrupsiyalaşmış hüquq-mühafizə sistemləri qadınların hüquqlarının qorunması və inkişaf etdirilməsini qanunlardan sui-istifadə etməklə pozurlar. Bu cür konteksdə qadınlar qanunvericiliklə müəyyən edilmiş hüquqlardan istifadə etmək imkanından məhrum olurlar və öz hüquqları uğrunda mübarizə apara bilmirlər.

Bəs gender bərabərsizliyi nəticəsində yaranmış qadın zorakılığının, məişət zorakılığının və qadınlara qarşı diskriminasiyanın qarşısını almaq üçün hansı addımlar atılmalıdır?

İlk növbədə istənilən sosial problemə dair davamlı və sistematik şəkildə dəlillər və statistik məlumatların əldə edilməsi çox vacibdir. Eyni zamanda dəlillər və statistik rəqəmlərin toplanması ilə yanaşı geniş miqyaslı və sistematik şəkildə aparılan maarifləndirmə və məlumatlandırma tədbirlərinə də böyük ehtiyac var. Qadınlara qarşı zorakılıq və ayrı-seçkiliyin yayılma miqyası, təzahür formaları və əhalinin bu baxımdan istifadə etdiyi öhdəsindən gəlmə strategiyaları və ehtiyacları müəyyən edilməlidir ki, bütün strateji müdaxilələr məhz bu tələb və ehtiyaclara uyğun şəkildə tərtib edilsin. Belə ki, erkən nikah halları, rəsmi nikah qeydiyyatının olmaması, tərəflərin təhsil səviyyəsinin aşağı olması qadınlara qarşı zorakılıq və ayrı-seçkiliyin yayılmasını yaradan hallardan yalnız bir neçəsidir. 2016-cı ildə gender münasibətlərinin dinamikasına dair keçirilən tədqiqatın nəticələrinə əsasən təxminən hər üç kişidən biri (kişilərin 32,5%-i) fiziki zorakılıq hallarını törətdiyini və qadınların 32,1%-i bu növ zorakılığa məruz qaldığını bildirib.

Lakin təəssüflər olsun ki, bir çox hallarda bəzi statistik rəqəmlərə nəzər saldıqda həmin rəqəmlərin təhrif olunduğu müəyyən edilir. Məhz buna görə də dəqiq rəqəmlərin çıxarılması və monitorinq sisteminin tətbiq edilməsinə ehtiyac var ki, bu sahədə nəzarətedici funksiyanı həyata keçirmək mümkün olsun. Bununla da dövlətlər üzərinə götürdükləri öhdəlikləri yerinə yetirərək belə hallara nəzarət etməklə insan hüquqlarının pozulması halları aradan qaldırılır və gender bərabərliyinin təmin edilməsinə nail olunur.

Həmçinin qadınların iş tapa bilmək imkanlarını çoxaltmaq və qadın sahibkarlığını lazımi dəstəklə təmin etməklə yanaşı qadınların iqtisadi cəhətdən təhlükəsizliyinin artırılması tələb edir ki, sosial müdafiə sistemi qadınları və onların ailələrini gözlənilməz iqtisadi şoklardan qorumağa adekvat müdafiə tədbirləri təqdim edə bilsin.

Bu problemlərə müraciət edilməsi mürəkkəb prosesdir və qadınların produktiv və reproduktiv rolunu tanıyaraq bu işdə onlara yardım edən hərtərəfli yanaşma tələb edir. Əgər qadınların ödənişli əməyə cəlb edilə bilmələri üçün şərait olmalıdırsa, qadınlar üçün yeni imkanlar yaradılması və məşğulluq üzrə müvafiq təlim proqramlarının tətbiq edilməsindən əlavə, kənd və şəhər yerlərində imkan daxilində uşaqlara qayğı göstərilməsinin təmin edilməsi, təhsil və səhiyyədə ictimai əsaslarla birgə xidmətlərdən istifadə edilməsi çox əhəmiyyətlidir. Qadınların iqtisadi resurslardan istifadə edə bilmələrini asanlaşdırmaq, onların kiçik və orta müəssisələrdə iştirakını artırmaq üçün onları dəstəkləyən mühitin (məsələn, biznesi inkişaf etdirməyə xidmət edən məsləhətxanalar, təlim kursları, bazara çıxış) təmin edilməsi, qadınların bərabər hüquqlarla işə düzəlmə imkanlarını müəyyənləşdirən və onu müdafiə edən qanunvericiliyin (eləcə də cinsi zəmində qadınlar üçün çətinlik törədilməsi və işə götürərkən ayrı-seçkiliyə yol verilməsi əleyhinə hüquqi müdafiə tətdbirləri) olması, qadınların mülki xidmətlərdə sürətlə irəli çəkilmələrini təmin edən siyasət aparılması qadınların imkanlarını genişləndirmək və onları müdafiə etmək üçün istifadə edilən yollardan bəziləridir. Bütün bu şərtlərin mərkəzində formal və qeyri-formal sektorların gender baxımından daha yaxşı qiymətləndirilməsinə ehtiyac (xüsusilə də sosial xidmətlərin azaldığı bir şəraitdə), eləcə də qadınların kənd təsərrüfatında rolu və iştirak faizi durur.

Eyni zamanda, qadınların əmlakdan bərabər surətdə yararlanmaq hüququ təkcə bu bərabərliyi təmin edən qanunvericiliyin həyata keçirilməsi ilə deyil, həm də dövlət sektorunda və şəxsi sektorda, eləcə də vətəndaş cəmiyyətində bu hüquqlar barədə məlumatlandırma işi aparmaq yolu ilə təsdiqlənməlidir. Effektiv hüquqi strukturların öz yerində olmasının və bu strukturların qadınlara qarşı zorakılığa və qadın alverinə qarşı mübarizəyə yönəldilməsinin təmin edilməsi qadınların üzləşdiyi fiziki təhlükələrin səviyyəsinin aşağı endirilməsi üçün əsas şərtdir.

Belə ki, hər sahədə maarifləndirici tədbirlərin mütəmadi olaraq həyata keçirilməsi təmin edilməlidir. Xüsusilə məişət zorakılığı məsələlərində bütün aidiyyatı sahələrdə - səhiyyə, hüquq-mühafizə, ədliyyə, sosial müdafiə və s. sahələr üzrə müvafiq tədbirlərin mütəmadi olaraq həyata keçirilməsi zəruridir. Burada ən önəmli məsələlərdən biri də məişət zorakılığından zərərçəkmişlərə sığınacaqların yaradılması və bu sahədə nəzarətedici funksiyanın həyata keçirilməsidir.

Məsələn, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi tərəfindən beynəlxalq təşkilatların dəstəyi ilə və "Ailədən-ailəyə" aksiyası çərçivəsində yaşayış yerini müvəqqəti tərk edən və müvafiq yardıma ehtiyacı olan 341 ailənin mahiyyəti üzrə sanitar qovşaq problemi,

kompensasiya alması, müvəqqəti sığınacaqla təmin olunması, ərzaq, isti geyimlər, yataq dəstləri, gigiyenik vasitələr, uşaq bezləri, vitaminlər, qrip əleyhinə dərman preparatları, qızdırıcı vasitələr, dezinfeksiyaedici məhsullar, azyaşlı uşaqların mərkəzdəki loqopedik, inkişafetdirici məşğələyə cəlb olunması və psixoloji dəstək ilə təmin olunmasına köməklik göstərilmişdir.

"Azərbaycan Respublikasında məişət zorakılığı ilə mübarizəyə dair 2020-2023-cü illər üçün Milli Fəaliyyət Planı" Məişət zorakılığının qarşısının alınması istiqamətində görülən işlərin səmərəliliyini artırmaq üçün qabaqlayıcı tədbirlərin gücləndirilməsi, zorakılıqdan zərər çəkmiş şəxslərə təxirəsalınmaz və hərtərəfli yardım göstərilməsi və bu məqsədlə beynəlxalq standartlara uyğun müvafiq infrastrukturun yaradılması, məişət zorakılığı ilə mübarizə sahəsində dövlət orqanlarının (qurumlarının) potensialının artırılması və qeyri-hökumət təşkilatlarının dəstəklənməsi uzunmüddətli və kompleks yanaşma tələb edir. Ölkədə məişət zorakılığının qarşısının alınması üzrə tədbirlərin beynəlxalq standartlara uyğunlaşdırılması, ailələrin möhkəmləndirilməsi naminə onların vaxtında və hərtərəfli yardımla təmin edilməsi, məişət zorakılığı ilə mübarizə sahəsində normativ hüquqi aktlarda nəzərdə tutulan tədbirlərin həyata keçirilməsi və səmərəliliyinin artırılması məqsədi ilə Azərbaycan Respublikasında məişət zorakılığı ilə mübarizəyə dair 2020–2023-cü illər üçün Milli Fəaliyyət Planı" Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 27 noyabr tarixli Sərəncamı ilə təsdiq edilmişdir. Milli Fəaliyyət Planında məişət zorakılığı ilə mübarizə sahəsində normativ hüquqi bazanın beynəlxalq təcrübəyə uyğunlaşdırılması, məişət zorakılığının qarşısının alınması və onunla mübarizə sahəsində məlumatlandırma və maarifləndirmə tədbirlərinin təşviqi, məişət zorakılığından zərər çəkmiş şəxslərin aşkarlanması və erkən identifikasiyası, məişət zorakılığından zərər çəkmiş şəxslərin müasir standartlara uyğun yardım xidmətləri ilə təmin olunması, məişət zorakılığından zərər çəkmiş şəxslərin səmərəli müdafiəsi sisteminin formalaşdırılması istiqamətlərində tədbirlər nəzərdə tutulmuşdur. Sənəddə zərər çəkmiş şəxslərin müdafiəsi üzrə qurumlararası əlaqələndirmə mexanizminin yaradılması, mütəxəssislərin hazırlanması, bu sahədə məhkəmə təcrübəsinin təhlili və tövsiyələrin hazırlanması, xüsusilə də yardım mərkəzlərinin, 24 saat, 7 gün açıq olan ödənişsiz qaynar xətt xidmətinin təşkili kimi tədbirlərin planlaşdırılması vacib əhəmiyyət daşıyır. Milli Fəaliyyət Planının həyata keçirilməsi zamanı beynəlxalq təşkilatlarla, eləcə də qeyri-hökumət təşkilatları ilə qarşılıqlı əməkdaşlığın genişləndirilməsi nəzərdə tutulmuşdur.

Bununla belə, Komitə, həmçinin Göyçay rayonunda "Kənd qadınlarının mikro sahibkarlığına dəstək" layihəsini həyata keçirmişdir. Layihənin məqsədi kənd qadınlarının istisadi və sosial imkanlarının artırılmasına dəstək göstərməkdir. Layihə çərçivəsində Göyçay rayonunda Qadın Resurs Mərkəzi yaradılmış, qadınların məşğulluğunun təmin olunması və ev təsərrüfatlarının inkişafı məqsədilə 28 qadına fəaliyyət istiqamətlərinə uyğun olaraq maddi-texniki dəstək (mal və materiallar, avadanlıqlar, mebel, aksessuarlar və s.) göstərilmişdir. 2020-ci ilin noyabr-dekabr aylarında layihəyə cəlb olunan qadınların iştirakı ilə qadınlar arasında şəbəkənin yaradılması, gender, insan hüquqları, özünü təqdim etmə bacarıqları, maliyyə savadlılığı, biznesin təşkili, idarə edilməsi və liderlik haqqında biliklərin artırılması, eyni zamanda onların ictimai fəallığının artırılması məqsədilə Göyçay rayonunda "Gender və insan hüquqları", "Özünü təqdimetmə bacarıqları" "Liderlik", "Məişət zorakılığı və erkən nikah", "Maliyyə savadlılığı", "Biznesin təşkili və idarə edilməsi" mövzusunda təlimlər keçirilmişdir.

Bir çox ölkələrdə gender bərabərsizliyi qadınların müxtəlif orqanlarda siyasi iştirakına və təmsil olunmasına mane olur. Məsələn, qadınların bir ölkənin hakimiyyətində və siyasi sistemində qərar qəbul etmə proseslərində iştirakı məhdudlaşdırılır. Dünyada qadınlar dünya əhalisinin yarısından çoxunu təmsil etsə də, milli parlamentlərdəki bütün yerlərin yalnız 23,6%-nə sahibdirlər. Siyasi iştirak və təmsilçilikdən kənarlaşdırıldıqda gender bərabərsizliyi güclənir.

Digər dövlətlərlə müqayisədə Azərbaycanda 2020-ci ilin əvvəlinə ölkə əhalisinin ümumi sayının 50,1 faizini qadınlar təşkil etmişdir. Azərbaycan qadınları ölkənin sosial-iqtisadi həyatında fəal iştirak etməklə onların məşğul əhalinin ümumi sayındakı xüsusi çəkisi ilkin məlumatlara əsasən 48,2 faiz təşkil edir. Ölkənin ümumi təhsil müəssisələrində müəllimlərin 80,7 faizi, orta ixtisas təhsil müəssisələrində 78,9 faizi, ali təhsil müəssisələrində 54,7 faizi, həkimlərin isə 66 faizi qadınlardır. Ümumi təhsil müəssisələrində təhsilalanların 46,7 faizi, orta ixtisas təhsil müəssisələrində oxuyanların 64,1 faizi, ali təhsil müəssisələrinin tələbələrinin 48,8 faizi qızlardır. 2020-ci ildə Milli Məclisin VI çağırışında 22 qadın mandat əldə edib.

Bundan başqa elmi işçilərin 58,2 faizini qadınlar təşkil edir. Son 10 ildə onlardan elmlər doktoru elmi dərəcəsi olanların sayı 2,5 dəfə, fəlsəfə doktoru elmi dərəcəsi olanların sayı isə 2,2 dəfə artıb. Azərbaycan Milli Elmlər Akademiyasının həqiqi üzvlərindən 8-i, müxbir üzvlərindən isə 11-i qadındır. Dövlət qulluğunda çalışanlar arasında qadınların xüsusi çəkisi 28,5 faiz, sahibkarlar arasında isə 21,7 faizdir. Bədən tərbiyəsi və idmanla məşğul olanların 42,6 faizi qadınlardır. Beləliklə, Azərbaycan qadınları ölkənin həm sosial-iqtisadi, həm də ictimai-siyasi həyatında fəal iştirak edirlər.

Həmçinin prokurorluq orqanlarına da nəzər salsaq son illərdə keçirilən müsabiqələrdə qulluğa qəbul edilən qadınların sayında artım müşahidə edilmiş, xüsusilə də 2020-ci il qadınların məhz bu orqanda ilk dəfə olaraq rəhbər vəzifələrə çəkilmələri ilə yadda qalmışdır.

**Günay Süleymanova,**
**Abşeron rayon prokurorluğuna ezam olunmuş Daşkəsən rayon prokurorluğunun müstəntiqi, II dərəcəli hüquqşünas.**

# Ekoloji təhlükəsizlik Azərbaycan Respublikası və Rusiya Federasiyası Cinayət Məcəlləsinin 254-cü maddəsi nümunəsində cinayət-hüquqi müdafiə obyekti kimi



Yer üzü insan cəmiyyəti üçün xüsusi dəyərdir. Bu, insanların bütün nəsilləri üçün yeganə yaşayış yeridir. Son vaxtlar həm Rusiyada, həm Azərbaycanda, həm də bütün dünyada torpağın vəziyyəti nəzərəçarpacaq dərəcədə pisləşmişdir. Ətraf mühitin vəziyyətinə dair torpaq monitorinqi və digər monitorinq sistemlərindən alınan məlumatların təhlili göstərir ki, torpaqların pisləşmə tendensiyası davam edir. Eroziya, deflyasiya, bataqlıq, şoranlaşma, səhralaşma, kənd təsərrüfatında istifadə olunan torpaqların kol və kiçik meşələrlə örtülməsi və kənd təsərrüfatında məhsuldarlığın itirilməsinə səbəb olan digər proseslər intensiv inkişaf edir. Torpaqların iqtisadi dövriyyədən çıxarılmasının qarşısının alınması, belə bir bənzərsiz mənbənin qorunmasının vacibliyini nəzərə alaraq Müstəqil Dövlətlər Birliyinə üzv dövlətlər üçün nümunəvi Cinayət Məcəlləsində torpağın cinayət-hüquqi üsullarla qorunmasına ehtiyac barədə təklif belə formada ifadə edildi: " saxlanılması, istifadəsi və daşınması zamanı pestisidlər, gübrələr, bitki böyütmə stimulantları və digər təhlükəli kimyəvi və ya bioloji maddələrlə, habelə torpaqların qəsdən və ya ehtiyatsızlıqdan ətrafa əhəmiyyətli dərəcədə ziyan vuran digər zərərlərlə zəhərlənməsi cinayət məsuliyyətinə səbəb olur."(Bölmə 1. Maddə 225). Azərbaycan və Rusiyanın cinayət qanunvericiliyi torpaqlara ziyan vurmaqla əlaqədar ictimai təhlükəli hərəkətlərə də qiymət verdi. Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 254.1-ci maddəsində göstərilmişdir: "Saxlanması, istifadə edilməsi yaxud daşınması zamanı gübrələrlə, təhlükəli kimyəvi və ya bioloji maddələrlə davranış qaydalarının pozulması nəticəsində təsərrüfat və ya başqa fəaliyyətin zərərli məhsulları ilə torpaqların zəhərlənməsi, çirkləndirilməsi yaxud onların başqa cür korlanması, insanların sağlamlığına və ya ətraf mühitə əhəmiyyətli ziyanın vurulmasına səbəb olduqda" cinayət məsuliyyəti yaradır.

Rusiya Federasiyası Cinayət Məcəlləsinin 254-cü maddəsinin 1-ci hissəsində göstərilmişdir: "Gübrələrin, bitki böyüdücü stimulyatorların, pestisidlərin və digər təhlükəli kimyəvi və ya bioloji maddələrin saxlanması, istifadəsi və daşınması zamanı davranış qaydalarının pozulması nəticəsində təsərrüfat və ya başqa fəaliyyətin zərərli məhsulları ilə torpaqların zəhərlənməsi, çirkləndirilməsi yaxud onların başqa cür korlanması, insanların sağlamlığına və ya ətraf mühitə əhəmiyyətli ziyanın vurulmasına səbəb olduqda" cinayət məsuliyyəti yaradır.

Sevindirici haldır ki, cinayətin predmeti və subyektini anlamaqda Rusiya və Azərbaycan qanunvericilərinin fikirləri tamamilə üst-üstə düşür. Torpağa vurulan zərərin bütöv bir obyekti kimi ictimai təhlükəsizlik əleyhinə olan cinayətlər göstərilir. Çünki bu kompozisiya yerli qanunvericilər tərəfindən " İctimai təhlükəsizlik və ictimai qayda əleyhinə olan cinayətlər" bölməsində yerləşdirilmişdir. Rusiya Federasiyası Cinayət Məcəlləsinin 254-cü maddəsi və Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 254-cü maddəsi ilə nəzərdə tutulmuş cinayətlərin ümumi obyekti bu cina-

yətlərin "Ekoloji Cinayətlər" fəslində yerləşməsinə görə ekoloji təhlükəsizliyin təmin edilməsi sahəsində inkişaf edən münasibətlərdir. Qeyd etmək lazımdır ki, hər iki qanunverici bu halda cinayət qanununun qorunması predmetinin torpaq sahəsi deyil, təbii obyekt və təbii sərvət kimi torpaq olduğunu qeyd edir. "Torpaq" və "torpaq sahəsi" anlayışları eyni deyildir. Torpaq sahəsi birbaşa torpaq münasibətləri obyektidir, eyni zamanda dövlət qeydiyyatı baxımından universal bir hüquq obyektidir. Bu maddənin dispozisiyası ilə əlaqəli torpaq, ekoloji, iqtisadi, istirahət və digər funksiyaları yerinə yetirən, insanlar üçün həyatı dəstəkləyən bir səth, torpaq qatı kimi başa düşülür. Torpağın kimin mülkiyyətində olması və təyinat məqsədi vacib deyil. İstər dövlət mülkiyyətində olan torpaqların və istərsə də sahibkarların mülkiyyətində olan torpaqların hansının pisləşməsinin fərqi yoxdur.Biz nəticədən, ictimai təhlükəsizlikdən, bizim vəziyyətimizdə ekoloji təhlükəsizlikdən danışırıq.

Torpağa dəyən zərərin birbaşa obyekti torpaqların qorunması və səmərəli istifadəsi üçün ekoloji təhlükəsizliyin təmin edilməsi sahəsində inkişaf edən münasibətlərdir. Əlavə bir obyekt sağlamlığı və ya həyatı qorumaq üçün bir əlaqədir.

Torpaq ehtiyatlarının qorunması və istifadəsi ilə əlaqədar mövcud hüquqi münasibətlər Rusiya Federasiyası Konstitusiyası ilə, Rusiya Federasiyasının Torpaq Məcəlləsi ilə, "Ətraf mühitin qorunması haqqında" Federal Qanunla, "Əhalinin sanitariya və epidemioloji rifahı haqqında" qanunla, habelə Rusiya Federasiyasının digər subyektləri, nazirliklərinin normativ hüquqi aktları ilə tənzimlənir

Azərbaycan Respublikasında bu cür mənbələr "Azərbaycan Respublikasının Konstitusiyası", "Torpaq Məcəlləsi", "Yerin təki haqqında" 13 fevral 1999-cu il tarixli Azərbaycan Respublikasının Qanunu, "Ətraf mühitin mühafizəsi haqqında" Azərbaycan Respublikasının 02 mart 2002-ci il tarixli Qanunlarıdır.

Bu cinayətin obyektiv tərəfi Azərbaycan Respublikasının Cinayət Məcəlləsində və Rusiya Federasiyası Cinayət Məcəlləsində öz əksini tapmışdır. Obyektiv baxımdan, cinayət, torpağın cinayət qanunu ilə aydın şəkildə nəzərdə tutulmuş zəhərlənməsi və çirklənməsi ilə xarakterizə olunur. Zəhərlənmə torpağın pestisidlərlə və ya iqtisadi fəaliyyətin zərərli məhsulları ilə doymasıdır.Bunun nəticəsində torpaq insanların, heyvanların, həşəratların, bitkilərin və digər orqanizmlərin sağlamlığı üçün təhlükəli vəziyyətə düşür və ondan istifadə onların ölümünə səbəb olur. Çirklənmə zərərli təsirlər üçün müəyyən edilmiş standartları aşan və insan sağlamlığı, flora və faunanın vəziyyəti üçün təhlükə yaradan torpaq keyfiyyətindəki fiziki, kimyəvi, bioloji dəyişiklikdən ibarətdir. Torpağa dəyən digər zərərlər (zəhərlənmə və ya çirklənmə kimi) yalnız gübrələrin, təhlükəli kimyəvi və ya bioloji maddələrin işlənməsi qaydalarının pozulması ilə əlaqələndirilir. Buna görə də torpağa dəyən digər zərərlər yerin zibil və ya tullantılarla çirklənməsi, zibil yerlərinin icazəsiz qurulması, kanalizasiya və mexaniki yollarla torpağa ziyan vurulması (münbit qatın sökülməsi, meliorasiya qaydalarının pozulması, xəndəklərin qazılması, tullantıların tökülməsi, su basması, yarğanların və külək eroziyasının formalaşmasını nəzərdə tutmur və s.). Digər zərərlər, qaydaları pozaraq gübrələr və ya pestisidlərdən istifadə edildikdən sonra təhlükəli kimyəvi birləşmələrin meydana gəlməsi, təhlükəli orqanizmlərin, zərərli orqanizmlərin çoxalması və ya faydalı orqanizmlərin məhv edilməsi nəticəsində yer üzünün məhv edilməsinə aid edilə bilər. Maraqlıdır ki, Azərbaycan qanunverici orqanı, Rusiyadan fərqli olaraq, Cinayət Məcəlləsinin 254-cü maddəsinin dispozisiyasına əsasən, gübrələri ekvivalent kateqoriyalar kimi qiymətləndirərək təhlükəli kimyəvi və ya bioloji maddələr kimi təsnif etmir. Rus qanunvericiliyi, gübrələrdən təhlükəli kimyəvi və ya bioloji maddələrin bir növü kimi danışır. Bu cür maddələrin alt növü olaraq, rus qanunvericiliyi bitki böyüməsi stimulantlarından, pestisidlərdən də bəhs edir.

Azərbaycan Respublikası və Rusiya Federasiyası Cinayət Məcəlləsinin 254-cü maddəsi ilə nəzərdə tutulan cinayətin nəticələri sağlamlığa zərər və ya insan həyatından məhrumetmə ilə ifadə olunur. Qanunda göstərilən hərəkətlər (hərəkətsizlik) və nəticələr arasında bir səbəbli əlaqələr olmalıdır. Cinayət tərkibi maddi əhəmiyyətə malikdir. Torpağın çirklənməsi, zəhərlənməsi və ya başqa bir zərərin insan sağlamlığına və ya ətraf mühitə ziyan vurması halında cinayət sona çatır.

Həm Azərbaycan, həm də Rusiya cinayət qanunvericiliyində torpağa dəyən zərər, gübrələrin

və digər təhlükəli kimyəvi və ya bioloji maddələrin saxlanması, istifadəsi və daşınması zamanı istifadə qaydalarının pozulması ilə əlaqəli olmalıdır. Torpağa dəyən ziyan bu cür qaydaların pozulması ilə əlaqədar yaranmazsa təqsirkarların mövcud qanunvericiliyə uyğun olaraq torpağa dəymiş ziyana görə cinayət məsuliyyətinə cəlb edilməsi qeyri-mümkündür. Deməli təhlil etdiyimiz maddədə yalnız zəhərlənmə, çirklənmə, təsərrüfat və ya digər fəaliyyət sahələrinin zərərli məhsulları ilə torpağa dəyən zərərlər, insan sağlamlığına və ya ətraf mühitə ziyan vurulması ilə nəticələnərsə cinayət məsuliyyətindən söhbət gedə bilər.

Qüvvədə olan cinayət məcəllələrinin qəbul edildiyi vaxtdan keçən dövr ərzində bu və digər cinayət xarekterli hadisələrin, əməllərin, törədilməsinə səbəb olan iqtisadi sıçrayışlar, iqtisadiyyatın yeni sahələrinin meydana gəlməsi, ekoloji tarazlığa insan fəaliyyətinin mənfi təsirlərinin artması baş vermişdir. Ona görə də bu amillər ekoloji təhlükəsizliyin cinayət qanunu normalari ilə effektli müdafiəsinin təkmilləşdirilməsini  labüd edir. Bu xüsusən Azərbaycan Resbupilkasinin ərazilərinin ekoloji təhlükəzliyinin pozulmasında özünü göstərir. Məlum olduğu kimi Ermənistan Respublikasının silahlı birləçmələrinin və qanunsuz muzdlu silahlı birləşmələrinin Azərbaycan torpaqlarının 20%-i işğal etmələri nəticəsində sülh və insanlıq əleyhinə çoxsaylı cinayət hadisələri törətmələri ilə yanaşı ekosid cinayətləri törətmişlər. İşğaldan azad edilmiş ərazilərimizdə aparılan manitorinqlə müəyyən edilmişdir ki, son dövrlər işğal olunmuş ərazilərdə xarici ölkələrin konkret şirkətlərinin ekologiya və yerin təkinin istismarı qaydalarının kobud şəkildə pozulması ilə nəticələnən qanunsuz sahibkarlıq fəaliyyəti ilə məşğul olmuşlar. Bu faktlarıla bağlı Azərbaycan Respublikası Baş Prokurorluğu tərəfindən cinayət işləri üzrə bütün təqsirli şəxslərin beynəlxalq hüquq normaları çərçivəsində məsuliyyətə cəlb edilməsi istiqamətində işlər aparılır. Bu qanunsuz əməllər və ekoloji cinayətlər siyahısında  Ermənistan Respublikasının sahibkarliq subyektlərinin vasitəçiliyi ilə xarici şirkətlərin qanunsuz olaraq Azərbaycan Resbupilkasinin ərazisində dağ-mədən işləri aparmaları həmçinin, Zod və Vəjnəli qızıl yataqlarının qanunsuz istismari ile ətraf mühütə zərərli maddələrin və çaylarımıza siyanit turşusu və digər zəhərli maddələrin axıdılması faktlarını göstərmək olar.

Yuxarıda qeyd edilənləri və torpaq kimi bir obyektin, xüsusən də elmi-texniki tərəqqi şəraitində özünəməxsusluğunu nəzərə alaraq, yerli qanunvericimiz təklifimizi nəzərdən keçirərək Azərbaycan Respublikası Cinayət məcəlləsinin 254-cü maddəsinin dispozisiyasını aşağıdakı kimi formalaşdıracaq:

"Saxlanması, istifadə edilməsi yaxud daşınması zamanı gübrələrlə, təhlükəli kimyəvi və ya bioloji maddələrlə davranış qaydalarının pozulması nəticəsində təsərrüfat və ya başqa fəaliyyətin zərərli məhsulları ilə torpaqların zəhərlənməsi, çirkləndirilməsi sənaye istehsalının zərərli tullantıları ilə çirkləndirilməsi yaxud onların başqa cür korlanması, insanların sağlamlığına və ya ətraf mühitə əhəmiyyətli ziyanın vurulmasına səbəb olduqda" cinayət məsuliyyətinə səbəb olur.

**Ədəbiyyat:**


1. Модельный уголовный кодекс для государств — участников Содружества Независимых Государств. Принят Постановлением Межпарламентской ассамблеи государств — участников Содружества Независимых Государств 17 февраля 1996 г. //URL: http: www.consultant.ru/popular/ koap/13_9.html.
2. Федеральный закон от 10 января 2002 г. N 7-ФЗ «Об охране окружающей среды»// СЗ РФ. 2002. N 2. Ст. 133
3. Закон РФ от 30 марта 1999 г. N 52-ФЗ «О санитарно-эпидемиологическом благополучии населения"// СЗ РФ. 1999. N 14. Ст. 1652
4. Закон РФ от 19 июля 1997 г. N 109-ФЗ «О безопасном обращении с пестицидами и агрохимикатами// СЗ РФ. 1997. N 29. Ст. 3510.
5. Федеральныйм закон от 10 января 1996 г. N 4-ФЗ «О мелиорации земель»// СЗ РФ. 1996. N 3. Ст. 142.
6. Конституция Азербайджанской Республики, принята 12.11.1995 года на всеобщем голосовании (референдум) и вступила в силу 27.11.1995 года.
7. «Земельный кодекс» Азербайджанской Республики был утвержден законом № 695–IQ от 25.06.1999 года.
8. Закон Азербайджанской Республики «О недрах» № 439-IQ от 13.02.1998 года.
9. Закон Азербайджанской Республики «Об охране окружающей среды» № 678-IQ от 08.06.1999 года.



**Ulezko Sergey İvanoviç,**
**hüquq elmləri doktoru, Rostov Dövlət İqtisad Universitetinin Cinayət Hüququ, Cəza İcrası Hüququ və Kriminologiya kafedrasının müdiri,**

**Vəliyev Zahid Baxşalı oğlu,**
**Azərbaycan Respublikası Prokurorluğunun veteranı, Rostov Dövlət İqtisad Universitetinin aspirantı, Qərbi Kaspi Universitetinin Hüquq kafedrasının müəllimi.**

# İbtidai araşdırma zamanı müdafiəçinin axtarış, şəxsi axtarış və götürmə istintaq hərəkətlərində iştirakının aktual problemləri



Məlum olduğu kimi, hüquqi yardım almaq və müdafiəçinin köməyindən istifadə etmək hüququ hər bir insana aid fundamental konstitusion hüquqdur.

Müdafiə hüququ qanunla şübhəli və təqsirləndirilən şəxslərə verilmiş prosessual hüquqlardan, həmçinin onların mənafelərinin qorunması üçün qanunla qadağan olunmayan digər üsullardan istifadə etmək imkanını ehtiva etməklə yanaşı, həm də ədalət mühakiməsi maraqlarının təminatçısı, onun fundamental əsaslarından biri kimi çıxış edir.

Bu hüququn pozulması prosessual və istintaq hərəkətlərinin, ümumilikdə icraatın etibarsız sayılmasına, onun gedişində qəbul edilmiş qərarların ləğvinə, yaxud toplanmış sübutların, eləcə də digər materialların sübutedici qüvvəsinin olmaması qənaətinə gəlməyə səbəb ola bilər.

Qeyd olunanlarla yanaşı, müdafiə hüququ ədalət mühakiməsinin tərəflərin bərabərliyi və çəkişmə prinsipləri əsasında həyata keçirilməsinin başlıca meyarlarından biri kimi də qiymətləndirilir.

Məlum olduğu kimi, narkotik vasitələrin, eləcə də mülki dövriyyəsi qadağan edilmiş və ya məhdudlaşdırılmış digər əşyaların qanunsuz dövriyyəsi ilə əlaqədar cinayətlər üzrə şəxslərə ittihamın cinayət-prosessual qanunvericiliklə təsbit edilmiş müvafiq proseduralar əsasında və vaxtında verilməsi ilk növbədə cinayətin predmetini təşkil edən maddi sübutların vaxtından aşkar edilməsi, rəsmiləşdirilməsi və götürülməsindən asılıdır.

Bu qəbildən olan cinayətlər üzrə cinayət başında yaxalanmış və ya sonradan tutulmuş şübhəli və təqsirləndirilən şəxslərin üzərində şəxsi axtarış, götürmə, onların yaşayış yeri və ya digər yerlərdə axtarış və götürmə istintaq hərəkətlərinin aparılması sübutetmə üçün müstəsna əhəmiyyətə malikdir.

CPM-nin tələblərinə müvafiq olaraq, cinayət prosesini həyata keçirən orqan şübhəli və ya təqsirləndirilən şəxsin həmin Məcəllədə nəzərdə tutulmuş hallarda və qaydada tutulduğu, həbsə alındığı və ya müvafiq olaraq şübhəli şəxs qismində birinci dindirməyədək, yaxud təqsirləndirilən şəxsə ittiham elan edildiyi andan müdafiəçinin yardımından istifadə etmək, şəxsən və ya özünün seçdiyi müdafiəçi vasitəsi ilə müdafiə olunmaq, yaxud müdafiəçinin haqqını ödəmək üçün kifayət qədər vəsaiti olmadıqda, pulsuz hüquqi yardım almaq hüquqlarını təmin etməlidir.

CPM-nin 246.1-ci maddəsinə əsasən, müstəntiq iş üzrə sübut əhəmiyyətinə malik ola biləcək, barəsində istintaq hərəkəti aparılan şəxsin paltarında, əşyalarında və ya bədənində ola bilən əşya və sənədləri, bir qayda olaraq, məhkəmənin qərarı əsasında götürə bilər.

Həmin Məcəllənin 246.2.1-ci maddəsinə əsasən, şübhəli şəxs tutulduqda və polis və ya digər hüquq-mühafizə orqanına gətirildikdə məhkəmənin qərarı alınmadan şəxsi axtarış aparıla bilər.

Bu səbəbdən, istintaq təcrübəsində üzərində narkotik vasitə və ya sair qanunsuz əşyanın olması ehtimal olunan şəxsin tutulmasından dərhal sonra onun üzərində şəxsi axtarış və götürmə aparılması zərurəti yaranır.

Bu istintaq hərəkətlərinin aparılmasında müdafiəçinin iştirakı ilə bağlı 2 fərqli mövqe mövcuddur.

Belə ki, bəzi hüquqşünasların, əsasən də vəkillərin hüquqi yanaşmasına görə müdafiəçinin bu istintaq hərəkətlərinin aparılmasında iştirakı şübhəli şəxsə elan ediləcək ittihamın məqsədləri üçün toplanan sübutların möhkəmlənməsinə, müdafiə etdiyi şəxsin üzərində narkotik vasitənin aşkar edilməsini, rəsmiləşdirilməsini və götürülməsini bilavasitə müşahidə etdiyi üçün müdafiəçinin, bir növ, cinayət hadisəsinin şahidinə çevrilməsinə xidmət edir, bu isə öz növbəsində təmsil etdiyi şəxsin mənafeləri ilə ziddiyyət təşkil etməsi ilə nəticələnir.

Bu mövqeyin tərəfdarları müdafiəçiyə müdafiə etdiyi şəxsin qanuni mənafeyinə zidd olaraq hər hansı hərəkəti etmək, o cümlədən onun törədilmiş cinayətlə əlaqəsini və təqsirini təsdiq etmək, ona qarşı qaldırılmış mülki iddianı qəbul etmək, onun iştirakı ilə aparılan prosessual hərəkətlərdə iştirakdan imtina etmək və onun hüquqlarının həyata keçirilməsinə mane olmaq, özbaşına müdafiədən imtina etmək və ya müdafiəçi qismində səlahiyyətlərinə xitam verməyin qadağan olunduğunu təsbit edən CPM-nin 92.10.1 və 92.10.3-cü maddələrini əsas gətirirlər.

Bununla da, CPM-nin qeyd olunan maddələrinə istinad edərək, müdafiəçinin təmsil etdiyi şəxsin üzərində şəxsi axtarış, mənzilində və s. ona məxsus olan yerdə axtarış, götürmə istintaq hərəkətlərində iştirak etməklə, sonuncunun üzərində, mənzilində cinayətin predmetinin aşkar edilməsini, rəsmiləşdirilməsini və götürülməsini müşahidə edərək, bunu protokola imza etməklə təsdiq etməsini müdafiə etdiyi şəxsin qanuni mənafeyinə zidd, o cümlədən onun törədilmiş cinayətlə

əlaqəsini və təqsirini təsdiq etmək etmək hərəkəti kimi qiymətləndirirlər.

Eyni zamanda, bu mövqeyin tərəfdarları Məcəllənin 244.2-ci maddəsində müdafiəçinin axtarış və götürmə istintaq hərəkətlərinin aparılmasında iştirakının vəzifə kimi deyil, onun hüququ kimi nəzərdə tutulduğunu bildirirlər.

Digər mövqeyin tərəfdarları, əsasən də, prokurorluq və ibtidai araşdırma orqanlarını təmsil edən hüquqşünaslar vəkillərin gətirdikləri arqumentlərlə razılaşmayaraq, müdafiəçilərin yuxarıda qeyd olunan istintaq hərəkətlərində iştirakdan imtina etməsini CPM-nin 90.7.2, 90.7.9, 92.3.9, 92.10.1 və 92.10.3-cü maddələrinin tələblərinin pozulması kimi qiymətləndirirlər.

Eyni ilə, müdafiəçinin müdafiə etdiyi şəxsin iştirakı ilə aparılan prosessual hərəkətlərdə iştirak etməsi qanunvericiliyin tələbi kimi əsaslandırılır və ona belə hərəkətlərin aparılmasında iştirakdan imtina etmək müdafiə etdiyi şəxsin qanuni mənafeyini qorumaq məqsədi ilə qadağan olunduğu qənaətinə gəlinir. Belə imtinanın müdafiə olunan şəxsin qanuni mənafeyinə və cinayət-prosessual qanunvericiliyinin tələblərinə zidd olmaqla, müdafiəçinin qanunvericiliklə üzərinə qoyulmuş vəzifələrini lazımınca yerinə yetirməməsi kimi qiymətləndirilir.

Bu sahədə vahid istintaq təcrübəsinin formalaşdırılması məqsədilə Azərbaycan Respublikasının Prokurorluğu Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsinə sorğu ilə müraciət edərək, Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin özbaşına müdafiədən və müdafiə etdiyi şəxsin iştirakı ilə aparılan prosessual hərəkətlərdə iştirakdan müdafiəçinin imtinasına dair qadağanı nəzərdə tutan 92.10.1 və 92.10.3-cü maddələrinin, habelə şübhəli və ya təqsirləndirilən şəxs barəsində axtarış və götürmənin aparılmasında müdafiəçinin iştirakının vəzifə deyil, hüquq kimi nəzərdə tutan 244.2-ci maddəsinin şərh edilməsini xahiş etmişdir.

Konstitusiya Məhkəməsi Plenumu sorğuya baxaraq, 28 mart 2019-cu il tarixli qərarında şərh edilməsi xahiş olunan məsələlərə aydınlıq gətirmişdir.

Belə ki, Konstitusiya Məhkəməsi Plenumu belə nəticəyə gəlmişdir ki, Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin 92.10.1 və 92.10.3-cü maddələri ilə həmin Məcəllənin 244.2-ci maddəsi arasında hər hansı ziddiyyət mövcud deyildir.

Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin 244.2-ci maddəsində göstərilmiş axtarış və götürmənin aparılmasında müdafiəçinin iştirak etmək hüququ onun şübhəli və ya təqsirləndirilən şəxsin qanuni mənafeyini qorumaq məqsədi ilə cinayət-prosessual funksiyalarını həyata keçirməsi üçün qanunvericiliklə nəzərdə tutulmuş imkanı ehtiva edir.

Azərbaycan Respublikası Konstitusiyasının 61-ci maddəsi baxımından və Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin 92.10.1-ci maddəsinin tələblərinə müvafiq olaraq, həmin Məcəllənin 244-cü maddəsində nəzərdə tutulmuş axtarış və ya götürmə istintaq hərəkətləri şübhəli və ya təqsirləndirilən şəxsin iştirakı ilə aparıldıqda, müdafiəçi müdafiə etdiyi şəxsin qanuni mənafeyini qorumaq məqsədi ilə həmin prosessual hərəkətlərdə iştirakdan imtina edə bilməz.

Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin 92.10.3-cü maddəsinin "özbaşına müdafiədən imtina etmək" müddəası müdafiəçinin müdafiədən tamamilə imtina etməsi ilə yanaşı, müdafiə prosesinin ayrı-ayrı mərhələlərindən, eləcə də üzrsüz səbəbdən hər hansı prosessual hərəkətlərdə iştirak etməkdən imtina etməsini də ehtiva edir.

Cinayət-Prosessual Məcəlləsinin 92.10.3-cü maddəsinin tələbləri baxımından, həmin Məcəllənin 244-cü maddəsində nəzərdə tutulmuş axtarış və ya götürmə istintaq hərəkətləri şübhəli və ya təqsirləndirilən şəxsin iştirakı olmadan aparıldıqda, müdafiəçi müdafiə etdiyi şəxsin razılığı olmadan həmin prosessual hərəkətlərdə iştirakdan imtina edə bilməz.

Konstitusiya Məhkəməsi Plenumunun qeyd olunan qərarında gəlinən qənaətə baxmayaraq, istintaq təcrübəsində bir sıra hallarda müdafiəçilərin bu qəbildən olan istintaq hərəkətlərində iştirakdan imtina olunması bu cinayət işləri üzrə məhkəmənin hazırlıq iclasında baxılmasına xitam verilməklə CPM-nin 303-cü maddəsinin tələblərinə uyğun olaraq həmin işlərin prokurora qaytarılması ilə nəticələnir.

Belə ki, Bakı Ağır Cinayətlər Məhkəməsinin 26 fevral 2021-ci il tarixli qərarı ilə (sədrlik edən hakim – Eldar İsmayılov) Babayev Elmar Tahir oğlunun Azərbaycan Respublikası CM-nin 234.4.1 və 234.4.3-cü maddəsi ilə təqsirləndirilməsinə dair cinayət işi üzrə təqsirləndirilən şəxsin müdafiə hüququnun pozulması əsası ilə işin baxılmasına xitam verilməklə, həmin iş rayon prokuroruna qaytarılmışdır.

Məhkəmə qərarını digər məsələlərlə yanaşı onunla əsaslandırmışdır ki, 6 sentyabr 2020-ci il tarixdə şübhəli şəxsi qismində tutulmuş Elmar Babayevin üzərində şəxsi axtarış aparılan zaman onun müdafiəçisi bu istintaq hərəkətinin aparılmasında iştirakdan imtina etdiyi üçün iştirak etməmişdir.

Məhkəmənin qənaətincə məhz bu istintaq hərəkətinin nəticələrinə uyğun olaraq Elmar Babayevin üzərində narkotik vasitə aşkar olunduğundan müdafiəçinin iştirakı zəruri olmuşdur.

Bundan əlavə, qeyd olunanların davam olaraq, Elmar Babayevin yaşadığı mənzildə baxış və götürmə aparılarkən, müdafiəçi həmin istintaq hərəkətlərində də iştirak etməmiş, halbuki bu istintaq hərəkətlərinin gedişində cinayət təqibi üçün mühüm əhəmiyyət kəsb edən külli miqdarda narkotik vasitələr aşkar edilərək götürülmüşdür.

Məhz bu hallar, digərləri ilə yanaşı CPM-nin 303-cü maddəsinə əsasən məhkəmə tərəfindən cinayət işinin baxılmasına xitam verilməklə, həmin işin rayon prokuroruna qaytarılmasına əsaslardan biri kimi çıxış etmişdir.

Göründüyü kimi, hüquqşünaslar arasında müdafiə hüququnun reallaşdırılması ilə əlaqədar yaranan bu fikir ayrılığı cinayət işlərinin məhkəmələrdə mahiyyəti üzrə baxılmasında ciddi çətinliklər yaradır.

**Baş Prokurorluğun Elm-Tədris Mərkəzi**

# Prokurorluğun veteranı Mircavan Kazımovun "Azərbaycan Prokurorluğu" elmi-praktiki jurnalına müsahibəsi



**Kazımov Mircavan Rza oğlu 01 iyul 1957-ci il tarixdə Saatlı rayonunun Hacıqasımlı kəndində anadan olmuşdur. 1985-ci ildə Azərbaycan Dövlət Universitetini hüquqşünaslıq ixtisası üzrə bitirmişdir. Əmək fəaliyyətinə 1974-cü ildən başlamış, 1986-cı ildə isə Azərbaycan Respublikasının prokurorluq orqanlarında qulluğa qəbul olunaraq Cəlilabad rayon prokurorunun köməkçisi vəzifəsi üzrə stajor, 1987-ci ildən həmin rayon prokurorunun köməkçisi, 1992-ci ildən rayon prokurorunun müavini vəzifələrində çalışmışdır. 1994-cü ildən Masallı rayon prokuroru, 1999-cu ildən isə Göyçay rayon prokuroru vəzifələrində işlədikdən sonra 2004-2007-ci illərdə Baş Prokurorluğun idarələrində prokuror və böyük prokuror, 2007-ci ildən Baş Prokurorluğun Milli Təhlükəsizlik və Fövqəladə Hallar nazirlikləri, Dövlət Sərhəd Xidmətinin istintaq, təhqiqat və əməliyyat-axtarış fəaliyyətində qanunların icrasına nəzarət idarəsinin rəis müavini, 2010-cu ildən Dövlət ittihamının müdafiəsi üzrə idarəsinin Ağır cinayətlərə dair işlər üzrə Azərbaycan Respublikası Məhkəməsində dövlət ittihamının müdafiəsi üzrə şöbəsinin rəisi - idarə rəisinin müavini vəzifələrində çalışmışdır. 2012-ci ildən Bakı şəhər prokurorluğunun Daxili işlər orqanlarının istintaq, təhqiqat və əməliyyat-axtarış fəaliyyətində qanunların icrasına nəzarət idarəsinin rəisi vəzifəsində xidmət etmişdir. 03 iyul 2017-ci il tarixdə prokurorluqda qulluqda olmanın yaş həddinə çatdığından tutduğu vəzifədən azad olunaraq prokurorluq orqanlarında qulluq keçməsinə xitam verilmişdir.**

**Sual:** "Azərbaycan Prokurorluğu" elmi-praktiki jurnalı ilə müsahibəyə razılıq verdiyiniz üçün Sizə redaksiya heyəti adından təşəkkürümü bildirirəm. Mircavan müəllim, həyatınızın mühüm hissəsi prokurorluq orqanlarında səmərəli və məhsuldar fəaliyyətinizlə bağlı olmuşdur. Bu illər yaddaşınızda necə həkk olunmuşdur?

**Cavab:** Dəvətinizə görə minnətdaram. Bəli, doğru qeyd edirsiniz ki, 64 illik həyatımın 32 ili prokurorluq orqanlarında keçmişdir. Bir də nəzərə alsaq ki, mən prokurorluqda əmək fəaliyyətinə 1986-cı ildə, yəni SSRİ-nin dağılması, Azərbaycanda dövlət müstəqilliyinin formalaşdığı ərəfədə, həm də Cənub bölgəsində, Cəlilabad rayonunda başlamışam, hansı ki, rayonda xalq hərəkatı adı altında özlərini lider hesab edən bir neçə şəxsin Cəlilabad rayonunda törətdikləri özbaşınalıqlar, yanğın, qətl hadisələri, hakimiyyətin ələ keçirilməsi və digər qanun pozuntuları ilə əlaqədar prokurorluğun dövlətçiliyə sadiq, qanunların aliliyinə hörmət, obyektiv, vətəndaşların hüquq və mənafelərini qorumaq istiqamətində fəaliyyəti gənc mütəxəssis kimi mənim yaddaşımda dərin iz buraxmışdır. 1993-cü ilin avqust ayında Lənkəran hadisələrində qondarma Talış-Muğan Respublikasının lideri Ələkrəm Hümbətov tərəfindən həbs edilməyim, ailəmin girov götürülməsinə cəhd edilməsi, lakin Cəlilabadlıların onları rayon mərkəzindən 40 km məsafədə yerləşən kənddə gizlətməsi, Ələkrəm Hümbətovun tərəfdarları tərəfindən törədilən ağır cinayət hadisələri - qətl, insanların girov götürülməsi və s. cinayətlərin istintaqı zamanı istintaq hərəkətlərini yerinə yetirərkən qarşılaşdığım problemlər heç vaxt yadımdan çıxmayacaq.

Həmin dövrdə bu və ya digər məsələlərlə əlaqədar Baş Prokurorluğun rəhbərliyinə məruzələr edilərkən göstərişlər daha çox belə olurdu: şəraitə uyğun hərəkət edin. Çünki həmin vaxt dövlətin əsas sütunlarından biri kimi müstəqilliyin qorunmasında və möhkəmləndirilməsində digər dövlət qurumları kimi prokurorluğun da iş yükü hədindən artıq çox idi.

Qeyd edim ki, məlum olduğu kimi, Ələkrəm Hümbətov və onun tərəfdarları çoxsaylı ağır və xüsusilə ağır cinayət əməllərini törətdiklərinə görə cinayət məsuliyyətinə cəlb edilməklə məhkəmə məsuliyyətinə verilmişlər.

Lakin bütün bu çətinliklərə baxmayaraq həmin illərdə və prokurorluq orqanlarındakı sonrakı fəaliyyətimi

həyatımın ən mənalı günləri hesab etmişəm və bu gün də hesab edirəm. Mənə görə prokurorluq orqanlarında işləmək və bu orqandan rəhbərliyin təltifi ilə təqaüdə çıxmaq çox böyük şərəfdir. Mən bunu bu gün işləyən bütün həmkarlarıma arzu edirəm.



**Sual:** Xidməti fəaliyyətiniz dövründə bir sıra rayonlarda rayon prokuror vəzifəsində işləmiziniz. Prokurorluq orqanlarının kollektivində prinsipial, qanunun aliliyini rəhbər tutan, cinayətkarlığa qarşı mübarizədə barışmaz mövqe sərgiləyən prokuror kimi tanınmısınız. Sizcə müasir dövrün müasir prokuroru hansı keyfiyyətlərə sahib olmalıdır?



**Cavab:** Xoş sözlərinizə görə minnətdaram. Azərbaycan Respublikası Prokurorluğunda işləyənlərin əksəriyyəti dövlətçiliyə sadiqliyi, qanunların aliliyinə hörmət etməsi, savadı, mədəni davranışı, intellektual səviyyəsi, öz üzərinə düşən vəzifənin yerinə yetirilməsi zamanı məsuliyyəti, prinsipiallığı, obyektivliyi, cinayətkarlıqla mübarizədə barışmaz mövqeyi, vətəndaşların hüquq və vəzifələrinin qorunmasında fəallığı ilə həmişə fərqlənmiş və bu gün də fərqlənirlər. Mən bir neçə rayon prokuroru, Baş Prokurorluqda idarə rəisinin müavini, şöbə rəisi, Bakı şəhər prokurorluğunda idarə rəisi işləmiş, hazırda Baş prokuror yanında Elmi-Məsləhət şurasının üzvü, fəxri prokuror işçisi, veteran prokuror kimi müasir prokuror işçilərinin bu və daha yüksək keyfiyyətlərə sahib olmasını arzulayıram.

Mənim aləmimdə prokurorluq orqanlarında işləyən digər şəxslərdən fərqli olaraq prokuror vəzifəsində işləyən şəxs daha yüksək keyfiyyətlərə malik olmalıdır. O öz hərəkəti, intellektual səviyyəsi, mən deyərdim geyiminə, nitq qabiliyyətinə, davranışına, insanlara, işçilərə münasibətinə və s. keyfiyyətlərinə görə hamıya nümunə olmalıdır. Əvvəllər deyərdilər ki, prokuror yetişdirmək çox çətindir. Ona görə əsl prokuror kimi formalaşmış əməkdaşı qorumaq lazımdır. Bu vəzifə insanı formalaşdırır, məsuliyyət hissini artırır. İnsan özü də bu vəzifədə işləməyə hazır olmalıdır.

**Sual:** Xidməti fəaliyyətiniz dövründə qarşılaşdığınız ən mürəkkəb cinayət hadisəsini və xidməti fəaliyyətinizin ən çətin dövrünü necə xatırlayırsınız?

**Cavab:** Hər bir prokuror işçisi kimi xidməti fəaliyyətim dövründə mənim də fəaliyyətimdə çətin vaxtlar, qarşılaşdığım mürəkkəb cinayət hadisələri olmuşdur. Bu müddətdə həyatımda qarşılaşdıgım ən ağır günlər yuxarıda qeyd etdiyim 1989-1990 illərdə Cəlilabad rayonunda baş vermiş hadisələr, qondarma Talış-Muğan respublikası yaradılması istiqamətində Əlakrəm Hümbətov və əlaltılarının qanunsuz hərəkətləri ilə əlaqədar bölgədə yaranmış gərgin vəziyyət olmuşdur. Həmin dövrdə çətinlik ondan ibarət idi ki, SSRİ dağılmış, ölkəmizdə yeni, müstəqil dövlət yaranmış, yeni qanunlar tam qəbul olunmamış, SSRİ dövründə qəbul olunmuş qanunların tətbiq edilməsi barədə göstəriş olsa da, hamı tərəfindən birmənalı qarşılanmırdı. Qeyri-müəyyənlik hökm sürürdü. Prokurorluq işçiləri öz fəaliyyətində prokurorluğun işindən başqa dövlətçiliyin möhkəmləndirilməsi istiqamətində qanunvericiliyin imkan verdiyi, mən deyərdim ki, bəzən qanunsuz işləri də yerinə yetirməyə məcbur olurdular.

Masallı rayon prokuroru vəzifəsində işləyərkən rayonda bir neçə qanunsuz qruplaşmalar var idi ki, onların da arasında ciddi ziddiyyətlər mövcud idi. Hər hansı bir hadisə baş verdiyi halda hər qruplaşma özünə sərf etdiyi istiqamətdə araşdırma aparır və araşdırmanın nəticəsinə uyğun qərarlar qəbul olunmasına calışırdılar. Məqsədlərinə nail olmadıqda kütlə şəklində rayon pro-









kurorluğuna qəbula gəlmək, bu da nəticə vermədikdə təsir vasitəsi kimi mitinqlər, nümayişlər keçirmək yolunu seçirdilər. Belə halların qarşısının alınmasında prokuror və prokurorluğun əməkdaşları həmişə ön sıralarda olmuşdur.

Bu özbaşınalıqlara, qanunsuzluqlara, anarxiyaya Ulu öndər Heydər Əliyevin qəti, məqsədyönlü, prinsipial, qətiyyətli idarəçilik metodları son qoydu. Ölkədə qanunların aliliyi təmin olundu, bütün sahələrdə ictimai münasibətləri tənzimləyən qanunlar qəbul olundu. Ulu öndər Heydər Əliyev və onun layiqli davamçısı Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin həyata keçirdiyi məqsədyönlü tədbirlər nəticəsində digər dövlət qurumları kimi dövlətin əsas sütunlarından biri olan Azərbaycan Respublika Prokurorluğu da tam şəkildə formalaşdı. Artıq bu və ya digər hadisə barədə Baş Prokurorluğa məruzə edərkən "şəraitə uyğun hərəkət et" əvəzinə qanuni, ədalətli, obyektiv göstərişlər verilir.

Masallı rayon prokuroru və Baş Prokurorluğun Dövlət ittihamının müdafiəsi üzrə idarəsinin Ağır cinayətlər məhkəmələrində dövlət ittihamının müdafiəsi üzrə şöbəsinin rəisi vəzifəsində işləyərkən daha mürəkkəb cinayət işlərinin araşdırılması və məhkəmə baxışında ittihamın müdafiəsini təşkil edərkən müəyyən çətinliklərə qarşılaşmışam.

Masallı rayon polis şöbəsinin "xaş-xaş 95" tədbirlər planına uyğun olaraq keçirilmiş tədbir zamanı böyük bir sahəni əhatə edən ərazidə əkilmiş külli miqdarda narkotik vasitə aşkar edildi. Tədbir zamanı cinayətkarlarla polis arasında atışma oldu və cinayətkarlardan biri məhv edildi. Ona görə də başlanmış cinayət işinin istintaqı rayon prokurorluğunda aparılırdı. İstintaq zamanı 11 nəfərə qədər şəxs barəsində cinayət işləri məhkəmələrə göndərilmiş, hər bir təqsirləndirilən şəxs barəsində qanuni hökm çıxarılmışdır. İstintaqın gedişində rayonda olan qruplar arasında gərginlik yarandı və burada hədəf kimi rayon prokurorluğu və polis şöbəsinin həmin cinayət işi üzrə guya obyektiv istintaq aparılmaması, bəzi şəxslərə himayədarlıq edilməsi göstərildi və bununla əlaqədar respublikanın mərkəzi orqanlarına deputatlar və digər vətəndaşlardan çoxlu sayda kollektiv ərizələr göndərildi. Cinayət işi Baş Prokurorluğun İstintaq idarəsinin icraatına götürüldü. DİN və digər hüquq mühafizə orqanlarının əməkdaşlarından ibarət istintaq-əməliyyat qrupu yaradıldı. Bir ilə yaxın istintaq aparıldı. Əvvəllər Rusiya Federasiyası prokurorluq orqanlarında da zəngin nəzəri və praktiki iş təcrübəsi olan İstintaq qrupunun rəhbərinin obyektivliyi, prinsipiallığı, işgüzarlığı, peşəkarlığı, qanunun aliliyini rəhbər

tutması nəticəsində həmin cinayət işi üzrə "işin icraatının dayandırılması barədə" qərardan başqa heç bir prosessual qərar və ya məhkəmə hökmü ləğv edilmədi. İş üzrə tam obyektiv nəticəyə gəlinməsi üçün İstintaq qrupunun rəhbəri xüsusi geyim formasında nəqliyyat vasitələrinin hərəkəti qeyri-mümkün olan, çətin relyefə malik Talış dağlarında yerləşən müxtəlif hadisə yerlərini bir aydan artıq müddətdə piyada hərəkət etməklə tam müayinə etmiş, digər zəruri istintaq hərəkətlərini şəxsən icra etmişdir. Obyektiv qənaətə gəlindikdən sonra cinayət işi istintaqın davam etdirilməsi üçün rayon prokurorluğuna qaytarıldı. İstintaq-əməliyyat qrupunun rəhbəri bu gün prokurorluq orqanlarında yüksək vəzifədə işlədiyi üçün onun adını qeyd etmirəm. Bir onu deyə bilərəm ki, istintaq qrupunun rəhbəri iş üzrə obyektiv, qanuni qərarlar qəbul edilməsi üçün çox əziyyət çəkdi. Ona görə mən həyatım boyu həmin şəxsə minnətdar olmuşam və olacağam. Amma bu bir illik istintaq mənim üçün təsirsiz ötüşməyərək, səhhətimə ciddi zərər vurdu.

**Sual:** Övladlarınızın öz xidməti fəaliyyətlərində yolunuzu davam etdirməklərini arzulamısınızmı?




**Cavab:** Bəli, böyük oğlum Bakı Dövlət Universitetinin hüquq fakültəsini fərqlənmə diplomu ilə bitirdi. O, universiteti bitirdiyi dövrdə mən prokurorluqda işləyirdim. Təqaüdə çıxmağıma da çox müddət qalmışdı. Ona görə də həmin dövrdə prokurorluq orqanlarına işə qəbulla əlaqədar tətbiq olunan qaydalara uyğun olaraq o, sənədlərini prokurorluğa deyil, daxili işlər orqanlarına verdi. Hazırda da həmin qurumda məsul vəzifələrdən birində çalışır. Əlbəttə mən arzu edərdim ki, övladlarımdan hər hansı biri xidməti fəaliyyətində mənim yolumu davam etdirsin.

**Sual:** Məlum olduğu kimi, dövlət başçısı cənab ilham Əliyevin siyasi iradəsinə uyğun olaraq son bir il prokurorluq orqanlarında yeni dövrün çağırışlarından irəli gələn tam və hərtərəfli islahatların aparılması ilə müşayiət edilmişdir. Zəngin həyat və iş təcrübəsi olan prokurorluğun veteranı kimi həyata keçirilən islahatlara münasibətiniz necədir?

**Cavab:** Mən yuxarıda qeyd etdiyim kimi, ömrümün yarısı prokurorluq orqanlarında keçmişdir. Mən bu gün veteran olsam da, yenə də özümü prokurorluq işçilərinin sırasında hesab edirəm. Prokurorluğun müvəffəqiyyətlərinə sevinir, problemlərinə kədərlənirəm. Dövlət başçısı cənab İlham Əliyevin siyasi iradəsinə uyğun olaraq son bir ildə prokurorluq orqanlarında aparılan tam və hərtərəfli islahatları yüksək qiymətləndirir və bir veteran kimi alqışlayıram. Tam məsuliyyətimlə deyə bilərəm Baş prokuror cənab Kamran Əliyevin rəhbərliyi altında prokurorluğun əməkdaşları öz işlərini ölkə başçısının onların qarşısında qoyduğu tələblərə uyğun qurur. Prokurorluğun bütün fəaliyyət istiqamətləri üzrə həyata keçirilən bu islahatlar ən mühüm dövlət təsisatlarından biri kimi mənə doğma olan prokurorluq orqanlarını cəmiyyətimizdə və onun tərkibi hissəsi kimi hüquq sistemində nüfuzunu və rolunu daha da artırmışdır.



**Sual:** Cari ilin martın 16-da Baş prokuror cənab Kamran Əliyevin iştirakı ilə prokurorluq əməkdaşları və veteranları üçün inşa edilmiş yaşayış kompleksinin açılış mərasimi baş tutmuşdur. Siz "Qayğı" mənzil-tikinti kooperativinin sədri kimi fəaliyyətinizi davam etdirirsiniz. Prokurorluq işçilərinə dövlət qayğısı barədə nə deyə bilərsiniz?

**Cavab:** Prokurorluq işçilərinə dövlət qayğısının əsası Ulu öndər Heydər Əliyevin ölkəyə rəhbərlik etdiyi dövrdən qoyulmuş və Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən davam etdirilir. Cari ilin fevral ayında prokurorluq işçiləri üçün yeni inzibati binalar kompleksinin istifadəyə verilməsi, maddi-texniki bazanın daim təkmilləşdirilməsi, əmək haqqına əlavələrin edilməsi, eləcə də prokurorluq işçilərinin sosial müdafiəsinin gücləndirilməsi, iş şəraitinin yaxşılaşdırılması istiqamətində həyata keçirilən digər tədbirlər prokurorluq işçilərinə dövlət qayğısının təzahürüdür. Prokurorluq işçilərinə dövlət qayğısının nümunələrindən biri də "Qayğı" mənzil-tikinti kooperativinin yaradılmasıdır. Kooperativin fəaliyyətinin məqsədi Azərbaycan Respublikası Prokurorluğu işçilərinin mənzilə olan ehtiyacının ödənilməsi və yaşayış şəraitinin yaxşılaşdırılması üçün prokurorluq işçilərinin əmlak pay haqlarını könüllü birləşdirmək yolu ilə onların mənzil sahəsinə tələbatının təmin edilməsi olmuşdur. Qeyd edim ki, kooperativin əsasının 12 il əvvəl qoyulmasına və tikinti işlərinin həmin dövrdə başlanmasına baxmayaraq, yaşayış binasının tikintisində uzun müddət ciddi fasilələr yaranmışdır. Kooperativin üzvü olan prokurorluq işçiləri və veteranlar mənə etdikləri çoxsaylı müraciətlərində yaşayış binasının tikintisində yaranan bu fasilənin onları ciddi narahat etdiyini mənə dəfələrlə bildirmişlər. Məhz Baş prokuror kimi cənab Kamran Əliyevin müdaxiləsindən və ciddi tapşırıqlarından sonra bu məsələlərdə əsaslı dönüş yaranmış, tikinti işləri qısa müddət ərzində yekunlaşdırılaraq, onlarla ailənin sevincinə səbəb olmuşdur. Həmin kooperativin sədri kimi mən yeni dövrün tələblərindən irəli gələn vəzifələri dəqiq bilirəm və prokurorluq əməkdaşlarının, veteranların və onların ailələrinin mənzil şəraitinin daim yaxşı olması üçün əlimdən gələni edəcəyəm.

**Sual:** Ənənəvi sualımızı vermək istərdik. Xidməti fəaliyyətinizlə bağlı ən yüksək nailiyyət nəyi hesab edirsiniz?

**Cavab:** İşlədiyim dövrdə nailiyyətlərim çox olub. O vaxt üçün çətin olmasına baxmayaraq 36 yaşında böyük bir rayona prokuror təyin olunmağımı, vaxtından əvvəl rütbə almağımı, xüsusilə ağır cinayətlərin qısa müddətdə açılmasını, istintaqının yüksək keyfiyyətlə başa çatdırılmasını, Baş Prokurorluqda yüksək vəzifələrdə işləməyimi və s. xidməti fəaliyyətimdə yüksək nailiyyət hesab edirəm.

Xidməti fəaliyyət dövründə bunların xüsusi yeri olur. Amma prokurorluq işçisi təqaüdə çıxdıqdan sonra Baş Prokurorluğun rəhbərliyinin onu yada salmasını özü üçün ən yüksək nailiyyət hesab edir. Xatırlanıram. Təqaüdə çıxdıqdan sonra Baş prokuror yanında Elmi-Məsləhət şurasına üzv seçilməyim, prokurorluğun peşə bayramı ərəfəsində veteranlarla görüş keçirilməsi, bu görüşə mənim dəvət edilməyim, çıxış üçün şərait yaradılması mənim üçün ən böyük nailiyyətdir.

Fürsətdən istifadə edərək mənə doğma olan Azərbaycan Respublikası Prokurorluğunun böyük kollektivinin hər bir üzvünə möhkəm can sağlığı, şərəfli fəaliyyətlərində müvəffəqiyyətlər arzu edirəm.

**"Azərbaycan Prokurorluğu"**
**elmi-praktiki jurnalın redaksiya heyəti**

**AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU**

## «Azərbaycan Respublikasının Şəhərsalma və Tikinti Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə haqqında» Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 10-cu və 24-cü bəndlərini rəhbər tutaraq **qərara alır:**

«Azərbaycan Respublikasının Şəhərsalma və Tikinti Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə haqqında» Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2012, № 9, maddə 838; 2016, № 2, II kitab, maddə 215; 2017, № 2, maddə 154; 2018, № 2, maddə 164; 2019, № 1, maddə 39; 2020, № 4, maddə 391) 2.2-ci maddəsində «8 il» sözləri «11 il» sözləri ilə əvəz edilsin.

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 1 fevral 2021-ci il
№ 259-VIQD

**AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU**

## "Sahibkarlıq sahəsində aparılan yoxlamaların dayandırılması haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 1-ci bəndini rəhbər tutaraq **qərara alır:**

**Maddə 1.** "Sahibkarlıq sahəsində aparılan yoxlamaların dayandırılması haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015, № 10, maddə 1109; 2017, № 11, maddə 1973; 2018, № 11, maddə 2232, № 12 (I kitab), maddə 2520; 2019, № 2, maddə 202, № 6, maddə 1006; 2020, № 3, maddə 224) aşağıdakı dəyişikliklər edilsin:

**1.1.** 1-ci maddədə "2021" rəqəmləri "2022" rəqəmləri ilə əvəz edilsin;

**1.2.** aşağıdakı məzmunda 2.1-1-ci maddə əlavə edilsin:

**"2.1-1.** Bu Qanunun 1-ci maddəsində nəzərdə tutulmuş müddət başa çatdıqdan sonra yoxlayıcı orqanlar tərəfindən sahibkarların yoxlamaların dayandırıldığı dövrdəki fəaliyyəti ilə bağlı plan üzrə (növbəti) və plandankənar (növbədənkənar) yoxlamalar (bu Qanunun 2.1-ci maddəsində göstərilən yoxlamalar istisna olmaqla) aparıla bilməz.".

**Maddə 2.** Bu Qanun 2021-ci il yanvarın 1-dən tətbiq edilir.

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 9 mart 2021-ci il.

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

### «Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi barədə» Azərbaycan Respublikasının 2020-ci il 26 noyabr tarixli 208-VIQD nömrəli Qanununun tətbiqi və Azərbaycan Respublikası Prezidentinin «Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin təsdiq edilməsi haqqında» Azərbaycan Respublikasının 2015-ci il 29 dekabr tarixli 96-VQ nömrəli Qanununun tətbiqi barədə» 2016-cı il 15 fevral tarixli 795 nömrəli, «Rayon (şəhər) məhkəmələrinin baxdığı inzibati xətalar haqqında işlər üzrə protokol tərtib etmək səlahiyyəti olan vəzifəli şəxslərin Siyahısı»nın təsdiq edilməsi barədə» 2017-ci il 3 may tarixli 1361 nömrəli fərmanlarında dəyişiklik edilməsi haqqında

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, «Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi barədə» Azərbaycan Respublikasının 2020-ci il 26 noyabr tarixli 208-VIQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

**1.** «Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin təsdiq edilməsi haqqında» Azərbaycan Respublikasının 2015-ci il 29 dekabr tarixli 96-VQ nömrəli Qanununun tətbiqi barədə» Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 15 fevral tarixli 795 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 2 (II kitab), maddə 259, № 3, maddə 460, № 4, maddə 670, № 6, maddələr 1025, 1063, № 7, maddə 1272, № 9, maddə 1468, № 10, maddələr 1614, 1638; 2017, № 2, maddələr 176, 202, № 3, maddə 351, № 4, maddələr 530, 537, № 6, maddə 1101, № 7, maddələr 1314, 1346, № 8, maddə 1521, № 9, maddə 1637, № 10, maddələr 1788, 1798, № 11, maddələr 2003, 2027, № 12 (I kitab), maddələr 2290, 2320; 2018, № 1, maddə 36, № 2, maddələr 198, 201, № 3, maddələr 418, 428, 443, 445, № 5, maddələr 914, 918, 926, 955, № 6, maddələr 1225, 1234, № 7 (I kitab), maddələr 1465, 1477, 1494, 1504, № 8, maddələr 1678, 1697, № 9, maddə 1840, № 11, maddələr 2244, 2256, 2273, 2289, № 12 (I kitab), maddələr 2541, 2566, 2573, 2610; 2019, № 1, maddələr 52, 68, № 3, maddə 426, № 4, maddələr 602, 630, № 5, maddələr 825, 846, 852, № 6, maddələr 1035, 1046, № 8, maddələr 1395, 1401, № 11, maddə 1700; 2020, № 3, maddələr 238, 240, 241, № 5, maddələr 540, 564, № 6, maddələr 691, 709, № 7, maddələr 863, 880, 884, № 8, maddələr 1027, 1032, № 9, maddə 1155; Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 24 noyabr tarixli 1190 nömrəli Fərmanı) 5.11-ci bəndində «275» rəqəmləri «275.1 — 275.3» rəqəmləri ilə əvəz edilsin.

**2.** Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 3 may tarixli 1361 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 5, maddə 765, № 9, maddə 1650, № 10, maddə 1789, № 12 (I kitab), maddələr 2314, 2321; 2018, № 1, maddə 54, № 2, maddələr 200, 219, № 3, maddələr 416, 430, 448, № 5, maddələr 916, 919, № 6, maddə 1243, № 9, maddələr 1828, 1840, № 11, maddələr 2274, 2289, № 12 (I kitab), maddələr 2540, 2587, 2601; 2019, № 1, maddə 82, № 2, maddə 216, № 3, maddə 431, № 4, maddə 620, № 5, maddələr 819, 824, 835, 866, № 7, maddə 1221, № 8, maddə 1388, № 10, maddələr 1581, 1587, № 11, maddələr 1700, 1710; 2020, № 3, maddə 252; № 5, maddələr 538, 564, № 6, maddələr 710, 714, № 7, maddələr 865, 880, № 8, maddə 1032; Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 12 noyabr tarixli 1176 nömrəli Fərmanı) ilə təsdiq edilmiş «Rayon (şəhər) məhkəmələrinin baxdığı inzibati xətalar haqqında işlər üzrə protokol tərtib etmək səlahiyyəti olan vəzifəli şəxslərin Siyahısı»na aşağıdakı məzmunda 22-1-ci hissə əlavə edilsin:

**«22-1.** Məcəllənin 275.4-cü və 275.5-ci maddələrində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlər üzrə protokol:

**22-1.1.** polietilen torbaların, birdəfəlik istifadə üçün nəzərdə tutulan plastik qarışdırıcı çubuq, çəngəl, qaşıq, bıçaq, boşqab və stəkanların idxalına münasibətdə:

**22-1.1.1.** inzibati xətanı aşkar etmiş Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi adından — bu Siyahının 46.1-ci bəndində nəzərdə tutulan vəzifəli şəxslər;

**22-1.1.2.** inzibati xətanı aşkar etmiş Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi adından — bu Siyahının 19-cu hissəsində nəzərdə tutulan vəzifəli şəxslər;

**22-1.2.** polietilen torbaların, birdəfəlik istifadə üçün nəzərdə tutulan plastik qarışdırıcı çubuq, çəngəl, qaşıq, bıçaq, boşqab və stəkanların istehsalına münasibətdə:

**22-1.2.1.** inzibati xətanı aşkar etmiş Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi adından — bu Siyahının 8.1-ci bəndində nəzərdə tutulan vəzifəli şəxslər;

**22-1.2.2.** inzibati xətanı aşkar etmiş Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi adından — bu Siyahının 19-cu hissəsində nəzərdə tutulan vəzifəli şəxslər;

**22-1.3.** polietilen torbaların, birdəfəlik istifadə üçün nəzərdə tutulan plastik qarışdırıcı çubuq, çəngəl, qaşıq, bıçaq, boşqab və stəkanların istehlakçıya satılmasına və ya verilməsinə münasibətdə Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi adından — bu Siyahının 8.1-ci bəndində nəzərdə tutulan vəzifəli şəxslər.».

**3.** Azərbaycan Respublikasının Nazirlər Kabineti «Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi barədə» Azərbaycan Respublikasının 2020-ci il 26 noyabr tarixli 208-VIQD nömrəli Qanunundan irəli gələn məsələləri həll etsin.

**4.** Bu Fərmanın müddəaları polietilen torbalara münasibətdə 2021-ci il yanvarın 1-dən, birdəfəlik istifadə üçün nəzərdə tutulan plastik qarışdırıcı çubuq, çəngəl, qaşıq, bıçaq, boşqab və stəkanlara münasibətdə isə 2021-ci il iyulun 1-dən qüvvəyə minir.

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 30 dekabr 2020-ci il
№ 1222

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

### Azərbaycan Respublikasının «Vətən Müharibəsi Qəhrəmanı» adı verilmiş şəxslərə Azərbaycan Respublikası Prezidentinin təqaüdünün təsis edilməsi haqqında

Azərbaycan Respublikasının işğal olunmuş ərazilərinin azad olunması zamanı düşmənin əlverişli ərazilərdə yerləşməsinə və inadlı müqavimətinə baxmayaraq, düşmən qüvvələrinin tam məğlub edilməsi üzrə qarşıya qoyulmuş döyüş tapşırıqlarına və Azərbaycan Respublikasının dövlət sərhədinin bərpa edilməsi üzrə döyüş əməliyyatlarına yüksək peşəkarlıqla rəhbərlik edilməsinə, həmçinin döyüş əməliyyatlarında göstərdiyi şəxsi qəhrəmanlığa görə bir sıra şəxslər «Vətən Müharibəsi Qəhrəmanı» adına layiq görülmüşlər.Azərbaycan Respublikasının «Vətən Müharibəsi Qəhrəmanı» adı verilmiş şəxslərə və onların ailə üzvlərinə dövlət qayğısını artırmaq məqsədilə **qərara alıram:**

**1.** Azərbaycan Respublikasının «Vətən Müharibəsi Qəhrəmanı» adı verilmiş şəxslərə Azərbaycan Respublikası Prezidentinin təqaüdü təsis edilsin və onun aylıq məbləği 2000 (iki min) manat müəyyən olunsun.

**2.** Müəyyən edilsin ki, bu Fərmanın 1-ci hissəsinə əsasən təsis edilən Azərbaycan Respublikası Prezidentinin təqaüdü:

**2.1.** ölümündən sonra verildikdə və ya həmin ad verilmiş şəxs sonradan vəfat etdikdə, həmin şəxsin aşağıda göstərilən ailə üzvlərinə (təqaüd məbləği onların sayına bərabər məbləğdə bölünməklə) ödənilir:

**2.1.1.** dul arvadına (ərinə), valideynlərinə;

**2.1.2.** 18 yaşına çatmamış (peşə təhsili, orta ixtisas təhsili, ali təhsil müəssisələrində və Azərbaycan Milli Elmlər Akademiyasının magistratura səviyyəsində təhsil alanlara isə həmin təhsil müəssisələrini və elmi təşkilatın magistratura səviyyəsini bitirənədək, lakin ən çoxu 23 yaşına çatanadək), yaxud 18 yaşına çatanadək sağlamlıq imkanlarının məhdudluğu müəyyən olunmuş 18 yaşından yuxarı əlilliyi olan övladlarına, uşaq evlərində tərbiyə olunan qardaş və bacılarına;

**2.1.3.** birinci növbədən digər qohumları olmayan baba və nənələrinə;

**2.2.** dövlət büdcəsində Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə nəzərdə tutulmuş xərclər hesabına həmin nazirlik tərəfindən ödənilir.

**3.** Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Fərmandan irəli gələn digər məsələləri həll etsin.

**4.** Bu Fərmanın 1-ci və 2-ci hissələri 2021-ci il yanvarın 1-dən qüvvəyə minir.

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 30 dekabr 2020-ci il
№ 1226

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

### Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 3 may tarixli 1361 nömrəli Fərmanı ilə təsdiq edilmiş «Rayon (şəhər) məhkəmələrinin baxdığı inzibati xətalar haqqında işlər üzrə protokol tərtib etmək səlahiyyəti olan vəzifəli şəxslərin Siyahısı»nda dəyişiklik edilməsi barədə

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 3 may tarixli 1361 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 5, maddə 765, № 9, maddə 1650, № 10, maddə 1789, № 12 (I kitab), maddələr 2314, 2321; 2018, № 1, maddə 54, № 2, maddələr 200, 219, № 3, maddələr 416, 430, 448, № 5, maddələr 916, 919, № 6, maddə 1243, № 9, maddələr 1828, 1840, № 11, maddələr 2274, 2289, № 12 (I kitab), maddələr 2540, 2587, 2601; 2019, № 1, maddə 82, № 2, maddə 216, № 3, maddə 431, № 4, maddə 620, № 5, maddələr 819, 824, 835, 866, № 7, maddə 1221, № 8, maddə 1388, № 10, maddələr 1581, 1587, № 11, maddələr 1700, 1710; 2020, № 3, maddə 252, № 5, maddələr 538, 564, № 6, maddələr 710, 714, № 7, maddələr 865, 880, № 8, maddə 1032; Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 12 noyabr tarixli 1176 nömrəli və 30 dekabr tarixli 1222 nömrəli fərmanları) ilə təsdiq edilmiş «Rayon (şəhər) məhkəmələrinin baxdığı inzibati xətalar haqqında işlər üzrə protokol tərtib etmək səlahiyyəti olan vəzifəli şəxslərin Siyahısı»nın 18-1-ci hissəsində «bölmələrin rəhbərləri» sözləri «bölmənin rəhbəri, onun müavini, sektor müdiri, baş məsləhətçi, böyük məsləhətçi, aparıcı məsləhətçi, məsləhətçi» sözləri ilə əvəz edilsin.

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 28 yanvar 2021-ci il.
№ 1263

**AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI**

## «Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəlikləri haqqında Əsasnamə»nin təsdiq edilməsi haqqında

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq qərara alıram:

1. «Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəlikləri haqqında Əsasnamə» təsdiq edilsin (əlavə olunur).

2. Mərkəzi və yerli icra hakimiyyəti orqanları və dövlət qurumları Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəliyi təşkil edilmiş müvafiq ərazilərdə fəaliyyətlərini Azərbaycan Respublikası Prezidentinin müvafiq ərazidəki xüsusi nümayəndəsi ilə əlaqələndirilmiş qaydada həyata keçirirlər.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Fərmandan irəli gələn məsələləri həll etsin.

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 4 fevral 2021-ci il
№ 1280

*Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 4 fevral tarixli 1280 nömrəli Fərmanı ilə təsdiq edilmişdir*

## Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəlikləri haqqında

## ƏSASNAMƏ

### 1. Ümumi müddəalar

**1.1.** Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəliyi (bundan sonra — xüsusi nümayəndəlik) işğaldan azad olunmuş ərazilərdə bu Əsasnamə ilə müəyyən edilmiş vəzifələri yerinə yetirən Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının struktur bölməsidir.

**1.2.** Xüsusi nümayəndəlik öz fəaliyyətində Azərbaycan Respublikasının Konstitusiyasını, Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələri, Azərbaycan Respublikasının qanunlarını, Azərbaycan Respublikası Prezidentinin fərman və sərəncamlarını, bu Əsasnaməni və digər normativ hüquqi aktları rəhbər tutur.

**1.3.** Xüsusi nümayəndəlik öz vəzifələrini yerinə yetirərkən və hüquqlarını həyata keçirərkən dövlət orqan və qurumları ilə qarşılıqlı əlaqədə fəaliyyət göstərir.

**1.4.** Xüsusi nümayəndəlik fəaliyyətini Azərbaycan Respublikası Prezidentinin müəyyən etdiyi inzibati ərazi vahidində və ya onun hissələrində (bundan sonra — müvafiq ərazi) həyata keçirir və onun səlahiyyətləri həmin ərazi ilə məhdudlaşır. Xüsusi nümayəndəlik müvafiq ərazidə yerləşir.

### 2. Xüsusi nümayəndəliyin fəaliyyət istiqamətləri

**2.1.** Xüsusi nümayəndəliyin fəaliyyət istiqamətləri aşağıdakılardır:

**2.1.1.** müvafiq ərazinin müəyyən edilmiş hədəflərə uyğun olaraq inkişafını təmin etmək;

**2.1.2.** müvafiq ərazinin perspektiv inkişafı ilə bağlı hədəflərə nail olunması məqsədilə dövlət orqanlarının (qurumlarının), onların yerli bölmələrinin fəaliyyətini əlaqələndirmək;

**2.1.3.** müvafiq ərazidə mülkiyyətin mühafizəsini, dövlət əmlakından səmərəli istifadəni, habelə sahibkarlıq, şəhərsalma, tikinti və digər sahələrdə fəaliyyətin həyata keçirilməsini təşkil etmək;

**2.1.4.** Azərbaycan Respublikası Prezidentinin müəyyən etdiyi digər istiqamətlərdə fəaliyyət göstərmək.

### 3. Xüsusi nümayəndəliyin vəzifələri və hüquqları

**3.1.** Xüsusi nümayəndəliyin vəzifələri aşağıdakılardır:

**3.1.1.** müvafiq ərazinin perspektiv inkişafı ilə bağlı hədəflərə nail olunması məqsədilə dövlət orqanlarının (qurumlarının), onların yerli bölmələrinin, digər təşkilatların müvafiq ərazidə əlaqələndirilmiş fəaliyyətini təmin etmək;

**3.1.2.** müvafiq ərazi üzrə əhalinin yaşayış yerlərinə qayıtması və məskunlaşması üçün zəruri təhlükəsizlik, iqtisadi, sosial, kommunal və digər tədbirlər planları layihələrinin hazırlanmasında iştirak etmək və təsdiq olunmuş planların icrasına nəzarət etmək;

**3.1.3.** müvafiq ərazidə əhalinin rifahının yaxşılaşdırılmasına nail olunması üçün müvafiq dövlət proqramları layihələrinin hazırlanmasında və təsdiq edilmiş proqramların icrasına nəzarətdə iştirak etmək;

**3.1.4.** müvafiq ərazidə mülkiyyətin, o cümlədən dövlət əmlakının mühafizəsi istiqamətində tədbirlər görülməsini təşkil etmək və onların icrasına nəzarət etmək;

**3.1.5.** müvafiq ərazidə infrastruktur obyektlərinin, torpaq sahələrinin və digər daşınmaz əmlak obyektlərinin ilkin inventarlaşdırılmasının təşkilinə nəzarət etmək;

**3.1.6.** müvafiq ərazidə mülkiyyətə, o cümlədən dövlət əmlakına zərər vurulmasının qarşısının alınması, vurulmuş zərər ilə əlaqədar əvvəlki vəziyyətin bərpası, zərərin əvəzinin ödənilməsi və digər tədbirlər barədə dövlət orqanları (qurumları) qarşısında məsələ qaldırmaq;

**3.1.7.** müvafiq ərazi hüdudlarında dövlət və bələdiyyə mülkiyyətində olan torpaqların mülkiyyətə və ya istifadəyə, icarəyə verilməsinin müvafiq ərazinin perspektiv inkişafı ilə bağlı hədəflərə uyğunluğunu yoxlamaq, dövlət və bələdiyyə mülkiyyətində olan torpaqların səmərəli istifadəsi və mühafizəsi üçün zəruri tədbir görülməsi ilə bağlı aidiyyəti dövlət orqanları (qurumları), bələdiyyə qarşısında məsələ qaldırmaq;

**3.1.8.** müvafiq ərazidə kənd təsərrüfatı üçün yararlı torpaqların və onların keyfiyyət göstəricilərinin müəyyən-

ləşdirilməsi, kənd təsərrüfatı texnikası və istehsal vasitələrinin, heyvandarlıq məqsədləri üçün saxlanılan heyvanların uçotunun aparılması, saxlanılması, mühafizəsi, fitosanitar və epizootik vəziyyətin ilkin qiymətləndirilməsi işlərinə nəzarət etmək;

**3.1.9.** müvafiq ərazidə ayrı-ayrı əşyaların mülki dövriyyədən çıxarılması və ya onların mülki dövriyyəsinin məhdudlaşdırılması ilə bağlı məsələ qaldırmaq;

**3.1.10.** sahibkarlıq fəaliyyəti subyektlərinin müvafiq ərazidə həyata keçirdikləri və ya təqdim etdikləri biznes layihələrinin müvafiq ərazinin perspektiv inkişafı ilə bağlı hədəflərə uyğunluğunu yoxlamaq və müvafiq tədbirlər görmək;

**3.1.11.** müvafiq ərazidə şəhərsalma, memarlıq və tikinti sahələrində dövlət siyasətinin effektiv həyata keçirilməsində iştirak etmək, habelə yerli səviyyədə şəhərsalma nəzarətini təşkil etmək;

**3.1.12.** müvafiq ərazidə milli memarlıq ənənələrinin qorunub saxlanılmasına, tarixi və təbii landşaftın qorunmasına, inkişaf etdirilməsinə, memarlıq üslubuna riayət edilməsinin təmin olunmasına, landşaft və ya məkan görünüşündən səmərəli istifadə ilə bağlı tələblərin yerinə yetirilməsinə nəzarət etmək;

**3.1.13.** müvafiq ərazidə tarix və mədəniyyət obyektlərinin (abidələrinin və müəssisələrinin) ilkin inventarlaşdırılmasına və mühafizəsinə nəzarət etmək;

**3.1.14.** müvafiq ərazidə tikinti layihələrinin, tikinti, tikinti-quraşdırma, bərpa, yenidənqurma, abadlaşdırma və digər bu kimi işlərin müvafiq ərazinin perspektiv inkişafı ilə bağlı hədəflərə uyğunluğunu yoxlamaq və müvafiq tədbirlər görmək;

**3.1.15.** müvafiq ərazidə ətraf mühitin qorunması, topoqrafiya və xəritəçəkmə işlərinin aparılması, təbii sərvətlərdən səmərəli istifadə məqsədilə onların ilkin qiymətləndirilməsi və mühafizəsi işlərini təşkil etmək;

**3.1.16.** müvafiq ərazidə təxirəsalınmaz tibbi yardımla təminedilmə və digər zəruri təxirəsalınmaz tibb xidmətlərinin göstərilməsi vəziyyətini qiymətləndirmək və bu barədə aidiyyəti üzrə məlumat vermək;

**3.1.17.** müvafiq ərazidə istehsalat və məişət tullantılarının yığılması, daşınması və zərərsizləşdirilməsi işini təşkil etmək, icazəsiz tullantı yerlərinin ləğv edilməsi üçün tədbirlər görmək, tullantılarla davranma qaydaları barədə məlumatlandırılmanı təmin etmək;

**3.1.18.** müvafiq ərazidə nəqliyyat və yol infrastrukturunun inkişafı, mənzil-kommunal təsərrüfatı sahəsində dövlət siyasətinin həyata keçirilməsində iştirak etmək;

**3.1.19.** müvafiq ərazidə zəruri rabitə şəbəkəsinin qurulmasına, dövlət orqanları (qurumları) əməkdaşlarının xüsusi rabitə ilə təmin olunmasına nəzarət etmək;

**3.1.20.** müvafiq ərazi üzrə ictimai təhlükəsizliyin və ictimai qaydanın qorunmasının təmin edilməsinə, mühüm obyektlərin təhlükəsizliyinin təmini üçün tədbirlərin həyata keçirilməsinə nəzarət etmək;

**3.1.21.** müvafiq ərazidə hərəkət rejiminin tənzimlənməsi işini təşkil etmək, bu sahədə əlaqələndirməni həyata keçirmək;

**3.1.22.** zərurət olduqda, müvafiq əraziyə giriş-çıxışın xüsusi rejimini müəyyənləşdirmək və həmin rejimin tətbiqini müvafiq ərazinin komendantı vasitəsilə təmin etmək;

**3.1.23.** müvafiq ərazidə minatəmizləmə və minaların zərərsizləşdirilməsi işlərinin aparılmasına nəzarət etmək;

**3.1.24.** müvafiq ərazidə energetika qurğularının, o cümlədən hidrotexniki qurğuların vəziyyətinin ilkin qiymətləndirilməsinin aparılmasını, yanğınların, təbii fəlakətlərin və texnogen qəzaların nəticələrinin aradan qaldırılmasını və müvafiq mülki müdafiə tədbirlərinin yerinə yetirilməsini təşkil etmək;

**3.1.25.** Azərbaycan Respublikası Prezidentinin qəbul etdiyi qərarların dövlət orqanları (qurumları) tərəfindən müvafiq ərazidə həyata keçirilməsi vəziyyətini qiymətləndirmək və bununla bağlı aidiyyəti üzrə məlumat vermək;

**3.1.26.** müvafiq ərazidə Azərbaycan Respublikası Prezidentinin həvalə etdiyi digər vəzifələri həyata keçirmək.

**3.2.** Öz vəzifələrini yerinə yetirmək üçün xüsusi nümayəndəliyin hüquqları aşağıdakılardır:

**3.2.1.** xüsusi nümayəndəliyə həvalə edilmiş vəzifələrin icrası ilə bağlı aidiyyəti dövlət orqanları (qurumları) qarşısında məsələ qaldırmaq;

**3.2.2.** müvafiq ərazi ilə bağlı normativ hüquqi aktların, dövlət proqramlarının və digər bu kimi sənədlərin layihələrinə dair təkliflər vermək;

**3.2.3.** təhlillər aparmaq, təkliflər, tövsiyələr, rəylər, arayışlar, analitik və digər yönümlü materiallar hazırlamaq, onları aidiyyəti üzrə təqdim etmək;

**3.2.4.** səlahiyyətlərinə aid olan məsələlərlə bağlı dövlət orqanlarına (qurumlarına), yerli özünüidarəetmə orqanlarına, fiziki və hüquqi şəxslərə zəruri məlumatlar (sənədlər) barədə yazılı və ya şifahi sorğu vermək və onlardan belə məlumatları (sənədləri) almaq;

**3.2.5.** müxtəlif görüşlər, iclaslar, müşavirələr və digər tədbirlər keçirmək;

**3.2.6.** qanunvericilikdə nəzərdə tutulan digər hüquqları həyata keçirmək.

### 4. Xüsusi nümayəndəliyin fəaliyyətinin təşkili

**4.1.** Xüsusi nümayəndəliyin strukturunu və ştat vahidlərinin sayını Azərbaycan Respublikasının Prezidenti müəyyən edir.

**4.2.** Xüsusi nümayəndəliyə Azərbaycan Respublikasının Prezidenti tərəfindən vəzifəyə təyin və vəzifədən azad edilən və birbaşa Azərbaycan Respublikasının Prezidentinə tabe olan Azərbaycan Respublikası Prezidentinin müvafiq ərazidə xüsusi nümayəndəsi (bundan sonra — xüsusi nümayəndə) rəhbərlik edir. Xüsusi nümayəndə xüsusi nümayəndəliyə həvalə edilmiş vəzifələrin yerinə yetirilməsi və hüquqların həyata keçirilməsi üçün şəxsən məsuliyyət daşıyır.

**4.3.** Xüsusi nümayəndənin Azərbaycan Respublikasının Prezidenti tərəfindən vəzifəyə təyin və vəzifədən azad edilən müavini ola bilər. Xüsusi nümayəndənin müavini xüsusi nümayəndənin ona həvalə etdiyi vəzifələri yerinə yetirir və buna görə şəxsən məsuliyyət daşıyır.

**4.4.** Xüsusi nümayəndə, onun müavini, xüsusi nümayəndəliyin əməkdaşları Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının əməkdaşlarıdır.

**4.5.** Xüsusi nümayəndəliyin əməkdaşlarının işə qəbulunu və işdən azad edilməsini, onlar barəsində həvəsləndirmə və intizam tədbirlərinin tətbiqini Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının rəhbəri həyata keçirir.